DÜNYAMALI VƏLİYEV



# AZƏRBAYCANIN QLOBAL İQTİSADİYYATA İNTEQRASİYASI

У9(2А)
V-56

VƏLİYEV DÜNYAMALI ƏMİR OĞLU

# AZƏRBAYCANIN QLOBAL İQTİSADİYYATA İNTEQRASİYASI

250393

"Adiloğlu" nəşriyyatı
Bakı 2008

Azərbaycan Universitetinin Elmi Şurasının 26 may 2008-ci il tarixli iclasının (protokol № 10 ) qərarı ilə çapa tövsiyə edilmişdir.

**Elmi redaktor:** **Asəf Nadirov,** *akademik*

**Rəyçilər:** **Səlahəddin Xəlilov,** *AMEA-nın müxbir üzvü*

**Akif Musayev,** *AMEA-nın müxbir üzvü*

**D. Vəliyev. AZƏRBAYCANIN QLOBAL İQTİSADİYYATA İNTEQRASİYASI.** Bakı, "Adiloğlu" nəşriyyatı, 2008. 428 səh.

*Monoqrafiyada faktiki materiallar əsasında Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası təhlil olunur. Ümummilli lider Heydər Əliyevin müstəqil dövlət quruculuğu və yeni iqtisadi sistemin təməlinin qoyulmasında, Azərbaycanın uzunmüddətli iqtisadi inkişaf strategiyasının müəyyən edilməsində misilsiz tarixi xidmətləri qeyd edilir.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin yeni dinamik inkişaf mərhələsinə daxil olması, qlobal üfüqlərə doğru inamla irəliləməsi elmi dəlillərlə əsaslandırılır.*

*Kitab qlobal iqtisadi proseslər və Azərbaycan iqtisadiyyatının həmin proseslərə qoşulması məsələləri ilə maraqlananlar üçün nəzərdə tutulmuşdur. Ali məktəblərdə "Azərbaycan iqtisadiyyatı", "Dünya iqtisadiyyatı", "Beynəlxalq iqtisadi münasibətlər" və "Qlobal iqtisadiyyatın əsasları" fənlərinin tədrisində dərs vəsaiti kimi də istifadə oluna bilər.*

V $\frac{4722110018}{121\text{-}2008}$ qrifli nəşr

© Vəliyev D., 2008

*Bizim coğrafi vəziyyətimiz, Avropa ilə Asiya arasında yerləşməyimiz, artıq güclü enerji və nəqliyyat infrastrukturuna malik olmağımız Azərbaycanı bu məsələlərlə bağlı əvəzolunmaz ölkəyə çevirir. . .*
*İndi bizim məqsədimiz inkişaf etmiş ölkəyə çevrilməkdir.*

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLIYEV**

## KİTABIN İÇİNDƏKİLƏR


*Ön söz (S. Xəlilov)*........ 7
*Giriş əvəzi*: **Reallaşan qlobal düşüncələr.** ........ 11

**Fəsil 1. QLOBAL MALİYYƏ-İQTİSADİ MÜHİTİN TRANSFORMASİYASI VƏ MİLLİ DÖVLƏTLƏRİN MƏNAFELƏRİ**.. 22
1. 1. Qlobal maliyyə-iqtisadi mühitin əsas xarakteristikası və inkişaf təmayülləri. ........ 22
1. 2. Qloballaşma şəraitində maddi mühitin və informasiya məkanının transformasiyası. ........ 28
1. 3. Qloballaşma dövründə maliyyə mühitinin transformasiyası ........ 31
1. 4. Əmək amilinin və əmək bazarının transformasiyası........ 50
1. 5. Milli dövlətlərin mənafeləri və qlobal mühitə inteqrasiyanın nəzəri əsasları ........ 57

**Fəsil 2. MİLLİ DÖVLƏTLƏRİN QLOBAL MALİYYƏ-İQTİSADİ MÜHİTƏ İNTEQRASİYASININ NƏZƏRİ VƏ PRAKTİKİ ƏSASLARI** ........ 66
2. 1 Qlobal əmək bölgüsü sisteminə inteqrasiyanın nəzəri əsasları. ........ 66
2. 2. Qloballaşma şəraitində innovasiyanın inkişafında dövlətin strateji rolu. 70
2. 3. Qloballaşma prosesində maliyyə və pul-kredit sahəsində dövlətin tənzimləyici rolu ........ 74
2. 4. Təsərrüfat subyektlərinin rəqabət qabiliyyətinin yüksəldilməsi üzrə qabaqcıl dünya dövlətlərinin təcrübəsi ........ 77
2. 5. Azərbaycanın qlobal maliyyə-iqtisadi mühitə inteqrasiyasının əsas istiqamətlərinin müəyyən edilməsində xarici təcrübənin rolu. ........ 82

**Fəsil 3. MÜSTƏQİL SOSİAL - İQTİSADİ İNKİŞAF YOLUNUN START ŞƏRTLƏRİ**........ 91
3. 1. Azərbaycanın müstəqillik əldə etdiyi dövrdə təbii və iqtisadi potensialının ümumi xarakteristikası ........ 91
3. 2. Müstəqil iqtisadi sistemin formalaşmasının mürəkkəb və ziddiyyətli ilkin mərhələsi........ 97
3. 3. Azərbaycanda siyasi-iqtisadi sabitliyin təmin olunması və müstəqil dövlətçiliyin təməlinin qoyulması – Heydər Əliyevin misilsiz tarixi xidmətidir . 104

**Fəsil 4. İQTİSADİ SİSTEMİN TRANSFORMASİYASI – HEYDƏR ƏLİYEV VƏ İLHAM ƏLİYEVİN İNKİŞAF STRATEGİYASININ APARICI XƏTTİDİR**........ 110
4.1. Mülkiyyət münasibətlərinin yenidənqurulması – iqtisadi islahatların aparıcı istiqamətidir ........ 110
4.2. Özəlləşdirmə və sahibkarlığın inkişafı ........ 112
4.3. Yeni cəmiyyət quruculuğunun möhkəm iqtisadi təməli – qlobal üfüqlərə aparan magistral xətdir ........ 119





4.4. Məqsədyönlü dövlət tənzimləmələri – İlham Əliyevin strateji kursunun əsasıdır ........ 125
4.5. Qlobal təsərrüfat sisteminə inteqrasiya prosesində investisiya siyasəti - dinamik iqtisadi inkişafın əsasıdır ........ 130

**Fəsil 5. QLOBALLAŞMA ŞƏRAİTİNDƏ İQTİSADİYYATIN DİNAMİK İNKİŞAFI VƏ SAHƏ STRUKTURUNUN TRANSFORMASİYASI** ........ 146
5.1. Milli iqtisadiyyatın sahə strukturunun transformasiyasının nəzəri əsasları. ........ 146
5.2. Yanacaq energetika sektoru və Azərbaycanın iqtisadi inkişafı ........ 154
5.3. Emaledici sənaye sahələrinin yenidən qurulması- müasir mərhələdə Azərbaycan dövlətinin iqtisadi siyasətinin aparıcı xətti kimi. ........ 163
5.4. Azərbaycanın kənd təsərrüfatının qlobal iqtisadi mühitə adaptasiyasının aktual problemləri. ........ 174

**Fəsil 6. AZƏRBAYCAN AVRASİYA MƏKANINDA MƏRKƏZİ NƏQLİYYAT DƏHLİZİNƏ ÇEVRİLİR** ........ 192
6.1. Böyük İpək Yolu Şərq və Qərbin dialektik vəhdətinin məntiqi nəticəsi kimi ........ 192
6.2. TRACECA proqramı və regionda nəqliyyat kompleksinin inkişaf perspektivləri ........ 201
6.3. Azərbaycanda nəqliyyat kompleksinin inkişafı ........ 210

**Fəsil 7. QLOBALLAŞMA PROSESİNDƏ AZƏRBAYCANIN XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNDƏ ARTAN DİNAMİZM**........ 229
7.1. Müasir iqtisadiyyatda xarici ticarətin rolu: nəzəri baxışların təkamülü. ........ 229
7.2. Qloballaşma şəraitində Azərbaycanın xarici iqtisadi əlaqələrinin tənzimlənməsi problemləri. ........ 237
7.3. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda xarici ticarətin liberallaşdırılması və tənzimlənməsi istiqamətləri. ........ 247
7.4. Azərbaycanda müstəqillik illərində xarici ticarətin həcmi, əmtəə və coğrafi strukturunun dinamikası və inkişaf təmayülləri. ........ 253

**Fəsil 8. İQTİSADİ İNKİŞAFDA MALİYYƏ SEKTORUNUN ROLUNUN NƏZƏRİ VƏ PRAKTİKİ ƏSASLARI**........ 263
8.1. Monetar siyasətin sosial - iqtisadi inkişafda rolu: nəzəri baxış ........ 263
8.2. Monetar siyasət dünya dövlətlərinin təcrübəsində ........ 266
8.3. Valyuta tənzimlənməsi sahəsində müasir dünya praktikası ........ 269
8.4. Keçid iqtisadiyyatı şəraitində valyuta siyasətinin formalaşması və inkişafı problemləri ........ 276
8.5. Valyuta dönərliliyinə keçid şərtləri ........ 283
8.6. Xarici iqtisadi tarazlığın təmin edilməsinin nəzəri əsasları ........ 290

**Fəsil 9. AZƏRBAYCANDA MALİYYƏ SEKTORUNUN İNKİŞAF PROBLEMLƏRİ** ........ 295
9. 1. Azərbaycan Respublikasında pul - kredit siyasətinin əsas istiqamətləri ........ 295
9. 2. Azərbaycanın maliyyə bazarının durumu və inkişaf perspektivləri ... 298
9. 3. Bank sektorunun formalaşması və inkişafı ........ 306
9. 4. Büdcə quruculuğu və iqtisadi inkişafda onun rolu ........ 317
9. 5. Sığorta bazarı ........ 320
9.6. Azərbaycanın müasir beynəlxalq maliyyə mühitə inteqrasiyasının perspektiv istiqamətləri ........ 323

**Fəsil 10. AZƏRBAYCANIN QLOBAL PROSSESLƏRƏ QOŞULMASININ MALİYYƏ VƏ VALYUTA ASPEKTLƏRİ** ........ 329
10. 1. Müasir inflyasiyanın daxili xə xarici amillərinin nisbəti ........ 329
102. Xarici investisiya sahəsində dövlət siyasəti ........ 339
10. 3. Beynəlxalq kredit və Azərbaycanda xarici borc problemləri ........ 346
10. 4. Azərbaycan Respublikasının tədiyə balansının aktual problemləri.. 351
10. 5 Xarici iqtisadi fəaliyyətdən əldə edilən gəlirlərin Azərbaycana qaytarılması və vergiyə cəlb edilməsi xüsusiyyətləri ........ 357

**Fəsil 11. QLOBALLAŞMA DÖVRÜNDƏ MİLLİ TƏHLÜKƏSIZLİYİN VƏ MİLLİ MƏNAFENİN QORUNMASI** ........ 366
11. 1. Azərbaycan respublikasının milli maraqları və qloballaşma prosesində onun təmin olunması problemləri (nəzəri baxış) ........ 366
11. 2. Azərbaycanın iqtisadi müstəqilliyinin reallaşdırılması İlham Əliyev siyasətinin tarixi nailiyyətidir ........ 372
11. 3. Beynəlxalq maliyyə-iqtisadi təşkilatları ilə əlaqələrin milli dövlətlər tərəfindən təşkili problemləri ........ 379
11. 4. Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabətqabiliyyətinin artırılması – qlobal iqtisadiyyata inteqrasiyanın aparıcı xətti kimi. ........ 386

Nəticə ........ 394
Əlavələr ........ 395
Ədəbiyyat ........ 410



# Ön söz

Qloballaşma və inteqrasiya şəraitində Azərbaycanın yeritdiyi iqtisadi siyasət keçid dövrünü yenicə başa vuran müstəqil dövlətin qabaqcıl dünya ölkələri sırasına çıxmasına xidmət edir. Bu məqsədlə həyata keçirilməli olan bütün tədbirlər nəzərə alınmış, yaxın və uzaq gələcək üçün hesablanmış fəaliyyət proqramları işlənib-hazırlanmışdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə müvəffəqiyyətlə reallaşdırılan bu proqramlar Azərbaycanın istər qonşu dövlətlərlə, istərsə də qabaqcıl Avropa dövlətləri və ABŞ-la iqtisadi əlaqələrini əhatə edir. İlk növbədə ölkəmizin milli maraqlarını rəhbər tutan geniş miqyaslı fəaliyyət proqramı Azərbaycan təsərrüfat sisteminin özəlliklərini nəzərə almaqla bərabər, onun dünya iqtisadiyyatına inteqrasiya olunması üçün də lazım olan bütün parametrləri ehtiva edir.

İndi Azərbaycanda hər bir iqtisadi nailiyyətin bir konkret məqsədi vardır ki, bu da xalqa xidmətdən, onun maraqlarının qorunmasından ibarətdir. Regionların Sosial-iqtisadi inkişafı Dövlət Proqramının ikinci ilinə həsr olunmuş konfransda İlham Əliyev demişdir:"Bütün bu planların təməlində bir məqsəd dayanır: ölkəmiz daha da möhkəmlənsin, daha da zənginləşsin, Azərbaycan hərtərəfli inkişaf etsin, Azərbaycan xalqı daha da yaxşı yaşasın, daha da yaxşı maaş alsın, pensiya alsın və Azərbaycan bölgədə öz mövqelərini daha da möhkəmləndirsin". Əlamətdar haldır ki, Azərbaycanda qeyri-neft sektorunun inkişafı heç də təkcə kənd təsərrüfatı məhsullarının istehsalı və yüngül sənayenin hesabına deyil, xeyli dərəcədə müasir informasiya texnologiyalarının tətbiqi sahəsində həyata keçirilir. Son illərdə elm, təhsil və təsərrüfat sahələrinin kompüterləşməsi, yeni kommunikasiya sistemlərinə keçid, rabitə və informasiya texnologiyalarının modernləşməsi sahəsində böyük uğurlar əldə edilmişdir. Bütün bunlar Azərbaycanın heç də yalnız öz təbii sərvətlərinə yönəldilmiş passiv iqtisadi siyasət apardığını, əksinə elm tutumlu sahələrin inkişafına üstünlük verdiyini göstərir.

Prezident İlham Əliyevin mövqeyi sadəcə vədlər vermək deyil, real iş görmək mövqeyidir. O, ancaq doğrudan da həyata keçirilməsini planlaşdırdığı, elmi və praktik cəhətdən real olan fəaliyyət proqramı ortaya qoydu ki, bu da əhalidə ona olan inamı daha da gücləndirdi. İctimai şüur səviyyəsinin 90-cı illərin əvvəllərinə nisbətən xeyli yüksəlməsi, bir daha boş vədlərlə spekulyasiyanın baş tutmasına imkan vermədi. Azərbaycan xalqının milli mentaliteti elədir ki, onu halal zəhməti ilə pul qazanmaq imkanı daha çox cəlb edir. Bu baxımdan, ötən prezident seçkiləri zamanı İlham Əliyevin yeni müəssisələr tikilməsi, xarici investisiyanın daha geniş miqyasda cəlb olunması və 600 min iş yeri açılması haqqında verdiyi söz əhalidə böyük razılıq hissi ilə qarşılandı. Ötən müddət bu deyilənlərin sadəcə vəd deyil, real fəaliyyət proqramı olmasını təsdiq etdi. Qısa bir vaxtda nəzərdə tutulduğundan da çox iş yerinin açılması yeni rəhbərliyin ən böyük uğurlarından biridir və həm də uğurlar təkcə vədlərin icrası ilə məhdudlaşmır. Sosial-iqtisadi inkişaf strategiyası, sahibkarlığın inkişafı, regionlarda yeni infrastruktur layihələrinin həyata keçirilməsi, təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi, məktəblərin kompüterləşdirilməsi ilə bağlı addımlar bu sırada xüsusi qeyd edilməlidir.

Qloballaşma şəraitində milli özünəməxsusluğun qorunub saxlanması, habelə, milli mənəvi dəyərlərə sədaqətlə yanaşı, ümumbəşəri dəyərlərin, azad iqtisadi münasibətlər sisteminin, beynəlxalq hüquq normalarının və s. inkişaf etdirilməsi -

bütün bunlar Azərbaycanın ictimai- siyasi simasını, onun özünəməxsus beynəlxalq imicini formalaşdırmışdır.

Keçmişdə hər hansı bir dövlət öz siyasi iradəsini başqa ərazilərdə də tətbiq etmək üçün mütləq müharibə yolu ilə həmin əraziləri işğal etməli idi. Təsadüfi deyildir ki, ənənəvi təsəvvürlərə görə dövlətin əsas atributlarından biri də suverenlik, sərhəd və ordu hesab olunur.

Müəyyən bir ərazidə müəyyən hüquq normalarını tətbiq etmək, sosial-iqtisadi həyatı müəyyən normalarla tənzim etmək üçün, ilk növədə, sərhəd toxunulmazlığı təmin olunmalıdır. Lakin zaman keçdikcə sərhəd öz mənasını dəyişir.

Sərhəddin qorunması müasir anlamda heç də o demək deyildir ki, buradan bir quş da keçə bilməz. Əksinə, müasir dövrdə gediş-gəliş xeyli artmışdır. Böyük şəhərlərdə bəzən xaricilər yerli vətəndaşlardan daha çox gözə dəyirlər. Əsas məsələ odur ki, həmin ölkədəki qanunlara, hüquq normalarına əməl olunsun.

Sərhəddi toxunulmaz qalan və formal müstəqilliyi olan elə ölkələr vardır ki, burada hər şey xarici investisiya ilə, xarici ölkə şirkətlərinin sifarişi ilə, yabançı mədəniyyətin təsir dairəsinin genişlənməsi ilə müşayiət olunur.

XX əsrin sonlarından başlayaraq hadisələrin inkişafı vahid iqtisadi münasibətlərin, vahid ümumdünya bazarının yaradılması istiqamətində gedir. Düzdür, inkişaf etmiş ölkələr öz üstün mövqelərinə istinad edərək özlərinin daxil olduqları ümumi iqtisadi məkanın (məsələn, Avropa Birliyi) qapılarını nisbətən aşağı səviyyədə olan ölkələr üçün taybatay açmır və bu da təbiidir.

Nə qədər ümumbəşəri mənafedən, vahid sosial ideallardan söhbət getsə də, hələ milli-dövlət mənafeləri saxlanılır və yalnız eyni tərtibli ölkələrin inteqrasiyasından söhbət gedə bilər. Və bu inteqrasiyaya qoşulmaq üçün əvvəlcə həmin ölkələrin keçmiş olduğu inkişaf mərhələlərini keçmək, onların çıxdığı sınaqlardan çıxmaq lazımdır.

İstəsək də, istəməsək də müasir sivilizasiyaya qovuşmaq üçün inkişaf etmiş Qərb ölkələrinin keçdiyi yolu biz də keçməli olacağıq. Lakin bizim əlimizdə bu ölkələrin keçdiyi yolların xəritəsi var və biz tarixin ibrət dərslərini nəzərə alsaq, ilk yol açanların bütün səhvlərini təkrar etmərik. Bunun üçün, əlbəttə, tarixi də, iqtisadiyyatı da, müasir dünyanın inkişaf meyllərini də gözəl bilmək tələb olunur. Belə çətin bir zamanda həm dünya iqtisadiyyatına inteqrasiya olunmaq üçün düzgün inkişaf strategiyası seçmək, həm də milli-mənəvi dəyərləri qoruyub saxlamaq yaxşı ölçülüb-biçilmiş mükəmməl siyasi plan tələb edir.

Vahid dünya bazarının olması, açıq iqtisadi siyasət ilk baxışda daha çox geri qalmış ölkələr üçün zəruri görünsə də, əslində inkişaf etmiş ölkələrin buna daha böyük ehtiyacı vardır. Daha doğrusu, ictimai, elmi-texniki inkişaf prosesinin özünün buna ehtiyacı vardır. Belə ki, külli miqdarda investisiya hesabına artıq kütləvi istehsalda qərarlaşmış texniki və texnoloji sistemlərin tez-tez dəyişdirilməsi sahibkarlara böyük ziyan verə bildiyindən kapital dünyası intensiv elmi-texniki tərəqqinin, texnologiyaların tez-tez modernləşdirilməsinin əleyhinə çıxa bilərdi. Cari iqtisadi mənafe ilə perspektiv texniki tərəqqi arasındakı ziddiyyət ümumən ictimai inkişaf üçün əngəl törədə bilərdi.

Lakin geri qalmış ölkələrin qapılarının açıq olması nisbətən köhnəlmiş texnikanı həmin bazarlarda xırıd etməyə və öz ölkələrində ən müasir texnoloji sistemləri tətbiq etməyə imkan yaradır.

Buna görə də inkişaf etmiş ölkə heç vaxt bütün ölkələrin texniki inkişaf



səviyyələrinin bərabərləşməsinin tərəfdarı ola bilməz. Ən qabaqcıl ölkələrin özündən bir az geri qalan ölkələrə, onların da öz növbəsində daha çox geri qalan ölkələrə ehtiyacı vardır.

Daha yüksək elm tutumu olan müasir texnika icad olunduqdan sonra istifadədən çıxarılan texnika "mənəvi cəhətdən köhnəlmiş texnika" (yəni özü təzə olsa da əsasında dayanan ideya köhnəlibdir) sayılır və onlar nisbətən aşağı (çox aşağı səviyyəli ölkə qabaqcıl ölkənin hətta artıq istifadədən çıxardığı texnika üçün də yetişməmiş olur) səviyyəli ölkələrə ixrac olunur.

Bu iyerarxiya - ölkələrin çoxpilləli düzülüşü hərbi texnika timsalında özünü daha qabarıq göstərir. Əvvəla, elmi-texniki potensialın daha çox dərəcədə hərbi-sənaye kompleksində cəmlənməsi bütövlükdə cəmiyyətin tərəqqisinə xidmət etməlidir. İşdə isə məhz hərbi sənaye elmi-texniki inkişafın əsas tətbiq sahəsinə çevrilir. Çox vaxt beynəlxalq siyasət də bu iqtisadi mənafeyə tabe etdirilir. Böyük dövlətlərin (məs., ABŞ və Rusiya) öz aralarındakı rəqabət hərbi texnikanın daim təkmilləşdirilməsini tələb etdiyindən "mənəvi cəhətdən köhnəlmiş" hərbi texnikanın satılması üçün bazara həmişə ehtiyac olur. Ona görə də qabaqcıl dövlətlərin və böyük hərbi sənaye şirkətlərinin mənafeyi nisbətən geri qalmış ölkələrdə müharibə və münaqişə şəraitinin olmasını tələb edir.

XX əsrin son rübündə kompüterləşmənin sürətli inkişafı, iqtisadiyyatın və ictimai həyatın bütün sahələrinə nüfuz etməsi, xüsusən internet şəbəkəsinin geniş yayılması qloballaşma üçün texnoloji bazis hazırlamışdır. Bu sahədə yüksək texniki inkişaf səviyyəsində olan dövlətlər öz yüksək ixtisaslı mütəxəssislərinin köməyi ilə dünyada gedən proseslərə daha operativ və effektli təsir etmək imkanı qazandılar.

İndi elektron poçtu və internet nəinki kommunikasiyanın ən səmərəli və sürətli vasitələrinə çevrilmişdir, nəinki beynəlxalq iqtisadi əlaqələrin gediş-gəlişsiz qat-qat operativ olan üsullarını yaratmışdır, həm də millətlərin mədəni-mənəvi inkişaf istiqamətlərinə təsir göstərmək imkanına malikdir. Bu sonuncu amil, yəni internetin maarifləndirmək funksiyası ilə yanaşı, ideoloji, mədəni-mənəvi təsir funksiyası qloballaşma prosesində çox önəmli yer tutur.

Müasir dövrdə ən aktual problemlərdən biri milli özünütəsdiq və qloballaşma arasındakı optimal nisbətin tapılmasıdır. Qloballaşma prosesi elm, texnika, texnologiya ilə - ümumbəşəri dəyərlərlə yanaşı, milli kimliyi müəyyən edən mədəni-mənəvi amillərə də sirayət etməyə cəhd göstərir. İstər düşünülmüş şəkildə, istərsə də qərəzsiz olaraq - fərqi yoxdur. Belə bir şəraitdə, ilk növbədə, nələri qorumaq lazım olduğunu, məhz hansı məsələlərdə məqsədyönlü sürətdə ənənəçi, konservator olmağın labüdlüyünü məhz ziyalılar müəyyənləşdirməlidir.

Bizcə, ilk növbədə, meyarlar müəyyənləşməlidir. İdeal halda biz özümüzü necə təsəvvür edirik və ya bizim milli-mənəvi idealımız nədən ibarətdir? İndi biz hansı real durumdayıq və daşıdığımız hansı keyfiyyətləri məhz milli səciyyə kimi qiymətləndirmək olar? Keçmişə də məhz bu real durum və ideal prizmasından, onun əsasında formalaşan meyarlardan çıxış edərək yanaşmaq lazımdır. "Soykökə qayıdış" çağırışında qorxulu olan məqam bundan ibarətdir ki, biz keçmişimizdə olan istənilən keyfiyyəti milli invariant kimi və pozitiv cəhət kimi qəbul edə bilmərik. Həqiqi milli keyfiyyətlər milləti yaşadan, onu inkişaf etdirən keyfiyyətlərdir. Bu baxımdan, keçmişimizdən qalan, lakin tərəqqiyə deyil, tənəzzülə xidmət edən cəhətləri yaşatmaqdansa, onlardan xilas olmaq yolu tutulmalıdır.

Qloballaşma ilə öz inkişafının erkən mərhələsində üzləşməli olan, müasir cəmiyyətə hələ keçid mərhələsində olan ölkələrdə bu keçidin ideologiyası yerli mütəxəssislərin, filosofların iştirakı ilə hazırlanmalıdır.

Bəzən Qərb siyasətçiləri keçid dövründə olan ölkələrin spesifik xüsusiyyətlərini nəzərə almır və bu ölkələri Qərb standartlarına uyğunlaşdırmaq siyasəti yürüdürlər. Nəticədə ideologiyasızlaşdırma tərəfdarı olan Qərb dövlətləri ola bilsin ki, özləri də bilmədən bizə yeni ideologiya təlqin etmiş olurlar və ya bunun fərqinə varmırlar. Belə ki, inkişaf etmiş Qərb ölkələrində formalaşmış siyasi və hüquqi meyarlar və dəyərlər sistemi həmin ölkələrdə mövcud ictimai reallığın ifadəsi olduğu halda bizə təlqin olunarkən məhz yeni ideologiya rolunu oynayır. Həm də heç olmasa nəzəri səviyyədə dərk olunmamış, artıq konkret tətbiqi formalara salınmış bir şəkildə.

Bu baxımdan, qlobalizasiya deyilən proses, əslində, həm də Qərb standartlarının ideologiyaya çevrilməsi prosesidir. Qərbdə cəmiyyətin real durumuna və insanların şüur səviyyəsinə uyğun gələn hüquqi sistemlər hələ bu səviyyəyə çatmamış ölkələr üçün cəmiyyətin ondan kənarda formalaşmış modellərə uyğunlaşdırılması, yeni qəliblərə salınması prosesindən başqa bir şey deyildir.

İndi Azərbaycanda nə kimi proseslər gedir? Qərbin təklif etdiyi hüquq sistemi və ictimai-siyasi dəyərlər sistemi bizim üçün ideologiyaya çevrilirmi? Əgər bu beledirsə, Qərbin siyasi-hüquqi sisteminin əsasında duran sosial-siyasi təlimlər Azərbaycanda nə dərəcədə yayılır və nə dərəcədə kütləvi şüura nüfuz edir? Əgər bu belə deyilsə, onda müstəqil sürətdə formalaşan milli ideologiya və onun tərkib hissəsi olan milli dövlətçilik konsepsiyası ilə Qərb hüquq sistemi arasında bir ziddiyyət yaranmırmı? Və yeni ölkəyə transfer edildikdə bu ziddiyyət daha qabarıq şəkildə üzə çıxırmı?

Daxili inkişaf meyilləri və xarici təsirlər arasında belə mürəkkəb münasibətlərin olması Azərbaycanın dövlətçilik siyasətində nə dərəcədə nəzərə alınır? Əlbəttə, bu problem bütün MDB ölkələrinə və qismən Şərqi Avropa ölkələrinə də aiddir. Lakin təəssüf ki, bu sahədə elmi-nəzəri tədqiqatlar təkcə Azərbaycanda deyil, bütün keçmiş SSRİ məkanında yox dərəcəsindədir. Halbuki, məqsəd prosesləri kortəbii axarına buraxmamaq, onların elmi əsaslarla, daha optimal şəkildə həyata keçməsinə nail olmaqdır. Qloballaşmanın optimallığı üçün əsas meyar inteqrativ proseslərin təkcə bir neçə böyük dövlətin deyil, bütün dövlətlərin milli maraqlarına xidmət etmək, hamı üçün faydalı ola bilmək şərtinin təmin olunmasıdır.

İlham Əliyevin prezidentliyi dövründə cəmi beş il müddətində qazanılan iqtisadi uğurlarla yanaşı, ölkəmizdə və dünyada gedən iqtisadi inteqrasiya proseslərinin öyrənilməsi sahəsində də müəyyən işlər görülmüşdür. Oxucuların diqqətinə çatdırılan bu kitab da bu sahədə aparılan məqsədyönlü tədqiqatların nəticəsidir. Müəllif bu əsərində prezident İlham Əliyevin iqtisadi quruculuq sahəsindəki fəaliyyətini ümumiləşdirməklə yanaşı, Azərbaycanın beynəlxalq iqtisadi məkana daxil olması ilə bağlı problem və perspektivləri də hərtərəfli sürətdə işıqlandırmışdır ki, bu da gələcək iqtisadi inkişaf yolunun elmi proqnozlaşdırılmasına xidmət edir.

**Səlahəddin XƏLİLOV,**
*AMEA-nın müxbir üzvü, professor*



## *Giriş əvəzi:*

# REALLAŞAN QLOBAL DÜŞÜNCƏLƏR

> *Görülən bütün işlər, bir daha demək istəyirəm ki, bir məqsədə yönəldilibdir - Azərbaycan bölgədə və dünyada öz mövqelərini möhkəmləndirsin, Azərbaycanda siyasi islahatlar daha da sürətlə getsin, Azərbaycanda bütün kriteriyalar istər siyasi həyatda, istərsə də iqtisadi, sosial həyatda bütün kriteriyalar dünyanın aparıcı ölkələrinin kriteriyalarına yaxınlaşsın. Bunu etmək üçün bizim həm niyyətimiz var, həm də proqramlarımız var.*
>
> *Beynəlxalq təşkilatlarla müxtəlif proqramlar var və biz bunları uğurla icra edirik.*
>
> **İlham ƏLİYEV**
> ***Azərbaycan Respublikasının Prezidenti***

**XXI** əsr tarixə sivilizasiyanı keyfiyyətcə yeni bir mərhələyə yüksəldən qloballaşma əsri kimi daxil olmuşdur. Qlobal proseslər inkişaf səviyyələrində, din və mədəniyyətlərində, tarixi ənənələrində mövcud olan fərqlərə baxmarayaq, dünya ölkələrinin və xalqlarının bir-birindən qarşılıqlı asılılığını getdikcə artırır. Bu proseslər xalqların və bütövlükdə sivilizasiyanın taleyini həlledici dərəcədə müəyyən etməyə başlamışdır.

Akademik Ramiz Mehdiyevin "Azərbaycan: qloballaşma dövrünün tələbləri" adlı fundamental əsərində qeyd etdiyi kimi: "Yeni yüzilliyin qısa başlanğıc dövründə dünyada elə heyrətamiz dəyişikliklər baş vermişdir ki, onların geniş miqyası təkcə iqtisadi və siyasi sahələri deyil, həm də insanın təkrar istehsalının, təhsil və təfəkkür sistemlərinin fundamental əsaslarını əhatə etmişdir. Artıq çoxları dərk etmişdir ki, yeni dövr, beynəlsivilizasiya inkişaf erası başlanmışdır". [76, s. 11]

İqtisadi, siyasi və mədəni-mənəvi proseslərdə özünü göstərən dərin qloballaşma təmayülü iqtisadi qloballaşmada daha böyük sıçrayışla gedir və digər prosesləri də öz arxasınca aparır. Təsadüfi deyildir ki, artıq siyasət getdikcə daha çox iqtisadiləşmişdir. İqtisadi qloballaşma isə iqtisadiyyatın yalnız beynəlmiləlləşməsi demək deyildir, həmin prosesin yeni və yüksək mərhələsidir.

Keçid iqtisadiyyatı ölkələri müstəqillik uğrunda mübarizəni iki mühüm prosesin: iqtisadi transformasiya və qloballaşma proseslərinin təsiri altında aparırlar. İqtisadi transformasiya prosesləri artıq başa çatmaq üzrə olduğu halda, qloballaşma onların iqtisadiyyatına və iqtisadi siyasətinə getdikcə daha çox təsir göstərir.

Ona görə də ictimai inkişafın müasir təmayülləri ictimai-iqtisadi inkişaf problemlərinə getdikcə daha çox qlobal yanaşma tərzini tələb edir. Hər hansı bir

ölkədə gedən daxili proseslər özünün məzmunu və forması baxımından çoxsaylı səciyyəvi cəhətlərinə baxmayaraq, təcrid olunmuş şəkildə cərəyan etmir. Qloballaşmanın planetar mahiyyət kəsb etdiyi və dönməz xarakter aldığı bir dövrdə həmin proseslər insan cəmiyyətinin müasir tarixi inkişafı gedişinin aparıcı istiqamətini təşkil edir. Ona görə də həyat bütün kəskinliyi ilə tələb edir ki, ölkənin spesifik xüsusiyyətləri qloballaşmanın doğurduğu yeni şəraitlə sıx sürətdə əlaqələndirilsin. Müasir iqtisadi, sosial və siyasi problemlərə qlobal yanaşma tərzinin üstünlüyü onda deyil ki, belə yanaşma tərzi bütün qoyulan suallara dərhal düzgün cavab verməyə çalışır, həm də ondadır ki, bu sualları düzgün qoymağa imkan verir.

Beləliklə, hər hansı bir ölkədə konkret iqtisadi və sosial transformasiyaların konkret bir ərazidə daxili sosial-iqtisadi qüvvələrin və proseslərin təsiri altında baş verdiyinə baxmayaraq, həmin transformasiyaları doğuran səbəblərə, onların mahiyyəti və inkişaf perspektivlərinə, milli və dünya problemlərinin çulğaşdığı müasir dövrdə, yalnız həmin ölkənin daxili prizmasından baxılması kifayət deyil və yanlış nəticələrə gətirib çıxara bilər.

İstehsal və mübadilənin müasir xarakteri, miqyası və onların nəticələrinin ölkələrarası bölgüsü tələb edir ki, ayrıca götürülmüş hər bir ölkədə geniş təkrar istehsalının zəruri və ilkin şərtlərinin həmin ölkənin beynəlxalq maliyyə-iqtisadi mühitdə iştirakı, həmin mühitə uyğunlaşma mövqeyindən nəzərdən keçirilsin. Müasir ümumdünya təsərrüfatı vahid istehsal sferası kimi, yalnız bu və ya digər təsərrüfat sahəsinin iqtisadi səmərəliliyi hesablanarkən nəzərə alınmır, həmçinin ümumbəşəri xarakter almış ərzaq, xammal, enerji, demoqrafiya, ekologiya və s. kimi ciddi problemlərin həll edilməsi məqsədilə də daim diqqət mərkəzindədir.

Müstəqillik əldə etmiş ölkələrin siyasi, sosial-iqtisadi və mədəni-mənəvi inkişaf problemləri xarici iqtisadi əlaqələri, onların dünya bazarı ilə inteqrasiyası ilə iqtisadi inkişaf mexanizmi arasındakı qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq qloballaşma dövründə xüsusi aktuallıq kəsb etmişdir.

Qloballaşmanın və meqacəmiyyətin yaranması cəmiyyətin uzun tarixi dövr ərzində modernləşmə prosesinin məhsulu və məntiqi nəticəsidir. Qloballaşma eyni zamanda bəşəriyyətdə mövcud olan ən perspektivli modernləşmə təmayüllərini seçib təşviq edir. Akademik Ramiz Mehdiyevin səlis ifadəsilə desək: "Hazırda sosiomədəni transformasiyanı milli tranzitin iki aspekti - iqtisadi və siyasi modernləşmə təşkil edir". [77]

Başlıca məzmununu qloballaşma təşkil edən postsənaye cəmiyyətinin əsas əlamətləri aşağıdakılar hesab edilir: 1) istehsal və istehlakın strukturunun dəyişməsi (xidmət sahəsinin rolunun artması); 2) təhsilin səviyyəsinin yüksəlməsi; 3) əməyə yaradıcı münasibətin aparıcı amilə çevrilməsi; 4) ətraf mühitə yüksək diqqət verilməsi; 5) iqtisadiyyatın humanistləşməsi (sosial yönümlülüyünün artması); 6) cəmiyyətin informasiya cəmiyyətinə çevrilməsi; 7) kiçik biznesin renessansı. Bu o deməkdir ki, əvvəlki biliklərin qısa bir zamanda köhnəlməsi və yenilərinin sürətlə yayılması və təbəqələşmə nəticəsində əhalinin bir qrupunun gəlirlərinin sürətlə artması buraxılan məhsulların da sürətlə yenilənməsini, bir-birini əvəz etməsini tələb edir. İri şirkətlərə nisbətən kiçik biznes bu baxımdan çox çevikdir və istehsalın profilini qısa müddət ərzində dəyişə bilir. Məhz buna görədir



ki, inkişaf etmiş sənaye ölkələrində DMM-in yarısından çoxu kiçik biznesin payına düşür.

Bu ölkələrdə iqtisadiyyatın modernləşdirilməsi vəzifələrindən biri - sovet dövründə uzun müddət qapalı şəraitdə mövcud olmuş təsərrüfatın texnoloji və struktur cəhətdən yenidən qurulmasıdır. Bu proses isə iqtisadiyyatın o sahələrinin üstün inkişafını nəzərdə tutur ki, həmin sahələr öz məhsullarını daxili və xarici bazarlarda müvəffəqiyyətlə sata bilirlər. Beynəlxalq əmtəə, maliyyə və işçi qüvvəsi axınlarının şərtlərini müəyyən edən qlobal maliyyə-iqtisadi mühitə inteqrasiya imkan verir ki, qüvvələr istehsalın uduşlu sahələrinə yönəldilsin, zəif iqtisadi səmərə verən məhsul istehsalından imtina edilsin və investisiyanın strukturunu dəyişdirməklə səmərəli inkişaf modeli seçilsin. Ölkənin seçdiyi yol beynəlxalq əmək bölgüsünün üstünlükləri ilə uzlaşdırılmadıqda isə həmin ölkədə istehsal özünün aşağı səmərəliliyi və zəif inkişaf sürəti ilə xarakterizə edilir.

Ölkənin beynəlxalq əmək bölgüsündə iştirakı vəziyyətinin adətən ən gözəçarpan göstəricisi xarici ticarətdir. Azərbaycan kimi müstəqillik əldə etmiş ölkələrin xarici ticarətinin səmərəliliyinin (onların ixrac etdikləri məhsulların istehsalı və satışı xərclərinin əldə edilən valyuta gəlirlərinə nisbəti) təhlili göstərir ki, həmin əməliyyatlar belə ölkələr üçün əhəmiyyətli dərəcədə sərfəlidir. Bu onunla əlaqədardır ki, onlar öz məhsullarını dünya bazarlarında beynəlmiləl dəyərlər əsasında formalaşan qiymətlərlə reallaşdırırlar. Bu dəyərlər isə adətən həmin ölkələrin milli dəyərlərindən aşağı olur. Lakin bu ölkələr xaricdən aldığı məhsulları da milli dəyərlərdən aşağı olan beynəlmiləl dəyərlər əsasında formalaşan qiymətlərlə əldə edirlər. Dünya qiymətlərinin səviyyəsi bu ölkələrin ixracatında, xüsusən bu ixracatda xammal üstünlük təşkil etdiyi hallarda səmərəliliyi təmin etməyə bilir. Bununla yanaşı, həmin ölkələr əgər texnologiyanı özləri istehsal etsəydilər, bu onlar üçün çox baha başa gələrdi. Ona görə də, həmin ölkələr istehsalın yeni texnika, texnologiya və informasiya vasitələri ilə yeniləşdirilməsi üçün xaricdən onları sərfəli qiymətlərlə idxal edirlər. Bu isə inkişaf üçün böyük perspektivlər açır.

Əsrin son onilliyində SSRİ-nin dağılması ilə dünyanın yeni siyasi xəritəsində özünə layiqli yer tutmuş müstəqil Azərbaycan dünya birliyinin bərabərhüquqlu üzvü olmuşdur. Kəskin mübarizə şəraitində əldə edilmiş siyasi müstəqillik ölkənin sovet dövründə 70 il ərzində yığılıb qalmış ciddi siyasi, iqtisadi və sosial problemlərinin həlli yolunda geniş perspektivlər açmışdır. Sovet «dəmir pərdələri» ilə uzun illər boyu dünya birliyindən siyasi və iqtisadi cəhətdən təcrid olunmuş Azərbaycanda açıq cəmiyyət yaradılması, dünya dövlətləri ilə bərabərhüquqlu hərtərəfli əlaqələrin inkişaf etdirilməsi ölkəmizdə mövcud olan sosial-iqtisadi problemlərin həlli yolunda, sözün əsl mənasında, açar rolunu oynayır. Özünün üçrəngli bayrağında əksini tapmış müasirləşmə ideyası və istəyi, bir ideya və istək kimi qalmayıb, həm də gələcəyə doğru böyük bir hərəkatın rəmzidir. Azərbaycan cəmiyyətinin mühüm fərqləndirici xüsusiyyətlərindən biridir. Bu hərəkat Azərbaycanın ictimai inkişafının bütün istiqamətlərində (siyasi, iqtisadi, mənəvi) bariz şəkildə görünməkdədir. Ümumdünya İqtisadi Forumunun 1995-ci ildə Londonda (29-30 noyabr) təşkil etdiyi «Azərbaycan investisiya imkanları» adlı Beynəlxalq Sərgi və Konfransda Ümummilli lider H. Əliyev qeyd etmişdir: «Bizim

strateji kursumuz dünya iqtisadi birliyi ilə sıx inteqrasiya edən, bazar iqtisadiyyatına əsaslanan, müstəqil, demokratik hüquqi dövlət qurmaqdır. Buna uyğun olaraq biz artıq konkret nəticələr vermiş olan genişmiqyaslı siyasi və iqtisadi islahatlar həyata keçiririk». [17, s. 34]

Azərbaycan bir çox həyati əhəmiyyət kəsb edən siyasi və iqtisadi məsələlər baxımından dünyanın yaxın və uzaq, böyük və kiçik dövlətlərinin, beynəlxalq və regional təşkilatların diqqətini özünə cəlb edən təbii bir məkandır. İki qitənin qovşağında və mühüm strateji əhəmiyyətli ərazidə yerləşən respublikamızda dünyanın nəhəng dövlətlərinin mənafeləri toqquşur, onlar arasında nüfuz dairəsi uğrunda dərin rəqabət mübarizəsi gedir. Belə bir şəraitdə siyasi istiqlaliyyət əldə edilməsi, inzibati-amirlik sistemindən bazar iqtisadiyyatı sisteminə keçilməsi uzun müddət xarici aləmlə mövcud olmuş köhnə əlaqələr sisteminə yenidən baxılması və bərabərhüquqlu, qarşılıqlı faydalı münasibətlərin yaradılması üçün mühüm zəmin təşkil etdi. Kommunist imperiyasının süqutu böyük bir ərazidə geosiyasi vəziyyəti kökündən dəyişdirərək, Azərbaycanın beynəlxalq aləmdə müstəqil subyekt kimi yer tutması, qloballaşma şəraitində xarici əlaqələrinin səmərəliliyinin artırılması və intensivləşdirilməsi, beynəlxalq əmək bölgüsünün üstünlüklərindən respublikanın mənafeyinə uyğun olaraq istifadə edilməsi üçün geniş perspektivlər açdı.

İqtisadi və ictimai həyatın beynəlmiləlləşməsi, Azərbaycanın ağır şərtlər altında gedən müasir dünya ilə inteqrasiyasının bütün istiqamətləri yeni imkanlar yaratmaqla yanaşı, yeni problemlər, bəzən də təhlükələr yaratmaqdadır. Bu imkanlardan səmərəli istifadə edilməsi, mövcud problem və təhlükələrin vaxtında aşkara çıxarılması bu gün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən məsələlərdəndir. Bu zaman qarşılıqlı vəhdət şəklində olan: 1. Müstəqil modern dövlət aparatının yaradılması və təkmilləşdirilərək inkişaf etdirilməsi; 2. Onun bazası əsasında demokratik proseslərin və radikal bazar islahatlarının reallaşdırılması kimi iki çətin problem həll edilir.

Lakin dünya dövlətlərinin minilliklərdə əks olunmuş tarixi təcrübəsi göstərir ki, hər bir xalqın gələcəyi əhəmiyyətli dərəcədə həmin xalqın malik olduğu imkanları, zamanın tələblərini düzgün qiymətləndirməyi bacaran, uzaqgörən, müstəqil dövlətçilik konsepsiyasını formalaşdıran və reallaşdıran xarizmatik liderlərin adı ilə bağlıdır. Xüsusən indiki mürəkkəb bir dövrdə bəşər cəmiyyətində yaranmış olan yeni inkişaf meyillərini dərindən bilən, onları vaxtında nəzərə alan, qarşısına qoyduğu ideallara doğru xalqı arxasınca apara bilən liderləri olan ölkələr tarixin sınağından uğurla çıxmağı bacarırlar. Belə liderlər xalqların indiki və gələcək yaşayış fəlsəfəsini formalaşdırırlar.

Bəşəri inkişafın dönüş nöqtəsini təşkil edən müasir dövrdə tale Azərbaycan xalqına çağdaş və müstəqil dövlətçilik fəlsəfəsini milli irs və təfəkkür bazası əsasında formalaşdırmış və reallaşdırmış Heydər Əliyev dühasını və onun layiqli davamçısı olan qlobal düşüncəli, vətənsevər İlham Əliyev zəkasını bəxş etmişdir.

Məlum olduğu kimi, mürəkkəb və çoxtərəfli sistemə malik olan beynəlxalq iqtisadi və maliyyə mühiti daim hərəkətdə, təkamüldə olan bir sistemdir. Bu dinamikliyin hərəkətverici qüvvəsini dünyada yeni istehlak sahələrinin açılması, istehsal sferasında yeni texnoloji əlaqələrin və onun beynəlxalq tənzimlənməsinin daim yenilənməsi, maliyyə innovasiyaları təşkil edir. Azərbaycan iqtisadiyyatının



qlobal iqtisadi proseslərə intensiv inteqrasiya etdiyi, xarici maliyyə və ticarət əlaqələrinin liberallaşdırıldığı və yenidən qurulduğu bir şəraitdə həyat elm və praktika qarşısında yeni-yeni vəzifələr qoyur.

Ümummilli liderimiz Heydər Əliyev 29 dekabr 2000-ci ildə yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində ölkə qarşısında duran strateji xətti belə müəyyən etmişdir: "Bəşəriyyətin qədəm qoyduğu müasir inkişaf mərhələsində öz layiqli yerimizi tapmaq üçün gərək biz zamanın tələbləri ilə uyğunlaşa bilək, qarşımızda duran bir çox ciddi problemləri həll etməyə qadir olaq, ümdə vəzifələrimizə uyğun müvafiq proqramları həyata keçirməyə nail ola bilək".

Xalqın çağırışına səs verəcək dövlət müstəqilliyinin mövcudluğunun qorunub saxlanılması və ölkənin sosial-iqtisadi inkisafının sürətləndirilməsi məsuliyyətini öz üzərinə götürmüş ümummilli lider Heydər Əliyev qarşıda duran tarixi vəzifələri aydın şəkildə dərk edirdi. O, 1993-cü il oktyabr ayında ölkə Prezidenti kimi ilk dəfə and içərkən tam əminliklə qeyd edirdi: "Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün istifadə etməkdən ibarətdir ".

Ulu öndər Heydər Əliyevin müdrikliyi, dünyada gedən mürəkkəb prosesləri dərindən bilmək, Azərbaycan xalqının mənafeyi üçün onlardan məharətlə istifadə etmək qabiliyyəti doğma vətənimizi tarixin ağır sınaqlarından uğurla çıxararaq XXI əsrdə dinamik inkisaf etməsi üçün möhkəm zəmin yaratdı.

"Odlar yurdu" adlanan doğma yurdumuzun, 2003-cü ildən sonrakı inkisaf tarixi layiqli varis İlham Əliyevin rəhbərliyi ilə tarixi səlnamələrə yazılmağa başlanmışdır. Cənab İlham Əliyev 2003-cü il oktyabrın 31-də keçirilmiş andiçmə mərasimində qeyd edirdi: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacagam, hec vaxt bu yoldan dönməyəcəyəm".

Yeni tarixi şəraitdə Heydər Əliyev ideyalarının uğurla həyata keçirilməsində, ölkənin sürətli sosial-iqtisadi inkisafının təmin olunmasında, dünya standartlarına yaxınlaşdırılmasında İlham Əliyevin malik olduğu fenomenal səxsiyyəti mühüm rol oynayır. 1 oktyabr 2003-cü il tarixində Onun şəxsi keyfiyyətləri haqqında Azərbaycan xalqına müraciətində Ulu öndər Heydər Əliyev belə yazırdı: "O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. " Ümummilli liderimiz bütün digər məsələlərdə olduğu kimi Azərbaycan xalqının gələcək taleyi ilə bağlı olan varislik məsələsində də böyük uzaqgörənlik göstərdi. Bu müdrikliyi Azərbaycanın bugünü və sabahı aydın şəkildə nümayiş etdirir, dünyanın siyasi, elmi və ictimai xadimləri öz çıxışlarında xüsusi vurğulayırlar. "Microsoft" Şirkətinin Baş vitse - prezidenti Kreyd Mandin İlham Əliyev ilə görüşdən sonra belə demişdir: "Cənab İlham Əliyev qlobal baxışlara malik liderdir. O, enerjinin inkişafına söykənən cəmiyyətdən, biliyə arxalanan cəmiyyətə keçməyi fikirləşir".

İlham Əliyev sovet təhsil sisteminin yüksək zirvələrində yetişmişdir. Sovet cəmiyyəti müasir ictimai-siyasi fikirlərin ölkəyə daxil olmasının qarşısını alan "dəmir pərdələrlə" əhatə olunduğu bir vaxtda onun ali təhsili və praktik fəaliyyətinin ilkin mərhələsi xariclə bilavasitə təmasda olan, müasir bilikləri sovet təbliğat maşınının "emalından" keçməmiş əldə edən elmi elitasının əhatəsində keçmişdir.

Onun üçün ən böyuk məktəb isə Heydər Əliyev məktəbi olmuşdur. İlham Əliyev dərin dövlətçilik konsepsiyasını, təkmil idarəçilik bacarığını, müasir cəmiyyətin inkisaf meyillərini dərindən bilən liderlik keyfiyyətini məhz həmin məktəbdə mənimsəmişdir. Onun bu keyfiyyətləri - ARDNŞ-nın birinci vitse-prezidenti, Milli olimpiya komitəsinin prezidenti, YAP sədrinin birinci müavini, Milli Məclisin deputatı və ölkəmizin Avropa Şurası Parlament Assambleyasinda təmsil edən nümayəndə heyətinin rəhbəri və həmin yüksək qurumun rəhbərliyində təmsil olunan qlobal ictimai-siyasi, iqtisadi mühitdə daha da təkmilləşmiş, onu müasir peşəkar siyasətçiyə çevirmişdir.

Tükənməz enerji və dərin biliklər xəzinəsinə malik olan İlham Əliyev öz imkanlarını Azərbaycanın müasir tarixində yeni dövrün əsasını qoymuş olan 15 oktyabr 2003-cü il Prezident seçkilərindən sonra Azərbaycan xalqının işıqlı gələcəyi naminə uğurla reallaşdırmağa başlamışdır. 17 noyabr 2003-cü ildə Nazirlər Kabinetinin ilk iclasında o, proqram xarakterli bəyanatla çıxış etdi: "Azərbaycanda son illər ərzində aparılan iqtisadi siyasət çox uğurlu olubdur və Azərbaycanın gələcək inkişafı üçün də gözəl təməl yaradıbdır. Bizim hamımızın vəzifəsidir ki, bu siyasəti davam etdirək, əldə olunan bu uğurları artıraq və Azərbaycanın hərtərəfli inkişafı üçün böyük imkanlardan istifadə edərək, qoyulmuş bu gözəl təməlin üzərində müasir Azərbaycanı yaradaq. "

"Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" prinsipini əsas götürən cənab İlham Əliyev başçılıq etdiyi dövlətin qarşısında duran əsas problemləri, prioritet vəzifələri aydın təsəvvür edir: "Azərbaycanın qarşısında çox üfüqlər açılır, çox gözəl perspektivlər var. Biz bilirik ki, haraya gedirik, məqsədimiz nədir. Məqsədimiz müasir güclü dövlət yaratmaqdır. İqtisadi cəhətdən güclü dövlət yaratmaq, sosial rifah cəmiyyəti qurmaqdır. İnsanları narahat edən bütün məsələləri həll etmək, azad cəmiyyət yaratmaqdır ki, insanlar rahat, gözəl, rifah içində yaşasınlar. Mənim məqsədim budur və bu məqsədə doğru biz uğurla gedirik. O, bütün dövlət aparatını qarşıya qoyduğu vəzifələrin reallaşdırılmasına doğru yönəldir, konkret və məqsədyönlü dövlət proqramları hazırlayır və reallaşdırılması üçün genişmiqyaslı təşkilatçılıq tədbirləri həyata keçirir. İqtisadi potensialın ildən ilə güclənməsi, əhalinin maddi həyat şəraitinin yaxşılaşması, iqtisadi-siyasi islahatların aparılması Azərbaycanın gələcəyinə hesablanan məqsədyönlü dövlət proqramlarının ana xəttini təşkil edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev vurğulayır ki, "Biz bölgədə aparıcı dövlətə çevrilmişik. Bu, artıq reallıqdır. Reallıq hamı tərəfindən qəbul olunub. Bizim qərarlarımız, bizim işlərimiz bütün bölgəyə öz təsirini göstərir. Biz də istəyirik ki, Azərbaycan daha da qüdrətli dövlətə çevrilsin. Bizim imkanlarımız daha da artsın, siyasi çəkimiz artsın, beynəlxalq müstəvidə istədiyimizə nail ola bilək, öz doğma torpaqlarımızı işğalçılardan azad edə bilək və Azərbaycan xalqının normal, yaxşı yaşamasını



təmin edə bilək. Bunu etmək üçün Azərbaycan güclənməlidir. Bu proses artıq baş verir". Onun önə çəkdiyi "İndi bizim məqsədimiz inkişaf etmiş ölkəyə çevrilməkdir" ideası əslində Azərbaycanın uzunmüddətli inkişaf strategiyasıdır və bütün dövlət-təşkilatçılıq tədbirləri həmin strategiyanın həyata keçirilməsinə yönəldilmişdir.

İlham Əliyevin başçılığı ilə həyata keçirilən tarazlaşdırıcı siyasət nəticəsində daim artan iqtisadi potensial Azərbaycana həm regional, həm də beynəlxalq aləmdə özünün milli maraqlarını, ümümxalq mənafeyini qorumağa imkan verir. Reallaşdırılan strateji kursa uyğun olaraq, yeni təcrübələrin, demokratik, texnoloji, elmi dəyərlərin Azərbaycana transformasiyası üçün görülən tədbirlər novatorluğa, modernləşməyə geniş meydan açır.

İnformasiya cəmiyyəti adlanan müasir cəmiyyətdə ETT-nin nailiyyətləri əsasında istehsal prosesinin bütün həlqələrində texnoloji istehsal üsulunun transformasiyası baş verir, ölkələrdə iqtisadiyyatın strukturu, iqtisadi inkişafın xarakteri, həyat tərzi, dəyərlər sistemi və motivasiya keyfiyyətcə yeniləşir, "ictimai tərəqqi" anlayışı və onun meyarları haqqında təsəvvürlər dəyişir. Həyat bütün kəskinliyi ilə göstərir ki, yeni modernləşmə müasir iqtisadi sistemlərin dayanıqlı inkişafının həlledici amilidir. Tanınmış ingilis iqtisadçısı Braynan Tvissin qeyd etdiyi kimi müasir dövrdə "mütəxəssislər öz səylərini gələcəkdə meydana çıxacaq ehtiyacların ödənilməsinə yönəltməlidirlər. Diqqət yeni vəzifələrin həlli üçün yeni texnologiyanın tətbiqi yollarının tapılmasına yönəldilməlidir " [139, c, 24]

"Sənaye potensialının artımı bizim prioritet məsələmiz olmalıdır"deyən İlham Əliyev "ən qabaqcıl texnologiyaların Azərbaycana gətirilməsi məsələsini" bütün kəskinliyi ilə qarşıya qoymuşdur. Bu resurs amillərinə əsaslanan iqtisadiyyatdan, qlobal proseslərin tələb etdiyi innovasiya yolu ilə inkişaf edən iqtisadiyyata keçilməsi üçün olduqca vacibdir. Prezidentin təkidlə tələb etdiyi bir mühüm məsələnin - iqtisadiyyatın neft amillərindən asılılığının azaldılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi probleminin həlli də modernləşmə və innovasiyaların intensiv tətbiqi ilə əlaqədardır.

250393

Akademik Ramiz Mehdiyevin qeyd etdiyi kimi " İlham Əliyevin prezidentliyinin əsas konsepsiyası güclü iqtisadi bazanın formalaşdırılmasından ibarətdir. Bu konsepsiya kütləvi şüurun və cəmiyyətin sosiomədəni bazisinin mərhələlərlə postindustrial dəyərlər və demokratik ənənələr məcrasına transformasiyasına imkan yaratmalıdır "

İlham Əliyevin ardıcıl olaraq yeritdiyi qlobal və milli dəyərlərə əsaslanan strateji kurs, məqsədyönlü və çevik islahatlar ölkənin qısa müddət ərzində keyfiyyətcə yeni və daha sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olmuşdur. İnkişaf sürətinə görə ölkə regionda və bütün dünyada lider dövlətə çevrilmişdir. İqtisadi artım sürətinin, yəni ümumi daxili məhsul istehsalının artım sürətinin yüksək olması buna bariz nümünədir. İqtisadiyyat inkişafın təməl daşıdır. Bu gün regionun lider dövləti olan Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş, dinamik inkişaf edən ölkə kimi tanınır. Yüksək iqtisadi göstəricilərə malik olan Azərbaycanın son illər müxtəlif sferalarda əldə etdiyi nailiyyətlər ardıcıl şəkildə bir-birini tamamlayır, coğrafiyasını genişləndirir. Ötən 5 ildə Azərbaycanın dinamik inkişafını təmin edən əsas amillərdən biri də neftdən əldə olunan vəsaitin



M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası

regionların davamlı və tarazlı inkişafına yönəldilməsi, qeyri-neft sektorunun inkişafı istiqamətində görülən işlərdir. Ölkə regionlarının inkişafına xüsusi önəm verən İlham Əliyevin 2004-cü il 11 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramı"nın həyata keçirilməsi ölkə regionlarının kompleks inkişafına, o cümlədən, infrastruktur sahələrinin bərpası və genişləndirilməsinə, yeni istehsal və emal müəssisələrinin, sosial-mədəni obyektlərin yaradılmasına, yeni iş yerlərinin açılmasına, əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsinə, qeyri-neft sektorunun inkişafına səbəb olmuşdur. Dövlət proqramı çərçivəsində atılmış addımlar ötən 5 il ərzində regionların sosial-iqtisadi inkişafına mane olan bir sıra problemlərin aradan qaldırılmasına, bölgələrin sosial-iqtisadi simasının köklü sürətdə dəyişməsinə gətirib çıxartmışdır. Azərbaycan iqtisadiyyatının gündən-günə inkişaf etməsi sahibkarlıq və biznes mühitinin yaxşılaşması beynəlxalq hesabatlarda da öz əksini tapmışdır. Dünya İqtisadi Forumu tərəfindən hazırlanan "Qlobal Rəqabət Qabiliyyəti Hesabatı"na görə, ölkəmiz 2006-cı ildə 125 ölkə arasında 64-cü sırada yer almışdır. UNCTAD tərəfindən hazırlanan və 140 ölkənin daxil edildiyi "Birbaşa xarici investisiyaların cəlbi indeksi reytinqi " hesabatına əsasən, ölkəmiz bu sahədə dünya sıralamasında 1-ci yerdədir. Bundan başqa, 2005-ci ildə "Fitch" beynəlxalq reytinq agentliyi Azərbaycanın kredit reytinqini "BB" səviyyəsində qiymətləndirmişdir. Ötən il isə beynəlxalq reytinq agentliyi "Moody's" ölkəmizin reytinqini yüksək qiymətləndirərək "Ba 1" səviyyəsində müəyyənləşdirmişdir. Bu isə ölkə iqtisadiyyatına investisiya qoyuluşunu artırmaq üçün potensial investorlara müsbət siqnal olmaqla bərabər, beynəlxalq maliyyə bazarlarına əlverişli şərtlərlə çıxmağa şərait yaradır.

İlham Əliyevin siyasətinin ən mühüm istiqamətlərindən biri də Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının sürətləndirilməsi, ticarət əlaqələrinin genişləndirilməsi sahəsində görülən genişmiqyaslı tədbirlərdir. Hazırda Azərbaycan dünyanın 140-a yaxın ölkəsi ilə qarşılıqlı ticarət əməliyyatları aparır. Xarici ticarət dövriyyəsi, ixrac və idxal əməliyyatlarının həcmi ildən-ilə artır. 2006-cı ildə xarici ticarət dövriyyəsinin həcmi 18 milyard, 2007-ci ildə isə 25,4 milyard ABŞ dolları olmuşdur. Azərbaycan mövcud təbii sərvətlərindən istifadə etməklə iqtisadi infrastrukturunu dünya standartları səviyyəsində quraraq qloballaşan dünyanın enerji təchizatının ödənməsi prosesində xüsusi əhəmiyyət kəsb edir. Qlobal əhəmiyyətli iqtisadi layihələr olan TRACECA, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft qaz boru kəmərlərinin reallaşması və Bakı-Tbilisi-Qars dəmir yol xəttinin tikilməyə başlaması, "Şahdəniz" qaz yatağının işə düşməsi ölkəmizin nüfuzunu bütün dünyada artırır. İlham Əliyev 25. X . 2006 -cı ildə qeyd etmişdir: "Biz dünyada gedən prosesləri izləyirik. Tarixi də yaxşı bilirik. İnkişaf etmiş ölkələrin təcrübəsini də öyrənirik və görürük ki, harada inkişaf var, harada problemlər çoxdur. Görürük ki, təbii sərvətlərlə zəngin olmaq heç də o demək deyil ki, ölkə böyük nailiyyətlərə nail olacaqdır. Yenə də deyirəm, əgər cəmiyyətdə demokratikləşmə prosesləri sürətlə aparılmasa, sözün əsl mənasında, vətəndaş cəmiyyəti yaradılmasa, qanunun aliliyi tam şəkildə bərqərar olunmasa, bizim gözəl iqtisadi perspektivlərimiz həyatda tam şəkildə reallaşmayacaqdır. Ona görə, hesab edirəm, Azərbaycanın təcrübəsi onu göstərir ki, biz düzgün istiqamətdə



inkişaf edirik, siyasi islahatlar çox sürətlə aparılır. Son parlament seçkiləri bunu bir daha təsdiqlədi "

Azərbaycan Prezidenti İlham Əliyev müasir dünyada cərəyan edən ziddiyyətli və mürəkkəb proseslər, ikili standartlar fonunda Türk Dünyası birliyinin vahid ümumbəşəri məqsədlər naminə təmin edilməsinin vacibliyini daim önə çəkir. Dövlət başçısı ötən beş ildə həmin birliyin möhkəmləndirilməsi xəttini xarici siyasətdə mühüm istiqamətlərdən biri kimi müəyyənləşdirmiş, təkcə strateji müttəfiqimiz olan Türkiyə ilə deyil, Orta Asiyanın türkdilli dövlətləri ilə münasibətləri gücləndirmək xəttinə üstünlük vermişdir.

2006-cı ilin noyabrında Türkiyənin Antaliya şəhərində türkdilli dövlət başçılarının VIII zirvə görüşündə məmnunluqla vurğulamışdır: ". . . Bu zirvə görüşünün uzun fasilədən sonra keçirilməsinin çox böyük əhəmiyyəti var. Dünya dəyişir, bölgəmizdə baş verən hadisələr yeni yanaşmalar tələb edir, yeni çağırışlar ortaya çıxarır və biz birlikdə bunlara çarə tapmalıyıq. Birgə fəaliyyətimiz nəticəsində bölgəni inkişaf etdirmək üçün, sülhün, təhlükəsizliyin, sabitliyin tam şəkildə bərqərar olunması üçün bizim birgə səylərimiz böyük əhəmiyyət kəsb edir. Bizi birləşdirən tarixi köklər, ortaq mədəniyyət, etnik mənsubiyyət, əlbəttə ki, qarşılıqlı, səmərəli fəaliyyətimiz üçün çox böyük əsasdır, böyük amildir".

Bu sahədə yeritdiyi konstruktiv və tarixi əhəmiyyətli tədbirlər nəticəsində İlham Əliyev türk dünyasının nüfuzlu liderlerindən birinə çevrilmişdir.

Prezidentin 6 mart 2007-ci il tarixində imzaladığı "Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında " Fərman da bu baxımdan iqtisadçılar və mütəxəssislər tərəfindən ölkə iqtisadiyyatının yeni keyfiyyət mərhələsinə qədəm qoyması, Azərbaycan iqtisadiyyatının tərəqqisinə xidmət edən kompleks tədbirlərin tərkib hissəsi və davamı kimi yüksək qiymətləndirilir. Xüsusi iqtisadi zonaların yaradılması iqtisadiyyatımızın strukturca yeniləşməsinə əhəmiyyətli dərəcədə kömək edəcək, qeyri-neft sektorunun inkişafına, habelə xarici ticarət əlaqələrinin genişlənməsinə, respublikanın rəqabətqabiliyyətli səviyyəsinin yüksəldilməsinə, ölkəmizin Ümumdünya Ticarət Təşkilatına daxil olması üçün hazırlığına və digər məsələlərin həllinə təkan verəcəkdir.

Tam əminliklə qeyd etmək lazımdır ki, ölkəmizin iqtisadi müstəqilliyinin reallaşdırılması İlham Əliyev siyasətinin tarixi nailiyyətidir.

Onun fəaliyyətinin başlıca xəttini olduqca mürəkkəb olan qlobal dünyada ölkənin iqtisadi təhlükəsizliyinin, ərzaq və enerji təhlükəsizliyinin təmin olunmasıdır. Məhz bunun nəticəsidir ki, Azərbaycan Respublikası bütün dünyada və xüsusən regionda heç bir qüvvədən asılı olmayan müstəqil siyasət yeridir, heç bir xarici təsirlərə boyun əymir.

Bu illərdə Azərbaycan xüsusən karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması məsələsində, Bakı-Tbilisi-Qars dəmir yol xəttinin çəkilməyə başlamasında, Naxçıvan-Qars Dəmiryolunun inşasına qərar verilməsində tam müstəqil siyasi kurs yürüdərək İlham Əliyev heç bir kənar diktəyə yol verməyibdir. O, ölkəmizin Avrasiya məkanını mərkəzi nəqliyyat dəhlizinə çevrilməsi rabitə sisteminin, informasiya texnologiyalarının, sürətli inkişafı üçün də nəhəng işlər görür.

Prezident İlham Əliyev Rusiyanın "Exo Moskva" radiosuna verdiyi

müsahibədə demişdir: "Mən suveren bir dövlətin Prezidentiyəm. Mən heç vaxt heç kimdən xahiş etmirəm. Əgər hansısa bir vəziyyət yaranıbsa, deməli ondan çıxmaq lazımdır. Biz özünü təmin edən ölkəyik. Biz heç kimdən asılı deyilik. Azərbaycanı məcbur etmək qeyri-mümkündür. Azərbaycan elə dövlət deyil ki, onu məcbur edə biləsən". Dövlətimizin başçısı dünyada və regionda gedən proseslərə dərindən bələddir. Məhz buna görə də Azərbaycanın daxili və xarici siyasət kursu balanslaşdırılmışdır və bütün məqamlar nəzərə alınaraq həyata keçirilir. Azərbaycan dünyada baş verən dəyişikliklərə, siyasi və iqtisadi kataklizmlərə hazırdır. O, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördillik yekunlarına həsr olunmuş konfransda inamla qeyd etmişdir: "Biz ölkəmizi müasirləşdiririk, güclü dövlət yaradırıq. Azərbaycan müasir güclü dövlətə çevrilməlidir. Bunu etmək üçün bizim bütün imkanlarımız var. Həm iqtisadi, həm siyasi imkanlar, həm də insanların intellektual səviyyəsi, dövlət siyasəti, dövlətin iradəsi və açıq-aydın görünən gələcəyin üfüqləri".

İlham Əliyevin prezidentlik fəaliyyətinin ali qayəsi informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq "qara qızılın insan qızılına" çevrilməsini təmin etmək, ölkədə mövcud olan zəngin insan potensialını inkişaf etdirməkdir. "Biz çalışırıq səhiyyə, xüsusilə təhsillə bağlı məsələlərə böyük diqqət yetirək ki, bizim gənclərimiz bilikli olsunlar, həyatda öz yerini tuta bilsinlər, sağlam böyüsünlər və ölkənin inkişafında fəal iştirak etsinlər". Bu məqsədin həyata keçirilməsi üçün elm və bütövlükdə sosial sahənin inkişafına, ölkəmizdə təhsil və səhiyyə ocaqlarının tikintisinə, onların maddi-texniki bazasının müasir tələblərə uyğun qurulmasına xüsusi diqqət yetirilir. Onun prezidentliyi dövründə yüzlərlə yeni məktəb tikilib istifadəyə verilmişdir. Bu sahədə Heydər Əliyev Fondunun Prezidenti Xanım Mehriban Əliyevanın rolunu xüsusilə qeyd etmək lazımdır. Fond tərəfindən "Yeniləşən Azərbaycana – yeni məktəb" proqramı çərçivəsində bütün ölkədə yeni məktəblərin tikintisi uğurla davam etdirilir. İndiyədək Fondun dəstəyi ilə 230-dan çox məktəb, 29 uşaq müəssisəsi, internat və uşaq evi tikilmişdir. Təkcə 2007-ci il ərzində bütün mənbələr hesabına 200-dən çox yeni məktəb tikilmişdir.

Ölkədə onlarla xəstəxana, poliklinika və diaqnostika mərkəzləri tikilərək əhalinin istifadəsinə verilmiş, bir çox səhiyyə müəssisələri müasir tibbi ləvazimat və avadanlıqlarla təchiz edilmişdir.

Ölkədə rəqabətqabiliyyətli iqtisadi sistemin formalaşdırılması və davamlı inkişafın təmin edilməsi baxımından müasir tələblərə cavab verən kadrlara tələbatın ödənilməsi, Azərbaycan gənclərinin ümumbəşəri dəyərlər əsasında layiqli təhsil almaları üçün lazımi şəraitin yaradılması, istedadlı gənclərin dünyanın aparıcı ölkələrində təhsil almaq imkanlarının genişləndirilməsi prosesinin mütəşəkkilliyi və səmərəliliyinin artırılmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 16 aprel 2007-ci ildə xüsusi sərəncam imzalamışdır. 2015-ci ilədək 5 minə yaxın gənc xarici ölkələrdə təhsil almaq imkanı əldə edəcəkdir.

30. 06. 2007-ci ildə Prezident İlham Əliyev Qazax rayonunda olimpiya idman kompleksinin açılış mərasimində demişdir: ". . . Deyə bilərəm ki, hazırda Azərbaycanın müxtəlif şəhər və rayonlarında 20 olimpiya kompleksi ya tikilir, yaxud da ki, onlarin tikintisi üçün hazırlıq işləri görülür. Bu, çox böyük quruculuq



işləridir. Biz buna çox böyük investisiya qoyuruq. Amma biz bu investisiyaları insanların sağlamlığına qoyuruq, uşaqların idmanla məşğul olmasına qoyuruq. Bu investisiyaları Azərbaycanın gələcəyinə qoyuruq. . . Biz gələcək nəslimizi bu cür yetişdirməliyik. Onlar fiziki cəhətdən güclü, vətənpərvər olmalıdırlar və mənəvi cəhətdən Azərbaycan xalqına xas olan ən yüksək keyfiyyətlərə malik olmalıdırlar".

İlham Əliyevin Prezidentliyi dövründə dövlətin müdafiə qüdrətinin gücləndirilməsi, ordunun müdafiə qabiliyyətinin müasir standartlar səviyyəsinə çatdırılması istiqamətində də radikal addımlar atılmış, bu sahəyə ayrılacaq dövlət investisiya xərcləri ildən-ilə artır.

Dövlət başçısı respublikanın sosial-iqtisadi inkişafına paralel gedən demokratikləşmə proseslərini Azərbaycanın gələcək yüksəlişinin əsası hesab edir və onun təkmilləşdirilməsinə mühüm əhəmiyyət verir.

Cənab İlham Əliyevin qlobal düşüncələri və milli dəyərləri əsas tutaraq nümayiş etdirdiyi yüksək vətənpərvərliyi, təşəbbüskarlığı, fenomenal intellekti, müasir Avropa və dünya siyasətinin qloballaşma prosesinin incəliklərinə dərindən bələd olması ölkə daxilində və xaricində ona böyük inam və etimadın güclənməsini təmin etdi. Onun rəhbərliyi altında Azərbaycan qlobal üfüqlərə doğru inamla irəliləyir. Onun qeyd etdiyi kimi:"Azərbaycanın daxili və xarici siyasəti yalnız regional deyil, qlobal miqyasda situasiyaya əhəmiyyətli təsir göstərir və gələcəkdə də göstərəcəkdir".

# FƏSİL I.

## QLOBAL MALİYYƏ-İQTİSADİ MÜHİTİN TRANSFORMASİYASI VƏ MİLLİ DÖVLƏTLƏRİN MƏNAFELƏRİ

### 1.1. Qlobal maliyyə-iqtisadi mühitin əsas xarakteristikası və inkişaf təmayülləri

> *Dünyada getdikcə artan qarşılıqlı asılılıq, dünya iqtisadiyyatının birləşməsi və regionlaşması XX əsrin son mərhələsinin fərqləndirici xüsusiyyətlərindəndir.*
> **Heydər ƏLİYEV**

Yaşadığımız dünya son illər ciddi transformasiya proseslərinə səhnə olmuşdur. Bu transformasiyalar beynəlxalq münasibətlərdə, milli münasibətlərdə, ictimai qruplar arası münasibətlərdə, insanların gündəlik həyat tərzində ciddi nəticələr doğurur, yeni proseslər yaradır və bəzən də insanların dünyagörüşlərində də dəyişikliklərə yol açır. İstər iqtisadi, istərsə də siyasi və mədəni sahələrdə baş verən və çoxsaylı qeyri-müəyyənliklərlə müşaiyət edilən bu dəyişikliklər mahiyyətcə qloballaşma prosesləri kimi səciyyələnir. Bu mənada qloballaşma anlayışı yaşadığımız dünyada beynəlxalq iqtisadi, siyasi və mədəni münasibətlərin genişlənməsi, dərinləşməsi və sürətlənməsi ilə əlaqədar olan bütün təmayülləri və hadisələri əhatəli şəkildə əks etdirir. Bu proseslər və hadisələr dünyanı həm genişləndirir, həm də kiçildir. Bu genişlənmə - kiçilmə prosesi artıq çox sürətlidir və təsiri də sürətlə hiss edilir. Burada iki məsələyə diqqət vermək lazımdır:

a) Rabitə və bilik texnologiyalarının təkanverici gücü ilə ictimai münasibətlər və hadisələr bir sahə kimi durmadan genişlənir, dünyanın hər hansı bir yerində baş verən hadisə digər guşələrində də hiss edilir.

b) Bu hissedilmə yalnız məlumat almaq çərçivəsində qalmır, həm də "müsbət və mənfi ciddi təsirlər" yaradır, yeni proseslərə yol açır.

Beləliklə, qloballaşma beynəlxalq ictimai münasibətlərin zaman və məkan çərçivəsində genişlənmə, dərinləşmə, kiçilmə və sürətlənmə hadisələrinə meydan vermiş, özünün müsbət və mənfi təsirləri ilə həm aktyorlar, həm təsisatlar, həm də dünyagörüşü baxımından daim yeniliklər tələb edir.

İnformasiya texnologiyasında baş verən inqilab cəmiyyətin maddi əsasını köklü sürətdə yenidən quraraq, bəşəriyyətin sosial mənzərəsini keyfiyyətcə yeni səviyyəyə yüksəltdi.

Hələ 1960-cı ildə Amerikan iqtisadçısı Uolt Rostou cəmiyyətin iqtisadi inkişaf mərhələlərini aşağıdakı kimi müəyyən etmişdi:



1) ənənəvi cəmiyyət;
2) yüksəliş üçün şəraitin yaradılması;
3) yüksəliş (sıçrayış);
4) kamilliyə doğru irəliləyişi;
5) yüksək kütləvi istehlak əsri.

Fransız sosioloqu Raymon Aron bəşəriyyətin getdikcə yeni vahid sənaye cəmiyyətinə çevrildiyini əsaslandırmışdır. Vahid sənaye cəmiyyətinin digər müəllifi fransız alimi Ellull hesab edirdi ki, bu yeni cəmiyyət iqtisadi qanunları yalnız modifikasiya etmir, həmçinin onların mahiyyətini dəyişdirir: mülkiyyətin aparıcı rolu aradan qaldırılır, iqtisadi hakimiyyət iri korporasiyaların əlinə keçir, dövlətin köməyi ilə varlılıq və dilənçilik qütbləri ləğv edilir. Yeni sənaye cəmiyyət nəzəriyyəsi amerikan iqtisadçısı Con Qelpreyt tərəfindən hələ 1967-ci ildə əsaslandırılmışdır. Onun fikrinə görə, müasir dünyanın iqtisadi sistemi iki müxtəlif təbiətli bölmənin vəhdətidir: "planlaşdırılan sistem" və "bazar sistemi". Birinci bölməyə o yalnız qiymətlər, texnologiya və s. üzərində deyil, eyni zamanda dövlət və cəmiyyət üzərində nəzarəti həyata keçirən nəhəng korporasiyalar dünyasını, ikinci bölməyə isə kiçik biznesi aid edirdi. O, belə bir nəticəyə gəlmişdir ki, azad rəqabətə nisbətən oliqopoliyaların hökmranlıq etdiyi bazarlarda tənzimləmə və planlaşdırma aparmaq daha asandır. İqtisadiyyatın iki sistemə bölünməsinin əsasında, onun fikrinə görə, istehsalın təşkilati-texniki amilləri dayanır. O, qeyd edirdi: «Bir şəxsin tam nəzarəti altında olan müəssisə və təşkil olunmadan mövcudluğu mümkün olan müəssisə arasında dərin konseptual fərq vardır». Bu fərq milyonlarla kiçik müəssisələri planlı sistemə daxil olmayan minlərlə nəhəngdən ayıran divardır. [258, s. 93]

Cəmiyyətin inkişafında keyfiyyətcə yeni mərhələni amerikan sosioloqu D.Bell postsənaye cəmiyyəti adlandırmışdır. Onun fikrinə görə postsənaye cəmiyyəti aşağıdakı beş əsas əlamətlə xarakterizə edilir:

1) iqtisadiyyatın əmtəə istehsalından xidmət istehsalına keçməsi;
2) məşğul olan əhali arasında peşəkar mütəxəssislər və texniklərin üstünlük təşkil etməsi;
3) nəzəri biliklərin aparıcı rol oynaması;
4) texniki-iqtisadi mühitin texnologiya üzərində nəzarətə istiqamətlənməsi;
5) elmin kamillik mərhələsinə çatması;
6)qərar qəbul etmə prosesinin yeni "intellektual texnologiya" ilə təmin edilməsi. "Sənayeləşmə" böhranından çıxışı o, "postsənaye təmayüllərinin" inkişafında görür.

Amerikalı sosioloq A. Toffler "Üçüncü dalğa" adlı kitabında (1980) postsənaye cəmiyyətini super sənayeləşmə nəzəriyyəsi ilə əsaslandırır. O nəzəri cəhətdən əsaslandırmışdır ki, tarixi inkişaf prosesində ardıcıl olaraq özünü göstərən "dəyişik dalğaları" son nəticədə "yeni sivilizasiyanın" yaranması ilə nəticələnir. Onun fikrinə görə, on min il əvvəl "sivilizasiyanın aqrar dalğası" baş vermişdir. XVII əsrin sonundan isə Avropada sənaye inqilabı qələbə çalmış və "planet miqyaslı dəyişikliklərə" yol açaraq industrial sivilizasiya cəmiyyətinin bərqərar olması ilə nəticələnmişdir. XX əsrin 60-cı illərindən sonra "üçüncü dalğa" yaxınlaşmağa başlamışdır.

Müasir ictimai fikirdə özünəməxsus yer tutan "Vahid sivilizasiya" nəzəriyyəsinin yaradıcıları hesab edirlər ki, dünyanın bütün dövlətləri vahid siyasi, sosial və iqtisadi quruluşa - liberal demokratiyaya doğru irəliləyirlər. Onların fikrinə görə, belə bir quruluşa artıq Qərbdə nail olunmuşdur. Dünyanın bütün digər dövlətləri də liberallaşma yolu ilə gedərək belə bir quruluşa nail olduqda, dünya vahid cəmiyyətə çevriləcəkdir.

Tarixin inkişaf mərhələlərinin nəzərdən keçirilməsi bəşəriyyətin gələcək təkamül proseslərinin müəyyən istiqamətləri haqqında da fikir yürütməyə imkan verir.

Cəmiyyətin inkişafının təhlili göstərir ki, XX əsrin ortalarında inkişaf etmiş ölkələrdə formalaşmağa başlamış olan postsənaye cəmiyyəti XXI əsrin əsas aparıcı təmayülünü təşkil edərək, getdikcə daha geniş əhatə dairəsinə malik olur. Sənaye cəmiyyətindən postsənaye cəmiyyətinə keçmə təmayülü bütün dünya dövlətlərinin də artıq irəliyə doğru hərəkətinin əsas istiqamətini təşkil edir.

Mürəkkəb və ziddiyyətli qloballaşma (ingiliscə - qlobal - ümümdünya) proseslərinin dərinləşməsi bəşəriyyətin ictimai və iqtisadi inkişafında yeni mərhələ yaratmış və meqacəmiyyət adlanan ümumbəşəri cəmiyyətin formalaşmasına yol açmışdır.

Sosialist sistemi adlanan süni iqtisadi sistem süqut etdikdən sonra, demək olar ki, vahid qaydalarla inkişaf edən qlobal postbazar iqtisadiyyatı sistemi yarandı.

Qloballaşma haqqında son dövrlərdə söylənən fikir və mülahizələri şərti olaraq iki qrupa bölmək olar: birinci qrup fikirlərin müəllifləri mürəkkəb və ziddiyyətli qloballaşma prosesinin, hər şeydən əvvəl iqtisadi sahədə mahiyyətini obyektiv şəkildə açmağa çalışır, müasir dünyada real olaraq baş verən və insan cəmiyyətinin maddi həyatını kökündən dəyişdirən hadisələri şərh etməyə çalışırlar. Onlar belə bir mürəkkəb şəraitdə milli dövlətləri qloballaşma prosesinə necə uyğunlaşmaq haqqında düşünməyə çağırırlar. İkinci qrup müəlliflər isə dünyada yaranmış yeni "hökmranlıq ideologiyası" mövqeyindən çıxış edirlər və milli dövlətlərə bu baxımdan hərəkət tərzi üçün müqavimət göstərməyə çağırırlar. [259, s. 3; 186;187]

Qloballaşma iqtisadi baxımdan çox vaxt "qlobal postbazar iqtisadiyyatı" və yaxud idarə olunan "ümumdünya bazarı" [271, s. 9] kimi xarakterizə edilir. Tamamilə aydındır ki, "bazar" və "bazar iqtisadiyyatı" kapital yığımı və təbəqələşmə anlayışları ilə vəhdət təşkil edirlər.

Proseslərin mahiyyətini düzgün dərk etmək üçün «qlobal iqtisadiyyatı» «dünya iqtisadiyyatından» fərqləndirmək lazımdır. F. Brodel və U. Uollerşteyn «dünya iqtisadiyyatı» dedikdə dünya miqyasında kapital yığımını başa düşürlər. Bu proses isə Qərbdə XVİ əsrdən başlanmışdır. Manuel Kastels hesab edir ki, qlobal iqtisadiyyat - bütün planet miqyasında real zamanda vahid sistem kimi işləməyə qadir olan iqtisadiyyatdır. Kapitalist istehsal üsulu zaman və məkanın sərhədlərini aşmağa çalışaraq, durmadan inkişaf etmişdir. Dünya iqtisadiyyatı ancaq XX əsrin sonunda informasiya və kommunikasiya texnologiyasına əsaslanan yeni infrastruktur əsasında əsl qlobal iqtisadiyyata çevrildi.

Qloballaşma iqtisadi sistemin bütün əsas proses və ünsürlərində özünü göstərir. Tarixdə ilk dəfə olaraq kapitalın idarə olunması real vaxt rejimində qlobal maliyyə bazarlarında fasiləsiz olaraq həyata keçirilir [187, s. 105]. Yeni



texnologiya kapitalı qısa müddət ərzində bir iqtisadiyyatdan digər iqtisadiyyata keçirməyə imkan verir. İnvestisiya və valyuta kimi müxtəlif ölkələrin iqtisadiyyatı da qarşılıqlı əlaqələr və qarşılıqlı asılı və qlobaldır. Başqa sözlə, qloballaşma dünya təsərrüfatının vahid əmtəə, xidmət, kapital, işçi qüvvəsi və biliklər bazarına çevrilməsi deməkdir. Bu, beynəlmiləlləşmənin yeni və yüksək mərhələsidir. Dünya TMŞ-lər üçün vahid bazara çevrilir, bütün ölkələr onların fəaliyyəti üçün açıqdırlar. Onları iqtisadi ədəbiyyatda bəzən sərhədsiz dövlət adlandırırlar. TMŞ-lərin müasir dövrdə əsas məqsədi mənfəətin maksimallaşdırılmasından çox, bazarın maksimallaşdırılmasıdır. Çünki onların əsas məqsədi mənfəəti maksimum dərəcədə artırmaq olsa, rəqabət mübarizəsində başqa şirkətlərə uduzarlar. Qloballaşma beynəlxalq rəqabəti daxili bazarlara da keçirir. Ona görə də bazar iqtisadiyyatının əsas postulatı olan rəqabət mexanizmi özünün qanunlarına uyğun olaraq bütün dünya miqyasında işləyir. Texnoloji inqilab istehsal amillərindən daha səmərəli istifadə edən şirkətlərə texnoloji üstünlük əldə etməklə mənfəətlərini optimallaşdırmaq imkanı verir. İnformasiya cəmiyyətində yüksək naliyyətlərlə yanaşı, sosial gərginlik və sosial ziddiyyətlər də artır.

Mütəxəssislərin əksəriyyəti hesab edirlər ki, qloballaşma prosesinin əsasında son onilliklərdə iqtisadiyyatın və bütün bəşəriyyətin texniki-texnoloji, nəqliyyat-kommunikasiya və informasiya bazasında dərin inqilabi dəyişikliklər dayanır. Məhz həmin sahələrdə son yüzillikdə baş verən sıçrayışlar dünya iqtisadi məkanının müxtəlif hissələrinin bir-biri ilə üzvi şəkildə birləşməsinə yol açdı. Bu proses təsərrüfat həyatının çoxəsirlik beynəlmiləlləşmə təmayülünün məntiqi nəticəsidir. Burada kapitalın hökmranlığı daha çox texnologiya və rəqabət üstünlüyünə əsaslanır.

İqtisadi qloballaşma – milli təsərrüfatların vahid dünya iqtisadiyyatına çevrilməsi prosesidir. Əvvəllər dünya iqtisadiyyatı yer kürəsində mövcud olan və ticarət və digər əlaqələrlə bir-birinə bağlı olan, müəyyən dərəcədə qapalı iqtisadiyyatların məcmuundan ibarət idi. İndi isə o, dövlətlər və müxtəlif ölkələrə məxsus transmilli təsərrüfat subyektləri arasında dövlətin iştirakı olmadan baş verən mürəkkəb qarşılıqlı münasibətlər toplusudur.

Iqtisadi qloballaşma işçi qüvvəsi, kapital, texnologiya, əmtəə bazarlarının beynəlxalq mahiyyət alması və ölkə bazarlarının bir-birinə açılması prosesini əks etdirir.

Dünya Bankının verdiyi tərifə görə, qloballaşma fərdlərin və firmaların digər ölkə rezidentləri ilə könüllü iqtisadi əlaqələr aparmaq imkanı və azadlıqlarıdır.

Qlobal maliyyə-iqtisadi mühit qlobal və regional iqtisadi məkanda mal və xidmətlərin, kapital və maliyyənin, işçi qüvvəsinin hərəkətini təmin edən şəraiti və bu sahədə mövcud olan qaydaları özündə ehtiva etdirir.

Qloballaşma dövründə beynəlxalq iqtisadi əlaqələrin aparıcı həlqələrindən biri olan maliyyə və valyuta münasibətləri ölkələrin təsərrüfat həyatının yaxınlaşmasında mühüm rol oynayır. Məlum olduğu kimi, ümumdünya maliyyə-valyuta sistemi əmtəə istehsalının inkişafı, pul dövriyyəsi və beynəlxalq iqtisadi münasibətlərin bazası əsasında tədiyə dövriyyəsinin iştirakçıları arasında formalaşmış hesablaşma qaydalarıdır. Bu qaydalar hökumətlərarası sazişlər və beynəlxalq təşkilatların nizamnamələri ilə reqlamentləşdirilir. Nisbi müstəqilliyə

malik olan valyuta münasibətləri tədiyə balansı, valyuta məzənnəsi, kredit və hesablaşma əməliyyatları vasitəsilə ictimai təkrar istehsalın gedişinə, ölkələrin iqtisadi inkişaf sürətinə, proporsiyalarına və istiqamətinə ciddi təsir göstərir.

Qlobal maliyyə-iqtisadi mühiti onunla səciyyələnir ki, ayrı-ayrı ölkələrin təsərrüfat subyektləri yalnız ölkə daxilində deyil, həm də xarici bazarlarda əvvəllər görünməmiş dərəcədə sərbəstlik əldə etmişlər. Əgər onlar əvvəllər sərhədləri epizodik hallarda keçirdilərsə, indi belə hallar daimi xarakter almışdır. Digər tərəfdən, milli dövlətlər qeyri rezidetlərə imkan vermişdir ki, onlar qarşılıqlılıq prinsipi əsasında həmin ölkədə maneəsiz olaraq ticarət və bizneslə məşğul olsunlar. Hətta onlara milli sahibkarların malik olduqları hüquqları da verirlər.

Bazarlar sürətlə qloballaşır. Bazarların qloballaşması dedikdə, əmtəə, xidmət və mobil mahiyyətə malik olan istehsal amillərinin sərbəst beynəlxalq hərəkəti başa düşülür. Bu hərəkət dünya miqyasında rəqabət mühitində formalaşan qiymətlər əsasında gerçəkləşir. Məsələn, müasir neft və ərzaq, o cümlədən, taxıl bazarı daha çox qlobal mahiyyət daşıyır. Bazarların qloballaşmasını bazar iqtisadiyyatının yüksək mərhələsi hesab etmək olar.

Son onilliklərin əsas xarakterik xüsusiyyətlərindən biri maliyyə bazarlarının qloballaşmasıdır. Maliyyə bazarlarının qloballaşmasının zəruri şərti kapitalın əsas formalarının liberallaşdırılması, onun texniki vasitəsi isə pul vəsaitlərinin bir anda dünyanın istənilən nöqtəsinə köçürülməsini təmin edən qlobal telekommunikasiya sistemidir. Maliyyə bazarları isə, məlum olduğu kimi, valyuta, kredit və qiymətli kağızlar bazarlarından ibarətdir. Maliyyə bazarları möhtəkirlik əməliyyatlarına, yəni aktivlərə sahib olmaq üçün deyil, onların yüksək qiymətli satışından yüksək mənfəət əldə etmək üçün alqı-satqı əqdlərinə geniş imkanlar yaradır. Məhz möhtəkirlik əməliyyatları qlobal maliyyə bazarlarına qeyri-sabitlik mahiyyəti verir.

Qlobal maliyyə-iqtisadi mühiti dünya iqtisadiyyatı üçün yeni və yüksək səviyyəli risqlər yaratmışdır. XX əsrin ikinci yarısı dünyada yüksək iqtisadi inkişafı və dərin elmi-texniki tərəqqi ilə xarakterizə edilir. Bazar iqtisadiyyatına xas olan inkişafda tsiklik xarakteri nisbətən zəif təzahür edirdi.

İqtisadi böhranlar, əsas etibarı ilə qısamüddətli xarakter daşıyır, bir ölkədə ciddi, digərlərində isə nisbətən az özünü göstərir və hətta bəzilərində heç özünü göstərmir. Beynəlxalq iqtisadi münasibətlərin intensiv inkişafı dünyada tsiklin yaranmasına və iqtisadi böhranların inkişafına mane olurdu.

Lakin 90-cı illərdə qloballaşmanın sürətlə inkişaf etdiyi bir şəraitdə maliyyə böhranları dünya iqtisadiyyatı üçün ciddi təhlükəyə çevrildi. Belə böhranlar Şərqi və Cənubi-Şərqi Asiya, Latın Amerikası ölkələrində və Rusiyada özünü göstərdi. Fond bazarlarının çökməsi, bankların və firmaların kütləvi şəkildə iflası, valyutaların devalvasiyası, inflyasiyanın güclənməsində ifadə olunan həmin böhranlar həm daxili, həm də xarici amillərin nəticəsi idilər. Ancaq onların miqyası və formaları onu göstərirdi ki, həmin böhranların meydana gəlməsində və inkişafında beynəlxalq borclar, kapital və maliyyənin beynəlxalq hərəkətinin nəhəngliyi, ticarət və maliyyə axınlarının liberallaşdırılması ciddi rol oynayır.

Beynəlxalq əmək bölgüsünün obyektiv olaraq dərinləşməsi prosesi milli iqtisadiyyatların bir-birinə açılmasını tələb edir. Bunun nəticəsində, dövlətlər həm milli təsərrüfat subyektlərinin xaricdə, həm də qeyri-rezidetlərin ölkə daxilində



ticarət-iqtisadi əlaqələri üzərində özünün inhisarçı nəzarətindən məhrum olmuşlar. Sahibkarların xarici bazarlarda uğurlu fəaliyyətinin əsas şərti onların yüksək rəqabət qabiliyyətinə malik olmasıdır. Ona görə də belə açıqlıq dərəcəsindən ilk növbədə TMŞ-lər istifadə edirlər. Beynəlxalq maliyyə kapitalının həmin çoxistiqamətli şirkətləri milli "oyunçulara" nisbətən rəqabət mübarizəsində adətən həmişə qalib çıxırlar. Qloballaşmanın özünü daha çox göstərdiyi maliyyə sahəsində onların qalib vəziyyəti daha aydın şəkildə görünür. Belə ki, dünya maliyyə bazarlarında və fond birjalarında pul kapitalının və qiymətli kağızların təmərküzləşməsi nəticəsində nəhəng miqdarda fiktiv kapital toplanmışdır. Müəyyən hallarda belə təmayüllər olduqca təhlükəlidir. Qiymətli kağızlarla aparılan möhtəkirlik, onların real maddi dəyərlərdən ayrı mövcud olması, şirkətlərin və sahibkarların real vəziyyətinə təsir göstərməyən səhm alqı - satqıları menecerlərə imkan verir ki, onlar öz şirkətlərində mövcud olan əsl vəziyyəti ört-basdır etsinlər. [327, 2008, №1, s. 240]

Rabitə texnologiyasında özünü göstərən sıçrayışlar maliyyə sahəsində qloballaşmanı olduqca sürətləndirmişdir. Bu sahədəki qloballaşmanı birbaşa investisiyalar daha da dərinləşdirir. İqtisadi inteqrasiyanın dərinləşməsi nəticəsində xarici ticarətdə ciddi kəmiyyət və keyfiyyət dəyişiklikləri baş verməsinə baxmayaraq bu sahə maliyyə və birbaşa qoyuluşlardan geri qalır. Əməyin beynəlxalq hərəkəti isə qloballaşma prosesinin ən məhdud sahəsidir:

Maliyyə-iqtisadi mühitdə aşağıdakı ümumbəşəri təmayüllər özünü göstərir.

1. Özəl biznes dövlətlərarası sərhədləri asanlıqla dəf etməyə başlamışdır. Düzdür, hələlik buna əsas etibarilə transmilli şirkətlər və beynəlxalq banklar nail ola bilirlər.

2. Dövlətlər xarici mal, xidmət, kapital və işçi qüvvəsi qarşısında əvvəllər qoyduqları gömrük və digər maneələri tədricən azaldır və hətta tamamilə aradan qaldırırlar.

3. Xarici ticarətin liberallaşdırılmasını və onlara ÜTT çərçivəsində riayət olunmasını təmin edən ümumdünya qaydaları meydana gəlmişdir.

4. Valyuta - maliyyə böhranlarının qarşısının alınması üçün BVF xətti ilə ümumdünya maliyyə tənzimləmələrinə cəhd edilir.

5. Birbaşa xarici investisiyalar yolu ilə və bir sıra nəhəng fond birjaları və qiymətli kağızlarla birjadankənar ticarət vasitəsilə istehsalat və bank kapitalının sərbəst miqrasiyası prosesi başlamışdır.

6. Sərnişin və yük daşınmasında aviasiya və digər nəqliyyat növlərində sürət amilinin rolu artmış və nəqliyyat xidmətində ümumdünya şəbəkəsi yaranmağa başlamışdır.

7. Sözün əsl mənasında, qlobal rabitə sistemi kimi internet şəbəkəsi yaranmışdır. Bu xarici ticarət, maliyyə və digər sahələrdə əqdlərin bağlanmasını və yerinə yetirilməsini sürətləndirir və xeyli asanlaşdırır.

## 1. 2. Qloballaşma şəraitində yeni maddi mühitin və informasiya məkanının transformasiyası

Tarixi inkişafın gedişi prosesində insan özü üçün istehsal alət və vasitləri daxil olmaqla cəmiyyət həyatının maddi əsasını təşkil edən maddi mühit yaratmış və onu inkişaf etdirir. XX əsrin ikinci yarısında elmi-texniki və texnoloji inqilabların sürətlənməsi nəticəsində cəmiyyətin maddi həyatında yeni keyfiyyət dəyişiklikləri baş verdi. Elm bilavasitə məhsuldar qüvvəyə çevrildi, ön plana isə informasiya texnologiyaları çıxdı. Həyatın, demək olar ki, bütün sahələrində sıçrayış baş verdi. Abad mənzillərlə zəngin olan nəhəng şəhərlər intensiv olaraq artır. Standart məişət texnikasının (soyuducular, kondisionerlər, tozsoran, paltar və qabyuyan maşınlar, mikrodalğalı sobalar) kütləvi istehsalı təmin edilmişdir. İnformasiya texnikası məişətə (televizorlar, kompyuterlər, sürətçıxaran aparatlar, printerlər, videomaqnitofonlar) geniş miqyasda daxil olmuşdur. Yeni rabitə vasitələri (faks, mobil telefon, elektron poçtu) sürətlə inkişaf edir. Nəqliyyat köklü sürətdə dəyişmişdir: bir sutkadan da az müddət ərzində səmişin laynerləri insanları yer kürəsinin istənilən nöqtəsinə çatdırır. Nüvə texnologiyası geniş miqyasda tətbiq edilir. Süni peyklər vasitəsilə əldə edilən məlumatlar gündəlik həyatda istifadə edilir. Günümüzün bir çox reallıqları yaxın keçmişdə fantaziya kimi görünürdü.

ETT nəticəsində postsənaye və ya informasiya cəmiyyəti adlanan yeni cəmiyyət yaranmışdır.

XX əsrin sonunda "sosializm lagerinin" süqutundan sonra - bazar iqtisadiyyatı, siyasi demokratiya, ideya plüralizmi, "açıq cəmiyyət" və "açıq iqtisadi inkişaf" modeli ümumbəşəri xarakter alaraq cəmiyyətin irəliyə doğru hərəkətinin aparıcı istiqamətinə çevrildi.

Qloballaşmanın əsasında istehsal sferasında baş verən dəyişikliklərdir. Mürəkkəb texnologiyanın tətbiqi, ixtisaslaşma və əməyin kooperasiyası sahəsində getdikcə özünü daha çox göstərən dəyişikliklər xüsusi əhəmiyyətə malikdir. İstehsal prosesində baş verən tərəqqi nəqliyyat, rabitə, ticarət və təhsil sahəsində tərəqqi ilə müşaiyət olunur.

Elektron texnologiyaya əsaslanan müasir telekommunikasiya sistemində tətbiq edilən informasiya texnologiyası tamamilə yeni hadisədir.

Maddi sahədə baş verən həmin dəyişikliklər isə insanların həyatında, tələbatında, davranışında və psixologiyasında yeni təmayüllərlə müşaiyət olunur.

Ölkə daxilində iqtisadi hökmranlığı ələ keçirən kapital hələ orta əsrlərdən dünya miqyasında hökmranlıq etməyə can atmağa başlamışdır. Bu prosesin başlanğıcı Avro - Atlantik ölkələrin ticarət kapitalının hökmranlığını təmin edən merkantilizm dövrünə təsadüf edir. Sənaye inqilabı baş verənə qədər aparıcı Qərb dövlətlərinin rəsmi siyasətinin əsasını təşkil edən merkantilizm ideyalarının son nəticəsi dünyanın zəngin xammal mənbələrini Qərbin ticarət kapitalının yığım məntiqinə tabe etməkdən ibarət olmuşdur. Sürətlə zənginləşən avropalı tacirlər öz dövlətlərinin bilavasitə hərbi dəstəyi ilə yeni-yeni bazarlara və kapital mənbələrinə can atırdılar. Qızıla, yeni-yeni torpaqlara və xarici mallara olan hərislik yeni ticarət yollarının açılmasına, müstəmləkəçilik sisteminin yaranmasına və o dövrün dünya



bazarının hüdudlarının yeni regionlar hesabına genişlənməsinə səbəb oldu.

Sənaye inqilabının qələbəsi, azad rəqabət və bazar mexanizminin tam şəkildə işləməyə başlaması və fabrik-zavod istehsalının kütləviləşməsi dünya bazarına qoşulan yeni regionlarla təsərrüfat əlaqələrini daha da genişləndirdi. XIX əsrin sonlarında dünya bazarı formalaşdı. Tədricən malların hərəkəti ilə yanaşı istehsal amillərinin (kapital, işçi qüvvəsi sahibkarlıq qabiliyyəti, texnologiya) də beynəlxalq hərəkəti sürətlənərək, dünya təsərrüfatı sistemini formalaşdırdı. Lakin Asiya (Yaponiyadan başqa), Afrika və Latın Amerikası ölkələri sənaye inqilabından kənarda qalaraq, beynəlxalq əmək bölgüsü sistemində kənd təsərrüfatı və dağ-mədən sənayesinin məhsulları ilə iştirak etməli oldular.

Yuxarıda göstərildiyi kimi, dünya təsərrüfatı sisteminin inkişafında yeni mərhələ XX əsrin 80-90-cı illərində başlamışdır.

İnkişaf etmiş və yaxud zəngin Şimal ölkələri üçün bu dövr postsənayeləşmə erasına keçid, bir çox geri qalmış ölkələr üçün (Yeni sənaye ölkələri və Çin) iqtisadi geriliyin aradan qaldırılması və postsosialist ölkələri üçün bazar iqtisadiyyatına dönüş, bütün dövlətlər üçün isə - daxili və xarici həyatın liberallaşması və onun qloballaşması dövrü kimi xarakterizə edilir.

Tamamilə təbiidir ki, yeni yaranan iqtisadi və maliyyə mühitində istehsal amillərinin tərkib hissələrinin beynəlxalq miqyasda hərəkəti eyni şəkildə cərəyan etmir və bir-birindən fərqlənir. Məsələn, dünya bazarında kapitalın çevikliyi ilə işçi qüvvəsinin çevikli eyni deyildir. Belə ki, ümumi ekvivalentdə - pulda təzahür edən kapitalın hərəkəti dövlətlər arasında əslində maneəsiz baş verir. Onun hərəkətinin yeganə meyarı-yüksək mənfəət əldə etməkdir. Lakin işçi qüvvəsinin hərəkətverici meyarları mürəkkəb və müxtəlifdir. Yüksək əmək haqqı bu meyarlardan yalnız biridir. Onun əsas meyarı isə əlverişli təbii, sosial və mənəvi mühitin olmasıdır. Ona görə də hətta milli təsərrüfatlar daxilində də işçi qüvvəsi bazarının çevikliyi, digər bazarlara nisbətən zəifdir. Beynəlxalq miqyasda isə dil, mədəni və s. maneələr də mövcuddur. Ona görə də məhdud da olsa əmək bazarı da qlobal mahiyyət daşıyır: 1)firmalar dünyanın istədikləri yerində yerləşərək əmək ehtiyatlarından manesiz istifadə edə bilərlər; 2) firmalar hər yerdən istədikləri mütəxəssisləri cəlb edə bilirlər; 3) insanlar dünyanın istənildən nöqtəsindən müxtəlif səbəblərlə (müharibə və s. ) öz ölkəsini tərk edərək, öz təşəbbüsləri ilə istənilən əmək bazarlarına müraciət edə bilərlər) [187, s. 105-106].

Elm, texnologiya və informasiyanın beynəlxalq miqyasda hərəkəti sərbəstdir və qlobal mahiyyət daşıyır. Texnoloji informasiya üzərində mülkiyyət hüququ rəqabət üstünlüyünü yaradır. Texnologiya və bilik mübadiləsi qlobal iqtisadiyyatın hərəkətverici qüvvəsinə çevrilmişdir. Dünya dillərinin leksikonuna daxil olan «yeni iqtisadiyyat» termini məhz bununla əlaqədardır.

Postsənaye cəmiyyətində yüksək mənfəəti ən yeni texnologiyaya malik olanlar əldə edirlər. Bunun üçün elmi tədqiqatları intensivləşdirmək, onların nəticələrinin tətbiqini sürətləndirmək, təhsilin səviyyəsini yüksəltmək, informasiya sisteminin geniş şəbəkəsini yaratmaq, sosial təminatın etibarlı müdafiəsini təmin etmək lazımdır. Yeni şəraitdə cəmiyyətin fiziki deyil, intellektual potensialı ön plana çıxır. Kadrların professionallığı və bilik səviyyəsi, yeni texnologiya ilə əlaqədar sahələrə maraq yaradılması xüsusi əhəmiyyət kəsb edir.

Klassik kapitalizm işçi qüvvəsinin ölkə daxili hərəkində, xammal əldə etmək üçün müstəmləkələrin zəbt olunmasında maraqlı idi. Yeni şəraitdə insanların və ideyaların ölkələrarası hərəkəti ön plana çıxır. Bu zaman elmi ideyalar və yüksək ixtisaslı mütəxəssislər geniş miqyasda, yalnız həyat səviyyəsi kifayət qədər yüksək olan qabaqcıl sənaye ölkələrində istifadə edilir. Ona görə intellekt idxalı sərfəli gəlir mənbəyinə çevrilmişdir. İEOÖ-ə ağır zərbə vuran "beyin axını" geniş yayılmışdır.

Postsənaye cəmiyyəti təşkilatçılıq və idarəçilik sahələrində ciddi dəyişikliklər ilə xarakterizə edilir. Texnoloji üstünlük üçün yüksək təşkilatçılıq, işdə dəqiqlik, çeviklik tələb olunur. İstehsal prosesinin yenidən qurulması imkanı vaxt itirilmədən nəzərdən keçirilməlidir. Əsas məsələlərdən biri- istehsal prosesində idarəçiliyin texniki-təşkilat və sosial aspektlərini öyrənən elm sahələrinin inkişafıdır. Elektron birjalar və elektron ticarət sisteminin təşkili kapitalın dövriyyəsi və dövranını xeyli sürətləndirmişdir. [186, s. 53]

Müasir iqtisadiyyat həddən artıq mürəkkəbləşmişdir. Onu canlı orqanizmin inkişafı ilə müqayisə etmək olar. Müəssisələrarası əlaqələrin, onların bir-birindən asılılığının artdığı bir şəraitdə inkişaf imkanlarından birini daim seçmək tələb olunur. Bu seçim isə həlledici olur. Kəskin iqtisadi dəyişikliklər neqativ nəticələr yaradır, tərəqqi yalnız tədrici dəyişikliklərlə mümkündür.

Yeni maddi mühitdə izafi mənfəət istehsal xərclərini əhəmiyyətli dərəcədə aşağı salan az qrup müəssisələrdə əldə edilir. Həmin müəssisələrdə məhsul istehsalına sərf edilən vaxt ictimai zəruri (orta) vaxtdan azdır. Daha yüksək əmək məhsuldarlığı yeni texnologiya tətbiq edilməsi, bəzən isə istehsalın təşkilinin təkmilləşdirilməsi hesabına əldə edilir. Lakin elmi-texniki nailiyyət geniş yayıldıqda, izafi mənfəət azalır. Ona görə qabaqcıl firmalar həmişə yeni texnologiya axtarışındadırlar.

Qloballaşma dövründə təsərrüfat vahidlərinin fəaliyyətində xarici mühitin rolu getdikcə artır. Xarici mühit dedikdə, müəssisələrin fəaliyyətinə təsir göstərən xarici şərait nəzərdə tutulur. [157, s. 12] Müəssisələr beynəlxalq bazarlara çıxdıqda menecerlər qlobal iqtisadi və maliyyə mühitinin tələblərini nəzərə almalıdırlar. Beynəlxalq rəqabət mühitinə uyğunlaşmaq zərurəti olduqca vacibdir. Məlum olduğu kimi hər bir sahədə müxtəlif rəqabət şəraiti hökm sürür. Çevik siyasət yeridən firmalar xarici mühitin verdiyi üstünlüklərdən məharətlə istifadə edirlər. Ölkə daxilində də bəzi firmalar xarici rəqiblərlə daha uğurlu rəqabət mübarizəsi apara bilirlər. Qlobal iqtisadi sistemin yaranması xarici bazarlar, yeni məhsullar haqqında informasiyanın tez yayılmasına imkan verir. Müəssisələr çevik şəkildə istehsalı xaricə köçürməyə və yaxud xaricdən ölkəyə gətirməyə şərait axtarır.

Himayəçilik meyllərinin müəyyən dərəcədə sərtləşməsinə baxmayaraq, əmtəə və xidmət bazarları getdikcə daha çox qloballaşır. Belə ki, 1986-1995-ci illərdə dünyada əmtəə dövriyyəsi ildə orta hesabla 6,5 % artaraq 1,9 dəfə çoxalmışdır. Xidmət ticarəti isə bu dövrdə daha sürətlə artmışdır [259, s.5]. 1995-2006-cı illərdə isə dünyada əmtəə dövriyyəsi daha 2,4 dəfə çoxalaraq 10010, 0 mlrd. dollardan 24273, 0 mlrd. dollara çatmışdır. [əlavə №1]

Qlobal iqtisadiyyat şəraitində xarici bazarlara çıxış yeni təsərrüfatçılıq sisteminin aparıcı ünsürünə çevrilmişdir. Beynəlxalq iqtisadiyyat sahəsində tanınmış



mütəxəssis M. Porter haqlı olarq hesab edir ki, müasir dövrdə ticarət, o cümlədən mal ixracı qlobal strategiyanın ayrılmaz tərkib hissəsinə çevrilmişdir [222, s. 27].

## 1.3. Qloballaşma dövründə maliyyə mühitinin transformasiyası

İstehsalın miqyasının artması və mürəkkəbləşməsi investisiyaya ehtiyacı ciddi şəkildə artırır və kapitalın hərəkətini sürətləndirir. Həyata keçirilən saysız hesabsız maliyyə əməliyyatlarının məqsədi və obyekti çox vaxt milli sərhədlərdən kənarda olur. Kapitalın təmərküzləşməsi və mərkəzləşməsi istehsal sferasına nisbətən bank-maliyyə sferasında misli görünməmiş dərəcədə sürətlənmiş və qloballaşmışdır. Maliyyə, investisiya və informasiya ehtiyatları əldə etmək uğrunda rəqabət mübarizəsi şiddətlənmişdir. Nəhəng beynəlxalq banklar, bu mübarizənin fəal aparıcı qüvvələridir.

Bank-maliyyə əməliyyatlarının yeni kommunikasiya vasitəsilə aparılması «elektron pulların» hərəkətini nəzərdə tutan yeni anlayışın - «virtual iqtisadiyyat» anlayışının yaranmasına səbəb olmuşdur.

Qloballaşma şəraitində kapital və maliyyənin beynəlxalq hərəkəti ciddi kəmiyyət və keyfiyyət dəyişikliklərinə məruz qalmışdır. Başqa sözlə, qloballaşma özünü maliyyə sahəsində daha qabarıq şəkildə göstərir. XX əsrdə milli maliyyə bazarları dünya bazarının tərkib hissəsinə çevrilmişdilərsə, həmin əsrin sonunda dünya maliyyə bazarı qlobal bazara çevrildi. Corc Soros «Açıq cəmiyyət. Qlobal kapitalizm islahat edilərkən» adlı (M., 2001) əsərində maliyyə sahəsində qloballaşmanın mahiyyətini belə açır: «Biz qlobal iqtisadiyyatda yaşayırıq, onun üçün isə mal və xidmətlərin sərbəst mübadiləsi, daha böyük dərəcədə isə kapitalın azad hərəkəti xasdır. Bunun nəticəsində müxtəlif ölkələrdə faiz dərəcələri, valyuta məzənnələri və birja kotirovkaları sıx şəkildə qarşılıqlı asılıdır. Qlobal maliyyə bazarları isə bütün dünyada iqtisadi şəraitə güclü təsir göstərir. Maliyyə kapitalı imtiyazlı vəziyyətdədir. Ümumiyyətlə götürüldükdə, kapital digər istehsal amillərinə nisbətən, maliyyə kapitalı isə onun başqa formalarına nisbətən daha mobildir. Maliyyə bazarları ayrı-ayrı ölkələr üçün kapitalın vergiyə cəlb edilməsini hədsiz dərəcədə çətinləşdirmişdir, çünki onu hara istəsələr apara bilərlər. Nəzərə alınsa ki, beynəlxalq maliyyə kapitalı ayrı-ayrı ölkələrin həyatında həlledici rol oynayır, bu gün artıq qlobal kapitalist sistemi haqqında danışmaq olar». [152, s. 199]

Qlobal maliyyə mühiti dedikdə, qloballaşma dövründə dünya maliyyə bazarlarının inkişafına və bankların, maliyyə korporasiyalarının və investorların qərarlarına təsir edən qlobal və regional şərait nəzərdə tutulur. Qlobal maliyyə mühiti tranformasiya edən (inkişaf edən) beynəlxalq pul sistemləri, ayrı-ayrı ölkələrin tədiyə balanslarının vəziyyəti, aparıcı dünya dövlətlərinin və regionlarının inkişaf modellərinin təsiri altında ciddi dəyişikliklərə məruz qalır. Qlobal maliyyə mühiti beynəlxalq maliyyə bazarlarında, beynəlxalq bank işində, beynəlxalq maliyyə korporasiyalarında və beynəlxalq portfel investisiyalarında mövcud olan şəraiti özündə birləşdirir. [191, s. 2]

Qlobal kapital və maliyyə bazarlarının aşağıdakı başlıca xüsusiyyətlərini qeyd etmək olar:

- əməliyyatların nəhəng miqdarda dünya maliyyə mərkəzlərində, habelə offşor zonalarda (dünya iqtisadiyyatının «qara bazarlarında») cəmlənməsi. 90-cı illərin əvvəlində yalnız «yeddilər» arasında gündəlik maliyyə axınları 420 mlrd. ABŞ dollar təşkil edirdi ki, bu da dünya ticarəti həcmindən 34 dəfə çox idi;
- coğrafi sərhədlərin olmaması;
- əməliyyatların bütün sutka ərzində aparılması;
- qabaqcıl ölkələrin valyutalarından, habelə AVRO və SDR-dən istifadə olunması;
- iştirakçıları əsasən yüksək reytinqə malik olan birinci dərəcəli banklar, şirkətlər, maliyyə-kredit institutları və hökumətlərdir;
- maliyyə xidmətlərində inqilab özünü göstərdiyi bir şəraitdə bazar seqmentləri və sövdələşmə alətlərinin çoxşaxəliliyi;
- beynəlxalq faiz dərəcələrinin spesifik olması;
- ən dəqiq elektron hesablama maşınlarından istifadə olunması əsasında kağızsız əməliyyatların yüksək informasiya texnologiyası və standartlaşdırılması;
- bütün dünyada sərbəst dəyişən valyuta məzənnəsi sisteminə keçilməsi ilə əlaqədar olaraq valyuta mübadiləsi əməliyyatlarının geniş vüsət alması. Valyuta birjası qlobal maliyyə bazarının aparıcı ünsürünə, valyuta məzənnələrinin gözlənilməz dəyişməsi və möhtəkirlik hücumları onun mühüm atributuna çevrilmişdir;
- mal və xidmətlərin beynəlxalq hərəkətinə xidmət edən dünya maliyyə axınlarının böyük vusət alması;
- qısamüddətli kreditlər və qiymətli kağızlara qoyuluşlar şəklində «qaynar» və ya «çılğın» pulların böyük məbləğlərdə axınının yaranması;
- maliyyə bazarlarının bütün seqmentlərində (valyuta, kredit, fond və sığorta) «heç nədən» pul düzəldən möhtəkirlik əməliyyatlarının görünməmiş dərəcədə artması;
- cinayətkarlıq yolları ilə əldə edilmiş qeyri-leqal pulların böyük miqdarda mövcud olması [191, s. 50-51].

Qlobal bazarların yeni subyektləri TMŞ və TMB-lardır. Dünya iqtisadiyyatının, o cümlədən, dünya maliyyə bazarlarının qloballaşmasında və müasir dövrdə fəaliyyətində onlar aparıcı rol oynayırlar. Nəhəng TMŞ-lərin dövriyyəsi bir çox ölklərin MMM-undan, TMB-ların aktivləri isə dövlət büdcələrindən qat-qat çoxdur. Onların valyuta ehtiyatları dünyadakı bütün Mərkəzi bankların ehtiyatlarından bir neçə dəfə çoxdur. [191, s. 52].

Transmilli şirkətlər (TMŞ) və Transmilli Banklar (TMB) dünya bazarlarında rəqib durumundadırlar və onların maraqları bir-birindən kəskin sürətdə fərqlənir. Bu maraqlar onların fəaliyyət profilindən, ölkəyə daxil olma yollarından, mənşə ölkəsindən və sairdən asılıdır.

Şübhəsizdir ki, TMŞ və TMB nəhəng maliyyə ehtiyatlarına malikdirlər və ona görə də onlarla hesablaşmayan ayrı-ayrı ölkələrin hakim dairələrini «cəzalandıra» və ya «təşviq edə» bilirlər. Bu zaman onlarla vahid iqtisadi məkana daxil olmayan və güclü iqtisadi, elmi-texniki potensiala malik olmayan ölkələr



daha çox «cəzalandırılırlar». Lakin bir çox ölkələrin təcrübəsi göstərir ki, (Məsələn, Argentinanın) ölkənin iqtisadi inkişaf tələblərinə cavab verməyən təklif və tövsiyələrin qəbul edilməsi ölkədə ciddi çətinliklər yaradır, bəzən isə böhranla nəticələnir.

Lakin məlum olduğu kimi, müstəqil dövlətlər TMŞ və TMB-ın fəaliyyətinin ölkə daxilində hüququ tənzimlənməsi imkanına malikdirlər. Beləliklə, beynəlxalq kapital və maliyyə hərəkətində qloballaşma prosesində baş verən kəmiyyət və keyfiyyət dəyişmələri təsərrüfat və maliyyə həyatında yeni reallıqların yaranmasına səbəb olmuşdur. Həmin reallıqların nəzərə alınması transformasiya mərhələsində olan ölkələr, o cümlədən, Azərbaycan üçün olduqca vacibdir.

Dünya təsərrüfatı sisteminin beynəlmiləl xarakteri artdıqca beynəlxalq kapitalın hərəkəti də sürətlənir. Azad rəqabət dövründə ölkələr arasında mal hərəkəti ənənəvi olduğu halda, XIX əsrin sonları və XX əsrdə kapital hərəkəti beynəlxalq əlaqələrin daha tipik cəhətinə çevrilmişdir. 1914-cü ildən ikinci dünya müharibəsinin sonlarına qədər xarici kapital qoyuluşları təxminən 1/3 qədər artmışdır. İkinci dünya müharibəsindən sonra xarici kapital qoyuluşları hər on ildə, birbaşa investisiyalar isə hər 6-7 ildə iki dəfə artmışdır. Yalnız 1945-1985-ci illərdə sənaye ölkələrinin kapital ixracı 40 dəfədən çox artmışdır. 1983-1989-cu illərdə isə BVF-nə üzv olan ölkələrdə bütün formalarda kapital ixracı 3, 5 dəfədən çox artmışdır (299 mlrd. dollardan 1103 mlrd. dollara yüksəlmişdir). İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) məlumatlarına görə 1983-cü ildən sonra birbaşa xarici investisiyaların orta illik artım sürəti 34% olmuş və bu da dünya ticarətinin artım sürətindən 5 dəfə yüksək olmuşdur. Xaricdə külli miqdarda əcnəbi kapitalı fəaliyyət göstərir. BMT-nin məlumatına görə xaricdə toplanmış yalnız birbaşa investisiyalar 1993-cü ildə 2,0 trilliyon dollar təşkil etmişdir. 1992-ci ildə xarici kapital iştirak edən müəssisələrdə 5,5 trilliyon dollarlıq məhsul və xidmət istehsal edilmişdir. Sonrakı illərdə kapital ixracının artım sürəti həm məcmuu milli məhsulun, həm də mal ixracının artımından çox yüksək olmuşdur. Yalnız 1990-2000-ci illər ərzində qlobal valyuta bazarlarında gündəlik əməliyyatlar 2 dəfə, istiqraz bazarlarında 5 dəfə, səhm bazarlarında isə 20 dəfə artmışdır. [191, s. 49]. Beynəlxalq kapital hərəkəti dünya təsərrüfat əlaqələrinin mühüm amilinə çevrilmişdir. Xarici investisiyaların artması və borc kapitalının beynəlmiləlləşməsi nəticəsində dövlətlərarası kredit təşkilatları sistemi yaradılmış, nəhəng beynəlxalq pul bazarı formalaşmışdır. (bax: cədvəl №1. 1)

Kapitalın və maliyyənin beynəlxalq hərəkəti, hər şeydən əvvəl ölkələr arasında istehsal xərclərinin, xüsusən əmək haqqının səviyyəsində mövcud olan fərqlə əlaqədardır. Məsələn, ikinci dünya müharibəsindən sonra əmək tutumlu istehsal kütləvi sürətdə sənaye ölkələrindən əmək haqqı çox aşağı (bəzən on dəfə) səviyyədə olan inkişaf etməkdə olan ölkələrə köçürülməyə başlamışdır. Kapital hərəkətini şərtləndirən ən mühüm amillərdən biri ölkələr arasında təbii sərvətlərin qeyri-bərabər bölgüsüdür. Transmilli şirkətlər yüksək mənfəət əldə etmək üçün ucuz xammal mənbələrini ələ keçirməyə çalışırlar. Kapital və maliyyə hərəkəti ənənəvi olaraq mal hərəkətinə də yol açır və bazarların təmin olunmasına şərait yaradır.

Qlobal kapital və maliyyə bazarlarının aşağıdakı başlıca xüsusiyyətlərini qeyd etmək olar:

- əməliyyatların nəhəng miqdarda dünya maliyyə mərkəzlərində, habelə offşor zonalarda (dünya iqtisadiyyatının «qara bazarlarında») cəmlənməsi. 90-cı illərin əvvəlində yalnız «yeddilər» arasında gündəlik maliyyə axınları 420 mlrd. ABŞ dollar təşkil edirdi ki, bu da dünya ticarəti həcmindən 34 dəfə çox idi;
- coğrafi sərhədlərin olmaması;
- əməliyyatların bütün sutka ərzində aparılması;
- qabaqcıl ölkələrin valyutalarından, habelə AVRO və SDR-dən istifadə olunması;
- iştirakçıları əsasən yüksək reytinqə malik olan birinci dərəcəli banklar, şirkətlər, maliyyə-kredit institutları və hökumətlərdir;
- maliyyə xidmətlərində inqilab özünü göstərdiyi bir şəraitdə bazar seqmentləri və sövdələşmə alətlərinin çoxşaxəliliyi;
- beynəlxalq faiz dərəcələrinin spesifik olması;
- ən dəqiq elektron hesablama maşınlarından istifadə olunması əsasında kağızsız əməliyyatların yüksək informasiya texnologiyası və standartlaşdırılması;
- bütün dünyada sərbəst dəyişən valyuta məzənnəsi sisteminə keçilməsi ilə əlaqədar olaraq valyuta mübadiləsi əməliyyatlarının geniş vüsət alması. Valyuta birjası qlobal maliyyə bazarının aparıcı ünsürünə, valyuta məzənnələrinin gözlənilməz dəyişməsi və möhtəkirlik hücumları onun mühüm atributuna çevrilmişdir;
- mal və xidmətlərin beynəlxalq hərəkətinə xidmət edən dünya maliyyə axınlarının böyük vusət alması;
- qısamüddətli kreditlər və qiymətli kağızlara qoyuluşlar şəklində «qaynar» və ya «çılğın» pulların böyük məbləğlərdə axınının yaranması;
- maliyyə bazarlarının bütün seqmentlərində (valyuta, kredit, fond və sığorta) «heç nədən» pul düzəldən möhtəkirlik əməliyyatlarının görünməmiş dərəcədə artması;
- cinayətkarlıq yolları ilə əldə edilmiş qeyri-leqal pulların böyük miqdarda mövcud olması [191, s. 50-51].

Qlobal bazarların yeni subyektləri TMŞ və TMB-lardır. Dünya iqtisadiyyatının, o cümlədən, dünya maliyyə bazarlarının qloballaşmasında və müasir dövrdə fəaliyyətində onlar aparıcı rol oynayırlar. Nəhəng TMŞ-lərin dövriyyəsi bir çox ölklərin MMM-undan, TMB-ların aktivləri isə dövlət büdcələrindən qat-qat çoxdur. Onların valyuta ehtiyatları dünyadakı bütün Mərkəzi bankların ehtiyatlarından bir neçə dəfə çoxdur. [191, s. 52].

Transmilli şirkətlər (TMŞ) və Transmilli Banklar (TMB) dünya bazarlarında rəqib durumundadırlar və onların maraqları bir-birindən kəskin sürətdə fərqlənir. Bu maraqlar onların fəaliyyət profilindən, ölkəyə daxil olma yollarından, mənşə ölkəsindən və sairdən asılıdır.

Şübhəsizdir ki, TMŞ və TMB nəhəng maliyyə ehtiyatlarına malikdirlər və ona görə də onlarla hesablaşmayan ayrı-ayrı ölkələrin hakim dairələrini «cəzalandıra» və ya «təşviq edə» bilirlər. Bu zaman onlarla vahid iqtisadi məkana daxil olmayan və güclü iqtisadi, elmi-texniki potensiala malik olmayan ölkələr



daha çox «cəzalandırılırlar». Lakin bir çox ölkələrin təcrübəsi göstərir ki, (Məsələn, Argentinanın) ölkənin iqtisadi inkişaf tələblərinə cavab verməyən təklif və tövsiyələrin qəbul edilməsi ölkədə ciddi çətinliklər yaradır, bəzən isə böhranla nəticələnir.

Lakin məlum olduğu kimi, müstəqil dövlətlər TMŞ və TMB-ın fəaliyyətinin ölkə daxilində hüququ tənzimlənməsi imkanına malikdirlər. Beləliklə, beynəlxalq kapital və maliyyə hərəkətində qloballaşma prosesində baş verən kəmiyyət və keyfiyyət dəyişmələri təsərrüfat və maliyyə həyatında yeni reallıqların yaranmasına səbəb olmuşdur. Həmin reallıqların nəzərə alınması transformasiya mərhələsində olan ölkələr, o cümlədən, Azərbaycan üçün olduqca vacibdir.

Dünya təsərrüfatı sisteminin beynəlmiləl xarakteri artdıqca beynəlxalq kapitalın hərəkəti də sürətlənir. Azad rəqabət dövründə ölkələr arasında mal hərəkəti ənənəvi olduğu halda, XIX əsrin sonları və XX əsrdə kapital hərəkəti beynəlxalq əlaqələrin daha tipik cəhətinə çevrilmişdir. 1914-cü ildən ikinci dünya müharibəsinin sonlarına qədər xarici kapital qoyuluşları təxminən 1/3 qədər artmışdır. İkinci dünya müharibəsindən sonra xarici kapital qoyuluşları hər on ildə, birbaşa investisiyalar isə hər 6-7 ildə iki dəfə artmışdır. Yalnız 1945-1985-ci illərdə sənaye ölkələrinin kapital ixracı 40 dəfədən çox artmışdır. 1983-1989-cu illərdə isə BVF-nə üzv olan ölkələrdə bütün formalarda kapital ixracı 3, 5 dəfədən çox artmışdır (299 mlrd. dollardan 1103 mlrd. dollara yüksəlmişdir). İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) məlumatlarına görə 1983-cü ildən sonra birbaşa xarici investisiyaların orta illik artım sürəti 34% olmuş və bu da dünya ticarətinin artım sürətindən 5 dəfə yüksək olmuşdur. Xaricdə külli miqdarda əcnəbi kapitalı fəaliyyət göstərir. BMT-nin məlumatına görə xaricdə toplanmış yalnız birbaşa investisiyalar 1993-cü ildə 2,0 trilliyon dollar təşkil etmişdir. 1992-ci ildə xarici kapital iştirak edən müəssisələrdə 5,5 trilliyon dollarlıq məhsul və xidmət istehsal edilmişdir. Sonrakı illərdə kapital ixracının artım sürəti həm məcmuu milli məhsulun, həm də mal ixracının artımından çox yüksək olmuşdur. Yalnız 1990-2000-ci illər ərzində qlobal valyuta bazarlarında gündəlik əməliyyatlar 2 dəfə, istiqraz bazarlarında 5 dəfə, səhm bazarlarında isə 20 dəfə artmışdır. [191, s. 49]. Beynəlxalq kapital hərəkəti dünya təsərrüfat əlaqələrinin mühüm amilinə çevrilmişdir. Xarici investisiyaların artması və borc kapitalının beynəlmiləlləşməsi nəticəsində dövlətlərarası kredit təşkilatları sistemi yaradılmış, nəhəng beynəlxalq pul bazarı formalaşmışdır. (bax: cədvəl №1. 1)

Kapitalın və maliyyənin beynəlxalq hərəkəti, hər şeydən əvvəl ölkələr arasında istehsal xərclərinin, xüsusən əmək haqqının səviyyəsində mövcud olan fərqlə əlaqədardır. Məsələn, ikinci dünya müharibəsindən sonra əmək tutumlu istehsal kütləvi sürətdə sənaye ölkələrindən əmək haqqı çox aşağı (bəzən on dəfə) səviyyədə olan inkişaf etməkdə olan ölkələrə köçürülməyə başlamışdır. Kapital hərəkətini şərtləndirən ən mühüm amillərdən biri ölkələr arasında təbii sərvətlərin qeyri-bərabər bölgüsüdür. Transmilli şirkətlər yüksək mənfəət əldə etmək üçün ucuz xammal mənbələrini ələ keçirməyə çalışırlar. Kapital və maliyyə hərəkəti ənənəvi olaraq mal hərəkətinə də yol açır və bazarların təmin olunmasına şərait yaradır.

*Cədvəl №1. 1*

*Beynəlxalq maliyyə axınları (Mlrd. ABŞ dolları)*

| Ölkə | 1980 | 1985 | 1986 | 1987 | 1988 | 1989 | 1990 | 1991 | 1992 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Böyük Britaniya | | 366,1 | 648,9 | 830,1 | 642,6 | 766,6 | 689,0 | 1016,6 | |
| ABŞ | 9, 3 | 36, 4 | 71, 7 | 86, 1 | 85, 3 | 104,3 | 92, 1 | 98, 8 | 109, 3 |
| Yaponiya | | 62, 8 | 163,7 | 147,3 | 128,5 | 156,7 | 120,7 | 92, 9 | 72, 2 |
| Almaniya | 7, 5 | 33, 9 | 45, 6 | 55, 2 | 60, 7 | 67, 3 | 61, 1 | 59, 2 | 90, 8 |
| İtaliya | 1, 1 | 4, 0 | 6, 9 | 8, 1 | 10, 3 | 17, 6 | 26, 6 | 60, 4 | 118, 4 |
| Kanada | 9, 6 | 26, 7 | 40, 5 | 58, 9 | 39, 1 | 54, 5 | 64, 1 | 81, 4 | 111, 2 |

Beynəlxalq kapital hərəkətinin iqtisadi nəticələri: xarici kapital onu qəbul edən ölkədə kapital yığımı və istehsal güclərinə bilavasitə təsir edir. Kapital yığımı problemi inkişaf etməkdə olan ölkələr üçün xüsusən böyük əhəmiyyət daşıyır. Xarici kapital qoyulduğu ölkədə həm fəaliyyətə başlarkən gətirdiyi kapital ilə, həm də mənfəətdən yığıma ayırmalarla istehsal güclərini artırır. Xarici kapital özü ilə birlikdə texnologiya və müasir idarəçilik təcrübəsini də gətirir, elmi-tədqiqat işlərini təşkil edir, yerli kadrların hazırlanmasına yardım edir.

Xarici kapitalın gətirdiyi valyuta, idxal olunan malların istehsalını daxildə təşkil etməsi (idxalın əvəz olunması) və ixracat potensialının artırılması üzrə gördüyü işlər onu qəbul edən ölkənin ödəniş balansı müvazinətinin nizamlanması üçün böyük əhəmiyyətə malikdir. Lakin sonralar əldə olunan mənfəətin bir hissəsinin xaricə köçürülməsi ödəniş balansı müvazinətinə mənfi təsir edir. Ona görə də kapitalı qəbul edən ölkələr çox vaxt mənfəətin xaricə köçürülməsini məhdudlaşdırırlar.

İnkişaf etməkdə olan ölkələr xarici kapital üzrə yeritdikləri siyasətdə bu kapitalların ixracat yönlü istehsala qoyulmasını geniş təşviq edirlər. Çünki TMŞ-nin xarici bazarlarda bütün dünya miqyasında böyük şəbəkə və təcrübələri vardır.

Xarici kapital iqtisadiyyata dinamik xarakter verir və daxili rəqabəti artırır. Əgər ölkə daxilində hər hansı bir sahədə inhisar varsa, xarici kapitalın daxil olması onu aradan qaldırır, istehsalın artmasına və qiymətlərin aşağı düşməsinə səbəb olur.

Xarici kapital sahəsində dünya dövlətləri müxtəlif siyasət yeridirlər. Onların əksəriyyəti liberal siyasət yeritdiyi halda, bəziləri onların fəaliyyətini məhdudlaşdırmağa çalışırlar. Bu məhdudiyyətlər kapitalın qoyulma sahəsi (məsələn, dağ-mədən sənayesi, bank işi, qəzet buraxılması, sərinləşdirici içkilər istehsalında xarici kapital bəzən məhdudlaşdırılır və ya qadağan edilir), gətirilən texnologiyanın növü, xarici kapitalın yerli iştiraklarda payı, mənfəəti köçürmə payı, fəaliyyət kimi tələblər aiddir.

Bir çox iqtisadçılar birbaşa xarici kapital qoyan TMŞ-nin yaratdıqları müəssisələrin idarə olunmasını öz əllərində saxladıqları üçün ehtiyat edirlər ki, onlar aparıcı iqtisadi sahələri ələ keçirərək bütün iqtisadiyyatı öz nəzarəti altına ala bilərlər. Bunun nəticəsində isə ölkə müstəqil maliyyə, kredit və xarici ticarət siyasəti yeridə bilmək imkanını itirər, siyasi təşkilatlar da xaricilərin təsiri altına düşə bilər.



Rusiyanın iqtisadçı alimləri A. Libman və B. Xeyfets [327, 2008, №1, s. 150] kapital və maliyyənin hərəkətində ümumi məkan anlayışından istifadə edirlər. Onların fikrinə görə kapital hərəkətində ümumi məkan dedikdə beynəlxalq miqyasda ölkələrin hüquqi və fiziki şəxslərinin mobil kapitallarının sərhədlərdən keçirilməsi zamanı qarşıya çıxan maneələrin aradan qaldırılması üçün eyniləşdirilmiş qaydalar sistemi nəzərdə tutulur. Belə qaydalar beynəlxalq regional iqtisadi birliklər tərəfindən müəyyən edilir. İnvestisiya fəaliyyətində ən çox yayılmış məhdudiyyətlər öz ifadəsini konkret olaraq aşağıdakılarda tapır:

1. xaricdə qız şirkətlərinin yaradılması və yaxud şirkətin xaricdə pay sənədlərinin (səhmlərin) satın alınması qaydası. Ümumi mühit bu sahədə məhdudiyyətlərin aradan qaldırılmasını tələb edir;
2. investisiyaların icazəli xarakteri kapital hərəkətinin ümumi mühiti tələb edir ki, inteqrasiya birliyinin digər ölkələrinin şirkətlərinin investisiya qərarlarını məhdudlaşdıra bilməz. (məsələn, milli təhlükəsizlik məsələləri ilə əlaqədar və s. );
3. xarici investorlar üçün ölkəyə gəlmək məsələsində məhdudiyyət qoyulmamalıdır;
4. milliləşdirilmə təhlükəsinə qarşı zəmanət olmalıdır;
5. mənfəətin transferinə məhdudiyyət qoyulması problemi;
6. xarici şirkətin idarə olunmasında yerli kadrların iştirakına qoyulan tələblər və s;

Ölkə iqtisadiyyatının inkişafında inkaredilməz əhəmiyyətə malik olduğu halda, Kanada, Yaponiya və Qərbi Avropa kimi bir sıra inkişaf etmiş ölkələr milli iqtisadi mexanizm üzərində nəzarət sükanını itirməkdən qorxaraq öz ərazisində xarici investisiyaları məhdudlaşdırmağa çalışırlar. İnkişaf etməkdə olan ölkələrin mövqeyi ikilidir: onlar ölkəyə xarici kapital qoyuluşlarının həm artmasından, həm də azalmasından narahatdırlar. Onlar, bir tərəfdən xarici istismarın artmasından qorxurlar, digər tərəfdən isə xarici kapital və texnologiyanın məhdudlaşa biləcəyindən ehtiyat edirlər. Ancaq ümumiyyətlə götürüldükdə dünya təsərrüfat əlaqələrində birbaşa xarici investisiyalar sahəsində liberallaşdırma meyli, məhdudlaşdırma meylindən qat-qat yüksəkdir. Yalnız onu göstərmək kifayətdir ki, 1991-1994-cü illər ərzində milli investisiya qanunlarına edilmiş 373 düzəlişdən 368-i liberallaşma istiqamətində edilmişdir. Həmin illər ərzində xarici investisiyanın qorunması haqqında 900-dən çox ikitərəfli sazişlər bağlanmışdır. Dünya dövlətlərinin əksəriyyətində birbaşa xarici investisiyaların təşviq olunması üçün geniş miqyaslı maliyyə və digər tədbirlər sistemi həyata keçirilir (50-dən çox təşviq tədbiri mövcuddur).

*Cədvəl № 1. 2*

**İnkişaf etməkdə olan ölkələrə birbaşa kapital qoyuluşları (mlrd. doll. )***

| | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|---|---|
| Cəmi kapital qoyuluşu | 108, 1 | 75, 1 | 26, 7 | 46, 4 | 66, 0 | 71, 9 |
| Birbaşa investisiyalar | 129, 8 | 131, 8 | 129, 9 | 147, 3 | 115, 5 | 121, 8 |
| Özəl portfel qoyuluşları | 1, 8 | 12, 8 | -17, 9 | -51, 5 | -12, 8 | -9, 4 |
| Digər özəl kapital | -66, 4 | -94, 9 | -96, 0 | -87, 5 | -74, 1 | -74, 5 |

* [304, səh. 229].

Kapital və maliyyə ixracı onu ixrac edən ölkə üçün də müsbət və mənfi nəticələr doğurur. Mənfi nəticə öz əksini kapital qoyan ölkənin milli geniş təkrar istehsalı prosesindən kapitalın bir hissəsinin çıxarılmasında və onun artım sürətinin zəifləşməsində tapır. Kapital ixracı həmçinin bu ölkənin ödəniş balansının müvazinətinə da mənfi təsir göstərir.

*Cədvəl № 1. 3*

**İnkişaf etməkdə olan ölkələrə xarici kapital axını (mlrd. doll. )***

| İnkişaf etməkdə olan ölkələr | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|---|---|
| Cəmi kapital axını | 108, 1 | 75, 1 | 26, 7 | 46, 4 | 66, 0 | 71, 9 |
| Rəsmi kapital | 42, 9 | 25, 4 | 10, 7 | 38, 0 | 37, 4 | 34, 0 |
| Özəl kapital | 65, 2 | 49, 7 | 16, 1 | 8, 3 | 28, 6 | 37, 9 |
| Birbaşa xarici yardımlar | 129, 8 | 131, 8 | 129, 9 | 147, 3 | 115, 5 | 121, 8 |
| Özəl portfel qoyuluşları | 1, 8 | 12, 8 | -17, 9 | -51, 5 | -12, 8 | -9, 4 |
| Digər özəl kapital | -66, 4 | -94, 9 | -96, 0 | -87, 5 | -74, 1 | -74, 5 |



| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Cari ödəmələr balansı | -85, 1 | -10, 2 | -66, 7 | 39, 6 | 18, 9 | 0, 9 |
| Mal və xidmət balansı | -47, 3 | 39, 4 | 116, 6 | 84, 9 | 70, 1 | 49, 4 |
| Kapital əməliyyatları balansı | 115, 8 | 50, 5 | -27, 6 | -28, 3 | -10, 8 | 4, 9 |

* [304, səh. 272]

*Cədvəl № 1. 4*

**İnkişaf etməkdə olan ölkələrin cəmi xarici borcları (mlrd. doll. )***

| İnkişaf etməkdə olan ölkələr | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|---|---|
| Cəmi xarici borcları | 2. 182,3 | 2. 223,1 | 2. 199,4 | 2. 171,0 | 2. 200,8 | 2. 2000,8 |
| Neft ixracatçıları | 422, 9 | 432, 0 | 434, 1 | 425, 0 | 429, 3 | 426, 6 |
| Digər ixracatçılar | 1. 759,4 | 1. 791,1 | 1. 765,3 | 1. 746,0 | 1. 771,5 | 1. 781,2 |
| Qısa müddətli | 229, 5 | 212, 2 | 211, 0 | 194, 2 | 204, 5 | 206, 1 |
| Uzun müddətli | 1. 529,8 | 1. 579,0 | 1. 554,3 | 1. 551,7 | 1. 567,0 | 1. 575,0 |
| Borc verənlərə görə: rəsmi | 685, 6 | 701, 9 | 683, 4 | 703, 1 | 731, 5 | 761, 0 |
| Banklar | 497. 1 | 486. 1 | 476, 8 | 452, 7 | 458, 6 | 471, 4 |
| Digər özəl axınlar | 576, 7 | 603, 1 | 605, 0 | 590, 2 | 581, 4 | 548, 8 |
| İnkişaf etməkdə olan ölkələrdə xarici borcun ÜDM-ə nisbəti | 43, 2 | 44, 5 | 40, 6 | 40, 3 | 40, 9 | 38, 8 |

*[304, səh. 628].

Lakin xarici kapitaldan ölkəyə köçürülən mənfəətlə müqayisədə bu mənfi nəticələr o qədər böyük əhəmiyyətə malik deyildir. Bundan başqa, kapital qoyan ölkə kapital qoyulan ölkəni öz siyasi təsiri altına da sala bilər. Başqa sözlə, kapital qoyan ölkə xarici kapital siyasətini xarici siyasətin tərkib hissəsi kimi istifadə edə bilir.

Son illərdə inkişaf etməkdə olan ölkələrə birbaşa kapital qoyuluşları xarici

kapital axını və xarici borcların həcmi cədvəl№ 1. 2-1. 4-də verilən məlumatlarla xarakterizə edilir və qloballaşma təmayüllərinin geniş vüsət aldığını əks etdirir.

Dünya maliyyə mühitinin mühüm tərkib hissəsi beynəlxalq maliyyə bazarlarıdır. Onlar sövdələşmə obyekti pul kapitalı olan bazar münasibətlərinin spesifik sahəsidir. Bu bazarlar beynəlxalq iqtisadi münasibətlərin təkamülü prosesində milli bazarların bazası əsasında formalaşmışdır. Beynəlxalq maliyyə bazarları maliyyə ehtiyatlarının hərəkəti və yerləşdirilməsində aparıcı rol oynayır, dünya miqyasında valyuta məzənnəsinin müəyyən edilməsini tə'min edir. Onlar bazar iştirakçılarına imkan verir ki, faiz dərəcələri və valyuta məzənnələrinin gələcəkdə dəyişmə təmayüllərini qiymətləndirsinlər. Dünya maliyyə bazarları milli bazarlarla sıx sürətdə qarşılıqlı əlaqədə olmaqla bərabər, bir sıra xüsusiyyətlərə malikdirlər.

Dünya valyuta, kredit və maliyyə bazarlarının yaranmasının ilkin şərtləri istehsal və bank işində kapitalın təmərküzləşməsi; təsərrüfat əlaqələrinin beynəlmiləlləşməsi; elektron maşınların tətbiqi əsasında banklararası telekommunikasiyanın inkişafıdır.

Beynəlxalq maliyyə mərkəzinə çevrilmək üçün bunlardan başqa aşağıdakı şərtlər də tələb olunur: [190, s. 230]

1. iqtisadi azadlıq: maliyyə bazarı, fəaliyyət, istehlak, yığım və investisiya qoymaq azadlığını tələb edir;

2. daxili iqtisadi müvazinəti tə'min edən və xarici investorların e'tibarını qazanmış sabit valyuta;

3. yığımları və kapital qoyuluşlarını istiqamətləndirmək qabiliyyətinə malik səmərəli maliyyə institutlarının mövcud olması;

4. fəal, əhatəli mobil-kompleks bazarların mövcudluğu;

5. xüsusi maliyyə biliyi və ixtisaslı insan kapitalının mövcudluğu;

6. müvafiq hüquqi və sosial mühitin olması.

Hər ölkədə maliyyə mərkəzləri məlum şəhərlərdə yaranır. Bu mərkəzlər yerləşdikləri ölkə üçün milli maliyyə bazarlarıdır. Onların əsas funksiyaları maliyyə fondlarını təklif edənlərdən ehtiyacı olanlara səmərəli şəkildə verilməsini təmin etməkdir. Hər hansı bir ölkənin valyuta, kredit və maliyyə bazarlarında aparılan əməliyyatların əsas hissəsi bir qayda olaraq milli əməliyyatlardır. Yalnız onların müəyyən bir hissəsi beynəlxalq mahiyyət daşıyır.

Hal-hazırda dünyanın 13 maliyyə mərkəzlərində xarici bankların 1000-dən çox filial və şöbələri toplanmışdır.

Beləliklə, dünya maliyyə axınlarını idarə edən bir alət rolunu oynayan və bütün sutka ərzində fəaliyyət göstərən beynəlxalq bazar mexanizmi formalaşmışdır.

Son illərdə dünya valyuta, kredit və maliyyə bazarlarında sürətli qloballaşma prosesi gedir. Bir tərəfdən bazarlar genişlənir, digər tərəfdən isə bu bazarlarda beynəlxalq əməliyyatların xüsusi çəkisi artır. Bununla dünya dövlətlərinin və şirkətlərin daxili bazarlardan asılılığı azalır.

Sərhəddənkənar bazarların (cross-border markets) genişlənməsini şərtləndirən əsas amil investorların qanun daxilində öz kapitallarını sərbəst olaraq milli sərhədlərdən kənara çıxara bilməsi, beynəlxalq maliyyə bazarlarının milli bazarlardan daha sərfəli olmasıdır. Bu sərfəlilik beynəlxalq bazarlarda aparılan əməliyyatların genişliyi (yəni bu bazarların «topdansatış» mahiyyətinə malik olması) və daxili



bazarlarda faizlərin məhdudlaşdırılması, vergi və digər hökumət müdaxilələrinin olması ilə əlaqədardır. Rabitə texnologiyasının sürətli inkişafı beynəlxalq maliyyə əməliyyatlarına çəkilən xərcləri də ciddi azaltmışdır. Bütün bunlar isə daxili və xarici bazarlar arasındakı böyük fərqləri azaltmış və dünya maliyyə mərkəzlərinin yaranıb inkişaf etməsinə səbəb olmuşdur.

Beləliklə, məsələn, ABŞ-ın qiymətli kağızları dünyanın hər yerində 24 saat ərzində alınıb satılmaq imkanına malikdirlər.

Beynəlxalq maliyyə bazarlarının qloballaşması dünya maliyyə mərkəzləri və şirkətləri arasında qiymətli kağızlar sahəsində mövcud olan rəqabəti olduqca kəskinləşdirmişdir. Məsələn, əgər hər hansı bir dövlət milli bazarda qiymətli kağızlar üzrə məhdudlaşdırıcı tədbirləri azaldırsa, rəqabətə davam gətirmək üçün digər dövlətlər də məhdudlaşdırıcı tədbirlər görməyə məcburdurlar. Beləliklə, maliyyə sisteminin inkişafının hərəkətverici qüvvəsi rəqabətdir. Rəqabətin yaratdığı dinamik güc isə maliyyə yenilikləri - innovasiyadır (innivation).

Beynəlxalq maliyyə bazarlarında qloballaşma prosesləri XX əsrin 80-ci illərində yüksək sürət almışdır. Beynəlxalq maliyyə bazarlarında qloballaşma prosesinin sürətlənməsi aşağıdakı amillərlə əlaqədardır:

- əvvəlcə sənaye ölkələrində, sonralar isə inkişaf etməkdə olan ölkələrdə mal və kapital hərəkətlərini tənzimləyən qanunvericiliyin tədricən liberallaşdırılması;
- rabitə və kompyuter texnologiyasının sürətli inkişafı və banklarda həmin texnologiyaların geniş tətbiqi;
- beynəlxalq maliyyə bazarlarında digər maliyyə təşkilatlarının da banklarla rəqabət mübarizəsinə daxil olması.

Bretton-Vuds valyuta sisteminin süqut etdiyi və dünya neft böhranının özünü göstərdiyi 70-ci illərdə beynəlxalq maliyyə bazarlarında bankların rolu sürətlə artmışdır. Bretton-Vuds sistemi ləğv olunduqdan sonra bir çox ölkələr sabit məzənnə siyasətindən sərbəst dəyişən məzənnə sisteminə keçdilər və valyuta rejimlərini dəyişdirərək kapital hərəkətlərini məhdudlaşdıran müddəaları yumşaltmağa başladılar. Neft qiymətlərinin qısa müddət ərzində dörd dəfə artması nəticəsində neft ixrac edən ölkələrin (OPEC) əlində külli miqdarda valyuta ehtiyatlarının toplanmasına yol açdı. Bu ölkələr isə həmin ehtiyatları inkişaf etmiş sənaye ölkələri banklarında müxtəlif şəkildə yerləşdirdilər. Bu banklar isə astronomik rəqəmlərlə ifadə olunan həmin ehtiyatların dünya maliyyə bazarlarında yenidən yerləşdirilməsi əməliyyatlarını həyata keçirməyə başladılar. Bütün bunlar beynəlxalq maliyyə bazarlarının sürətlə genişlənməsini şərtləndirdi.

80-ci illərdə kompyuter və rabitə texnologiyasında özünü göstərən sürətli inkişaf bank əməliyyatlarına çəkilən xərclərin (maya dəyərinin) azalması ilə nəticələndi. Bu isə bank əməliyyatlarının genişlənməsinə, sayının artmasına səbəb oldu. Bu bazarlarda banklarla yanaşı sığorta şirkətləri, pensiya fondları, investisiya institutlarına geniş fəaliyyət sahəsi açıldı.

Beynəlxalq maliyyə inteqrasiyası (maliyyə inqilabının ikinci tərəfi) daxili və beynəlxalq maliyyə bazarları arasında mövcud olan maneələrin aradan qaldırılması və çoxtərəfli əlaqələrin inkişaf etdirilməsi ilə əlaqədardır. Maliyyə kapitalı sərbəst olaraq heç bir məhdudiyyət olmadan daxili bazardan dünya bazarına doğru və əks istiqamətdə hərəkət edə bilir.

Maliyyə inqilabının üçüncü tərəfi maliyyə yenilikləri, yəni yeni maliyyə alət və texnologiyalarının yaradılmasıdır. Bütün bunlar maliyyə sahəsində qloballaşmanı olduqca sürətləndirmişdir.

Valyuta bazarı öz həcminə görə dünya maliyyə bazarının ən böyük tərkib hissəsidir. O, dünya maliyyə bazarının tərkib hissələrinin qarşılıqlı əlaqələrində mühüm rol oynayır.

Məlum olduğu kimi, siyasi müstəqilliyin ayrılmaz atributlarından biri bütün ölkələrin özünəməxsus pul vahidinə malik olmasıdır. Milli pul vahidləri hər ölkənin xüsusiyyətinə uyğun olaraq müxtəlif adlar daşıyırlar.

Beynəlxalq iqtisadi əməliyyatların daxili iqtisadi əməliyyatlarından mühüm fərqləndirici cəhətlərindən biri odur ki, bu əməliyyatlarda ən azı iki ölkənin milli pul vahidləri iştirak edir.

**Dünya maliyyə bazarları. (İştirakçılar və strukturu)**

| Milli iştikarçılar | Bazarların strukturu | Beynəlxalq iştirakçılar |
|---|---|---|
| Şirkətlər | Valyuta bazarları, o cümlədən avrovalyuta bazarı | Beynəlxalq şirkətlər, TMŞ |
| Banklar və ixtisaslaşmış kredit maliyyə institutları, o cümlədən sığorta şirkətləri | Borc kapitalı bazarı<br>A) pul bazarı<br>B) kapital bazarı<br>V) avrobazar | Beynəlxalq banklar, TMŞ-lər, İxtisaslaşmış kredit-maliyyə institutları, o cümlədən sığorta şirkətləri |
| Fond və əmtəə birjaları. Dövlətlər. | Fond bazarları, sığorta bazarları, qızıl bazarları | Beynəlxalq fond və əmtəə birjaları, Beynəlxalq valyuta-kredit və maliyyə təşkilatları |

Hər bir ölkənin milli pul vahidi adətən, yalnız həmin ölkənin milli sərhədləri daxilində hərəkət edə bilir. Bu baxımdan ölkələrin xarici ölkələrlə ticarət və maliyyə əlaqələri yarada bilmələri üçün onların milli pul vahidləri bir-birinə dəyişdirilməlidir. Onların bir-birinə dəyişdirilməsi isə valyuta bazarı vasitəsilə həyata keçirilir.

Valyuta bazarı beynəlxalq maliyyə sisteminin mərkəzi həlqəsidir. Əməliyyatların həcminə görə o maliyyə bazarının bütün digər seqmentlərini qabaqlayır. Dünya valyuta bazarında gündəlik sövdələşmələrin həcmi orta hesabla 90-cı illərin ortalarında 1, 2 -1, 4 trln. dollara çatırdı. Müqayisə üçün göstərmək lazımdır ki, dünya istiqraz bazarlarında gündəlik əməliyyatlar 500-700 milyard dollar, səhm bazarında isə 100-150 milyard dollar həcmindədir.

Statistik məlumatlara görə, dünya valyuta bazarlarında valyuta mübadiləsinin gündəlik həcmi orta hesabla 1995-ci ildə 2561, 5, 2000-ci ildə 4072, 2 və 2006-cı ildə 9173, 3 SDR [bax: əlavə №16] təşkil etmişdir. Yalnız son on il



ərzində valyuta mübadiləsi 36 dəfə artmışdır. Müqayisə üçün göstərmək lazımdır ki, Dünya Valyuta bazarları əməliyyatlarının ümumi həcmi 2000-ci illərin əvvəllərində dünya ticarətindən 30 dəfə, məcmuu milli məhsuldan isə 15 dəfə çox olmuşdur. Həmin dövrdə valyuta əməliyyatlarının 656 mlrd. dollarını, yəni yarısından çoxu valyuta svapları, 387 mlrd. dolları isə spot əməliyyatlar təşkil etmişdir.

*Cədvəl № 1. 5*

**Dünya valyuta bazarlarında gündəlik əməliyyatlar (cəmi və növlərinə görə) mlrd. dollar (aprel aylarının orta səviyyəsi)***

| | 1989 | 1992 | 1995 | 1998 | 2001 |
|---|---|---|---|---|---|
| Valyuta əməliyyatının növü | 317 | 394 | 494 | 568 | 387 |
| Spot əməliyyatları | 27 | 58 | 97 | 128 | 131 |
| Müddətli əməliyyatlar | 190 | 324 | 546 | 734 | 656 |
| Valyuta svopları | 56 | 44 | 53 | 60 | 26 |
| Qeydiyyat nöqsanları | 590 | 820 | 1. 190 | 1. 490 | 1. 200 |
| Əməliyyatların cəmi | 570 | 760 | 990 | 1. 400 | 1. 200 |
| 2001-ci il aprel məzənnəsinə görə əməliyyatların cəmi | | | | | |

* [304, səh. 82]

Dünya valyuta əməliyyatlarının coğrafi bölgüsü təhlil edildikdə aydın olur ki, əməliyyatların yarısına yaxın (46, 8%-i) yalnız İngiltərə və ABŞ-ın payına düşür. Nəzərə almaq lazımdır ki, göstərilən tarixdə dünya valyuta bazarları əməliyyatlarının 30%-i dollar (avro, 20%-i dollar/ien, 11%-i dollar/funtsterlinq cütlüyü üzərinə düşür.

*Cədvəl № 1. 6*

**Dünya valyuta bazarlarının coğrafi bölgüsü (aprel aylarında gündəlik orta həcm) mlrd. dollar***

| | 1992 | | 2001 | |
|---|---|---|---|---|
| | *həcim* | *faiz* | *həcim* | *faiz* |
| Avstraliya | 29 | 2, 7 | 52 | 3, 2 |
| Kanada | 22 | 2, 0 | 42 | 2, 6 |
| Danimarka | 27 | 2, 5 | 23 | 1, 4 |
| Fransa | 33 | 3, 1 | 48 | 3, 0 |
| Almaniya | 55 | 5, 1 | 88 | 5, 4 |
| Honq Konq | 60 | 5, 6 | 67 | 4, 1 |
| İtaliya | 16 | 1, 5 | 17 | 1, 0 |
| Yaponiya | 120 | 11, 2 | 147 | 9, 1 |
| Hollandiya | 20 | 1, 9 | 30 | 1, 9 |
| Rusiya | - | - | 10 | 0, 6 |
| Sinqapur | 74 | 6, 9 | 101 | 6, 2 |

| | | | | |
|---|---|---|---|---|
| İsveç | 21 | 2, 0 | 24 | 1, 5 |
| İsveçrə | 66 | 6, 1 | 71 | 4, 4 |
| Türkiyə | - | - | 1 | 0, 1 |
| İngiltərə | 291 | 27, 0 | 504 | 31, 1 |
| ABD | 167 | 15, 5 | 254 | 15, 7 |
| Digər | 75 | 6, 9 | 139 | 8, 7 |
| Cəmi | 1. 076 | 100, 0 | 1. 618 | 100. 0 |

* [304, səh. 85].

Valyuta bazarları - tələb və təklif arasında formalaşan məzənnəyə görə xarici valyutanın milli valyuta ilə alqı-satqısının həyata keçirildiyi rəsmi mərkəzlərdir. Valyuta bazarlarında iki xarici valyutanın bir-birinə bilavasitə və ya dolayı yolla dəyişdirilməsi də mümkündür.

Müasir anlayışlara uyğun valyuta bazarları 19-cu əsrdə formalaşmışdır. Milli bazarların inkişafı və onların əlaqələrinin genişlənməsi nəticəsində dünya maliyyə mərkəzlərində aparıcı ölkələrin valyutaları üçün vahid ümumdünya valyuta bazarı meydana gəlmişdir. Onun əsas xarakterik cəhətləri aşağıdakılardır:

1. Valyuta bazarları alıcı və satıcıların qarşı-qarşıya dayandıqları bazarlar deyillər. Bu bazarlarda alıcı və satıcılar mal bazarlarından fərqli olaraq adətən heç üz-üzə gəlmirlər. Çünki alıcı və satıcılar əməliyyatları bilavasitə bir-birinə deyil, vasitəçi rolunu oynayan bank, digər maliyyə təşkilatları və ya fiziki şəxslərlə həyata keçirirlər.

2. Valyuta bazarları hər hansı birja şəklində təşkil olunmuş bazarlar deyildirlər. Valyuta əməliyyatları, məsələn, qiymətli kağızlar bazarında olduğu kimi müəyyən bir bina və ya təşkilata malik birjalarda aparılmır. Valyuta bazarları təşkil olunmamış bazarlardır. Valyuta əməliyyatları ilə məşğul olan bank və vasitəçi təşkilatlar daha çox tanınmış şəhərlərdə toplanırlar. Lakin əməliyyatlar müştərilərlə banklar və ya bankların öz aralarında azad bazar şərtləri daxilində aparılır.

Bəzi Qərbi Avropa (Fransa və Almaniya) və Skandinaviya ölkələrində böyük kommersiya banklarının təmsilçiləri hər iş gününün axırında mərkəzi bankda, bu bank təmsilçisinin sədrliyi ilə toplanırlar. Bu toplantılarda və bu cari məzənnələr əsas götürülərək, öz aralarında borc və alacaqlar balanslaşdırılır. Belə bazarlar bir növ təşkilatlanmış bazarlara bənzəyirlər. Lakin bu ölkələrdə yenə də valyuta əməliyyatlarının böyük hissəsi təşkilatlanmamış bazarlarda aparılır. Bununla yanaşı, mərkəzi banklarda müəyyən edilən iqterbank məzənnələri, şübhəsiz, təşkilatlanmamış bazarlarda formalaşan məzənnələrə müəyyən dərəcədə təsir edir.

3. Təsərrüfat əlaqələrinin beynəlmiləlləşdirilməsi, elektron rabitə vasitələrindən geniş istifadə edilməsi valyuta bazarlarının beynəlmiləl xarakterini getdikcə daha çox artırır.

Yuxarıda qeyd edildiyi kimi, valyuta ticarəti ilə məşğul olan qurumlar əsas etibarı ilə maliyyə mərkəzlərində, xüsusən, qiymətli kağızlar bazarlarına yaxın yerlərdə toplanırlar. Lakin bu, valyuta bazarlarının milli hüdudlarda məhdudlaşdırılması demək deyildir. Dünyanın harasında yerləşməsindən asılı olmayaraq valyuta əməliyyatları aparan bankların diler, broker və digər təmsilçiləri faks, teleks, telefon və kompyuter şəbəkələri ilə bir-birinə sıx bağlanmışlar. Bununla da, hər hansı bir ölkənin milli bazarında özünü göstərən dəyişikliklərdən başqa mərkəzlər dərhal xəbər tuturlar. Vaxtlı-vaxtında həyata keçirilən informasiya mübadiləsi arbitraj sisteminin mövcudluğu dolayı məzənnələrdə özünü göstərən hər hansı kənarlaşmanın da dərhal nizamlanması üçün şərait yaradır. Bu baxımdan, bütün milli bazarlardakı məzənnələr bir-birinə uyğun gəlir. Bu cəhət valyuta bazarlarının beynəlmiləl xarakterinin mühüm göstəricisidir.



4. Valyuta əməliyyatları bütün dünyada növbə ilə sutka ərzində fasiləsiz olaraq aparılır.

Qitələr arasında saat fərqlərinin mövcudluğu ilə əlaqədar olaraq 24 saat ərzində dünyadakı valyuta bazarlarından heç olmasa, hər hansı biri açıq olur. Məsələn, ABŞ-ın Qərbində, San-Fransiskoda iş günü qurtararkən uzaq Şərq bazarları (Tokio, Honk-Qonk, Sinqapur) işə başlayır. Bu bazarlar bağlandıqda isə, Orta Şərq bazarları artıq iki saat işləmiş olur. Valyuta bazarının 24 saat ərzində heç bağlanmamasının məzmunu budur: digər bazarlar bağlı olarkən açıq olan yerli bazarda özünü göstərən dəyişikliklər bütün başqa bazarlara da təsir göstərir. Deməli, dilerlər səhər tezdən işə başlayarkən dünən axşam bağlanmış bazarda mövcud məzənnələrdən fərqli bir məzənnə ilə işə başlaya bilərlər. Başqa, sözlə, valyuta məzənnələrinin sutkanın 24 saatı boyunca dəyişmək imkanı vardır.

5. Valyuta bazarları tam rəqabət şərtlərinin hökmran olduğu bazarlara daha çox oxşar olan bazarlardır.

Burada dövlət müdaxilələri minimum səviyyədədir. Bu isə, tam rəqabət şərtləri üçün geniş imkan yaradır. Bu bazarlarda alıcılar və satıcılar çoxsaylıdırlar: hər bir iştirakçının əməliyyatı bazar dövriyyəsinin kiçik bir hissəsini təşkil edir, bazarlara giriş və çıxış sərbəstdir. İştirakçılar hər an dəyişən bazar şərtləri haqqında mükəmməl məlumata malikdirlər.

6. Valyuta əməliyyatları sadələşdirilmişdir, hesablaşmalar müxbir hesabları üzrə aparılır.

7. Valyuta və kredit risklərini sığortalamaq üçün valyuta əməliyyatları geniş inkişaf etmişdir.

8. Möhtəkirlik və arbitraj əməliyyatları kommersiya sövdələşmələri ilə əlaqədar olan valyuta əməliyyatlarından xeyli çoxdur.

9. Bir çox əsas iqtisadi amillərdən asılı olmayaraq, öz xüsusi qanunları əsasında xüsusi birja malı olan valyutanın məzənnəsinin qeyri-sabitliyi artır.

Valyuta bazarı əməliyyatları. Bu əməliyyatlar həyata keçirildikdə aydın olur ki, xarici valyutalar həm nəqd, həm də bank tapşırıqları, valyuta veksellləri, depozit sertifikatları, turist çekləri və s. şəkildə ola bilərlər. Ona görə də valyuta bazarlarında əməliyyatlar həm nəqd, həm də nəqdsiz olaraq aparılır. İxracat və idxalat dəyərlərinin ödənilməsi, xaricə kapital ixracı kimi iri həcmli valyuta əməliyyatları nəqdsiz olaraq bank tapşırıqları, valyuta veksellləri və s. istifadə etməklə həyata keçirilir.

Valyuta bazarının əsas funksiyası beynəlxalq ticarət və kapital axınlarını həyata keçirməkdir. Ona görə də müasir şəraitdə valyuta bazarları öz həcminə görə dünyada ən böyük maliyyə bazarlarıdır. Valyuta bazarında valyuta təklif edənlər, yəni alıcılar və vasitəçi qurumlar iştirak edirlər. Tələb və təklifin nisbəti valyuta məzənnəsini müəyyən edir. Valyuta bazarlarının müştəriləri ixracatçı və idxalatçı

| | | | | |
|---|---|---|---|---|
| İsveç | 21 | 2, 0 | 24 | 1, 5 |
| İsveçrə | 66 | 6, 1 | 71 | 4, 4 |
| Türkiyə | - | - | 1 | 0, 1 |
| İngiltərə | 291 | 27, 0 | 504 | 31, 1 |
| ABD | 167 | 15, 5 | 254 | 15, 7 |
| Digər | 75 | 6, 9 | 139 | 8, 7 |
| Cəmi | 1. 076 | 100, 0 | 1. 618 | 100. 0 |

• [304, səh. 85].

Valyuta bazarları - tələb və təklif arasında formalaşan məzənnəyə görə xarici valyutanın milli valyuta ilə alqı-satqısının həyata keçirildiyi rəsmi mərkəzlərdir. Valyuta bazarlarında iki xarici valyutanın bir-birinə bilavasitə və ya dolayı yolla dəyişdirilməsi də mümkündür.

Müasir anlayışlara uyğun valyuta bazarları 19-cu əsrdə formalaşmışdır. Milli bazarların inkişafı və onların əlaqələrinin genişlənməsi nəticəsində dünya maliyyə mərkəzlərində aparıcı ölkələrin valyutaları üçün vahid ümumdünya valyuta bazarı meydana gəlmişdir. Onun əsas xarakterik cəhətləri aşağıdakılardır:

1. Valyuta bazarları alıcı və satıcıların qarşı-qarşıya dayandıqları bazarlar deyillər. Bu bazarlarda alıcı və satıcılar mal bazarlarından fərqli olaraq adətən heç üz-üzə gəlmirlər. Çünki alıcı və satıcılar əməliyyatları bilavasitə bir-birinə deyil, vasitəçi rolunu oynayan bank, digər maliyyə təşkilatları və ya fiziki şəxslərlə həyata keçirirlər.

2. Valyuta bazarları hər hansı birja şəklində təşkil olunmuş bazarlar deyildirlər. Valyuta əməliyyatları, məsələn, qiymətli kağızlar bazarında olduğu kimi müəyyən bir bina və ya təşkilata malik birjalarda aparılmır. Valyuta bazarları təşkil olunmamış bazarlardır. Valyuta əməliyyatları ilə məşğul olan bank və vasitəçi təşkilatlar daha çox tanınmış şəhərlərdə toplanırlar. Lakin əməliyyatlar müştərilərlə banklar və ya bankların öz aralarında azad bazar şərtləri daxilində aparılır.

Bəzi Qərbi Avropa (Fransa və Almaniya) və Skandinaviya ölkələrində böyük kommersiya banklarının təmsilçiləri hər iş gününün axırında mərkəzi bankda, bu bank təmsilçisinin sədrliyi ilə toplanırlar. Bu toplantılarda və bu cari məzənnələr əsas götürülərək, öz aralarında borc və alacaqlar balanslaşdırılır. Belə bazarlar bir növ təşkilatlanmış bazarlara bənzəyirlər. Lakin bu ölkələrdə yenə də valyuta əməliyyatlarının böyük hissəsi təşkilatlanmamış bazarlarda aparılır. Bununla yanaşı, mərkəzi banklarda müəyyən edilən iqterbank məzənnələri, şübhəsiz, təşkilatlanmamış bazarlarda formalaşan məzənnələrə müəyyən dərəcədə təsir edir.

3. Təsərrüfat əlaqələrinin beynəlmiləlləşdirilməsi, elektron rabitə vasitələrindən geniş istifadə edilməsi valyuta bazarlarının beynəlmiləl xarakterini getdikcə daha çox artırır.

Yuxarıda qeyd edildiyi kimi, valyuta ticarəti ilə məşğul olan qurumlar əsas etibarı ilə maliyyə mərkəzlərində, xüsusən, qiymətli kağızlar bazarlarına yaxın yerlərdə toplanırlar. Lakin bu, valyuta bazarlarının milli hüdudlarda məhdudlaşdırılması demək deyildir. Dünyanın harasında yerləşməsindən asılı olmayaraq valyuta əməliyyatları aparan bankların diler, broker və digər təmsilçiləri faks, teleks, telefon və kompyuter şəbəkələri ilə bir-birinə sıx bağlanmışlar. Bununla da, hər hansı bir ölkənin milli bazarında özünü göstərən dəyişikliklərdən başqa mərkəzlər dərhal xəbər tuturlar. Vaxtlı-vaxtında həyata keçirilən informasiya mübadiləsi arbitraj sisteminin mövcudluğu dolayı məzənnələrdə özünü göstərən hər hansı kənarlaşmanın da dərhal nizamlanması üçün şərait yaradır. Bu baxımdan, bütün milli bazarlardakı məzənnələr bir-birinə uyğun gəlir. Bu cəhət valyuta bazarlarının beynəlmiləl xarakterinin mühüm göstəricisidir.

4. Valyuta əməliyyatları bütün dünyada növbə ilə sutka ərzində fasiləsiz olaraq aparılır.

Qitələr arasında saat fərqlərinin mövcudluğu ilə əlaqədar olaraq 24 saat ərzində dünyadakı valyuta bazarlarından heç olmasa, hər hansı biri açıq olur. Məsələn, ABŞ-ın Qərbində, San-Fransiskoda iş günü qurtararkən uzaq Şərq bazarları (Tokio, Honk-Qonk, Sinqapur) işə başlayır. Bu bazarlar bağlandıqda isə, Orta Şərq bazarları artıq iki saat işləmiş olur. Valyuta bazarının 24 saat ərzində heç bağlanmamasının məzmunu budur: digər bazarlar bağlı olarkən açıq olan yerli bazarda özünü göstərən dəyişikliklər bütün başqa bazarlara da təsir göstərir. Deməli, dilerlər səhər tezdən işə başlayarkən dünən axşam bağlanmış bazarda mövcud məzənnələrdən fərqli bir məzənnə ilə işə başlaya bilərlər. Başqa sözlə, valyuta məzənnələrinin sutkanın 24 saatı boyunca dəyişmək imkanı vardır.

5. Valyuta bazarları tam rəqabət şərtlərinin hökmran olduğu bazarlara daha çox oxşar olan bazarlardır.

Burada dövlət müdaxilələri minimum səviyyədədir. Bu isə, tam rəqabət şərtləri üçün geniş imkan yaradır. Bu bazarlarda alıcılar və satıcılar çoxsaylıdırlar: hər bir iştirakçının əməliyyatı bazar dövriyyəsinin kiçik bir hissəsini təşkil edir, bazarlara giriş və çıxış sərbəstdir. İştirakçılar hər an dəyişən bazar şərtləri haqqında mükəmməl məlumata malikdirlər.

6. Valyuta əməliyyatları sadələşdirilmişdir, hesablaşmalar müxbir hesabları üzrə aparılır.

7. Valyuta və kredit risklərini sığortalamaq üçün valyuta əməliyyatları geniş inkişaf etmişdir.

8. Möhtəkirlik və arbitraj əməliyyatları kommersiya sövdələşmələri ilə əlaqədar olan valyuta əməliyyatlarından xeyli çoxdur.

9. Bir çox əsas iqtisadi amillərdən asılı olmayaraq, öz xüsusi qanunları əsasında xüsusi birja malı olan valyutanın məzənnəsinin qeyri-sabitliyi artır.

Valyuta bazarı əməliyyatları. Bu əməliyyatlar həyata keçirildikdə aydın olur ki, xarici valyutalar həm nəqd, həm də bank tapşırıqları, valyuta veksellləri, depozit sertifikatları, turist çekləri və s. şəkildə ola bilərlər. Ona görə də valyuta bazarlarında əməliyyatlar həm nəqd, həm də nəqdsiz olaraq aparılır. İxracat və idxalat dəyərlərinin ödənilməsi, xaricə kapital ixracı kimi iri həcmli valyuta əməliyyatları nəqdsiz olaraq bank tapşırıqları, valyuta veksellləri və s. istifadə etməklə həyata keçirilir.

Valyuta bazarının əsas funksiyası beynəlxalq ticarət və kapital axınlarını həyata keçirməkdir. Ona görə də müasir şəraitdə valyuta bazarları öz həcminə görə dünyada ən böyük maliyyə bazarlarıdır. Valyuta bazarında valyuta təklif edənlər, yəni alıcılar və vasitəçi qurumlar iştirak edirlər. Tələb və təklifin nisbəti valyuta məzənnəsini müəyyən edir. Valyuta bazarlarının müştəriləri ixracatçı və idxalatçı

kimi kommersantlarla yanaşı, xarici mənbə əldə etmək və ya xaricə kapital qoymaq istəyənlər, transmilli şirkətlər və dövlət təşkilatlarıdır. Bazarda, həmçinin, möhtəkirlər, arbitrajçılar və valyuta səbətini balanslaşdırmaq istəyən bank və maliyyə təşkilatları da alıcı və satıcı kimi iştirak edirlər. Nəhayət, valyuta məzənnəsinə müdaxilə etmək üçün mərkəzi banklar da, bəzən alqı-satqı əməliyyatları aparırlar.

Valyuta bazarında əsas vasitəçi təşkilat kommersiya banklarıdır. Demək olar ki, bütün böyük banklar öz müştərilərinə valyuta alqı-satqısı üzrə xidmət göstərirlər. Belə bankların hər birinin ayrıca valyuta departamenti vardır. Valyuta məzənnəsini müəyyən etmək, valyuta səbətini balanslaşdırmaq və s. bu departamentin funksiyalarına daxildir. Bir sıra kiçik banklar isə valyuta ticarətini iri banklar vasitəsilə həyata keçirirlər. Onlar bəzən iri bankların adından müştərilərə valyuta xidməti göstərirlər. Bəzən isə iri bankların mənbələrindən istifadə edirlər.

Bank olmayan bir sıra maliyyə təşkilatları da valyuta bazarında vasitəçi kimi çıxış edirlər. Bu təşkilatlar valyuta ticarəti ilə məşğul olan şirkətlərdir. Fiziki şəxslər də bu əməliyyatlarda iştirak edirlər. Burada brokerlər də ayrıca fəaliyyət göstərirlər. Bunlar bir növ kommusionçu mahiyyəti daşıyırlar, yəni onlar alqı və satqı təkliflərini tarazlaşdıraraq, əməliyyatların həyata keçirilməsinə vasitəçilik edir, xidmətləri müqabilində hər iki tərəfdən də kommisiyon haqqı alırlar. Brokerlər, ümumiyyətlə banklararası əməliyyatlara vasitəçilik edir və valyuta məzənnəsinin formalaşmasında mühüm rol oynayırlar.

Valyuta bazarlarında sövdələşmə alətləri əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır. Monometalizm dövründə beynəlxalq hesablaşmalarda kredit vasitələrindən istifadə olunması əsasında nəqdsiz beynəlxalq ödəmələr üstünlük təşkil edirdi. Beynəlxalq ödəmələrdə qızıl son vasitə hesab edilirdi.

Valyuta məzənnəsi qızıl nöqtəsinə çatdıqda borclu üçün öz borcunu qızıl ilə ödəmək daha əlverişli idi. Bu vaxt valyuta əməliyyatları aləti köçürülə bilən kommersiya veksellləri (tratta), yəni ixracatçı yaxud kreditorun idxalatçı və ya borcluya yazılmış tələbi idi. Banklar inkişaf etdikcə onlar bank veksellləri və çeklər, XIX əsrin ikinci yarısından isə köçürmələr tərəfindən sıxışdırılırdı. Bank vekseli - yerli bank tərəfindən öz xarici müxbirinə yazılmış vekseldir. Bu veksellləri milli bankdan satın alan borclular (idxalatçılar) onları kreditorlara (ixracatçılara) göndərirlər. Bu yolla onlar öz borc öhdəliklərini ödəmiş olurlar. Bank veksellləri də tədricən bank çekləri vasitəsilə sıxışdırılır. Bank çekləri - xaricdə hesabı olan sahibkarın təmsil olunduğu bankın xaricdəki müxbirinə onun cari hesabdan müəyyən məbləğin çeki təqdim edənə köçürülməsi haqqında yazılı əmrdir. Belə çekləri olan ixracatçılar onları öz banklarına satırlar.

Müasir beynəlxalq tədiyə dövriyyəsində bank köçürmələri - poçt, xüsusən, teleqraf köçürmələri geniş istifadə olunur. Köçürmə - bankın başqa ölkədəki öz müxbir bankına müştərisinin göstərişi üzrə, onun hesabından müəyyən məbləğ valyutanın köçürülməsi haqqında əmrdir. Köçürmə zamanı bank müştəriyə - xarici valyutanı milli valyuta müqabilində satır.

60-cı illərin axırlarından valyuta bazarlarında TMŞ-in rolu sürətlə artır. Onların fəaliyyətində xarici valyuta sövdələşmələri mühüm yer tutur. TMŞ-in valyuta bazarında apardığı əməliyyatlar aparıcı valyuta məzənnələrinin dəyişməsində əhəmiyyətli amillərdən biridir.

Valyuta bazarı əməliyyatlarının böyük hissəsi spot (nəqdi) əməliyyatlardan



ibarətdir. Onun az bir hissəsi müddətli sövdələşmələrdə (forward transactions) aparılır. Ona görə birinci növ əməliyyatların formalaşdığı bazarlar spot bazar və burada mövcud olan məzənnəyə isə spot məzənnə deyilir. İkinci növ əməliyyatların üstünlük təşkil etdiyi bazarlara isə müddətli bazar (forward market) və oradakı məzənnələrə isə müddətli məzənnə (forvard exshanqe rates) deyilir.

Məlum olduğu kimi, spot əməliyyatlar - milli valyuta alqı-satqısının, prinsip etibarilə aparıldığı əməliyyatlardır. Bank hesablarından tapşırıq şəklində aparılan əməliyyatlarda isə ödəmə müddəti (settlement date), bir qayda olaraq, müqavilə imzalandıqdan sonrakı iki iş günüdür. Bu müddət hər iki tərəfə əməliyyatı aparmaq üçün lazım olan vəsaitin əldə edilməsi üçün verilir.

Müddətli təhvil əməliyyatları müxtəlif şəkildə özünü göstərir. Bu əməliyyatlar aparılarkən bank ilə valyuta alqı-satqısı müqaviləsi bir gündə bağlanır. Lakin valyuta və onun müqabilində ödəniləcək milli pulun təhvili 30, 60 və ya 90 gün olmaqla, məlum müddətdən sonra həyata keçirilir. Beləliklə, müqavilənin bu gün bağlanması ilə nəzərdə tutulan müddətin sonunda tətbiq ediləcək məzənnə də indidən müəyyən edilir. Elektron texnologiyasının tətbiqi sayəsində valyuta ticarətinin iki əsas istiqaməti formalaşmışdır. Birincisi - elektron broker sistemi.

BVF-in məlumatlarına əsasən beynəlxalq avro maliyyə mərkəzlərində elektron broker sistemi ən fəal şəkildə cüt valyuta ticarətində (dollar-marka, dollar-ien, dollar-fst. və s. ) özünü göstərir. 1996-cı ilin yalnız aprel ayında Tokioda elektron broker ticarətində dollar-ien əməliyyatları üzrə broker bazarı əməliyyatlarının 50%-i həyata keçirilmişdir.

Valyuta əməliyyatlarında beynəlxalq mərkəz London (əməliyyatların 30%-i), Nyu-York (16%) və Tokiodur (10%).

Dünya maliyyə bazarı əməliyyatlarının strukturunda forvard əməliyyatları spot əməliyyatlarına nisbətən üstunlük təşkil edir.

Valyuta əməliyyatlarında ən çox istifadə olunan valyuta dollar olmaqda davam edir. XX əsrin sonunda onun payına bütün valyuta əməliyyatlarının 50%-i düşürdü. Müasir şəraitdə avro dolların mövqeyini ciddi sıxışdırmışdır.

Valyuta məzənnəsi. Məlum olduğu kimi, xarici valyutanın qiymətinə valyuta məzənnəsi deyilir. Ümumi şəkildə ifadə etsək, valyuta məzənnəsini iki müxtəlif valyuta arasındakı mübadilə nisbəti də adlandırmaq olar.

Valyuta məzənnələri təcrübədə, adətən, xarici pul vahidi əsas götürülərək, yəni bir vahid xarici valyutanın milli valyuta ilə qiyməti kimi müəyyən edilir. Məsələn, 1dollar = 4100 manat. Buna birbaşa kotirovka (direct quotation) deyilir. Dolayı kotirovka da (indirect quotation) mövcuddur. Bu zaman xarici valyutanın miqdarı milli pul ilə ifadə olunur. Əksər ölkələr birbaşa kotirovkadan istifadə edirlər.

Burada, adətən özünü göstərən bir məsələyə diqqət yetirməyi vacib hesab edirik. Məlum olduğu kimi, hər hansı bir milli pul vahidinin dəyəri valyuta məzənnəsi ilə ölçülür. Müvafiq olaraq, milli valyuta xarici valyutaya nisbətən dəyərini itirməsi (devalvasiyası), həmin xarici valyutanın milli valyuta ilə dəyərinin artması deməkdir. Bu isə, müvafiq valyutanın milli valyutanın qiymətinin yüksəlməsi ilə eynidir. Bizə məlum olan kotirovka anlayışına da aydınlıq gətirmək lazımdır. Belə ki, hər hansı bir bankın kotirovka etdiyi valyuta alış (və ya satış) məzənnəsi, həmin bankın özünün bu məzənnə ilə valyuta almağa (satmağa) hazır

olduğunu ifadə edir. Təbiidir ki, müştərilər üçün bu məzənnə məcburi deyildir. Əgər müştərilər bu məzənnəni az hesab edərək, valyutanı satmaqdan imtina etsələr, bank bazar şərtlərinə əsasən daha real satış məzənnəsi müəyyən etməyə məcbur olur. Bu baxımdan, kotirovka edilən məzənnələr əməliyyatın mütləq aparılacağı məzənnə deyil, əməliyyat üçün təklif olunan məzənnədir.

Məlum olduğu kimi, banklar və valyuta ticarəti ilə məşğul olan digər maliyyə qurumları, adətən, valyuta sövdələşmələrindən kommisiyon almırlar. Bunun əvəzinə, valyuta məzənnələrinin alış məzənnəsi (bid rate) və satış məzənnəsi (ask rate) olmaqla, ayrı-ayrı müəyyən edirlər. Alış məzənnələri, satış məzənnələrindən aşağı olur və aradakı fərq bank mənfəətini təşkil edir. Bank əməliyyatları apararkən gündəlik alış və satış məzənnələrini olduğu kimi müştərilərə bildirir.

Alış və satış məzənnələri arasındakı fərqə məzənnə marjası (spread) deyilir. Lakin marjanın hamısı bank mənfəətini təşkil etmir. Çünki onun tərkibinə bank məsrəfləri də daxildir. Məzənnə marjasını faiz dərəcəsi, mənfəət norması və bu kimi digər göstəricilərlə müqayisə etmək üçün onun də faiz dərəcəsi hesablanır. Bu məqsədlə aşağıdakı sadə formuladan istifadə edilir:

Məzənnə marjası faizi:

$$\frac{s-Pa}{Ps}\times 100$$

Burada, Ps və Pa müvafiq olaraq, bankın satış və alış məzənnələrini ifadə edir. Nəzərə almaq lazımdır ki, marja ödəmələrinin müddəti çox qısadır. Ona görə də onlar illik göstəricilərə əsasən hesablandıqda olduqca yüksək nəticə görünə bilər.

Adətən, bazarda çox alınıb satılan valyutalar üzrə marja az, çox işlənməyən valyutalar üzrə isə, əksinə, çox olur. Alqı-satqı çox olduqda marja təbii olaraq, azalır. Bazarlarda qeyri sabitlik yarandıqda marjalar artır. Çünki bu zaman bank riski də artır.

Diqqəti cəlb edən digər bir mühüm cəhət odur ki, marja miqdarı nəqd və nəğdsiz valyuta mübadiləsində müxtəlif olur. Daha doğrusu, nəqd valyutalar nəğdsiz valyutalara nisbətən banklar tərəfindən ucuz alınıb satılır. Bunun da səbəbi nəqdi valyuta mübadiləsinin kiçik məbləğlərdən ibarət olmasıdır. Başqa bir səbəbi isə, bank kassalarında olan nəqdi valyutaların heç bir gəlir gətirməməsidir. Bank hesablarında olan valyuta isə gəlir gətirir. Nəqd valyutalar adətən, turistlərdən daxil olur. Müxtəlif ölkələrdən gətirilən bu valyutaların yenidən mənşə ölkəsinə qaytarılması əlavə xərclər tələb edir. Ona görə də banklar nəqdsiz valyuta mübadiləsinə üstünlük verirlər.

Valyuta arbitrajı. Valyuta daşınan əmlak və ya mal istehsal amilləri kimi iqtisadi varlıqların qiymətlərində eyni anda mövcud olan fərqlərdən faydalanmaq üçün paralel şəkildə həyata keçirilən alqı-satqı əməliyyatlarına arbitraj (arbitraqe) deyilir. Göründüyü kimi, arbitraj bütün iqtisadi və maliyyə dəyərlərində tətbiq edilən geniş əhatəli anlayışdır. Fərqləndirici cəhəti, eyni anda qiymətlərdə mövcud fərqlərdən faydalanmaq istəyidir. Belə əməliyyatı həyata keçirərkən heç bir riskə gedilmir. Risksiz olması onu möhtəkirlikdən fərqləndirən əsas cəhətidir.

İki uclu arbitraj. Yer arbitrajı: Arbitrajın bir neçə növü vardır. Hər şeydən



əvvəl, eyni valyuta növünün müxtəlif bazarlarda eyni vaxtda məzənnələrinin biri o birindən fərqlənməsi nəticəsində meydana gələn arbitrajı göstərmək lazımdır. Məsələn, fərz edək ki, müəyyən bir vaxtda dolların manatla məzənnəsi Nyu-York və Bakı bazarlarında aşağıdakı kimidir:

| Bakı bazarı | Nyu-York bazarı |
|---|---|
| 1 = 0, 84 qəpik | 1 = 0, 85 qəpik |

Göstərilən misalda dolların manatla məzənnəsi Bakıda ucuz, Nyu-Yorkda isə bahadır. Arbitrajçı bu məzənnə fərqindən dərhal faydalanmağa çalışır. Bunun üçün o, Bakı bazarında manatla dolları satın alır. Və bu dolları Nyu-York bazarında yenidən manata çevirir. Bu zaman, o məsrəflər nəzərə alınmazsa, hər dollardan 1 qəpik qazanc əldə edir. Arbitrajçı əks əməliyyat da apara bilər, yəni, Nyu-Yorkda dolları sataraq manat əldə edir və onu da Bakıda yenidən dollara çevirir. Belə arbitraj növünə «yer arbitrajı» (space arbitrage) deyilir. İki müxtəlif valyuta ilə əlaqədar olduğu üçün ona bəzən «iki uclu arbitraj» (two-point arbitrage) da deyilir.

Arbitrajçı müxtəlif bazarlarda alqı-satqı əməliyyatlarını yalnız bir bank vasitəsilə həyata keçirir. Bu bank, öz şöbələri vasitəsilə hər iki bazarda fəaliyyət göstərən bank da ola bilər. Bu əməliyyat ona görə eyni bank vasitəsilə aparılır ki, məzənnə dəyişmələri ilə əlaqədar risk təhlükəsi yaranmasın. Arbitrajçı iki müxtəlif bazarda məzənnə fərqinin aradan qaldırılmasına yardım etdiyi üçün iqtisadi funksiyanı da yerinə yetirir.

Birbaşa və dolayı məzənnə fərqi ilə arbitraj: üç uclu arbitraj. Arbitraj bəzən müxtəlif bazarlarda mövcud olan məzənnə fərqləri ilə deyil, eyni bazarda iki valyuta arasında düz kotirovkadan yaranan birbaşa məzənnə ilə əks kotirovka əsasında hesablanan dolayı məzənnə arasındakı fərqlə əlaqədar meydana gəlir.

Valyuta əməliyyatlarında bankın məruz qaldığı risk gözlənilməyən məzənnə dəyişikliyi ilə əlaqədardır. Məsələn, məzənnədə özünü göstərən azalma bankın əlindəki valyuta ehtiyatlarının dəyərini azaldaraq, bankı itkiyə məruz qoya bilər. Eyni ilə məzənnənin yüksəlməsi də bankın valyuta borclarının milli valyuta müqabilini artıraraq, yenə də itki yaradır. İndi belə ehtimallar və onun qarşısının alınması üçün görülən tədbirlərə diqqət yetirək.

İş gününün axırında hər hansı bir valyuta, məsələn, dollar üzrə bankın müştərilərindən satın aldığı məbləğ, onun satış məbləğinə bərabər olduğu hallarda bankın bu valyuta pozisiyasında heç bir dəyişiklik olmur. Deməli, valyuta riski də yoxdur. Satın alınan valyuta məbləği satış həcmindən çox olarsa, bu halda valyuta ehtiyatı artmış olur. Belə vəziyyəti müvafiq xarici valyuta üzrə izafi pozisiya (long position) yaranması halı adlandırırlar. Bunun əksi isə, bankın eyni valyuta üzrə satış məbləğinin alış məbləğindən çox olmasıdır. Buna isə naqis pozisiya (short position) deyilir.

İstər izafi, istərsə də naqis pozisiya hallarında bank valyuta riskinə məruz qalır. Çünki birinci halda o, izafi valyuta ehtiyatına malikdir. Əgər bu izafiliyi ləğv etməzsə, o, məzənnənin azalmasından ziyana düşəcəkdir. Naqis pozisiya halında da risk vardır. Çünki portfeldə lazım olandan az valyuta, ya da izafi milli valyuta mövcuddur. Bu valyutanı satın alıb boşluğu doldurduğu zaman valyuta məzənnəsi

yüksələrsə, yenə də bank zərər çəkəcəkdir.

Ona görə də bank etibarlı hərəkət etmək üçün izafi və naqis pozisiyaları tənləşdirməlidir. Bəs bu necə edilməlidir? Bu sualın cavabı aşağıdakı kimidir.

Fərz edək ki, hər hansı bir bank dollar üzrə naqis pozisiyaya malikdir. Pozisiyanı tənləşdirmək üçün bu bank iki yoldan birini seçməlidir. Birincisi, elə bir bank axtarıb tapmalıdır ki, onun dollar üzrə izafi pozisiyası olsun. İkincisi isə, o, brokerə müraciət etməli və müəyyən haqq müqabilində onun vasitəçi xidmətindən istifadə etməlidir.

Qeyd etmək lazımdır ki, banklar istər alıcı, istərsə də satıcı kimi bazara daxil olduqda özlərinin kim olduğunu bildirməyi arzu etmirlər. Çünki bu həm onların özləri, həm də bazar üçün arzuolunmaz nəticələr doğura bilər. Məsələn, iri bir bankın bazara alıcı sifətində daxil olması bazarda valyutaya olan tələbin artmasına bir işarə sayıla bilər və satıcı məzənnəni dərhal yüksəldə bilər. Böyük bir bankın valyuta satması da bazarda məzənnənələrin azalmasına təsir göstərə bilər. Kiçik banklar isə kommersiya gücünün zəifliyini büruzə verməmək üçün bazarda öz kimliyini son mərhələyə qədər bildirməməyi üstün tuturlar.

İndi broker vasitəsi ilə dollar satın almaq istəyən banka bir misal kimi nəzər salaq. Bank brokerə satın almaq istədiyi valyutanın miqdarı və ödəmək istədiyi məzənnənin yuxarı həddi haqqında məlumat verir. Broker də əlində belə bir təklif mövcuddursa, əlaqədar banka bu haqda məlumat verir. Əgər belə bir təklif yoxdursa və ya iki bank arasında razılaşma baş tutmazsa, broker alıcının kimliyini bildirmədən, müxtəlif banklara müraciət edir və onlardan müvafiq cavab təklifləri alır və onların arasında ən əlverişlisi haqqında valyuta istəyən banka məlumat verir. Təklif qəbul edildikdə iki tərəf arasında birbaşa əlaqə yaradılır. O mərhələyə qədər banklar bir-birini tanımırlar.

Brokerlər öz vasitəçilik fəaliyyəti ilə valyuta bazarında hadisələrin mərkəzində olurlar. Ona görə də onlar, bazarın gedişi və məzənnə dəyişmələrinin müəyyən edilməsinə mühüm təsir göstərirlər. Lakin brokerlərin xidmətləri çox bahalıdır. Ona görə böyük banklar çox vaxt brokerə müraciət etmədən öz aralarında əlaqə yaratmağa çalışırlar.

Bankların öz aralarında apardıqları banklararası valyuta əməliyyatlarının (interbank) həcmi, onların müştərilər ilə etdikləri əməliyyatların həcmindən çox böyükdür. Banklararası valyuta əməliyyatlarının həcmi çox böyük olduğu üçün, onlara tətbiq edilən valyuta məzənnələri də pərakəndə valyuta əməliyyatlarına nisbətən yüksək olur. Banklar interbank məzənnələrinə məlum miqdar marja əlavə edərək, müştərilərinə tətbiq etdikləri məzənnələri formalaşdırırlar.

Onu da göstərmək lazımdır ki, banklar pərakəndə bazardakı müştərilərindən daxil olacaq sifarişləri təmin etmək üçün, adətən interbank bazarına getmirlər. Çünki onlar bu məsələdə müəyyən elastikliyi gözləməyə məcburdurlar. Pozisiyalardakı azalma və artma, yalnız özlərinin müəyyən etdikləri həddə çatdıqdan sonra onlar tənləşdirmə əməliyyatına başlayırlar.

**Müddətli valyuta bazarı** (Forward Currency Market).

Milli pul müqabilində valyutanın müəyyən müddətdən sonra təhvil verilməsi şərtilə alqı-satqısı üçün bu gündən bağlanan müqavilələrə müddətli valyuta əməliyyatları (forward currencu transactions) deyilir. Bu əməliyyatları formalaşdıran bazarlar isə müddətli valyuta bazarı (forward currencu market) adlanır.



Göründüyü kimi, müddətli valyuta əməliyyatlarının xarakterik xüsusiyyəti valyuta alqı-satqısı haqqında müqavilənin bu gündən bağlanması, valyutanın təhvili və digər ödəmənin isə müqavilədə razılaşdırılan məzənnə ilə və müddətdə həyata keçirilməsidir. Bir qayda olaraq müqavilə bağlanarkən heç bir ödəniş aparılmır. Təhvil və ödəmə müddəti isə adətən bir ildən az olur.

Belə əməliyyatlar valyuta bazarında fəaliyyət göstərən banklarla müştəriləri arasında həyata keçirilir. Onları doğuran əsas səbəb valyuta məzənnəsinin gələcəyinin qeyri-müəyyən olmasıdır. Əgər valyuta məzənnəsindəki gələcək dəyişikliklər məlum olsaydı, bu əməliyyatlara ehtiyac qalmazdı. Bu əməliyyatlardan ən çox gələcəkdə valyuta ilə ödəmə etməli olan və ya gəlir əldə edəcək idxalatçı, ixracatçı və ya xarici kapital qoyan iş adamları istifadə edirlər. Qiymətlər əvvəlcədən razılaşdırıldığı üçün müddətli müqavilələr belə iş adamlarının gələcəkdə özünü göstərə bilən məzənnə dəyişməsi riskindən qoruyur.

Müddətli müqavilələrdə ödənilmə müddəti, tətbiq ediləcək valyuta məzənnəsi, valyuta məbləği, təhvil olunacaq yer, bank, hesab nömrəsi və s. məlumatlar öz əksini tapır. Belə əməliyyatlarda tətbiq edilən məzənnələr müddətli ödəmə məzənnəsi (forward exchange rates) adlanır.

Bu məzənnələr, bir qayda olaraq, spot məzənnələrdən fərqli olurlar. Müddətli məzənnələr daha çox 30, 60, 90 və 180 günlük müddətə görə kotirovka olunur.

Müddətli məzənnələr adətən spot məzənnələrlə müqayisəli şəkildə verilir. Əgər müddətli ödəmə məzənnəsi spot məzənnədən yüksəkdirsə, aradakı fərqə müddətli ödəmə mükafatı (forward premium) deyilir.

Əksinə müddətli məzənnə spot məzənnədən az olduqda aradakı mənfi fərq müddətli məzənnə diskontu (forward discount) adlanır. Nəhayət, hər iki məzənnə bir-birinə bərabər olduqda məzənnələrin düz (flat) olması qeyd edilir.

Spot ödəmə bazarları ilə aralarında mövcud olan fərqə baxmayaraq, müddətli ödəmə bazarları da valyuta bazarlarının ümumi xüsusiyyətlərinə malikdirlər. Belə ki, bu bazarların da əsas vasitəçiləri banklar və brokerlərdir. Dünyanın harasında yerləşməsindən asılı olmayaraq, bu şəxs və təşkilatlar ən mükəmməl rabitə vasitələri ilə daima əlaqədədirlər. Prinsip olaraq ödəmələr sərhəddən kənara natural valyuta göndərilməklə həyata keçirilmir. Bu əməliyyatlar müvafiq ölkələrdəki bank hesablarındakı alacaq və borc qeydlərinin azaldılması və ya artırılması yolu ilə həyata keçirilir.

Bu bazarlardakı əməliyyatların da bir hissəsi banklarla müştəriləri arasındakı (pərakəndə bazar), digər hissəsi müddətli valyuta pozisiyalarını tarazlaşdırmaq məqsədilə bankların öz aralarında aparılır. Bu ikincisi, müddətli valyuta interbankı adlanır. Banklar müddətli valyuta pozisiyalarındakı çatışmazlıq və ya artıqlığı tarazlaşdırmaq üçün interbank əməliyyatlarından istifadə edirlər. Bankların öz aralarındakı müddətli ödəmə əməliyyatları üçün müəyyən etdikləri məzənnələr, müştərilərinə tətbiq etdikləri məzənnələrdən fərqlidir. Prinsip olaraq ikinci birincidən yüksək olur.

Dünyanın əsas bazarlarında məlum saatlarda kotirovka edilən spot ödəmə və fərqli müddətlərə görə müddətli ödəmə məzənnənələri Wall Street Cournal adlı gündəlik maliyyə nəşrində və digər mətbuat vasitələrinin kanalları ilə mütəmadi olaraq yayılır. Onlar əsasən inkişaf etmiş ölkələrin valyutalarını əhatə edir.

Qeyd etmək lazımdır ki, valyuta bazarı dedikdə, hər şeydən əvvəl spot ödəmə bazarları nəzərə alınır. Çünki valyuta əməliyyatlarının əksəriyyəti bu bazarlarda həyata keçirilir. Müddətli ödəmə bazarlarının əməliyyatları da getdikcə genişlənir. İnkişaf etmiş sənaye ölkələrində bu bazarın həcmi astronomik rəqəmlərlə xarakterizə edilməyə başlamışdır.

Onu da göstərmək lazımdır ki, müddətli ödəmə bazarları yalnız ödəmə əməliyyatları ilə məhdudlaşmır. Belə bazarlar keçmişdə qızıl, buğda, şəkər və s. kimi kommersiya malları üçün yaradılıb, inkişaf etdirilmişdir. Lakin valyuta bazarlarından fərqli olaraq, göstərilən mal bazarları müəyyən bir məkanda aparılırdı.

## 1. 4. Əmək amilinin və əmək bazarının transformasiyası

Hər bir cəmiyyətdə sosial strukturun əsasını əmək prosesi təşkil edir. Elmi-texniki tərəqqi və texnologiyanın inkişafı nəticəsində əmək prosesi və istehsal münasibətlərində baş verən dəyişikliklər bütövlükdə cəmiyyətin təkamülünə təsir edir. Cəmiyyətdə baş verən təkamül prosesləri isə özünün birbaşa ifadəsini məşğulluq və peşə strukturunun dəyişməsində tapır. Məlum olduğu kimi, məşğulluğun strukturu hər bir cəmiyyətin siyasi, iqtisadi və mədəni mühitinə uyğun olaraq müxtəlifdir. Bu müxtəliflik qloballaşma dövründə spesifik xarakter alır.

Postsənaye cəmiyyəti haqqında klassik nəzəriyyəyə uyğun olaraq məşğulluğun strukturu aşağıdakı kimi dəyişir:

*1. Məhsuldarlıq və iqtisadi artımın mənbəyi informasiyanın işlənməsi və tətbiqi vasitəsilə iqtisadi fəaliyyətin bütün sahələrinə yayılan bilikdir.*

*2. İqtisadi fəaliyyət məhsul istehsalından xidmət göstərilməsinə tərəf dəyişilir.*

Kənd təsərrüfatı sahəsində məşğulluğun azalması sənaye istehsalında da məşğulluğun azalması ilə müşayiət edilir. Xidmət sahəsində isə iş yerləri sürətlə artır və məşğulluğun əsas hissəsini təşkil edir. İqtisadiyyat nə qədər çox inkişaf edirsə, məşğulluq da bir o qədər çox xidmət sahəsində cəmlənmiş olar.

Yeni qlobal iqtisadiyyatda xidmət sahəsinin təmsilçilərinin informasiya və bilik sahəsində yüksək səviyyədə təmərküzləşməsi ilə əlaqədar peşələrin əhəmiyyəti diqqət mərkəzində olacaqdır. Xüsusi vurğulamaq lazımdır ki, bütün digər növ məşğulluğa nisbətən menecerlərə, mütəxəssis və texniklərə tələbat daha sürətlə artacaqdır.

Onu da göstərmək lazımdır ki, qlobal iqtisadiyyatda məşğulluğun əsasını təşkil edən «xidmət sahəsi» anlayışının dəqiqləşdirilməyə ehtiyacı vardır. Həmin anlayış çox vaxt birmənalı başa düşülmür. Məşğulluq haqqında statistikada o çox vaxt «qalıq» anlayışı əsasında müəyyən edilirdi. Yəni kənd təsərrüfatı, dağ-mədən sənayesi, inşaat, kommunal müəssisələr və yaxud emaledici sənayeyə daxil olmayan hər şey «xidmət» anlayışına aid edilirdi. Beləliklə, xidmət kateqoriyası tarixən müxtəlif sosial struktur və istehsal sistemində meydana gəlmiş hər növ fəaliyyəti əks etdirir. Bu kateqoriyanın elə bir vahid ümumi cəhəti yoxdur. Onun «maddiliyə» əks anlayış kimi başa düşülməsi də düzgün deyildi. Kompüter proqramı təminatı, videoistehsal, mikroelektronikanın layihələşdirilməsi, biotexnikaya əsaslanan kənd təsərrüfatı və s., habelə inkişaf etmiş iqtisadiyyat üçün xarakterik olan bir çox digər mühüm proseslər özünün informasiya məzmununu



məhsulun maddi tərəfi ilə birləşdirir, mal və xidmətlər arasında dəqiq sərhəd qoyulmasına imkan vermir. Bununla yanaşı informasiya iqtisadiyyatında da xidmətin hər bir spesifik növü əvvəlki industrial iqtisadiyyatda mövcud olan sənaye və xidmətin mühüm və müstəqil maddəsi kimi vacibdir. Bunları nəzərə alaraq M. Kastels xidmət sahəsində fəaliyyəti bir-biri ilə sıx əlaqədar olan bir neçə növə bölür. [188, s. 205]

Onun fikrinə görə, bölgü sahəsində olan xidmət kommunikasiya, nəqliyyat və ticarət xidməti (topdan və pərakəndə satış) şəbəkələri sahəsində fəaliyyəti özündə birləşdirir. İstehsalçılara xidmət iqtisadiyyata həlledici kapital qoyuluşları sahəsində göstərilən xidmətlərdir. Onlar da biznesə yardımçı xidmətləri özündə birləşdirir. Bu sahədə yüksək ixtisas tələb olunmur. Sosial xidmətlər hökumət fəaliyyətinin bütün sahələrini, habelə kollektiv istehlakla əlaqədar işləri əhatə edir. Məişət xidməti fərdi istehlak ilə əlaqədardır.

Yuxarıda qeyd edildiyi kimi, qlobal iqtisadiyyatda yeni peşə strukturunun özəyini informasiya sahəsində iş yerləri, menecerlər təşkil edir. Lakin bununla yanaşı sosial pilləkənlərin aşağı hissələrində xidmət sahəsində məşğul olan ixtisassız işçilərin sayının artması da müşahidə olunur. Bu artımın sürəti zəif olsa da, ixtisassız işçi tələb edən iş yerləri mütləq sayına görə postindustrial sosial strukturun mühüm hissəsini təşkil edə bilər. Bu, o deməkdir ki, informasiya cəmiyyətinin sosial strukturunda getdikcə daha çox qütbləşmə özünü göstərir. Yəni orta təbəqələr hesabına yuxarı və aşağı təbəqələrinin xüsusi çəkisi artır.

**Əmək bazarının transformasiyası.**

Qlobal iqtisadiyyatın mövcudluğu qəbul edilirsə, ilk baxışda qlobal əmək bazarının mövcudluğu da qəbul edilməlidir. Lakin bu aldadıcı bir təsəvvürdür. Çünki liberallaşma nəticəsində əmtəə, xidmət və pul kapitalı bütün dünyada nisbətən sərbəst hərəkət etsə də, işçi qüvvəsinin hərəkəti qarşısında ciddi məhdudiyyətlər qalmaqda davam edir. Belə ki, 90-cı illərin ortalarında qlobal işçi qüvvəsinin cəmi 1, 5% öz ölkələrindən kənarda işləyirdilər, onun da yarısına yaxını Afrikada toplanmışdır. Hətta Avropa Birliyi kimi ən liberal iqtisadi coğrafiyada da ümumi işçi qüvvəsinin cəmi 2%-i öz ölkəsindən kənarda işləyirdi. Buna baxmayaraq, inkişaf etmiş sənaye ölkələrində belə bir ictimai fikir yaranmışdır ki, bu ölkələrə Cənub və Şərqdən güclü immiqrant axını mövcuddur. Qloballaşma əleyhinə hərəkətin əsasında da çox vaxt bu amil dayanır. Beynəlxalq işçi qüvvəsi axını ölkələr üzrə təhlil edildikdə ciddi fərq özünü göstərir. ABŞ-da bu axın tarixən həmişə güclü olduğu halda, Avropa ölkələri haqqında bu fikri söyləmək mümkün deyildir. Avropada işçi qüvvəsi axını Birlik ölkələri arasında nisbətən yüksəkdir. İqtisadiyyat üzrə Nobel mükafatı laureatı Moris Alle «Qloballaşma: məşğulluq və iqtisadi artım şərtlərinin dağılması» adlı əsərində belə bir nəticəyə gəlir: [130, s. 17]Avropa Birliyinin yeritdiyi ümumdünya ticarət azadlığı siyasəti kütləvi işsizliyin çoxalmasının və iqtisadi artımın zəifləməsinin əsas və ən mühüm səbəbidir. Himayəçiliyin əsaslandırılması, bəraət qazandırılması və zəruriliyi dünya iqtisadiyyatının yaratdığı xaos və hər cür çətinlikdən müdafiə olunmaq üçün həyati əhəmiyyət kəsb edir. Amerikan iqtisadçısı M. Kastels isə göstərir ki, [188, s. 228] Avropa Birliyi ölkələrində 1990-cı ildə əcnəbilər ümumi əhalinin cəmisi 4, 5%-ni təşkil edirdi və yüksək ixtisaslı işçilərin cüzi bir hissəsini əhatə edirdi. Bunlar qabaqcıl mühəndislər, maliyyə menecerləri və digər mütəxəssislərdən ibarətdirlər. Lakin qlobal əmək bazarının yaranması üçün bu mühüm, amma az miqdar işçilər çox əhəmiyyətlidir.

Araşdırmalar göstərir ki, qlobal miqyasda işçi qüvvəsi bazarının qarşılıqlı asılılığı üç mexanizm vasitəsi ilə artma təmayülü göstərir:

1. transmilli şirkətlərdə və onlarla əlaqədar olan şəbəkələrdə qlobal məşğulluq;

2. beynəlxalq ticarətin istər Cənubda, istərsə də Şimalda məşğulluğa və əmək şəraitinə təsiri;

3. qlobal rəqabətin və hər bir ölkədə işçi qüvvəsinə təsir edən yeni çevik menecmentin inkişafı.

İnkişaf etmiş sənaye ölkələrində Transmilli şirkətlər üçün əmək bazarı sahəsində geniş imkanlar açılır. Onlar bu sahədə aşağıdakı mühüm tədbirləri həyata keçirə bilərlər:

1. şimalda yüksək ixtisaslı işçi qüvvəsini əldə saxlamaqla və az məsrəf tələb edən məhsul idxal etməklə firmanın miqyasını kiçildə bilər;

2. işin bir hissəsini öz transmilli filialına və yardımçı şəbəkələrinə subpodrad şəklində verə bilər;

3. müvəqqəti işçi qüvvəsindən və daimi fəhlələrdən gün ərzində qismən istifadə edər və yaxud ölkə daxilində qeyri formal firmaları işə cəlb edə bilər;

4. əmək bazarında standart qiymətləri çox yüksək olan iş növlərini avtomatlaşdırmaq və ya başqa yerə köçürmək;

5. iş yerlərini saxlamaq şərti müqabilində öz işçilərinə daha sərt əmək və ödəmə şərtlərini qəbul etdirmək.

Beləliklə, qlobal əmək bazarı və işçi qüvvəsi mövcud olmasa da, informasiya iqtisadiyyatında işçi qüvvəsi bazarları qlobal miqyasda bir-birindən asılıdır.

**İnformasiya iqtisadiyyatında əmək prosesinin xüsusiyyətləri.**

XX əsrin son onilliyində baş verən informasiya-texnologiya inqilabi sosial və texniki əmək bölgüsünün yeni formalarının yaranmasına səbəb olmuşdur. İnformasiya iqtisadiyyatının 80-90-cı illərdə həyatın bütün sahələrinə dərin nüfuz etməsi müasir dünya iqtisadi ədəbiyyatında geniş şərh edilir. İnformasiya texnologiyasının əmək prosesinə təsiri özünü aşağıdakı kimi göstərir. Əvvəlcə mexanikləşdirmə, sonra isə avtomatlaşdırma on illər ərzində insan əməyini transformasiya etmişdir. Bu proses iş yerlərini itirmək təhlükəsi altında insanları yenidən ixtisaslaşmağa, ixtisasını artırmaqa, əmək məhsuldarlığını yüksəltməyə, idarəçilik mexanizmini təkmilləşdirməyə məcbur etmişdir. İnformasiya texnologiyasının vüsət alması ilə öz zirvəsinə çatmış avtomatlaşdırma əmək prosesində insan beyninin rolunu görünməmiş dərəcədə artırmışdır. Burada belə bir qanunauyğunluq göz qabağındadır: qabaqcıl informasiya texnologiyası fabrik və ofislərdə nə qədər geniş və dərin yayılırsa, müstəqil düşünə bilən, işləri proqramlaşdıran, operativ qərar qəbul edən bilikli mütəxəssislərə tələbat da bir o qədər artır.

XX əsrin 90-ci illərində iş prosesinin transformasiyasını aşağıdakı amillər daha da sürətləndirdi: kompyuter texnologiyasının geniş tətbiqi və idarəçilikdə ondan geniş miqyasda istifadə olunması; qlobal rəqabət bütün dünyada şirkətlər arasında texnologiya və idarəçilik sahəsində əsl yürüş yaratdı; informasiya cəmiyyətində əmək prosesi həmin cəmiyyətə xas olan spesifik istehsal prosesi ilə müəyyən edilir. Bu spesifikliyi dünyanın aparıcı alimləri aşağıdakı kimi xarakterizə edirlər.



1. Əlavə (yeni) dəyər istər istehsal prosesində, istərsə də, məhsullarda, əsas etibarilə, innovasiya ilə yaranır.

2. Innovasiyanın özü isə iki amildən: tədqiqat potensialından və spesifikasiya qabiliyyətindən asılıdır. Yəni bilik açıq olmalı və sonra konkret məqsədlə tətbiq edilməlidir.

3. Istehsal fəaliyyətinin böyük hissəsi təşkilatlarda həyata keçirilir.

4. Informasiya texnologiyası yeni əmək prosesində başlıca amildir, çünki o:

- innovasiya qabiliyyətini əsas etibarı ilə müəyyən edir;
- səhvlərin düzəldilməsi və icraçılar səviyyəsində əks əlaqələrin yaranmasını mümkün edir;
- infrastrukturu və istehsal prosesinin idarə olunmasında çeviklik uyğunlaşmanı təmin edir.

Belə spesifik istehsal prosesi informasiya paradiqmasını xarakterizə edən yeni əmək bölgüsünü yaradır. İnformasiya cəmiyyətində yeni əmək bölgüsünü düzgün başa düşmək üçün 3 əsas meyarı nəzərə almaq lazımdır. Birinci meyara hər hansı bir iş yerində yerinə yetirilən faktiki vəzifələr aiddir. İkinci meyara həmin təşkilatla, onun digər təşkilatlar da daxil olmaqla mövcud mühit arasındakı münasibətlər aiddir. Burada birinci meyar dəyər yaradılması, ikinci münasibətlər yaradılması və qərar qəbul edilməsi prosesidir.

İnformasiya texnologiyası şəraitində istehsal prosesində dəyər yaradılması üzrə aşağıdakı təməl vəzifələr qarşıda durur:

- rəhbərlik tərəfindən strateji qərarların qəbul edilməsi;
- tədqiqatçıların yaratdıqları məhsullarda innovasiya;
- dizaynerlər tərəfindən innovasiyanın istehsal prosesinə uyğunlaşdırması, qablaşdırma və s. ;
- qarşıya qoyulan məqsədə çatmaq üçün qərarlar ilə innovasiya, dizayn və icra arasında münasibətlərin idarə olunması;
- operator tərəfindən şəxsi təşəbbüslərin icra olunması;
- avtomatlaşdırılması mümküm olmayan və əvvəlcədən proqramlaşdırılmış ikinci dərəcəli vəzifələrin işçilər tərəfindən icra olunması.

**Qərarlar qəbul edən subyektlər:**

- son qərar qəbul edən subyektlər;
- qərarın qəbul edilməsi prosesinin iştirakçıları;
- qərarın yerinə yetirilməsinin icraçıları.

Yeni texnoloji alətlər əsasında yüksək nəticəni adətən iki amil təmin edir. Birincisi - industrial işçi qüvvəsinin təcrübəsi və yüksək ixtisası. Bu mürrəkəb modifikasiya əmək prosesində olduqca vacibdir. Belə yüksək ixtisasa malik olmaq üçün iş sistemində xüsusi kurslarda müntəzəm ixtisasın artırılması tələb olunur. Bəzən iş vaxtının müəyyən bir hissəsi öyrənməyə həsr edilir. Yüksək nəticə əldə edilməsinin ikinci amili isə işçilərin nisbi müstəqilliyidir.

Bütün bu göstərilən amillər informasiya cəmiyyətində əmək prosesinin transformasiyasının əsas istiqamətlərini əks etdirir.

İnformasiya cəmiyyətində insan amili və biliyin rolunun artması.

Sürətlə inkişaf edən postindustrial cəmiyyətdə insan amili istər, ayrıca götürülmüş şirkət, istərsə də, ölkə və bəşəriyyət miqyasında iqtisadi inkişafın

sürətləndirilməsində aparıcı rol oynayır. İnkişaf etmiş sənaye cəmiyyətində tərəqqinin əsas hərəkətverici qüvvəsi, əmək və kapitalın təmərküzləşməsi idi. Hazırki postsənaye cəmiyyətində isə əsas diqqət yüksək texnologiyanın inkişafına, istehsal və xidmət sahəsində modernləşmənin sürətləndirilməsinə verilir. Kapital və əməyin özü haqqında anlayışlar dəyişir. Əvvəllər kapital yığımı sahibkarların bir neçə nəsli ərzində təmin edilirdi. İndi isə çox irimiqyaslı kapital işə az miqdar ilkin kapital qoymaqla dərhal yaradıla bilər. Lakin həmin sahibkar öz nəhəng müəssisəsində yalnız öz biliyi və məhdud saylı menecerlərin birliyi ilə kifayətlənə bilməz. Texnologiyanın daim yenilənməsi praktikada hər bir iş yerində tələb olunur. Ona görə də texnologiyanın inkişafına müasir istehsalın hər bir işçisinin cəlb olunması zəruridir. Bu isə onu göstərir ki, əvvəllər əmək ehtiyatı hesab edilən muzdlu işçilər əslində kapital ehtiyatlarının qorunması və artırılmasını təmin edir. Ona görə də istehsal olunan məhsulun tərkibində əməyin xüsusi çəkisi, əmək məhsuldarlığı yüksək həddə doğru getdikcə daha da artacaqdır. Çünki əmək haqqına geniş mükafatlar sistemi əlavə olunur. Məlum olduğu kimi, müasir dövrdə cəmiyyətin görünməmiş dərəcədə yenidən qurulmasının əsasında elm və biliyin sürətli inkişafı və bunun əsasında əmək məhsuldarlığında inqilabi sıçrayışlar dayanır. Biliyin əhəmiyyəti hələ 250 il bundan əvvəl həmin bilik əmək alətləri, texnologiya və yeni növ məhsul hazırlanması məqsədi ilə tətbiq edilməyə başlandıqda dəyişdi. Lakin əmək məhsuldarlığında inqilab Marksın ölümündən iki il əvvəl başlandı. Bu zaman(1881-ci ildə) F. U. Teylor ilk dəfə olaraq biliyi insanın məhsuldar fəaliyyətinin təhlili və əmək proseslərinin layihələşdirilməsi üçün tətbiq etməyə başladı. Əməyin təşkilinə biliyin tətbiqi əmək məhsuldarlığında sıçrayışlı artım yaratdı. Teylor bu sistemi yaratdıqdan sonra əmək məhsuldarlığı ildə orta hesabla 3, 5 -4% artdı. Bu, o deməkdir ki, həmin göstərici hər 18 ildə iki dəfə artdı. Həmin dövrdən indiyə qədər inkişaf etmiş ölkələrdə əmək məhsuldarlığı ən azı 50 dəfədən çox artmışdır. Bu isə təbii olaraq əhalinin maddi rifah halının yüksəlməsi və həyatın keyfiyyətinin yaxşılaşmasının əsasını təşkil edir. Beləliklə, biliyin əhəmiyyəti və rolunun dəyişməsi cəmiyyət və iqtisadiyyatı daha da dəyişdi. Bilik hal-hazırda istehsalın əsas amilidir. Ənənəvi istehsal amilləri - torpaq, işçi güvvəsi və kapital ikinci dərəcəli əhəmiyyət kəsb etməyə başlamışdır. Əgər müvafiq bilik varsa, bu ehtiyatları asanlıqla əldə etmək olar. Yeni anlayışlara görə, bilik real faydalı qüvvədir, sosial və iqtisadi nəticələr əldə edilməsi vasitəsidir. Lazım olan nəticə əldə etmək məqsədilə mövcud informasiyanın tətbiqinin səmərəli üsullarının axtarılması üçün biliyin istifadə edilməsi əslində idarə etmək deməkdir.

Hazırkı dövrdə aşağıdakılar mühüm əhəmiyyət kəsb edir: sistematik və məqsədyönlü şəkildə hansı yeni biliklərin alınması daha vacibdir, onun əldə edilməsi nə dərəcədə məqsədəuyğundur və ondan səmərəli istifadə etmək üçün nə etmək lazımdır. Başqa sözlə, bilik indi yenilik və innovasiyaların əldə edilməsi üçün tətbiq edilir. Qloballaşma dövründə bilik iqtisadi inkişafın başlıca resurs mənbəyinə çevrilibdir. Sual oluna bilər ki, onun resurs (ehtiyat) mahiyyəti nədir? Bu barədə elmi ədəbiyyatda vahid mövqe yoxdur. Bəzi müəlliflərə görə, bu mənada bilik müəssisənin dəyərləri ilə birləşən informasiyadır. Bəzən isə hesab edilir ki, müəssisədə bilik yeni informasiyanı dəyərləndirmək üçün mövcud məlumatları istifadə etmək və predmeti dərindən dərk etmək qabiliyyətidir. Qloballaşma dövründə bu sahədə yenilik bilik və informasiya arasındakı münasibətdə özünü



göstərir. Hal-hazırda informasiya texnologiyasının sürətli inkişaf etdiyi bir şəraitdə TMŞ-ın rəhbərləri idarəçilik üçün lazım olan informasiyanın bolluğundan və mürəkkəbliyindən şikayət edirlər. Müəssisənin səmərəli işləməsi üçün zəruri olan biliklərin böyük əksəriyyəti işçilərlə əlaqədardır. Bilikli işçi obyektiv və ya subyektiv səbəblərlə əlaqədar olaraq işdən getdikdə müəssisə müəyyən bilik mənbəyindən məhrum olur. Bu bəzən müəssisəni çox əlverişli sifarişlərdən imtina etməyə də məcbur edir. Beləliklə, mikrosəviyyədə bilik resursların digər növləri ilə əvəz edilə bilməyən müstəqil növüdür. Bunu bilmək həm müəssisələr, həm də mütəxəssislər üçün vacibdir.

XXI yüzillikdə iqtisadi və sosial həyat üçün biliyin yaradılması və istifadə edilməsi üsulları, habelə insanın əmək fəaliyyətinin xarakteri üçün telekommunikasiyalarda əks olunan yeni sosial uklad həlledici əhəmiyyət kəsb edir. Biliyin rolu və əhəmiyyətinin artması özünü sənaye inqilabında, əmək məhsuldarlığının artması sahəsindəki inqilabda və idarəçilikdə baş verən inqilabda göstərdi. Cəmiyyət bilikdən - biliklərə doğru yol ilə irəliləyir. Əvvəllər biliklər ümumi xarakter daşıyırdı. İndi isə biliklərdə dərin ixtisaslaşma özünü göstərir. Keçmişdə «biliyə malik olan insan» ifadəsi işlənmirdi. Deyirdilər: «Savadlı, elmli adam». Savadlı adam - geniş eridusiyalı adamlardır. Onlar istənilən mövzuda yaxşı danışmaq, məharətinə malik insanlar idilər. Lakin onlar hər hansı konkret və praktik fəaliyyətlə məşğul ola bilmirdilər.

Müasir dövrdə bilik konkret nəticə əldə etmək üçün praktiki əhəmiyyəti olan informasiya hesab edilir. Hər hansı bir əhəmiyyətli nəticə əldə edə bilmək üçün isə yüksək dərəcədə ixtisaslaşmış bilik tələb olunur.

Ümumi bilikdən ixtisaslaşmış biliklər kompleksinə keçid biliyi yeni cəmiyyət yaradan qüvvəyə çevirmişdir. Professor S. Xəlilovun göstərdiyi kimi, «İnsanların fəaliyyət dairəsi genişləndikcə biliklərin əhatə dairəsi də genişlənmiş olur. Müxtəlif fəaliyyət sahələrinə uyğun olaraq müxtəlif bilik sahələri yaranır. İnsanların hamısı üçün ümumi və zəruri olan maddi fəaliyyətin nəticəsi kimi əmələ gələn biliklər və ya məişət bilikləri, heç şübhəsiz, bilik sahələri içərisində tarixən ən qədimdir. Sonrakı bilik sahələri insanlar arasında əmək bölgüsü sayəsində əmələ gəlir və heç də bütün adamlara deyil, ixtisasından asılı olaraq yalnız müəyyən qrup adamlara mənsub olur. »

Beləliklə, qloballaşma həyatın bütün sahələrində modernləşmə tələb edir. Məlum olduğu kimi, modernləşmə konsepsiyası (upgrading) iqtisadi aktivliyin bir növündən digər növünə hərəkəti əks etdirir. Bunun əsasında müxtəlif meyarlar - mənfəətlilik, ədalət, ekoloji sabitlik meyarları dayanır. Modernləşmə, adətən, əməliyyatların daha da mürəkkəbləşməsinə doğru aparır. Bu, bir sıra amillərlə əlaqədardır. Yeni texnologiya və yaxud əlavə «nou-hau»-dan istifadə olunması, istehsal proseslərinin təkmilləşdirilməsi, ixtisaslaşma və yaxud inteqrasiya dərəcəsinin artırılması və s. ilə əlaqədardır. Rəqabət mübarizəsinin kəskinləşdiyi bir şəraitdə modernləşmə, istər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələr üçün eyni dərəcədə əhəmiyyətlidir. Ona görə də innovasiyalara əhəmiyyət verməyən hər hansı bir ölkə qlobal istehsal və mübadilə sistemində səmərəli mövqe tutmağa qadir deyildir.

Modernləşmənin bütün istiqamətləri yeni biliklərin əldə edilməsini tələb edir. Bu biliklər layihələşdirmə, texnoloji proseslərin təkmilləşdirilməsi və

konstruktor işlərində çox mühümdür. Ona görə də təhsil və bilikləri almaq qabiliyyəti modernləşmənin əsasını təşkil edir. Modernləşməni yalnız istehsal prosesi, texnologiya və yaxud marketinq problemi hesab etmək olmaz. Bu istiqamətlər, şübhəsiz, çox mühümdür. Lakin modernləşməni daha geniş mənada, yeni biliklərin alınmasına və bu sahədə real addımlar atılmasına yönəlmiş bir axın kimi başa düşmək lazımdır. Məsələn, İtaliyanın inkişaf etmiş sənaye rayonlarında kiçik firmalar, innovasiya fəallığını kapital tutumlu və yüksək texnologiyalar tələb edən fəaliyyət əsasında deyil, yüksək ixtisaslı işçi və menecerlərdən informasiya və digər ehtiyatların toplanması hesabına genişləndirilir. Tayvanda ailə firmalarında anoloji dinamizm müəssisələri bir-biri ilə birləşdirən sosial şəbəkələrin genişləndirilməsi, xarici aləmlə innovasiya əlaqələrinin artırılması əsasında həyata keçirilir.

Akademik Ramiz Mehdiyev qloballaşma proseslərinin dərin təhlilini apararaq onun aşağıdakı mühüm xüsusiyyətlərini qeyd edir:

- transmilli korporasiyaların (TMK) kütləvi sürətdə yaranması və fəaliyyət göstərməsi;
- öz siyasi və iqtisadi maraqları olan və onları müdafiə edən qeyri-hökümət təşkilatlarının, fondların, assosiasiyaların kütləvi sürətdə meydana gəlməsi;
- gömrük sənədlərinin zəifləməsi, transmilli kapital, xidmətlər, əmtəə, işçi qüvvəsi axınının kəskin sürətdə artması;
- yükdaşımaların, qazın, neftin nəqlinin, elektrik enerjisi ötürülməsinin transmilli dünya şəbəkəsinin yaranması;
- təkcə siyasi (BMT və onunla bağlı qurumlar) deyil, həm də iqtisadi (Beynəlxalq Valyuta Fondu və Dünya Bankı) münasibətlərin tənzimləyicisi kimi dövlətlərarası təsisatların yaranması və onların rolunun artması;
- dünya İnternet informasiya şəbəkəsinin yaranması və ondan siyasi, kommersiya, mədəniyyət, informasiya məqsədləri üçün istifadə olunması, Qərb televiziya kanallarına hamılıqla qoşulma və bunun nəticəsi kimi "CNN effekti"ndən (dünya ictimai fikri bir çox hallarda Qərb təfəkkür tərzinin məqbul saydığı informasiyanı təqdim edən CNN informasiyalarının təsiri ilə formalaşır) istifadə edən vahid informasiya məkanının təşəkkülü;
- Amerika həyat tərzinin və kütləvi mədəniyyətinin dünya standartı kimi təbliği;
- "açıq cəmiyyət" ideologiyasının ixracı;
- liberal dövlət siyasi modelinin təbliği və yayılması;
- "məhdud suverenlik" və "seçki legitimliyi" (yəni hakim elitanın demokratik seçki yolu ilə legitimləşdirilməsi) konsepsiyasının tətbiqi.

## 1. 5. Milli dövlətlərin mənafeləri və qlobal mühitə inteqrasiyanın nəzəri əsasları

*İndi bəşəriyyət qlobal transformasiyalar dövründə yaşayır. Formasiya paradiqmalarının əvəzlənməsi, Tofflerin "üçüncü dalğasının" başlanması, elmi-texniki tərəqqinin yüksəlişi və nəhayət, milli dövlətin rolunun zəifləməsi və transmilli korporasiyaların əhəmiyyətinin güclənməsi – bütün bunların hamısı müasir insanın, cəmiyyətin və "dövlət, dövlətçilik" kimi şərh etdiyimiz siyasi strukturun simasını digər parametrlərlə birlikdə köklü sürətdə dəyişdirir.*

**Akademik Ramiz Mehdiyev**

Milli təsərrüfatların iqtisadi, elmi-texniki, hüquqi və informasiya baxımından bir-birindən asılılığını kəskin şəkildə artıran qloballaşma, dünyanın inkişafında aşağıdakı bir sıra səciyyəvi cəhətlərin meydana gəlməsinə səbəb olmuşdur.

Hər şeydən əvvəl dünya iqtisadi birliyi keçmişdə bir-birindən az-çox asılı olan ölkələrin məcmusundan ibarət idisə, indi bu birlik vahid iqtisadi sistemə çevrilməyə başlamışdır. Həmin vahid iqtisadi sistemdə milli təsərrüfatlar sadəcə olaraq beynəlxalq əmək bölgüsü mexanizmi ilə deyil, öz miqyasına görə nəhəng, ümumdünya istehsal-satış strukturu, qlobal maliyyə sistemləri və informasiya şəbəkələri ilə bir-birinə «lehimlənərək» vahid ümumdünya iqtisadi orqanizmin ayrılmaz tərkib hissəsinə çevrilmişlər. XX əsrin ortalarına qədər xarici ticarət dövriyyəsi bütün dünyada ÜDM-un cəmisi 10-16%-ini təşkil edirdisə, XXI əsrin əvvəlində kommersiya xidmətlərinin idxalı və ixracı da nəzərə aldıqda bu hədd 48%-ə çatmışdır [262, s. 3-5].

Son onillikdə (1995-2006-cı illərdə) dünya xarici ticarət dövriyyəsinin həcmi istehsaldan iki dəfə çox olmuşdur. [285, s. 76, 85, 86].

Qloballaşma prosesində milli və ümumdünya iqtisadi mexanizmlər öz rollarını da dəyişdirirlər. Belə ki, məlum olduğu kimi, keçmişdə aparıcı rol milli təsərrüfatlara məxsus idi. Müasir dövrdə isə dövlətlərüstü maliyyə-əmtəə bazarları, istehsal-satış strukturları formalaşdıqca, ümumdünya iqtisadi münasibətlər bəşəri proseslərin tənzimlənməsində aparıcı rol oynamağa başlamışlar. Hətta, ən inkişaf etmiş dövlətlərin də ölkə daxili münasibətləri qlobal iqtisadiyyatın tələblərinə uyğunlaşmaq məcburiyyəti qarşısındadır. Bəşəri münasibətlərin tənzimlənməsində ümumdünya iqtisadi münasibətlərin aparıcı amilə çevrilməsi isə öz növbəsində beynəlxalq proseslərdə milli dövlətlərin rolunun azalmasına gətirib çıxarır. Çünki onlar milli sərhədlərdən kənarda baş verən və müstəqil cərəyan edən ümumbəşəri prosesləri tənzimləmək iqtidarında deyillər. Bundan əlavə, milli dövlətlərin bağladıqları beynəlxalq müqavilələrə uyğun olaraq makroiqtisadi tənzimləmələr aparmaq üçün gömrük sədləri, valyuta tənzimləmələri və digər ənənəvi vasitələrdən istifadə etmək hüquqları məhduddur. Onlar beynəlxalq iqtisadi təşkilatların, nəhəng transmilli şirkətlərin tələblərinə uyğunlaşmağa məcburdurlar. Başqa sözlə, qloballaşma prosesində dünya iqtisadiyyatının əsas hərəkətverici

qüvvəsi olan transmilli sənaye və bank korporasiyalarının gücü və təsir dairəsi genişlənmişdir. Qlobal iqtisadiyyatın ənənəvi subyekti olan milli dövlətlər isə müəyyən baxımdan sıxışdırılmışlar. Onlar könüllü olaraq, bir çox milli hüquqlarından beynəlxalq hüquq normalarının lehinə imtina etmişlər.

Lakin bütün bunlar milli dövlətlərin rolunun heç də azalması demək deyildir. Əksinə, müasir dövrdə bəşəriyyətin inkişafının mühüm xarakterik xüsusiyyətlərindən biri ölkə daxilində gedən sosial-iqtisadi proseslərin tənzimləyicisi kimi milli dövlətlərin rolunun durmadan artmasıdır. Bazar iqtisadiyyatı tələb edir ki, dövlətlər iqtisadiyyata ən azı iki məqsədlə geniş müdaxilə etsinlər: birincisi, digər ölkələrin iqtisadiyyatı ilə maksimum rəqabətqabiliyyətli olmaq, ikincisi isə, maliyyə-kredit kimi yenidən bölgü mexanizmindən istifadə etməklə ölkə daxilində yaranan sosial və siyasi gərginliyi mümkün qədər azaltmaqdır. Məhz həmin funksiyaların genişləndirilməsi sürətlə artan qloballaşma prosesinin ən mühüm əlamətlərindən biridir. Bu məsələ keçid iqtisadiyyatı ölkələri üçün xüsusən aktualdır.

Həqiqətən dünya miqyasında mövcud ehtiyatlardan istifadə uğrunda rəqabət mübarizəsinin əhəmiyyəti və daha da kəskinləşməsi qlobal miqyas almışdır. Belə bir rəqabət mübarizəsində təsərrüfat subyektlərinin uduzması nəticəsində maddi, insani və hətta siyasi ehtiyatların mümkün itkiləri də çox ciddi və bəzən qlobal əhəmiyyət kəsb edə bilər [259, s. 8]. Təsadüfi deyildir ki, qloballaşma prosesində aparıcı mövqeyə məhz təsərrüfat subyektlərini məqsədli şəkildə tənzimləyən dövlətlər çıxa biliblər. Çünki hər hansı bir ölkədə mövcud olan rəqabət üstünlüyünü qloballaşma prosesində ən səmərəli şəkildə həyata keçirmək üçün ölkənin bütün potensialından yalnız milli dövlətlər maksimum istifadə edə bilərlər. Qloballaşmanın real gedişi ölkə potensialının milli dövlətlər vasitəsilə tam mənası ilə rəqabət qabiliyyətinin yüksəldilməsinə yönəldilməsini tələb edir.

Qloballaşmaya, bir qayda olaraq, inkişaf etməkdə olan ölkələrdə mənfi münasibət bəslənilir. İnkişaf etmiş sənaye ölkələrinin elmi və ictimai dairələrində isə adətən bu proseslər pozitiv baxımdan dəyərləndirilir. Lakin son vaxtlar sonuncular arasında bu proseslərə tənqidi mövqedən yanaşanların da sayı artmaqdadır. Bu qəbildən olan alimlərə görkəmli amerikan alimi, 2001-ci ildə iqtisadiyyat üzrə Nobel mükafatı laureatı Cozef Stiqlis də aiddir. Onun «Globalization and Discontents» adlı kitabı dünyada böyük əks səda doğurmuşdur. [188] C. Stiqlis akademik dairələrdə özünün fundamental tədqiqatları ilə tanınmış və iqtisad elminin müasir mərhələdə inkişafına əhəmiyyətli təkan vermişdir. O, iqtisad elminin yeni sahəsi olan «İnformasiya iqtisadiyyatının» banisi hesab olunur. C. Keynis nəzəriyyələrinin və F. D. Ruzveltin «Yeni kursunun» davamçısı kimi iqtisadiyyatda dövlətin fəal rolunun tərəfdarıdır və hesab edir ki, müasir kapitalizm təkmilləşə bilər və təkmilləşməlidir. 1993-cü ildə C. Stiqlis ABŞ prezidenti B.Klinton yanında iqtisadçı məsləhətçilər Şurasının başçısı təyin edilmişdir. 1997-2001-ci illərdə o, Dünya Bankının baş iqtisadçısı və prezident müavini olmuşdur ki, bu, ona Beynəlxalq Valyuta Fondunun (BVF) praktik fəaliyyəti ilə yaxından tanış olmağa imkan vermişdir və belə bir inam əldə etmişdir ki, bu nəhəng təşkilatın fəaliyyəti əksər hallarda qeyri-səmərəlidir. [88]

Nə üçün bu qədər faydalı nəticələrə malik olan qloballaşma kəskin mübarizə



predmetinə çevrilmişdir? - sualına o belə cavab verir: beynəlxalq ticarət üçün bazarların açılması bir çox ölkələrə imkan verdi ki, onlar çox sürətli iqtisadi inkişafı təmin edə bilsinlər, lakin nəzərə almaq lazımdır ki, beynəlxalq ticarət o zaman iqtisadi inkişafı sürətləndirir ki, ixracat ölkənin iqtisadi artımına təsir göstərir. C. Stiqlis sürətlə inkişaf edən və əhalisini varlandıran Asiya ölkələrini buna misal göstərir. Məhz qloballaşmanın nəticəsində dünyanın bir çox xalqlarında ömür uzanmış, rifah səviyyəsi yüksəldilmişdir. Qloballaşma inkişaf etməkdə olan ölkələrdə təcrid olunma hissini azaltmış, onların çoxu üçün müasir yüksək biliklərin qapısını açmışdır. Anti-qloballaşma hərəkatı da dünya ölkələrinin qarşılıqlı asılılığının artmasının nəticəsidir. Bu hərəkat İnternet vasitəsilə bütün dünyada öz fəaliyyətini tənzimləyir və qüdrətli dövlətləri pis nəticələr verə biləcək müəyyən tədbirlərdən, məsələn, süvarilər əleyhinə minalardan istifadə olunmasından imtina etməyə vadar etmişdir. Kasıb ölkələrin borclarının bir hissəsinin silinməsi, xarici yardımların artması da qloballaşmanın müsbət cəhətlərindəndir. C.Stiqlisə görə qloballaşmanı tənqid edənlər çox vaxt onun faydalı nəticələrini nəzərə almırlar.

Bununla yanaşı o hesab edir ki, qloballaşma tərəfdarları da çox vaxt qabaqcadan hasil olan qənaəti əsas götürürlər. Sonuncular hesab edirlər ki, qloballaşma tərəqqidir və inkişaf etməkdə olan ölkələr, əgər səmərəli artıma nail olmaq və kasıbçılığı aradan qaldırmaq istəyirlərsə, mütləq onu qəbul etməlidirlər. Lakin ölkələrin bir çoxu qloballaşmadan gözlədikləri iqtisadi faydalara nail ola bilmirlər. Varlı və kasıb ölkələr arasında mövcud olan uçurumun daha da artması «üçüncü dünya» ölkələrində əhalinin böyük əksəriyyətini kasıblığın qəddar məngənəsində saxlayır. 90-cı illərdə dünyada adambaşına gəlirin orta hesabla ildə 2, 5% artımına baxmayaraq, kasıbçılıq şəraitində yaşayan insanlar daha 100 milyon nəfər artmışdır. Afrikada müstəqillik əldə edildikdən sonra yaranmış böyük ümidlər puç oldu.

C. Stiqlisin fikrinə görə, əgər qloballaşma yoxsulluğun azaldılmasında bir şey edə bilməmişdirsə, sabitliyin təmin edilməsində daha az nəticəyə nail olmuşdur. Asiya və Latın Amerikasında özünü göstərən böhranlar inkişaf etməkdə olan ölkələrin hamısının iqtisadiyyatı və sabitliyi üçün ciddi təhlükə yaratdı. O, hesab edir ki, qloballaşma Rusiya və kommunizmdən bazar iqtisadiyyatına keçən bütün digər ölkələrdə də gözlənilən nəticəni vermədi. Qərbin verdiyi vədlərə baxmayaraq, yeni iqtisadi sistem bu ölkələrin əhalisinin çoxu üçün onların kommunist liderlərinin öngördüklərindən də pis nəticələr doğurdu. Bazar iqtisadiyyatına keçid bu ölkələrdə beynəlxalq iqtisadi təşkilatların sxemi əsasında həyata keçirilmiş və bəzən çox pis nəticələr əldə edilmişdir. Halbuki, öz proqramı əsasında həmin prosesləri idarə edən Çində çox böyük nəticələrə nail olunmuşdur.

Bu proses makro və mikro səviyyədə özünü göstərir. Milli dövlətin müasir dövrdə mühüm tarixi vəzifəsi həmin strategiyanı hazırlayıb həyata keçirməkdir. Yeni beynəlxalq iqtisadi və maliyyə mühiti dünyada gedən qlobal inkişafın və eyni zamanda milli dövlətlərin beynəlxalq inteqrasiya proseslərinə iştirakı şərtlərini müəyyən edir. Həmin mühit bu proseslərdə milli dövlətləri təmsil edən təsərrüfat və maliyyə subyektlərini müəssisə və şirkətlərin qəbul etdikləri qərarlara təsir edir. Milli iqtisadi inkişafın postsənayeləşmə erasının tələblərinə uyğun olaraq həyata keçirilməsini təmin etmək üçün yeni iqtisadi və maliyə mühitin özəlliklərini nəzərə

almaq olduqca vacibdir.

Qloballaşma bir çox baxımdan neoliberal modelin sərt qanunları əsasında inkişaf edir. Bu modeldə isə dünya milli dövlətlərin maraqlarının harmoniyası, onlarla olan müxtəlif təsərrüfat ukladları və milli mədəniyyətlərin qorunması prinsipi əsasında deyil, sosial darvinizm prinsipləri əsasında inkişaf edir. Bu sərt qanunlara uyğunlaşa bilənlər sürətlə inkişaf edir, uyğunlaşmayanları isə udurlar. Qlobal proseslərə uyğunlaşa bilməyən ölkələr üçün iqtisadiyyatın daha çox beynəlmiləlləşməsi onlar üçün milli iqtisadiyyatı tənzimləmə qabiliyyətinin daha da azalmasına yol açır. Bu ölkələrdə bir çox iqtisadi proseslərin qlobal təbiəti ilə onların milli təsərrüfat çərçivəsində tənzimlənməsi arasında uyğunsuzluq artır. Təbiidir ki, bu uyğunsuzluq özünü müxtəlif ölkələrdə müxtəlif dərəcədə göstərir. Çünki milli dövlətlər qloballaşma proseslərini müxtəlif dərəcədə həll edilиblər, müxtəlif "çəkiyə" malikdirlər, qlobal bazarlardan müxtəlif dərəcədə "fayda" və ya "zərər" əldə edirlər. Bütün bunlar isə mənafelər arasında ziddiyyətin yaranmasını labüd edir. Çünki xarici satış bazarlarından, xarici maliyyə ehtiyat larından, texnoloji və idarəçilik təcrübəsindən güclülər daha çox istifadə edə bilirlər. Ona görə də əsas makroiqtisadi göstəricilər arasında fərq bir çox hallarda artmaqda davam edir.

Ona görə də qloballaşmanın ümumbəşəri əhəmiyyət kəsb edən problemlərindən biri bu prosesin ölkələr arasında inkişaf səviyyəsi baxımından olan kəskin fərqə necə təsir etməsi, qloballaşmanın faydalarının ölkələr arasında necə bölünməsi problemidir.

Müasir mərhələdə heç bir dövlət həmin proseslərdən kənarda qala bilməz. Lakin getdikcə daha çox dərk edilir ki, bəşəriyyətin inkişafı üçün həyati əhəmiyyət kəsb edən qloballaşmanın faydaları qeyri-bərabər bölüşdürülür. Müasir beynəlxaq siyasi-iqtisadi sistemdə az saylı inkişaf etmiş sənaye ölkələri aparıcı rol oynayır. Texnoloji və informasiya inqilabları iqtisadi inkişafın xarakterini dəyişmişdir. Qabaqcıl sənaye ölkələri və müəyyən dərəcədə orta inkişaf səviyyəsinə malik olan ölkələr üçün rifah səviyyəsinin artırılmasında yeni imkanlar daha çox yaranmışdır.

Bununla yanaşı tədqiqatlar göstərir ki, ziddiyyətli mahiyyəti və sosial iqtisadi nəticələrinə baxmayaraq, XX əsrdə baş vermiş elmi-texniki inqilablar inkişaf etməkdə olan ölkələrin və keçid iqtisadiyyatı ölkələrinin sosial-iqtisadi tərəqqisinə ciddi təsir göstərmişdir. Faktlar bunu əyani şəkildə sübut edir.

Belə ki, sənaye istehsalı XX əsr ərzində inkişaf etməkdə olan ölkələrdə 21, 9 dəfə artdığı halda, inkişaf etməkdə olan ölkələrdə 62, 1 dəfə artmışdır. Yalnız son 30 il ərzində (1970-2000-ci illər) sonuncuların sənaye istehsalı 55 dəfə artmışdır [202, s. 106].

2000-2005-ci illərdə isə ÜDM bütün dünyada 19, 5, inkişaf etmiş ölkələrdə 10, 1 və inkişaf etməkdə olan ölkələrdə isə 32, 9% bəndi artmışdır. [bax: əlavə №2].

İnkişaf etməkdə olan ölkələrdə sənayenin strukturunda da ciddi dəyişikliklər özünü göstərmişdir.

Verilən cədvəl və diaqramlardan göründüyü kimi XX əsrdə (100 il ərzində) ÜDM bütün dünyada 18, 8 dəfə artdığı halda, İEOÖ-də 27, 3 dəfə artmışdır.

**ÜDM-in artımı, dəfə (1900 - 1)**



| | 1900 | 1950 | 2000 |
|---|---|---|---|
| Bütün dünya | 1, 0 | 2, 9 | 18, 8 |
| Qərbin inkişaf etmiş ölkələri | 1, 0 | 2, 9 | 15, 9 |
| Qərbi Avropa | 1, 0 | 2, 0 | 10, 3 |
| İEOÖ | 1, 0 | 2, 5 | 27, 3 |
| Cənubi Amerika | 1, 0 | 5, 3 | 40, 2 |
| Yaxın və Orta Asiya (yaxın və Orta Şərq daxil deyil) | 1, 0 | 1, 6 | 22, 0 |
| Şimali Afrika, Yaxın və Orta Şərq | 1, 0 | 7, 0 | 104, 4 |
| Afrikanın cənubu | 1, 0 | 5, 0 | 17, 1 |
| SSRİ (2000-ci ildə MDB və Baltikyanı ölkələr) | 1, 0 | 4, 1 | 9, 8 |




Şəkil 1. Dünya regionları üzrə ÜDM-in artım dinamikası, dəfə (1900 - 1)

**Regionların Ümumi dünya məhsulunda payı (faizlə)**

| | 1900 | 1950 | 2000 |
|---|---|---|---|
| Bütün dünya | 100, 0 | 100, 0 | 100 |
| Qərbin inkişaf etmiş ölkələr | 60, 2 | 60, 7 | 51, 0 |
| Qərbi Avropa | 36, 7 | 25, 7 | 20, 0 |
| İEOÖ | 25, 9 | 22, 2 | 37, 6 |
| Cənubi Amerika | 3, 5 | 6, 4 | 7, 5 |
| Yaxın və Orta Asiya (Yaxın və Orta Şərq daxil deyil) | 21, 0 | 11, 2 | 23, 6 |
| Şimali Afrika, yaxın və Orta Şərq | 1, 0 | 2, 3 | 5, 4 |
| Afrikanın cənubu | 1, 4 | 2, 3 | 1, 2 |
| SSRİ (2000-ci ildə MDB və Baltikyanı ölkələr | 7, 9 | 11, 1 | 4, 1 |

*Cədvəl № 1. 7*

**İnkişaf etməkdə olan ölkələrdə maddi istehsalın strukturunun dinamikası (yekuna nisbətən faizlə)*) *333**

| İqtisadiyyat sahələri | 1950 | 1960 | 1970 | 1980 | 1990 | 2000 |
|---|---|---|---|---|---|---|
| Emaledici sənaye | 25, 8 | 29, 7 | 27, 9 | 25, 5 | 41, 7 | 55, 2 |
| Hasilat sənayesi | 6, 4 | 9, 4 | 18, 7 | 41, 7 | 23, 0 | 24, 7 |
| Kənd təsərrüfatı | 67, 8 | 60, 9 | 53, 4 | 32, 8 | 36, 3 | 20, 1 |
| **YEKUN** | **100** | **100** | **100** | **100** | **100** | **100** |

*)[202, s 108-110]

Cədvəldən göründüyü kimi XX əsrin ikinci yarısında inkişaf etməkdə olan ölkələrdə məhsul istehsalının strukturunda emaledici sənaye məhsullarının payı iki dəfədən çox artaraq 2000-ci ildə 55, 2% təşkil etmişdir. Diqqəti belə bir cəhət cəlb edir ki, bu proses qloballaşmanın geniş vüsət aldığı 90-cı illərdə xüsusən sürətlənmişdir.

Onu da nəzərə almaq lazımdır ki, həmin struktur dəyişiklikləri bəzi iqtisadçıların iddia etdikləri kimi heç də materialtutumlu və əməktutumlu sahələr hesabına baş verməmişdir. Belə ki, 1980-1998-ci illər ərzində inkişaf etməkdə olan ölkələrin ixracatında baza ehtiyatlarının (yanacaq nəzərə alınmasa) payı 50, 8%-dən 19%-ə enmiş, əməktutumlu hazır məhsulları isə müvafiq olaraq 21, 8 və 23, 2% təşkil etmişdir. Həmin dövrdə ixracatda yüksək texnolojitutumlu məhsulların xüsusi çəkisi isə 11, 6%-dən 31%-ə yüksəlmişdir [262, s. 11].

Sənaye ölkələrində yaranmış zəngin hazır texniki potensialdan istifadə edərək, zəif ölkələr öz inkişafını sürətləndirmək imkanına malikdirlər.

Adambaşına məhsul istehsalı 1970-2000-ci illər ərzində inkişaf etmiş ölkələrdə 1, 7 dəfə artdığı halda, inkişaf etməkdə olan ölkələrdə 2, 5 dəfə çoxalmışdır [326, 2001, № 9, s. 102].

2000-2006-cı illərdə isə ÜDM orta illik artım sürəti inkişaf etməkdə olan ölkələrdə inkişaf etmiş ölkələrə nisbətən xeyli yüksək olmuşdur.

**ÜDM orta illik artım sürəti (faizlə)***

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|---|
| İnkişaf etmiş ölkələr | 3, 67 | 1, 22 | 1, 34 | 1, 79 | 3, 04 | 2, 36 | 3, 0 |
| İnkişaf etməkdə olan ölkələr | 5, 85 | 4, 11 | 4, 74 | 6, 19 | 7, 35 | 6, 95 | |

*[285, p. 91]



**Regionların adambaşına ÜDM-i (ABŞ-ın səviyəsinə görə faizlə)**

| | 1900 | 1950 | 2000 |
|---|---|---|---|
| Bütün dünya | 27, 8 | 21, 2 | 22, 2 |
| Qərbin inkişaf etmiş ölkələr | 70, 6 | 57, 3 | 80, 5 |
| Qərbi Avropa | 67, 9 | 45, 5 | 69, 0 |
| İEOÖ | 11, 3 | 7, 2 | 10, 7 |
| Cənubi Amerika | 5, 3 | 21, 6 | 19, 3 |
| Yaxın və Orta Asiya (yaxın və Orta Şərq daxil deyil) | 10, 3 | 4, 8 | 9, 9 |
| Şimali Afrika, Yaxın və Orta Şərq | 13, 4 | 12, 3 | 19, 5 |
| Afrikanın cənubu | 12, 0 | 7, 9 | 2, 6 |
| SSRİ (2000-ci ildə MDB və Baltikyanı ölkələr | 26, 8 | 28, 8 | 19, 1 |




*Şəkil 2. Dünya regionları üzrə adambaşına ÜDM (ABŞ səviyyəsinə görə faizlə)*

Bununla yanaşı real həyat göstərir ki, qloballaşmanın bəhrələrinin ilk olaraq güclü dövlətlər tərəfindən mənimsənilməsi nəticəsində inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasında fərq azalmır, əksinə daha da artır. Bu haqda iqtisadi ədəbiyyatda kifayət qədər dəlillər və faktlar mövcuddur. Biz burada yalnız bir fakt üzərində dayanmağı məqsədə uyğun hesab edirik:adam başına düşən ÜDM inkişaf etməkdə olan ölkələrdə 1900-cü ildə ABŞ səviyəsində 11. 3% təşkil etdiyi halda 2000-ci ildə 10. 7%-ə enmişdir.

Onu da qeyd etmək lazımdır ki, qloballaşmanın verdiyi imkanlardan bütün inkişaf etməkdə olan ölkələr özləri də eyni dərəcədə istifadə etmirlər. Dünya Bankının hesabatlarının birində göstərilir ki, aşağı gəlir səviyyəsinə malik olan Azərbaycan da daxil olmaqla 49 ölkədə adambaşına ÜMM 1995-ci ildə 700 dollardan az olmuşdur. Həmin göstərici üzrə bu dövlətlərin böyük əksəriyyəti ABŞ səviyyəsinə görə (1987-ci illə müqayisədə) xeyli geriləmişlər [214, s. 85]. Lakin

kamil bazar iqtisadiyyatı mexanizmi yaradaraq qloballaşmanın üstünlüklərindən uğurla istifadə edən bir çox zəif inkişaf etmiş ölkələr isə ( Cənubi Koreya, Tayvan, Honkonq, Sinqapur, Çin və s. ) sosial iqtisadi tərəqqi yolunda sürətlə irəliləyirlər. 2000-2006-cı illərdə bütün dünya üzrə ÜDM-un orta illik artım sürəti 2, 5-4, 8% olduğu halda, bu ölkələrdə 7-8% olmuşdur. [285]

Nəticədə, bu ölkələr arasında da təbəqələşmə sürətlənir. Onların arasından texnoloji inqilabların və yeni beynəlxalq iqtisadi-maliyyə mühtinin verdiyi üstünlüklərdən səmərəli istifadə edən ölkələr öz inkişaf səviyyələrinə görə sənaye ölkələri ilə aralarında olan fərqi aradan qaldırırlar.

Lakin təbii istehsal amillərindən istifadəyə əsaslanan olkələrdə vəziyyət ağır şəkildə qalmaqda davam edir, onların dövlət borcları sürətlə artır, istehsalın strukturunda hasilat sənayesinin payı yüksək səviyyədə qalır.

Keçid iqtisadiyyatı ölkələrində mərkəzləşdirilmiş planlı iqtisadiyyatdan azad bazar iqtisadiyyatına transformasiya prosesinin tarixdə analoqu yoxdur və qloballaşma dövrünə təsadüf etdiyi üçün olduqca mürəkkəbləşir. Bu ölkələrdə gedən proseslər iqtisadi münasibətlərin qloballaşmasının ayrılmaz tərkib hissəsidir. Qloballaşma dövründə isə dünyanın iqtisadi inkişafında ciddi dəyişikliklər baş vermişdir. İnformasiya inqilabı, kapital axınının beynəlmiləlləşməsi iqtisadi inkişaf modelində dərin keyfiyyət dəyişiklikləri yaratmışdır. Ticarətin və maliyyə bazarlarının liberallaşması bu ölkələr qarşısında yeni perspektivlər açmaqla yanaşı, yeni problemlər də yaradır. Bu ölkələrdə ticarətin liberallaşması və maliyyə vəziyyətinin sabitləşdirilməsi qapalı olan iqtisadiyyatın açıq iqtisadiyyatla əvəz olunması prosesi ilə paralel gedir. Bunun nəticəsində, həmin ölkələr beynəlxalq əmək bölgüsünə daha çox cəlb edilir və onlarda xarici ticarət dövriyyəsi sənaye istehsalına nisbətən çox sürətlə artır. Həmin ölkələrin gələcək taleləri üçün əhəmiyyətli olan məsələlərdən biri də odur ki, yerli və xarici sahibkarların milli bazarlara sərbəst daxil olmaları və fəaliyyət göstərmələri üçün şərait yaradılır. Kapital hərəkərinin liberallaşması isə həmin ölkələrin yeni yaranmağa başlayan bazarlarının dünya maliyyə bazarlarının tərkib hissəsinə çevrilməsinə səbəb oldu. Xarici investorlar isə neft-energetika və maliyyə sahəsində daha fəallıq göstərirlər. Bu isə onlar tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşmasına səbəb olmaqla, digər tərəfdən "asılı kapitalizm" adlanan hadisənin baş verməsi ehtimalını artırır.

Qloballaşma prosesləri dərinləşdikcə inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasındakı münasibətlər "Vaşinqton konsensusu" adlanan sənəddə cəmləşmiş olan tövsiyələr ( BVF, Dünya bankı və digər beynəlxalq təşkilatların ) əsasında formalaşmağa başlamışdır. Həmin sənəddə adı çəkilən ölkələrə tövsiyə edilir ki, onlar bank, xarici ticarət, xarici investisiyalar haqqında qanunvericiliyi daha da liberallaşdırsınlar, vergiləri və büdcə xərclərini ixtisar etsinlər, geniş miqyaslı özəlləşdirmə tədbirlərini həyata keçirsinlər, inflyasiyanın qarşısını qətiyyətlə alsınlar və maliyyə vəziyyətlərini sabitləşdirsinlər, xarici borcları restruksizasiya etsinlər. Bu tövsiyələr C.Stinqlisin göstərdiyi kimi, standart xarakter daşıyır və heç də istənilən müsbət nəticə vermədi: "BVF-nin bazarların öz-özlüyündə kənar müdaxilə olmadan səmərəli fəaliyyət göstərməsi kimi köhnəlmiş fikirlərə əsaslanan siyasi kursu, bazar iqtisadiyyatının düzgün istiqamətləndirilməsinə və əhalinin maddi rifah halının yüksəldilməsinə səbəb ola biləcək arzu olunan dövlət müdaxiləsinə imkan yarada bilməmişdir. " [97a . 9 . XII]



İnkişaf etməkdə olan ölkələrdə mövcud olan köklü problemlərin həlli üçün inkişaf etmiş ölkələrin və beynəlxalq təşkilatların liberal görüşlərə əsaslanan tövsiyələri ciddi tənqidə məruz qaldığı üçün "Vaşinqton konsensusunun" bir sıra müddəaları yenidən nəzərdən keçirildi. Bu zaman heç liberal postulatların bir sıra radikal müddəalarından əslində imtina edildi və yeni islahat tədbirləri hazırlandı. Bu tövsiyələr (müəllifi C. Stinqlis) "postvaşinqton konsensusu" adını aldı. Bu zaman əvvəl verilmiş tövsiyələr (məsələn, inflyasiyanın boğulması, dövlət mülkiyyətinin irimiqyaslı özəlləşdirilməsi, ticarət və maliyyə bazarlarının liberallaşdırılması, xarici borcların restruksizasiyası və liberal siyasətin digər "alətləri" vasitəsilə maliyyə sabitliyinin yaradılması) yenidən nəzərdən keçirildi. İnkişaf etməkdə olan ölkələrdə dövlət-bazar münasibətlərinə bu sənəddə yenidən baxılır. [153. 5. 19-21]

Sənaye cəmiyyətindən postsənaye cəmiyyətinə keçidin təkamül yolu ilə hərəkət etməsinə baxmayaraq, bu proses ölkə daxilində ciddi disproporsiya və konfliktlər yaradır. Bu, özünü bir çox maddi istehsal sahələrinin məhsullarına dünya bazarlarında tələbin azalması ilə əlaqədar olaraq struktur və peşəkar işsizliyin artması ilə büruzə verir. Sənayeləşmə sürətləndikcə əksər sənaye sahələrində, xüsusən xidmət bölməsində az ixtisaslı işçilərə tələbat da azalır. Cəmiyyətin yüksək bilik və təhsilə yiyələnmiş postsənaye hissəsi ilə az ixtisaslı hissəsi arasında ziddiyyət yaranır və getdikcə dərinləşir.

Beləliklə, qloballaşma istər dünya miqyasında, istərsə də ölkə daxilndə keyfiyyətcə yeni iqisadi və maliyyə mühitinin formalaşmasına yol açmışdır. Mütəxəssislərin əksəriyyəti hesab edirlər ki, beynəlxalq iqtisadi münasibətlərin liberallaşması eyni tipli qanunlarla idarə olunan, vahid və yaxud yüksəkdönərli ödəmə vasitələrindən istifadə edilən vahid və yekcins qlobal bazar məkanının yaranmasını sürətləndirir. İqtisadiyyatın dövlət tənzimlənməsi nəticəsində ölkələrarası mövcud maneələr getdikcə aradan qaldırılacaqdır. Bu isə rəqabətin qlobal xarakter olmasını təmin edəcək, dünya ehtiyatlarından daha səmərəli istifadə edilməsinə səbəb olacaqdır.

Qloballaşma proseslərinin həm ölkələr, həm də fəaliyyət sahələri baxımından qeyri bərabər nəticələri təsirli milli dövlət modelinin formalaşdırılmasını və inkişaf etdirilməsini tələb edir. Bu baxımdan dövlətin 3 mühüm funksiyasının təkmilləşdirilməsini tələb edir:

1. Dövlətin texnoloji infrastruktur və insan kapitalının formalaşdırılması sahəsindəki strateji funksiyası – belə ki, qloballaşma prosesində ölkələrin texnologiya və insan kapitalı sahəsində infrastrukturunun yenilənməsi və inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

2. Dövlətin bazarları və rəqabət tənzimləyici funksiyası – dölətin bazarları, xüsusən bank sistemini və maliyyə strukturunu tənzimləyən funksiyasının əhəmiyyəti son dərəcədə artmışdır. Son dövrlərdə maliyyə sahəsində özünü göstərən dərin dünya böhranları (1998–2008) onu göstərdi ki, maliyyə sektorunda dövlətin tənzimləyici rolu zəif olan ölkələr həmin böhranlardan daha çox itki ilə çıxırlar.

3. Dövlətin bölgü sahəsindəki funksiyaları – qloballaşma prosesinin qeyri – bərabər gedişi istər ölkələr arasında, istərsə də ölkə daxilində gəlir bölgüsünün tənzimlənməsini tələb edir.

# FƏSİL II.

## MİLLİ DÖVLƏTLƏRİN QLOBAL MALİYYƏ-İQTİSADİ MÜHİTƏ İNTEQRASİYASININ NƏZƏRİ VƏ PRAKTİKİ ƏSASLARI

### 2. 1 Qlobal əmək bölgüsü sisteminə inteqrasiyanın nəzəri əsasları.

İnformasiyaya əsaslanan istehsal və rəqabətin beynəlxalq əmək bölgüsü sistemində formalaşan qloballaşma ölkələrarası asılılıq, regionallaşma və hər bir regionda diversifikiasiyanın durmadan artması ilə xarakterizə edilir, tarixən formalaşmış iqtisadi coğrafiyanın dəyişdirilməsinə doğru aparır. [188. s. 119]

Hər bir ölkədə geniş təkrar istehsalı prosesinin mühüm amillərindən biri olan beynəlxalq əmək bölgüsü (BƏB) milli iqtisadiyatla qlobal iqtisadiyatın qarşılıqlı əlaqəsini şərtləndirir, zəruri beynalxalq iqtisadi proporsiyaları formalaşdırır və inkişaf etdirir.

Təbii sərvətlərin milli dövlətlər arasında qeyri-bərabər bölgüsü BƏB-in mövcudluğunu şərtləndirir və hər bir ölkə ərazisində milli iqtisadiyyatın formalaşmasının əsasını təşkil edir. Lakin qloballaşma dövründə baş verən informasiya və texnologiya inqilabları təbii şəraitin və təbii sərvətlərin həlledici rolunu ikinci plana keçirir. Müasir dövrdə hər bir ölkədə sosial-iqtisadi tərəqqi informasiya və texnologiya sahəsində durmadan baş verən dəyişikliklərdən necə və nə dərəcədə istifadə olunmasından asılıdır.

Ölkələr arasında qarşılıqlı əlaqələr də BƏB sahəsində özünü göstərən təmayüllər nəzərə alınmaqla həyata keçirilməlidir. Qloballaşma prosesləri sənaye ölkələrində irimaşınlı sənayenin inkişafının daha da sürətlənməsi ilə nəticələnir. Bu isə istehsalın miqyasını əvvələr görünməmiş dərəcədə artırmaqla onların satışı və xammal mənbələri uğrunda dünya bazarlarında gedən mübarizəni olduqca kəskinləşdirir. Digər tərəfdən isə İEOÖ-lərin elmi-texniki nailiyyətlərdən istifadə etmə zərurəti də durmadan artır.

Qloballaşma da, əslində bu ehtiyacların təsiri altında yaranmış və inkişaf edir. Beynəlxalq əmək bölgüsü dərinləşdikcə kapital və maliyyənin, işçi qüvvəsinin beynəlxalq hərəkəti genişlənir.

Qərbin aparıcı tədqiqatçılarının BƏB-nün modernləşdirilməsi sahəsindəki görüşlərini iki qrupa bölmək olar:

1. ölkələrin qarşılıqlı asılılığının müxtəlif variantları;
2. mövcud BƏB modelinin yenidən qurulmasına yönəlmiş tövsiyələr.

Xarici asılılıq nəzəriyyəsi 20-ci illərdə "Üçüncü dünya" ölkələrində populyarlıq qazanmağa başlamışdır. [198. 588. 89]

Sözügedən nəzəriyyəyə əsasən, zəif inkişaf etmiş ölkələr varlı İEÖ tərəfindən istismar olunur və ölkələrin yoxsulluğu onların dünya iqtisadiyyatına necə



inteqrasiya olumasından asılıdır. Nəzəriyyəyə görə, gələcək inkişafın təmin olunmasında zəif inkişaf etmiş ölkələr üzərindəki müstəmləkəçiliyin təsirləri nəzərə alınmalıdır. Sözügedən nəzəriyyə qeyd edir ki:

- Kasıb ölkələr varlı ölkələr üçün təbii resurslar, ucuz işçi qüvvəsi və onların texnologiyaları üçün bazar rolunu oynayır.
- İEÖ müxtəlif siyasət və təşəbbüslər vasitəsilə kasıb ölkələri özlərindən asılı vəziyyətə salırlar.
- Asılı ölkələr İEÖ-in təsirlərinə müqavimət göstərdikdə isə varlı ölkələr tərəfindən onlara tətbiq edilən iqtisadi sanksiyalarla, hərbi təcavüzlə və güclü nəzarətlə üzləşirlər.

Bu nəzəriyyə ilk dəfə P. Baranın Artımın əsərində öz əksini tapmışdır. O qeyd edirdi ki, qərbin İEÖ əslində İEOÖ-in yoxsulluqdan azad olmasına mane olur. Baran həmçinin vurğulayır ki, İEOÖ əldə etdikləri mənfəətləri iqtisadi artıma səbəb olacaq sərmayə qoyuluşlarına yatırmırlar. Baranın nəzəriyyəsini təkmilləşdirən A. Frank qeyd edirdi ki, Qərbin burjuaları İEOÖ-i inkişafını ləngitməklə öz hazır malları üçün bazar və zavodları üçün isə ucuz xammal təchizatını təmin edirlər. Bu yolla da İEOÖ İEÖ-dən asılı vəziyyətə düşürlər. Kapitalist ölkələrdə üçüncü dünya ölkələrinin dominant təbəqələri ilə alyans yaradaraq həmin ölkələrin inkişafına mane olmuşdur. Kapitalist ölkələrdən asılı olan üçüncü dünya ölkələrinin dominant təbəqələri Qərb ölkələrinə xammal ixrac etməklə gəlir əldə edir və birinci dünya ölkələrindən bahalı mallar idxal edirlər. Sözügedən nəzəriyyə ölkələri 2 müxtəlif inkişaf kateqoriyasına - mərkəz və periferiyaya bölmüşdür. Mərkəzə inkişaf etmiş və müstəmləkəçi dövlətləri, periferiyaya isə inkişaf etməkdə olan və müstəmləkə dövlətləri daxildir. Mərkəz periferiyanı istismar edir və müstəmləkəçilik nəticəsində inkişafını təmin etmiş olur.

Bu nəzəriyyəyə görə, Qərbin şirkətləri İEOÖ-in bazarlarına girməyə, oradakı ucuz işçi qüvvəsindən istifadə etməyə can atır, kapitaltutumlu və ekoloji cəhətdən zərərli zavodları bu ölkələrə köçürür. Lakin həmin ölkələrə özlərinin tədqiqat və inkişaf potensialını ixrac etmirlər. Nəticədə, üçüncü dünya ölkələrinin sənayeləri "ikinci nəsil" texnologiyalara əsaslanır, xaricdən gətirilən xammal istifadə edən əcnəbilərə məxsus olur, az sayda iş yerləri açılır və ölkə iqtisadiyyatında fəaliyyət göstərən digər istehsalçılar ilə az bağlılıq yaranır. Eyni zamanda, üçüncü dünya ölkələrinin xarici valyuta ehtiyatları azalır, çünki xarici şirkətlər öz mənfəətlərini ölkələrinə göndərirlər. Bununla əlaqədar olaraq, üçüncü dünya ölkələri xarici valyuta əldə etmək üçün daha çox xammal ixrac etməyə məcbur olurlar. Buna görə, üçüncü dünya ölkələrinin iqtisadiyyatlarının sağlamlığı inkişaf etmiş ölkələrə xammal ixrac etməkdən asılı olacaqdır. Bununla yanaşı, iş yerləri açılmadığından həmin ölkələrin əhalisi bu artımın yalnız kiçik faydasını görəcəklər. Ona görə də, üçüncü dünya ölkəlrində baş verən hər hansı iqtisadi inkişaf müəyyən sosial inkişafa gətirib çıxaracaqdır, lakin yenə də birinci dünya ölkələrinin iqtisadiyyatlarının inkişafı ilə müəyyən olunacaqdır. Elə bu səbəbdən də, sözügedən nəzəriyyənin nümayəndələri qeyd edirdilər ki, İEOÖ öz davamlı inkişaflarını İEÖ-dən asılı olmaqla təmin edə bilməzlər. Bununla əlaqədar olaraq, üçüncü dünya ölkələrinin müstəqil milli inkişaf strategiyasına ehtiyacları vardır. Həmin ölkələr birinci dünya ölkələrindən asılı olaraq inkişaf etməməli, iqtisadi cəhətdən öz tələblərini təmin edə bilməlidirlər.

Qeyd olunmalıdır ki, bütün dünya ölkələri bu və ya digər dərəcədə bir-birlərindən asılıdırlar. Həmçinin, hər bir ölkə özünün iqtisadi inkişafını təmin etmək üçün digər ölkələrlə iqtisadi və ticarət əlaqələri qurur. Qloballaşma şəraitinin bütün dünya ölkələri qarşılıqlı sürətdə bir-birilərindən asılıdırlar və özlərinin iqtisadi inkişafını təmin etmək məqsədilə öz səylərini əsirgəmirlər.

ABŞ iqtisadçısı R. Kuper qarşılıqlı asılılıq problemini müxtəlif nöqteyi nəzərdən araşdırır. Onun fikrinə görə, dörd növ qarşılıqlı asılılıq mövcuddur:

1. Struktur asılılığı. Ölkələr bir-biri ilə o qədər qarşılıqlı asılılıq vəziyyətindədirlər ki, hər hansı bir ölkənin iqtisadiyyatında baş verən əhəmiyyətli dəyişiklik dərhal digər ölkələrdə əks-səda doğurur.

2. İqtisadi siyasət sahəsində qarşıya qoyulan məqsədlərin qarşılıqlı asılılığı;

3. İqtisadi inkişafın xarici amillərinin qarşılıqlı asılığı.

4. Siyasi cəhətdən qarşılıqlı asılılıq həmin nəzəriyyə öz reallığı ilə fərqlənir. [124, 551].

Göstərilən nəzəriyyələr qloballaşma dövründə BƏB sisteminin modernləşdirilməsi sahəsində digər nəzəriyyələrin meydana çıxmasına şərait yaratmışlar.

BƏB modernləşdirilməsi və milli dövlətlərin bu prosesə uyğunlaşması ideyalarının əsas məzmunu ondan ibarətdir ki, İEOÖ himayəçilik siyasətindən imtina etməlidirlər və xarici kapitalın ölkəyə daha çox daxil olması üçün şərait yaratmalıdırlar. İEOÖ-in çoxu həmin nəzəriyyələrin işığında "açıq qapı" siyasətini həyata keçirir, müştərək müəssisələrin, azad iqtisadi zonaların yaradılmasını sürətləndirirlər.

Bu sahədə Cənubi-Şərqi Asiya və Latın amerikası ölkələri xeyli nailiyyətlər əldə etmişlər. Bununla yanaşı, onlar himayəçilik siyasətindən də tam imtina etməyiblər. Onlar himayəçilik rejiminin yumşaldılması siyasətinin İEÖ tərəfindən də həyata keçirilməsini tələb edirlər.

Qloballaşma dövründə BƏB sisteminin modernləşdirilməsi ideyasının əsas məzmununu İEOÖ-lərin sənayeləşmə siyasətinin sahə strukturunun yeni istiqamətlərinin müəyyən edilməsi təşkil edir. Onlara təklif olunur ki, İEÖ-in ehtiyaclarını ödəmək üçün əməktutumlu, materialtutumlu, standartlaşdırılmış məhsul və məmulatların istehsalına üstünlük versinlər. Həmin məhsulların ixracı hər vasitə ilə stimullaşdırılsın. İEÖ isə yüksək ixtisaslı işçi qüvvəsi tələb olunan elmi-texniki tərəqqinin özünü çox göstərdiyi sahələrin inkişafına üstünlük verməlidirlər. [124, 5. 51-52]

80-cı illərdə ABŞ, Kanada, Böyük Britaniya və AFR-da konservativ hökümətlərin hakimiyyətə gəlməsi iqtisadi nəzəriyyədə və siyasətdə neoklassik əksinqilab ilə nəticələndi. Onlar İEÖ-lərdə məcmuu təklifin stimullaşdırılmasına və dövlət müəssisələrinin özəlləşdirilməsinə üstünlük verdilər. Həmin nəzəriyyənin tərəfdarları üçüncü dünya ölkələrində iqtisadiyyata dövlət müdaxilələrinin ixtisar olunması ideyasını irəli sürdülər. Həmin ideyalar aparıcı beynəlxalq iqtisadi təşkilatlar olan BVF və Dünya bankı tərəfindən qəbul olundu. Ona görə də azad bazar ideyalarını əsas götürən neoklassik məktəbin nümayəndələri asılılıq nəzəriyəsinin tərəfdarlarına qalib gəldilər. Onlar hesab edirdilər ki, bazarlara sərbəstlik verməklə, dövlət müəssisələrini özəlləşdiməklə, ixracatın qarşısındakı manelərı götürməklə və xarici kapitalı cəlb etməklə iqtisadi inkişafı sürətləndirmək mümkündür.

Asılılıq nəzəriyyəsi tərəfdarlarından fərqli olaraq neoklassiklər hesab



edirdilər ki, üçüncü dünya ölkələri öz inkişafında İEÖ-lərin irticaçı siyasətlərinə görə deyil, iqtisadiyyata dövlət müdaxilələrinin yüksək olmasına görə geri qalırlar.

Neoklassik nəzəriyyənin nümayəndələrindən biri olan P. Bauer qeyd edirdi ki, üçüncü dünya ölkələrinin əhalisi, xüsusən də kənd yerlərində yaşayanlar bazar rasionallığının qaydalarına əməl etmirlər. Bauer hesab edir ki, dövlət yox, fərdlər iqtisadiyyatın sahibkarlığını təmin etməlidirlər. Bu nəzəriyyənin digər nümayəndəsi T.Şults isə qeyd edirdi ki, kəndli fermerlər fermalarında çox az vaxt və kapital işlədirlər. Bunun səbəbi isə dövlət siyasətinin həmin fermerlərin bir sahibkar kimi formalaşmasına göstərdiyi mənfi təsirlə bağlıdır. Belə ki, dövlət siyasəti ya həmin fermerləri kapitaldan məhrum edir, ya da kənd təsərrüfatındakı qazancları çox aşağı endirir.

Bu nəzəriyyənin digər nümayəndələri C. Bhaqvatı, V. Ramasvami, H. Conson, B. Balassa, Ə. Kruqer və V. Korden əsas diqqəti proteksionizmin itkilərinə və valyutanın həddən artıq yüksək qiymətləndirilməsinə yönəltmişlər. [198, 590] Onlar hesab edirdi ki, üçüncü dünya ölkələri bazara və özəl təşəbbüsçülüyə sərbəstlik verməklə ehtiyatların səmərəli bölgüsünü və sürətli inkişafı təmin edə bilərlər. Buna misal olaraq, Cənubi-Şərqi Asiya ölkələri göstərilir. [198, 5. 93-94] Lakin üçüncü dünya ölkələrinin təcrübəsi göstərdi ki, neoklassik nəzəriyyələr uzun müddətli prespektivdə özünü heç də həmişə doğrultmur. Xüsusən keçid iqtisadiyyatı ölkələrində sosial-iqtisadi proseslərin tənzimlənməsində bazar mexanizminə bir mənalı şəkildə üstünlük verilməsi və dövlət tənzimləmələrinin rolunun zəifləndilməsi həmin ölkələrdə mövcud problemlərin uzunmüddətli perspektivdə həllini sürətləndirə bilməz. Amerikan tədqiqatçısı Manuel Kastelsin fikrinə görə, qlobal proseslər dərinləşdikcə rəqabət mübarizəsi dünyanın iqtisadi mərkəzləri, regionları və ölkələri arasında getdikcə kəskinləşir, BƏB sisteminin sturukturunda ciddi dəyişikliklər baş verir. [188. 5. 153-154]. Yeni BƏB anlayışı qlobal iqtisadiyyatda dörd əsas istehsalçılar qrupunun mövqeni əks etdirir: ixtisaslı əməyə əsaslanan yüksək dəyər istehsalçıları; az əmək haqqı ödəmələrinə əsaslanan miqdarca böyük həcmdə məhsul istehsalçıları; təbii ehtiyatlara əsaslanan xammal istehsalçıları; qiymətdən düşmüş məhsul istehsalçıları. Lakin həmin müxtəlif növ əmək bölgüsü ölkə bölgüsü ilə uyğun gəlmir. Onlar qlobal iqtisadiyyatın informasiya infrastrukturundan istifadə edilməklə şəbəkə və axınlar şəklində təşkil olunurlar. Coğrafi cəhətdən onlar planetin bir sıra regionlarında təmərküzləşir və qlobal iqtisadiyyata differensial xarakter verirlər. Lakin yeni BƏB ölkələr arasında deyil, yuxarıda göstərilən dörd əmək növü şəklində qlobal iqtisadiyyatda şəbəkə və axınlar şəklində yerləşdirilmiş iqtisadı agentlər arasında baş verir. Həmin dörd mövqe bütün ölkələrdə mövcuddur və onlar öz reallığı və məqsədləri baxımından qlobaldırlar. Hətta ən marjinal iqtisadiyyatda belə, az da olsa, yüksək dəyər istehsalçıları mövcuddur və əksinə, ən qüdrətli iqtisadiyyatda da, marjinal seqmentlər mövcuddur (Məs. Nyu-York, Osaka, London və yaxud Madriddə).

BƏB-də mövqe, prinsip etibarilə, ölkənin xarakterindən deyil, onun əmək ehtiyatlarının xüsusiyyətlərindən, bilik səviyyəsindən və onun qlobal iqtisadiyyata daxil olma dərəcəsindən asılı oldugu üçün dəyişikliklər qısa tarixi dövr ərzində baş verə bilər. Bu prosesdə hökümətlərin və biznes strukturlarının fəaliyyəti həlledici rol oynayır. Yeni beynəlxalq əmək bölgüsü, əmək ehtiyatları və texnologiya bazası əsasında formalaşır və hökümətlər və sahibkarların fəaliyyəti ilə istiqamətlənir.

## 2. 2. Qloballaşma şəraitində innovasiyanın inkişafında dövlətin strateji rolu

*Bu gün qabaqcıl ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, onların tərəqqisini elm müəyyən etmişdir. Nə təbii sərvətlər, nə də ki, coğrafi vəziyyət deyil, məhz intellektual kapital, məhz elmin səviyyəsi hər bir ölkəni lider ölkəyə çevirir.*

**İlham ƏLIYEV,**
*Azərbaycan Respublikasının Prezidenti*

İqtisadi qloballaşma ölkələrin istehsal sistemləri ilə yanaşı innovasiya sistemlərini də bir-birindən asılı vəziyyə salmışdır. Qloballaşma şəraitində bazarlarda rəqabətin artması, elm və texnologiyada sürətlə özünü göstərən dəyişikliklər təsərrüfat subyektlərini məcbur edir ki, innovasiyadan fasiləsiz istifadə etsinlər. Məlum olduğu kimi, innovasiyanın iki növü vardır: texnologiya və idarəçilik sahəsində innovasiyalar. İdarəçilik sahəsində firmalararası şəbəkələşmə və əməkdaşlıq rəqabət gücünü artırmaq üçün müstəsna əhəmiyyət kəsb edir. Firmalararası şəbəkələşmə, bazar və istehsal sahəsində biliklərin yayılması və birgə hərəkət ənənəsinin yaradılması texnoloji infrastrukturun daha da yaxşılaşdırılması üçün əməkdaşlığa şərait yaradır. Bundan başqa, firmadaxili idarəçilik yenilikləri və texnoloji dəyişiklikdən rəqabət gücünü artırmaq məqsədilə istifadə edilməsi həyati əhəmiyyət kəsb edir.

Texnologiya sahəsində yeniliklər firmalar, xüsusən kiçik müəssisələr üçün getdikcə daha böyük əhəmiyyət kəsb edir. İnnovasiyanın məhsuldarlığı yalnız bu sahədə çalışanların (məsələn firmaların, elmi-tədqiqat müəssisələrinin, universitetlərin) yalnız professional fəaliyyətindən asılı deyildir, eyni zamanda, innovasiya sisteminin aparıcıları kimi onların yerli, milli və beynəlxalq səviyyədə əlaqələrindən asılıdır. İnnovasiya sisteminin verimliliyi bir çox amillərdən asılıdır. Bunlar arasında fərdləri və müəssisələri öyrənməyə stimullaşdıran şərtlər, maliyyə sisteminin etibarlılığı, bu sahədə dövlət tənzimləmələrinin səmərəliliyi və s. mühüm rol oynayır. Məsələn, innovasiya prosesinin milli iqtisadiyyata əhəmiyyətli təsir göstərə bilməsinin mühüm şərtlərindən biri elmi-tədqiqat müəssisələri və universitetlər ilə sahibkarlar arasında qarşılıqlı əlaqələrin yaradılması və inkişaf etdirilməsidir. Bu sahədə dövlətin üzərinə böyük vəzifələr düşür. Bunlar aşağıdakılardır:

İnnovasiya sisteminin gücləndirilməsi. Bu funksiya qloballaşma dövründə milli dövlətlər qarşısında duran həyati əhəmiyyətli məsələdir. Qloballaşma texnoloji infrastrukturun formalaşma prosesində bu sahədə bazar mexanizmində özünü göstərən çatışmazlıqları aradan qaldırmağa yardım edə bilər. İnnovasiya tətbiq edilərkən mövcud olan qeyri-müəyyənliklər bu sahəyə kapital qoyuluşunu çətinləşdirir. Bu çətinliklərin aradan qaldırılması sahəsində dövlət öz funksiyasını yerinə yetirmədikdə qloballaşmanın verdiyi ən mühüm üstünlük - texnologiyanın fasiləsiz tətbiqi reallaşdırıla bilməz ( 279. s. 45). İnkişaf etmiş sənaye ölkələrində, ənənəvi olaraq, texnoloji irəliləmə sahəsində dövlət öz üzərinə böyük məsuliyyət götürür və



genişmiqyaslı təşkilatçılıq fəaliyyətini həyata keçirir, tənzimləmələr aparır.

İnnovasiya üçün zəruri şəraitin yaradılması. Dövlət özünün texnologiya və innovasiya siyasətini həyata keçirdiyi bütöv iqtisadi strategiyanın tamamlayıcı ünsürü hesab edir. Bu siyasət daxilində dövlət biliyin ölkə iqtisadiyyatını bütövlüklə əhatə edən idarə olunması sistemini yaratmaq və onu təsirli hala gətirmək funksiyasını öz üzərinə götürür. Bu funksiya çərçivəsində innovasiya üçün lazımi şəraitin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Bunlara aşağıdakılar daxildir:

1. İnnovasiya sahəsində rəqabəti təşviq edən siyasət.
2. İnsan kapitalının formalaşmasını təmin edən təhsil siyasəti.
3. Bürokratik manеələrin aradan qaldırılmasına istiqamətlənmiş idarəçilik sahəsində və müəyyən sistemində islahatların aparılması.
4. Kiçik müəssisələrə kapital axınını təşviq edən maliyyə siyasəti.
5. Əmək bazarında elastikliyi artırmağa istiqamətlənmiş işçi qüvvəsi siyasəti.
6. İnformasiyanın yayılmasını yüksək səviyyəyə çıxaran və elektron şəbəkələrin geniş tətbiqinə əsaslanan rabitə siyasəti.
7. Qlobal səviyyədə yaradılan texnologiyanın milli sərhədlər daxilində yayılmasını genişləndirən xarici kapital və ticarət siyasəti ( 279, s. 88).

İnnovasiya mədəniyyətinin yayılması. Firma və müəssisələrin əksəriyyətində işin zəif təşkili və idarəçilik praktikasının geoloji texniki yeniliklərə uyğun gəlmir. Bu problemin həll edilməsində dövlətin üzərinə böyük vəzifələr düşür:

1. dövlət iş dünyası, elmi-tədqiqat işlərində və təhsildə innovasiya mədəniyyətinin yayılmasında əlverişli şərait yaratmalı, böyük və kiçik bütün müəssisə və firmaların innovasiya və idarəçilik sahəsində müəllif təcrübələrini tətbiq və təşviq etməlidir;
2. dövlət yeni texnologiyanın yayılmasını asanlaşdırmağa istiqamətlənmiş dövlət proqramları tərtib etməli, firmaların innovasiya fəaliyyətini təşviq etməlidir;
3. yenilikçi sahibkarların birinci fəaliyyətində mövcud olan manеələr aradan qaldırılmalıdır;
4. dövlət və xüsusi bölmədə elmi-tədqiqat işlərində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərin iş şəraiti nəzərdən keçirilməli və yaxşılaşdırılması üçün tədbirlər görülməlidir;
5. özəl sektorda risk yüksək olan innovasiya sahəsində səhmdar kapitalın formalaşdırılması və inkişaf etdirilməsi üçün tədbirlər görülməlidir

Yeni texnologiyanın yayılması. Dövlət emaledici sənayedə yüksək texnologiyadan istifadə edilən biliktutumlu sahələrə xüsusi diqqət verməlidir. Məlum olduğu kimi, iqtisadi əməkdaşlıq və inkişaf təşkilatında (OƏCP) istehsalın üçdə ikisi və məşğulluğun 70%-i xidmət sektoruna aiddir. Texnologiyanın yayılması mexanizminin təkmilləşdirilməsi dövlətin iqtisadi siyasətinin aparıcı istiqamətlərindən biri olmalıdır. Bu mexanizm yalnız texnologiyanı tətbiq edən firmaları deyil, həm də ənənəvi üsullarla istehsalı təşkil edən müəssisələri də əhatə etməlidir.

Qabaqcıl dünya dövlətlərinin təcrübəsi göstərir ki, hökumət texnologiyanın yayılmasında fərdləri təşviq etməklə yanaşı, bu sahədə təşkilatlanmağa da xüsusi diqqət verirlər. Texnologiya sahələrindəki biliklər xaricdən mütəxəssislər cəlb olunması yolu ilə də artırıla bilər. Təhsil siyasəti təhsil alma müddəti bitdikdən

sonra da davam etdirilməlidir. İşləyənlərin təhsilinin artırılması, özəl və dövlət bölməsi arasında mütəxəssis mübadiləsi sistemi yaradılaraq inkişaf etdirilməlidir.

Şəbəkələşmə və təmərküzləşmənin təşviqi. Şəbəkələşmiş firmalarla innovasiya yaradan müəssisələr arasındakı əlaqələr innovasiya prosesinin başlıca mənbəyi halına gəlmişdir. Belə vəziyyət informasiya texnologiyalarının inkişafının nəticəsi kimi yeni texnologiyanın yayılmasında əldə etdikləri üstünlük ilə əlaqədar yaranmışdır. Yenilikdən praktikaya qədər yolda məsafə olduqca yüksəkdir və getdikcə artmaqda davam edir və yenilikçi müəssisələr nə qədər böyük olsalar da, onlar həmin məsafəni təkbaşına qət edə bilmirlər. Ona görə də onlar ehtiyac hiss etdikləri yeni bilikləri və mütəxəssisləri bəzən firma daxilində əldə edə bilmirlər və buna görə də həmin problemi həll etmək üçün strateji ittifaqlar yaradırlar. Günümüzdə belə ittifaqların sayı durmadan artır, şəbəkələşmə genişlənir. Firmalar innovasiya prosesində çox vaxt alt sənaye sahələri, müştəriləri və hətta rəqibləri ilə də əməkdaşlıq edirlər. ( 279, s. 86)

Bir çox qabaqcıl ölkələrdə yenilikçi firmaların təmərküzləşməsi iqtisadi inkişafın aparıcı mühərrikinə çevrilmişdir. Yenilikçi iqtisadi fəaliyyətin təmərküzləşməsi yeni texnologiyalar, yüksək ixtisaslı mütəxəssislər və tədqiqat işlərinə kapital qoyuluşları üçün cazibə mərkəzlərinə çevrilmişdir. Belə təmərküzləşmə mərkəzləri daha çox irimiqyaslı ölkələrdə aparıcı firmaların mövcud olduğu, innovasiya mədəniyyətinin geniş yayıldığı regionlarda yaranır. Lakin belə təmərküzləşmə mərkəzləri təbii üstünlüyə malik olan ölkələrdə də yaradıla bilər.

Bazar iqtisadiyyatında innovasiya prosesləri, hər şeydən əvvəl, ölkənin özünün milli təhsil sistemində yaradılmış sağlam təmələ əsaslanmalıdır. Bu sağlam təməl universitetlərdə və dövlət elmi- tədqiqat mərkəzlərində daha çox dövlət vəsaiti ilə dəstəklənən tədqiqatlardır. Dövlət elmi-tədqiqat müəssisələrinin həyata keçirdikləri elmi fəaliyyət əsas etibarilə səhiyyəyə, ekologiyaya və milli təhlükəsizliyin təmin olunmasına yönəldilməklə yanaşı təhsilin inkişafına, qabaqcıl biliklərin yüksəldilməsinə xidmət edir. Elm və təhsilin inkişafı texniki innovasiyanın əsas mənbəyidir. Firmalar bu mənbədən yeni texnologiya yaradılması üçün istifadə edirlər.

Modernləşmə sahəsində qloballaşmanın tələblərinə uyğun zərurəti biliyə əsaslanan əmək məhsuldarlığı qlobal iqtisadiyyatın əsas fərqləndirici xüsusiyyətidir. ( 188, s. 84)

Xaricdən texnologiya idxalı modernləşmə prosesini sürətləndirə bilər. Lakin dövlətlərin çoxu bu halda ölkənin özünün tədqiqat və araşdırma qabiliyyətinin və müvafiq olaraq innovasiya gücünün itirilməsindən narahatdırlar. Ona görə də innovasiyaya kapital qoyan qlobal səviyyəli xarici şirkətlərlə əməkdaşlıq etmək faydalıdır. Lakin belə əməkdaşlıqdan fayda götürülməsi oyunun şərtlərindən asılıdır.

Milli istehsalın texnoloji quruluşunun müasir dünyada mövcud olan yüksək səviyyəyə yüksəldilməsi və milli iqtisadiyyatın özündə texnoloji şəbəkələr yaradılmasının təmin edilməsi belə əməkdaşlığın əsas şərti olarsa, ondan əhəmiyyətli fayda götürmək mümkündür. Belə siyasətin həyata keçirilməsi üçün yerli innovasiya müəssisələrinin yaradılması, təmərküzləşməsinin təşviqi qlobal şirkətlərin innovasiya qoyuluşlarının və xarici tədqiqatçıların cəlb edilməsi üçün olduqca vacibdir.



Qloballaşma prosesində ölkələr bənzər problemlərlə qarşılaşaraq bu sahədə milli siyasətlərini milli ənənələrə və mövcud olan sistemlərə uyğun olaraq formalaşdırırlar. Başqa sözlə, milli innovasiya siyasəti də ölkənin iqtisadi inkişaf xüsusiyyətlərini və tarixi ənənələri nəzərə almalıdır.

Tədqiqatların və texnologiyanın inkişaf etdirilməsi sahəsində mövcud olan xüsusiyyətləri və innovasiya fəaliyyətinin əhəmiyyəti və dərəcəsi bazar iqtisadiyyatının inkişafı səviyyəsi ilə sıx əlaqədardır. Təhsil və texnologiya sahəsində siyasəti formalaşdıran qurumların gücü və ənənələri, bu sahədə məsuliyyətin mərkəzi və yerli orqanlar arasında bölgüsü, müxtəlif nazirliklərin rol və gücləri, hökumət-sənaye əlaqələrinin xarakteri, dövlət-özəl şirkətlərin mövcudluğu dərəcəsi baxımından ölkədən ölkəyə ciddi fərqlər mövcuddur. Bəzi ölkələr (məsələn, Yaponiya) təhsilin təməlinin gücləndirilməsinə üstünlük verdikləri halda, digər ölkələr (məsələn, ABŞ) dövlət tədqiqat müəssisələrinin məlum məqsədlərə istiqamətlənmiş fəaliyyətinə xüsusi əhəmiyyət verirlər. Müxtəlif Avropa ölkələrində isə innovasiya mədəniyyətinin, xüsusən kiçikmiqyaslı müəssisələrdə yüksəldilməsi ön plana çəkilir (198, s. 348)

Texnologiya siyasətinin müəyyən bir xəttə tabe edilməsi hökümət müdaxilələrinin səmərəliliyinin azaldılması riskini artıra bilər. Ancaq bu, eyni zamanda, ölkənin innovasiya qabiliyyətinin artırılmasında misilsiz faydalar verə bilər.

İqtisadi əməkdaşlıq və inkişaf təşkilatının yeni üzvlərə milli innovasiya sistemlərini mövcud olan, lakin qırıq-sökük ünsürlərini birləşdirərək qorumaq məcburiyyətindədirlər. Bununla yanaşı, həmin ölkələr milli innovasiya sistemini formalaşdırmaq üçün bir sıra fundamental əhəmiyyətli müəssisələr də yaratmağa başlamışlar. Bu ölkələrdə yerli firmalar təqlidçilikdən yaradıcılığa keçmək məcburiyyətində olduqları halda, zəruri texnologiyanın yaradılmasında aciz qaldıqları günün ən ciddi problemlərindəndir. Lakin bu ölkələrin üstünlükləri də vardır. Onlar mövcud təcrübədən geniş miqyasda istifadə edə bilərlər. Ancaq unutmaq olmaz ki, texnologiya idxalı heç vaxt sağlam təməl üzərində yaradılmış milli innovasiya potensialını əvəz edə bilməz. Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi: "Azərbaycan xalqının milli sərvəti onun intellektual potensialıdır, mədəniyyətidir, ədəbiyyatıdır. Biz müstəqil dövlətimizi boş yerə qurmağa başlamamışıq. Bizim iqtisadi potensialımız kimi başqa bir sərvətimiz- intellektual potensialımız da var. Bunu yaradanlar var. Bu dahi insanlar Azərbaycanın böyük intellektual potensialını, mülkiyyətini yaradıblar". Əsas məsələ odur ki, yarada-yarada öyrənmək və tədqiq edərək öyrənmək yolu ilə «nou-hau» -nu özünküləşdirmək bir çox dövlətlərin təcrübəsində üstünlük təşkil edir.

Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi:"Azərbaycan xalqının milli sərvəti onun intellektual potensialıdır, mədəniyyətidir, ədəbiyyatıdır. Biz müstəqil dövlətimizi boş yerdə qurmağa başlamamışdıq. Bizim iqtisadi potensialımız kimi başqa bir sərvətimiz-intellektual potensialımız da var. Bunu yaradanlar var. Bu dahi insanlar Azərbaycanın böyük intellektual potensialını, mülkiyyətini yaradıblar".

Akademik Ramiz Mehdiyev əsaslandırır ki: "Ümumən ölkənin iqtisadiyyatı sabitləşmiş sənaye cəmiyyətindən postindustrial cəmiyyət müstəvisinə transformasiya üçün real bazis yaradır". «Azərbaycan sosiumun» müasir özünüdərkini və

milli «Mən»ini formalaşdıran model öz yerini latent şəkildə dəyişərək, posmodernist siyasi və iqtisadi determinantlar üçün məkan yaradır. Özlüyündə qloballaşma milli iqtisadiyyatın inkişafı, siyasi və demokratik təsisatların təkmilləşdirilməsi üçün yeni imkanlar yaradır və daha geniş perspektivlər açır. Buna görə də cəsarətlə deyə bilərik ki, İlham Əliyevin prezidentliyinin birinci dövrünün əsas vəzifəsi - davamlı və tərəqqi edən iqtisadi sistemin formalaşdırılması uğurla reallaşdırılır. Məhz iqtisadi modernləşmə, bazarın sabitliyi, bank mühitinin təkmilləşməsi, orta sinfin formalaşması və ölkənin ÜDM-ində özəl sahibkarlığın rolunun güclənməsi ictimai şüuru latent şəkildə təzələyəcək, onu yeni demoqratik ənənələr və təsisatlar müstəvisinə yönəldəcəkdir»(76).

Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xüsusi vurğulayır: "Biz öz təbii sərvətlərimizdən çox böyük səmərə ilə istifadə edərək təbii resurslarımızı insan kapitalına çeviririk. Bu gün əsas prioritetlərdən biri Azərbaycan xalqının və gələcək nəslin bilikli olmasıdır, eyni zamanda, bizim milli adət-ənənələrimizin təmin olunması şərti ilə dünyada gedən proseslərə qoşulmasıdır, dünya birliyinə inteqrasiya etməsidir".

## 2.3. Qlobllaşma prosesində maliyyə və pul-kredit sahəsində dövlətin tənzimləyici rolu

Sürətlə gedən qloballaşma prosesi ölkələrin maliyyə və pul kredit siyasətinə də ciddi təsir göstərir.

Maliyyə və pul kredit siyasəti haqqında mövcud olan nəzəri baxışların sintezi qloballaşma prosesinin həmin siyasətə təsir göstərən bir sıra kanallarını göstərməyə imkan verir: maliyyə axınları kanalı, inflyasiyaya təsir göstərən əmtəə axınları, faiz dərəcəsi kanalı, valyuta məzənnəsi kanalı, kredit kanalı, aktivlərin qiymətləri ilə əlaqədar kanallar.

Maliyyə axınları və inflyasiyaya təsir edən xarici amillər təqdim olunan əsərin müvafiq bölmələrində kifayət qədər əsaslandırılmışdır.

Faiz dərəcəsi ilə əlaqədar olan birbaşa kanal CS-LM klassik modelinə əsaslanır-mərkəzi banklar tərəfindən faiz dərəcələrinin aşağı salınması borc alma məsrəflərini azaldır. Bu isə investisiyaların və istehsalın artmasına səbəb olur. Valyuta məzənnəsi ilə əlaqədar kanal faiz dərəcəsinin dəyişməsinin valyuta məzənnəsinə təsirini (kapitalın ölkəyə daxil olması və çıxması nəticəsində) əks etdirir.

Bu isə öz növbəsində ixracat və idxalatda baş verən dəyişikliklərlə əlaqədar olaraq məcmu təklifə təsir göstərir. Kredit kanalının təsiri o zaman özünü göstərir ki, banklar ölkədə və xaricdə həyata keçirilən pul-kredit siyasətinə kreditin həcmini genişləndirməklə reaksiya verirlər. Nəhayət, aktivlərin dəyəri ilə əlaqədar olan kanal faiz siyasəti tədbirlərinin səhmlərin məzənnələrinə təsir göstərməsi nəticəsində investisiya və istehlak səviyyəsinin azalıb artmasını əks etdirir.

Faiz dərəcəsi və kredit kanalı vasitəsilə təsir ölkədə maliyyə vasitəçilərinin olması dərəcəsindən, bank bazarında təmərküzləşmənin (inhisarlaşma səviyyəsindən) vəziyyətindən asılıdır. Qəbul olunmuşdur ki, rəqabətin aşağı səviyyəsi kreditə olan tələbin və faiz dərəcələri üzrə depozitlərin elastikliyini azaldır. Bu isə pul-



kredit siqnalları kanalların səmərəliliyini aşağı salır (332, 2008, 11 s., 65-69).

Yuxarıda qeyd edildiyi kimi, qloballaşma prosesində rəqabət gücünü artırmaq üçün şirkətlər birləşməyə üstünlük verirlər. Həmin proses maliyyə qurumları strateji əməkdaşlıq üçün özlərinə tərəfdaş axtarılar. MASDAQ, AMEX və Filadelfiya birjaları ilə London haqqında saziş mövcuddur. ABŞ-ın ən böyük törəmə sənədlər birjası olan CBOP ilə Avropanın ən böyük törəmə sənədlər birjası olan Eurex arasında bağlanmış saziş artıq qitələrarası mahiyyət daşıyır (279, s. 91).

Bu sahədə ənənəvi birjalardan müasir və müvəkkil birjalara; üzvlərdən ibarət birjalardan mənfəəti əsas məqsəd edən birjalara doğru hərəkət edən bir transformasiya prosesi başlanmışdır.

Dövlətlər qlobal maliyyə-iqtisadı mühitdə baş verən həmin dəyişikliklərin təsiri altında ölkə daxilində müvafiq tənzimləmələr (qanunvericilik sahəsində və s.) aparmağa məcburdurlar.

Qismən və ya tam iflas halında vasitəçi qurumların öz müştəriləri qarşısında öhdəliklərini yerinə yetirə bilmək üçün bir sıra dövlətlər əmanətləri və kapital qoyuluşlarını qoruma fondu yaratmağa qərar verdilər.

Qloballaşmanın və texnoloji inqilablarla əlaqədar olaraq investorların elektron ticarət sahəsində də qorunması gündəliyə gəlmişdir. Bu sahədə bir çox dövlətlər möhkəm qanunvericilik bazası yaradırlar.

Kapital bazarında şəffaflıq çox mühümdür. Onun təmin edilməsi bazarlara yetərli, etibarlı və düzgün məlumatların davamlı olaraq və vaxtında çatdırılmasından asılıdır. Bunun üçün də beynəlxalq səviyyədə ictimai fikri məlumatlandırma və beynəlxalq mühasibat standartlarının tətbiqi çox mühümdür. Kapital bazarı haqqında qanunvericilik təkmilləşdirilərkən Avropa Birliyi ölkələri və digər qabaqcıl ölkələrin təcrübəsindən və beynəlxalq standartlardan istifadə etmək lazımdır.

Qloballaşma prosesində xaricdə kapital qoyuluşlarını həyata keçirən investorlar və yığım sahiblərinin müxtəlif ölkələrlə, oxşar qanunlarla qarşılaşması etibarlılığı və kapital qoyuluşlu potensialı artır. (279, s. 98)

1997-ci illərdə Cənub-Şərqi Asiya ölkələrində baş vermiş maliyyə böhranı qloballaşmanın təsiri ilə bütün dünyaya yayılmışdır və nəticələri ağır olmuşdur. Böhran həmin ölkələrdə həyata keçirilən valyuta məzənnəsi siyasəti, artan cari kəsirlər, ölkənin maliyyə imkanları qat-qat çox miqdarda qısamüddətli borc almaları, möhtəkir xarakterli xarici kapital qoyuluşları, əlverişsiz konyuktura dəyişmələri, maliyyə sistemlərinin zəifliyi, iqtisadiyyata ifrat dövlət müdaxiləsi və xaricdən güclü asılılıq kimi səbəblərlə əlaqədar meydana gəlmişdir.

İnteqrasiya prosesləri güclü olan bazarlarda risklər artmış, ölkələrdə bazarların çeşidləndirilməsi xaotik vəziyyət almışdır. Belə vəziyyətdə riskin məsuliyyətinin bölüşdürülməsi, transferi və idarə olunmasını təmin edən törəmə alətlər və bunlarla əməliyyat aparılan bazarların formalaşdırılması çox mühümdür. Kapital bazarı haqqında qanunvericilik təkmilləşdirilərkən həmin məqamlar diqqət və nəzərə alınmalıdır.

Qlobal maliyyə böhranının mənfi nəticələrinə maliyyə sisteminin müqavimət göstərməsini təmin etmək üçün investisiya şirkətləri də gücləndirilməlidir. Bu baxımdan, Azərbaycanda xüsusi investisiya şirkətinin yaradılması təqdirəlayiqdir.

Dünyada pensiya fondlarında «məlum fayda» sistemindən «məlum iştirak»

fəaliyyətində rəqabətə zidd hərəkətlərini də nəzərə almalıdırlar. Bele problemlər meydana çıxdıqları hallarda onlar beynəlxalq əməkdaşlıq, ilkin razılaşmalar və ya bərabərlik və şəffaflıq prinsipləri əsasında OƏCR və ya ÜTT çərçivəsində çoxtərəfli razılaşmalar yolu ilə həll edilə bilər. [279, s. 55]

Qloballaşma dövründə qabaqcıl dünya dövlətlərində kiçik biznesin təşkili təcrübəsi də Azərbaycan üçün olduqca əhəmiyyətlidir.

İnkişaf etmiş sənaye ölkələrində ictimai həyatda iri inhisarçı şirkətlərin hegemonluğu şəraitində kiçik sahibkarlıq da öz mövqeyini qoruyub saxlaya bilmişdir. Hal – hazırda bu ölkələrdə ÜDM – in və məşğul əhalinin yarısı, ixracat və investisiyaların isə üçdə biri kiçik biznesin payına düşür. Təcrübə göstərir ki, kiçik müəssisələrə investisiya qoyuluşları sərfəlidir, çünki iri müəssisələrdən fərqli olaraq bu sahəyə qoyulan investisiya qısa müddət ərzində geri qayıdır. Bazarların mal ilə təchizatında, məşğulluğun artırılmasında, şəxsi gəlirlərin artırılmasında onlar daha müsbət rol oynayırlar. İnhisarçı mühitdə fəaliyyətini davam etdirə bilməsi dar ixtisaslaşması, kiçik partiyalarla, məhdud çeşiddə mal buraxımları, çeviklik göstərmələri, konyuktura dəyişmələrinə cəld reaksiya vermə qabiliyyətləri ilə əlaqədardır.

ABŞ–da kiçik müəssisələr intensiv olaraq artmaqda davam edir. Orda kiçik sahibkarlığın inkişafında dönüş nöqtəsi 70-ci illər oldu. Həmin dövrdə "kiçik gözəldir" şüarı altında nəhəng firmalar öz istehsallarını kiçik təsərrüfatlara bölməyə başladılar və onlara mümkün qədər çox hüquq və məsuliyyətlər verdilər. ABŞ–ın təcrübəsi göstərir ki, kiçik biznes çox yüksək mənfəət gətirən kapital qoyuluşu sahəsidir. Təsadüfi deyildir ki, həmin ölkədə 80-ci illərdə hər il 600 min kiçik müəssisə yaradılırdı. 90-cı illərdə yeni yaradılan müəssisələrin sayı artıq 700 minə çatmışdır. 90-cı illərin axırlarında bu ölkədə 20 mln. kiçik müəssisə (kənd təsərrüfatı daxil deyil) mövcud idi, orada işləyənlərin sayı isə 90 mln. nəfər idi. [129, s. 8-10]

ABŞ–da kiçik müəssisələr mürəkkəb və müasir texnika ilə yaxşı təchiz edilmişdir. Onların demək olar ki, hamısı bu və ya digər dərəcədə federal hökümətin, TMŞ – in və özəl firmaların sifarişi əsasında işləyir. Onlar elmi-tədqiqat işləri, mühəndis axtarışları aparır, yeniliklərin reallaşdırılması ilə məşğul olurlar. Hesablamalar göstərir ki, onlar hər 1 dollar xərcə şirkətlərə nisbətən 24 dəfə çox kəşf edirlər [129, s. 8-10]. Ona görə də yeni ideya və innovasiya məhsullarının böyük bir hissəsi onların payına düşür. Təsadüfi deyildir ki, kompyuter yaradılması ideyası və həmin ideyanın həyatda reallaşması da ilk dəfə kiçik biznesə məxsus olmuşdur.

Yaponiyada da davamlı və sürətli iqtisadi inkişafın əsasını kiçik sahibkarlıq təşkil edir. Bu ökədə əmtəəlik məhsulun 55% - i, topdansatış ticarətinin 60% - i, pərakəndə satış ticarətinin isə 80% - dən çoxu kiçik müəssisələrin payına düşür. [308, s. 111]

Avropa Birliyi ölkələrində də davamlı iqtisadi inkişafın əsasında kiçik biznesin səmərəli fəaliyyəti dayanır. AB çərçivəsində kollektiv razılaşmalar kiçik biznesin də sürətli inkişafına yol açdı. Bu birlikdə kiçik sahibkarlıq fəaliyyəti ölkə sərhədlərini aşaraq regiona – dövlətlərarası səviyyədə fəaliyyət göstərməyə başlamışdır. Bunun üçün AB çərçivəsində əmtəə, kapital və işçi qüvvəsinin sərbəst hərəkəti haqqında dövlətlərarası razılaşmalar əlverişli şərait yaratmışdır.



Çinin dünyada aparıcı hegemon dövlətə çevrilməsində kiçik sahibkarlığın inkişafının rolu xüsusən böyükdür. SSRİ–nin siyasi və iqtisadi iflası Çin rəhbərliyini vadar etdi ki, ölkədə iqtisadi inkişaf mexanizminə yenidən baxsın, iqtisadi həyatın liberallaşdırılmasına yol versin. Belə bir şəraitdə Çinin bazar iqtisadi sistemində kiçik biznesə xüsusi yer verilir. Görülən tədbirlər nəticəsində ölkədə tikinti materiallarının təxminən yarısını, kömür çıxarılmasının 55% - ni, ipək məmulatları, paltar, ayaqqabı istehsalının 50% - dən çox hissəsini kiçik sahibkarlıq verir.

Bu ölkədə kənd təsərrüfatının sürətli inkişafında kiçik biznes xüsusən böyük rol oynayır.

Yeni sənaye ölkələrinin dünyanın iqtisadi meydanında ön plana çıxmasında da kiçik sahibkarlığın rolu böyükdür. Bu ölkələr qısa tarixi dövr ərzində sənayecə inkişaf etmiş ölkələrin sırasına daxil oldular və özlərinin yüksək keyfiyyətli məhsulları ilə dünya bazarlarını fəth etməyə başladılar. Onların durmadan artan ixracatında kiçik biznes mühüm rol oynayır. Ona görə də mütəxəssislər birmənalı olaraq qeyd edirlər ki, Şərqi Asiyanın yeni sənaye ölkələrinin sənayesinin strukturunun mühüm səciyyəvi cəhəti kiçik və orta sahibkarlığın xüsusi çəkisinin yüksək olmasıdır. [182, s. 74]

Yeni sənaye ölkələrinin hamısında kiçik sahibkarlıq yaxşı təşkil edilmişdir və sürətlə inkişaf edir. Kiçik biznesin inkişafı sahəsində əhəmiyyətli nailiyyətlər əldə etmiş Tayvanın təcrübəsi xüsusi maraq doğurur. Təsadüfi deyildir ki, Asiya-Sakit okean iqtisadi əməkdaşlıq Təşkilatı "ATES" – in müxtəlif inkişaf mərhələlərində kiçik və orta biznesin maliyyələşdirilməsi mexanizminin təkmilləşdirilməsi üzrə qabaqcıl təcrübənin istifadə edilməsinin əsas istiqamətləri haqqında birinci simpoziumu məhz Tayvanda təşkil edilmişdir. [324, 2004, №9, s. 123]

Hal – hazırda Tayvanda ÜDM–un 45% - ni, məşğulluğun isə 78% - ni kiçik və orta sahibkarlıq təşkil edir və onlar iqtisadiyyatın lokomotivinə çevrilmişlər. Bu ölkədə kiçik və orta sahibkarlığın 58 illik tarixi vardır. Onun inkişafını mütəxəssislər 7 mərhələyə bölürlər.

1. 1940-cı ilin axırları – 50- ci ilin əvvəlləri – islahatlar dövrü.
2. 1950-ci illər – idxalıəvəzetmə siyasətinin birinci mərhələsi.
3. 1960-cı illər – ixracat potensialının sürətli artımı dövrü.
4. 1970-ci illər – xüsusən yüngül sənaye sahəsində idxalıəvəzetmə siyasətinin ikinci mərhələsi.
5. 1980-ci illər – yüksək texnologiya sənayesinin meydana gəldiyi dövr.
6. 1990-cı illər sənayenin strukturunda dəyişiklik dövrü.
7. XXI əsrin əvvəllərində - çağırış planının reallaşmağa başladığı dövr.

2002-ci ildə ÇXR – in sürətli inkişafına və qloballaşmanın çağırışına cavab olaraq Tayvanda milli inkişaf planı hazırlandı. Kiçik və orta sahibkarlıq sahəsində plan xarici innovasiyanın cəlb olunması və elmi-tədqiqat və konstruksiya işləri alt proqramı, habelə istehsal edilən sənaye məhsulunun dəyərinin artması proqramını nəzərdə tutur. Plan çərçivəsində kiçik və orta sahibkarlığın inkişafına 30. 2 mlrd. ABŞ dolları, o cümlədən, onun innovasiya fəaliyyətinin və elmi-tədqiqat işlərinin stimullaşdırılmasına 1. 5 mlrd. ABŞ dolları ayrılmışdır. Kiçik və orta sahibkarlıq

üçün məsləhət şəbəkələrinin formalaşdırılması, sahibkarın hazırlanması və yenidən hazırlanması, sərgilərin təşkili xətləri üzrə işlər təşkil olunmuşdur. Planın əsas məqsədi – Tayvanın dünya bazarlarında rəqabət gücünü artırmaqdır. Tayvanın 2003-cü ildə Asiya – Sakit okean regionunda innovasiya biznesi sahəsində mərkəzə verilməsi nəzərdə tutulmuşdur.

Tayvanda kiçik və orta sahibkarlığın dəstəklənməsi üçün səmərəli şəbəkə yaradılmışdır. Bu sahədə 5 əsas istiqamət mövcuddur:

1. Tayvan hökuməti kiçik və orta sahibkarlığın dəyişən mühitdə, yəni ÜTT –yə daxil olma prosesində inkişafı üçün onun fəaliyyətinin hüquqi bazasını yaratmışdır. Çünki bu hüquqi baza beynəlxalq təcrübəyə və standartlara zidd olmamalıdır. İntellektual mülkiyyətin də ciddi qorunması nəzərdə tutulur. Biznes üçün yeni imkanlar axtarılması sahəsində yardım həyata keçirilir. Hər il "Kiçik və orta biznes haqqında ağ kitab" çap edilir.

2. Hakimiyyət sahibkarların və onların innovasiya fəaliyyətinin dəstəklənməsi mexanizmini təkmilləşdirir. Yeni biznes və innovasiya kolleci yaradılmışdır, müxtəlif mənbələrdən maliyyələşmənin və marketinqin planlaşdırılması sahəsində yardım göstərilir.

3. İnformasiya texnologiyalarının tətbiqi imkanların genişləndirilməsi üçün kiçik sahibkarlara elektron ticarət sahəsində dəstək verilir. Bu məqsədlə mərkəz yaradılmışdır.

4. Müəssisələrdə idarəçiliyin səmərəliliyinin artırılması üçün yerli xüsusiyyətlərin nəzərə alınmasına diqqət verilir. Hakimiyyət xammal axtarışında onlara yardım edir. İdarəçilik üzrə kurslar təşkil edilir.

5. Kiçik sahibkarlara hər cür xidmət göstərilməsi üzrə şəbəkə yaradılır. KİV – lərdə kiçik sahibkarların müsbət imicinin formalaşması sahəsində xidmət göstərilir.

Beləliklə, müasir dövrdə bütün ölkələrdə iqtisadiyyatın inkişafında, işsizliyin aradan qaldırılmasında, regional tarazlı inkişafın təmin olunmasında kiçik biznesə böyük əhəmiyyət verilir. Qloballaşmanın bütün dünyada yayılması adı çəkilən məsələlərdə kiçik sahibkarlığın rolunu daha da artırmışdır. Qlobal iqtisadi mühit və texnoloji inqlablar xarici bazarlara girmək və maya dəyərini aşağı salmaq üçün yeni imkanlar yaratmışdır. Lakin qloballaşma bu təsərrüfat subyektləri üçün yeni problemlər də yaratmış, onların risklərini artırmış, rəqabət mübarizəsini kəskinləşdirmişdir. Qlobal iqtisadiyyatda kiçik biznesin rəqabət qabiliyyətinin artırılması müasir dünya dövlətlərinin qarşısında duran ən ciddi problemlərdəndir. Bu problemin həll edilməsi isə rəqabət sahələri və imkanlarını təhlil etmək və təsirli tədbirlər müəyyən edərək həyata keçirmək lazımdır.

Belə bir şəraitdə bir çox qabaqcıl ölkələrdə kiçik biznes rəqabət mübarizəsinə dözmək üçün sənaye kompleksləri və ya sənaye zonaları şəklində təşkil olunurlar. Belə zona və komplekslər kiçik sahibkarlarla birləşərək güclərini həm yerli səviyyədə, həm də beynəlxalq miqyasda artırmağa çalışırlar.

Sənaye kompleksi hər hansı bir məhsulun istehsalından satışına qədər geniş bir sahədə mövcud olan sektor və şirkətlərin toplusudur. Əgər hər hansı bir ölkədə istehsaldan alıcıya qədər gedən halqədə yerləşən subyektlərin sayı çoxdursa, kompleks mövcud ola bilər. Firma və ya məhsulun rəqabət qabiliyyəti və ya üstünlüyünün artırılmasında belə komplekslər mühüm rol oynayırlar. Kompleksdə mövcud olan subyektlər arasında əlaqələr nə qədər güclüdürsə, onların rəqabət qabiliyyəti də bir o qədər yüksək olur. Təəssüf ki, Azərbaycanda belə komplekslər mövcud deyildir. ABŞ-da Kaliforniyada Silikon vadisi, İngiltərədə Silikon fen, Qamburqda və İtaliyadakı sənaye zonalarının texnoloji inkişaf və rəqabət qabiliyyətinin artırılmasında əldə etdikləri müvəffəqiyyətlər sənaye kompleksləri və zonalarına diqqəti olduqca artırmışdır. Beynəlxalq rəqabətə açıq olan bu komplekslərdə alt sənaye vektorları və oxşar sənayelərin birləşdirilməsi və onlara dəstək verən digər sahələrin, elmin, infrastrukturun inkişafı komplekslərdə rəqabət üstünlüyünü artırır.

Bu zaman rəqabət üstünlüyünün artırılması üçün aşağıdakı amillər nəzərə alınmalıdır:

- Sənayenin sahə və alt sahələrində fəaliyyət göstərən müəssisələrin müştərək problemlərinin eyni yanaşma ilə müəyən edilməsi və onların həlli yollarının axtarılması.

- Müəssisələrin sıx iş birliyi şəraitində texnologiya, istehsalın idarə edilməsi təcrübəsi, emalın müxtəlif həlqələrindən qarşılıqlı istifadə edilməsi, ehtiyatların qarşılıqlı şəkildə ödənilməsi, yeni məhsulların emalı prosesində təcrübə mübadiləsi kimi vacib məsələlərin təmin edilməsi.

- Elmi və texnoloji yeniliklər haqqında informasiya mübadiləsi.

- Oxşar və ya əlaqədar sənaye sahələrinin bir yerdə cəmlənməsi nəticəsində istehsal zəncirində bir-birini tamamlayaraq yeni məhsul, üsul və xidmətlərin birgə yaradılması və inkişaf etdirilməsi.

- Oxşar və ya bir-birini dəstəkləyən istehsala məşğul olan müəssisələrin eyni bölgü kanallarından istifadə edə bilmə və ya müştərək bölgü kanallarının yaradılması imkanlarının genişləndirilməsi.

Məlum olduğu kimi, iqtisadı fəaliyyətin qloballaşmasına baxmayaraq, eyni sahədə çalışan firmalar üçün coğrafi yaxınlıq ciddi rəqabət mənbəyidir. Hətta bütün dünya miqyasında fəaliyyət göstərən transmilli şirkətlər məkanca ona yaxın firmalarla rəqabət durumundadırlar. Dünya ölkələrinin təcrübəsində sənaye komplekslərinin və ya zonalarının yaradılması zərurəti, həm də, bu məsələ ilə əlaqədardır.

Azərbaycan reallıqlarında kənd təsərrüfatı məhsullarının emalı sahəsində, təkrar xammal istehsalı və bir çox digər sahələrdə belə komplekslərin yaradılması olduqca vacibdir.

Azərbaycanda da həmin prosesin başlanması və inkişaf etdirilməsi dövlət tərəfindən ciddi şəkildə dəstəklənməli və təşfiq edilməlidir. Respublika Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə hazırlanan sənayenin inkişaf proqramında deyilən məsələlərin nəzərə alınması olduqca vacibdir. Belə bir dövlət siyasəti hazırlanarkən kiçik müəssisələrin xammal, material, texnologiya, kredit və s. əldə edilməsində istehsal etdikləri məhsulların reallaşdırılmasında qarşılarına çıxan çətinlikləri yaradılan komplekslərin verdikləri üstünlüklər nəzərə alınmalıdır.

Kiçik sahibkarlığın qlobal iqtisadiyyatın tələblərinə uyğun olaraq inkişafında dövlət siyasətinin və dövlət sektorunun rolu böyükdür.

Kiçik sahibkarlığın fəaliyyətinin müasir səviyyədə təşkilində elektron ticarətin böyük əhəmiyyəti vardır. Çünki elektron texnikası həmin müəssisələrin

rəqabət qabiliyyətinin artırılması üçün yeni imkanlar yaradır. Ancaq indiki şəraitdə ölkəmizdə mövcud olan kiçik sahibkarlıq bu imkanları yetərincə dəyərləndirə bilmirlər. Ona görə də kiçik sahibkarlığın dəstəklənməsi üzrə dövlət siyasətində bu məsələ də nəzərə alınmalıdır.

Məlum olduğu kimi, yenilik, innovasiya, yeniləşmə həm yüksək texnologiya ilə işləyən müəssisələrdə, həm də ənənəvi sənaye sahələrində istər yerli, istərsə də xarici bazarlarda rəqabət qabiliyyətinin artırılmasının vacib şərtləridir. Ona görə də qabaqcıl dünya dövlətlərində daim modernləşmə müəssisələrin fəaliyyətinin onurğa sütununu təşkil edir. İnnovasiyanın tətbiqi, yeni biliklərin gecikmədən mənimsənilməsi sürətli inkişaf üçün müəssisələrin "özlərini yenidən dərk etmə" mənasını verir. Bu yeniləşmə çox vaxt texnologiya və marketinq proseslərindən də kənara çıxır və miqyası olduqca genişdir.

Ona görə də bu ölkələrdə xüsusi innovasiya müəssisələrinin yaradılmasına və fəaliyyətinin genişləndirilməsinə böyük əhəmiyyət verilir. Belə müəssisələr bir çox sənaye sahələrində öncüllük edir və beynəlxalq miqyasda fəaliyyət göstərməyə başlayırlar. Onlar kiçik sahibkarlığın inkişafı sahəsində strateji kursun hazırlanmasında və həyata keçirilməsində də ciddi rol oynayırlar. Ona görə də innovasiya ilə məşğul olan kiçik müəssisələrin yaradılması və hər vasitə ilə inkişaf etdirilməsi bütün dünyada olduğu kimi Azərbaycanda da günün təxirəsalınmaz vəzifələrindəndir. Onların kapitalları və kredit məktəblərinin qarantiya edilməsi, sənaye və texnologiya üzrə mülkiyyət hüquqlarının qorunması üzrə tədbirlər görülməlidir. İnnovasiya sahəsində fəaliyyət göstərən kiçik müəssisələr yeniliklərin həm tədarükçüsü, həm də istehlakçılarıdır. Belə xidmətlər qeyri maddi varlıqların formalaşmasına və firmaların rəqabət gücünün artırılmasına yardım edir.

Beləliklə, amerikan iqtisadçısı Nikolas K. Siropolisin qeyd etdiyi kimi kiçik biznes böyük ehtimalla gələcəkdə də iqtisadiyyatda tərəqqini stimullaşdıracaqdır. [211, s. 3]

## 2. 5. Azərbaycanın qlobal maliyyə-iqtisadi mühitə inteqrasiyasının əsas istiqamətlərinin müəyyən edilməsində xarici təcrübənin rolu.

*Biz inkişaf etmiş ölkələrin təcrübəsini öyrənirik.*
**İlham ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti***

XXI əsrin astanasında Azərbaycan Respublikasının müstəqil inkişaf yoluna qədəm qoyması ölkəmizin gələcək sosial-iqtisadi təkamülündə dönüş nöqtəsi oldu və bu təkamül prosesində taleyüklü dəyişikliklərin meydana gəlib genişlənməsi üçün zəmin təşkil etdi. Dünyada gedən irimiqyaslı qloballaşma prosesi, iqtisadi həyatın getdikcə daha çox beynəlmilləşməsi bu və ya digər ölkənin ictimai inkişafında xarici amillərin rolunun sürətlə artmasına səbəb olmuşdur. Hazırkı şəraitdə ölkələrin zənginliyi onlarda olan təbii sərvətlərin bolluğu dərəcəsi ilə deyil, bu sərvətlərdən beynəlxalq əmək bölgüsünün üstünlükləri nəzərə alınmaqla, bacarıqla



istifadə edilməsindən əhəmiyyətli dərəcədə asılıdır.

70 il ərzində Azərbaycanı SSRİ xalq təsərrüfat kompleksinə bağlayan siyasi və iqtisadi dayaqların ləğvi ölkəmizin Şimala yönəlmiş birtərəfli iqtisadi əlaqələrinə son qoymuş, bu əlaqələrin iqtisadi coğrafi, istərsə də məzmun baxımından yeni istiqamət və mahiyyət kəsb etməsinə imkan vermişdir. Mübaliğəsiz demək mümkündür ki, inkişaf etmiş və mürəkkəb dünya bazarı ilə iqtisadi inteqrasiyasının və qarşılıqlı təsərrüfat əlaqələrinin formalaşan yeni mexanizmi respublikamızın gələcək inkişaf perspektivini müəyyən edən başlıca amillərdəndir. Ona görə də ölkəmizin beynəlxalq iqtisadi inteqrasiyasının strateji istiqamətləri mövcud dünya təcrübəsi nəzərə alınmaqla müəyyənləşdirilməli və bu sahədə ciddi dövlət tənzimlənməsi həyata keçirilməli, iqtisadi proseslərə məqsədyönlü istiqamət verilməlidir.

Dünya bazarına və ona nəzarət edən nəhəng Transmilli şirkətlər (TMŞ) şəbəkəsinə qoşulma yolları ümumdünya iqtisad tarixindən yaxşı məlumdur. Bu yollar son nəticədə iki istiqamətdə özünü göstərir və şərti olaraq Latın Amerikası və Yapon yolları adlanır.

Birinci yol TMŞ-lə sıx bağlı olan komprador kapitalının inkişafı və ölkənin iqtisadi inkişaf mexanizmi sükanının xarici kapitalın əlinə verilməsi yoludur. Latın Amerikası ölkələrinin dünya iqtisadi ədəbiyyatında çox vaxt "banan respublikaları" adlandırılması heç də bu ölkələrdə banan istehsalının geniş yayılması ilə əlaqədar deyildir. Bu, ilk növbədə, həmin ölkələrin iqtisadiyyatının əsasını təşkil edən banan istehsalına və onunla əlaqədar olan təsərrüfat sahələrinin TMŞ-lərin əlinə keçməsi və bu ölkələrin bütün iqtisadi mexanizmi üzərində nəzarətin onlar tərəfindən həyata keçirilməsi ilə əlaqədardır. Bu acı təcrübənin nəticələri dünya ictimaiyyətinə yaxşı məlumdur.

İqtisadi inkişafda bütün ümidlərin ölkədə bol olan bu və ya digər məhsul ixracının artırılmasına bağlanması ilə əlaqədar dünya ədəbiyyatına "Hollandiya xəstəliyi", "kasıblaşdırıcı artım" adı ilə daxil olmuş acınacaqlı hallar da iqtisad tarixində özünəməxsus yer tutur. Bu gün Rusiya və bəzi MDB ölkələrində də belə qorxulu təmayülün özünü göstərdiyi haqqında həyəcan siqnalı çalınmağa başlanmışdır.

İkinci yol Yaponiyanın inkişafı yoludur. Məlum olduğu kimi, ikinci dünya müharibəsindən sonra Yapon hakim dairələri Qərbin yardımından və Qərbdə onlara yönəldilmiş əlverişli "açıq qapı" siyasətindən faydalanmaqla yanaşı, özlərinin spesifik inkişaf yolunu seçdilər. Bu spesifik inkişaf yolunun əsas xəttini istehsalın min illərlə sınaqdan çıxmış milli yapon dəyərlərinə əsaslanması, Qərbin müsbət iqtisadi təcrübəsindən bu dəyərlərə uyğun sürətdə maksimum istifadə edilməsi və iqtisadi potensialın, ilk növbədə, daxili bazarın tələblərinin ödənilməsinə yönəldilməsi təşkil edirdi. İstehsal imkanlarının daxili bazarın ehtiyaclarına istiqamətləndirilməsi isə bu bazarın formalaşdırılması və əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsi üçün əmək haqqının ciddi olaraq artırılmasını zəruri etmişdir.

Dünya bazarı ilə iqtisadi inteqrasiya strategiyası müəyyənləşdirilərkən dünyada iqtisadi proseslərin inkişaf təmayüllərinin müasir xüsusiyyətləri diqqətlə öyrənilib nəzərə alınmalıdır. Məlum olduğu kimi, elmi-texniki tərəqqi inkişaf edib dərinləşdikcə Qərbdə istehsalın təmərküzləşməsi və mərkəzləşdirilməsi, kapitalın in-

hisarlaşması öz yüksək həddinə çatmışdır. Dünya iqtisadiyyatı üzərində nəzarət nəhəng Transmilli şirkətlərin əlində cəmlənmişdir. Beynəlxalq iqtisadi əlaqələrdə də onlar həlledici rol oynayır. Respublikamızda özəlləşdirmə siyasəti ardıcıl olaraq keçirildiyi bir şəraitdə dünya iqtisadiyyatının göstərilən cəhəti nəzərə alınmalıdır. Heç kəs üçün sirr deyildir ki, respublikamızda iri kapital yığımının həyata keçmədiyi bir şəraitdə təsərrüfat obyektlərinin həddən artıq "xırdalanması" TMŞ-lərin ölkəmizdə şəriksiz hökmranlığına gətirib çıxara bilər. Ona görə də respublikamızda vaxtilə sahə prinsipi üzrə yaradılmış şirkətlərin özəlləşdirmə prosesində "xırdalanmasına" yol verməK olmaz. Bu baxımdan bankların birləşdirilərək BUS Bankın yaradılması özünü doğruldur.

Ümumiyyətlə, istər daxili, istərsə də beynəlxalq iqtisadi problemlərin həllində milli kapitalın milli sahibkarlığın formalaşması və inkişaf etdirilməsi respublikanın strateji məqsədlərindən biri hesab edilir. Yalnız bir tarixi faktı yada salmaq kifayət edər ki, XIX əsrin axırları, XX əsrin əvvəllərində ölkəmizdə tikilən iqtisadi və digər obyektlərin böyük əksəriyyəti milli kapital tərəfindən həyata keçirilmişdir.

Təsərrüfat həyatının beynəlmiləlləşməsi və respublikamızda ardıcıl olaraq "açıq qapı" siyasətinin həyata keçirilməsi istər xaricdə, istərsə də ölkə daxilində məhsulların yüksək rəqabətqabiliyyətli olmasını tələb edir. Respublika daxilində, demək olar ki, artıq bütün məhsul növləri üzrə, yerli və əcnəbi məhsullar üzrə yüksək rəqabət gedir. Yerli istehsalçılara istehsalı təşkil etmək və onu inkişaf etdirmək sahəsində tədbirlər sistemi həyata keçirilir. İdxalata tarif və qeyri-tarif tənzimləmələri vasitəsilə daha çox məhdudlaşdırıla bilər. Lakin bu, uzun müddət davam edə bilməz və bu tədbirdən beynəlxalq müqavilələrə uyğun olaraq artıq geniş istifadə etmək mümkün deyildir.

Ona görə də, yerli istehsalın dirçəldilməsi üçün emal olunan məhsulların keyfiyyətinin və müvafiq olaraq onların rəqabət qabiliyyətinin yüksəldilməsi ölkə iqtisadiyyatının strateji məqsədlərindəndir. Daxili bazar da, xarici bazar da bunu tələb edir.

Beynəlxalq əmək bölgüsünün üstünlüklərindən səmərəli istifadə etməklə iqtisadi tərəqqinin təmin edilməsi əhəmiyyətli dərəcədə idxal və ixracın strukturundan asılıdır. Məhz bu cəhət ölkəmizin iqtisadi inteqrasiyasının dünya birliyi ilə bərabər hüquqlu və qarşılıqlı fayda prinsipi əsasında aparıldığını və ya onun dünya bazarının xammal əlavəsinə çevrilmiş olub-olmadığını müəyyən edir. İxrac potensialının hərtərəfli inkişaf etdirilməsi, onun çoxçeşidliliyinin artırılması, istehsalın hazır məhsul emalına doğru istiqamətləndirilməsi, satışa çıxarılan malların əmtəə görkəminin yaxşılaşdırılması ölkəmizə lazım olan valyuta ehtiyatlarının yaradılması üçün həlledici əhəmiyyət kəsb edir. Bu məqsədlə xarici ticarətdə liberallaşma siyasətinin ardıcıl yeridilməsi və təsərrüfat obyektlərinin bilavasitə xaricə çıxmasını təmin edilməsi olduqca vacibdir.

Qlobal proseslərə səmərəli şəkildə inteqrasiya olunmasında Çin təcrübəsi çox əhəmiyyətlidir. Son 30 ildən artıq bir dövrdə Çin iqtisadiyyatı yüksələn xətlə tərəqqi edir. Bu dövr Çinin xarici dünyaya açılması dövrü kimi xarakterizə edilir. Bu müddət ərzində Çinin universallaşması və qloballaşması sürətlə genişlənmişdir. Bu genişlənmə prosesində ənənəvilik və bəşəri universallığın (qloballaşmanın) optimal sintezi mühüm rol oynamışdır. Təsadüfi deyildir ki, Çin bir çox baxımdan



dünya təsərrüfatının dinamik inkişaf edən liderləri sırasına daxil olmuş və iqtisadi qloballaşmanın ən uğurlu iştirakçılarından biri hesab edilir [96, s. 70-71].

Çin iqtisadi möcüzəsinin mahiyyəti və əsas istiqamətləri Akademik Ziyad Səmədzadənin «Dünya iqtisadiyyatı. Çin iqtisadi möcüzəsi» (Bakı, 2001) adlı monoqrafiyasında hər tərəfli şərh edilmişdir. Araşdırmalar göstərir ki, Çin sənayesi, elm və texnikasının nailiyyətləri onun qlobal proseslərə uğurlu inteqrasiyasının vacib şərtidir. Bununla yanaşı, ölkə sivilizasiyasının nailiyyətləri bir çox baxımdan aqrar bölmə ilə əlaqədardır. Amerika sosioloqu R. Merfinin göstərdiyi kimi Çində şəhər və kənd dünyası arasında «Qərbdə formalaşmış olduğu kimi dərin fərq yoxdur… orada kənd ənənə və dəyərləri ləkələnməyibdir, əksinə şəhərlilərin çoxu kəndlər üçün darıxır və qocalığını qayıdıb orada keçirirlər». [96, s. 73]

Çin islahatlarının mahiyyəti ondan ibarətdir ki, iqtisadi struktur unifikasiya edilərək vahid şəkilə salınmamışdır. Çin dövləti ictimai kollektiv mülkiyyətlə yanaşı, yeni təsərrüfat formalarını (fərdi, ailə, özəl, qarışıq təsərrüfatları) stimullaşdıraraq, ukladlar, siniflər və təbəqələr, müxtəlif regionlar, maraqlar qrupu arasında münasibətlərdə arbitr və tənzimləyici funksiyasını öz üzərinə götürmüşdür. Onun mühüm funksiyalarından biri də, ənənəvi və müasir «iki sivilizasiyanın» sintezini təmin etməkdir. Köhnə dəyərlərdən, tarixi təcrübədən maksimum istifadə edilməsi müasir Çin sivilizasiyasının mühüm fərqləndirici cəhətlərindən biridir. Lakin mütəxəssislərin fikrinə görə, ənənəvilik və müasirlik müqayisə edildikdə, ənənəviliklə sintez edilmiş müasirliyin aparıcı xətt təşkil etdiyi məlum olur. [96, s. 72]

Çinin informasiya erasına adaptasiyasını kompyuterləşmə çox asanlaşdırır. Çin mədəniyyəti üçün ənənəvi olan biliyə yiyələnmə ənənəsi kompyuter kimi yeni alət əldə etmişdir. Ölkə çox yüksək səviyyəli informasiya - analitik bazaya malikdir, kütləvi şəkildə tərcümə işləri aparılır.

Çinin inkişaf mexanizmində xarici dünya ilə bütöv qarşılıqlı əlaqə sistemi yaradılmışdır. Bu ölkə adətən regional dərjava adlandırılır. Onun siyasətində regionallaşma qloballaşmaya nisbətən açıq-aşkar üstünlük təşkil edir. Çin rəhbərliyi coğrafi cəhətdən uzaq ölkələrdən çox, yaxın qonşularına daha böyük əhəmiyyət verir.

ÜTT və Çin təcrübəsi. ÇXR-nin ÜTT-na daxil olması prosesi 15 il davam etmişdir. Bu müddət ərzində milli qanunvericilik həmin təşkilatın çox saylı qaydalarına uyğunlaşdırılmışdır. QATT ÜTT-na çevrildikdən sonra danışıqlar xarici şirkətlərin xidmət (maliyyə, bank, sığorta, distribütor fəaliyyəti, informasiya texnologiyası, nəqliyyat xidməti və s. ) sahəsində fəaliyyətinin liberallaşdırılmasını da əhatə etmişdir. Çin qarşısında milli maraqların ÜTT-nin və ayrı-ayrı iştirakçı ölkələrin tələbləri ilə uyğunlaşdırılması kimi taleyüklü məsələ dururdu. Çoxsaylı danışıqlardan, ikitərəfli və çoxtərəfli razılaşmalardan sonra ÇXR-ı 2001-ci ilin noyabrından ÜTT-nın tam hüquqlu üzvü qəbul edildi. Bu zaman ÇXR ona müvafiq üstünlüklər verən «inkişaf etməkdə olan ölkə statusu» almağa müvəffəq oldu. Bu, ona imkan verir ki, xarici iqtisadi fəaliyyəti mərhələ-mərhələ liberallaşdırsın, milli qanunvericiliyin ÜTT-nin tələblərinə uyğunlaşdırılmasında vaxt qazansın, iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsində, subsidiyalar verilməsində müəyyən güzəştlər əldə etsin.

ÇXR hakimiyyətin və əhalinin ÜTT-nin prinsip və vəzifələri haqqında geniş məlumatlar almasına şərait yaradır. KİV-lər onun fəaliyyətini daim geniş işıqlandırır. Minlərlə hüquqşünas və iqtisadçılar ÜTT-nın qaydaları və prosedurаları üzrə xüsusi hazırlıq keçirlər. Çin tərəfi ÜTT-ı qarşısında öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməklə həmin təşkilatın verdiyi hüquq və üstünlüklərdən geniş istifadə etməyə çalışır. Əsas diqqət Çin malları üçün yeni bazarların açılmasına, Çin mallarının ixracının genişləndirilməsinə və keyfiyyətinin artırılmasına yönəldilir. Xarici kapitalın cəlb edilməsi sahəsində əsas diqqət həmin kapitalın strukturunun optimallaşdırılmasına (qabaqcıl texnologiya axınının artırılmasına) verilir. [326, 2003, №6, s. 14-22]

Qloballaşmanın verdiyi üstünlüklərdən uğurla istifadə olunmasında Cənubi-Şərqi Asiyanın Yeni sənaye ölkələrinin (YSÖ) təcrübəsi keçid iqtisadiyyatı ölkələri üçün əhəmiyyətlidir. Qloballaşma İEOÖ-in ümumi strukturunda da köklü dəyişikliklərə yol açdı. YSÖ həmin qrup ölkələrini tərkibindən bir çox parametrlərə görə ayrılaraq, İEÖ-lər qrupuna yaxınlaşdılar. Bir sıra cəhətlər YSÖ-ni həm İEOÖ-dən, həm də İEÖ-dən əhəmiyyətli dərəcədə fərqləndirir. Bu xarakterik xüsusiyyətlər yenisənayeləşmə modelinin yarandığını söyləməyə imkan verir, həm iqtisadiyyatın daxili dinamikası, həm də xarici iqtisadi fəaliyyət baxımından həmin ölkələrin təcrübəsi Üçüncü dünya ölkələrində bir nümunə rolunu oynayır. YSÖ qrupuna daxil edilmək üçün BMT-nin müəyyən etdiyi metodikaya əsasən aşağıdakı meyarlar əsas götürülür:

1. adambaşına ÜDM-un miqdarı;
2. onun orta illik sürəti;
3. ÜDM-da emaledici sənayenin xüsusi çəkisi 20%-dən az olmamalıdır;
4. sənaye məhsullarının ixracına həcmi və ümumi ixracatda xüsusi çəkisi;
5. xaricə birbaşa kapital qoyuluşlarının həcmi [124, s. 306].

Həmin göstəricilərə görə YSÖ İEOÖ qrupundan yüksəkdə durur. XX əsrin 70-80-cı illərində bu ölkələrdə sənayenin köklü sürətdə yenidənqurulması nəticəsində onun məhsuldar qüvvələrinin formalaşması və inkişafı iqtisadi tərəqqinin dinamikasını əhəmiyyətli dərəcədə sürətləndirmiş, yığım kütləsi və normasının artırılmasına, investisiyaların və məşğulluğun strukturunun transformasiyasına səbəb olmuşdur. Resurs-xammal və inventisiya bazasının məhdudluğu və qloballaşmanın genişləndiyi bir şəraitdə həmin ölkələr iqtisadi inkişafın xarici ticarət və maliyyə aspektlərinə xüsusi əhəmiyyət verməyə başladılar. İxracat potensialarının genişləndirilməsi iqtisadi inkişaf strategiyasının aparıcı xəttini təşkil etdi. Nəticədə Cənub-Şərqi Asiya ölkələrinin ümumdünya təsərrüfat əlaqələrində rolu durmadan artır, həmin ölkələr beynəlxalq təsərrüfat subyektləri üçün intensiv sənaye, ticarət, texnoloji və valyuta-maliyyə fəaliyyəti üçün əlverişli zonaya çevrilmişdir. Həmin ölkələr qısa tarixi dövr ərzində, yalnız özlərinin sənaye məhsulları üzrə ixracatını durmadan artırmaqla kifayətlənməmiş, eyni zamanda, beynəlxalq əmək bölgüsü sistemində ixtisaslaşmanı dəyişmiş, beynəlxalq səviyyədə yeni istehsal strukturlarının formalaşması prosesinə inteqrasiya etməyə başlamışlar. Onların sənaye cəhətdən inkişafının əsas təmayülü beynəlxalq əmək bölgüsü sistemində baş verən dəyişikliklərə uyğunlaşma prosesidir. Onların inkişafına Sakit okean regionunda, ilk növbədə onun iki mərkəzi ABŞ və Yaponiyada gedən



proseslərin təsiri kifayət qədər yüksək olmuşdur.

Elmi-texniki tərəqqinin sürətlənməsi və istehsalda elmin rolunun artması, əmək məhsuldarlığının kəskin şəkildə yüksəlməsinə, yeni tipli texnologiyaya keçilməsini şərtləndirdi, istehsalın strukturunun keyfiyyətə dəyişməsinə səbəb oldu. Bunun əsas təzahürü istehsal və istehlak təyinatlı yeni məhsulların və yeni sahələrin yaranmasında özünü göstərdi. Onlara olan tələbin sürətlə artması ictimai istehsalın strukturunda xidmət sahələrinin xüsusi çəkisinin çoxalması və müvafiq olaraq digər sahələrin, o cümlədən emaledici sənayenin xüsusi çəkisinin azalması və sonuncunun keyfiyyətcə yenidən qurulması ilə nəticələndi. İstehsalın optimallaşdırılması, onun tərkibində elmtutumlu, material və resurslara qənaət edən sahələrin xüsusi çəkisinin çoxalması bu ölkələrdən ixracat axının kəmiyyət və keyfiyyətcə artırılmasına gətirib çıxardı. TMŞ-lər həmin proseslərin fəal iştirakçıları idi. Onların fəaliyyəti beynəlxalq maliyyə-kredit təşkilatları tərəfindən təşviq edilirdi. Təsadüfi deyildir ki, Cənub-Şərqi Asiya ölkələrinin qlobal əmək bölgüsü sisteminə yüksək dərəcədə inteqrasiya etməsində, məhz TMŞ-in rolu olduqca yüksəkdir. Daxili və xarici kapital qoyuluşlarının ciddi sürətdə artırılması YSÖ-nin iqtisadi dinamizminin əsasını təşkil edir. Təcrübədə YSÖ-nin iki modeli mövcuddur: birinci model, milli iqtisadiyyatın, əsas etibarilə, xarici bazarlara, ixracata istiqamətlənməsinə, ikinci model isə idxalın əvəzolunması siyasətinə əsaslanır. İkinci modeldən ən çox latın Amerikası ölkələri istifadə etmişlər.

Türkiyədə beynəlxalq iqtisadi inteqrasiya proseslərinin maliyyə-kredit mexanizmi vasitəsilə intensivləşdirilməsi təcrübəsinin də öyrənilməsi vacibdir.

T.Özal dövründə ixracatın təşviq olunması sahəsində həyata keçirilmiş və olduqca müsbət nəticələr vermiş tədbirlər sistemi keçid iqtisadiyyatı ölkələri üçün örnək ola bilər.

Bu tədbirləri dörd qrupa bölmək olar: [307, s. 103]

– ixracat miqdarı və ya məbləğindən asılı olaraq birbaşa subsidiyalar vasitəsilə təşviqlər: məhsullar ixrac olunarkən ödənilmiş daxili vergilərin geri qaytarılması, dəstəkləmə və qiyməti sabitləşdirmə fondu üzrə verilən subsidiyalar;

– ucuz maliyyə mənbəyinin təmin edilməsi yolu ilə təşviq (ucuz ixracat diskont krediti);

– vergi üstünlüyü verilməsi yolu ilə ixracatçıların təşviqi (bu bir çox vergilər üzrə təşviq edilirdi); [Bu halda bax: 143, 142];

– digər dolayı imkanlar yaradan və üstünlük verən təşviqlər (ixracat məhsulları istehsal etmək üçün mal idxalında gömrük istisnaları, idxalat üçün valyuta toplanması, valyutaların ölkə xaricində saxlanılmasına icazə verilməsi və s.)

Bu tədbirlər arasında məhsul ixrac edilərkən daxildə ödənilmiş vergilərin geri qaytarılması sistemi xüsusən təsirli idi. İxracatın yarısına qədəri bu sistemdən faydalanırdı. 1980-1990-cı illərdə ixracatçılara bu yol ilə 4, 3 mlrd. dollar məbləğində vergi geri qaytarılmışdır [307, s. 104].

İnflyasiyaya qarşı mübarizə tədbirlərinin həyata keçirilməsində qəribə bir təzad özünü göstərirdi. Bir tərəfdən, mövcud izafi tələbi məhdudlaşdırmaq, digər tərəfdən isə büdcə kəsirlərini «adi» (inflyasiya yaratmayan) mənbələr hesabına ödəmək üçün vergi gəlirlərinin artırılması istər-istəməz işgüzar fəallığın müəyyən dərəcədə sönməsi ilə nəticələnir. Həyata keçirilən iqtisadi strategiyanın məntiqi isə

əks vəziyyəti - işgüzar fəaliyyətin ciddi olaraq canlandırılmasını tələb edirdi.

T.Özal ona görə də, özünün iqtisadi siyasətində pul-dəyər amillərindən ölkədə işgüzar fəallığı canlandırmaq üçün geniş istifadə etməyə başladı. Məsələn, vergi mexanizmində ciddi güzəştlərdən istifadə edilərək təşəbbüsçülər təşviq edilir, onların investisiya fəaliyyəti istiqamətləndirilməyə çalışılırdı. Xalq təsərrüfatının inkişafı üçün birinci dərəcəli əhəmiyyət kəsb edən sahələrin inkişafı, sosial-iqtisadi tərəqqi baxımından geri qalmış Şərq regionlarının canlandırılmasına cəlb etmək üçün də təşəbbüsçülərə böyük güzəştlər nəzərdə tutulurdu. Ölkədə «əsas» vergi olan gəlir vergisinin yüksək həddi 1985-ci ildə 63 faizə (1963-cü ildə 68 və 1981-ci ildə 75 faizdən) endirildi. Xəzinənin maliyyə ehtiyaclarını ödəmək üçün nəzərdə tutulmuş ən aşağı həddi 10 faizdən 25 faizə qaldırıldı. Son nəticədə milli gəlirdə vergilərin xüsusi çəkisi 80-ci illər boyu 20-23 faiz səviyyəsində qalmışdır.

T.Özalın iqtisadi siyasəti xarici kapitala münasibətdə qarşılıqlı mənfəət balansını əsas tutur, xarici mənbələrdən geniş miqyasda faydalanmağa yönəldilir. Əcnəbi kapital qoyuluşlarını hər vasitə ilə təşviq edir.

Açıq qapı siyasəti çərçivəsində Türkiyədə 80-ci illərdə istehsal edilən malların ixracını sürətləndirmək üçün birbaşa maliyyə dəstəyi mexanizmindən də geniş istifadə edildi. Müəyyən edilmiş malların ixracında mükafat sistemi tətbiq edilməyə başlandı. Bu sistemdən yararlanan ixrac mallarının vahidinə və ya fiziki həcminə görə (1 ton ixracat üçün 1-100 dollar arasında) mükafat verilirdi. Bu sistem türk mallarının xarici bazarlarda rəqabət gücünü artırmaq məqsədini güdürdü. Həmin sistem təxminən 120 məhsul növünə şamil edilmişdir. Ödəmə məbləğləri 1987-ci ildə 19, 5 mlrd. türk lirəsindən 1990-cı ildə 1290 mlrd. lirəyə çatmışdır.

İxracatın təşviqində kredit mexanizmi təsirli bir vasitəyə çevrildi. İnflyasiya ilə monetarist mübarizə üsulu kimi sərt pul-kredit siyasətinin həyata keçirilməsi kredit faizlərinin ciddi sürətdə yüksəlməsinə gətirib çıxarmışdır. Belə bir şəraitdə «kredit subsidiyaları» adını daşıyan mexanizm ixracatın təşviq olunmasında təsirli bir vasitə kimi istifadə edildi. Subsidiyalar xəzinə və qismən də mərkəzi kanallarr vasitəsilə ödənilirdi. Bunlar aşağıdakılardan ibarət idi:

- ixracatçılara aşağı faizlə «ixracata hazırlıq» kreditləri;
- ixrac malları gömrükdən çıxdıqdan sonra onların pula çevrilməsinə imkan verən «vəsiqəli sənəd» kreditləri;
- tütünün istehsalçıdan alınaraq emal edilməsi və ixracata hazır hala gətirilməsi üçün tütün ixracatçılarına banklar vasitəsilə Mərkəzi Bank mənbələrindən «tütünü» maliyyələşdirmə kreditləri;
- ixracatçılara möhkəm valyuta ilə ixrac edilməsi öhdəliyi altında banklar vasitəsilə «ixracat diskont kreditləri»;
- xaricdə podrat tikinti xidmətləri göstərənlərə bu xidmət müqabilində valyuta təmin etmək məqsədilə «xaricdə podrat tikinti xidmətləri diskont» krediti;
- ildə 100 milyon dollardan çox məhsul ixrac edən xarici ticarət sərmayə şirkətlərinə «özəl ixracat diskont krediti»;

Bunlardan başqa ixracatı təşviq proqramı çərçivəsində ixrac olunan mallardan əldə edilən valyutanın hökmən ölkəyə qaytarılması məcburiyyəti də ləğv edildi.

Turkiyənin dünya bazarlarında rəqabət gücünün artırılmasının yalnız iri



ixracat şirkətləri vasitəsi ilə mümkün olduğu nəzərə alınaraq, xarici ticarət şirkətlərinin möhkəmləndirilməsi dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrildi.

Dövlət siyasətinin aparıcı istiqamətinə çevrilmiş açıq qapı siyasəti 1990-cı ildən sonra da dönmədən həyata keçirilmiş beynəlxalq inteqrasiya proseslərinin sürətləndirilməsi yolunda ciddi addımlar atılmışdır.

Sovet imperiyası 1990-cı ildə süqut etdikdən sonra, Türkiyə keçmiş sosialist bloku ölkələri ilə iqtisadi əlaqələri hər vasitə ilə genişləndirilməyə başlamışdır.

Xarici ticarətin liberallaşdırılması mexanizmi təkmilləşdirilmiş, ÜTT-nın yaradıcısı olan və beynəlxalq ticarətə yeni normalar gətirən uruqvay Round Nihai Sazişinə imza atmışdır.

Avropa Birliyinə daxil olmaq üçün qarşıya çıxan hər cür manеələrin dəf edilməsi və 2002-ci il Kopenhagen zirvəsində qoyulan tələblərin yerinə yetirilməsi yolunda qətiyyətli və tarixi addımlar atır.

İstər ÜTT-nın, istərsə də AB-nin şərtləri daxilində xarici ticarət rejimi köklü sürətdə yenidən qurulmuşdur.

1980-1990-cı illərdə ixracatın təşviqi sahəsində həyata keçirilmiş geniş miqyaslı tədbirlərdə radikal dəyişikliklər aparılmışdır; beynəlxalq normalara uyğun olaraq daxildə və xaricdə İşləmə Rejimi təsdiq edilmiş, 1995-ci ildən sonra yeni dövlət yardımları tətbiq edilməyə başlanmışdır.

İxracat üçün böyük əhəmiyyət kəsb edən nəqliyyat, rabitə və digər infrastruktura sahələrinə investisiya qoyuluşları artırılmış; ixracat nüfuzlu məşğuliyyət sahəsinə çevrilmişdir. İxracat sahəsində mövcud olan bürokratik əngəllər qətiyyətlə ləğv olunmaqla davam etmişdir; valyuta nəzarəti təkmilləşdirilmiş, hər növ valyuta idxalı tam sərbəstləşdirilmişdir. 1990-cı ildə qəbul edilmiş qərarla Türk lirəsinin dönərliliyi artırılmış sonralar isə milli valyuta ilə idxal və ixrac sərbəstləşdirilmişdir;

80-ci illərdə irimiqyaslı «xarici ticarət şirkətləri» təşviq edilmişdir. Bu iş 90-cı illərdə daha da genişləndirilmiş, xırda və orta şirkətlərin ixracat sahəsində qüvvələrinin birləşdirilməsi istiqamətində də aparılmışdır;

İxracatçı firmalar sərbəst ixracat apara bildikdən sonra 80-cı illərdə onlara edilən birbaşa maliyyə dəstəyi dayandırılmış və ixracat kredit və sığorta mexanizmi vasitəsilə təşviq edilmişdir.

Açıq qapı siyasəti çərçivəsində aparılan islahatlar mərkəzdən idarəçilik sistemi getdikcə daha çox bazar mexanizmi vasitəsilə əvəz olunmağa başladı. 1981-ci ildə kapital bazarı haqqında Qanun qəbul edildi. Qanunun əsas məqsədi yığımın daha çox qiymətli kağızlara qoyulmasını təmin etmək yolu ilə xalqın iqtisadi inkişafda iştirakına şərait yaratmaq idi. Bir az sonra Türkiyənin kapital bazarında tənzimləyici və nəzarətedici bir orqan yaradıldı. 1986-cı ildə isə İstanbul Qiymətli Kağızlar Birjası (IQKB) işə başladı və ölkənin iqtisadi inkişafında mühüm rol oynadı. Birjanın rolunun artmasında vergilərin sadələşdirilməsi, xarici investorların kapital bazarında iştirakının sərbəstləşdirilməsi mühüm rol oynadı. Həmin birjada 4 bazar fəaliyyət göstərir. Bunlara daxildir: pay sənədləri bazarı, istiqraz və bon bazarı, beynəlxalq bazar və müddətli əməliyyatlar bazarı.

Türkiyədə hal-hazırda ən liberal valyuta rejimi fəaliyyət göstərir. Türk lirəsi-

nə tam dönərlilik statusu verilməklə yanaşı 1989-cu ildən sonra xarici fiziki və hüquqi şəxslər İstanbul Birjasında tam sərbəst əməliyyat apara bilərlər. Həmin Birja dünyanın aparıcı Maliyyə Birjalarının tam hüquqlu üzvüdür. Hal-hazırda İstanbulun dünya maliyyə mərkəzlərindən birinə çevrilməsi üçün ciddi iş aparılır. Ölkənin nəhəng maliyyə institutları, o cümlədən, Mərkəzi Bank həmin şəhərə köçürülür.

Türkiyədə mövcud olan liberal valyuta rejiminin əsasları aşağıdakılardır:

- Türkiyədə yerləşmiş fiziki və hüquqi şəxslər istədikləri qədər valyuta saxlaya bilər, banklar, müəssisə və özəl maliyyə təşkilatlarından istədikləri qədər valyuta satın ala bilərlər, onların xaricə valyuta transferləri və xarici banklarda valyuta hesabı açmaları sərbəstdir.
- Müəssisələr maliyyə ehtiyaclarının ödənilməsi üçün xaricdən istədikləri qədər kredit ala bilərlər.
- Türkiyədə yerləşən fiziki və hüquqi şəxslərin xaricdə ticarət əməliyyatları aparmaları üçün kapital ixrac etmələri sərbəstdir. Yalnız müəyyən məbləğdən çox olduqda səlahiyyətli orqandan icazə almalıdırlar.

Xarici ticarətin liberallaşdırılması və ixracatın hərtərəfli təşviq olunması ölkənin xarici ticarət əlaqələrinə böyük dinamizm gətirmişdir. Xarici ticarət dövriyyəsi 1990-2001-ci illər ərzində iki dəfə artmışdır. İxracat 22, 3 mlrd. dollardan 30 mlrd. dollara çatmışdır. 2002-2005-ci illərdə isə ixracat 2, 5 dəfə artaraq 36mlrd. mlrd. dollardan 85 mlrd. dollara yüksəlmişdir. Hal-hazırda ölkənin ixracatı 120 mlrd. dolları keçmişdir. Türkiyə bu dövrdə xarici ticarətin dinamizmi göstəricisinə görə dünyada ən yüksək olan 10 ölkə sırasına daxildir.

Xarici kapitalın və yeni texnologiyanın ölkəyə daha intensiv daxil olmasını, ixracat üçün kapital qoyuluşlarının artırılmasını, xarici maliyyə və ticarət imkanlarından daha geniş istifadə edilməsini təmin etmək məqsədilə ölkədə «azad zonalar» yaradılmasına və inkişaf etdirilməsinə ciddi fikir verilir. 1985-ci ildə «Sərbəst Bölgələr Qanunu» qüvvəyə minmişdir. 1987-ci ildə Mersin və Antalya azad zonaları açılmışdır. 2002-ci ilə qədər cəmisi 21 sərbəst zona açılmış və fəaliyyət göstərir. Həmin zonalarda aparılan ticarət həcmi 11, 5 mlrd. dollara çatmışdır. [307, s. 264].



# FƏSİL III.

## MÜSTƏQİL SOSİAL-İQTİSADİ İNKİŞAF YOLUNUN START ŞƏRTLƏRİ

*Azərbaycan xalqı əsrlər boyu müstəqillik həsrətində idi. Biz müxtəlif dövrlərdə başqa-başqa dövlətlərin tərkibində yaşamışıq. Amma öz milli xüsusiyyətlərimizi itirməmişik.*

**İlham ƏLİYEV,**
***Azərbaycan Pespublikasının Prezidenti***

### 3.1. Azərbaycanın müstəqillik əldə etdiyi dövrdə təbii və iqtisadi potensialının ümumi xarakteristikası.

Azərbaycan Respublikası Qafqaz dağlarının Cənub-Şərq yamaclarında yerləşmiş və Şimalda Rusiya Federasiyası, Şimali-Qərbdə Gürcüstan, Cənubi-Qərbdə Ermənistan və Türkiyə, Cənubda İranla həmsərhəddir. Ölkənin Şərqi Xəzər dənizi ilə əhatə olunmuşdur. Azərbaycanın ərazisi 86, 6 min kv. km. -dir və təxminən Portuqaliyanın ərazisinə bərabərdir. Sovet İmperiyasının süqutu ərəfəsində - 1990-cı ildə Respublika 8, 6 milyonluq əhalisi ilə Sovet İttifaqı Respublikaları arasında 6-cı yeri, Qafqazda isə birinci yeri tuturdu. Əhalinin 54%-i şəhərlərdə, 46%-i isə kəndlərdə yaşayırdı. Azərbaycanlılar ümumi əhalinin 78, 2%-ni təşkil edirdi. Əhalinin sıxlığı kifayət qədər yüksəkdir və hər kv. km-ə 82 nəfər düşür. Əhali nisbətən gəncdir. 15 yaşdan aşağı olanlar əhalinin 33%-ni təşkil edirdi.

Azərbaycan, ümumiyyətlə, dağlıq ölkə olmaqla yanaşı topoqrafik görümüşü xeyli fərqlidir. Bir tərəfdə qarlarla örtülmüş uca dağlara, digər tərəfdə isə dəniz səviyyəsindən aşağı olan torpaq sahələrinə rast gəlmək mümkündür. Ölkə çox zəngin yeraltı sərvətlərə malikdir. Onların ən əhəmiyyətliləri neft və təbii qazdır. Bu iki resurs tarixən Azərbaycan iqtisadiyyatının lokomativi hesab olunur və kimya sənayesinin xammal bazasını təşkil edir.

Azərbaycan dünyanın ən qədim neft hasil edən ölkələrindən biridir. XX əsrin əvvəllərində dünya neft hasilatının 50%-i Azərbaycanın payına düşürdü. 1920-ci ildə Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdən sonra neft sənayesi yüksək sürətlə inkişaf etdirildi. İkinci dünya müharibəsi dövründə SSRİ-nin aşkar edilmiş bütün neft ehtiyatları və onun hasilatı demək olar ki, Azərbaycanda cəmlənmişdir. Ural və Qərbi Sibirdə yeni yataqlar aşkar olunduqdan sonra Azərbaycan SSRİ-də

neft sənayesinin mərkəzi rolunu itirdi: 1990-cı ildə SSRİ-nin neft hasilatında onun payı cəmisi 2% təşkil edirdi. Bundan başqa, Azərbaycan digər zəngin yeraltı sərvətlərə də malikdir. Onların arasında dəmir, kobalt, qurğuşun, sink, qızıl, molibden, xrom, mis yataqlarında böyük ehtiyatlar mövcuddur. Burada alunit, barıt, duz, litoqraf daşı kimi qeyri-mədən yataqlarına da rast gəlinir. Ölkə kirəc, gil, mərmər və başqa inşaat materialları ilə də zəngindir.

Torpaq çeşidləri və iqlim xüsusiyyətləri də Azərbaycanı dünyanın nadir incisinə çevirmişdir. Belə ki, dünyada mövcud olan on bir müxtəlif iqlim zonasının çoxuna Azərbaycanda rast gəlmək mümkündür. Dünyanın mövcud torpaq növlərinin demək olar ki, hamısı bu ölkədə mövcuddur. İqlim və torpaq baxımından malik olduğu bu rəngarənglik Azərbaycanı bitki növlərinə görə də çox zənginləşdirir. Belə ki, mütəxəssislər burada bitki növü sayının 4100 ətrafında olduğunu qeyd edirlər. Bunların təxminən 10%-nə keçmiş SSRİ-nin heç yerində rast gəlmək mümkün deyildir. Ölkə taxıl bitkilərinin geniş çeşidlərini yetişdirmək üçün zəngin bazaya malikdir. Torpaqlar kifayət qədər münbitdir (Bakı ətrafındakı şoran torpaqlar nəzərə alınmasa).

Azərbaycan 150 ildən çox bir müddət ərzində Rusiya imperiyasının tərkibində olmuş və onun qanunları əsasında yaşamışdır. XX əsrdə onun müqəddəratına üç mühüm hadisə təsir göstərmişdir:

1. 1920-ci ildə müstəqil Azərbaycan Xalq Cumhuriyyətinin Qızıl Ordu tərəfindən işğal edilməsi və ölkənin milli müstəqilliyinin ləğvi;
2. İşğal olunduqdan sonra SSRİ-nin tərkib hissəsi kimi mövcud iqtisadi sistemin təbii axarından çıxarılması və İnzibati-amirlik sisteminin bərqərar olması;
3. 1991-ci ildə milli müstəqilliyinin yenidən bərpa edilməsi.

1920-ci ildə bolşeviklər Azərbaycanı işğal etdikdən sonra xalq öz təbii sərvətləri üzərində qərar vermək hüququndan məhrum olmuşdur. Ölkənin zəngin təbii sərvətləri, ilk növbədə, onun nefti Azərbaycan xalqının mənafeyinə deyil, ümumittifaq xalq təsərrüfatı kompleksinin ehtiyaclarına tabe edilmişdir. Neft məhsulları üzərində nəzarət də eyni qaydada mərkəzi orqanların səlahiyyətlərinə daxil edilmişdir.

Bütün SSRİ-də olduğu kimi Azərbaycanda da inzibati-amirlik sisteminin ümumi səciyyəvi cəhətləri aşağıdakı kimi idi. Onun əsasını istehsal vasitələri və bütün ehtiyatlar üzərində total ictimai (əslində isə dövlət) mülkiyyət, iqtisadiyyatın inhisarlaşması və xüsusi formada bürokratik məmur aparatı ilə idarə olunması, iqtisadi mexanizmin əsası kimi mərkəzləşdirilmiş planlaşdırma təşkil edirdi.

İnzibati-amirlik sistemində təsərrüfat mexanizmi bir sıra xüsusiyyətlərə malik idi. Həmin sistem hər şeydən əvvəl tələb edirdi ki, bütün müəssisələr vahid mərkəzdən - yüksək dövlət orqanları tərəfindən idarə edilsin. Bu isə təbiidir ki, təsərrüfat subyektlərinin müstəqilliyinə imkan vermirdi. İkincisi, mərkəzi hökumət məhsul istehsalı və bölgüsünü öz nəzarəti altında saxlayır. Bunun nəticəsində isə ayrı-ayrı təsərrüfatlar arasında azad bazar əlaqələri aradan qalxırdı. Üçüncüsü, təsərrüfat fəaliyyətini dövlət aparatı əsas etibarilə inzibati-amirlik üsullarla idarə edirdi. Bu isə əməyin nəticələrinə maddi marağı heçə endirirdi.

İstehsal vasitələrinin dövlətləşdirilməsi tarixdə görünməmiş dərəcədə inhisarlaşmaya yol açmışdı. İqtisadiyyatın bütün sahələrində yaranmış nəhəng



inhisarlar mərkəzi və yerli nazirliklər tərəfindən dəstəklənir və rəqabətə yer qalmırdı. Bunun nəticəsində isə yeni texnika və texnologiyanın tətbiqi üçün müəssisələrdə maraq olmurdu. Daha çox məsrəflə daha çox məhsul istehsal etmək müəssisələrin devizi idi. İqtisadi sistem «məsrəf» iqtisadiyyatına çevrilmişdir. Son nəticə isə belə iqtisadiyyatın «defisit» iqtisadiyyatına çevrilməsi olmuşdur.

İctimai tələbatın tərkibi də mərkəzi plan orqanları tərəfindən müəyyən edilirdi. Təbiidir ki, ictimai tələbatı praktikada bu dərəcədə müəyyən etmək mümkün olmadığı üçün minimum tələbat əsas götürülürdü.

Maddi nemətlərin, əmək və maliyyə ehtiyatlarının mərkəzləşdirilmiş qaydada bölgüsü istehsalçı və istehlakçıların bilavasitə iştirakı olmadan həyata keçirilirdi. Onun böyük əksəriyyəti SSRİ-nin nəhəng hərbi-sənaye kompleksinin ehtiyaclarının ödənilməsinə yönəldilirdi. Həmin sistem həyatın tələblərinə cavab vermədiyinə görə və xüsusən elmi-texniki tərəqqini buxovladığı üçün onun dəyişdirilməsi tarixi tələbata çevrildi.

Sovet dövründə Azərbaycan iqtisadiyyatının inkişafına rəqəmlərin gözü ilə qısa nəzər salsaq, onda aşağıdakı mənzərənin şahidi olarıq. Rəsmi statistika məlumatları göstərir ki, 1913-1986-cı illər ərzində Azərbaycanda sənaye məhsulları 98 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 93 dəfə, əkin sahələri 1, 4 dəfə artmışdır. Həmin dövrdə taxıl məhsullarının istehsalı 2,2; xam pambıq 1,2; üzüm 30,8; ət 4,5; süd 5,1; iribuynuzlu heyvanların sayı 1,5; qoyun və keçilərin sayı 2,4 dəfə artmışdır. Dəmir yollarının uzunluğu 2, 5 dəfə çoxalmışdır. [208, s. 10]

Akademik Asəf Nadirovun qeyd etdiyi kimi «iqtisadiyyatın inkişafının bu mərhələsi (1920-1990-cı illər) 70 illik bir müddəti əhatə edir. Lakin uzunluğuna görə əvvəlki qədər (1850-1920-ci illər) dövrə bərabər olan bu mərhələ iqtisadiyyatın yüksəlişində baş verən çox köklü kəmiyyət və keyfiyyət dəyişikliklərinin böyük miqyası ilə səciyyələnir. Bununla belə, bu tarixi vaxt kəsiyində iqtisadiyyatın yüksək inkişafı ilə onun imkanlarına uyğun səviyyəyə qalxa bilməməsi nəticəsində həll olunmamış çoxlu problemlərin mövcudluğu sosializm sisteminə xas olan çoxlu məlum ziddiyyətləri üzə çıxarır. Məlum olduğu kimi, sosializm cəmiyyəti şəraitində zahiri iqtisadi möcüzənin arxasında, başqa qüsurlarla bərabər bu və ya digər respublikada məhsuldar qüvvələrin inkişafının mövcud imkanlarının onların milli mənafelərinə xidmət etmək istiqamətində yönəldilməməsi halları əvvəldən axıra qədər düşünülmüş dövlət siyasəti olub. » [30, s. 51]

Sovet İttifaqı dövründə bu nəhəng ölkənin tərkib hissəsi kimi Azərbaycanın iqtisadi strukturu və fəaliyyət mexanizmi SSRİ-nin iqtisadi strategiyasına uyğun olaraq formalaşmışdı. Sənaye müəssisələrinin çoxu ümumittifaq xalq təsərrüfatı kompleksinin ehtiyacları nəzərə alınaraq yaradılmış, SSRİ-də mövcud olan «nəhənglik» ənənəsinə sadiq idi. «Beynəlxalq» əmək bölgüsü SSRİ çərçivəsində formalaşmışdı.

Paradoksal haldır ki, Sovet dövründə Azərbaycan iqtisadiyyatında ən sürətli inkişaf mərhələsi SSRİ-də sosial-iqtisadi inkişafın durğunluq dövrünə daxil olduğu bir zamana təsadüf edir. Bu ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətdə olduğu dövrdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümummilli lider Heydər Əliyevin 85 illik yubileyinə həsr edilmiş xatirə gecəsində demişdir: "1969- cu

ildə ilk dəfə Azərbaycanın rəhbər vəzifəsinə seçiləndə respublikanın iqtisadiyyatı çox bərbad vəziyyətdə idi. İndi bunu bəlkə də bəziləri xatırlamır, ancaq statistik göstəricilərdən biz bunları görürük. Bütün müttəfiq sovet respublikaları arasında Azərbaycan ən axırıncı yerdə idi. Həm ümumi daxili məhsul istehsalı baxımından, həm də inkişaf baxımından bütövlükdə Azərbaycan 1960-cı illərdə SSRİ-də geri qalmış respublika kimi tanınmışdı. Demək olar ki, iqtisadiyyat çox məhdud idi, sənaye potensialı əslində yox idi və respublikanın gələcəyi də mərkəzi fondlardan daha çox asılı idi. Yəni Azərbaycan özü-özünü təmin edə bilən respublika deyildi." "Ancaq Heydər Əliyevin rəhbərliyi altında bu illər ərzində görülən işlər 1982-ci ildə ona gətirib çıxartdı ki, Azərbaycan SSRİ-də ən qabaqcıl respublika idi. Həm iqtisadi inkişaf baxımından, sənaye istehsalı baxımından, həm də bütün göstəricilər baxımından. Azərbaycanda ictimai proseslər başqa respublikalardan böyük dərəcə də fərqlənirdi. Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda böyük quruculuq, abadlıq işləri aparılmışdır. Məhz o illərdə bu gün də müstəqil Azərbaycana xidmət edən güclü sənaye potensialı yaranmışdı. Azərbaycan sənaye respublikasına çevrilmişdi. Bu gün Azərbaycanın neft-qaz sektoru üçün əvəzsiz olan infrastruktur məhz Heydər Əliyevin təşəbbüsü ilə 1970-ci illərdə yaradılmışdır. Əgər o vaxt o infrastruktur yaradılmasaydı, müstəqillik dövründə böyük neft-qaz layihələrinin icrası ən azı 10 il, bəlkə də, 15 il gecikə bilərdi. 1994-cü ildə Azərbaycan xarici investorları ölkəmizə dəvət edəndə artıq burada çox güclü infrastruktur var idi. O infrastruktur məhz Heydər Əliyevin vaxtında yaradılmışdır."

1960-70-ci illərdə Azərbaycanda MİM-in orta illik artım sürəti 5, 2% olduğu halda, 1970-80-ci illərdə 7, 4%-ə yüksəlmişdir və Sovet İttifaqı üzrə eyni göstəricini (5, 0%) xeyli qabaqlamışdır. Bunun nəticəsində Azərbaycanda məcmuu ictimai məhsul 1970-1980-ci illər arasında 2 dəfədən çox artmışdır. 1970-ci il 100% qəbul edilərsə, sənaye məhsulları istehsalı 1980-ci ildə 220, kənd təsərrüfatı istehsalı 202, kapital qoyuluşları 167, ictimai əmək məhsuldarlığı 161, o cümlədən, sənayedə 172, kənd təsərrüfatında 190 faiz təşkil etmişdir. [208, s. 15]. Sənaye məhsulu istehsalının artım sürəti 1975-1979-cu illər ərzində SSRİ-də 20% artdığı halda, bu artım Azərbaycanda bütün müttəfiq respublikalar arasında rekord səviyyədə - 36% olmuşdur. 1966-1970-ci illərin orta illik göstəricisinə nisbətən 1978-1980-ci illərdə hər il orta hesabla - taxıl 2,1; pambıq 2; tütün 2,5; üzüm 4,7; kartof 2,5; tərəvəz isə 2,6 dəfə çox istehsal edilirdi. [232, s. 192]

Bütün bunların nəticəsində «o zaman iqtisadiyyata rəhbərlik edən Heydər Əliyev respublikanın imkanlarına müvafiq olaraq onun daha yüksək sosial-iqtisadi inkişaf vəzifələrini müəyyənləşdirib ardıcıl olaraq böyük əhəmiyyətə malik proqramların həyata keçirilməsini təmin etdi. Nəticədə Azərbaycan özünün sosial-iqtisadi yüksəlişində heç zaman görünməyən nailiyyətlər əldə etdi və bu dövr, haqlı olaraq, respublikanın hərtərəfli tərəqqisində tarixə ən əlamətdar mərhələ kimi daxil oldu. » [30, s. 56]

Azərbaycan iqtisadiyyatı haqqında fundamental tədqiqatların müəllifi akademik Ziyad Səmədzadənin qeyd etdiyi kimi: «Çoxları bu gün cəsarət tapıb Heydər Əliyevin müdrik uzaqgörənliyini etiraf etməlidir. Heç şübhə yoxdur ki, qüdrətli Sovet dövlətinin liderlərindən yalnız o, acınacaqlı sonluğu - Sovet İttifaqının dağılacağını əvvəlcədən görürdü. Ona görə də öz xalqını, respublika iqtisadiyyatını həmin tarixi dönüşə, suverenlik və dövlət müstəqilliyi şəraitində yaşamaq



qabiliyyətinə hazırlayırdı. » [232, s. 17-18]

Həqiqətən, «70-ci və 80-ci illərdə hadisələrin gedişini izləyərkən bu dövrdə əslində qeyri-aşkar şəkildə də olsa, müstəqil Azərbaycan üçün sosial-iqtisadi və mədəni-mənəvi potensial toplandığının şahidi oluruq. » [70, s. 22]

Sonralar Heydət Əliyev qeyd edirdi ki, natamam tədbirlər sistemini özündə birləşdirən və aydın konsepsiyaya malik olmayan «yenidənqurma» dövrü nəhəng bir imperiyanın süquta doğru irəliləməsini daha da sürətləndirdi. Heç təsadüfi deyildi ki, o illərdə - 80-ci illərin ortalarında biz ayrı-seçkiliyə daha çox məruz qalırdıq. Mən Azərbaycanı, həm də Orta və Mərkəzi Asiyanın bəzi digər respublikalarını nəzərdə tuturam. İndi məhz bunu xatırlamağa lüzum var ki, o illərdə xalqların, o cümlədən, Özbəkistan və Azərbaycan xalqlarının milli azadlığı və dövlət müstəqilliyi üçün şərait yetişməyə başlayan vaxtlarda son dərəcə çox əngəllər törədilirdi.

Bütün ölkədə getdikcə pisləşən ictimai-siyasi vəziyyət özünü Azərbaycanda Qarabağ probleminin püskürməsi ilə daha qabarıq göstərdi.

Azərbaycan iqtisadiyyatı 80-ci illərdə bütün göstəricilər üzrə geriləməyə başladı. Belə ki, milli gəlirin istehsalı indeksi 1980-ci il 100% götürülərsə, 1990-cı ildə bütün SSRİ üzrə 106, 8 faiz olduğu halda, Azərbaycanda 91, 9 faiz təşkil etmişdir. Adambaşına düşən milli gəlir və əmək məhsuldarlığı indeksi isə Azərbaycanda daha çox gerilənmiş və 1990-cı ildə müvafiq olaraq 85, 7 və 85, 6 faiz olmuşdur. [209, s. 12-13]

SSRİ-nin süqutu ərəfəsində Azərbaycanda adambaşına milli gəlir SSRİ üzrə orta göstəricinin 77%-ni, sənaye istehsalının 55%-ni və kənd təsərrüfatı istehsalının isə 70%-ni təşkil edirdi.

Azərbaycanda mövcud olan sərvətlərə və təbii ehtiyatlara əsaslanan sənaye sahələri inkişaf etmişdir. Bunlar arasında qara və əlvan metallurgiya, elektrik enerjisi, neft avadanlığı istehsalı, elektrotexnika, kimya, neftkimya, yüngül və yeyinti sənaye sahələri geniş maddi-texniki bazaya malikdir. Ölkədə orta həcmli müəssisələrdə təxminən 430 işçi çalışırdı. Bu göstərici Qərbdə mövcud olan eyni göstəricidən yüksək, lakin digər SSRİ respublikalarının çoxundan aşağı idi. 1991-ci ildə Azərbaycanda sənayenin strukturu haqqında aşağıdakı rəqəmlər təsəvvür oyadır.

*Cədvəl 3. 1*

**1991-ci ildə Azərbaycanda sənayenin strukturu. ***

| | Sənaye müəssisələrinin sayı | İşləyənlərin xüsusi çəkisi (%-lə) | Məhsul istehsalı ümumi yekuna görə (%-lə) |
|---|---|---|---|
| Cəmi sənaye | 3717 | 100 | 100 |
| Ağır sənaye | 1302 | 46, 6 | 38, 75 |

| | | | |
|---|---|---|---|
| o cümlədən Elektroenergetika | 129 | 5, 08 | 3, 18 |
| Yanacaq sənayesi | 18 | 5, 86 | 12, 43 |
| Metallurgiya | 14 | 4, 69 | 3, 25 |
| Metal emalı və maşınqayırma | 859 | 26, 27 | 13, 02 |
| onlardan: maşınqayırma | 126 | 18, 86 | 10, 99 |
| o cümlədən neft maşınqayırması | 18 | 3, 08 | 3, 32 |
| Ağac emalı və kağız | 554 | 2, 9 | 1, 72 |
| Tikinti materialları | 387 | 6, 55 | 2, 61 |
| Kimya və neft-kimya sənayesi | 36 | 6, 48 | 6, 47 |
| Yüngül sənaye | 251 | 23, 69 | 18, 94 |
| Aqrosənaye | 1187 | 13, 78 | 31, 51 |

*Dövlət Statistika komitəsinin məlumatları.

1991-ci ildə Azərbaycanın milli gəlirinin 42%-i sənayedə, 30, 2%-i kənd təsərrüfatında, 13, 4%-i inşaat sektorunda, 3, 5%-i nəqliyyat və rabitədə, 5, 7%-i isə digər sahələrdə yaradılırdı. Azərbaycan sənayesinin 48-49%-i ağır, 19-20%-i yüngül və 30%-i yeyinti sənaye sahələrinin payına düşür.

Başqa bir bölgüyə görə, Azərbaycanda sənaye istehsalının 72%-i «A» qrupu, 28%-i isə «B» qrupu məhsullarından ibarətdir.

SSRİ-nin yeyinti məhsulları istehsalının 1, 4%-i, pambıq istehsalının 8%-i, tütünün 14%-i və üzümün 23%-i Azərbaycanın payına düşürdü.

Nəqliyyat sektoru da ölkədə müəyyən dərəcədə inkişaf etmişdir. Şosse yollarının uzunluğu 29 min. km. idi. Yollar, əslində, bütün rayonları əhatə edirdi. Onların sıxlığı yüksək idi - hər 1 kv. km. -ə 0, 9 km və hər min nəfər əhaliyə 11 km. yol düşürdü. Beləliklə, Azərbaycanda yolun sıxlığı Ukraynadan və Şərqi Avropa ölkələrindən təxminən 3 dəfə çox, Fransadan isə 2 dəfə az idi. Dəmiryolu şəbəkəsi ölkənin əsas nəqliyyat dəhlizlərinə xidmət edirdi. Bu yolların uzunluğu 2120 km-dir. 400 lokomativ mövcud idi. Ölkədə 4 əsas hava limanı və 30 təyyarə mövcud idi. Xəzər gəmiçiliyində 330 min ton yükqaldırma qabiliyyəti olan 70 gəmi mövcud idi. İran, Orta Asiya və Rusiyada yaxşı müştərilərə malik idi.

Xəzər dənizi və Kür çayı (Azərbaycanda 850-ə qədər çay və xırda göllər vardır) balıqçılığın geniş yayıldığı sahələrdir.

Meşələr ölkə ərazisinin 12%-ni əhatə edir. Heyvan növləri və sayı baxımından da ölkə diqqəti cəlb edir.

Azərbaycan dünya əhalisinin 0, 006%-ni, ərazisinin isə 0, 058%-ni təşkil edirdi. Lakin neft, qaz hasilatı və pambıq istehsalı baxımından ölkə yüksək, xüsusi çəkiyə malik idi. İstehsal olunan şərab növləri və miqdarı da diqqəti cəlb edirdi.



Azərbaycan çox zəngin mədən suları və şəfalı su mənbələri ilə yanaşı müxtəlif xəstəlikləri müalicə edən şəfalı palçıqlarla da diqqəti cəlb edir. Naftalan müxtəlif revmatizm və sümük xəstəliklərinin müalicəsi ilə bütün dünyada tanınmışdır. Dünyanın heç bir yerində oxşarı olmayan bu müalicə mərkəzində iltihabdan, əsəb sistemində və hərəkət orqanlarında hiss edilən müxtəlif xəstəliklərə qədər hər cür xəstəliklər müalicə olunur.

Azərbaycan 1990-cı ildə Sovet İttifaqında əhalinin sayına görə 6-cı, ərazi baxımından isə 9-cu yerdə olmasına baxmayaraq bir sıra sənaye məhsullarına görə xeyli qabaq sıralarda dayanmışdı. Məsələn, neft istehsalında, polad boru istehsalında 3-cü, kənd təsərrüfatı məhsullarından üzüm və çay istehsalında 1-ci yerdə idi. SSRİ-də istehsal edilən kondisionerlərin hamısı, sulfanolun 95%-i, maşın və silindr yağının 40%-i, geoloji kəşfiyyat məmulatlarının 25%-i, üzümün 22%-i Azərbaycanda istehsal edilirdi. Həmin dövrdə 1990-cı ildə pambıq ipliyinin 2,5%-i, pambıq parça istehsalının 6,4%-i, yun parça istehsalının 1,3%-i, ət istehsalının 0, 5%-i, kərə yağının 0, 1%-i, kənd təsərrüfatı məhsullarının isə 1, 6%-i Azərbaycanda istehsal edilirdi. [209, s. 359, 459]

SSRİ-nin tərkibində olduğu dövrdə Azərbaycan iqtisadiyyatı yalnız SSRİ çərçivəsində elmi-texniki nailiyyətlərdən bəhrələnmişdir. Bu dövrdə ölkənin zəngin təbii sərvətləri, iqtisadi potensialı inzibati-amirlik sistemi vasitəsilə mərkəzdən idarə olunduğu üçün, ilk növbədə, ümumittifaq xalq təsərrüfatı kompleksinin, onun aparıcı həlqəsi olan hərbi-sənaye kompleksinin mənafeyinə tabe edilmişdir. Yalnız onu göstərmək kifayətdir ki, Azərbaycanda sənaye müəssisələrinin 93%-i, Bakı şəhərində isə 95%-i İttifaq tabeçiliyində idi. Onların gəlir və xərcləri respublika büdcəsində deyil, ittifaq büdcəsində öz əksini tapırdı.

Ölkə müstəqil maliyyə, büdcə, kredit və pul sistemindən məhrum idi. [30, s. 16-17]

## 3.2. Azərbaycanda müstəqil iqtisadi sistemin formalaşmasının mürəkkəb və ziddiyyətli ilkin mərhələsi.

*Vəziyyət elə təhlükəli hal almışdır ki, 1991-ci ildə əlverişli tarixi şəraitin və taleyin xalqımıza bəxş etdiyi imkandan yaranmış müstəqil dövlətimiz qəsdən və səriştəsizlikdən yaranan idarəsizlik nəticəsində yenidən real itirilmək təhlükəsi ilə üz-üzə qalmışdır. Beləliklə, 1991-1993-cü illər Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər, həm də bu illərdə Azərbaycan "Ölüm və ya olum" dilemması qarşısında qalmışdı.*

**Heydər ƏLİYEV**

Müstəqil iqtisadiyyatı yalnız müstəqil dövlət yarada bilər. SSRİ-nin süqutu və Azərbaycanda müstəqil milli dövlətçiliyin bərpası Azərbaycan xalqının sosial-iqtisadi tərəqqisi, sivil dünya toplumuna bərabərhüquqlu üzv kimi daxil olması və qlobal üfüqlərə doğru irəliləməsi üçün açar rolunu oynadı. 150 ildən çox bir müddət ərzində öz zəngin təbii sərvətləri üzərində qərar vermək hüququnu itirmiş

xalq yenidən bu hüquqlara sahib çıxdı.

Azərbaycanda müstəqilliyin bərpasına yönəlmiş iqtisadi qanunların hazırlanmasına hələ onun SSRİ-nin tərkibində olduğu dövrdə başlanmışdır. Buna misal olaraq, 25 may 1991-ci ildə qəbul olunmuş «Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında Konstitusiya Qanununu» göstərmək olar.

Qanunda Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasını müəyyənləşdirən aşağıdakı ümumi prinsiplər verilmişdir:

- ölkə ərazisinin hüdudları daxilində torpaq, yerin təki, daxili sular və ərazi suları, qitə şelfi, bitkilər və heyvanlar aləmi, hava hövzəsi Azərbaycan Respublikasının müstəsna mülkiyyətidir;
- Xəzər dənizinin Azərbaycan zonasındakı ehtiyatlara beynəlxalq hüquqla təsdiq edilmiş hüdudlar çərçivəsində sahiblik, onlara sərəncam vermək və onlardan istifadə etmək hüququ Azərbaycan Respublikasına aiddir;
- bütün mülkiyyət formalarının hüquq bərabərliyini və hüquqi müdafiəsini, sahibkarlıq fəaliyyətinin sərbəstliyini təmin etmək;
- Azərbaycan Respublikasının ərazisində xarici investisiyaların qorunmasına təminat vermək.

Ölkədə mövcud olan İnzibati-amirlik sisteminin əsaslarının sarsıdılmasına da cəhd edilmişdir. Belə ki, qanunun əsas bölmələrindən biri iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi bölməsidir. Burada ölkənin təsərrüfat kompleksinin bazar mühitində, istehlak malları, əhaliyə xidmət, istehsal vasitələri, kapital, iş qüvvəsi, valyuta və qiymətli kağız bazarlarının mövcudluğu şəraitində inkişafı yolları müəyyən edilir. Bazar münasibətlərinin əsasını əmtəə-pul münasibətləri, sərbəst qiymətqoyma və sahibkarlıq əsasında satıcı ilə alıcı arasında razılaşma yolu ilə formalaşan müqavilə və bazar qiymətləri təşkil edir. Sahibkarlar üçün bərabər iqtisadi şərait yaradılır və bərabər hüquqi təminatlar müəyyən edilir. (Maddə 7)

Dövlət hakimiyyəti və idarəetmə orqanları Azərbaycan Respublikasının qanunvericiliyində xüsusi nəzərdə tutulmuş hallardan başqa, dövlət müəssisələrinin təsərrüfat fəaliyyətinə bilavasitə qarışmırlar.

Həmin qanunda nəzərdə tutulmuşdur ki, Azərbaycan Respublikasında iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi aşağıdakı funksiyaları yerinə yetirir:

- istehsal-iqtisadi potensialdan istifadənin ən səmərəli üsullarını müəyyən edir, iqtisadiyyatın struktur dəyişikliklərinə kömək göstərir, əsas bazar strukturlarını yaradır, intellektual mülkiyyət münasibətlərini tənzimləyir;
- milli gəlirdən istifadə proporsiyalarını müəyyən edir, iqtisadi və sosial inkişaf, Azərbaycan xalqının mənəvi dirçəlişi proqramlarını hazırlayır və bunların həyata keçirilməsinə kömək göstərir, ayrı-ayrı sahələrin və regionların inkişafı üçün xüsusi fondlar yaradır;
- başqa dövlətlərlə münasibətlərdə Azərbaycan Respublikasının mənafeyini qoruyur;
- Azərbaycan Respublikasının milli, sosial, iqtisadi, ekoloji və mədəni mənafeyinə zidd olan fəaliyyətin qarşısını alır, inhisarların amirliyinə qarşı tədbirlər görür;
- ölkənin əmək ehtiyatlarından səmərəli istifadə olunmasını, sağlam və təhlükəsiz əmək şəraiti yaradılmasını təmin edir;



- vətəndaşların dolanacaq minimumunun təminatlarını, sosial təminat və sığortalama üçün digər zəruri hüquqi təminatları həyata keçirir;
- əhalinin, müəssisələrin və təşkilatların təbii fəlakətlərdən, istehsal qəzalarından və başqa fövqəladə hadisələrdən və vəziyyətlərdən qorunması və bunların nəticələrinin ləğv edilməsi üçün lazımi tədbirlər sistemi yaradır. (Maddə 8)

18 oktyabr 1991-ci ildə Azərbaycanın müstəqilliyinin prinsipləri haqqında Konstitusiya aktının qəbulu ölkənin tarixində yeni eranın başlanmasına yol açdı.

Müstəqillik yollarının ilk addımları qeyri-adi bir şəraitdə keçir və ciddi imtahanlarla müşaiyət edilirdi.

Lakin Akademik Ramiz Mehdiyevin qeyd etdiyi kimi: "Bu dövrdə daxili siyasi inkişafın dəqiq konsepsiyasının olmaması, birqütblü dünyaya qovuşmaq niyyəti ilə şərtlənən xarici siyasətin müasir reallıqlara uyğun gəlməməsi, siyasətdə, iqtisadiyyatda, cəmiyyət və fərdin həyatının ənənəvi sahələrində sovet irsindən nümayişkaranə imtina edilməsi - bütün bunlar milli müstəqilliyin və dövlətçiliyin möhkəmlənməsinə son dərəcə mənfi təsir göstərirdi". [76, s. 51]

1920-ci ildə Azərbaycan Xalq Cumhuriyyətinin ləğvindən sonra ölkədə müstəqil dövlətçilik təcrübəsinin olmaması da bu tarixi vəzifələrin yerinə yetirilməsini xeyli çətinləşdirirdi. Üstəlik həmin hadisələr bir növ qəfildən baş vermişdi və ölkə qısa bir müddət ərzində onları həyata keçirməyə hazır deyildi.

Akademik Asəf Nadirovun qeyd etdiyi kimi Sovetlər İttifaqı gözlənilmədən, birdən-birə çox sürətlə parçalandı və bu zaman respublikada azadlıq uğrunda hərəkət xeyli güclü şəkildə cərəyan etməkdə idi. Belə bir şəraitdə suveren dövlətin nə aydın, ardıcıl inkişaf strategiyasına malik mütəşəkkil ümumi milli təşkilati qüvvəsi var idi, nə də müstəqil ölkə kimi hadisələrin gedişi prosesində dərhal onun necə idarə olunması məsələlərini müəyyən etmək barədə düşünməyə vaxt və imkanı yox idi.

Obyektiv səbəblər ilə yanaşı bir sıra subyektiv səbəblər də mövcud idi. Yüksək idarəetmə aparatına çoxlu səriştəsiz və məsuliyyətsiz kadrlar irəli çəkilmişdi. Xalq cəbhəsinin hakimiyyəti dövründə iqtisadi idarəetmə alətləri heç bir iqtisadi təhsili olmayan Dövlət katibinin əlində cəmlənmişdi. İstər Nazirlər Kabineti, istərsə də bütün nazirliklərdə onun icazəsi olmadan heç bir əhəmiyyətli qərar qəbul edilə bilməzdi. Bu, əslində, inzibati-amirlik sisteminin yeni variantı idi. İş o yerə çatmışdı ki, 28 aprel 1993-cü ildə həmin şəxs Baş nazir təyin edilərkən Prezident yanında mövcud olan iqtisadiyyat üzrə müşavirlik postunu və onun təcrübəli aparatını tamamilə ləğv etdirdi. Bununla da o, iqtisadi həyatda özünün təkbaşına hakimiyyətini təmin etmiş oldu. Mütləq hakimiyyət isə demokratiya ilə uzlaşmır və müsbət nəticə verə bilməzdi. Azərbaycanın nefti üzərində nəzarəti uzun illər əlində saxlayan digər bir şəxsin Nazirlər kabinetinə müavin təyin edilməsi isə hər ikisinin iqtisadi həyatda hökmranlığını daha da möhkəmləndirdi, qərarların qəbulunu onların istəyindən asılı etdi. Müşahidəçilər haqlı olaraq göstərirdilər ki, "hakimiyyətdə olanların bir qismi cürbəcür yollarla, hətta ölkənin var-dövlətini, yaranmış çox güclü istehsal potensialını müxtəlif vasitələrlə açıq-aydın talan etməklə bir müddət respublikada sanki ümumi soyğunçuluq mühiti və əhval-ruhiyyəsi yaradaraq, iqtisadiyyatda başlanan böhranın daha da dərinləşməsinin sürətlənməsinə imkan verdilər". [30, s. 65]

Azərbaycanın müstəqil inkişafına mane olan amillər arasında xarici amillər özünü daha kəskinliklə göstərirdi. 70 il ərzində xaricdən asılı vəziyyətdə olan Azərbaycan iqtisadiyyatı keçmiş sovet respublikaları, ilk növbədə Rusiya ilə iqtisadi əlaqələri kəsildikdən sonra əslində iflic vəziyyətinə düşməyə başladı. Azərbaycanın müstəqilliyini istəməyən qonşu dövlətlər tərəfindən bu əlaqələr süni sürətdə çətinləşdirilir və bəzən də iqtisadi əlaqələrə açıq-aşkar qadağalar qoyulurdu. Dağlıq Qarabağ münaqişəsi birmənalı şəkildə Azərbaycanın müstəqilliyinə qarşı yönəldilmişdir. Müşahidələr göstərir ki, Azərbaycan müstəqillik yolu ilə irəlilədikcə bu amillərdən daha çox istifadə edilməyə çalışılırdı. Təcrübəsiz və balanslaşdırılmayan xarici siyasət bu prosesi daha da dərinləşdirirdi.

İnzibati-amirlik sisteminin bazar iqtisadiyyatı prinsipləri ilə əvəz olunması da ciddi çətinliklərlə müşaiyət olunurdu. Mərkəzi hökümətin hökmranlığının ləğvi yerli idarəetmə sisteminin hökmranlığını meydana çıxardı. Bazar infrastrukturunun yaranmadığı bir dövrdə bazara keçid, əsas etibarilə, inzibati üsullarla həyata keçirilirdi. Çünki özəlləşdirilmənin həyata keçirilmədiyi və dövlət bölməsinin xüsusi çəkisinin yüksək dərəcədə saxlanıldığı bir şəraitdə İnzibati-amirlik üsullarının bir çoxu öz qüvvəsində qalırdı. Maliyyə-kredit mexanizmi də bazar prinsiplərindən çox, inzibati-amirlik üsulları əsasında idarə edilirdi. Bu dövrdə öz həllini gözləyən ən ciddi sosial-iqtisadi problemlər arasında pul tədavülü sahəsində yaranmış dərin pul böhranı özünü daha kəskin şəkildə göstərirdi. Bu böhranın mühüm tərkib elementlərindən biri rublun təzyiqi və dünya iqtisadi ədəbiyyatına «pul aclığı» adı altında daxil olmuş nəğd pul çatışmazlığı idi ki, onun da varlığını 1992-ci ilin əvvəlindən hər bir Azərbaycan vətəndaşı öz üzərində hiss edirdi. Ona görə də pul siyasəti sahəsində ilk və əsas tədbirlər kimi Milli Bankın yaradılması və tədavülə milli valyutanın buraxılması vacib idi. Haqlı olaraq hesab edilirdi ki, milli valyutanın olması respublika hökumətinə müstəqil iqtisadi siyasət yeritmək üçün geniş imkanlar verər, onun köməyi ilə respublika iqtisadiyyatı tədricən xarici amillərin mənfi təsirindən azad ola bilər. Milli valyuta formalaşmaqda olan daxili bazarın «rublun təzyiqindən» qorunmasında etibarlı vasitə ola bilər, başqa respublikadan gələn möhtəkirlər axınının qarşısına sədd çəkər. Bundan başqa, böyük ümidlər bəslənilən bazar iqtisadiyyatı iqtisadi ədəbiyyata həm də «pul iqtisadiyyatı» adı altında daxil olmuşdur. Bu isə iqtisadi həyatda pul siyasətinin rolunun yüksəldilməsini, yəni inzibati-amirlik idarə sisteminin doğurduğu passiv pul siyasətinin aktiv pul siyasəti ilə əvəz olunmasını tələb edirdi.

Bir sözlə, pul tədavülü sahəsində istər respublikadan kənarda, istərsə də respublika daxilində yaranmış vəziyyət, onun dərin sosial iqtisadi kökləri Azərbaycan dövlətini milli valyutanın buraxılması işini olduqca qısa müddətdə həyata keçirməyə məcbur edirdi. Bu zaman məlumdur ki, hər hansı bir dövlətin beynəlxalq aləmdə və ölkə daxilində nüfuzu ciddi sürətdə həmin dövlətin tədavülə buraxdığı pul sənədlərinin etibarlılığı dərəcəsindən asılıdır. Ona görə də milli müstəqilliyin mühüm atributlarından biri və hər hansı bir dövlətin iqtisadi gücünün ifadəsi olan milli valyutanın buraxılması sırf maliyyə məsələsi kimi deyil, böyük əhəmiyyətli ictimai-siyasi hadisə idi. O, müstəqil iqtisadiyyatın formalaşması mənafeyini sovet rublunun tədavüldən çıxarılmasını və mümkün qədər tez bir zamanda milli valyuta buraxılmasını nə dərəcədə zəruri edirsə, eyni dərəcədə də



tələb edirdi ki, valyuta yüksək dərəcədə etibarlı olsun. Bütün bunlar isə səmərəli pul-kredit və büdcə siyasətinin həyata keçirilməsini tələb edirdi.

Struktur islahatları dövlət bölməsinin inhisarçı vəziyyətinin aradan qaldırılmasını, özəl bölmənin yaradılmasını, möhkəmləndirilməsini və inkişafı üçün əlverişli şərait yaradılmasını tələb edirdi. 1991-ci ilin iyun ayında xüsusi mülkiyyət haqqında qanun qəbul edildi. 1992-ci ilin əvvəllərindən qiymətlər liberallaşdırılmağa başlamışdı. Həmin ilin yanvar ayında əlavə dəyər vergisi tətbiq edildi, aprel ayında xarici kapital haqqında qanun, avqust ayında isə Milli bank haqqında qanun qüvvəyə mindi və milli valyuta tədavülə buraxıldı. 1993-1994-cü illərdə siyasi qeyri-sabitlik iqtisadi islahatların gedişini əslində dayandırmışdı və qanunlar kağız üzərində mövcud idi.

İstehsal sahəsində fəaliyyət göstərən müəssisələrdə islahatlar öz həllini gözləyirdi. Özəlləşdirmə haqqında qanun 1993-cü ildə qəbul edildi. Sənayedə özəlləşdirmə gecikirdi. Mərkəzdən planlaşdırma sistemi ləğv olunsa da, strateji məhsullar üzərində dövlət sifarişi və onların qiymətlərinin dövlət tərəfindən tənzimlənməsi sistemi qalmaqda davam edirdi; mərkəzləşdirilmiş valyuta fondu yaradılmışdır; müəssisələr strateji əhəmiyyətli məhsullarından əldə etdikləri gəlirləri dövlətin müəyyən etdiyi məzənnə ilə həmin fonda əvəzsiz ödəyirdilər ki, bu da onları həmin məhsulların istehsalını artırmağa maraqlandırmırdı; iri dövlət müəssisələrinin kiçildilməsi zəif aparılırdı və antiinhisar qanunvericiliyi yox idi. Bir sözlə, iqtisadiyyatın dövlət tənzimlənməsinin hüquqi bazası yenicə yaradılmağa başlanmışdı. Bank sistemində anarxiya mövcud idi.

Ona görə də inflyasiya əleyhinə həyata keçirilən sabitləşdirmə tədbirləri, nəinki öz məqsədlərinə çatmadı, əksinə inflyasiyanı daha da sürətləndirdi. İnzibati-amirlik sistemi istehsal amillərinin yerləşdirilməsi və inkişafını, istehsal və bölgünü istehlak tələbinin təsirindən təcrid etmişdi. Bu vəzifə uzun illər boyu mərkəzi və yerli plan və inzibati orqanlara tapşırılmışdı. Belə bir sistem daxilində istehsal edilən məhsulların texniki-iqtisadi göstəriciləri və keyfiyyəti daxili bazarın tələblərinə cavab vermirdi və dünya standartlarından çox aşağı idi. Bütün bunların nəticəsində iqtisadi potensial, istehsal-texniki fondlar uzun illər ərzində köhnəlmişdir. İnzibati-amirlik sisteminin çökməsi ilə bazar iqtisadiyyatının prinsiplərinə cavab verməyən bütün sistem süquta məhkum idi.

1992-1994-cü illərdə makroiqtisadi proseslər çox ağırlaşmışdı. 80-ci illərin ikinci yarısında və 90-cı illərin başlanğıcında Sovet dövlətinin süqutu ərəfəsində Azərbaycanda başlanan iqtisadiyyatın tənəzzülü və deformasiya prosesi 1992-1994-cü illərdə yuxarıda göstərilən problemlər kompleksi ilə əlaqədar olaraq müstəqillik dövründə daha da dərinləşdi və genişləndi.

Cədvəl № 3. 2 məlumatlarından göründüyü kimi 1990-cı ildə ÜDM özündən əvvəlki ilə nisbətən 11, 7%, 1992-ci ildə 22, 6%, 1993-cü ildə 23, 1% və 1994-cü ildə isə 19, 7% aşağı düşmüşdür

*Cədvəl 3. 2*

**1990-1994-cü illərdə makroiqtisadi göstəricilər**
**(əvvəlki ilə nisbətən faizlə)**

| | 1990 | 1991 | 1992 | 1993 | 1994 |
|---|---|---|---|---|---|
| Ümumi daxili məhsul | 88, 3 | 99, 3 | 77, 4 | 76, 9 | 80, 3 |
| Sənaye istehsalı | 93, 7 | 104, 8 | 76, 3 | 93 | 77 |
| İstehlak mallarının istehsalı | 104, 6 | 107, 9 | 78, 4 | 83, 9 | 76, 7 |
| Kənd təsərrüfatı məhsulları | 101 | 107, 9 | 78, 4 | 83, 9 | 76, 7 |
| o cümlədən: bitkiçilik məhsulları | 106 | 102 | 74 | 84 | 83 |
| Heyvandarlıq məhsulları | 94 | 97 | 81 | 86 | 93 |
| Kapital qoyuluşu | 96 | 79, 2 | 59, 7 | 60, 9 | 52 |
| İqtisadiyyatda mənfəət | 98, 6 | 171, 5 | 11, 2 | 9, 7 | 9, 9 |
| Əhalinin pul gəlirləri | 120, 8 | 206, 9 | 4, 7 | 8, 9 | 9 |
| Əhalinin pul xərcləri | 121, 3 | 201, 7 | 4 | 7, 2 | 10 |

İqtisadiyyatın bütün sahələrində tənəzzül özünü göstərirdi. Sənaye və kənd təsərrüfatı istehsalı da təxminən eyni sürətlə geriləyirdi. Sənaye istehsalı həm də ciddi deformasiyaya uğrayırdı. Sənaye məhsulunun ümumi həcm indeksi 1990-cı ilə nisbətən 1994-cü ildə 38%-ə, o cümlədən emaledici sənaye sahəsində 31%-ə enmişdir. 1990-cı ildə sənaye məhsulunun cəmi 15, 8%-i elektroenergetika və yanacaq sahələrindən ibarət idisə, 1994-cü ildə həmin sahələrin xüsusi çəkisi 65,4%-ə yüksəlmişdi. Bu proses göstərilən sahələrdə istehsalın artımı hesabına deyil (belə ki, hasilat sənayenin həcm indeksi 1990-cı ilə nisbətən 1994-cü ildə 72 faiz olmuşdur), tənəzzülün digər sənaye sahələrində daha dərin olmasının nəticəsi idi. (Bax, cədvəl 3. 3)

*Cədvəl 3. 3*

**Sahələr üzrə sənaye məhsulunun ümumi**
**həcm indeksi (1990=100)***

| | 1991 | 1992 | 1993 | 1994 |
|---|---|---|---|---|
| Bütün sənaye | 91 | 63 | 51 | 38 |
| Yanacaq-energetika kompleksi | 87 | 72 | 64 | 60 |
| Elektroenergetika | 99 | 81 | 76 | 67 |
| Yanacaq sənayesi | 83 | 68 | 59 | 56 |
| Metallurgiya kompleksi | 90 | 63 | 39 | 10 |
| Qara metallurgiya | 84 | 58 | 35 | 5 |
| Maşınqayırma kompleksi | 82 | 50 | 43 | 23 |
| Kimya və neftkimya sənayesi | 103 | 43 | 32 | 17 |
| Yüngül sənaye | 88 | 63 | 53 | 38 |
| Yeyinti sənayesi | 93 | 66 | 48 | 31 |



*[31, 1996, c. 156]

Tənəzzül özünü ən çox metallurgiya kompleksində, qara metallurgiya, maşınqayırma kompleksində, kimya və neftkimya, yüngül və yeyinti sənaye sahələrində göstərmişdir. Əmək məhsuldarlığı 1990-cı ilə nisbətən 1994-cü ildə metallurgiya kompleksində 15%, kimya sənayesində 33%, yüngül sənayedə 80%, yeyinti sənayesində 42%-ə qədər azalmışdır. [44, 1996, s. 167]. Fond verimi isə, (1990=100) bütün sənayedə 37%-ə enmişdir. [44, 1996, s. 171]. Kənd təsərrüfatı sahələrində, xüsusən, acınacaqlı vəziyyət yaranmışdır. Bütün təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatı məhsullarının həcm indeksi (1990=100) 1994-cü ildə 56, 4 faiz təşkil etmişdir. Başqa sözlə, aqrar bölmədə məhsul istehsalı, demək olar ki, yarıbayarı azalmışdır. Bu sahədə istehsal əsas etibarı ilə ailə təsərrüfatları hesabına müəyyən dərəcədə qorunub saxlanılmışdır. Qeyri-müəyyənlik şəraitində fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələrində isə istehsal həmin dövrdə 71,5% azalmışdı. [44, 1996, s. 175]. Həmin dövrdə taxıl istehsalı 26, 5%, pambıq istehsalı 48%, tütün istehsalı 60%, üzüm istehsalı plantasiyaların ləğv edilməsi nəticəsində 74% azalmışdı. [44, 1996, s. 180]. Ət istehsalı da yarıbayarı azalmışdı.

İnzibati-amirlik sistemində mövcud olmuş maliyyə-büdcə sisteminin tam iflasa uğraması nəticəsində maliyyə sektorunu daha ağır böhrana məruz qoymuşdur. Dövlət büdcəsinin gəlirləri 1990-cı ildə ÜDM-a nisbətən 39, 1%-dən 1994-cü ildə 14, 8%-ə, xərcləri isə 36, 1%-dən 25, 1%-ə enmişdir. Dövlət büdcəsinin kəsiri 1994-cü ildə 193, 3 milyard manata qədər yüksəlmişdir. Bu ÜDM-un 10, 3%-ni təşkil edirdi. İqtisadiyyata yönəldilən büdcə xərcləri iki dəfəyə qədər azalmışdı. [42, cədvəl № IV].

Həyata keçirilən antiinflyasiya tədbirlərinə baxmayaraq hiperinflyasiya dərinləşir, qiymətlər tüğyan edirdi (bax: cədvəl 3. 4).

*Cədvəl 3. 4*

**İstehlak qiymətlərinin indeksi**
**(əvvəlki ilə nisbətən, faizlə)**

| | 1992 | 1993 | 1994 |
|---|---|---|---|
| Cəmi mallar və xidmətlər | 1012 | 1229 | 1764 |
| Ərzaq məhsulları, içkilər, tütün | 1075 | 1386 | 1793 |
| Xidmətlər | 906 | 955 | 1673 |
| Qeyri-ərzaq malları | 993 | 875 | 1186 |

Mal və xidmətlərin qiymət artımı ildə 1000%-i keçmiş, 1994-cü ildə rekord səviyyəyə (1764%-ə) çatmışdır.

Bu dövrdə Azərbaycanda özünü göstərən dərin böhran klassik dərsliklərdən məlum olan ifrat istehsal böhranı deyil, məhsul qıtlığı böhranı idi. İş şəraiti pisləşir, işsizlik artır, əmək haqqı aşağı düşürdü. Respublika üzrə orta aylıq əmək haqqı ABŞ dolları hesabı ilə 1990-cı ildə 32, 5 dollardan 1994-cü ildə 12, 7 dollara qədər azalmışdır. Başqa sözlə, real əmək haqqı 1990-cı ildə 100% götürülərsə 1994-cü ildə 17 faizə qədər aşağı düşmüşdür. [42, cədvəl III].

Dünya bankının hesablamalarına görə, 1985-1995-ci illərdə ÜMM Azərbaycanda hər il orta hesabla, real olaraq 16,3% azalmışdır. Nəticədə adambaşına ÜMM 1987-ci ildə Azərbaycanda ABŞ-ın eyni göstəricisinə nisbətən 21, 8% təşkil edirdisə, bu göstərici 1995-ci ildə 5, 4%-ə qədər azalmışdır. [216, s. 250]

### 3. 3. Azərbaycanda siyasi-iqtisadi sabitliyin təmin olunması və müstəqil dövlətçiliyin təməlinin qoyulması – Heydər Əliyevin misilsiz tarixi xidmətidir

*Biz respublikamızda hüquqi - demokratik dövlət qurmaq yolu ilə gedirik. Bu, dövlət quruculuğunda, siyasi sahədə strateji yolumuzdur. Bununla çox sıx əlaqədə olan ikinci sahə iqtisadiyyatın demokratik yollarla idarə edilməsidir, yəni iqtisadiyyatda demokratik islahatlar aparılması, bazar iqtisadiyyatı yoludur. Bütün bunlar kompleks şəkildə respublikamızı gələcəyə aparan yollar, istiqamətlərdir.*

**Heydər ƏLIYEV**

Zəngin təbii və iqtisadi sərvətlərə malik olan ölkələrdə müstəqilliyin qorunub saxlanılması bəzən onun əldə edilməsindən daha çətin və mürəkkəbdir. Düşmən dövlətlərlə əhatə olunmuş və təcrübəsiz dövlət rəhbərləri ilə idarə olunan Azərbaycanda bu daha da çətin idi. Ölkəmiz yalnız dövlət müstəqilliyini itirmək təhlükəsi ilə deyil, eyni zamanda, real olaraq onun ərazi bütövlüyünə qəsd edilmiş və üstəlik, daxildən də parçalanmaq təhlükəsi ilə qarşı-qarşıya qalmışdı.

Müstəqilliyimiz düşmən dövlətlər tərəfindən açıq-aşkar hərbi təcavüz və siyasi təzyiqlərlə boğulmağa çalışılırdı. Həm də xalqımız iqtisadi sarsıntılar, çətinliklər girdabına düşmüşdür. Bunun isə kökləri olduqca dərindir. İstehsal olunan məhsullar tələbata cavab vermədiyi üçün anbarlarda yığılıb qalır, strateji məhsullar isə blokada vəziyyətində olduğumuz üçün xarici bazarlara böyük çətinliklə çıxarılırdı. Həm valyuta çatışmazlığı, həm də yolların təhlükəli olması ilə əlaqədar mal idxalı da böyük çətinliklə həyata keçirilirdi. Ölkə əhalisi açıq-aşkar aclıq imtahanına çəkilirdi. Ərzaq anbarları boşalmış, ilkin tələbat mallarının istehsalı fəlakətli dərəcədə azalmışdı. Dəyirmanlar boşalmışdı. Elə gün olurdu ki, Qazaxıstandan yola salınmış un gecə Bakıya çatmasaydı, səhəri gün şəhərdə aclıq



baş verə bilərdi. Ona görə də dövlət orqanlarının bütün gücü həmin unun Bakıya vaxtında çatdırılmasına yönəldilirdi. Məsuliyyətsiz bəzi vəzifəli şəxslər isə bu çətinlikdən öz ciblərini doldurmaq üçün istifadə edirdilər. 1992-ci ilin qışında ölkəni Avropa Birliyindən alınan 300 min ton, 1993-cü ilin qışında isə Türkiyənin verdiyi yenə 300 min ton əvəzsiz un və taxıl yardımı xilas etdi.

Amma ölkənin əsl xilaskarı 1993-cü ildə xalqın istəyi ilə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıtması oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi: "Belə bir çətin anda, çətin dövrdə xalqımızın müdrikliyi bir daha özünü göstərdi. Xalqın təkidi və tələbi ilə ümummilli liderimiz Heydər Əliyev Azərbaycana qayıtdı, xalq onu Prezident seçdi və ondan sonra ölkəmizin inkişaf dövrü başlandı. Bütün xoşagəlməz meyillərə son qoyuldu, sabitlik, ictimai asayiş bərqərar olundu, qeyri-qanuni silahlı dəstələr tərksilah edildi. Bir sözlə, Azərbaycan inkişaf yoluna qədəm qoydu". (20 sentyabr 2004-cü il )

Tarixdən yaxşı məlumdur ki, əgər dövlətin, xalqın strateji, perspektiv mənafeyi baxımından onun daxili və xarici siyasətinin ümumiləşmiş konsepsiyasını müəyyən edə bilən şəxsiyyət yoxdursa, bu mənafeyi beynəlxalq forumlarda, yüksək tribunalardan müdafiə edə bilən, dövlətin strateji xəttini xalqa sadə şəkildə bəyan edən və dövlətçiliyi ümumxalq işinə çevirməyi, xalqı öz arxasınca aparmağı bacaran şəxsiyyət yoxdursa və nəhayət, dövlətçiliyi qorumağı, onun müdafiəsini təşkil etməyi əməli sürətdə həyata keçirən praktik siyasətçi-diplomat, sərkərdə və komandan yoxdursa, daxildə əmin-amanlığı, ölkənin iqtisadi inkişafını təmin etməyi üzərinə götürə bilən qurucu, yaradıcı təsərrüfat rəhbəri yoxdursa, həmin ölkənin gələcəyindən nikbin ruhda danışmaq çətin olar. [70, s. 12]

Dövlət idarəçiliyi sahəsində zəngin təcrübəyə malik olan Heydər Əliyevin müdrik daxili və xarici strateji kursu ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial və psixoloji böhran və sarsıntılardan çıxararaq müstəqilliyin əbədi yolu ilə inamla irəliləməsi üçün möhkəm zəmin yaratdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi (20 sentyabr 2004-cü il ) "Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra gedən proseslər, təəssüflər olsun ki, ölkəmizi uçurum kənarına gətirmişdi. Sosial - iqtisadi, siyasi, hərbi böhran hökm sürürdü. Azərbaycan torpaqları Ermənistanın işğalçı qüvvələri tərəfindən zəbt olunurdu, ölkədə xaos, anarxiya, hərc-mərclik mövcud idi, vətəndaş müharibəsi başlanmışdı. O illərdə baş verən iqtisadi tənəzzül ölkəmizi çox çətin vəziyyətə salmışdı.

Daxili çəkişmələrə son qoyulması, siyasi sabitliyin təmin olunması, atəşkəs haqqında razılaşma əsasında erməni təcavüzünün dayandırılması, «əsrin müqaviləsinin» bağlanması, balanslaşdırılmış xarici siyasət və qonşu dövlətlərlə münasibətlərin normallaşdırılması bütün diqqəti ölkədə çoxdan yığılıb qalmış və yatmış vulkana bənzəyən daxili sosial-iqtisadi problemlərin həll olunmasına yönəltməyə imkan verdi. Həyat isə bütün kəskinliyi ilə tələb edirdi ki, heç bir ölkənin tarixində rast gəlinmədiyi strateji əhəmiyyətli üç taleyüklü vəzifə eyni zamanda yerinə yetirilsin.

1. müstəqil, demokratik, hüquqi dövlətin yaradılması və inkişaf etdirilməsi;
2. İnzibati-amirlik sistemi ləğv edilərək bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olunması;

3. qapalı sosial-iqtisadi sistemin xaricə açılması və açıq qapı siyasətinin tətbiq edilməsi ilə bərabərhüquqlu dövlət kimi qlobal iqtisadi sistemə inteqrasiya edilməsi.

Bu tarixi vəzifələrin hər biri istənilən bir dövlət üçün kifayət qədər ciddi və əhəmiyyətli idi və bütün qüvvələrin bu məqsədlərə səfərbər edilməsini tələb edirdi.

Totalitar sosialist sisteminin süqutu nəticəsində yaranmış yeni müstəqil dövlətlər qarşısında duran problemlərin orijinallığı və tarixdə mövcud olmuş iqtisadi sistemlərin heç birində anoloqu olmaması dünya iqtisadi və siyasi ədəbiyyatına bu ölkələrin real durumunu və perspektivlərini əks etdirən yeni bir termin «keçid iqtisadiyyatı ölkələri» terminini də gətirdi. «Keçid» anlayışı yalnız iqtisadi termin deyildir və cəmiyyətin bütövlükdə mövcud siyasi, iqtisadi və sosial quruluşundan imtina edildiyi və hələlik yenisinin yaradılmadığı bir vəziyyəti ifadə edir, cəmiyyətin sosial-iqtisadi strukturunun transformasiya prosesində olduğunu göstərir. Problemin çətinliyi bir də onda idi ki, totalitar rejimin 70 illik despotik hakimiyyəti dövründə cəmiyyət demokratiya, sərbəst bazar iqtisadiyyatı, azad sahibkarlıq, siyasi plüralizm və bu kimi digər çağdaş dəyərlərdən uzaq məsafədə saxlanılmışdır, üstəlik əhalidə uzun illər boyu xüsusi mülkiyyət, bazar iqtisadiyyatı, sahibkarlıq anlayışlarına mənfi münasibət formalaşdırılmışdır. Həyat isə bütün kəskinliyi ilə tələb edirdi ki, cəmiyyət «dövlət, demokratiya, millət, kimlik, idealogiya, siyasət və iqtisadiyyat kimi həyati əhəmiyyətli məsələlərin yenidən qurulmasını bir vəzifə kimi qarşıya qoysun» [73, cilt II, Fikrət Elma, s. 584] və uğurla həll etsin.

Akademik Ramiz Mehdiyevin göstərdiyinə görə: " 1993-cü ilin ortalarında, Heydər Əliyev ölkəyə rəhbərliyə qayıtdıqdan sonra milli transformasiyanin dördüncü mərhələsi başlandı - modernləşdirmə mərhələsinə başlamağın əsası qoyuldu. Onun mahiyyəti Azərbaycanın tənzimlənən bazar iqtisadiyyatına keçməsində və demokratik islahatların həyata keçirilməsində idi ki, bu da beynəlxalq aləmdə ölkənin dünya siyasətinin subyekti kimi tanınması ilə nəticələndi".

Ölkəmizdə müstəqil, demokratik, hüquqi dövlətin möhkəm təməli Heydər Əliyevin memarlığı ilə 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ilə atılmış oldu.

Konstitusiya bütün dünyaya bir daha bəyan etdi ki, sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək dövlət hakimiyyətinin yeganə mənbəyi olan Azərbaycan xalqının suveren hüququdur; insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir.

Müstəqillik əldə etmiş dövlətlərin təcrübəsi göstərir ki, suveren sosial-iqtisadi inkişafın müvəffəqiyyəti, ilk növbədə, iqtisadi müstəqilliyin təmin olunmasından və köhnə iqtisadi sistemin düşünülmüş şəkildə yenisi ilə əvəz olunmasından asılıdır. Ona görə də Konstitusiyada birmənalı şəkildə təsbit edilmişdir ki, təbii ehtiyatlar hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Rsepublikasına malikdir; Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir; Azərbaycan dövləti bazar münasi-



bətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir. Bütün bunlar əsasında Azərbaycan dövləti xalqın və hər hansı bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır; mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruyur.

Doğma Azərbaycan dövlətinin qarşısında duran ali məqsədə nail olunması, ilk növbədə iqtisadi sabitliyin də təmin olunmasını tələb edirdi. Çünki 1992-1994-cü illərdə mövcud olmuş hiperinflyasiya iqtisadiyyatın əsaslarını sarsıdır və əhalinin maddi və sosial vəziyyətini getdikcə ağırlaşdırırdı. Birmənalı şəkildə aydın idi ki, həyata keçirilən iqtisadi siyasətin müvəffəqiyyəti genişmiqyaslı sabitləşdirmə tədbirləri ilə inflyasiyanın cilovlanmasından və makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin olunmasından asılıdır. Həyat bütün kəskinliyi ilə iqtisadi islahatların da sürətləndirilməsini tələb edirdi. Ona görə də ölkə iqtisadiyyatında bazar prinsiplərinin bərqərar olmasını təmin etmək üçün onun liberallaşdırılması istiqamətində radikal addımlar atıldı. 1994-1995-ci illərdə xarici ticarət əməliyyatlarının liberallaşdırılmasına başlanmışdır. Xarici ticarət sahəsində liberallaşdırma tədbirlərinin önə çəkilməsi qısa bir zamanda açıq qapı siyasətinin tətbiq edilməsi zərurətindən doğurdu.

İqtisadi liberallaşdırma qiymət islahatlarının da radikal şəkildə davam etdirilməsini tələb edirdi. Bununla əlaqədar olaraq 1995-1996-cı illərdə qiymətlərin formalaşması prosesinin inzibati-amirlik sisteminin qəliblərindən azad olunması başa çatdırıldı. Bununla da bazar iqtisadiyyatının əsas prinsiplərindən birinin, yəni qiymətlərin bazarda sərbəst şəkildə tələb və təklif amillərinin qarşılıqlı təsiri altında formalaşması prosesinin başlanması üçün yol açılmış oldu. Bu proses bazar iqtisadiyyatının digər vacib elementi olan valyuta rejiminin sərbəstləşdirilməsi prosesi ilə tamamlandı.

Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli iqtisadi islahatlar az bir zamanda geniş beynəlxalq dəstək aldı. Beynəlxalq Valyuta Fondu və Dünya Bankı həmin islahatlara dəstək verməyə başladılar. Onlar Azərbaycanda iqtisadi islahatlar haqqında xüsusi proqram hazırladılar və ölkəmizə maliyyə yardımı göstərdilər. Həmin təşkilatlarla sıx əməkdaşlıq şəraitində hazırlanmış sabitləşdirmə proqramına uyğun olaraq iqtisadiyyatın liberallaşdırılmasına yönələn radikal islahatlar dönməz xarakter aldı. Sərt və çevik pul-kredit, büdcə, vergi gömrük siyasətinin aparılması, qiymətlərin, xarici iqtisadi fəaliyyətin və valyuta bazarının liberallaşdırılması və xarici kapitalın cəlb olunması nəticəsində qısa zamanda (1995-1996-cı illər) ölkədə makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin edilməsinə nail olundu. Əgər 1994-cü ildə inflyasiya tempi 1800%-ə, manatın ABŞ dollarına nisbətən dəyərsizləşməsi 1200%-ə çatmışdırsa, artıq 1995-ci ildə vəziyyət əsaslı dəyişməyə başlamış və həmin göstəricilər uyğun olaraq 84, 6% və 3, 6% olmuşdur. Sonrakı illərdə bu göstəricilər daha da yaxşılaşmış, 1996-cı ildə inflyasiya 6, 8%-ə enmiş, manatın isə ABŞ dollarına nisbətən məzənnəsi 8% möhkəmlənmişdir. 1997-ci ildə inflyasiya tempi minimuma enərək cəmi 0, 4% təşkil etmiş, manatın dəyəri isə 5,1% möhkəmlənmişdir. Bu sabitlik dünya maliyyə bazarlarında baş vermiş maliyyə böhranına baxmayaraq 1998-ci ildə də qorunub saxlanılmış, 7,6%

səviyyəsində deflyasiya baş vermiş, manatın ABŞ dollarına nisbətən məzənnəsi isə devalvasiyaya uğramamış, sabit olaraq qalmışdır. [46, 1998, s. 14]

İstehlak qiymətlərinin indeksi kəskin şəkildə azaldılmağa başladı. Belə ki, mallar və xidmətlər üzrə qiymət indeksi 1994-cü ildə özündən əvvəlki ilə nisbətən 1763, 5%, 1995-ci ildə 511, 8%, 1996-cı ildə 119, 9%, 1997-ci ildə 103, 7% və 1998-ci ildə isə 99, 2% təşkil etmişdir. [44, 1999, s. 258]

1995-96-cı illərdə yaranmış əlverişli makroiqtisadi sabitlik şəraitindən istifadə edərək 1997-1998-ci illərdə ölkədə iqtisadi islahatların yeni mürəkkəb mərhələsinə - struktur islahatlar mərhələsinə-başlandı. Xüsusi Dövlət proqramına uyğun olaraq ölkədə genişmiqyaslı özəlləşdirməyə başlanmış, iqtisadiyyatın əsas sahələrindən olan aqrar sferada torpağın xüsusi mülkiyyətə verilməsi istiqamətində radikal islahatlar aparılmış, yeni iqtisadi tələblərə cavab verən maliyyə sektorunun, onun vacib hissəsi olan bank sisteminin formalaşdırılması, dövlət banklarının yenidən qurulması istiqamətində radikal addımlar atılmışdır.

İqtisadi islahatların mühüm istiqamətləri kimi ölkədə özəlləşdirmə proqramının həyata keçirilməsi azad sahibkarlığın və şəxsi təşəbbüskarlığın inkişafına şərait yaratmışdır. Qeyd etmək lazımdır ki, bu 1998-ci ilə qədər 28 mindən çox kiçik müəssisə özəlləşmiş və demək olar ki, kiçik özəlləşdirmə başa çatmışdır. 1997-ci ildən başlayaraq özəlləşdirmədə həlledici mərhələ olan böyük özəlləşdirməyə - orta və iri dövlət müəssisələrinin səhmdar cəmiyyətlərinə çevrilməsi prosesinə başlanmışdır. Təkcə 1998-ci ildə 800-dən çox orta və iri dövlət müəssisələri səhmdar cəmiyyətlərə çevrilmişlər.

Beləliklə, ölkədə makromaliyyə sabitliyinin təmin edilməsinin, bazar münasibətlərinin formalaşdırılmasının əsas şərti olan iqtisadiyyatın idarə olunmasının bütün istiqamətlərdə liberallaşdırılmasının, bazar iqtisadiyyatının bütün atributlarının yetişməsinə iqtisadi və hüquqi islahatlar aparılması yolu ilə zəruri mühitin yaradılmasının və əsaslı struktur islahatlarının aparılmasının məntiqi nəticəsi olaraq 1989-cu ildən sonra davam edən iqtisadi tənəzzül dayandırıldı və Ümumi Daxili Məhsulun həcminin aşağı düşməsinin qarşısı alındı.

*Cədvəl 3. 5*

**MDB ölkələrində ÜDM-ün fiziki həcm indeksi**
**(sabit qiymətlərlə əvvəlki ilə nisbətən faizlə)***

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 |
|---|---|---|---|---|---|
| Azərbaycan | 88, 2 | 101, 3 | 109, 8 | 110 | 107, 4 |
| Ermənistan | 106, 9 | 105, 9 | 103, 3 | 107, 3 | 103, 3 |
| Belarus | 89, 6 | 102, 8 | 111, 4 | 108, 4 | 103, 4 |
| Gürcüstan | 102, 6 | 111, 2 | 110, 7 | 102, 9 | 103 |
| Qazaxıstan | 91, 8 | 100, 5 | 101, 7 | 98, 1 | 101, 7 |
| Qırğızıstan | 94, 6 | 107, 1 | 109, 9 | 102, 1 | 103, 6 |
| Moldova | 98, 1 | 94, 1 | 101, 6 | 93, 5 | 95, 6 |
| Rusiya | 95, 6 | 96, 6 | 100, 9 | 95, 1 | 103, 2 |
| Tacikistan | 87, 6 | 83, 3 | 101, 7 | 105, 3 | 103, 7 |
| Türkmənistan | ... | ... | ... | ... | ... |
| Özbəkistan | 99, 1 | 101, 7 | 105, 2 | 104, 4 | 104, 4 |
| Ukrayna | 87, 8 | 90 | 97 | 98, 1 | 99, 6 |
| MDB üzrə orta göstərici | 94, 7 | 96, 8 | 101 | 96, 4 | 102, 9 |



* [238, 2000, s. 18]

Cədvəldən (3. 5) göründüyü kimi iqtisadi tənəzzülün qarşısı nəinki alınmış, hətta 1996-cı ildə onun artımına nail olunmuşdur. 1996-cı ildən 1, 3% olan iqtisadi artım 1997-ci ildə 5, 8%-ə çatmışdır. Real sektordakı bu canlanma Cənubi-Şərqi Asiyada və qonşu Rusiyada baş vermiş dərin maliyyə böhranına baxmayaraq 1998-ci ildə daha da inkişaf etmişdir. 1998-ci ilin yekunları respublikanın sosial-iqtisadi inkişafında müsbət meyllərin ildən-ilə möhkəmləndiyi, bu prosesin dönməz xarakter almasını göstərir. Az bir zamanda Azərbaycan iqtisadi inkişafın artım sürətinə görə postsovet respublikaları arasında qabaqcıl mövqeni tutmağa və lider olmağa başladı. (bax: cədvəl 3. 5)

Azərbaycanda iqtisadi artım sürəti 1995-ci ildən başlayaraq MDB üzrə orta göstəricidən xeyli yüksək olmuşdur.

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərdiyi (10 may 2004-cü il) kimi: "Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan beynəlxalq təcriddən çıxdı. Bu gün Azərbaycan beynəlxalq aləmdə çox görkəmli yer tutur, beynəlxalq təşkilatların üzvüdür, onlarda fəal iştirak edir. Bütün dövlətlər tərəfindən tanınır. Azərbaycanın böyük hörməti var. Artıq demək olar ki, regional məsələlərdə Azərbaycanın sözü həlledici sözdür. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir regional layihə keçirilə bilməz. Beləliklə, Azərbaycan region üçün mərkəzə çevrilibdir. Bizim nüfuzumuz artır, gücümüz artır. Bu, bizə imkan verəcək ki, qarşımızda duran bütün məsələləri öz xeyrimizə həll edək. Bütün bunlar Heydər Əliyevin xidmətləridir".

# FƏSİL IV.

## İQTİSADİ SİSTEMİN TRANSFORMASİYASI – HEYDƏR ƏLİYEV VƏ İLHAM ƏLİYEVİN İNKİŞAF STRATEGİYASININ APARICI XƏTTİDİR

> *Biz yalnız müstəqilliyi bərpa edəndən sonra siyasi islahatlara başlamışıq və tarix baxımından çox qısa müddət ərzində bütün lazımı tədbirlər görmüşük. Azərbaycanda siyasi sistem yaradılıb, siyasi təsisatlar yaradılıb və möhkəmlənib, Azərbaycan beynəlxalq təşkilatlarla çox uğurlu və qarşılıqlı hörmət əsasında əməkdaşlıq edir.*
>
> **İlham ƏLIYEV**
>
> *Azərbaycan Respublikasının Prezidenti*

### 4. 1. Mülkiyyət münasibətlərinin yenidən qurulması–iqtisadi islahatların təməlidir.

Ulu öndər Heydər Əliyev iqtisadi inkişaf strategiyasını formalaşdırmağa və inkişaf etdirməyə iqtisadi islahatların və idarəçiliyin təməl prinsiplərindən başladı. O 1993-cü ildə bütün dünyaya bəyan etmişdir ki: "Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst iqtisadiyyat prinsiplərinin bərqərar olması və bazar iqtisadiyyatı, sahibkarlıq yoludur".

Azərbaycanda dövlət müstəqilliyyinin strateji kursunun hazırlanmasında mühüm xidmətləri olan Akademik Ramiz Mehdiyevin qeyd etdiyi kimi "Azərbaycanın uğurlu iqtisadi siyasəti iqtisadi inkişafın üç ümdə prinsipinə əsaslanır: 1) bazar rəqabəti; 2) iqtisadiyyatın idarə edilməsinin bütün sahələrinin (valyuta bazarı, ticarət əlaqələri və münasibətləri, bank-maliyyə bazarı və s. ) liberallaşdırılması; 3)bütün mülkiyyət formalarının pluralizmi. Uğurlu iqtisadi siyasət aparılmasında sənayenin müxtəlif sahələrinə sərmayə qoyuluşlarının təmin olunması, əhalinin ödəmə qabiliyyətinin yüksəldilməsi və xarici borcların yenidən strukturlaşdırılması mühüm rol oynayır. İqtisadiyyatdakı bütün bu yeni meyllər güclü və səmərəli dövlətçiliyin qurulmasına da kömək etmişdir". [76, s. 271] Mülkiyyət - bütün ictimai münasibətlər sisteminin təməlidir. Cəmiyyətdə bölgü, mübadilə və istehlak mülkiyyət formasından birbaşa asılıdır. Sovet İttifaqında istehsal vasitələri üzərində formalaşmış total ictimai (dövlət) mülkiyyət və onun əsasında fəaliyyət göstərən inzibati-amirlik sistemi tam iflasa uğradı. Müstəqillik illərində iqtisadi sistemin səmərəliliyinin və sürətli iqtisadi inkişafın təmin olunması, müxtəlif əhali qrupları arasında ictimai və iqtisadi maraqların daha optimal nisbətinin yaradılması bazar iqtisadiyyatına keçilməsini və mülkiyyətin



müxtəlifliyini tələb edirdi. Çünki cəmiyyətdə mülkiyyət formalarının müxtəlifliyi məhsul istehsalı, onun istehlakçıya çatdırılması prosesində rəqabətin yaranmasına və bunun vasitəsilə məhsulun keyfiyyətinin yaxşılaşdırılmasına şərait yaradır. Məhz buna görə də müstəqillik əldə edildikdən dərhal sonra mülkiyyət münasibətlərinin dəyişdirilməsi Azərbaycanda iqtisadi islahatların aparıcı xəttini təşkil etməyə başladı. 9 noyabr 1991-ci ildə qəbul edilmiş Mülkiyyət haqqında Azərbaycan Respublikasının Qanunu ölkəmizdə iqtisadi münasibətlərin və yeni iqtisadi sistemin formalaşmasının əsasını qoydu. Onun qiymətli cəhəti ondan ibarətdir ki, ölkədə mülkiyyətin 95 faizindən çoxunun dövlətə mənsub olduğu bir dövrdə qəbul edilmiş və xüsusi mülkiyyətin dövlət mülkiyyəti ilə yanaşı fəaliyyət göstərmək hüququ rəsmiləşdirilmişdir. [89, 19] Qanunda mülkiyyət hüququ, mülkiyyət hüququnun obyektləri, mülkiyyət hüququnun subyektləri, mülkiyyət formaları, əşya hüququ kimi maddələr verilmişdir.

Ümummilli lider Heyder Əliyevin rəhbərliyi ilə 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında mülkiyyətin müxtəlifliyi Konstitusiya hüququ səviyyəsinə yüksəldilmişdir. Konstitusiyada birmənalı olaraq təsbit edildi:

I. Mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur.

II. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər.

III. Mülkiyyətdən insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə bilməz.

Mülkiyyət hüququ cəmiyyətin ən mühüm konstitusiya hüququ kimi Konstitusiyada öz əksini tapmış və qəbul edilmiş bir çox qanunlarla onun hüquqi bazası yaradılıb inkişaf etdirilmişdir.

Mülkiyyət hüququnun realiaşdırılması, özəl təşəbbüskarlığın və sahibkarlığın ictimai həyatda öz yerini tutması üçün bir çox qərarlar qəbul edilmiş və həyata keçirilməyə başlamışdır.

Hələ 1992-ci ildə qəbul edilmiş «Sahibkarlıq fəaliyyəti haqqında» Qanun mikrosəviyyədə mülkiyyət hüququnun və bazar iqtisadiyyatına keçidin reallaşdırılmasına xidmət edirdi. Həmin qanuna əsasən iqtisadi fəaliyyətlə məşğul olmaq istəyən hər bir Azərbaycan vətəndaşı və xarici vətəndaşlar fiziki və hüquqi şəxslər müvafiq qanunlara uyğun olaraq ölkədə xüsusi sahibkarlıqla məşğul olmaq hüququna malikdir.

Konstitusiyanın 59-cu maddəsində isə müəyyən edilmişdir ki, hər kəs qanunla nəzərdə tutulmuş qaydada öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər.

Mülkiyyətin müxtəlifliyinin reallaşması və sahibkarlığın inkişafı iqtisadi münasibətlərin bazar iqtisadiyyatı prinsipləri əsasında idarə olunmasının düzgün tənzimlənməsindən asılıdır. Bazar iqtisadiyyatının tənzimlənməsi sahəsində qanunvericilik bazası müstəqillik əldə edildikdən sonrakı ilk illərdə başlanmış olsa da, yalnız 1994-1995-ci illərdə siyasi sabitlik təmin edildikdən sonra genişmiqyaslı həyata keçirilməyə başlanmışdır. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə yalnız iki il 1994-1995-ci illər ərzində bu sahədə aşağıda göstərilən çoxsaylı qanunlar qəbul edilmişdir. Müəssisələr haqqında (1994), Səhmdar cəmiyyəti (1995), Girov haqqında (1994), Müflisləşmə və iflas (1994), Qiymətli kağızlar və fond birjaları

haqqında (1995), Əmtəə birjası (1994), Auditor xidməti (1994), Lizinq xidməti (1994), Aqrar islahatların əsasları (1995), İnvestisiya fəaliyyəti (1995), habelə maliyyə və vergi münasibətləri haqqında bir çox qanunlar.

Özəl mülkiyyət və sahibkarlıq fəaliyyətinin inkişafı ölkədə rəqabət mühitinin yaradılmasından asılıdır. Ona görə də «Antiinhisar fəaliyyəti haqqında» (1993), «Haqsız rəqabət haqqında» (1995) və «Təbii inhisarlar haqqında» qanunlar ölkədə rəqabət mühitinin formalaşdırılmasına yönəldilmişdir. Xarici sahibkarlığın inkişaf etdirilməsi məqsədilə «Xarici investisiyaların qorunması haqqında» Qanun qəbul edilmişdir. Qabaqcıl dünya dövlətlərinin təcrübəsi göstərir ki, müasir dövrdə iqtisadi inkişafın mühüm hərəkətverici qüvvəsi kiçik və orta sahibkarlıq (KOS) fəaliyyətidir. Ölkəmizdə KOS-ların inkişafı üçün qanunvericilik bazası yaradılmış, «Kiçik sahibkarlığa dövlət yardımı haqqında» (1998) ayrıca Qanun qəbul edilmişdir. Bazar iqtisadiyyatına keçidin təmin olunması üçün digər bir çox qanunlar və normativ aktlar qəbul edilmişdir. Ölkədə bazar iqtisadiyyatı prinsiplərinin hərtərəfli tətbiqinin təmin edilməsi əmək münasibətlərinin də bu prinsiplərə uyğunlaşdırılmasını tələb edir. Bu məqsədlə 1999-cu ildə Əmək Məcəlləsi, 2000-ci ildə isə yeni Vergi Məcəlləsi, Mülki Məcəllə, Gömrük Məcəlləsi qəbul olundu. Hal-hazırda isə «Rəqabət Məcəlləsi» qəbul olunmaq üçün Milli Məclisə təqdim edilmişdir.

Hər hansı bir ölkədə mülkiyyətin dövlətsizləşdirilməsi və mülkiyyətin müxtəlifliyinin təmin edilməsi, bazar münasibətlərinin inkişaf etdirilməsi yalnız iqtisadi məsələ deyildir. O eyni zamanda əhatəli sosial-siyasi məsələdir. Ölkəmizin sivil dövlətlər ailəsinə bərabərhüquqlu subyekt kimi daxil olmasının vacib şərti, sosial-iqtisadi tərəqqi üçün açar rolunu oynayan bir məsələdir.

## 4. 2. Özəlləşdirmə və sahibkarlığın inkişafı.

*Azərbaycanda çox güclü orta sinif yaranır, sahibkarlar sinifi yaranır və bilirsiniz ki, bu sahəyə çox böyük diqqət göstərilir. Bu gün ölkə iqtisadiyyatının 80 faizdən yuxarı hissəsi özəl sektorda formalaşır. Baxmayaraq ki, Azərbaycan iqtisadiyyatının əsas hissəsini enerji resursları təşkil edir və enerji resursları dövlət nəzarətindədir, özəl sektor sürətlə inkişaf edir.*

**İlham ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*

İsrafçı sosialist iqtisadi sistemdən səmərəli iqtisadi sistemə keçidin vacib şərti özəlləşdirmə və sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılmasıdır. Özəlləşdirmə prosesi mülkiyyət münasibətlərinin transformasiyası və bazar iqtisadiyyatının formalaşmasının hüquqi bazasının yaradılması prosesinin mühüm tərkib hissəsidir.

7 yanvar 1993-cü ildə «Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında» Qanun ölkəmizdə özəlləşdirmənin prinsipləri və təşkilati-hüquqi əsaslarını müəyyən etdi. Bu prinsiplərə əsasən özəlləşdirmə prosesinin mərhələləri, növbəliliyi, yolları, forma və variantları dövlət tərəfindən müəyyən edilir; bu prosesdə dövlətin, əmək kollektivləri və əhalinin təbəqələrinin mənafeləri nəzərə alınır; bu məqsədlə



özəlləşdirmə payı müəyyənləşdirilir; özəlləşdirmənin forma və variantları seçilərkən əmək kollektivlərinin rəyi nəzərə alınır; özəlləşdirmə aşkarlıq şəraitində həyata keçirilir və s.

Özəlləşdirmə Milli Məclisin qəbul etdiyi Dövlət Proqramı əsasında həyata keçirilir. Özəlləşdirmədən əldə edilən vəsait dövlət büdcəsinə keçirilir.

Özəlləşdirmənin həyata keçirilməsinin hüquqi bazası rolunu oynayan Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramlarının (1995-1998-ci illər) qəbulu xüsusi əhəmiyyət kəsb etmişdir. Bundan sonra sahibkarlığın inkişafı üzrə dövlət tədbirləri Azərbaycan dövlətinin iqtisadi siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Proqramda özəlləşdirmənin məqsədləri sistemli xarakter daşıyırdı və aşağıdakı kimi müəyyən edilmişdir:

- xüsusi mülkiyyət və azad rəqabət prinsipləri əsasında bazar iqtisadiyyatının inkişafına şərait yaradılması;
- bazar iqtisadiyyatı tələblərinə uyğun iqtisadi strukturun yaradılması;
- iqtisadi prosesdə istifadə edilməyən mənbələrin təşviq edilməsi;
- milli və xarici kapitalın bu prosesə cəlb edilməsi üçün təşviq edilməsi;
- bütün bunların nəticəsində xalqın rifah səviyyəsinin yaxşılaşdırılması

Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında I Dövlət Proqramı qəbul edildikdən sonra özəlləşdirmə sistemli xarakter almışdır.

Özəlləşdirmə haqqında I Dövlət Proqramında orta və iri müəssisələrin əvvəlcə anonim şirkətlərə çevrilməsi və sonra pay sənədlərinin bazara çıxarılması nəzərdə tutulmuşdur. Özəlləşdirmənin ədalətli aparılması və bu prosesdə xalqın fəal iştirakının təmin edilməsi üçün hər bir vətəndaşa özəlləşdirmə payı (çeklər) verilmişdir.

Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramına əsasən özəlləşdirməyə birinci növbədə ticarət, ictimai iaşə və xidmət, nəqliyyat, tikinti və bir sıra başqa sahələrdə başlanılmışdır.

Dövlət Proqramı qəbul edildikdən sonra özəlləşdirmə prosesi aşağıdakı məlumatlardan göründüyü kimi geniş və əhatəli olmuşdur.

*Cədvəl 4. 1*

**Azərbaycanda özəlləşdirilən obyektlərin sayı***

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 |
|---|---|---|---|---|---|
| Cəmi | 872 | 6418 | 7493 | 6644 | 1897 |
| o cümlədən sənaye | - | 18 | 326 | 155 | 63 |
| Kənd təsərrüfatı | - | 1 | 43 | 62 | 7 |
| Nəqliyyat | 872 | 384 | 1729 | 3546 | 860 |
| Ticarət | - | 389 | 647 | 680 | 179 |
| İnşaat | - | 2 | 36 | 152 | 40 |
| Xidmət | - | 5140 | 3877 | 289 | 65 |
| Yarımçıq tikililər | - | 5 | 35 | 48 | 22 |
| Neft ofisləri | - | 194 | 186 | 56 | 41 |
| Sair | - | 9 | 353 | 1443 | 534 |
| Orta və iri müəssisələr | - | - | 407 | 547 | 111 |

• DSK, 2001

Özəlləşdirilən kiçik müəssisələrin sayı yalnız üç il (1995-1998-ci illər) ərzində 7, 5 dəfə artmış və fəaliyyət sahələri genişlənmişdir. Belə ki, 1995-ci ildə kiçik müəssisələr yalnız nəqliyyat sahəsində özəlləşdirilirdisə, 1998-ci ildə bu proses iqtisadiyyatın demək olar ki, bütün sahələrini əhatə etmişdir.

2000-ci ildə «Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı» (əlavə və dəyişikliklər 23. 10. 2003-cü il) mövcud qanunvericiliyə və son illər ölkədə həyata keçirilmiş özəlləşdirmə təcrübəsi nəzərə alınaraq hazırlanmış və yeni müddəalar ilə zənginləşdirilmişdir. Belə ki, Proqramın məqsədlərinə iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi və rəqabət mühitinin formalaşdırılması əsasında milli iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsi, iqtisadiyyata investisiyalar, o cümlədən xarici investisiyalar cəlb etmək yolu ilə onun inkişafına nail olunması, bazar münasibətlərinin iqtisadi əsası kimi özəl mülkiyyətçilər təbəqəsinin genişləndirilməsi və s. kimi mühüm müddəalar daxil edilmişdir. Proqramda dövlət əmlakının özəlləşdirilməsi üsulları yenidən nəzərdən keçirilmiş və genişləndirilmişdir. Keçmişdən fərqli olaraq bundan sonra müəssisələrin fərdi layihələr əsasında özəlləşdirilməsi, əmlakın hərraclar vasitəsilə satışı və müəssisələrin müflis elan olunması yolu ilə satışı üsullarından da istifadə edilməsi zəruri hesab edilir. Əhalinin sosial müdafiəsini təmin etmək məqsədilə özəlləşdirilən müəssisələrdə sosial ödəmələr üzrə işçilərə yaranmış borcların sahibkar tərəfindən ödənilməsi nəzərdə tutulmuşdur. Dövlət əmlakının bir hissəsinin əmək kollektivi üzvlərinə və ölkə vətəndaşlarına əvəzsiz olaraq verilməsi qaydası müəyyən edilmişdir. I Dövlət Proqramında əmlakın qiymətləndirmə mexanizmi təkmil deyildi. Belə ki, obyektlərin qiymətləri mövcud bazar konyukturundan fərqlənirdi. Ona görə də II Dövlət Proqramında hərracların keçirilməsi mexanizminin çevikliyinin artırılması üçün bu mexanizmdə müəyyən dəyişikliklər edilmişdir.

«Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı» (10. VIII. 2000-ci il) ilə özəlləşdirilən müəssisə və obyektlərin dairəsi genişləndirilmişdir. Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə strateji sahələrə aid olan bir sıra maşınqayırma, kimya, rabitə və balıqçılıq və digər müəssisə və obyektlər özəlləşdirməyə açıq elan edilmişdir.

Aqrar-sənaye kompleksinin inkişaf etdirilməsi məqsədilə həmin kompleksin emal, xidmət və təchizat bazasının özəlləşdirilməsi üçün tədbirlər görülmüşdür.

Özəlləşdirmədə xarici investorların iştirakı üçün normativ-hüquqi baza yaradılmışdır. Müəssisələrin bazasında səhmdar cəmiyyətlərin yaradılması, onların özəlləşdirilməsi və fəaliyyətinin tənzimlənməsi prosesi qanunvericiliyə uyğun olaraq Dövlət Əmlakının İdarə edilməsi üzrə Dövlət Komitəsi tərəfindən davam etdirilir.

1995-2005-ci illər ərzində özəlləşdirmə sahəsində iki Dövlət Proqramı və 50-dən çox qanun və digər hüquqi-normativ aktlar qəbul edilmişdir və həyata keçirilir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 29. VIII. 2006-cı ildə imzaladığı «Azərbaycan Respublikasının dövlət müəssisələrinin idarə edilməsi prosesinin təkmilləşdirilməsi» haqqında Fərmanı özəlləşdirmənin və özəlləşdirilən dövlət əmlakının idarə edilməsini daha da inkişaf etdirmişdir.

Özəlləşdirilən müəssiələrin sonrakı taleyinə cəmiyyət və dövlət laqeyid



deyildir. Çünki onlardan səmərəli istifadə olunması iqtisadiyyatın inkişafı üçün çox əhəmiyyətlidir. Azərbaycan Respublikası Prezidentinin 6 iyun 2007-ci ildə imzaladığı Fərmanla qəbul edilmiş tədbirlər paketi diqqəti xüsusilə cəlb edir. Paketə daxildir:

1. Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı;
2. özəlləşdirilən və idarəetməyə verilən müəssiələrdə investisiya qoyuluşları üzərində nəzarətin həyata keçirilməsi qaydaları;
3. dövlət müəssisələrinin özəlləşdirilmə qabağı sağlamlaşdırılması və restruktizasiyası qaydaları;
4. səhmdar cəmiyyətlərdə dövlətə məxsus səhmlərin idarə edilməyə verilməsi qaydaları;
5. özəlləşdirilən dövlət əmlakının qiymətləndirilməsi haqqında əsasnamə.

Proqram xarakterli həmin sənədlərin hər biri dövlət əmlakının idarə edilməsi və özəlləşdirmə haqqında qanunvericiliyin daha da təkmilləşdirilməsi və inkişaf etdirilməsi sahəsində müstəsna əhəmiyyətə malikdir.

1995-2005-ci illərdə Azərbaycanda cəmisi 43118 obyekt özəlləşdirilmişdir ki, onun təxminən yarısı (50, 7%-i) nəqliyyat müəssisələri, nəqliyyat vasitələri və ticarət, 23%-i məişət xidməti obyektlərindən ibarətdir. Özəlləşdirilən obyektlər arasında sənaye, kənd təsərrüfatı və tikinti obyektlərinin xüsusi çəkisi cəmisi 3, 4% təşkil edir. 1500-dən çox orta və iri müəssisə səhmdar cəmiyyətə çevrilmişdir. [73, cild 2, s. 719-721]

Son beş il ərzində azad sahibkarlığın və iqtisadiyyatın tarazlı və davamlı inkişafının sürətləndirilməsi, yeni iş yerlərinin açılması üzrə həyata keçirilən tədbirlər nəticəsində ölkədə xüsusi müəssisələrin sayı artmış və bu, dövlət registrində qeydə alınmış statistik vahidlərin 75, 6 faizini təşkil etmişdir.

Təhlil göstərir ki, ölkə üzrə statistik vahidlərin yalnız 15 faizini dövlət mülkiyyətində olan müəssisələr, 3,7 faizini bələdiyyələr və onların müəssisələri, 5,7 faizini isə xarici və birgə müəssisələr təşkil edir. Xüsusi mülkiyyətdə olan müəssisə və təşkilatların əsas hissəsi «Topdan və pərakəndə ticarət, avtomobillərin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmiri» (41,1 faiz), «Kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı» (14,8 faiz), «Digər kommunal, sosial və şəxsi xidmətlərin göstərilməsi» (10, 4 faiz), «Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və istehlakçılara xidmət göstərilməsi» (9, 2 faiz) və «Emal sənayesi» (8, 1 faiz) bölmələrinin payına düşür.

Qeydiyyatda olan müəssisə və təşkilatların 53, 1 faizi Bakıda, 13, 1 faizi Aran iqtisadi rayonunda yerləşir. 2007-ci ilin birinci yarısında Azərbaycanda 2683 yeni müəssisə yaradılmış və onların 32, 5 faizi «Topdan və pərakəndə ticarət, avtomobillərin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmiri», 14, 6 faizi «Tikinti», 14 faizi «Kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı» 7, 4 faizi isə «Emal sənayesi» bölmələrinin payına düşür.

Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsində özəlləşdirmə prosesinin daha da sürətləndirilməsi məqsədilə 2007-2010-cu illəri əhatə edən dövlət proqramının layihəsi də hazırlanıb. Sənəd təkcə özəlləşdirməni deyil, həm də investisiya qoyuluşlarına nəzarət mexanizminin təkmilləşdirilməsini, dövlət

əmlakından səmərəli istifadəni, özəlləşdirmədən sonra müəssisələrin idarə olunmasına nəzarəti əhatə edir. Hal-hazırda özəlləşdirmə üsulu olaraq investisiya müsabiqələri vasitəsilə özəlləşdirməyə daha çox üstünlük verilir. Belə ki, 2006-cı ildə 14 investisiya müsabiqəsi keçirilmiş və onlardan 12-si üzrə qalib şirkətlər müəyyənləşdirilərək onlarla qanunvericiliyə uyğun alqı-satqı müqavilələri imzalanmışdır. Həmin müqavilələrə görə müəssisələrə qoyulması nəzərdə tutulan investisiyaların həcmi 454 milyon ABŞ dolları olmuşdur ki, bu da 2006-cı ilədək keçirilmiş investisiya müsabiqələri nəticəsində müəssisələrə qoyulması nəzərdə tutulan investsiyaların ümumilikdə həcmindən 49 faiz çoxdur.

Onu da qeyd edək ki, strateji sahələrdə, o cümlədən maşınqayırma, neft-kimya, rabitə, metallurgiya sənayesində islahatların həyata keçirilməsi və dövlətsizləşdirmənin daha sürətlə aparılması məqsədilə son illər zəruri işlər görülmüşdür. İlk növbədə, özəlləşdirmək üçün açıq elan edilmiş müəssisə və təşkilatlarda dövlət əmlakının qorunub saxlanılması, onlardan səmərəli istifadə olunması, o cümlədən qeyri-qanuni istifadəyə və icarəyə verilməsi hallarının aradan qaldırılması istiqamətində işlər həyata keçirilmişdir. [Xalq qəzeti, 24. VIII. 2007]

Ümumilikdə 2007-ci il ərzində 30-dan çox normativ hüquqi xarakterli sənədlərin layihələri hazırlanmışdır.

"Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında " Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə bu sahədə normativ hüquqi bazanın təkmilləşdirilməsinin və müasir dövrə uyğunlaşdırılmasının əsası qoyulmuşdur. Həmin Fərmanla "Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı ", "Özəlləşdirilən və idarəetməyə verilən müəssisələrdə investisiya qoyuluşları üzərində nəzarətin həyata keçirilməsi Qaydaları", "Dövlət müəssisələrinin özəlləşdirilmə qabağı sağlamlaşdırılması və restrukturizasiyası Qaydaları" və "Özəlləşdirilən dövlət əmlakının qiymətləndirilməsi haqqında Əsasnamə " təsdiq edilmişdir.

"Kapital Bank" Açıq Səhmdar Cəmiyyətinin dövlətsizləşdirilməsi, "Sumqayıtelektrikşəbəkə" Açıq Səhmdar Cəmiyyətinin və "Şəki Regional Enerji Təchizat" Məhdud Məsuliyyətli Cəmiyyətinin idarəetməyə verilməsi, "Azərbaycan Resrublikasında dövriyyəyə buraxılmış dövlət özəlləşdirmə paylarından (çeklərindən) özəlləşdirilmə prosesində istifadənin təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamları imzalanmışdır.

Özəlləşdirilən kiçik müəssisələrin sayı aşağıdakı kimi olmuşdur: 2001-2474, 2002-3324, 2003-1677, 2004-1954 və 2005-ci ildə 2463 [DSK, 2006, s. 126], 2007-ci ildə isə 2148 kiçik müəssisə özəlləşdirilmişdir. Özəlləşdirmədən büdcəyə daxil olan vəsait illər üzrə aşağıdakı məbləğlərlə olmuşdur (min man. ): 1995-87, 5, 2000-7638, 2001-18724, 2002-20072, 2003-19317, 2004-31386, 2005-20005 və 2007-ci ildə 44531, 2 min AZN təşkil etmişdir.

Məlum olduğu kimi özəlləşdirmə məqsəd deyil, 70 il mövcud olmuş israfçı iqtisadi sistemi dəyişdirmək, mülkiyyətin müxtəlifliyini və sahibkarlığın inkişafını təmin etməklə səmərəli iqtisadi sistemə keçmək vasitəsidir.

Ümummilli lider Heydər Əliyev hələ 1999-cu ildə qətiyyətlə qeyd edirdi:



«Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji məqsədimizdir». 1994-cü ildə Bakıda «Sahibkarlıq strategiyası və iqtisadi yenidənqurma» adlı beynəlxalq konfransın keçirilməsi sahibkarlığın inkişafına böyük əhəmiyyət verildiyinin yalnız bir göstəricisi idi.

1995-2007-ci illər ərzində dövlət əmlakının özəlləşdirilməsi nəticəsində 120 mindən çox səhmdar meydana gəlmiş, kiçik dövlət müəssisə və obyektlərinin özəlləşdirilməsi yolu ilə 300 min nəfərdən çox insanı əhatə edən mülkiyyətçilər təbəqəsi formalaşmışdır. [73, cild II, s. 721]. Sahibkarlığın inkişafı sahəsində qəbul olunmuş Dövlət Proqramlarının bu sahənin inkişafında xüsusi rolu olmuş, kiçik və orta sahibkarlığın inkişafı üzrə dövlət tədbirlərini Azərbaycan dövlətinin iqtisadi siyasətinin prioritet istiqamətlərindən birinə çevirmişdir.

Bu Dövlət Proqramları çərçivəsində iqtisadiyyatın və sahibkarlığın tənzimlənməsi sahəsində mühüm tədbirlər həyata keçirilmiş, sahibkarlara dövlət maliyyə köməyi sistemi formalaşdırılmışdır. Sahibkarlıq infrastrukturunun formalaşdırılması istiqamətində əhəmiyyətli addımlar atılmış, sahibkarlara zəruri texniki yardım göstərən struktur formalaşmışdır. Sahibkarlar üçün vergi yükünün azaldılması istiqamətində müəyyən adımlar atılmışdır. Belə ki, mənfəət və əlavə dəyər vergisi dərəcələri, məcburi sığorta haqqı aşağı salınmış, kiçik sahibkarlıq subyektlərinin bir qisminə vahid vergi tətbiq edilməyə başlanmışdır.

Sonrakı illərdə iqtisadi və dövlət idarəetmə aparatında aparılan struktur islahatları ölkədə iqtisadiyyatın bütün sahələrinin, o cümlədən, sahibkarlıq sektorunun inkişafına güclü təkan vermişdir. Belə ki, 2001-ci ildə İqtisadi İnkişaf Nazirliyinin yaradılması sahibkarlığın inkişafına dövlət köməyi və onun dövlət tənzimlənməsi tədbirlərinin vahid qurumda birləşdirilməsinin və idarə edilməsinin əsasını qoymuşdur. Bu illər ərzində sahibkarlığın inkişafı üçün əlverişli mühitin yaradılması məqsədilə ölkədə biznes fəaliyyətinin hüquqi bazası dünya təcrübəsi əsasında təkmilləşdirilmişdir və təkmilləşdirilməkdə davam edir.

2002-ci ili sahibkarlığın inkişafında yeni mərhələnin başlanğıcı kimi dəyərləndirmək mümkündür.

Bu mərhələ Azərbaycan Respublikası Prezidenti cənab Heydər Əliyevin yerli və xarici iş adamları ilə aprel-may aylarında keçirilmiş görüşləri ilə başlamışdır. Ölkədə sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması məqsədilə avqust-sentyabr aylarında imzalanmış bir sıra mühüm Fərman və Sərəncamlar ölkədə sahibkarlığın inkişafında yeni mərhələnin əsasını qoymuşdur.

Belə ki, Azərbaycan Respublikasının Prezidentinin 17 avqust 2002-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)» bu istiqamətdə həyata keçirilməli olan dövlət tədbirləri sisteminin yaradılmasında mühüm rol oynayaraq ölkədə sahibkarlığın inkişafına təkan verməyə başlamışdır. Belə ki, kiçik və orta sahibkarlığın inkişafının əvvəlki Dövlət Proqramları ölkədə əsasən KOS sektorunun təşəkkülü ilə əlaqədar tədbirləri əhatə edirdisə, hazırkı Dövlət Proqramı artıq təşəkkül tapmış bu sektorda ölkə iqtisadiyyatının potensialının daha da səmərəli reallaşdırılması baxımından struktur dəyişikliklərinin həyata keçirilməsinə, bu bölmənin inkişafının çeşidli mexanizmlərinin yaradılmasına istiqamətlənmişdir.

Layiqli varislik özünü bu sahədə də aydın şəkildə büruzə verdi. Azərbaycan

Respublikasının Prezidenti cənab İlham Əliyevin 2003-cü ildən başlayaraq həyata keçirdiyi məqsədyönlü və genişmiqyaslı tədbirlər sistemi kiçik sahibkarlığın sürətli inkişafı sahəsində yeni imkanlar və perspektivlər yaratmışdır. Bu tədbirlər arasında 24 noyabr 2003-cü ildə qəbul edilmiş «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» və 11 fevral 2004-cü ildə imzalanmış «Azərbaycan Respublikası regionların sosial-iqtisadi inkişafı (2004-2008-ci illər)» Dövlət Proqramı müstəsna əhəmiyyətə malikdir. Cənab İlham Əliyevin sahibkarlarla tez-tez keçirdiyi görüşlər bu sahənin inkişafında çevik və realist dövlət siyasətinin formalaşmasının əsasını təşkil edir. O, xüsusi vurğulayır ki, «Sahibkarlığın inkişafı bizim siyasətimizin ən vacib istiqamətlərindən biridir». Son beş ildə Azərbaycanda sahibkarlıqla məşğul olanların sayı xeyli dərəcədə artmışdır.

İqtisadiyyatda liberallaşdırma tədbirləri davam etdirilir, sahibkarlara dövlət büdcəsindən güzəştli kreditlər verilir. Müasir standartlara cavab verən infrastrukturun yaradılması sahibkarlığın inkişafına ciddi təkan verəcəkdir.

*Cədvəl 4. 2*

**ÜDM-da qeyri-dövlət bölməsinin payı, faizlə***

| | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|---|---|
| ÜDM | 30, 3 | 70, 8 | 71, 8 | 73 | 73, 3 | 73, 5 | 76 | 81 |
| o cümlədən Sənaye | 5, 5 | 48, 4 | 51, 2 | 61 | 66, 7 | 68, 5 | 79, 1 | 87, 3 |
| Tikinti | 79 | 63, 5 | 60, 4 | 95, 8 | 97 | 97, 6 | 90, 2 | 69, 7 |
| Kənd təsərrüfatı | 61, 5 | 99 | 99 | 98 | 99, 3 | 98, 4 | 97, 7 | 98, 9 |
| Ticarət və restoranlar | 82, 4 | 98, 3 | 98, 4 | 98, 9 | 98, 5 | 97, 8 | 98, 3 | 98, 6 |
| Nəqliyyat | 4, 6 | 62, 6 | 63, 6 | 60, 3 | 36, 7 | 42, 1 | 42, 1 | 63, 5 |
| Rabitə | 10 | 57, 8 | 62, 8 | 71, 4 | 90, 9 | 81, 7 | 81, 5 | 74, 8 |
| Sosial və sair xidmətlər | 24, 1 | 78, 8 | 84, 2 | 59 | 52 | 47, 7 | 32, 7 | 32, 7 |

*[44, 2007, s. 365]

Cədvəl 4. 2 məlumatlarından göründüyü kimi görülən tədbirlər nəticəsində iqtisadiyyatda özəl bölmənin payı durmadan artır və 2005-ci ildə ÜDM-un 2/3 hissəsi qeyri-dövlət sektorunda yaradılmışdır. Həmin nisbət 2006-cı ildə artıq 81%, 2007-ci ildə isə 84% təşkil etmişdir.

Özəl bölmənin xüsusi çəkisi kənd təsərrüfatında, tikintidə, xidmət sahələrində xüsusilə yüksəkdir.

Sovet dövlətinin 70 il ərzində sıradan çıxardığı iqtisadi sistem Azərbaycanda müstəqillik illərində cəmi 15 il ərzində bərpa olundu. Sahibkarlığın cəmiyyətdə rolu xeyli möhkəmlənmişdir və bu təbəqənin ictimai həyatda aparıcı rolu hamı tərəfindən qəbul olunur. Bazar münasibətləri insanların öz uğurları, öz ziddiyyətləri və çətinlikləri ilə düşüncə tərzində də inqilabi dəyişikliklərə yol açmışdır.

Ölkəmizdə kiçik biznesin inkişafı cədvəl 4. 2 və 4. 3 məlumatlarından göründüyü kimi mürəkkəb bir şəraitdə yüksələn bir xətlə cərəyan edir. Müəssisələrin sayı qeyri-sabitlik göstərsə də, orada işləyənlərin sayı və məhsul buraxılışının



həcmi dinamik şəkildə artır.

*Cədvəl 4. 3*

**Azərbaycanda kiçik müəssisələrin inkişafının əsas göstəriciləri**

| İllər | Fəaliyyət göstərən müəssisələrin sayı, vahid | İşləyənlərin sayı, nəfər cəmi | Orta hesabla bir müəssisədə | Orta aylıq əmək haqqı, manat | Məhsulun (işlərin, xidmətləri) həcmi, *mln manat* |
|---|---|---|---|---|---|
| **1990** | 4611 | 92186 | 20 | 22, 4 | 0, 06 |
| **1995** | 7226 | 59406 | 8 | 7, 7 | 56, 9 |
| **1996** | 13229 | 86708 | 6 | 7, 5 | 126 |
| **1997** | 16027 | 94847 | 6 | 7, 2 | 194, 1 |
| **1998** | 16504 | 114893 | 7 | 10, 2 | 241, 1 |
| **1999** | 19063 | 83756 | 4 | 30, 1 | 278, 2 |
| **2000** | 24254 | 99778 | 4 | 33, 9 | 434, 4 |
| **2001** | 25121 | 118714 | 5 | 33, 6 | 433, 1 |
| **2002** | 24721 | 125804 | 5 | 52, 6 | 724 |
| **2003** | 21178 | 187521 | 9 | 56, 4 | 1083, 9 |
| **2004** | 19462 | 135831 | 7 | 73, 9 | 1420, 7 |
| **2005** | 14410 | 105663 | 7 | 51, 2 | 673, 2 |
| **2006** | 12232 | 90134 | 7 | 81, 7 | 719, 9 |

1990-1998-ci illərdə kooperativlər daxil olmaqla

Azərbaycanın Statistik Göstəriciləri, 2007, s. 112-113.

## 4. 3. Yeni cəmiyyət quruculuğunun möhkəm iqtisadi təməli - qlobal üfüqlərə doğru aparan magistral xətdir.

Köklü iqtisadi islahatlar yeni cəmiyyətin və dövlət quruculuğunun möhkəm zəminini təşkil edən iqtisadi bazisi formalaşdırmağa başladı. K. Marksın belə bir müddəası bu gün üçün də əhəmiyyətlidir: «Cəmiyyətin müəyyən ictimai şüuruna uyğun gələn hüquqi və siyasi üstqurumu cəmiyyətin iqtisadi strukturu real bazis üzərində yüksəlir». [268, Q. 1, s. 97]

«İnformasiya cəmiyyəti: iqtisadiyyat, cəmiyyət və mədəniyyət» adlı fundamental əsər yazmış amerikan sosioloqu Manuel Kastels də öz tədqiqatlarını həmin ideya əsasında aparır və göstərir: «Yeni dünya ikinci minilliyin sonunda formalaşır. O, 60-cı illərin sonu, 70-ci illərin əvvəllərində üç avtonom prosesin tarixi qovşağında yaranmışdır: 1. informasiya texnologiyasında inqilab; 2. kapitalizmin və etatizmin böhranı və onların sonrakı restruktizasiyası; 3. libertarianizm, insan hüquqları uğrunda mübarizə, feminizm, ətraf mühitin qorunması kimi

mədəni-sosial hərəkətlərin çiçəklənməsi. Həmin proseslər arasında qarşılıqlı təsir və onlardan doğan reaksiya yeni dominant sosial strukturu, şəbəkə cəmiyyətini, yeni qlobal / informasiya iqtisadiyyatını və yeni mədəniyyəti - real virtual mədəniyyəti yaratdı. Həmin iqtisadiyyatın, həmin cəmiyyətin və həmin mədəniyyətin əsasında duran məntiq, həmçinin qarşılıqlı əlaqədə olan ictimai hərəkətlərin və sosial institutların əsasını təşkil edir». [188, s. 492]

İnkişaf etmiş müasir iqtisadiyyat, modern iqtisadi bazis cəmiyyətin siyasi və sosial strukturunun da modernləşməsinin vacib şərtidir. Belə ki, Adam Przevorski demokratiyanın yaranmasını sosial-iqtisadi şəraitlə siyasi şəraitin kəsişmə nöqtəsində görür. M.Duverqer və S. P. Huntinqton kimi tanınmış politoloqlar demokratiyanı «varlı millətlərin siyasi sistemi» hesab edirlər. Huntinqtona görə, «yoxsulluq demokratiyanın ən əsas maneəsidir» və demokratiyanın gələcəyi iqtisadi inkişafın gələcəyindən asılıdır. İqtisadi inkişafın maneələri demokratiyanın yayılmasına mane olan amillərdir. Duverqer haqlı olaraq hesab edir ki, demokratiya hər kəs üçün, «xalqın hər qrupu üçün» müstəqillik deməkdir. «Bu da məlum bir yaşayış səviyyəsini, məlum baza təhsilini, məlum sosial bərabərliyi və məlum bir siyasi tarazlığı» tələb edir. [73, cild II, s. 583]

Beləliklə, Heydər Əliyevin radikal iqtisadi islahatlar strategiyası, İlham Əliyevin iqtisadi inkşafın diversifikasiyası əsasında sürətli iqtisadi yüksəliş strategiyası yeni cəmiyyət quruculuğunun fundamental əsasıdır. Yüksələn xətlə inkişaf edən iqtisadi bazis cəmiyyətin transformasiyasının əsasını təşkil etdi; ölkənin qlobal üfüqlərə doğru inamla addımlaması üçün əsaslı zəmin yaradır.

Bunlar aşağıdakılardan ibarətdir:

1. İqtisadı sabitlik təmin olunmuşdur.

2. Ölkənin təbii sərvətləri üzərində milli hegemonluq bərpa edilmiş və həyata keçirilən uğurlu neft strategiyası sayəsində zəngin neft ehtiyatları geniş miqyasda mənimsənilməyə və ölkənin ehtiyaclarının ödənilməsinə yönəldilməyə başlamışdır.

3. Köklü iqtisadi islahatlar nəticəsində bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan iqtisadi strukturun formalaşması istiqamətində ciddi addımlar atılmış, özəl bölmə cəmiyyətin inkişafının aparıcı qüvvəsinə çevrilmişdir.

4. Torpağın kəndlilərə təmənnasız verilməsi nəticəsində kəndlərdə yeni istehsal münasibətləri formalaşmağa başlamışdır.

5. Azərbaycan dövlətinin sosial yönümlülüyü ciddi şəkildə artmış, «qara qızılın, insan qızılına» çevrilməsi üçün genişmiqyaslı tədbirlər sistemi həyata keçirilməyə başlanmışdır.

6. Azərbaycan beynəlxalq münasibətlərin bərabərhüquqlu subyektinə çevrilmişdir.

Açıq qapı siyasətinin ardıcıl olaraq tətbiq olunması, xarici iqtisadi əlaqələrin genişləndirilməsi ölkənin beynəlxalq əmək bölgüsünün üstünlüklərindən səmərəli istifadə olunması üçün yeni imkanlar yaratmışdır.

Sürətli iqtisadi inkişafın əsas göstəriciləri: ÜDM-un dinamikası.

Ölkənin sosial-iqtisadi inkişaf səviyyəsinin müəyyən edilməsi üçün BMT göstəricilər kompleksi müəyyən etmişdir. Bu göstəricilərə aşağıdakılar daxildir: sənayeləşmə, şəhərləşmə, orta təbəqənin genişliyi, insan inkişaf indekslərinin



dinamikası, ÜDM, adambaşına ÜDM, yaşayışın keyfiyyəti, iqtisadiyyatda qeyri-mütənasiblik səviyyəsi, təhsil, səhiyyə, rabitə və nəqliyyatın vəziyyəti.

Bu göstəricilər arasında ÜDM və adambaşına milli gəlir göstəriciləri özünəməxsus yer tutur.

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan hökumətinin həyata keçirdiyi radikal iqtisadi islahatlar nəticəsində müstəqilliyin ilk illərində ölkədə dərinləşən dərin sosial-iqtisadi böhranın qarşısı tam alınmış və sabit inkişaf istiqamətində dönüş yaradılmışdır. 2003-cü ildən ölkə dinamik inkişaf mərhələsinə daxil olmuşdur.

*Cədvəl 4. 4*

**Ümumdaxili məhsul***

| İllər | Cəmi | | Adambaşına | |
|---|---|---|---|---|
| | mln. manat | mln. ABŞ dolları | manat | Dollar |
| **1990** | 1, 5 | 2443, 3 | 207, 8 | 346, 3 |
| **1991** | 2, 7 | 703, 1 | 373, 6 | 98, 3 |
| **1992** | 24, 1 | 1309, 8 | 3318, 6 | 180, 4 |
| **1993** | 157, 1 | 1326, 9 | 21302 | 179, 9 |
| **1994** | 1873, 4 | 1629, 3 | 250568 | 217, 9 |
| **1995** | 2133, 8 | 2415, 2 | 282, 1 | 319, 3 |
| **1996** | 2732, 6 | 3190, 8 | 357, 5 | 416, 1 |
| **1997** | 3158, 3 | 3960, 7 | 409, 2 | 513, 2 |
| **1998** | 3440, 6 | 4446, 4 | 441, 5 | 570, 6 |
| **1999** | 3775, 1 | 4583, 7 | 480, 1 | 582, 9 |
| **2000** | 4718, 1 | 5272, 8 | 595, 1 | 665, 1 |
| **2001** | 5315, 6 | 5707, 7 | 665, 2 | 714, 3 |
| **2002** | 6062, 5 | 6235, 9 | 752, 9 | 774, 4 |
| **2003** | 7146, 5 | 7276 | 880, 8 | 896, 8 |
| **2004** | 8530, 2 | 8680, 4 | 1042 | 1060, 3 |
| **2005** | 12522, 5 | 13238, 7 | 1513, 9 | 1600, 4 |
| **2006** | 17735, 8 | 19852 | 2120, 3 | 2373, 3 |
| **2007** | 25228, 1 | 29399, 9 | 2980 | 3473, 9 |

*[44, 2006, s. 365; 41, 43 2008, s. 60]

1991-1995-ci illər ərzində istehsal olunmuş ÜDM hər il 13-20% azalırdısa, bu azalma 1995-ci ildə dayandırılmış və 1996-cı ildə onun fiziki həcm indeksi əvvəlki ilə nisbətən 13% artmış və cədvəl № 3. 3. 1 məlumatlarından göründüyü kimi sonrakı illərdə bu artım davam etmiş və ilbəil sürətlənmişdir. Belə ki, 1997-ci ildə ÜDM-un artım sürəti 5, 8%, 1998-ci ildə 10%, 1999-cu ildə 7, 4%, 2000-ci ildə isə müstəqillikdən sonrakı illərdə rekord səviyyəsinə çataraq 11, 2% təşkil etmişdir.

Son dörd ildə (2004-2007-cı illər) Azərbaycan iqtisadi inkişaf sürətinə görə regionda və dünyada lider dövlətə çevrilmişdir. Belə ki, 2004-cü ildə ÜDM-un artım sürəti 10, 2, 2005-ci ildə 26, 4, 2006-cı ildə 34, 5%, 2007-ci ildə isə 25% təşkil etmişdir.

Müqayisə üçün ölkə qrupları üzrə ÜDM-un orta illik artım sürətini nəzərdən keçirmək məqsədəuyğundur. [73, cild II, Fikret Elma, s. 586]

**Ümumdaxili məhsulun orta illik artım sürəti (%-lə)**

| № | | 1991-1995 | 1996-1999 | 2000-2005 |
|---|---|---|---|---|
| 1. | AB-nin yeni üzvləri | -5 | 4 | 5 |
| 2. | Baltikyanı ölkələr (Estoniya, Latviya, Litva) | -10 | 4 | 7 |
| 3. | Mərkəzi Avropa (Çextya, Macarıstan, Polşa, Slovakiya, Sloveniya) | 0 | 4 | 4 |
| 4. | AB-nə namizəd ölkələr (Bolqarıstan, Xorvatiya, Rumıniya, Türkiyə) | -1 | -1 | 4 |
| 5. | Balkan ölkələri (Albaniya, Bosnya-Herseqovina Makedoniya, Serbiya və Qaradağ) | -5 | 2 | 4 |
| 6. | MDB dövlətləri | -11 | 2 | 8 |
| 7. | Rusiya Federasiyası | -9 | -1 | 7 |
| 8. | Belarus, Moldova, Ukrayna | -12 | -1 | 7 |
| 9. | Orta Asiya ölkələri | -9 | 2 | 7 |
| 10. | Cənubi Qafqaz ölkələri | -14 | 6 | 9 |
| | o cümlədən Azərbaycan | -16 | 6 | 13 |

90-cı illərin ikinci yarısında radikal iqtisadi islahatların start götürməsi və uğurla davam etdirilməsi, dövlət əmlakının özəlləşdirilməsi prosesi, vergi və bank sistemində islahatların aparılması, xarici investisiyaların təşviq edilməsi, sahibkarlıq fəaliyyəti üçün işgüzar mühitin yaxşılaşdırılması və bu kimi digər tədbirlər sisteminin həyata keçirilməsi ölkə iqtisadiyyatında başlanan dirçəliş milli iqtisadiyyatın bütün sahələrində özünü büruzə vermişdir.

Ölkə iqtisadiyyatının əsasını təşkil edən sənaye ən iri və aparıcı sahədir. Həmin sahənin ümumi məhsulu 1995-2000-ci illər ərzində daha 4 dəfə artmışdır. 2007-cı ildə isə 2003-cü ilə nisbətən daha 4 dəfə artmışdır. İqtisadiyyata kapital qoyuluşları 1995-2000-ci illərdə 4, 2 dəfə, 2000-2006-cı illərdə isə 70 dəfə artmış və 967, 8 mln. dollardan 6837, 9 mln. manata çatmışdır. Bazar münasibətlərinin mürəkkəb və ziddiyyətli keçdiyi kənd təsərrüfatında istehsal olunan məhsulların həcmi, 2000-2007-cı illərdə isə 2, 1 dəfə artmışdır. Nəqliyyatda yük dövriyyəsi müvafiq dövrdə 2 və 4, 9 dəfə çoxalmışdır.

Müstəqil Dövlətlər Birliyi Statistika Komitəsinin məlumatına görə, 2006-cı ildə ümumi daxili məhsulun bu ölkələrdəki artımı 7% olub ki, bu da keçən illə müqayisədə təqribən 2 dəfə çoxdur. 2006-cı ildə ÜDM artımı Azərbaycanda 34 faiz, Ermənistanda 14, 8 faiz, Qazaxıstanda isə 10, 4 faiz olub. Rusiya 7, 2 faiz göstərici ilə birlik ölkələr arasında 7-ci yeri tutur. Beləliklə, qurum Azərbaycanın liderliyini bir daha təsdiqləyir.

Bu artım, ilk növbədə, neft amili ilə bağlı olmaqla yanaşı, iqtisadiyyatın bütün sahələrində məhsul və xidmətlərin buraxılışının artmasının və istehsal xərclərinin azaldılması və müvafiq olaraq sahələr üzrə yeni yaranan dəyərin xüsusi çəkisinin artması ilə bağlıdır. Bu isə iqtisadi səmərəliliyin yüksəldilməsinin mühüm



göstəricisidir. Belə ki, 1995-1999-cu illərdə iqtisadiyyatın bütün sahələrində yaranmış əlavə dəyərin ümumi buraxılışda xüsusi çəkisi 47-52% təşkil edirdisə, son beş il ərzində onun xüsusi çəkisi 56, 4-57, 8% arasında dəyişib. [44, 2007, s. 361]. Sənayedə yaranmış əlavə dəyərin ÜDM-də xüsusi çəkisi 2000-ci ilə nisbətən 11, 5% artaraq 2005-ci ildə 47, 5% təşkil etmişdir. Həmin dövrdə kənd təsərrüfatında yaranmış əlavə dəyərin ÜDM-dəki payı 6, 7% azalmış, tikintidə isə 3, 5% artmışdır.

Sənayedə qeyri-neft sektorunun hesabına yaranmış əlavə dəyərin payı 79,1%-ə, kənd təsərrüfatında 97, 7%-ə, ticarət və restoranlarda 98, 3%-ə, tikintidə isə 90, 2%-ə çatmışdır.

Xarici ticarət dövriyyəsi 1995-ci ildə 1304, 4 mln. dollardan 2000-ci ildə 2917, 3 mln. dollara yüksələrək 2, 2 dəfə artmışdır. 2000-2007-cı illərdə isə 2917,3 mln. dollardan 11766, 9 mln. dollara yüksəlmiş və təxminən 4 dəfə artmışdır.

İqtisadi inkişafın ən mühüm göstəricisi adambaşına məhsul istehsalıdır.

Azərbaycanda adambaşına məhsul istehsalı SSRİ-nin mövcud olduğu 70 il ərzində cəmisi 340 dollar (1990-cı il) səviyyəsini keçməmişdirsə, müstəqillik illərində - 15 il ərzində - 3473,9 dollara yüksəlmişdir. Həmin göstərici 1995-2007-cı illər ərzində 10, 2 dəfə artmışdır. Yalnız son beş il ərzində (2003-2007-cı illər) adambaşına ÜDM istehsalı 3, 9 dəfə artmışdır. Dünya ölkələrinin təcrübəsində ÜDM-un iki dəfə artımı üçün on illik tələb olunduğu nəzərə alınarsa, Azərbaycanda bu sahədə əldə olunmuş nailiyyət olduqca yüksəkdir. Beynəlxalq təşkilatlar adambaşına milli gəlir istehsalına görə Azərbaycanı artıq orta səviyyəli inkişaf etmiş dövlətlər qrupuna aid edir. Əgər cəmisi 10 il əvvəl, 1997-ci ildə, Dünya Bankı özünün illik hesabatında ölkəmizi adambaşına milli gəlir istehsalına görə 480 dollar (1995-ci il) ilə dünyanın ən az gəlirli ölkələri (Mozambik, Efiopiya, Tanzaniya, Mavritaniya və b.) sırasına daxil etdiyi nəzərə alınarsa, bu, tarixi əhəmiyyətli bir hadisədir. Birləşmiş Millətlər Təşkilatının «İnsan inkişafı haqqında hesabatında (2006-cı il)» Azərbaycan bir çox digər göstəricilər üzrə də orta səviyyəli inkişaf etmiş ölkələr qrupuna daxil edilmişdir. Bu göstəricilərdən ən mühümü «İnsan İnkişafı İndeksi» (İİİ) üzrə ölkəmiz 0, 736 bənd ilə 177 ölkə arasında 99-cu sırada dayanmışdır. «Doğulanların gözlənilən yaşayış müddəti» göstəricisinə görə 111-ci yerdə, oxumaq-yazmaq səviyyəsinə görə 14-cü yerdə dayanmışdır. Adambaşına ÜDM istehsalına görə isə 108-ci yerdədir. [73, cild II, s. 587].

Bunlara baxmayaraq, Azərbaycan bir çox digər göstəricilər baxımından Rusiya da daxil olmaqla digər postsovet respublikaları kimi «keçid» iqtisadiyyatı ölkəsi kimi qalmaqda davam edir. Ona görə də ölkədə 90-cı illərin əvvəllərindən yığılıb qalmış ağır mirasın - deformasiya olunmuş iqtisadi strukturun, mütənasibliyin təmin olunması, yoxsulluğun, işsizliyin azaldılması, yaşayış keyfiyyətinin yüksəldilməsi, insan amilinin inkişafının dünya standartları səviyyəsinə yaxınlaşdırılması üçün dərin transformasiya prosesinin daha da dərinləşdirilməsi günün vacib məsələlərindəndir. BMT-nin yuxarıda adı çəkilən hesabatında da «Azərbaycan iqtisadiyyatının hələ keçid mərhələsində və dövlət nəzarəti altında olduğu» göstərilir. İşləyənlərin 32, 2%-nin dövlət işçisi olması faktı burada əsas meyar hesab edilir. Lakin milli gəlirin 84%-nin özəl bölmədə istehsal

olunduğu nəzərə alınarsa, ölkəmizdə bazar mexanizminin rolunun daha yüksək olduğu məlum olar.

Keçid iqtisadiyyatı ölkələrində iqtisadi azadlıq göstəricisi bazar iqtisadiyyatı mexanizminin işləməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi bazar iqtisadiyyatında iqtisadi azadlıq anlayışı fərdlərin iqtisadi fəaliyyətdə sərbəst məşğul olması və bu fəaliyyət nəticəsində əldə etdikləri gəlirləri kənardan heç bir müdaxilə olmadan azad sürətdə istifadə etmələrini ifadə edir. Təşəbbüskarlıq, mübadilə, sövdələşmə, mülkiyyət, seçim və beynəlxalq ticarətdə sərbəstlik iqtisadi azadlığın mühüm elementləridir. Təbiidir ki, iqtisadi azadlıq səviyyəsi müxtəlif ölkələrdə müxtəlif dərəcədədir. Ona görə də iqtisadi azadlıq dərəcəsini müəyyən etmək üçün beynəlxalq təşkilatlar İqtisadi Azadlıq İndeksi (İAİ) hazırlayırlar. Bu indeksi iki beynəlxalq qurum hazırlayır: Kanadada yerləşən Frazer İnstitutu və Vaşinqtonda yerləşən Heritage Fondu. İndeks 20 müxtəlif meyarlar əsasında hazırlanır. Məqsəd həmin meyarlar əsasında «azad iqtisadiyyat» və «azad cəmiyyət» anlayışlarını mümkün qədər geniş yaymaq və ölkələrin bu sahədə tədbir görmələrini tövsiyə etməkdir. Təşkilatların nəzərə aldıqları meyarlar arasında «dövlətin rolunun böyüklüyü», «hüquqi struktur və mülkiyyət hüququ», «sağlam valyuta», «ticarət sərbəstliyi», «iş dünyası, işçi qüvvəsi və maliyyə bazarları sahəsində tənzimləmələr» kimi göstəricilər daxildir. [73, cilt II, s. 590-591].

Azərbaycanda iqtisadi azadlığın vəziyyəti Vaşinqtonda Heritage Fondunun hazırladığı və The Wall Street jurnalında dərc olunmuş İqtisadi Azadlıq İndeksi haqqında hesabatda öz əksini tapmışdır. Hesabatda [73, cild II, s. 595-597] Azərbaycanın siyasi müstəqillik əldə etdikdən sonrakı dövrə iqtisadi azadlıqlar baxımından son məlumatlar işığında nəzər salınır. Müəyyən edilmişdir ki, Azərbaycan iqtisadi azadlıq baxımından 157 ölkə arasında 107-ci yerdə dayanmışdır. Asiya-Sakit Okean regionunda yerləşən 30 ölkə arasında Azərbaycan 30-cu yerdədir və regionda orta göstəricidən az da olsa yüksək mövqe tutur. Verilmiş qrafikdə ölkəmizdə İAİ 1996-2007-ci illərdə yüksələn xətlə artır. Hesabatda göstərilir ki, Azərbaycanda özəlləşdirmənin yüksək sürətlə getməsi dövlət məsrəflərini azaltmışdır. Ticarət azadlığı (67, 6%), maliyyə azadlığı (87, 2%), dövlət müdaxilələrinin azlığı (86, 6%), işçi qüvvəsi sahəsində azadlıqlar (65, 4%) baxımından ölkəmiz dünyada mövcud olan orta göstəricidən xeyli yuxarıdır.

Azərbaycanda 1998-2007-ci illər ərzində İAİ 27%-dən 54%-ə qədər yüksələrək cəmi on ildə 2 dəfə artmış və dünyada orta səviyyəyə çatmışdır. Digər tərəfdən isə göstərilir ki, keçid iqtisadiyyatı şəraitində mövcud olan Azərbaycan iqtisadiyyatı hələ öz həllini gözləyən bir sıra problemlərlə üz-üzədir. (investisiya 30%, korrupsiya 22%).

Yuxarıda verilən indeksləri təhlil edən Türk iqtisadçıları Mustafa Acar və Bahadır Akın belə bir nəticəyə gəlirlər: «Bazar iqtisadiyyatı uzun müddət mövcud olmadıqdan sonra bazar iqtisadiyyatına keçmək asan bir iş deyildir. Əgər nəzərə alınsa ki, dünyada analoqu olmayan bu prosesdə əhəmiyyətli irəliləyişə nail olmayan ölkələr kifayət qədər çoxdur, o zaman Azərbaycanın əldə etdiyi nailiyyətləri tam əminliklə ümidverici hesab etmək olar». [73, cilt II, s. 597].



## 4. 4. Məqsədyönlü dövlət tənzimləmələri - İlham Əliyevin strayeji kursunun əsasıdır.

*Biz Azərbaycanı güclü dövlətə çevirməliyik. Bu vəzifə bir müddət əvvəl qarşıya qoyulmuşdur və biz bu məqsədə doğru irəliləyirik. Azərbaycanda aparılan iqtisadi islahatlar öz səmərəsini verməkdədir. Biz son dörd il ərzində iqtisadi inkişaf baxımından dünyada ən sürətlə inkişaf edən ölkəyik.*

**İlham ƏLIYEV**
*Azərbaycan Respublikasının Prezidenti*

**Konseptual baxış.** Azərbaycan müstəqillik əldə etdikdən və bazar iqtisadiyyatının əsasları qoyulmağa başladıqdan sonra bütün postsovet ölkələrində, o cümlədən, Azərbaycanda dövlətin iqtisadi həyatda rolu məsələsinə münasibət kəskin sürətdə dəyişdi.

İctimai həyatda istehsal vasitələri üzərində dövlət mülkiyyətinin və dövlətin hegemon olduğu Sovet dövləti iflasa uğradıqdan sonra dövlətin iqtisadiyyatda tənzimləyici funksiyasının maksimum dərəcədə azaldılmasını ölkənin yeganə xilas yolu hesab edənlər, hakimiyyətin yüksək eşalonlarında təmsil olundular. Bazar iqtisadiyyatı - liberallaşma - dövlətin tənzimləyici rolu kimi bir-biri ilə əlaqədar olan məfhumlar arasında nisbət sonuncunun əleyhinə kəskin sürətdə dəyişdi.

Bütün bu ölkələrdə dövlətin totalitar rolu haqqında (Baltikyanı respublikalarından başqa) bir ifratçılıq başqa ifratçılıqla əvəz olundu, yəni dövlətin iqtisadi funksiyası minimuma endirildi.

Hadisələrin sonrakı gedişi göstərdi ki, hər iki ifrat nöqteyi-nəzər olduqca ziyanlıdır. Çünki yaxşı məlumdur ki, bazar iqtisadiyyatı şəraitində dövlət müdaxiləsi olmadan və ya bu müdaxilə minimuma endirildikdə iqtisadiyyat səmərəli şəkildə fəaliyyət göstərə bilməz, xaos yaranar və aradan qaldırılması çətin olan ziyanlı nəticələr törəyə bilər.

Dövlətin özünün müstəqil mövcud olması və daha da möhkəmlənməsi üçün də məqsədyönlü iqtisadi sistemin yaradılması vacib şərtdir. Dövlətin sistem yaradıcı fəaliyyəti iqtisadi infrastrukturun səmərəliliyi və həyata dözümlülüyünün həlledici amilidir.

İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi və bazar iqtisadiyyatı bəzilərinin başa düşdükləri kimi bir-birinə zidd məfhumlar deyil, əksinə bir-birini tamamlayır. Reallıqlar göstərir ki, dövlət müdaxiləsindən azad, heç bir məhdudiyyət qoyulmayan bazar iqtisadiyyatı yalnız nəzəriyyələrdə mövcud ola bilər və belə bir «xalis» model dünyanın heç bir yerində sınaqdan keçirilməmişdir. Çünki bazar müəyyən avtomatik tənzimləmə mexanizminə malik olsa da, çoxsaylı gözlənilməz və ciddi problemlər yaradır. Bunlar dövlət tərəfindən ağılla tənzimlənməsə, ölkədə mövcud olan sosial tarazlıq və nizamın əsaslarını sarsıda bilər. Çünki bazar öz-özünə dayanıqlı iqtisadi infrastruktur sistemini yaradıb inkişaf etdirə bilməz.

Tarixi təkamül prosesi göstərir ki, inkişaf etmiş sənaye ölkələrinin bəşəri

inkişafda aparıcı mövqe qazanmalarında dövlət həlledici rol oynamış və oynamaqda davam edir. Bu ölkələrin, demək olar ki, hamısında XX əsr ərzində dövlətin həyata keçirdiyi genişmiqyaslı tənzimləmə tədbirləri və sosial proqramlarının başlıca məqsədi sərt qanunlara əsasən fəaliyyət göstərən bazar mexanizminin mənfi nəticələrinin aradan qaldırılması, ona sosial yönümlülük verilməsi, potensial sosial konfliktlərin azaldılması, bəzi inhisarçı qruplaşmaların dağıdıcı fəaliyyətinin qarşısının alınmasıdır.

90-cı illərin birinci yarısında Azərbaycanda özünü göstərən sosial-iqtisadi fəlakətlərin başlıca səbəblərindən biri yeni və səmərəli dövlət mexanizmi yaradılmadan köhnələrinin ləğv edilməsi və dövlət maşınının zəifləməsi, keçmişdə ictimai həyatda aparıcı mövqe tutan dövlət müəssisələrinin iflic vəziyyətinə düşməsi, iqtisadi fəaliyyətin normativ-hüquqi bazasının olmaması, hakimiyyət mexanizminin zəifliyi təşkil etmişdir. Dövlətin zəifliyi isə iqtisadiyyatın kriminallaşmasına aparan yoldur.

Biz qloballaşan bir dünyada yaşayırıq. Getdikcə dərinləşməkdə olan və bütün dünya dövlətlərini öz təbii axarına cəlb edən genişmiqyaslı qloballaşma prosesləri onun, istər ümumdünya miqyasda, istərsə də milli səviyyədə idarə olunmasını tələb edir. Bu proseslər milli dövlətlər qarşısında keyfiyyətcə yeni tələblər qoyur. Zaman tələb edir ki, onlar adət etdiyimiz makro və mikroiqtisadi tənzimləmələrlə yanaşı - beynəlxalq əmtəə, xidmət, kapital və işçi qüvvəsi axınlarına müdaxilə etmək, proqnozlaşdırmaq və iqtiqamətləndirmək kimi çox mühüm funksiyaları da yerinə yetirsinlər. Ənənəvi dövlətlər qloballaşma şəraitində iki cəbhəyə qarşı mübarizə aparmağa məcburdurlar: 1) Ölkənin daxili problemlərinə qarşı; 2) Nəzarətdən çıxma təhlükəsi doğuran transmilli qüvvələrə qarşı.

Müasir iqtisadiyyatda dövlətin tənzimləyici rolu olduqca artmışdır. Tənzimləmə tədbirləri bazarın mənfi nəticələrinin aradan qaldırılması, ətraf mühitin qorunması, maliyyə sektoru və inhisarların fəaliyyətini əhatə edir. Dövlətin rolu ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılmasında, elmi-texniki tərəqqinin stimullaşdırılmasında, infrastrukturun yaradılmasında, informasiyanın toplanması və işlənməsində, milli sahibkarlar üçün əlverişli işgüzar və vergi mühitinin yaradılmasında, xarici kapital və işçi qüvvəsinin axınının tənzimlənməsində olduqca artmışdır.

Qlobal maliyyə-iqtisadi mühitinə inteqrasiya etməyə başlayan gənc dövlətlərin modernləşməsi, onların lider dövlətlərə yaxınlaşma arzuları hər şeydən əvvəl dövlətin özünün modernləşməsini, onun funksiyalarının yenidən qurulmasını və təkmilləşdirilməsini, idarəetmə strukturunun rasionallaşdırılmasını və həlledici qərarların qəbul edilmə mexanizmi də daxil olmaqla idarəçilik alətlərinin yenilənməsini tələb edir. İslahatlar aparılaraq dövlət quruluşunun qloballaşmanın tələblərinə uyğunlaşmasının gecikdirilməsi ciddi maddi, intellektual və mənəvi-psixoloji itkilərə yol aça, iqtisadiyyatın staqnasiya vəziyyətinə düşməsinə səbəb ola bilər. İqtisadiyyatı idarəetmə mexanizmində bu gün səmərəli olan alət, sabah başqa rolda ola bilər. Ona görə də cari vəzifələr həll edilərkən qlobal proseslər nəzərə alınmaqla sabahkı problemlər haqqında düşünmək lazımdır. Bu isə uzun müddətli inkişaf strategiyasını tələb edir.

Keçid iqtisadiyyatı ölkələrinin sosial-iqtisadi modernləşməsinin əsasını



liberallaşma ideyası təşkil edir. Bunu kütlələrin yaradıcılıq enerjisinin səfərbər olunmasına yönəlmiş ictimai tərəqqinin məntiqi tələb edir. Lakin sovet inzibati-amillik sisteminin süqutundan sonra planlaşdırmadan imtina edilməsi iqtisadiyyatın səmərəli idarə olunması məntiqinə uyğun deyildir. Bu zaman qarşıya qoyulan konkret məqsədlərə doğru dövlətin irəliləməsini SSRİ dövründə mövcud olan bürokratik - israfçı təsərrüfatçılıqdan fərqləndirmək lazımdır. Bu planlaşdırmanın əsasını inzibati-amirlik üsulları deyil, iqtisadi-maliyyə amilləri təşkil etməlidir. Ona görə də hesab edirik ki, ölkəmizdə yeni prinsiplər əsasında fəaliyyət göstərən Planlaşdırma və proqnozlaşdırma orqanının yaradılması vacibdir.

Son 20 ildə inkişaf etmiş sənaye ölkələri səviyyəsinə yüksəlmiş Şərqi və Cənub-şərqi Asiya ölkələrinin təcrübəsi göstərir ki, onlar bu müvəffəqiyyətə müasir iqtisadi mexanizmdən səmərəli istifadə etməklə nail olmuşlar. Onların yeritdikləri siyasət ümumi ibtidai təhsilin sürətli inkişafı, orta və ali məktəblərə yolların geniş açılması ilə yanaşı öz vəzifələrini aydın dərk edən, səriştəli və məsuliyyətli dövlət administrasiyası yaradılmasına yönəldilmişdir. Belə administrasiya savadlı makroiqtisadi tənzimləmə aparır, makroiqtisadi situasiyanı sabitləşdirir, mülkiyyətə sözsüz təminat verir, etibarlı və çevik bank sistemi yaradılmasına, investisiyaların artırılmasına xidmət edir. Həmin dövlətlərin xarici - iqtisadi fəaliyyətin tənzimlənməsi, maliyyə sisteminin inkişafı, idxalı əvəz edən və ixracyönlü sənayenin inkişafı sahəsində yeritdikləri siyasət iqtisadiyyatın modernləşdirilməsi və qabaqcıl dövlətlər səviyyəsinə yüksəldilməsində həlledici rol oynamışdır.

Aparıcı beynəlxalq təşkilatlar da gənc ölkələrdə dövlət quruculuğunun modernləşdirilməsi və iqtisadi siyasətin qloballaşmanın tələblərinə uyğun olaraq həyata keçirilməsi tövsiyələri ilə çıxış edirlər. Məsələn, Dünya Bankı 1996-cı ildə hazırlamış olduğu illik hesabatını planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid məsələlərinə həsr etmiş və bazarın fəaliyyətini təmin edən modern təsisatların yaradılmasına xüsusi diqqət vermişdir. Onun 1997-ci ildə hazırlamış olduğu illik hesabat isə «Dövlət dəyişən dünyada» adlandırılmışdır. Hesabatın əsas məzmununu səmərəli dövlətin yaradılması ideyası təşkil edir. 1999/2000-ci illərin yekununa həsr edilmiş hesabatda isə inkişaf problemləri ona qloballaşmanın təsiri nöqteyi-nəzərindən təhlil edilir və belə adlandırılmışdır: «Qlobal iqtisadiyyatın hamıya işləməsi üçün».

Azərbaycanda müstəqil dövlət quruculuğunun memarı olan Ümummilli lider Heydər Əliyev iqtisadiyyatda müasir tələblərə uyğun dövlət tənzimləmələri sisteminin də əsasını qoymuş, mürəkkəb bir şəraitdə inzibati-amirlik sistemindən bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan səmərəli dövlətçilik mexanizmini formalaşdırmışdır.

İqtisadiyyatın dövlət tənzimlənməsi sisteminin daha da təkmilləşdirilməsi və inkişaf etdirilməsi missiyası cənab İlham Əliyevin üzərinə düşür. O, prezident seçildikdən sonra Nazirlər Kabinetinin ilk iclasında proqram xarakterli çıxışında demişdir: «Azərbaycanda son illər ərzində aparılan iqtisadi siyasət çox uğurlu olubdur və Azərbaycanın gələcək inkişafı üçün də gözəl təməl yaranıbdır. Bizim hamımızın vəzifəsidir ki, bu siyasəti davam etdirək, əldə olunan bu uğurları artıraq və Azərbaycanın hərtərəfli inkişafı üçün böyük imkanlardan istifadə edərək,

qoyulmuş bu gözəl təməlin üzərində müasir Azərbaycan yaradaq».

Tarixi təcrübə göstərir ki, hökumət o zaman yaxşı nəticələr əldə edə bilər ki, öz qarşısına həyata keçirilməsi mümkün olan real vəzifələr qoymuş olsun.

Ölkə qarşısında duran problemlər kompleksindən ən vacibini seçmək və iqtisadi siyasəti həmin istiqamətə yönəltmək dövlət başçısından böyük ustalıq tələb edir. Bu barədə iqtisadi nəzəriyyədə hazır resept yoxdur. Dünya dövlətlərinin müsbət təcrübəsi də həmişə orientir rolunu oynaya bilməz. Hər ölkə inkişafın müxtəlif mərhələlərində dayanır və konkret dövrdə hər bir ölkə qarşısında fərqli prioritet vəzifələr dayanır. Ölkə qarşısında duran konkret vəzifələri seçmək və cəmiyyəti, dövlət orqanlarını, ictimai təşkilatları və vətəndaşları həmin vəzifələrin yerinə yetirilməsinə istiqamətləndirmək iqtisadi inkişafın açarıdır.

Bir sözlə, dövlətin əsas funksiyası cəmiyyət qarşısında duran təməl vəzifələrin müəyyən edilməsi və onların həyata keçirilməsi üçün qüvvələrin səfərbər edilməsidir. Bu baxımdan 24 noyabr 2003-cü il tarixli «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» Prezident Fərmanı xüsusi əhəmiyyət kəsb edir. Fərmanda mövcud imkanlardan daha səmərəli istifadə etməklə, Azərbaycanın iqtisadi cəhətdən güclü dövlətə çevrilməsi, onun dünya təsərrüfatı sisteminə inteqrasiyası və bu sistemdə özünə layiqli yer tutması, ölkədə sosial problemlərin həlli və əhalinin güzəranının daha da yaxşılaşdırılması ölkə qarşısında duran prioritet məqsəd kimi müəyyən edilmişdir. Bu mühüm tarixi sənəddə ölkə qarşısında duran həyati əhəmiyyətli problemlər kompleksi təsbit edildi və yerinə yetirilməsi dövlət orqanlarına bir vəzifə kimi tapşırıldı.

Bu problemlər arasında ölkədə işsizliyin azaldılması və əhalinin, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artırılmasına yönəldilmiş tədbirlər aparıcı mövqelərdən birini təşkil edir. Bu xətt prezident İlham Əliyevin seçkiqabağı və seçkidən sonrakı fəaliyyətinin əsas istiqamətini təşkil edir. İşsizlik bazar iqtisadiyyatı şəraitində, xüsusən keçid iqtisadiyyatı ölkələrində ciddi sosial və iqtisadi problemlərdən biridir. Real iqtisadi həyatda işsizlik ölkədə iş qüvvəsi təklifinin ona olan tələbdən çox olması nəticəsində meydana gəlir. Onun azaldılmasının başlıca yolu isə yeni iş yerləri açılmaqla məşğulluğun stimullaşdırılması sahəsində dövlət tənzimləmələrinin səmərəliliyi və əhatə dairəsinin artırılmasıdır. Məşğulluğun artırılması kimi ilk baxışda sadə görünən məsələnin həll edilməsinin əsasında iqtisadi inkişafın kəmiyyət və keyfiyyət göstəricilərinin ciddi sürətdə təkmilləşdirilməsi, dərin struktur islahatlarının aparılması dayanır. Həmin həyati əhəmiyyətli problemlərin həll edilməsi üçün yuxarıda adı çəkilən tarixi sənəd dövlət orqanlarının fəaliyyətinin təsdiq edilmiş strateji inkişaf proqramları əsasında tənzimlənməsini bir vəzifə kimi qarşıya qoymuş və bu iş müvəffəqiyyətlə həyata keçirilir.

Qeyri-neft sektorunun sürətli inkişafının təmin edilməsi sahəsində həyata keçirilən irimiqyaslı tədbirlər arasında regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı, aqrar bölmədə ciddi dönüş yaradılmasına və sahibkarlıq fəaliyyətinin canlandırılmasına yönəldilmiş iqtisadi siyasət müstəsna əhəmiyyətə malikdir.

11 fevral 2004-cü ildə imzalanmış Fərmanla Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı təsdiq



edilmişdir. Bu ideyanı cənab İlham Əliyev hələ 2003-cü ilin noyabrında Nazirlər Kabinetinin ilk iclasında belə əsaslandırmışdır: «Azərbaycanın hərtərəfli inkişafına nail olmaq üçün regional proqramlar həyata keçirilməlidir. Sizə bildirməliyəm ki, Azərbaycanın iqtisadi potensialının üçdə iki hissəsi Bakıda və Abşeron yarımadasında formalaşıbdır. Bu, onu göstərir ki, regionlarda iqtisadi inkişaf ləng gedir. Əlbəttə, bunun da obyektiv səbəbləri vardır. Amma bu istiqamətlərdə dönüş yaratmaq üçün regional proqramlara böyük diqqət göstərilməlidir».

Belə bir cəhəti xüsusi vurğulamaq lazımdır ki, qəbul olunmuş Dövlət Proqramları dinamik xarakter daşıyır və dəyişən zamanın tələblərinə uyğun olaraq getdikcə daha da təkmilləşdirilir. Belə ki, cənab İlham Əliyev demişdir: «Çünki 2004-cü ilin əvvəlində regionların sosial-iqtisadi inkişafı Dövlət proqramı qəbul edilərkən, əlbəttə ki, qarşıda duran bütün məsələləri o vaxt nəzərdə tutmaq qeyri-mümkün idi. Proqrama salmaq mümkün deyildi. Həyat inkişaf edir, davam edir və qarşıya çıxan yeni məsələlər sərəncamlarda öz əksini tapır. Beləliklə, biz regional inkişaf proqramına düzəlişlər edərək, onu daha da təkmilləşdiririk».

İnkişafın təmin edilməsi üçün ölkədə mövcud olan regional disbalansın aradan qaldırılmasına ölkə iqtisadiyyatının neft amilindən asılılığının azaldılmasına, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə yönəldilmişdir. Adı çəkilən əhatəli sənəddə bölgələrdə özəl mülkiyyətin və sahibkarlığın inkişafına xüsusi əhəmiyyət verilir.

Cənab İlham Əliyev xüsusi vurğulayır ki, «Sahikarlığın inkişafı bizim siyasətimizin ən vacib istiqamətlərindən biridir. Son iki il ərzində Azərbaycanda sahibkarlıqla məşğul olanların sayı xeyli dərəcə artıbdır. Onu təmin etmək üçün həm dövlətin qayğısı var, dəstək var, eyni zamanda əməli-praktik tədbirlər də var». İqtisadiyyatda liberallaşdırma tədbirləri davam etdirilir, sahibkarlara dövlət büdcəsindən güzəştli şərtlərlə kreditlər verilir». Müasir standartlara cavab verən infrastrukturun yaradılması sahibkarlığın inkişafına ciddi təkan verəcəkdir. Bununla yanaşı hesab edirik ki, müstəqil ekspertlər tərəfindən Azərbaycanda sahibkarlıq mühitinin monitorinqinin aparılması və onun daha da yaxşılaşdırılması üçün əlavə tədbirlər görülməsi məqsədəuyğundur.

Aqrar bölmənin inkişafının sürətləndirilməsi vəzifələri də Cənab İlham Əliyev tərəfindən dövlət strukturlarına bir vəzifə kimi tapşırılır. Torpaq özəl mülkiyyətə verilibdir. Bunun nəticəsində kənd təsərrüfatı istehsalında böyük uğurlar vardır. Bu ənənə davam etməlidir və kənd təsərrüfatında islahatların ikinci mərhələsi başlamalıdır. Dövlətin öhdəsinə nə düşürsə, biz bunu edəcəyik. Amma eyni zamanda, yerlərdə də bu məsələyə böyük diqqət göstərilməlidir. Hesab edirəm ki, aqrar sektorda texniki servis mərkəzləri yaradılmalıdır. Fermerlər texnika ilə daha böyük həcmdə təmin olunmalıdır. Toxumçuluq bazası inkişaf etməlidir və əlbəttə, emal sənayesi yaradılmalıdır. Bu istiqamətdə artıq çox uğurlu addımlar atılıbdır. Azərbaycanın müxtəlif bölgələrində yeni, müasir, dünya standartlarına cavab verən emal müəssələri yaranmaqdadır.

Bu həm işsizlik probleminin aradan qaldırılmasına kömək edir, həm də eyni zamanda, yerli istehsalın inkişafı üçün gözəl zəmin yaradır. Bizim də məqsədimiz budur ki, Azərbaycanda yerli istehsal inkişaf etsin, idxal azalsın və Azərbaycan öz daxili bazarını ölkəmizdə istehsal olunan məhsullarla təmin etsin. Hesab edirəm ki,

əgər kənd təsərrüfatında bu vaxta qədər görülən tədbirlər davam etdirilsə, biz buna da nail ola biləcəyik».

Kənd təsərrüfatının inkişaf etdirilməsi regional inkişaf proqramının əsasını təşkil edir. Çünki regionlarda əhalinin böyük əksəriyyəti kəndlərdə yaşayır, kənd təsərrüfatı ilə məşğul olurlar. «Aqrolizinq» səhmdar cəmiyyətinin yaradılması bu sahədə mühüm bir tədbirdir. Görülən tədbirlər nəticəsində fermerlər üçün ilkin şərait yaradılır, güzəştli kreditlər, texnika və gübrə verilir.

Nəticədə son iki ildə aqrar sektorda sürətli irəliləyiş müşahidə olunur. Dövlət büdcəsi vəsaiti hesabına texnika və gübrə alınaraq fermerlərə güzəştli şərtlərlə verilməsi nəticəsində kənd təsərrüfatı istehsalında artım özünü göstərmişdir. Aqrar bölmənin inkişafının mühüm nəticələrindən biri odur ki, ölkədə istehlak mallarının tərkibində yerli məhsulların xüsusi çəkisi hiss olunacaq şəkildə artmışdır. Bu, o deməkdir ki, yerli məhsullar daxili bazarda ucuz xarici mallarla rəqabətə dözür və bir çox hallarda qalib gəlir. Bəzi kənd təsərrüfatı məhsullarının ixracında müşahidə olunan artım məhz bunun nəticəsidir.

Bütün bunlar ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması üçün də olduqca əhəmiyyətlidir. Belə ki, daxili kənd təsərrüfatı ehtiyatlarının davamlı artırılması hər bir ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün mühüm rol oynayır. Daxili kənd təsərrüfatı istehsalının himayə edilərək qorunub saxlanılması və inkişaf etdirilməsi gözlənilməz hadisələr baş verərsə, əhalinin ərzaq çatışmazlığı hallarının baş verməsi barədə narahatlığını azaldır.

Həqiqətən, əhalinin ərzaqla və aqrar-sənaye kompleksinin xammal ilə təmin olunmasında müstəsna rol oynayan aqrar bölmə iqtisadiyyatın yenidən qurulması strategiyasında milli prioritet kimi cəmiyyət və dövlət tərəfindən ciddi diqqət ayrılmasını tələb edir. Qloballaşma və Azərbaycanda dönmədən açıq qapı siyasəti tətbiq edildiyi bir şəraitdə aqrar sənaye kompleksinin inkişafının sürətləndirilməsi və dünya bazarının şərtlərinə uyğunlaşdırılması aqrar biznesin xüsusiyyətləri və dünyada bu sahədə «yaşıl inqilab»ı yaradan amil və proseslər nəzərə alınmalıdır. Sənaye məhsulları ilə kənd təsərrüfatı məhsullarının qiymətləri arasında mövcud olan qeyri-mütənasibliyin azaldılması, aqrar bölmədə istehsalın maddi-texniki təchizatının daha da yaxşılaşdırılması, onun səmərəliliyinin artırılması, ödəmə qabiliyyətli istehlak tələbinin artırılması üçün daha təsirli tədbirlər görülməsi çox vacibdir.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının ikinci ilinə həsr olunmuş konfransda cənab İlham Əliyev demişdir: «Bütün bu planların təməlində bir məqsəd dayanır: ölkəmiz daha da möhkəmlənsin, daha da zənginləşsin, Azərbaycan hərtərəfli inkişaf etsin, Azərbaycan xalqı daha da yaxşı yaşasın, daha da yaxşı maaş alsın, pensiya alsın və Azərbaycan bölgədə öz mövqelərini daha da möhkəmləndirsin».

Dövlət başçısı əldə olunmuş nailiyyətlərlə kifayətlənməyərək qarşıya daha böyük vəzifələr qoymuşdur: «İndi əsas səylərimizi qarşıda duran vəzifələrin həllinə yönəltməliyik. Qeyd olunduğu kimi, bütövlükdə, Azərbaycanda iqtisadi inkişafla bağlı olan vəziyyət müsbətdir. Ancaq bu, o demək deyil ki, biz artıq arxayınlaşaq, yaxud da əldə edilmiş nailiyyətlərlə kifayətlənək. Biz gərək çox ciddi işləyək, öz fəaliyyətimizi daha da təkmilləşdirək».



Aparılan islahatlar iqtisadiyyatın idarə edilməsi sahəsində dövlətin inzibati müdaxiləsinin aradan qaldırılmasına, dövlətin iqtisadi amillərlə tənzimləyici funksiyasının genişlənməsinə, mülkiyyət üzərində inhisarçılığın və dövlətin təsərrüfatçılıq funksiyasının məhdudlaşdırılmasına, sahibkarlığın və azad iqtisadi-fəaliyyətin bərqərar olmasına və son nəticədə dövlətin iqtisadi qüdrətinin möhkəmləndirilməsinə və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəlmişdir. Bazar iqtisadiyyatı şəraitində dövlətin iqtisadi həyata müdaxiləsi iki formada həyata keçirilir: 1. Dovlətin bilavasitə sahibkar kimi çıxış etməsi, 2. İqtisadiyyatın dövlət tənzimlənməsi.

İqtisadi islahatlar nəticəsində iqtisadiyyatın dövlətsizləşdirilməsi sahəsində həyata keçirilən radikal tədbirlərə baxmayaraq hal-hazırda strateji sahələrdə dövlət müəssəsələri müəyyən dərəcədə qalmaqda davam edir. 2007-ci ilin məlumatlarına görə ölkədə qeydiyyatda olan hüquqi şəxslərin 15%-i dövlət mülkiyyətinə aiddir. Dövlət müəssələrindən və əmlakından səmərəli istifadə olunması, dövlət müəssisələrinin rentabelliyinin artırılması bazar iqtisadiyyatı şəraitində həmişə aktualdır.

Bu baxımdan, 6 iyun 2007-ci ildə İlham Əliyevin imzaladığı "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında "sərəncamda təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı" müstəsna əhəmiyyətə malikdir. Proqramda qeyd edilmişdir ki, yüksək iqtisadi artım şəraitində dövlət əmlakının idarə edilməsinə ehtiyac vardır. Mövcud dövlət əmlakının qorunub saxlanılması və mühafizəsi, ondan səmərəli istifadə edilməsinə mükəmməl nəzarətin təmin edilməsi; özəlləşdirilən dövlət müəssələrinə cəlb edilən investisiyaların həcminin artırılması vacibdir.

Sərəncamda dövlət əmlaklarının idarə edilməsinin təkmilləşdirilməsi üzrə geniş miqyaslı tədbirlər planı təsdiq edilmişdir. Planda aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Normativ hüquqi bazanın dövlət müəssisə və təşkilatları tərəfindən dövlət əmlakından səmərəli istifadə etməsinə nəzarətinin gücləndirilməsi; daşınmaz dövlət əmlakının icarəyə və istifadəyə verilmə mexanizminin təkmilləşdirilməsi; təsərrüfat obyektlərində dövlətə məxsus payların və səhm zərfinin idarə edilməsinin təkmilləşdirilməsi; dövlət müəssisələrində institusional dəyişikliklərin sürətləndirilməsi; müəssisələrin özəlləşdirilmədən sonrakı inkişafına nəzarət mexanizminin formalaşdırılması.

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanı ilə İqtisadi İnkişaf Nazirliyinin Antiinhisar siyasəti Departamentinin bazasında Antinhisar Dövlət xidməti yaradılmışdır. Ötən müddət ərzində Antiinhisar Dövlət xidməti tərəfindən rəqabətin qorunması və inkişaf etdirilməsi, rəqabətin məhdudlaşdırılmasının, hökmran mövqedən sui-istifadənin haqsız rəqabət hallarının qarşısının alınması və aradan qaldırılması və təbii inhisar subyektlərinin fəaliyyətinin tənzimlənməsi sahəsində davamlı və çoxşaxəli işlər görülmüşdür.

Ölkədə əlverişli investisiya mühitinin yaradılması və inflyasiya amilləri sahəsində mühüm yeri olan təbii inhisar subyektlərinin (elektik enerjisi, qaz, su, Dəmiryolu, hava və dəniz nəqliyyatı, rabitə və digərlərinin ) tariflərinin tənzimlən-

tədbirlər sistemini həyata keçirmək və əlverişli investisiya mühitini formalaşdırmaqdan ibarətdir.

Azərbaycan dövlətinin malik olduğu təbii sərvətlərə özünün sahib çıxması nəticəsində ölkəmizin maliyyə imkanlarının genişlənməsi, investisiya mühitinin daha da yaxşılaşması ilə bağlı görülən tədbirlər investisiya qoyuluşlarının durmadan artmasına yol açmışdır.

Məlum olduğu kimi, iqtisadiyyat istehsal fondlarından daha yaxşı istifadə olunması və yaxud da köhnə fondların daha məhsuldar olan yeniləri ilə əvəz olunması və onların miqdarının artırılması hesabına arta bilər. Mövcud olan köhnəlmiş əsas fondlar hesabına uzunmüddətli inkişaf əslində yoxdur. Çünki onların aktiv hissəsi - maşın və avadanlıqlar tez bir zamanda köhnəlir, rəqabət qabiliyyətini itirir və ona görə də orta hesabla hər 7-8 ildən bir təzələnməlidirlər. Beləliklə, iqtisadi inkişaf istehsalın yenilənməsi və genişlənməsinin vacib şərti olan əsas fondlara investisiya qoyuluşu dərəcəsindən asılıdır.

Azərbaycan Respublikası güclü təbii-iqtisadi potensiala malik olduğu üçün investisiya qoyuluşu baxımından cəlbedicidir. Eyni zamanda, sahibkarlıq üçün yaradılmış əlverişli siyasi, sosial-iqtisadi mühit və nisbətən ucuz kadr potensialı bu cəlbediciliyi daha da artırır.

Azərbaycanda yaradılan əlverişli investisiya mühiti yalnız daxili və xarici investisiyanın həcminin ilbəil artmasına deyil, həm də dünya iqtisadiyyatında tətbiq edilən yeni texnologiyalar, istehsal və idarəçilik metodlarının və s. ölkəmizə gətirilməsinə də yol açır.

1994-cü ildən etibarən respublikamızda investisiya qoyuluşunu təşviq edən əsas amillər aşağıdakılardır:

- siyasi-iqtisadi sabitliyin təmin olunması;
- əlverişli iqtisadi mühitin yaradılması;
- ölkənin beynəlxalq nüfuzunun artması (kredit reytinqinin yüksəlməsi, beynəlxalq maliyyə institutları ilə səmərəli əməkdaşlıq);
- özəlləşdirmənin ilkin mərhələsinin uğurları (özəlləşdirilən müəssisələrin iqtisadi göstəricilərinin keyfiyyətcə yaxşılaşması) və s.

Ölkədə aparılan investisiya siyasəti iqtisadiyyatın, o cümlədən, regionların inkişafında mühüm rol oynayır. Bu siyasət xarici və yerli sərmayələrin cəlb olunması üçün ən əlverişli hüquqi və təşkilati şərait yaradılmasını nəzərdə tutur.

Sahibkarlıq fəaliyyətinin kreditləşdirilməsində və əlverişli investisiya mühitinin yaradılmasında banklar və kredit təşkilatlarının da mühüm rolu vardır. Azərbaycanın bank sisteminin inkişaf strategiyasının əsasını sərbəst maliyyə ehtiyatlarının səfərbər edilməsi, onların investisiya şəklində real sektora transformasiyası və daha effektiv paylaşdırılması təşkil edir. Bu məqsədlə bank sisteminin keyfiyyətcə yeni inkişafı, müasir bank texnologiyalarının tətbiqi, təkmil və sabit qanunvericilik bazasının formalaşdırılması, ən başlıcası isə onların etibarlılığının yüksəldilməsi və risk dərəcəsinin aşağı salınması və s. istiqamətlərdə əhəmiyyətli tədbirlər görülmüşdür. Aşağıdakı cədvəldən göründüyü kimi, ölkəmizdə investisiya imkanları və qoyuluşları sürətlə artır.



*Cədvəl 4. 5*

**Müstəqillik illərində Azərbaycanda investisiya imkanlarının dinamikası.** [x] **(mln manat)**

| | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Əsas kapitala qoyulan investisiyalar | 228 | 1289. 9 | 1454. 5 | 2718. 0 | 4249. 2 | 5820. 4 | 6733. 4 | 6234. 5 | 7165. 8 |

x)(44, 2007, s. 36-37)

**Adambaşına düşən əsas kapitala yönəldilmiş investisiyaların həcmi və artım sürəti**

| | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Manat | 84. 3 | 122. 1 | 146. 5 | 261. 7 | 466. 6 | 601. 3 | 692. 5 | 745. 5 | 830. 8 |
| İndeks 1995=100 | 100 | 144 | 174 | 261 | 553 | 713 | 821 | 884 | 986 |

Göründüyü kimi adambaşına investisiya qoyuluşlarının həcmi 2000-2007-ci illər ərzində 7 dəfə artmışdır.

Azərbaycan iqtisadiyyatına yatırılan sərmayələrin həcminin sürətlə artması ölkəmizdə həm daxili, həm də xarici investisiya üçün yaradılan əlverişli mühitin məntiqi nəticəsidir. Xarici investisiyanın ölkəmizə cəlb olunması ümummilli lider Heydər Əliyevin apardığı uzaqgörən siyasət sayəsində mümkün olmuşdur. Heydər Əliyevin bu sahədə verdiyi tövsiyə və tapşırıqları əldə rəhbər tutaraq xarici investisiya haqqında təkmil qanunvericilik bazası yaradılmışdır. Bu sahədə qəbul edilən sənədlərdən «İnvestisiya fəaliyyəti haqqında» 1995-ci il 13 yanvar, «İnvestisiya müsabiqəsi haqqında» 1997-ci il 16 may, «İnvestisiya fondları haqqında» 1999-cu il 30 noyabr tarixli qanunları və s. qeyd etmək olar. Ölkəmizdə xarici investisiyaların cəlb olunması və qorunması istiqamətində atılan addımların bir qismi Azərbaycanla müxtəlif ölkələr arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlərin təsdiq edilməsi ilə bağlıdır. Belə sazişlər Azərbaycan Respublikası Hökuməti ilə Pakistan, Gürcüstan, Almaniya, Qazaxıstan, Ukrayna, Qırğızıstan, Polşa, İtaliya, Fransa, İran, Avstriya və s. inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında bağlanmışdır.

İnvestisiyaların sahə strukturunda da ciddi dəyişikliklər baş vermişdir. Neft sektoru ilə yanaşı ölkə daxilində qeyri-neft sektoruna yönəldilmiş investisiyalar iqtisadiyyatın inkişafına böyük təkan verir.

İqtisadiyyat sahələrinə yönəldilən investisiyalar 90-cı illərin əvvəllərinə nisbətən onilliyin sonlarına yaxın xeyli artmışdır. Cədvələ nəzər salsaq, görərik ki,

ən çox investisiya yönəldilmiş sahə sənayedir. Həmin sahəyə yönəldilmiş investisiyalar ümumi investisiya həcminin 70-80%-ni təşkil edir.

90-cı illərdə iqtisadiyyat sahələrinə yönəldilmiş investisiyaların xüsusi çəkisi aşağıdakı kimidir.

*Cədvəl 4. 6*

**İqtisadiyyat sahələrinə investisiya qoyuluşlarının xüsusi çəkisi (faizlə)**

| | 1990 | 1991 | 1992 | 1993 | 1994 | 1995 | 1996 | 1997 |
|---|---|---|---|---|---|---|---|---|
| İqtisadiyyat sahələri üzrə, cəmi | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| O cümlədən, sənaye | 37, 4 | 35, 7 | 36, 6 | 39, 4 | 79, 2 | 46, 4 | 72 | 71 |
| Kənd təsərrüfatı | 14 | 15 | 6, 2 | 5, 3 | 0, 9 | 1, 9 | 1, 5 | 0, 5 |
| meşə təsərrüfatı | 0, 04 | 0, 1 | 0, 01 | 0, 01 | 0, 01 | | | |
| Nəqliyyat | 6 | 7, 2 | 4, 4 | 8, 5 | 3, 2 | 4, 7 | 2, 3 | 3, 4 |
| rabitə | 1, 4 | 1, 1 | 1, 1 | 0, 8 | 0, 2 | 0, 6 | 1, 1 | 0, 9 |
| Tikinti | 2, 3 | 2, 7 | 1, 3 | 0, 8 | 0, 2 | 0, 3 | 0, 2 | 0, 5 |
| ticarət, ictimai iaşə, maddi-texniki təchizat və satış | 2, 5 | 2, 5 | 0, 9 | 1 | 0, 3 | 0, 3 | 0, 5 | 0, 9 |
| Mənzil tikintisi | 18, 5 | 23, 3 | 36, 8 | 28, 8 | 11, 8 | 21, 9 | 15, 9 | 11, 5 |
| Kommunal | 4, 5 | 4, 4 | 6, 9 | 5, 9 | 1, 1 | 6, 7 | 3 | 2, 9 |
| təhsil | 3, 5 | 4, 2 | 2, 1 | 2, 9 | 0, 3 | 0, 3 | 0, 2 | 0, 3 |
| Sair | 9, 9 | 3, 8 | 3, 7 | 6, 6 | 2, 8 | 16, 9 | 3, 3 | 8, 1 |

Onu da göstərmək lazımdır ki, sənaye sahəsi ümumi investisiya həcminin 70-80%-ni təşkil etdiyi halda, kənd təsərrüfatı sahəsinə qoyulmuş investisiya 1994-cü ildən 1997-ci ilə qədər maksimum 2% olmuşdur.

Göstərilən dövrdə sənaye sahələrinə yönəldilmiş investisiyaların statistik göstəricilərinə nəzər salsaq görərik ki, həmin sahələrdə xeyli dəyişikliklər özünü göstərir (cədvəl 4. 7).

*Cədvəl 4. 7*

**Sənaye sahələrinə investisiya qoyuluşları. (faizlə)**

| | 1993 | 1994 | 1995 | 1996 | 1997 |
|---|---|---|---|---|---|
| Sənaye, cəmi | 100 | 100 | 100 | 100 | 100 |
| o cümlədən: | | | | | |
| Elektroenergetika | 9, 6 | 1, 1 | 2, 5 | 1, 6 | 2, 4 |
| neft və qaz sənayesi | 66, 5 | 95, 8 | 87, 4 | 92, 6 | 83 |
| qara metallurgiya | 1 | 0, 03 | 0, 03 | 0, 01 | |
| əlvan metallurgiya | 1, 1 | 0, 3 | 0, 1 | 0, 03 | 0, 2 |
| kimya və neft kimya sənayesi | 6, 9 | 1 | 1, 9 | 0, 5 | 0, 3 |
| maşınqayırma | 4, 9 | 0, 6 | 0, 7 | 0, 5 | 0, 4 |
| meşə, ağac emalı sənayesi | 0, 4 | 0, 01 | 0, 03 | | |
| tikinti materialları sənayesi | 1, 3 | 0, 1 | 1, 6 | 0, 3 | 4, 3 |
| Yüngül sənaye | 1 | 0, 1 | 0, 2 | 0, 05 | 0, 1 |
| Yeyinti sənayesi | 2, 4 | 0, 4 | 0, 3 | 4, 2 | 3, 2 |



Ümumilikdə sənayedə cəmi investisiya qoyuluşları 1997-ci ildə 1991-ci ilə nisbətən təxminən 4 dəfə çox olmuşdur. Neft və qaz sənayesinə qoyulmuş investisiyalar ümumi investisiyaların 85-90%-ni təşkil edirdi. İkinci yerdə elektroenergetika, sonra kimya və neft - kimya sənayesi və maşınqayırma sənayesi durur. Həmin illərdə ən az investisiya qoyulmuş sahələr isə, qara və əlvan metallurgiya sahələridir.

Daxili yığım və kapital qoyuluşu imkanlarının məhdudluğu əsas kapitala qoyulan investisiyaların əlavə 9-da göründüyü kimi 90-cı illərdə istehsal və texnoloji strukturunun dəyişməsinə səbəb olmuşdur. Sonrakı illərdə bu prosesdə ciddi irəliləyişlər özünü göstərir.

Əsas kapitalın və passiv (tikinti quraşdırma işləri) və aktiv (maşın və avadanlıq) hissələrinin nisbəti birincinin xeyrinə xeyli dəyişmişdir. Ölkənin qlobal təsərrüfat sisteminə qoşulması zəruriliyi mövcud istehsal aparatının köklü surətdə yeniləşməsini tələb edir.

1998-1999-cu illərdən sonra əsas etibarilə xarici kapitalın cəlb edilməsi hesabına əsas sənaye istehsal fondlarının yeniləşməsi əmsalının aşağıdakı məlumatlardan göründüyü kimi müsbət istiqamətdə dəyişməsi sənaye potensialının perspektivi baxımından əhəmiyyətlidir.

**Fondların yeniləşməsi əmsalı (faizlə)**

| | 1998 | 2000 | 2003 | 2004 | 2006 |
|---|---|---|---|---|---|
| Sənaye üzrə cəmi O cümlədən | 2, 8 | 4. 8 | 21. 9 | 19. 2 | 13. 2 |
| Xam neft və təbii qaz hasilatı ilə əlaqədar xidmətlər | 4. 9 | 5. 1 | 29. 4 | 25. 9 | 15. 5 |

[44, 2005 c. 558].

Son illərdə iqtisadiyyat sahələrinə yönəldilmiş investisiyaların həcmi durmadan artır. 2002-2007-ci illər ərzində iqtisadiyyata yönəldilmiş investisiyaların statistik göstəriciləri cədvəl 4. 8-dən daha aydın görünür.

*Cədvəl № 4. 8*

**Azərbaycan iqtisadiyyatına yönəldilən investisiyalar***

| | 1995 | 2000 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|---|---|
| Cəmi | | | | | | | | |
| Mln. (AZN) | 228. 0 | 1289. 8 | 2718. 0 | 4249. 2 | 5820. 4 | 6733. 4 | 7415. 6 | 9902. 7 |
| mln. dollar | 544. 4 | 1441. 4 | 2796. 6 | 4326, 2 | 5922, 7 | 7118. 5 | 8300. 4 | 11540. 3 |
| Xarici inves-tisiyalar : mln. manat | 78. 7 | 829. 5 | 2172. 0 | 3310. 9 | 4496. 4 | 4628. 5 | 4514. 2 | 5801. 0 |
| mln. dollar | 375, 1 | 927 | 2234, 9 | 3371, 0 | 4575, 9 | 4893, 2 | 5052. 8 | 6760. 3 |
| Xüsusi çəkisi (%) | 34, 5 | 64. 4 | 80. 0 | 77. 9 | 77. 3 | 68. 8 | 60. 9 | 58. 4 |
| Daxili investis i-yalar: | | | | | | | | |
| Mln manat | 149, 3 | 460. 3 | 546, 0 | 938, 3 | 1324, 0 | 2104, 9 | 2901, 4 | 4101. 7 |
| mln. dollar | 168, 9 | 514. 4 | 561, 7 | 955, 2 | 1347, 2 | 2225, 3 | 3247, 6 | 4780. 0 |
| Xüsusi çəkisi (%) | 65, 5 | 35. 6 | 20. 0 | 20. 1 | 22. 0 | 31. 2 | 39. 1 | 41. 6 |

*[43, 2008, s. 124]

Bütün maliyyə mənbələri hesabına investisiyalar ümumilikdə 2002-2007-ci illər arasında iki dəfə artmışdır.

Daxili investisiyaların formalaşma mənbələrini iki qrupa bölmək olar (cədvəl 4. 9):

1. Dövlət sektoru (büdcə vəsaiti hesabına);

2. Qeyri-dövlət sektoru: Əhalinin şəxsi vəsaiti hesabına və müəssisə və təşkilatların vəsaiti hesabına;

*Cədvəl 4. 9*

**Daxili investisiyaların formalaşma mənbələrinə görə bölgüsü (milyard AZN)**

| | Göstəricilər | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|---|---|
| | | Xüsusi çəki % | Xüsusi çəki % | Xüsusi çəki % | Xüsusi çəki % | Xüsusi çəki % | Xüsusi çəki % | Xüsusi çəki % |
| 1 | Daxili investisiyalar | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| 1. | Büdcə vəsaiti hesabına | 4. 9 | 7. 5 | 11. 2 | 8. 9 | 11. 5 | 14. 2 | 25. 1 |
| 2 | Əhalinin şəxsi | 12. 9 | 15. 9 | 13. 1 | 8. 4 | 8. 8 | 3. 8 | 3. 5 |



| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | vəsaiti hesabına | | | | | | | |
| 3 | Müəssisə və təşkilatların vəsaiti hesabına | 82. 2 | 76. 6 | 75. 7 | 82. 7 | 79. 7 | 70. 7 | 61. 6 |
| 4 | Digər | - | - | - | - | - | 11. 3 | 9. 8 |

İnkişaf etmiş ölkələrdə investisiyaların yalnız 20-25 %-i şirkətlərin öz vəsaiti (amortizasiya və mənfəət) hesabına həyata keçirildiyi halda, digər keçid iqtisadiyyatlı ölkələrdə olduğu kimi, Azərbaycanda da əsaslı qoyuluşların 70%-i firmaların hesabına maliyyələşdirilir. Bununla yanaşı, ölkəmizdə dövlət hesabına maliyyələşən kapital qoyuluşları mütləq rəqəmlərlə və nisbi olaraq aşağıdakı rəqəmlərdən göründüyü kimi durmadan artır.

| | 2004 | 2005 | 2006 | 2007 | 2008 proqnoz |
|---|---|---|---|---|---|
| Dövlət büdcəsindən əsaslı vəsait qoyuluşları(mln. man) | 96. 9 | 159. 9 | 879. 6 | 1927. 2 | 2822. 0 |
| ÜDM-da xüsusi şəkisi(%) | 1. 14 | 1. 28 | 4. 88 | 7. 64 | 8. 97 |
| Büdcədə xüsusi şəkisi(%) | 6. 45 | 7. 47 | 23. 21 | 31. 80 | 33. 13 |

Son beş ildə dövlət kapital qoyuluşlarının fiziki həcmi 29. 1 dəfə artmış, indi və yaxın perspektivdə dinamik inkişafın əsasını təşkil etmişdir.

2007-ci ildə ölkə iqtisadiyyatına qoyulan investisiyalar başlıca olaraq daxili mənbələr hesabına artmışdır. İnvestisiya xərcləri əsasən qeyri-neft sektorunun inkişafı məqsədlərinə yönəldilmişdir.

Belə ki, əsas kapitala 6, 8 mlrd. AZN və ya ötən ildəkindən 17, 8% çox investisiya qoyulmuşdur. Ümumi investisiyaların 59, 6%-i daxili mənbələr hesabına həyata keçirilmişdir ki, bu da əvvəlki illə müqayisədə 13, 8 faiz bəndi çoxdur.

Daxili investisiyaların qoyuluşunun artımında büdcə vəsaitləri ilə yanaşı büdcədənkənar fondların vəsaitləri də mühüm rola malik olmuşdur. Büdcə vəsaitləri hesabına maliyyələşən daxili investisiyaların həcmi 2 dəfə, büdcədənkənar fondlar isə 54% artmışdır. Əsas kapitala daxili investisiya qoyuluşlarının 42,6%-i büdcə vəsaitləri hesabına həyata keçirilmişdir. Müqayisə üçün, 2006-cı ilin müvafiq dövründə daxili investisiyaların ümumi həcmində büdcə vəsaitlərinin xüsusi çəkisi 14,2% təşkil etmişdir.

Neft sektoruna investisiyaların azalması xarici investisiyaların artım tempinin azalmasına əhəmiyyətli təsir etmişdir. Belə ki, investisiyaların 40,4%-i xarici mənbələr hesabına formalaşmışdır ki, bu da 2006-cı ilin müvafiq dövrünə nisbətən 13, 8% bəndi azdır.

Neft sektoruna qoyulan investisiyaların həm həcmi və həm də cəmi investisiyalarda xüsusi çəkisi artmışdır. Belə ki, 3,5 mlrd. AZN məbləğinə çatmış

bu investisiyalar keçən illə müqayisədə 4, 8% artsa da, onun cəmi investisiyalarda xüsusi çəkisi 4,3 faiz bəndi azalaraq 51% təşkil etmişdir. Bu, investisiyaların başlıca olaraq qeyri-neft sektoruna yönəldilməsi ilə bağlıdır.

2007-ci il qeyri-neft sektoruna qoyulan investisiyaların artımı ilə xarakterizə olunur. Belə ki, qeyri-neft sektoruna qoyulan investisiyaların həcmi 28, 8% artmış, onun qeyri-neft ÜDM-ə nisbəti isə ötən illə müqayisədə 2, 8 faiz bəndi artaraq 35,7% təşkil etmişdir. 2007-ci ildə ümumi investisiyaların 49%-i qeyri-neft sektoruna yönəldilmişdir ki, bu da ötən illə müqayisədə 4, 3% bəndi çoxdur.

2007-ci ildə qeyri-neft sektoruna investisiyaların 19%-i nəqliyyatın, 7%-i emal sənayesinin, 4, 8%-i rabitənin inkişafı məqsədlərinə yönəldilmişdir.

Təqdirəlayiq haldır ki, daxili investisiyalarda əhalinin şəxsi vəsaiti hesabına yatırılan sərmayənin də xüsusi çəkisi artmaqdadır. Bu vəsait 2001-ci ildə 282, 2 milyard manat (12, 9%) olmuşdur və 2005-ci ildə əhalinin şəxsi vəsaiti hesabına yatırılan vəsait 2, 6 dəfə artaraq 726, 0 milyard manata (AZN) çatmışdır.

Cədvəl 4. 9-da daxili investisiyaların sahə strukturuna ayrı-ayrılıqda verilmiş və bu vəsaitlər bir sıra makroiqtisadi göstəricilərlə müqayisəsi edilmişdir.

Son illər respublikada mənzil tikintisinin sürətlə artımı müşahidə edilməkdədir. Belə ki, tikintinin ÜDM-də xüsusi çəkisi 2001-cü ildəki 5, 8%-dən 2006-ci ildə 10, 0%-ə yüksəlmişdir.

İnvestisiyaların sənayenin və ölkə daxilində bütün sahələrin inkişafı üçün geniş istifadəsi ölkə iqtisadiyyatında yalnız neft sənayesinin deyil, qeyri-neft sektorunun inkişafına və ölkə iqtisadiyyatının daha da təkmilləşməsinə təkan verən bir addım kimi nəzərə çarpır.

**İqtisadiyyatın sahələri üzrə investisiyadan istifadə edilməsi (faizlə).**

| | 2007 |
|---|---|
| | Xüsusi çəkisi, faizlə |
| İqtisadiyyatın sahələri üzrə, cəmi | 100 |
| O cümlədən: | |
| Kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı | 3. 3 |
| Balıqçılıq, balıqyetişdirmə | - |
| Sənaye | 62. 2 |
| Mədənçıxarma sənayesi | 50. 5 |
| Emal sənayesi | 4. 1 |
| Elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi | 7. 6 |
| Daşınmaz əmlak, icarə və istehlakçılara xidmət | 6. 5 |
| Tikinti, nəqliyyat və rabitə | 11. 7 |
| Təhsil | 1. 3 |
| Səhiyyə | 1. 3 |
| Digər | 2. 3 |



İnvestisiya mühitinin daha da yaxşılaşdırılması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 30 mart 2006-cı il tarixli «İnvestisiya fəaliyyətinin təşviqi üzrə əlavə tədbirlər haqqında» sərəncamı böyük əhəmiyyətə malik olmaqla, ölkənin qeyri-neft sektorunun inkişafına dövlət qayğısının daha bir təzahürü kimi dəyərləndirilir. Ölkə iqtisadiyyatının qeyri-neft sahələrində sahibkarlığın inkişafına dövlət dəstəyinin gücləndirilməsinə xidmət edən «Azərbaycan İnvestisiya Şirkəti» Açıq Səhmdar Cəmiyyəti məhz həmin sərəncamla yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi iqtisadi siyasətə uyğun olaraq investisiya siyasətinin düzgün həyata keçirilməsi nəticəsində ölkədə dayanıqlı inkişaf edən bazar iqtisadiyyatı daha da təkmilləşir, kiçik və orta sahibkarlığın inkişafı sürətlənir, əhalinin məşğulluğuna nail olunmaqla əmək ehtiyatlarından daha səmərəli istifadə təmin olunur.

2008-ci il dövlət büdcəsi layihəsinə əsasən 2008-2011-ci illər üzrə DİP çərçivəsində iqtisadi sahələrin inkişafına 10240, 8 mln AZN və ya 65, 7 %, sosial sahələrin inkişafına 3313 mln AZN və ya 21, 3 % nəzərdə tutulmuşdur. Növbəti dörd il ərzində investisiyanın 39, 4 %-i sənaye, energetika və nəqliyyat sektorlarına yönəldiləcəkdir. Bundan başqa, kommunal infrastruktur, su ehtiyatları və irriqasiya sektorlarına qoyulan investisiya xərcləri ümumi investisiya xərclərinin müvafiq olaraq 15, 4 və 9, 4 %-ni təşkil edir.

Ölkə başçısının "İnvestisiya fəaliyyətinin təşviqi üzrə əlavə tədbirlər haqqında" 30 mart 2006-cı il tarixli Sərəncamı ilə yaradılmış Azərbaycan İnvestisiya Şirkəti (AİŞ) də artıq fəal şəkildə ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişafı ilə bağlı qarşısına qoyulmuş vəzifələri icra edir. Yeni yaradılmış bu şirkətin əsas məqsədi ölkədə qeyri-neft sektorunda fəaliyyət göstərən kommersiya təşkilatlarına müddətli sərmayələr qoymaqla Azərbaycan iqtisadiyyatının bu sahəsinin inkişafına nail olmaqdır. Şirkət tərəfindən 50-dən artıq investisiya layihəsinə baxılmışdır. Artıq bir neçə layihənin reallaşdırılmasına başlanmışdır. Hazırda ölkə daxili investisiya layihələrinin həyata keçirilməsində iştirak edən AİŞ-in gələcəkdə digər ölkələrdə investisiya layihələrində iştirakı da başlanmışdır.

Yaxın perspektivdə Azərbaycan Respublikası üçün dövlət investisiya siyasəti ölkənin sosial-iqtisadi inkişaf məqsədlərinə uyğun olaraq daha əlverişli investisiya mühitinin təmin edilməsi məqsədi ilə ümumi biznes şəraitinin yaxşılaşdırılması, xüsusi mülkiyyətin qorunması və korporativ idarəetmənin təkmilləşdirilməsi, bütün investorlar üçün azad rəqabət mühitinin yaradılması, sabit normativ-hüquqi rejimin təmin edilməsi və iqtisadi sabitliyin qorunması prinsiplərinə əsaslanaraq aşağıdakı prioritetlərin həyata keçirilməsinə yönəldiləcəkdir:

a) infrastruktur sahələrinin inkişafı və onların obyektlərinin davamlı istismarının təmin edilməsi;

b) regionların tarazlı inkişafının təmin edilməsi;

c) insan kapitalının davamlı inkişaf etdirilməsi və sosial təminatın gücləndirilməsi.

a) İnfrastruktur sahələrinin inkişafı və davamlı istismarı. Dövlət investisiya siyasətinin başlıca məqsədi, vəsaitləri sosial və iqtisadi cəhətdən zəruri, lakin özəl sektor üçün cəlbedici olmayan layihələrə yönəltməkdir. Ona görə də 2008-2011-ci

illərdə özəl sektorun inkişafı üçün əhəmiyyətli olan Azərbaycanın infrastuktur sahələrinin sürətli inkişaf dövrü olacaq. Orta müddətdə ölkənin mühüm infrastuktur obyektlərinin, o cümlədən, beynəlxalq magistral və daxili əhəmiyyətli yolların yenidənqurulması, içməli su və suvarma sistemlərinin bərpası və genişləndirilməsi, regionların qazla təminatının bərpası, kanalizasiya sistemlərinin bərpası üzrə investisiyaların həyata keçirilməsi nəzərdə tutulur.

b) Regionların tarazlı inkişafının təmin edilməsi istiqamətində Azərbaycan Respublikası Prezidentinin 2004-ci il 11 fevral tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" çərçivəsində nəzərdə tutulmuş tədbirlər həyata keçiriləcək və davamlı olaraq infrastruktur və sosial obyektlərin tikinti və yenidənqurulması ilə yanaşı qeyri-neft sektorunun inkişafı tədbirlərinin birgə olaraq həyata keçirilməsi, orta və uzunmüddətdə dayanıqlı inkişafı üçün zəmin yaradılır.

c) İnsan kapitalının davamlı inkişaf etdirilməsi və sosial təminatın gücləndirilməsi sahəsində təhsil, səhiyyə və sosial təminat obyektlərinin bərpası və genişləndirilməsi, onların maddi-texniki təchizatının gücləndirilməsi orta müddətdə prioritet məsələlər kimi qəbul olunmuşdur. 2011-ci ilə qədər ölkənin regionlarında məktəblərin tikintisi, yenidənqurulması və genişləndirilməsi nəzərdə tutulur. Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, onların iqtisadi vəziyyətlərinin yüksəldilməsinin dəstəklənməsi istiqamətində əhəmiyyətli tədbirlər görüləcəkdir. Gənclərin inkişafı və sağlam həyat tərzinin təşviqi və təmini üçün bir sıra regionlarda olimpiya mərkəzləri və idman kompleksləri yaradılacaq, ipoteka fondunun vəsaitləri artırılacaqdır.

2008-2011-ci illəri əhatə edən DİP üzrə xərclərin ümumi məbləğinin 15581 milyon manat olması planlaşdırılır ki, həmin məbləğin də 12362 milyon manatı daxili, 3219 milyon manatı isə xarici mənbələrdən maliyyələşdiriləcəkdir. Eyni zamanda proqram dövründə növbəti illərdə maliyyələşdirilmədə daxili mənbələrin payı artdıqca, xarici mənbələrin payının azalması gözlənilir.

*Cədvəl 4. 10*

**2008-2011-ci illər üzrə Azərbaycan Respublikasının Dövlət İnvestisiya Proqramının maliyyələşdirmə mənbələri üzrə strukturu**

| Mənbə | Ölçü Vahidi | 2008 | 2009 | 2010 | 2011 | 2008-2011 cəmi |
|---|---|---|---|---|---|---|
| Daxili vəsait hesabına | mln AZN | 3374 | 3243 | 3035 | 2710 | 12362 |
| xüsusi çəkisi | % | 83, 4 | 76, 6 | 77, 2 | 79, 8 | 79, 3 |
| Dövlət büdcəsi | mln AZN | 2841 | 3000 | 2815 | 2660 | 11316 |
| xüsusi çəkisi | % | 70, 2 | 70, 8 | 71, 5 | 78, 3 | 72, 6 |
| Dövlət Neft Fondu | mln AZN | 533 | 243 | 220 | 50 | 1046 |
| xüsusi çəkisi | % | 13, 2 | 5, 8 | 5, 7 | 1, 5 | 6, 7 |
| Xarici kreditlər hesabına | mln AZN | 670 | 990 | 872 | 687 | 3219 |
| xüsusi çəkisi | % | 16, 6 | 23, 4 | 22, 8 | 20, 2 | 20, 7 |
| Cəmi | mln AZN | 4044 | 4233 | 3907 | 3397 | 15581 |



2008-ci ildə ümumi investisiya xərcləri çərçivəsində daxili mənbələrin payı 3374 milyon manat, xarici mənbələrin payı isə 670 milyon manat təşkil edəcəkdir. Dövlət büdcəsindən investisiya xərclərinə 2841 milyon manat və ya 2007-ci ilin dəqiqləşdirilmiş xərclərinə nisbətən 50 % çox vəsait yönəldiləcəkdir.

"Azərbaycan Respublikasının dövlət investisiya proqramı" ölkə iqtisadiyyatının, əsasən qeyri-neft sektorlarının davamlı olaraq yüksək artım templəri ilə dinamik və tarazlı inkişafına, əhalinin iqtisadi və sosial tələbatının daha yüksək səviyyədə təmin olunmasına, regionlararası inkişaf səviyyəsində olan fərqin azaldılmasına, optimal strukturuna nail olunmasına, ixrac potensialının yüksəldilməsinə, ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə, ətraf mühitin qorunmasına yönəlmiş dövlət əhəmiyyətli investisiya layihələrinin həyata keçirilməsini təmin etmək məqsədilə xidmət edir.

Respublikada neft gəlirlərinin istifadəsi təsdiq edilmiş "Neft və qaz gəlirlərinin istifadə olunması üzrə uzunmüddətli strategiya" ilə müəyyən edilmiş prinsiplər əsasında həyata keçirilir.

Qloballaşma dövründə iqtisadi strukturun diversifikasiyasının təmin edilməsi üçün investisiyaların neft və qeyri-neft sektorları arasında səmərəli bölgüsü mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi neft kontraktlarının icrası üçün böyük miqyasda investisiyalar tələb olunur. Neft və qeyri-neft sektorları arasında investisiyaların bölgüsü 1995-2007-ci illərdə aşağıdakı nisbətdə (faizlə) həyata keçirilmişdir. [44, 2007, s. 476]:

| | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Neft sektoruna | 40. 6 | 51. 9 | 58. 7 | 68. 8 | 73. 2 | 75. 3 | 65. 2 | 54. 7 | 51. 0 |
| Qeyri-neft sektoruna | 59. 4 | 48. 1 | 41. 3 | 31. 2 | 26. 8 | 24. 7 | 34. 8 | 45. 3 | 49. 0 |

Verilən məlumatlardan göründüyü kimi, 2003-cü ildə investisiyaların yalnız 26. 8 %-i qeyri-neft sektoruna yönəldildiyi halda, 2007-ci ildə bu nisbət 49%-ə qədər yüksəlmişdir.

Neft gəlirləri "insan kapitalının" qeyri-neft sektorunun inkişaf etdirilməsinə, mövcud infrastrukturun təkmilləşdirilməsi və yeni infrastruktur obyektlərinin tikilməsinə, yeni texnologiyaların gətirilməsinə və digər tədbirlərin maliyyələndirilməsinə yönəldiləcəkdir.

Dövlətin strateji kursunda yeni mərhələnin əsas hədəfi – uzunmüddətli ümumbəşəri dəyərlər, qlobal proseslər və milli maraqlar nəzərə alınmaqla, ortamüddətli dövr üçün ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir.

Göründüyü kimi, sosial-iqtisadi inkişaf məqsədlərinin həyata keçirilməsi üçün investisiya siyasəti mühüm alətlərdən biridir. Bu baxımdan DİP-in milli və sektor inkişafı çərçivəsində formalaşdırılması mühüm əhəmiyyət kəsb etməklə yanaşı, sektorlar arasında qarşılıqlı əlaqələrin təmin edilməsi və uyğunsuzluqlara yol verilməməsi üçün çox vacibdir. Bir çox inkişaf etməkdə olan və vəsait çatışmazlığı ilə üzləşən ölkələrdən fərqli olaraq, Azərbaycan karbohidrogen ehtiyatlarının istismarından böyük

həcmdə gəlir əldə etməyə başlamış və bu gəlirlərin orta müddətdə olan templərlə artması gözlənilir. Dünya təcrübəsi göstərir ki, maliyyə vəsaitlərinin çatışmazlığı şəraitində gəlirlərin səmərəli istifadəsi ilə müqayisədə, böyük həcmdə gəlirlərin istifadəsi prosesinin idarə olunmasında daha çətin problemlərlə üzləşilir. Qısa müddətdə iri həcmli gəlirlərin əldə edilməsi səmərəli xərclər həyata keçirməklə yanaşı makroiqtisadi sabitliyin qorunması, iqtisadiyyatda regionlarla mərkəzin sosial-iqtisadi cəhətdən ahəngdar inkişafı, ümumiyyətlə, tarazlı inkişafın təmin olunması, yoxsulluğun səviyyəsinin azaldılması, iqtisadi münasibətlərdə ədalət prinsiplərinin gözlənilməsi, bugünkü və gələcək nəsillər arasında gəlirlərin düzgün bölüşdürülməsi kimi mühüm məsələlərin həllini tələb edir.

İqtisad elmi sübut etmişdir ki, investisiya norması (onun ÜDM-da xüsusi çəkisi) ilə iqtisadi inkişaf sürəti arasında sıx əlaqə vardır. ÜDM-u ildə 2. 5-3% artıran inkişaf etmiş ölkələrdə investisiya norması bir qayda olaraq 20-21% təşkil edir. Bu zaman onlar əsas fondları fasiləsiz olaraq yeniləyirlər, onlardan yüksək dərəcədə səmərəli istifadə edirlər.

Hesablamalar göstərir ki, daxili mənbələr və amillər hesabına iqtisadi inkişafın artım sürətini ildə 5-7%-ə çatdırmaq üçün investisiya norması 30-35% olmalıdır. İEOÖ üçün bu xarakterik bir səviyyədir. Onlarda artım sürəti orta hesabla məhz bu qədər olur. Çin ildə 10% sürətlə inkişaf edir. Bunun üçün investisiya norması 46%-ə qədər yüksəldilmişdir. [237, 2008, №1, s. 31-32]

Onu da nəzərə almaq lazımdır ki, investisiya norması nə qədər yüksək olsa da, inkişaf sürətinə onun təsiri, bir qayda olaraq 3-5 ildən sonra özünü göstərir. Şəkil 4. 1-də qabaqcıl dünya dövlətlərində və Azərbaycanda investisiya norması müqayisə edilir.




Azərbaycanda iqtisadi inkişaf sürəti ilə investisiya norması arasında olan əlaqə aşağıdakı rəqəmlərlə xarakterizə edilir. [44, 2007, s. 36]

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|---|---|
| ÜDM-un illik artım sürəti (faizlə) | 11. 1 | 9. 9 | 10. 6 | 11. 2 | 10. 2 | 26. 4 | 34. 5 | 25. 0 |
| İnvestisiya norması (cəmi kapital qoyuluşlarının ÜDM-a nisbəti) | 20.52 | 24. 0 | 34. 8 | 50. 0 | 57. 7 | 46. 07 | 34. 6 | 28. 4 |



Rəqəmlərin təhlili belə bir nəticəyə gəlməyə imkan verir ki, 2003-2004-cü illərdə investisiya normasının 50% həddinə çatması 2006-2007-ci illərdə iqtisadi inkişafın artım sürətini rekord səviyyəyə çatdırmışdır. Sonrakı illərdə investisiya norması azalsa da, mütləq rəqəmlərdə kifayət qədər yüksəkdir.

# FƏSİL V.

## QLOBALLAŞMA ŞƏRAİTİNDƏ İQTİSADİYYATIN DİNAMİK İNKİŞAFI VƏ SAHƏ STRUKTURUNUN TRANSFORMASİYASI

> *Azərbaycanın bütün sahələrini inkişaf etdirməliyik. İqtisadiyyatımızı şaxələndirməliyik ki, uzun illər bundan sonra, onilliklər bundan sonra Azərbaycan xalqı və gələcək nəsillər rahat yaşasın.*
>
> **İlham ƏLIYEV**
>
> *Azərbaycan Respublikasının Prezidenti*

### 5. 1. Milli iqtisadiyyatın sahə strukturunun transformasiyasının nəzəri əsasları.

Qloballaşma şəraitində hər bir ölkənin xarici dünya ilə əlaqələri onun, istər ümumi iqtisadi siyasətinin, istərsə də xarici iqtisadi siyasətinin ən həssas hissəsidir. Qlobal proseslər istər inkişaf etmiş sənaye ölkələrinin, istərsə də inkişaf etməkdə olan və keçid iqtisadiyyatı ölkələrinin iqtisadi strukturunda ciddi dəyişikliklərə yol açır. İctimai tələbin yeni formalarının inkişafı, texnika və texnologiyada yeni prinsipial yeniliklərin yaranması və s. iqtisadiyyatda mövcud proporsiyaların dəyişilməsinə gətirib çıxarır. Ölkələrin daxili vəziyyətinin, onun sosial-iqtisadi və siyasi orientasiyasının həm müsbət, həm də mənfi ünsürləri ən ümumiləşdirilmiş şəkildə özünü iqtisadi strukturda biruzə verir.

Məlum olduğu kimi müstəqillik əldə etmiş ölkələrin iqtisadi inkişafında baş verən əsas dəyişiklik təkrar istehsal prosesinin bütövlüyü səviyyəsinin tədricən artması və onun getdikcə daha çox milli bazaya əsaslanmasıdır . Milli ehtiyatlar üzərində nəzarəti ələ keçirmiş bu ölkələrdə həmin ehtiyatlardan daha səmərəli istifadə olunması və özünü təmin edən təkrar istehsal mexanizminin yaradılması prioritet əhəmiyyətə malikdir. Bunun üçün milli iqtisadi inkişaf modelinin formalaşmasında və iqtisadiyyatın modernləşməsində optimal səmərəli strukturun yaradılmasında müasir iqtisadi nəzəriyyələrin öyrənilməsi və tətbiqi vacibdir.

Ölkənin iqtisadı inkişafının xarakteri və dinamikası iqtisad elminin daim diqqət mərkəzindədir. İkinci dünya müharibəsindən sonra elmi ədəbiyyatda iqtisadi inkişaf haqqında 4 əsas elmi cərəyan üstünlük təşkil edir: 1. artımın xətti inkişaf haqqında 4 əsas elmi cərəyan üstünlük təşkil edir: 1. artımın xətti mərhələlər modeli; 2. struktur dəyişiklikləri modeli;3. üçüncü dünya ölkələrinin zəifliyini asılılıq və varlı ölkələrin hökmranlığı ilə izah edən inqilabi nəzəriyyə; 4. azad bazar ideyalarına əsaslanan əksinqilabi neoklassik nəzəriyyə [198, s. 78]. Bu cərəyanlar arasında bizim tədqiqat obyektimiz olan struktur dəyişiklikləri modeli üzərində dayanmağı vacib hesab edirik.



Həqiqətən ingilis alimi Deniz Qulenin ifadəsi ilə desək "əgər biz inkişafın daxili məzmununu dərk etmiriksə, deməli onun haqqında heç nə bilmirik" [198, s. 78]. Nəzəriyyə və təcrübə sübut edir ki, hər bir ölkənin iqtisadi inkişaf perspektivi əhəmiyyətli dərəcədə milli iqtisadiyyatın strukturunda baş verən dəyişikliklərdən asılıdır.

Ölkənin xalq təsərrüfatı sıx surətdə bir - biri ilə əlaqədar olan çoxsaylı makroiqtisadi ünsürlərdən ibarət olan mürəkkəb sistemdir. Həmin ünsürlər arasında formalaşan nisbət iqtisadi strukturu təşkil edir və xalq təsərrüfatının tarazlığı, onun səmərəliliyi və davamlı artımı üçün böyük əhəmiyyət kəsb edir.

İnkişaf etmiş sənaye ölkələrinin təcrübəsi göstərir ki, onların sürətli inkişafının əsasında istehsalın dinamikliyini və digər müsbət keyfiyyət göstəricilərini təmin edən dərin struktur dəyişiklikləri dayanır. Cənub - Şərqi Asiyada yeni sənaye ölkələrinin sürətli inkişafı, hər şeydən əvvəl həmin ölkələrdə onlar üçün ənənəvi olmayan yeni sənaye sahələrinin inkişaf etdirilməsi və bunun nəticəsində xalq təsərrüfatının strukturunun kəskin surətdə dəyişməsi nəticəsində baş vermişdir.

Sovet dövlətinin təcrübəsi isə göstərdi ki, bu ölkədə ilk illərdə sürətli sənayeləşmə əsasında iqtisadi strukturda dərin struktur dəyişiklikləri aparıldı. Bu dəyişikliklər qısa müddət ərzində həyata keçirildi və SSRİ-ni aparıcı mövqelərdən birinə çıxartdı. Lakin həyat göstərdi ki, belə iqtisadi struktur heç də optimal deyil və sənaye istehsalında hasilat sənayesi və silah hazırlanması əsassız olaraq yüksək mövqe tutdu. Nəticədə təsərrüfat strukturu öz mütərəqqi sosial təmayülünü getdikcə daha çox itirməyə başladı. Kənd təsərrüfatı və xalq istehlak malları istehsalı tələbatı ödəməkdən çox-çox uzaq idi. Həmin proseslər ölkənin iflasa uğramasında başlıca amillərdən biri idi.

Təsadüfi deyildir ki, struktur nəzəriyyəsi iqtisad elmində mühüm yer tutur. Həmin problemə tanınmış iqtisadçılardan V. Leontyev, S. Kuznets, C. Qelbreyt öz tədqiqatlarında mühüm yer ayırmışlar.

Rus əsilli amerikan iqtisadçısı V. Leontyev öz tədqiqatlarında iqtisadi sistemlərin fəaliyyəti nəzəriyyələrini iqtisadi modelləşdirmə üsulları ilə birləşdirərək iqtisadiyyatın sahələrarası balansını işləyib hazırlamışdır. Həmin balans sahə strukturunun nisbətini, iqtisadi əlaqələri əks etdirən göstəricilər sistemidir və iqtisadi böyüklüklər arasında mövcud olan qarşılıqlı əlaqələri və iqtisadi vəziyyəti öyrənməyə imkan verir. [183, s. 11-15]

İqtisadi nəzəriyyə struktur dəyişikliyinin struktur effekti adlanan müsbət nəticələrinin meyarlarını işləyib hazırlamışdır. Bu göstərici struktur dəyişiklikləri (əsasən sahələrarası) indeksi ilə iqtisadi inkişafın əsas göstəriciləri arasındakı əlaqəni əks etdirir.

Struktur dəyişikliyi indeksi – K aşağıdakı düsturla müəyyən edilir[266, s. 231-232]

$$K = \frac{/a_1/ + /a_2/ + ... + /a_i/ + ... + /a_n/}{n}$$

Burada $a$ – xalq təsərrüfatı sistemində struktur ünsürünün xüsusi çəkisində mütləq böyüklüyü əks etdirir; $n$ – struktur ünsürlərinin sayıdır.

Məlumdur ki, xalq təsərrüfatının dinamikası tam şəkildə struktur dəyişikliyinin dərinliyi ilə müəyyən edilə bilməz. Bununla yanaşı iqtisadi inkişafa təsir göstərən amillər çoxluğundan struktur dəyişikliyi amilinin məntiqi olaraq ayrılması mümkündür. Deməli, struktur effektini təxmini də olsa müəyyən etmək mümkündür. Bu göstərici o vaxt müsbət olur ki, struktur dəyişikliyi indeksinin əhəmiyyətli artımı yüksək iqtisadi artım sürəti ilə müşayiət olunur. Və əksinə, əgər struktur dəyişikliyi indeksi aşağıdırsa, o mənfidir.

İnkişaf etmiş sənaye ölkələrində sahə strukturundakı ciddi dəyişikliklərin qanunauyğunluqları xammal sahələri və kənd təsərrüfatı sahələrinin xüsusi çəkisinin sürətlə azalması, sənayenin texniki cəhətdən modernləşdirilməsi və xidmət sahələrinin sürətlə artmasında özünü göstərir. Ən radikal dəyişikliklər alt sahələrdə də özünü göstərir. Bu sahələrdə elm tutumlu sahələr yüksək artım dinamikasına malik olurlar.

Yeni sənaye ölkələri adlanan Cənub-Şərqi Asiya ölkələrində iqtisadiyyatın sahə strukturu radikal şəkildə dəyişir. Bu ölkələr getdikcə daha çox texniki cəhətdən mürəkkəb və elmtutumlu istehsal sahəsində ixtisaslaşırdı və məhsulun keyfiyyətinə və işçilərin yüksək ixtisaslaşmasına xüsusi diqqət verirlər. Sadə əmək tutumlu məmulatların (məsələn, toxuculuq, paltar, ayaqqabı) istehsalına üstünlük yalnız ucuz işçi qüvvəsinə malik olan ölkələrdə verilir. Lakin əməktutumlu məhsullarla elmtutumlu məhsulların istehsalı arasında optimal nisbəti yaradan ölkələr iqtisadi tərəqqidə daha çox nailiyyətlər əldə edirlər.

İqtisadiyyatın sahə strukturu problemi inkişaf etməkdə olan və keçid iqtisadiyyatı ölkələrində, xüsusən xammal istehsalı və ixracı sahəsində ixtisaslaşmış ölkələr qarşısında daha kəskin dayanır.

Təsadüfi deyildir ki, struktur dəyişikliyi nəzəriyyəsi zəif inkişaf etmiş üçüncü dünya ölkələrinin iqtisadiyyatının daha inkişaf etmiş optimal struktura malik təsərrüfatlara diqqət verilməsini əsaslandırır. Tədqiqat üçün burada neoklassik qiymət anlayışından və ehtiyatların bölgüsü mexanizmindən, müasir iqtisadi üsullardan istifadə edilir.

Nobel mükafatı laureatı Artur Lyuisin işləyib hazırladığı izafi əmək ehtiyatlarına malik olan iqtisadiyyatların iki sektorlu inkişaf modeli struktur nəzəriyyələrinin ən geniş yayılmış cərəyanlarındandır[198, s. 82-84]. Bu əsas etibarı ilə natural istehlakçı iqtisadiyyatlarda struktur dəyişikliklərinin nəzəri əsaslarının təhlilinə yönəldilmişdir. Bu nəzəriyyədə geri qalmış ənənəvi kənd təsərrüfatı ilə inkişaf etmiş müasir iqtisadiyyat sahələri arasında qarşılıqlı əlaqələrin nəzəri əsasları verilmişdir.

Həmin nəzəriyyə əsasında sonralar yaranmış digər nəzəriyyə inkişaf formalarının təhlili modeli adlanır. Bu nəzəriyyə də diqqəti ənənəvi geridə qalmış kənd təsərrüfatının yeni sənaye sahələrinə çevrilməsini təmin edən iqtisadi industrial və təsisat strukturlarda zəruri olan ardıcıl dəyişikliklərə yönəldir. Lakin Lyuis modelindən fərqli olaraq mərhələli artım nəzəriyyəsində yığım və investisiyanın artımı zəruri hesab edilərsə də iqtisadi artım üçün onun kifayət etmədiyi xüsusi vurğulanır. Ənənəvi iqtisadiyyatdan müasir iqtisadi sistemə keçmək üçün fiziki və insan kapitalının yığımı ilə yanaşı ölkə iqtisadiyyatında qarşılıqlı əlaqədar olan dəyişikliklər seriyası tələb olunur. Bu dəyişikliklər əslində bütün sahələri - istehsalı, istehlak tələbini, xarici ticarəti, ehtiyatların bölgüsünü,



sosial-iqtisadi amilləri (məsələn, urbanizasiyanı, əhalinin artımını və məşğulluğun strukturunu) əhatə edir.

İnkişaf etməkdə olan ölkələrin "özünütəmin edən inkişaf " konsepsiyası Massaçuset texnoloji institutunun professoru U.Rostou tərəfindən 1956-cı ildə irəli sürülmüşdür. Konsepsiyanın əsas ideyası bu ölkələrin ənənəvi cəmiyyətdən Qərb tipli müasir cəmiyyətə keçməsini təmin etməkdir. Bu ölkələrdə inkişafın öz-özünü avtomatik tənzimləməsi üçün bir sıra şərtlərin yerinə yetirilməsi vacibdir . [258, s. 448 - 450]:

1. milli gəlirdə istehsala yönəldilən investisiyaların xüsusi çəkisinin kəskin şəkildə artırılması ;
2. sənayenin bir neçə sahəsinin sürətli inkişafı ;
3. iqtisadiyyatın modernləşdirilməsi ideyası tərəfdarlarının cəmiyyətdə və hakimiyyət strukturlarında üstünlük təşkil etməsi;

Nəzərə almaq lazımdır ki, XX əsrdə Qərb iqtisad elmində əsas prinsipial dəyişiklik ondan ibarət olmuşdur ki, neoklassik siyasi iqtisadın "avtomatik tarazlaşdırma" haqqında olan bir çox müddəalarından uzaqlaşılmışdır . Bu dəyişikliyə görə iqtisadi "tarazlıq" yaradılmasında, iqtisadi strukturun tənzimlənməsində dövlət ciddi rol oynamalıdır

Struktur dəyişikliklərinin empirik tədqiqi göstərir ki, inkişafın həm daxili, həm də xarici məhdudiyyətləri mövcuddur. Daxili məhdudiyyətlər iqtisadi və təsisat xarakterli olmaqla iki yerə bölünür. Birinci məhdudiyyətlər ölkənin resurs potensialı, onun böyüklüyü və əhalisinin miqdarı ilə, ikincisi isə - dövlət siyasətinin məqsəd və vasitələri ilə əlaqədardır. Xarici məhdudiyyətlər isə xarici investisiya, texnologiya və bazarlarla əlaqədardır. Üçüncü dünya ölkələrinin qeyri - bərabər inkişafı məhz bu amillərlə əlaqədardır. Beləliklə, mərhələli artım nəzəriyyəsi üçüncü dünya ölkələrini qarşılıqlı asılılıq şəraitində olan beynəlxalq təsərrüfat sisteminin tərkib hissəsi hesab edir. Bu sistem bu və ya digər inkişaf etməkdə olan ölkənin inkişafını ləngidə və hətta, zəiflədə bilər [198, s. 87-88].

İnkişaf etməkdə olan ölkələrin təcrübəsi göstərir ki, tarazlı sənayeləşmə strategiyası bu ölkələrdə əsasən iki istiqamətdə aparılır: idxalı əvəzetmə siyasəti və ixrac yönümlü sənayeləşmə strategiyası.

İdxalı əvəz edən sahədə artım. Bu prosesi izah etmək üçün hər şeydən əvvəl fərz edək ki, məsələn, ABŞ-da kapital amili sürətlə inkişaf edir və idxal ilə rəqabət vəziyyətində olan (yəni həmin mal həm xaricdən idxal edilir, həm də ölkədə istehsal edilir) mahud istehsalında bu amildən intensiv istifadə edilir. Eyni zamanda fərz edək ki, ixrac malı olan buğda istehsalında əkilən torpaq və digər amillərin miqdarı dəyişmir. Bu zaman idxal (mahud) sahəsində intensiv istifadə olunan kapitalın artımı bu kapitalın gəlirliliyini azaldır. Kapital ucuz olduğu üçün təbiidir ki, istehsalçılar istehsalın həcmini genişləndirməyə çalışırlar. Lakin istehsalın artım sürəti müxtəlif sahələrdə (yəni mahud və buğda istehsalında) eyni dərəcədə olmayacaqdır. İstehsal xərclərinin tərkibində kapital amilinin xüsusi çəkisi mahud istehsalında buğda istehsalına nisbətən çox olduğu üçün kapitalın ucuzlaşması mahud istehsalçıları üçün daha əhəmiyyətli olacaqdır. Bunun nəticəsində isə bu ölkədə mahud istehsalı buğda istehsalına nisbətən daha sürətlə artacaqdır. Mahud istehsalının artımı isə həmin malın idxalını azaldacaq, daha doğrusu idxalı əvəz edəcəkdir. Bununla da ölkənin dünya bazarından bu məhsul üzrə asılılığı azalacaqdır. Bu proses əgər böyük miqyasda həyata keçmiş olarsa dünya ticarətinə

(müvafiq olaraq qiymətlərin, habelə onun ticarətinin azalmasına) da təsir göstərəcəkdir.

Dünya iqtisadi konyukturuna təsir edə bilməyən kiçik iqtisadi potensiala malik olan ölkələrdə idxalı əvəzetmə siyasətinin elmi əsaslarla aparılması bu ölkədə beynəlxalq əmək bölgüsünün üstünlüklərindən səmərəli istifadə edilməsi və iqtisadi inkişafın sürətləndirilməsi üçün əlverişli şərait yaradır. Azərbaycan kimi keçid dövründə olan və beynəlxalq əmək bölgüsünün üstünlüklərindən keçmişdə səmərəli şəkildə istifadə olunmamış ölkələrdə idxalı əvəzetmə siyasətinə daha böyük ehtiyac vardır. Məsələn, zəngin təbii sərvətlərə və əlverişli iqlim şəraitinə malik olan respublikamızda əhalinin istehlak mallarına olan ehtiyacının xeyli hissəsinin qiymətli valyuta ilə xaricdən alınması getdikcə azaldılır.

İxracatın genişləndirilməsi sahəsində artım. İndi fərz edək ki, ixracat sahəsində, yəni buğda istehsalında istifadə olunan yaxşı torpaq sahəsində artım mövcuddur. Bu zaman tutaq ki, kapital və digər amillərin təklifi dəyişməz qalmışdır. Aydındır ki, əlavə torpaq sahələri icarə haqqının azalmasına səbəb olacaqdır ki, bu da fermerləri buğda sahələrini genişləndirməyə sövq edəcəkdir. Belə vəziyyətdə ölkədə buğda istehsalının artımı mahud istehsalına nisbətən sürətli olacaqdır. Əlavə istehsal olunan buğdanın müəyyən hissəsi ixraca yönələcəkdir. Bu vəziyyət buğdanın istehsal xərcləri dünya qiymətləri səviyyəsinə qədər yüksələnədək davam edəcəkdir. İxrac olunan buğda istehsalının ABŞ-da artması (əgər bu böyük miqyasda olarsa) dünya ticarətinin həcmini genişləndirəcək və buğdanın dünya qiymətlərinin aşağı düşməsinə səbəb olacaqdır. Az iqtisadi potensiala malik olan ölkələrdə də ixracı genişləndirmə siyasəti dünya miqyasında müqayisəli üstünlüklərdən səmərəli şəkildə istifadə olunması nəticəsində bu ölkələrin iqtisadi inkişafının (digər amillərin sabit qalması şərtilə) sürətləndirilməsinə gətirib çıxaracaqdır.

Bu zaman belə bir cəhəti nəzərə almaq lazımdır: dünya təsərrüfat sistemində getdikcə daha layiqli yer tutan yeni sənaye ölkələrinin təcrübəsi göstərir ki, ixracat potensialının genişləndirilməsi siyasəti yeridilərkən o dövlətlər daha çox iqtisadi nəticə əldə edir ki, bu dövlətlər bütün qüvvələri yalnız hər hansı bir mal növünün ixracat potensialının genişləndirilməsinə yönəltmirlər. Daha çox mal qrupunun ixracının genişləndirilməsi inkişafın daha zamanətli inkişafı üçün əlverişli şərait yaradır. Bu baxımdan Azərbaycanda da ixracat potensialının genişləndirilməsi sahəsində görülən işlər ümidvericidir. Həyat çoxtərəfli ixracat siyasətinin yürüdülməsini tələb edir. [178, s. 260].

İstehsal amillərinin qeyri-bərabər artımı bir sıra digər iqtisadi nəticələr də doğurur. Hər hansı bir istehsal amilinin sürətli artımı, onun intensiv istifadə olunduğu iqtisadiyyat sahəsində xüsusi çəkisinin çoxalmasına səbəb olur. Bu bütün digər şərtlər daxilində digər istehsal sahəsinin nisbi azalmasına gətirib çıxarır. Çünki ucuzlaşmış istehsal amilindən daha çox istifadə olunan sahə, həm də başqa istehsal amillərini digər sahələrdən özünə daha çox cəlb edir. Rıbçinski nəzəriyyəsinin mahiyyəti ondan ibarətdir ki, qiymətlərin sabit qalması və iqtisadiyyatda yalnız iki sahənin mövcud olduğu şərti daxilində hər hansı bir istehsal amilinin artımı mallardan birinin istehsalının azalmasına səbəb olur.

Yeni faydalı qazıntıların kəşfi, məsələn, Kanada və Böyük Britaniyada olduğu kimi, emaledici sənaye və digər mühüm sahələrin inkişafının zəifləməsinə gətirib çıxara bilər. Yaxud emaledici sənayenin sürətli inkişafı dağ-mədən sənayesinin inkişafının zəifləməsinə və xammal üzrə dünya bazarlarından asılılığın artmasına



səbəb ola bilər. Bu və ya digər istehsal amilindən intensiv istifadə olunması nəticəsində yeni ixracat imkanlarının açılması da ölkədə bir sıra mühüm problemlər yaranmasına səbəb olur. Bunlardan iqtisadi ədəbiyyatda "Hollandiya xəstəliyi" və "Kasıblaşdırıcı iqtisadi artım" adı ilə daxil olmuş problemlər diqqəti cəlb edir.

"Kasıblaşdırıcı artım" hər hansı bir ölkədə bu və ya digər mal ixracının sürətli artımı dünya ticarətində qiymətlərin azalmasına təsir etdiyi hallarda baş verə bilər. Çünki bu halda ticarət şərtləri bu ölkələrin əleyhinə dəyişər və nəticədə onun vəziyyəti pisləşə bilər. "Hollandiya xəstəliyi" isə Şimal dənizində təbii qaz yataqlarının istismar olunması ilə özünü göstərmişdir. Həqiqətən bu ehtiyatlar dövriyyəyə cəlb olunduqca və xaricdən daha çox valyuta və qızıl daxil olduqca elə fikir yaranırdı ki, Hollandiyanın sənaye ixracı daha çox tənəzzülə uğrayır.

Belə bir iqtisadi vəziyyətin yaranmasının həqiqətən əsasları vardır. Çünki yeni təbii sərvətlərin dövriyyəyə böyük miqdarda və gözlənilmədən daxil olması istehsal amillərinin emaledici sənaye sahələrindən bu yeni sahələrə cəlb olunmasına, nəticədə isə emaledici sənaye sahələrində mənfəətin və istehsalın azalmasına səbəb ola bilər. Bunun qarşısını isə əsaslandırılmış müvafiq təşviqedici iqtisadi siyasətlə almaq mümkündür.

**Xammal ixracının nəticələri.** Sonralar iqtisadçılar müqayisəli üstünlüyün müəyyən şərtlər daxilində mənfi nəticələr doğura bilməsi ehtimalı üzərində də düşünməyə başladılar. Xammal ixrac edən ölkələrdə bu xüsusən narahatçılıq doğurur. İnkişaf etməkdə olan ölkələrin mənafeyini təmsil edən argentinalı iqtisadçı Raul Prebiş və başqaları haqlı olaraq belə bir fikri müdafiə edirlər: xammal ixrac edən zəif inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı və təbii xammalın ixracının genişləndirilməsi onlar üçün iqtisadi cəhətdən sərfəli deyildir. 1876-1948-ci illərə aid uzun dövr üçün aparılmış hesablamalar göstərir ki, beynəlxalq ticarət şərtləri kənd təsərrüfatı malları və xammal ixrac edən inkişaf etməkdə olan ölkələrin əleyhinə dəyişmiş və qiymət indeksi 147-dən 89-a enmişdi. Həmin alimlər inkişaf etməkdə olan ölkələrə tövsiyə edirlər ki, onlar xammal ixracını daha çox genişləndirmək əvəzinə ehtiyatları ciddi şəkildə müasir emaledici sənaye sahələrinin inkişafına yönəltsinlər. Onlar həmçinin tövsiyə edirlər ki, bu ölkələr idxalı əvəzetmə siyasəti yeritməklə sənaye məhsullarının idxalını məhdudlaşdırsınlar. Bu tövsiyələr Azərbaycan kimi keçid iqtisadiyyatı şəraitində olan və ixracatının təxminən 80 %-ni xammal təşkil edən ölkələr üçün də olduqca aktualdır. [303, s. 105-106].

İkinci dünya müharibəsindən sonra postsənaye ölkələrində ASK-nin inkişafı bir sıra sosial-iqtisadi proseslərin qarşılıqlı təsiri altında olduqca sürətlənmişdir: 1) Kənd təsərrüfatının texniki bazasının yenidənqurulması, onun sənayeləşməsi və təxminən manufaktura istehsalına uyğun vəziyyətdən sənaye, sonra isə iri maşınlı sənaye mərhələsinə daxil olması; 2) Kənd təsərrüfatını maşın, gübrə, tikinti materialları və digər mallarla təmin edən, onun məhsullarını emal edən sənaye sahələrində, habelə ərzaq məhsullarının ticarəti ilə məşğul olan, kənd təsərrüfatına nəqliyyat, maliyyə-bank və digər xidmət göstərən sahələrində kapitalın təmərküzləşməsi və inhisarlaşması prosesi baş verir; 3) yüksək təmərküzləşmiş sənaye və bank kapitalı sürətlə aqrar sferaya daxil olur; 4) qloballaşma prosesi dərinləşdikcə dövlətlərüstü və beynəlxalq inteqrasiya beynəlxalq qurumların vahid aqrar siyasət yeritməsi (məsələn, Avropa İttifaqı və dünyanın digər birləşmələrində olduğu kimi) getdikcə real məzmun alır və daha da intensivləşir. Onu da göstərmək lazımdır ki, ABŞ kənd təsərrüfatında elmi-texniki tərəqqi 30-cu illərdə, Qərbi

Avropa ölkələrində isə 60-cı illərdə baş vermişdir. ABŞ-dan fərqli olaraq Avropada elmi-texniki tərəqqi kənd təsərrüfatında xırda əmtəə istehsalçılarının üstünlük təşkil etdiyi və təsərrüfatın və əməyin təşkilinin köhnə formalarının kifayət qədər qaldığı bir şəraitdə baş vermişdir. Avropa ölkələrində kənd təsərrüfatının geriliyi Avropada inteqrasiya prosesini stimullaşdıran və sürətləndirən başlıca amillərdən biri olmuşdur. Təsadüfi deyil ki, bəzən "yaşıl avropa . . . burada siyasi birliyin özülü" [248, s. 5 ] hesab edilir.

Postsənaye ölkələrində texniki tərəqqi öz ifadəsini onun yüksək dərəcədə mexanikləşdirilməsində, kimyalaşdırılmasında, elektrikləşdirilməsində, yeni texnika və texnoloji proseslərin intensiv tətbiqində, irriqasiyanın, müasir nəqliyyat texnika və texnoloji proseslərin sürətli inkişafında informasiya texnikası və texnologiyasının geniş şəbəkələrinin sürətli inkişafında informasiya texnikası və texnologiyasının geniş tətbiqində tapır. Bütün bunlar kənd təsərrüfatı məhsulları istehsalının sənaye əsasına keçirilməsini təmin edir. Kənd təsərrüfatının mexanikləşdirilməsi öz ifadəsini yalnız kənd təsərrüfatında tətbiq edilən maşınların sayca artmasında tapmır. Həmin proses kənd təsərrüfatı istehsalında bu sahəni sənaye üsuluna keçirən mürəkkəb avtomatlaşmış maşın və mexanizmlərin tətbiqində əks olunur.

Kənd təsərrüfatında texniki və texnoloji sıçrayışların sövqedici amilləri ərzaq və kənd təsərrüfatı xammalına tələbin sürətlə artması, bu sahədə müəyyən kapital yığımının olması, üstəlik dövlət subsidiya və yardımlarının artması, aqrar bölmənin vahid iqtisadi sistemə uyğunlaşması və bərabər şərtlərlə qoşulması zəruriliyidir.

Kənd təsərrüfatına keyfiyyətcə yeni texnika və texnologiyanın daxil olması bu sahədə aşağıdakı bir sıra yeni cəhətlərin meydana çıxmasına səbəb olmuşdur. Məhsul istehsalı sürətlə artdığı halda məşğulluq və bir çox hallarda əkin sahələri və bəzən heyvanların sayı azalır; adambaşına hesabı ilə əsas kapitalın sənayeyə nisbətən daha yüksək səviyyəsinə nail olunmuş; sənaye və iqtisadiyyatın digər sahələrinə nisbətən əmək məhsuldarlığının daha yüksək artım tempi əldə edilmiş; xammal və ərzaq istehsalı artdığı halda məcmu daxili məhsulda və məşğulluqda kənd təsərrüfatının payı sürətlə azalmışdır. Əsas fondların tərkibində onun aktiv hissəsinin, yəni maşın və avadanlığın payı passiv hissəyə (bina, tikili və s. ) nisbətən artır. Canlı əməyin maşın və texnika ilə silahlanması və əvəz olunması əmək məhsuldarlığının və sahənin səmərəliliyinin sürətlə artmasına gətirib çıxarmışdır.

Kənd təsərrüfatı istehsalının səmərəliliyinin artması bu sahənin iri inhisarçı birliklər üçün əlverişli kapital qoyuluşu sferasına çevirmişdir. Kənd təsərrüfatı məhsullarını emal edən sənaye sahələrinin inkişafı xüsusən əlverişli sahəyə çevrilmişdir. Nəhəng soyuducular, elavatorlar, tərəvəz ambarları transmilli korporasiyaların investisiyaları əsasında yaradılmış və kənd təsərrüfatı istehsalını keyfiyyətcə ciddi sürətdə dəyişdirir. Aqrar bölmə vahid iqtisadi sistemin mühüm tərkib hissəsinə çevrilmiş, kənd təsərrüfatı məhsullarını emal edən sənaye sahələri ilə birlikdə aqrar-sənaye kompleksini təşkil edir.

Kənd təsərrüfatının sürətlə sənayeləşməsi külli miqdarda kapital qoyuluşu tələb edir. Təbiidir ki, bu tələbatı aqrar bölmə müstəqil olaraq öz mənbələri hesabına təmin etmək iqtidarında deyildir və kənd təsərrüfatı müəssisələrinin cəlb olunan borc vəsaitinə ehtiyacı daha çoxdur. Bu cəhət kənd təsərrüfatının aqrar-sənaye kompleksinin ayrılmaz tərkib hissəsinə çevrilməsi üçün mühüm şərtlərdən biridir.



ASK-nin yaranması və inkişafını şərtləndirən mühüm amillərdən biri də iqtisadiyyatın digər sahələrində, daha dəqiq desək, kənd təsərrüfatını istehsal vasitələri ilə təmin edən, onun məhsullarının emalı üzrə ixtisaslaşan sahələrdə təmərküzləşmə və rəqabətin öz yüksək həddinə çatmasıdır.

Ərzaq ticarətində də inhisarlaşma yüksək səviyyədədir. Yuxarıda göstərilən proseslərin təsiri altında müasir dünya iqtisadiyyatında vahid aqrar-sənaye kompleksi formalaşıb yüksək sürətlə inkişaf edir.

Elmi ədəbiyyatda ASK üç tərkib hissəyə ayrılır: 1). kənd təsərrüfatı üçün istehsal vasitələri istehsal edən maşıqayırma sənayesi; mineral gübrələr və kimyəvi vasitələr istehsalı üzrə sənaye sahələri; mikrobiologiya sənayesi; meliorasiya texnikası sənayesi və s. 2). bitkiçilik, heyvandarlıq və meşə təsərrüfatını birləşdirən kənd təsərrüfatı istehsalı; 3). kənd təsərrüfatı məhsullarının emalı və satışı ilə məşğul olan sahələr. Beləliklə, "aqrar-sənaye inteqrasiyası" xalq təsərrüfatının bir-biri ilə qarşılıqlı əlaqədə olan, lakin müstəqil fəaliyyət göstərən müxtəlif sahələrin dialektik vəhdəti kimi çıxış edir [ 248, s. 19]. Geniş planda baxıldıqda kənd təsərrüfatına maliyyə-kredit, nəqliyyat xidməti göstərən sahələr də ASK-nin formalaşması və inkişafında yaxından iştirak edir. Lakin bu sahələrin əksəriyyəti ölkə iqtisadiyyatının digər kompleksləri ilə bağlıdır. ASK-nın tərkibinə onun son məhsulunun istehsalında iştirak edən iqtisadiyyat sahələrinin hamısı deyil, öz fəaliyyətinin əsas hissəsini kompleksin işi ilə əlaqədar quran sahələr daxildir [ 81, s. 20].

Durmadan artan dünya əhalisinin ərzaqla təmin olunması zəruriliyi və problemlərinin getdikcə daha çox qlobal xarakter alması aqrar-sənaye kompleksinin hüdudlarının milli iqtisadiyyat çərçivəsindən kənara çıxmasını şərtləndirmişdir. Ərzaq və onunla bağlı sahələrin məhsullarının istehsalı, bölgüsü, mübadiləsi və istifadəsi ümumdünya təsərrüfat sisteminin fəaliyyətinin mühüm tərkib hissəsidir; dünyada gedən dərin iqtisadi və siyasi proseslərin aparıcı istiqamətlərindən biridir. Aqrar-sənaye kompleksində baş verən qloballaşma prosesi ərzaq və onun istehsalı ilə bağlı olan məhsulların satış bazarlarında rəqabəti daha da kəskinləşdirərək istehsalın, ilk növbədə, iri təsərrüfatlarda inkişafını, kənd təsərrüfatı məhsulları ticarətinin genişlənməsini, əsas ərzaq məhsulları ilə özünü təminetmə dərəcəsinin artmasını təşviq edir. Lakin istehsal, ticarət və istehlak sahəsində baş verən mühüm irəliləyişlər ölkələr və transmilli şirkətlər arasında ziddiyyətlərin də artması ilə müşaiyət olunur.

İkinci dünya müharibəsindən sonra regional iqtisadi inteqrasiya birliklərinin sürətlə bütün dünyaya yayılması bu ziddiyyətlərin labüd nəticələrindən biridir. Belə inteqrasiya birliklərinin ilk və ən inkişaf etmiş forması olan Avropa İttifaqının yaranmasının başlıca məqsədlərindən biri, məhz vahid kənd təsərrüfatı siyasətinin yeridilməsidir. Bu siyasətin əsas istiqamətləri aşağıdakılardan ibarətdir: 1. Avropa İttifaqının dövlətlərüstü orqanlarının vahid aqrar siyasət yeridilməsində məsuliyyəti; 2. kənd təsərrüfatı məhsullarının vahid qiymətlərinin dəstəklənməsi; 3. üçüncü ölkələrlə aparılan kənd təsərrüfatı məhsulları ticarətində birlik dövlətlərinin razılaşdırılmış ümumi ticarət qaydaları; 4 birlik üzvlərinin bir-biri ilə ticarətdə qarşılıqlı üstünlüklər verməsi və birlik daxilində kənd təsərrüfatı məhsullarının sərbəst ticarəti; 5. vahid kənd təsərrüfatı siyasətinin birgə maliyyələşdirilməsi;[ 248, s. 51]. Yalnız onu göstərmək lazımdır ki, Avropa İttifaqı büdcəsinin 2/3 hissəsi məhz vahid aqrar siyasətin həyata keçirilməsi ilə əlaqədardır [ 304 s. 370]. Beləliklə, dövrümüzün əsas məzmununu təşkil edən qloballaşma prosesinin müasir

dövrdə aparıcı xəttə çevrilməsinə baxmayaraq ASK, ilk növbədə kənd təsərrüfatı sahəsində himayəçilik siyasətinin siyasi və iqtisadi gündəlikdən çıxması demək deyildir.

Kənd təsərrüfatının iqtisadiyyatın mühüm sahələri ilə inteqrasiya edərək aqrar-sənaye kompleksi yaratması ilə əlaqədar olaraq müasir dövrdə aqrar siyasətin səmərəliliyi əhəmiyyətli dərəcədə qeyri-kənd təsərrüfatı siyasətindən asılıdır. Başqa sözlə, aqrar bölmənin çiçəklənməsi üçün qeyri-kənd təsərrüfatı siyasəti həyati əhəmiyyət kəsb edir. Belə ki, kənd təsərrüfatı məhsullarını emal edən sənaye sahələrinin sürətli inkişafı aqrar bölmənin canlanmasına əlverişli şərait yaradır. Sərt pul və büdcə siyasəti, büdcə kəsirlərinin artması, kredit faizlərinin yüksək olması da fermer təsərrüfatının fəaliyyətinə çox ciddi mənfi təsir göstərir. Sərbəst dəyişən valyuta məzənnəsi sistemində qeyri-real valyuta məzənnəsinin formalaşması fermer təsərrüfatları üçün xüsusən neqativ nəticələr doğurur.

Azərbaycanda bazar iqtisadiyyatına keçid bu sahədə dünya təcrübəsinin öyrənilməsini, aqrar-sənaye kompleks müəssisələrində elmi-texniki tərəqqinin nailiyyətlərinin, təsərrüfatçılıq və istehsalın idarə edilməsinin səmərəli formalarının tətbiq edilməsini, təsərrüfatsızlığın qarşısının alınması, təşəbbüskarlığın aktivləşdirilməsi və s. əsasında istehsalın səmərəliliyinin artırılmasını tələb edir.

## 5.2. Yanacaq-energetika sektoru və Azərbaycanın iqtisadi inkişafı

*Bildiyimiz kimi, bu gün dünyanın siyasi gündəliyində enerji təhlükəsizliyi məsələləri xüsusi yer tutur. Azərbaycan bu sahəyə öz töhfəsini verir və gələcəkdə öz töhfəsini verməyə hazırdır. Biz irimiqyaslı enerji layihələrinin təşəbbüskarı və iştirakçısıyıq. Bu layihələr nəticəsində Azərbaycan xalqı həm böyük mənfəət götürür, həm ölkənin beynəlxalq mövqeləri möhkəmlənir, həm regional əməkdaşlıq üçün çox gözəl şərait yaranır. Bu gün bizim həm Xəzəryanı ölkələrlə, qonşu dövlətlərlə, həm də Qara dəniz, Baltik dənizi ölkələri ilə üzərində işlədiyimiz konkret layihələr var. Bizim siyasi əlaqələr güclənir və əlbəttə ki, nəqliyyat, enerji və humanitar sahəsində regional əməkdaşlıq bu bölgəyə daha da çox imkanlar gətirir, bizim qarşımızda daha da çox imkanlar açır və biz bundan sonra da regional işlərdə öz fəallığımızı davam etdirəcəyik.*

**İlham ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*

Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi: "Azərbaycanın enerji potensialı əsrlər boyu Rusiya, son 70 ildə isə SSRİ iqtisadiyyatının inkişafına xidmət etmişdir. Hazırda həmin potensial bütün dünyada iqtisadi sıçrayış üçün təsirli stimul ola bilər. Qərb və Azərbaycanın bir-birinə ehtiyacı vardır. əgər qlobal əməkdaşlıq tərəflərin birinin dünya bazarına çıxmasını təmin edirsə, digər tərəfə isə imkan verir ki, qarşıda duran enerji böhranından xilas olsun."

Ölkəmizdə bazar iqtisadiyyatına keçid və irimiqyaslı qloballaşma prosesi neft istehsalının intensivləşdirilməsi və beynəlxalq əhəmiyyət kəsb etməsi ilə bilavasitə əlaqədardır. Heydər Əliyev 1995-ci ildə demişdir: «Azərbaycanda tə



qədimlərdən neft və qaz çıxarılır. Ölkəmizdə sənaye üsulu ilə neft çıxarılmasına hələ ötən əsrin ortalarında 1848-ci ildə başlanmışdır. Əsrimizin əvvəlində neft sənayemiz öz inkişafının yüksək mərhələsinə çatmışdı. Bu zaman dünya neft hasilatının çox hissəsi Azərbaycanın payına düşürdü. Bütün ötən dövr ərzində Azərbaycanda 1 milyard 400 milyon ton neft çıxarılmışdır. Lakin Azərbaycanda bu gün də zəngin neft və qaz yataqları var. Müstəqil dövlət kimi dünya birliyinə daxil olduğumuz indiki dövrdə biz enerji ehtiyatlarımızdan istifadə etmək üçün tədbirlər görürük» [17, s. 3].

Məlum olduğu kimi, bu istehsal sahəsi bütövlükdə ölkənin iqtisadi və sosial-siyasi inkişafında həlledici rol oynayır. Akademik Asəf Nadirov qeyd edir: «XIX əsrin ikinci yarısından başlayaraq Abşeronun zəngin neft sərvətlərinin mənimsənilməsi zəminində Azərbaycanın getdikcə artan güclü sənaye potensialı bütövlükdə onun iqtisadiyyatının geniş istiqamətli inkişafının möhkəm əsaslarını yaratdı. O dövrlərdən bu günə qədər respublikanın iqtisadi inkişafının başlıca yönümünü neft sənayesi və onunla bilavasitə əlaqədə yaranmış müxtəlif istehsal sahələri müəyyən etmişdir. Məsələ ondadır ki, uzun müddət tərkibində olduğu Sovet İttifaqının əsas neftçıxarma sənayesi mərkəzi kimi bu sahə özünün yüksək inkişafı ilə əlaqədar neft emalı, neft-kimya və kimya, geniş istiqamətli neft maşınqayırması, metallurgiya, elektroenergetika və istehsal-texnoloji cəhətdən sıx bağlı çoxlu başqa sahələrdən ibarət respublikada əhatəli sənaye kompleksinin yaranmasına səbəb olmuşdur. Xeyli vaxt bu əlaqəli sahələr birliyi respublika sənaye məhsulunun yarıdan artığını vermişdir» [84]. Heydər Əliyev cənabları 1995-ci ildə demişdir: «Azərbaycanda neft və qaz sənayesinin böyük infrastrukturu yaradılmışdır. Elmi-tədqiqat institutlarından, elmi potensialdan əlavə, güclü neftayırma sənayemiz var. Hazırda respublikada ildə 9 milyon ton neft çıxarılır, neftayırma zavodlarının gücü isə təxminən 23-25 milyon tondur. Azərbaycanda güclü neft kimyası və neft maşınqayırma kompleksləri var. Keçmiş Sovet İttifaqında buraxılan neft mədən avadanlığının 70% -ə qədəri Azərbaycanın neft maşınqayırma zavodlarında istehsal olunurdu» [17, s. 35].

1969-cu ildə cənab Heydər Əliyevin respublikaya rəhbərliyə başlaması ilə ölkə iqtisadiyyatının bütün sahələrində olduğu kimi, yanacaq-energetika sektorunda da yeni inkişaf dövrünün təməli qoyuldu.

Xəzər dənizində axtarış-kəşfiyyat işlərini sürətləndirmək üçün xarici avadanlıqla təchiz olunmuş nəhəng kompleks-Bakı Dərin Özüllər zavodu inşa edildi, yeni müasir səviyyəli üzən qazma qurğuları, sualtı borudüzən və kran gəmiləri alınıb Xəzərə gətirildi, neft-qaz sənayesinin infrastrukturunun əsas sahələri yenidən quruldu, onun möhkəm maddi-texniki bazası yaradıldı.

Məhz 70-80-ci illərin birinci yarısında yaradılmış güclü potensial Xəzər dənizində Günəşli, Çıraq, Azəri və Kəpəz kimi yeni neft yataqlarının açılmasını təmin etdi ki, bu da müasir Azərbaycan dövlətinin banisi cənab Heydər Əliyevin yaradıcısı olduğu yeni neft strategiyasının həyata keçirilməsində ilkin mərhələnin əsasını qoydu. Xüsusi vurğulamaq lazımdır ki, heç bir tarixi dövrdə neft sənayesinin rolu Azərbaycanın sosial-iqtisadi həyatında müstəqillik əldə edildikdən sonrakı dövrdəki qədər əhəmiyyətli olmamışdır.

Xəzər hövzəsi öz potensial neft və qaz ehtiyatlarına görə dünyada Yaxın

Şərq və Rusiyadan sonra üçüncü yerdədir. Xəzərin Azərbaycan sektorundakı neft ehtiyatları müxtəlif və ən mötəbər ekspertlərin hesablamalarına görə «4 milyard tondan - 10 milyard tona» qədər, qaz ehtiyatları isə «1500 milyard $m^3$» həcmindədir. Azərbaycan Respublikası öz neft ehtiyatlarını xarici şirkətlərin investisiya və ən yeni texnologiyası əsasında hasil edərək, onu dünya bazarına çıxarmaq və əldə etdiyi mənfəət hesabına iqtisadiyyatın qalan sahələrini inkişaf etdirmək üçün geniş imkanlar əldə etmişdir.

Xəzər dənizinin Azərbaycana aid olan hissəsində mövcud olan hasil ediləcək neftin dünya bazarına çıxarılmasında ABŞ və Qərb dövlətlərinə məxsus iri şirkətlər ilə bağlanılan neft müqavilələri xüsusi əhəmiyyətə malikdir. 1994-cü ilin sentyabrında Bakıda neft hasilatı üzrə ixtisaslaşmış və dünyanın 6 ölkəsini təmsil edən 11 iri şirkət arasında Azərbaycanın Xəzər dənizi sektorunda 3 neft yatağının («Azəri», «Çıraq» və «Günəşli» yataqlarının) birgə istifadəsi nəzərdə tutulan «Əsrin müqaviləsi» imzalandı. İmzalanmış müqavilədə «Amoco-BP» 34%; ARDNŞ-10%, LUKOİL-10%, Unocol-10%, 36% isə qalan 6 şirkətin payına düşürdü. Bağlanmış müqaviləyə əsasən 30 il ərzində 600 milyon ton neft və 100 milyard $m^3$ təbii qaz ehtiyatı olan bu yataqlarda görüləcək işlər, karbohidrogen ehtiyatlarının kəşfiyyatı, hasil edilməsi və ixracı ilə bağlı 8 milyard dollara yaxın vəsaitin sərf olunması nəzərdə tutulmuşdur. Bu dövrdə adı çəkilən yataqların tam miqyaslı işlənməsinin 3-cü fazası çərçivəsində mühəndis - layihə işlərinə də başlanılacağı nəzərdə tutulmuşdur. «Azəri», «Çıraq» və «Günəşli» yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü sazişi çərçivəsində «Faza-2» ən böyük layihələrdən biridir. «Azəri» yatağının qərb və şərq hissəsini əhatə edən «Faza-2» layihəsi 1 milyard 350 milyon barrel neft hasilatına yönəldilir. Bu layihə çərçivəsində neft istehsalına 2006-2007-ci illərdə başlanılmışdır.

Neft müqavilələrinin iqtisadi modeli dünya praktikasında karbohidrogen istehsalında geniş tətbiq olunan «Prodekşn Şerinq» modelinə əsaslanır. Bu iqtisadi modelin mahiyyəti ondan ibarətdir ki, məhsulun istehsalına və satışına başlandıqdan sonra əldə edilmiş ilkin gəlirdən layihənin həyata keçirilməsinə sərf olunmuş kapitalın ödənilməsinə və qalan məhsulu «mənfəət məhsulu» adlandıraraq, müqaviləyə əsasən iştirakçılar arasında bölüşdürülməlidir. Azərbaycan Respublikasında bağlanmış olan bütün müqavilələrin spesifik cəhətlərindən biri də bundan ibarətdir ki, layihələrin həyata keçirilməsinə çəkilən xərclər azaldıqca, ölkəmizə düşən məhsulun həcmi artır. Ekspertlərin hesablamalarına görə təkcə «Əsrin müqaviləsi»nin reallaşdığı 30 il ərzində mənfəət məhsulunda ARDNŞ-nin payı ilk dövrdə 10% həddində müəyyən edilməsinə baxmayaraq, müqavilə başa çatana qədər həmin rəqəm 90%-dək yüksələcəkdir. Bütövlükdə bu məhsulun 50%-nə sahib olmaq deməkdir. Bundan başqa yataqların kəşfi və işlənməsi ilə bağlı Azərbaycan tərəfinin payına düşən kapital xərclərini xarici şirkətlər öz öhdəsinə götürürlər. Yəni onlar əldə etdikləri mənfəəti qabaqlamaqla xarici şirkətlər «Fiziki şəxslərin gəlir vergisi» istisna olmaqla qalan vergilərdən azad olmuşlar. «Əsrin müqaviləsi» imzalandıqdan sonra, Xəzərin Azərbaycan sektoruna aid olan hissəsindəki, karbohidrogen ehtiyatlarının birgə istismarını nəzərdə tutan əlavə 19 neft müqaviləsi bağlanmışdır. Azərbaycan Respublikasının xarici şirkətlərlə imzaladığı müqavilələrin içərisində ölkəyə ən çox investisiya qoyan və öndə gedən şirkət



Amoko olmuşdur. EXXON və BP şirkəti ikinci və üçüncü yerləri tutur. ARDNŞ isə qoyulmuş ümumi investisiyadan 50%-dən çoxunu təşkil edir. Lakin bunlarla belə Azərbaycan Respublikasının imzaladığı ilk 20 müqavilənin iqtisadi göstəriciləri aşağıdakı kimidir: proqnozlaşdırılan neft ehtiyatı 2, 194 milyon ton, qaz ehtiyatı isə 1, 656 milyard $m^3$-dır. Müqavilələrdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin payı ən azı 10%-dən 50%-ə qədər proqnozlaşdırılır. Bu o deməkdir ki, ümumi neftin 35%-dən çoxu Azərbaycan Respublikasının sərəncamındadır. Burada demək olar ki, ölkəmizin payına 770 milyon ton neft düşəcəyi nəzərə alınmışdır [320, 2001, №2, s. 24].

"Əsrin müqaviləsi"nin imzalanması və onun uğurla həyata keçirilməsi Azərbaycanın neft sənayesinin, bütövlükdə ölkə iqtisadiyyatının inkişafına təkan vermişdir. Artıq neçə illərdir ki, Azərbaycanda "Əsrin müqaviləsi" çərçivəsində nəhəng tikinti-quraşdırma işləri aparılır, neft hasilatı getdikcə artırılır.

Azərbaycanın neft sektoruna yönəldilmiş 30 milyard dollardan artıq vəsait hesabına ölkə iqtisadiyyatının aparıcı sahəsi olan neft sənayesinin infrastruktur imkanları əsaslı şəkildə yaxşılaşdırılmışdır. Bu da Azərbaycanda neft hasilatının kəskin sürətdə artırılmasına imkan yaratmışdır.

"Əsrin müqaviləsi"nin əhəmiyyəti haqqında Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyev demişdir: "Biz bu müqaviləni imzalamaqla Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdirdik. Biz müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük neft şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq".

**İllər üzrə (1996-cı ildən, 2006-cı il) neft hasilatı aşağıdakı rəqəmlərlə xarakterizə edilir:**

| İllər | mln ton |
|---|---|
| 1995 | 9, 2 |
| 2000 | 14, 0 |
| 2001 | 14, 9 |
| 2002 | 15, 3 |
| 2003 | 15, 4 |
| 2004 | 15, 5 |
| 2005 | 22, 2 |
| 2006 | 32, 2 |
| 2007 | 41, 7 |
| 2008 | 50, 0 |

2007-ci ildə olkədə istehsal olunan ÜDM-in 55, 9%-i məhz neft sektoru hesabına formalaşmışdır ki, bu da əvvəlki ilə nisbətən 1, 5% bəndi çoxdur. Neft sektorunda artım əsasən neft hasilinin artımından təsirlənsə də, əvvəlki ilə nisbətən neft hasilatında artım tempi 26, 3% bəndi azalaraq 36, 8% təşkil etmişdir. Neft hasilatından fərqli olaraq, neft emalında yüksək artım tempi müşahidə edilmişdir.

Neft emalının artım tempi əvvəlki ilə nisbətən 4%bəndi artaraq 7, 3% təşkil etmişdir ki, bu da onun neft sektorunun ÜDM-indəki payını 1, 7% bəndi yüksəldərək 5, 3%-ə çatmasına səbəb olmuşdur. Neft emalının artım tempinin yüksəlməsi bu sektorda müşahidə edilən keyfiyyət dəyişikliyi kimi qiymətləndirilə bilər.

Yaxın gələcək illərdə Azərbaycanda neft hasilatı maksimum səviyyəyə çatdırılaraq, ildə 60-65 milyon tonu ötüb keçəcək. Bu da, heç şübhəsiz, ölkəmizin iqtisadiyyatını artırmaqla yanaşı, qeyri-neft sektorunun inkişaf etdirilməsinə və xalqımızın firavanlığının təmin olunmasına gətirib çıxaracaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi: "Azərbaycanın zəngin neft ehtiyatları var və biz bu təbii ehtiyatlardan Azərbaycan xalqının milli maraqlarının qorunması üçün, Azərbaycanda güclü iqtisadi potensialın yaranması üçün çox səmərəli şəkildə istifadə edirik. Neft Fondunun yaranması həm gələcək nəsillər üçün gözəl imkanlar yaradacaq və orada yığılan vəsait gələcək nəsillərə xidmət edəcəkdir. Bu, Azərbaycanın bugünkü problemlərinin həlli üçün də bizə yardımçı olur".

Son illər ulu öndərin siyasi və iqtisadi islahatlar strategiyasını uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ümumi inkişafı getdikcə sürətlənir, neft strategiyası çərçivəsində yeni-yeni nailiyyətlər əldə olunur. Məhz möhtərəm Prezidentimiz İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində ölkə iqtisadiyyatının bütün sahələrində, xüsusən də neft-qaz sənayesində yeni dövr başlamışdır.

Hazırda ölkənin qaz sənayesinin işində ən ciddi irəliləyişlər müşahidə olunur. Artıq bu sahədə uzun illər davam edən böhranın qarşısı tamamilə alınmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qaz hasilatının artırılması ilə bağlı göstəriş və tövsiyələri əsasında bu sahədə işlər getdikcə genişlənir. Ölkə əhalisinin və iqtisadiyyatının "mavi yanacağ"a olan tələbatının yaxşılaşdırılması işinə mühüm töhfələr verməyə çalışan neftçilərimiz son illər qaz hasilatı sahəsində ciddi dönüşə nail ola bilmişlər. Belə ki, ümumi qaz hasilatı 1995-2007-ci illərində 6, 6 mlrd.$m^3$ -dən 11, 0 mlrd. $m^3$ -ə çatmışdır.

Dövlətin neft strategiyasında neft və qaz sənayesi sahəsinin gələcək inkişafının istiqamətləri müəyyənləşdirilmişdir:

- işləməkdə olan yataqların neftvermə əmsalının artırılması məqsədilə yeni texnika və texnologiyaların tətbiqi;
- dənizin dərin sahələrində yerləşən yataqların istismara daxil edilməsi üçün müasir texnologiyaların tətbiqi;
- neft və qazın hasilatı, yığılması, hazırlanması, nəqli, saxlanması emalı sistemlərinin tikilməsi, yenidən qurulması və modernləşdirilməsi;
- neft və qaz sənayesi sahəsində elmi-texniki tərəqqiyə nail olunması və s

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində xüsusi vurğulamışdır ki, «Azərbaycan iqtisadiyyatının əsas istiqaməti onun neft strategiyasının həyata keçirilməsidir. 1994-cü ildə Heydər Əliyev tərəfindən başlanmış yeni neft strategiyası Azərbaycana böyük uğurlar gətirmişdir... Azərbaycan Xəzər dənizinin özünəməxsus olan sektorunda xarici şirkətlərlə çox uğurlu əməkdaşlıq edir. Azərbaycanın neft sənayesinə 10 mlrd. dollar sərmayə qoyulubdur. On minlərlə yeni iş yerləri açılıbdır, qısa müddət ərzində qazma qurğuları, platformalar, neft kəmərləri, neft terminalları və ölkəmiz üçün vacib olan digər infrastruktur yaradılıbdır [21].



Energetika sahəsində də ciddi irəliləyiş mövcuddur. Hər şeydən əvvəl göstərmək lazımdır ki, SSRİ dövründə elektroenergetika sistemi mərkəzləşdirilmiş şəkildə idarə edildiyindən iri stansiyaların tikintisinə üstünlük verilirdi. SSRİ-nin süqutundan sonra bütün müttəfiq respublikalarda olduğu kimi, Azərbaycanda da vahid elektroenergetika sisteminin dağılması ilə əlaqədar böyük çətinliklər yarandı. Respublikamızda elektrik enerjisi istehsal edən stansiyaların əksəriyyəti istilik elektrik mərkəzlərindən ibarət idi. Çünki o zaman respublika iqtisadiyyatının, xüsusən də sənayenin istilik enerjisinə böyük tələbatı var idi. Bir çox sənaye sahələrinin fəaliyyəti dayandığı üçün istilik enerjisinə tələbat da tamamilə azaldı. Bu da stansiyaların qənaət rejimində işləməsində böyük çətinliklər yaradırdı. Həmin dövrdə 1 kilovatt/saat elektrik enerjisinin istehsalına 700-800 qram şərti yanacaq sərf olunurdu. Stansiyaların faydalı iş əmsalı aşağı düşdüyündən dövlət belə qərara gəldi ki, bu stansiyaları işlətməkdənsə, onların fəaliyyətini dayandırıb sərf olunan yanacağı xaricə satıb həmin vəsait hesabına Rusiyadan enerji almaq daha sərfəlidir. Lakin belə bir vəziyyət Azərbaycanın elektroenergetika sistemini Rusiyadan asılı vəziyyətə salmışdır. Ona görə də Azərbaycanın elektroenergetika sisteminin əsaslı şəkildə yeniləşdirilməsi üçün beynəlxalq maliyyə qurumlarından kreditlərin alınması təmin olundu.

Respublikanın elektroenergetika sahəsinin inkişafı mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın enerji sistemində yeni generasiya güclərinin yaradılması 1992-ci ildə dayandırılmışdı. Respublika rəhbərliyinin gördüyü tədbirlər nəticəsində 1996-cı ildən yeni güclərin yaradılmasına və stansiyalarda yenidənqurma işlərinə başlamışdır. Nəticədə, Avropa Yenidənqurma və İnkişaf Bankının krediti hesabına gücü 150 MVt olan "Yenikənd" SES istismara verilmiş, xarici investisiyaların hesabına Bakı 1 saylı İstilik Elektrik Mərkəzində hər birinin gücü 53 MVt olan müasir tipli, yüksək faydalı iş əmsalına malik, ekoloji cəhətdən təmiz olan 2 qaz-turbin qurğusu istismara verilmişdir. Bu qurğularda yanacağın xüsusi sərfi 200 qram/kVts təşkil edir ki, bu da enerji sistem üzrə göstəricisindən 190 qram/kVts aşağıdır.

Yaponiyanın güzəştli krediti hesabına, MDB ölkələrində analoqu olmayan, müasir tipli, yüksək göstəricilərə malik 400 MVt gücündə buxar-qaz turbinli "Şimal" DRES-in birinci enerji bloku 2002-ci ildə istismara verilmişdir. Xarici qrant və kreditlər hesabına "Mingəçevir" SES-də, ötürücü şəbəkələrdə və yarımstansiyalarda yenidənqurma-bərpa işləri görülmüşdür.

2002-ci ildə cənab İlham Əliyevin təşəbbüsü və yaxından köməyi nəticəsində elektrik stansiyalarında yandırılan mazut yanacağının beynəlxalq bazara çıxarılması, əldə edilən vəsaitin hesabına Rusiya Federasiyasından təbii qazın alınması böyük iqtisadi səmərə vermişdir. Belə ki, mazut yanacağı ilə bağlı nəql və istismar xərcləri, avadanlığın korroziyaya uğraması ehtimalı, atmosferə atılan zərərli tullantıların miqdarı azalmışdır. Ona görə də yeni neft strategiyasının ikinci mərhələsi 14 fevral 2005-ci ildə Prezident İlham Əliyevin "2005-2015-ci illərdə yanacaq-energetika kompleksinin inkişafı üzrə Dövlət Proqramı"-nın imzalanması

Mütəxəssislərin hesablamalarına görə, təkcə "Azəri-Çıraq-Günəşli" yataqlarında 1 milyard 200 milyon ton neft ehtiyatı vardır. İstismarda olan mövcüd yataqlarda qaz ehtiyatı 1, 5 trilyon kubmetrdir. Azərbaycan qazını Avropa bazarına çatdırmaq üçün ən müasir nəqliyyat infrastrukturu mövcuddur. Cənab İlham Əliyev 2008-ci ilin ayında Bakıda keçirilən Beynəlxalq Konfransda bəyan etmişdir ki, ölkəmizdə mövcud neft ehtiyat ları ən azı 100 il iqtisadiyyatın inkişafını təmin edəcəkdir.

2007-ci ilin birinci rübündə "Şahdəniz" yatağından çıxarılan Azərbaycan qazının Bakı-Tbilisi-Ərzurum qaz kəməri vasitəsilə ixrac edilməsinə başlanılıb. Mütəxəssislərin fikrincə, təkcə "Şahdəniz" yatağında qaz ehtiyatlarının həcmi 1 trilyon 200 milyard kubmetrdir. Azərbaycan bu qazı ixrac etməsə, daxili tələbatını 100 ilədək təmin edə bilər. Bundan əlavə, Azəri-Çıraq yataqlarında da 300 milyard kubmetr qaz vardır.

Enerji sektorunun Azərbaycan iqtisadiyyatının inkişafına müsbət təsirini aşağıdakı amillərlə izah etmək olar:

- neft və qazın dünya bazarında satılması ilə ölkəyə çoxlu miqdarda gəlir daxil olur, nəticədə, dövlət büdcəsinin mədaxili yüksəlir, valyuta ehtiyatları artır;

- büdcənin artması ilə büdcədən maliyyələşən təşkilatların maliyyə vəsaitləri, işçilərin əmək haqları, sosial müavinətlər artırılır, səhiyyə, təhsil sahələrində köklü dəyişikliklər baş verir, ordu gücləndirilir;

- valyuta ehtiyatları artdıqca, qeyri-neft sektorunun inkişafı üçün layihələr həyata keçirilir, yeni sənaye sahələri yaradılır, milli proqramların reallaşması sürətləndirilir, sosial islahatlar həyata keçirilir;

- yeni sənaye və istehsal sahələrinin yaradılması ilə daxili tələbat ödənilir, ticarət dövriyyəsi artırılır, işsizliyin qarşısı alınır, dövlət büdcəsinin gəlirləri artırılır;

- ölkəyə investisiya axını güclənir, xidmət və turizm sahələri genişlənir.

Beləliklə, Azərbaycan beynəlxalq iqtisadi münasibətlər sistemində əmək bölgüsü getdikcə dərinləşir və bölgüdə respublikada enerji daşıyıcıları (əsasən neft) istehsalı xüsusi yer tutur. Hazırda ölkəmizdə Qərb dövlətləri ilə iqtisadi əməkdaşlığın əsas obyekti neftçıxarma sənayesidir.

Azərbaycan yanacaq-energetika kompleksinin inkişafı, onun dünya energetika sisteminə inteqrasiyası milli iqtisadiyyatın modernləşdiriləcək sürətli inkişafı üçün geniş imkanlar açır, ölkənin daxili və xarici ehtiyatlarının enerji ehtiyatları ilə təmin edilməsi iqtisadiyyatın sabit və dayanıqlı inkişafına zəmin yaradır.

Neft və qaz hasilatı sənayesinin inkişafı məqsədilə aşağıdakı istiqamətlərdə tədbirlər davam etdirilir:

- yeni yataqların axtarışı və kəşfiyyatı;
- aşkar edilmiş yataqların tammiqyaslı işlənməyə cəlb edilməsi;
- işlənmədə olan yataqların yeni quyuların qazılması və fəaliyyətsiz quyuların bərpası;
- işlənmədə olan yataqlar üzrə neftvermə əmsalının artırılması məqsədi ilə yeni texnika və texnologiyaların tətbiqi;
- neft və qaz hasilatı, nəqli və emalı sistemlərinin tikilməsi, yenidən qurulması və modernləşdirilməsi;



- elm və texnikanın nəaliyyətlərindən və qabaqcıl təcrübədən geniş istifadə edilməsi;

Energetika sənayesinin inkişafı üçün isə aşağıdakı tədbirlər həyata keçirilir:

- alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi;
- yeni stansiyaların və ötürücü şəbəkələrin tikintisi;
- stansiyalarda və enerji ötürmə sistemində yenidənqurma işlərinin aparılması;
- yanacaq sərfinin azaldılması.

## 5. 3. Emaledici sənaye sahələrinin yenidənqurulması - müasir mərhələdə Azərbaycan dövlətinin iqtisadi siyasətinin aparıcı xətti kimi

*Biz Azərbaycanda çox güclü sənayeləşmə siyasəti aparırıq və bu sahəyə diqqət günü-gündən artır.*

**İlham ƏLIYEV,**
*Azərbaycan Respublikasının Prezidenti*

Azərbaycan iqtisadiyyatının XXI əsrdə inkişafı qlobal iqtisadi sistemə səmərəli inteqrasiyasını, sovet dövründə bilavasitə bazarın deyil, Ümumittifaq xalq təsərrüfatı kompleksinin tələblərinə uyğun olaraq formalaşmış iqtisadi strukturun köklü şəkildə transformasiyasının konstruktiv şəkildə davam etdirilməsini tələb edir. Qloballaşma fazasına daxil olmuş Qərb bir neçə iqtisadi və idarəçilik inqilablarını - texnoloji, struktur, informasiya, təşkilati-idarə sıçrayışlarını keçmiş, keyfiyyətcə yeni mərhələyə daxil olmuşdur. Azərbaycanın iqtisadi inkişafının müvəffəqiyyəti tarixin bu çağırışına necə cavab verəcəyimizdən asılıdır. Ölkədə iqtisadi strukturun transformasiyası məhz bu tələblərə uyğun həyata keçirilməsini tələb edir.

Azərbaycan Respublikası xarici investisiya cəlb etmək əsasında neft hasilatını və xaricə neft məhsullarının ixracını fəal sürətdə artırır. Əsas neft müqavilələri real nəticə verməyə başladıqdan sonra bu sahədə artım özünü daha ciddi şəkildə göstərməyə başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2003-cü ildə Nazirlər Kabinetinin ilk iclasında qeyd etmişdir: «Əlbətdə, Bakı-Tbilisi-Ceyhan kəməri istifadəyə veriləndən, Azərbaycanda neft hasilatı ildə 50 milyon ton təşkil edəndən sonra əldə olunan faiz və gəlirlərin hesabına Azərbaycan hərtərəfli inkişaf edəcəkdir. Amma biz buna indidən hazır olmalıyıq. İki-üç ildən sonra daxil olacaq böyük məbləğdə vəsait gərək səmərəli şəkildə xərclənsin. Ona görə də müxtəlif sosial iqtisadi proqramlar indidən hazırlanmalıdır. İlk növbədə, infrastrukturun inkişaf etdirilməsi üçün proqramlar təqdim olunmalıdır». [21a]

Ölkə iqtisadiyyatının tarazlı inkişafı İlham Əliyevin iqtisadi strategiyasının əsasını təşkil edir. Bu strategiyanın həyata keçirilməsi üçün aparıcı iqtisadiyyat sahələrinin inkişafı strateji inkişaf proqramları əsasında istiqamətləndirilir. Dövlət

komunal islahatların sürətləndirilməsi, o cümlədən, burada bazar prinsiplərinin inkişaf etdirilməsi, maliyyə intizamının möhkəmləndirilməsi davam etdiriləcəkdir ki, bu da göstərilən xidmətin həcminin və keyfiyyətinin artırılmasına olduqca müsbət təsir göstərəcəkdir. Bütün bunlarla yanaşı, Dövlət İnvestisiya Şirkəti tərəfindən başlanmış layihələrin reallaşdırılması istiqamətində ciddi işlər görülür. Sahibkarlığın dəstəklənməsi sahəsində güzəştli kreditlərin verilməsi ilə bərabər, vençur mexanizminin tətbiqi, xüsusi zonaların, sənaye şəhərciyinin, biznes-inkubatorlarının, yeni biznes-tədris mərkəzlərinin yaradılması istiqamətində real addımlar atılır. Bu zaman Azərbaycandan dünya bazarına rəqabətqabiliyyətli malların çıxarılmasını təmin etmək üçün müqayisəli üstün sahələrin inkişafına xüsusi diqqət yetiriləcək, maliyyə imkanlarının artması ilə əlaqədar olaraq dövlət bu proseslərdə daha fəal iştirak edəcəkdir. 2007-ci ildə bir sıra yeni müasir müəssisələrin, o cümlədən, "Dimes Qafqaz" şikəti tərəfindən Bakı şəhərində inşa edilən meyvə şirələri fabriki, "Telli" MMC tərəfindən Bakı şəhərində inşa edilən nar şirəsi fabrikinin, Goranboy rayonunda gibs zavodunun, Gəncə şəhərində 5 ulduzlu mehmanxananın, Ağstafada yüksək vitaminli yem zavodunun, Sumqayıtda "Dizayn GENAY-Azərbaycan" şirkətinin plastik boru istehsalı müəssisəsinin və digərlərin istismara verilməsidir. Bununla yanaşı, sement zavodunun, eləcə də Bakı şəhərində tullantıların emalı zavodunun inşasına hazırlıq işləri başa çatdırılmaq üzrədir. Gəncə şəhərindəki alüminium, polad və kənd təsərrüfatı maşınlarının istehsalı üzrə zavodların tikilməyə başlaması qeyri-neft sektorunun inkişafında mühüm əhəmiyyətə malikdir. Beləliklə hazırda əsas vəzifə milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi əsasında uzunmüddətli perspektivdə ölkədə əldə olunmuş dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdir. Bu başlıca məqsədlərin reallaşması tədbirləri qəbul edilmiş dövlət proqramları çərçivəsində sistemli şəkildə həyata keçirilir. Genişmiqyaslı iqtisadi islahatların nəticəsində hazırda Azərbaycanda sahibkarlığın davamlı inkişafına əlverişli zəmin yaranmışdır.

Beləliklə, Azərbaycanın dünya bazarına sabit rəqabətqabiliyyətli məhsul ixrac edə bilməsinin əsasında emaledici sənayenin hər vasitə ilə inkişaf etdirilməsi dayanır.

Respublikamızda uzun illər emaledici sənayenin aparıcı sahəsi maşınqayırma sənayesi olmuşdur.

Azərbaycanda yanacaq-enerji kompleksinin inkişafı ona əsas xidmət sahələrindən biri olan neft maşınqayırma avadanlıqları istehsalının inkişafına da təkan verdi. Azərbaycan neft-maşınqayırma sənaye sahəsinin əsası XIX əsrin sonlarında mexaniki-təmir sexlərinin yaradılması ilə qoyulmuş və XX əsrdə sürətlə inkişaf etmişdir.

Sovet dövründə, xüsusən 1970-80ci illərdə Azərbaycanda cənab Heydər Əliyevin rəhbərliyi ilə maşınqayırma sənayesi sürətlə inkişaf etmişdir. Ölkəmiz neft-qaz hasilatı üçün maşın və avadanlıq istehsalı üzrə SSRİ-də əslində inhisarçı mövqeyə malik olmuşdur. Həmin kompleksin maşın və avadanlığa olan ehtiyacının 70%-i Azərbaycanda istehsal edilirdi. Respublika ərazisində neft və qaz avadanlığı istehsal edən 16 zavod kompakt şəkildə yerləşdirilmişdir. 90-cı illərin əvvəllərində



Respublikanın maşınqayırma kompleksində güclü istehsal, əmək və elmi potensial toplanmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev göstərmişdir: "... Əgər ötən əsrin 70-ci illərində yenə də cənab Heydər Əliyev tərəfindən Azərbaycanda müasir neft infrastrukturu yaradılmasaydı, yəqin ki, 1993-cü ildə başlanan yeni neft strategiyasını həyata keçirmək o qədər də asan olmazdı. Məhz o illərdə Azərbaycanda qazma qurğular tikilibdir. Dərin Özüllər Zavodu istifadəyə verilibdir ki, öz növbəsində, həmin zavodda indi yeni platformalar quraşdırılır". [21]

İqtisadiyyatın texniki cəhətdən yenidənqurulmasında, elmi-texniki tərəqqinin və ümumiyyətlə ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsində maşınqayırma həlledici rol oynayır. Maşınqayırmanın dirçəldilməsi və inkişafının təmin edilməsi bazar münasibətləri mexanizmində mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın maşınqayırma sənayesi hal-hazırda 26 ixtisaslaşmış sahə və istehsalı birləşdirir. Onun tərkibinə Respublikanın qocaman sahəsi olan neftmaşınqayırma sənayesi, habelə 70-ci illərdə sürətlə inkişaf etməyə başlayan elektron, priborqayırma, avtomobil, dəzgahqayırma sənayesi, kənd təsərrüfatı maşınqayırma və s. sənaye sahələri təmsil edilmişdir. [203, s. 18].

Lakin müstəqillik əldə edildikdən sonrakı ilk illərdə maşınqayırma sənayesi ölkədə özünü göstərən dərin iqtisadi böhranın dağıdıcı təsirinə ən çox məruz qalan sahədir. Rusiya bazarı üçün ixtisaslaşmış olan bu sahə, iqtisadi əlaqələr kəsildikdən sonra iflic vəziyyətinə düşdü. Ənənəvi bazarlara məhsul satışının kəskin azaldığı, yeni bazarlar üçün isə rəqabətqabiliyyətli məhsullar çıxarılmasının həmin dövrdə qeyri-mümkünlüyü yaradılmış nəhəng istehsal güclərinin böyük əksəriyyətinin istifadəsiz qalması və ya başqa məqsədlər üçün istifadə edilməsi ilə nəticələndi. Ölkədə daxili və xarici kapital qoyuluşu imkanlarının əsas etibarilə yanacaq energetika kompleksinin inkişafına yönəldilməsi maşınqayırma sahəsinə investisiya qoyuluşlarının ümumi investisiyalara nisbətən 0, 4%-ə qədər azalmasına səbəb olmuşdur. Bu isə mövcud istehsal güclərinin keyfiyyət göstəricilərinin pisləşməsinə, sahənin istehsal-texniki bazasının kritik vəziyyətə düşməsinə səbəb olmuşdur. Nəticədə Azərbaycanın ixracatında maşınqayırma və metal emalı məhsullarının xüsusi çəkisi kəskin sürətdə azalma meyli göstərmiş və 1991-ci ildə 17, 7%-dən 1994-cü ildə 14, 9%-ə, 1999-cu ildə 3, 7%-ə və 2005-ci ildə isə 1, 5%-ə qədər azalmışdır. Şübhəsiz 1999-cu ildən sonrakı bu nisbi azalma neft məhsulları ixracının sürətli artımı ilə əlaqədardır. Lakin qarşıya qoyulan vəzifələr bu nisbətin optimallaşmasını tələb edir.

Ölkənin maşınqayırma sənayesi sahəsində müasir dövrdə elə ciddi məsələlər durur ki, onların həlli mülkiyyət və idarəçilik üsullarının, istehsalın təşkilinin daha da təkmilləşdirilməsini, hər bir alt sahənin inkişaf strategiyasına ciddi diqqət yetirilməsini tələb edir. Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2003-cü il tarixli Fərmanında iqtisadiyyatın idarə edilməsi sistemində islahatların başa çatdırılması qarşıya qoyulur. Həmin sənəddə eyni zamanda İqtisadi İnkişaf Nazirliyinə tapşırılmışdır: «Dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramına uyğun olaraq özəlləşdirməyə açıq elan olunmuş dövlət müəssisələrinin özəlləşdirilməsini və idarəetməyə verilməsini sürətləndirsin». [12']

Bizim fikrimizcə qloballaşma prosesləri nəzərə alınmaqla maşınqayırma sənayesinin xüsusi inkişaf strategiyasının hazırlanması vacibdir. Bu strategiya maşınqayırma sənayesi məhsullarının daxili və dünya bazarlarında rəqabət qabiliyyətinin artırılmasına yönəldilməsi günün təxirəsalınmaz məsələlərindəndir. Ona görə də adı çəkilən Fərmanda Nazirlər Kabinetinə tapşırılmışdır: «Müəssisələrdə beynəlxalq standartlara cavab verən məhsul istehsalını və onların dünya bazarına ixracını stimullaşdıran müvafiq tədbirlər görsün». [12]

Geniş mənada yanacaq-enerji kompleksi, xüsusi halda isə neft-maşınqayırma və metallurgiya sənaye sahələrinin bir-birini tamamlayan istehsal zənciri Azərbaycan iqtisadiyyatının inkişaf etdirəcəyi əsas istiqamətlərdəndir.

Neft sənayesi və maşınqayırma kompleksinin birgə fəaliyyəti təkcə istehsalın aşağı düşməsinin qarşısını almaq, istehsal güclərinin optimal yüklənməsi, işsizliyin aradan qaldırılması kimi çox vacib istehsal-iqtisadi məsələnin həlli deyil, həm də xarici maşın və avadanlıqların idxalından imtina etməklə külli miqdarda valyutaya qənaət etmək deməkdir.

Dünya bazarına çıxarılan Azərbaycan neftinin həcminin sürətlə artdığı bir şəraitdə neft-maşınqayırma sahəsində uzun illər boyu yaradılmış istehsal, elmi, intellektual potensialdan səmərəli istifadə edilməsi günün təxirəsalınmaz məsələlərindəndir.

Azərbaycanda neft maşınqayırma sənayesi yüksək inkişaf etdiyi halda, eyni sözləri maşınqayırmanın digər sahələrinə aid etmək olmaz. Belə ki, respublikanın maşınqayırma zavodlarında Azərbaycanda istifadə edilən nəqliyyat vasitələrinin, kənd təsərrüfatı və digər maşınların istehsalı keçmişdə kifayət qədər təşkil edilməmişdir. Maşınqayırmanın özəyi sayılan, bütün istehsal proseslərini birləşdirən, maşınlar sistemini əmələ gətirən yeni texniki vasitələrin yaranmasını müəyyən edən dəzgahqayırma inkişaf etməmişdir. Müstəqillikdən sonrakı ilk on ildə istehsal olunmuş bütün maşın və avadanlıqların yalnız 3-5%-i dünya standartına uyğun gəlmişdir. Maşınqayırma məhsullarının rəqabət qabiliyyətinin aşağı olması onların respublikadan ixracına imkan vermir.

Onu da nəzərə almaq lazımdır ki, hələ SSRİ dövründə istehsal edilən maşınların əksəriyyəti ölkənin və respublikanın ehtiyaclarına tam cavab vermirdi. İstehsal edilən avtomobil, kənd təsərrüfatı maşınları, dəzgahlar və digər texnikanın strukturunda nəhəng maşınlar üstünlük təşkil edirdi, kiçik maşınların istehsalına isə əhəmiyyət verilmirdi. Ona görə də çox vaxt kiçik həcmli yüklər qeyri-səmərəli şəkildə nəhəng avtomobillərdə daşınırdı. Hal-hazırda kiçik müəssisələrin və fermer təsərrüfatlarının sayının və əhəmiyyətinin artması ilə əlaqədar olaraq kiçik həcmli maşınlara da xaricdə olduğu kimi tələbat sürətlə çoxalmaqdadır. Maşınqayırma sənayesinin inkişaf perspektivində bu cəhət nəzərə alınmalıdır. [320, 1998, s. 16].

Qlobal təsərrüfata səmərəli şəkildə inteqrasiyanı təmin etmək məqsədilə maşın və avadanlıq istehsalını modernləşdirməklə, ölkəni xammal ixracat edən ölkə durumundan çıxarmaq üçün bütün imkanlar vardır. Maşınqayırma məhsulları üzrə vahid dünya bazarına çıxmaq üçün həmin imkanların reallaşdırılması iqtisadiyyatın tərəqqisi üçün böyük imkandır. Yeni texnika və yeni idarəçilik üsullarını ardıcıl olaraq tətbiq etmək dövrümüzün təxirəsalınmaz tələblərindən biridir. Bu zaman maşınqayırmada inteqrasiya prosesləri inkişaf etmiş ölkələrin texniki



vasitələrinin tipləri ilə ümumilik və harmonlaşdırma şəklində vəhdət yaradan istiqamətdə getməsi prosesinin sürətləndirilməsi olduqca vacibdir.

Görülən tədbirlər nəticəsində maşın və avadanlıqların istehsalının ümumi həcm indeksi 2000-ci ilə qədər azalsa da sonrakı illərdə xeyli artmış və 2006-cı ildə 158 %(bənd) təşkil etmişdir. Maşın və avadanlıqların, eləcə də nəqliyyat vasitələri və avadanlıqların istehsalını həyata keçirən müəssisələrdə istehsal həcmi 2007-ci ildə artmaqda davam etmişdir. Belə ki, iontan armaturu, quyu nasosları ilə istismar olunan quyuların quyuüstü avadanlığı, minik avtomobilləri üzrə məhsul buraxılışı 2006-cı il səviyyəsini xeyli üstələmişdir. Metallurgiya sənayesində məhsul istehsalının fiziki həcm indeksi də sürətlə artmaqda davam edir. Əgər 1995-ci il səviyyəsini 100 götürsək həmin indeks 2000-ci ildə 41, 7 həndə düşsə də sonrakı illərdə sürətlə artmışdır. (2006-cı ildə 8 dəfə)

Maşınqayırma sənayesinin məhsulları 2007-ci ildə 2006-cı ilə nisbətən 58,7% artmışdır. "AzNeftKimyaMaş" ASS-in müəssisə və institutlarında 2007-ci ildə İSO-9001 və APİ beynəlxalq standartlarının tələblərinə cavab verən 138 adda neft mədən avadanlığı istehsal edilmişdir. Onların 70%-ə qədəri ixrac olunur.

Azərbaycan Respublikasında kimya və neft-kimya sənayesinin inkişafı üçün lazım olan zəngin xammal bazası mövcuddur. Ölkəmizdə sənaye miqyaslı kimya istehsalının yaranmasına da neft emalı sənayesinin inkişafı təkan vermişdir.

Sovet dövründə ümumittifaq xalq təsərrüfatı kompleksinin tərkib hissəsi kimi kimya sənayesi sürətlə inkişaf etdirilməyə başladı. Həmin sahənin sürətli inkişafı 60-70-ci illərə təsadüf edir. Məsələn, 1960-1975-ci illərdə Respublikada kimya və neft-kimya sənayesi məhsullarının orta illik artım sürəti sənayenin orta illik artım sürətindən iki dəfə yüksək olmuşdur. [251, s. 249]. Nəticədə sənaye məhsulunun tərkibində həmin sahənin xüsusi çəkisi 1960-cı ildə 2, 9%-dən 1980-ci ildə 7,5%-ə yüksəldilmişdir. [207, s. 48]. Kimya və neft-kimya sənayesi əsas etibarilə Sumqayıtda SSRİ tələbatının ödənilməsi üçün cəmlənmişdir. Vəziyyətin düzəldilməsi külli miqdarda kapital tələb edir.

SSRİ dağıldıqdan sonra respublika imperiyadan bu sahəyə məxsus güclü istehsal potensialı miras aldı. Zəngin xammal bazası və ucuz işçi qüvvəsi həmin sahəyə böyük miqyasda beynəlxalq rəqabət üstünlüyü verir. Həmin potensialdan daxili bazarın tələbatının ödənilməsi və xarici bazarlara çıxmaq üçün istifadə edilməsi günün vacib məsələlərindəndir.

Lakin ənənəvi bazarların itirilməsi, yeni bazarlara çıxışın ləng getməsi bu sahədə satış problemini olduqca kəskinləşdirdi. 1994-cü ildən burada canlanma özünü göstərsə də, bir çox problemlər yenə də qalır. [38, s. 19]. Sahə məhsullarının fiziki həcmi 2005-ci ildə 1995-ci il səviyyəsinin cəmi 5 %-ni təşkil etmişdir [41, 2006 s. 67]. Fondverimi bu sahədə 1996-cı ildə 1990-cı ilə nisbətən 20% səviyyəsinə enmiş, 1996-2005-ci illərdə də bu azalma meyli səngisə də, müəyyən dərəcədə davam etmişdir. [38, s. 118-122]. Həmin sahədə mövcud olan istehsal fondları sürətlə qocaldığı halda investisiya qoyuluşlarının az olması nəticəsində yenilənmə dərəcəsi aşağı səviyyədə qalmaqda davam edir. 2007-ci ilin 1-ci rübündə enerji daşıyıcılarının qiymətinin artması kimya sənayesinin fəaliyyətinə mənfi təsir göstərmişdir. Bütün bunların nəticəsində kimya və neft-kimya sənayesinin xarici ticarət əlaqələri azalmışdır. İdxalatda onun xüsusi çəkisi 1991-ci ildə 19%-dən

2002-ci ildə 5%-ə, ixracatda isə 17, 7%-dən 1, 6%-ə düşmüşdür. 2005-ci ildə həmin məhsullar cəmi idxalatın 6, 9 %-ni, ixracatın isə 4, 7 %-ni təşkil etmişdir.

Kimya və neft-kimya sənayesi müəssisələri respublikaya həddən artıq gəlir gətirmək üçün böyük ehtiyatlara malikdir. Mütəxəssislər hesab edirlər ki, bu sahələrin əsas vəzifəsi daxili və xarici kapitalı cəlb etməklə xammal emalının artırılması, az enerji və material tutumlu tullantısız texnologiyanın tətbiqi, mənəvi cəhətdən aşınmış istehsalların sıradan çıxarılması, xammal və materialların kompleks istifadəsi və ətraf mühitin mühafizəsindən ibarətdir. Həyati əhəmiyyətli istehsal güclərini istifadəyə vermək, məhsulun keyfiyyətini yaxşılaşdırmaq lazımdır. Mövcud istehsal güclərində istehsal olunan məhsullar indiyə qədər böyük xərc hesabına başa gəlir və xeyli zərər gətirir.

Kimya məhsullarının istehsalını artırmaq üçün ekoloji cəhətdən təmiz texnologiya tətbiq etməklə biz yeni istehsallar yaratmalı və məhsulların çeşidini artırmalıyıq. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə böyük uğurla həyata keçirilən yeni neft strategiyasının reallaşması ölkəmizdə neft-kimya sənayesinin dinamik inkişafı üçün böyük perspektivlər açmışdır. Yerli xammal bazası əsasında ən mütərəqqi texnologiyalara əsaslanan yeni neft-kimya kompleksinin yaradılması üzrə işlər Azərbaycanın elmi-texniki potensialının daha da artırılmasına başlanmışdır. Son dövrlərdə dünyada neft-kimya və kimya məhsullarına tələbatın durmadan artması, ölkəmizdə iqtisadiyyatın sürətlə inkişafı, geniş vüsət almış tikinti-quruculuq işləri və daha yüksək idarəçilik sayəsində istehsal olunan məhsullara tələbat çoxalmaqdadır.

Bununla əlaqədar Azərbaycanın yeni neft-kimya kompleksinin optimal variantının seçilməsi, layihənin texniki-iqtisadi göstəricilərinin müəyyən edilməsi, xammal və enerji daşıyıcılarından səmərəli istifadə, məhsulun çeşidinin genişləndirilməsi, məhsulların istehlak xassələrinin və istehsalatın ekoloji göstəricilərinin yaxşılaşdırılması, satış imkanlarının artırılması və s. məqsədi ilə Texniki İqtisadi Əsaslandırma (İƏT) sənədlərin hazırlanması üçün bu sahə üzrə dünya şöhrətli peşəkar şirkətlərin iştirakı ilə Azərikimya Dövlət Şirkəti tərəfindən elan olunmuş beynəlxalq tender keçrilmişdir.

Tenderin ən yüksək beynəlxalq tələblərə uyğun əsas şərtlər toplusunda göstərilən meyarlara uyğun ən sərfəli sayılan tender təklifini təqdim etmiş ABŞ-ın Nexant şirkəti tenderin qalibi olmuşdur. Dünyanın ən müasir texnologiyaları əsasında yaradılacaq bu yeni neft-kimya kompleksi Azərbaycan Respublikasını regionda neft-kimya məhsullarının mühüm istehsalçısına çevirəcək, qeyri-neft sektorunun inkişafında mühüm rol oynayacaqdır. Bu isə öz növbəsində respublikanın yüksək templə inkişaf edən iqtisadiyyatının digər sahələrində - tikinti, səhiyyə, cihazqayırma, kənd təsərrüfatı, maşınqayırma, avtomatika və məişət avadanlığının istehsalı üçün ölkəmizdə ən müasir, dünya standartlarına cavab verən yeni istehsal və xidmət sahələrinin yaradılmasına, çoxprofilli iş yerlərinin açılmasına, yüksək ixtisaslı kadrların hazırlanmasına imkan verəcəkdir.

Respublikada plastik kütlədən hazırlanan məmulatlara böyük ehtiyac duyulur, eyni zamanda bu cür məhsulları daha çox istehsal etmək imkanımız var. Texnologiyanın sadəliyi və enerji tutumunun aşağı olması işsizlərin çox olduğu kiçik sahələrdə plastik kütlədən məmulatların hazırlanması üçün kiçik müəssisələrin



yaradılmasına imkan verir. Kimya sənayesini daha çox məişət kimyası mallarının istehsalına yönəltmək, Mingəçevir qeyri-parça materialları istehsalı zavodunun məişət məmulatlarının buraxılışını, Sumqayıt fosfat gübrələr istehsalı zavodunda makroelementlərin əlavəsi ilə gübrələrin istehsalını artırmaq lazımdır. [54, s. 54]

Azərbaycanda neft-yanacaq sektorundan sonra valyuta problemləri ilə sıx əlaqəsi olan sənaye sahəsi xalq üçün geniş istehlak malları istehsal edən yüngül və yeyinti sənayesidir. Həmin sahələr istər kifayət qədər tutumlu olan daxili bazarın tələblərinin milli istehsal hesabına ödənilməsində və istərsə də xaricə mal ixrac edilməsində mühüm əhəmiyyətə malikdirlər.

Hələ XIX əsrin axırlarından başlayaraq Azərbaycan ümum Rusiya bazarlarının tələblərinə uyğun olaraq neft hasilatı və emalı, toxuculuq xammalı olan - pambıq, yun, ipək və digər yeyinti məhsullarının istehsalı sahəsində ixtisaslaşmışdır. Toxuculuq xammalı istehsal edən sahələrin inkişafı onların ilkin emalının təşkilini də zəruri etmişdir. Sovet dövründə yüngül sənaye Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf edən mühüm sahələrindən birinə çevrilmişdir. Yüngül sənaye məhsullarının ümumi həcmi 1940-cı ilə nisbətən 1960-cı ildə 2, 4, 1970-ci ildə 3, 8 və 1986-cı ildə isə 10, 4 dəfə artmışdır.

1960-1990-cı illər arasında Azərbaycan sənayesinin dəyişməz olaraq 1/5-i yüngül sənaye məhsullarından ibarət olmuşdur. Lakin iqtisadi yüksəlişin mühüm göstəricisi olan əmək məhsuldarlığı yalnız inkişaf etmiş ölkələrə görə deyil, Respublika sənayesinin ümumi səviyyəsindən də geri qalırdı. Yüngül sənaye respublika iqtisadiyyatının çox əməktutumlu sahələrindən biri sayılır. Həmin sahə sovet dövründə əsasən kənd təsərrüfatı xammalının ilkin emalına yönəldilmişdir və yalnız SSRİ miqyasında xammal və yarımfabrikat - pambıq mahlıcı, barama, göndəri xammalı ixrac etməyə qadir olmuşdur. Yüngül sənaye məhsulları daxili bazarın tələblərini də ödəyə bilmirdi. Belə ki, Respublikada əhaliyə satılan xalq istehlakı, o cümlədən yüngül sənaye məhsullarının cəmisi 50%-i yerli istehsal hesabına ödənilirdi. [207, s. 47].

Lakin müstəqillik əldə edildikdən sonrakı ilk illərdə məlum obyektiv və subyektiv səbəblərlə əlaqədar olaraq bu sahədə ciddi dönüş hiss olunmurdu və əksinə sənaye istehsalının strukturunda və ixracatda bu mühüm sahənin payı davamlı olaraq azalırdı. Mütəxəssislər haqlı olaraq hesab edirlər ki, əhali tərəfindən daha çox tələb olunan məmulatları istehsal edən sənaye sahələrində bazara uyğunlaşa bilən yeni və müxtəlif formalı strukturlar yaradılmalıdır. Bu zaman alıcılıq tələbinin dəyişmə meyli və inkişaf qanunauyğunluğu nəzərə alınmalıdır. Yüngül sənayenin perspektiv strukturu formalaşdırılarkən əhalinin istehlakının həcmi və strukturunun düzgün müəyyən edilməsi, onu xarakterizə edən real proses və meyllərin müntəzəm öyrənilməsi olduqca vacibdir. [71, s. 174].

Respublikada mövcud olan zəngin xammaldan hazır məhsul istehsal üçün lazımi şəraitin yaradılması və yeni texnologiyanın tətbiqi ilə onların rəqabət qabiliyyətinin yüksəldilməsi çox vacib məsələlərdən biridir. Hesab edirik ki, Respublikanın yüngül sənayesi hazır paltarın və əl ilə toxunan xalçaların buraxılışı üzrə daha az kapital tutumlu, daha çox əmək tutumlu sahələrin (tikiş və trikotaj sahələri) inkişafına yönəldilməlidir.

Sovet dövründə Azərbaycan özünün sənaye potensialına uyğun olaraq müəyyən dərəcədə inkişaf etmiş yeyinti sənayesinə malik olmuşdur. Respublikada

yeyinti sənayesi şəkər istehsalından başqa bütün yarım sahələrlə təmsil olunmuşdur. Lakin onlardan ət və süd sənayesi möhkəm xammal bazası olmadığından zəif inkişaf etmişdir. SSRİ-nin dağılması dövründə Respublikada 350-ə yaxın müəssisə fəaliyyət göstərirdi və ölkə sənayesinin əsas kapitalının 1/10 hissəsinə qədəri cəmləşdirilmişdir. Sahənin mövcud çatışmazlıqlarına baxmayaraq, bu proses kənd təsərrüfatı ilə yanaşı respublika əhalisinin maddi rifah vəziyyətinə bilavasitə təsir göstərirdi. Lakin sovet dövründə inzibati-amirlik sistemi şəraitində, başlıca olaraq daxili bazarda əslində rəqabətsiz fəaliyyət göstərən və zəif texniki bazaya malik olan bu sahə, müstəqillik əldə edildikdən sonra dünya bazarı ilə təmasa girərkən dərin tənəzzül vəziyyətinə düşdü. Yeyinti sənayesi Azərbaycan sənayesində mühüm mövqeyini (ikinci yeri) itirməyə başlamışdır. Bu sahədə geriləmə bütövlükdə sənaye istehsalına nisbətən daha çox olmuşdur. Belə ki, 1999-cu ildə 1990-cı ilə nisbətən yeyinti sənaye məhsulunun fiziki həcm indeksi 12, 4%-ə enmişdir. Nəticədə, ümumi sənaye məhsulu istehsalında yeyinti sənaye məhsullarının xüsusi çəkisi 1990-cı ildə 26, 6%-dən 1995-ci ildə 10, 8 %-ə, 2005-ci ildə isə 3, 5 %-ə düşmüşdür. [41, 2006, s. 66-68]. Bir sıra mühüm yeyinti sənayesi məhsulları - ət, kərə yağı, süd məhsulları sahəsində 1995-ci ildən başlayaraq artım özünü göstərir. Digər əsas növ yeyinti məhsulları istehsalı-çörək və çörək məmulatları, makaron, qənnadı məhsulları, üzlü pendir, bitki yağı, kolbasa məmulatları, balıq məmulatları, meyvə-tərəvəz konservləri və sairə mütləq natural göstəricilər baxımından zəif inkişaf edir. 1995- ci ildən sonra içki və tütün də daxil olmaqla qida məhsullarının istehsalı əvvəlcə sabitləşmiş, sonra isə dinamik inkişaf etməyə başlamışdır. Belə ki, həmin məhsulların fiziki həcm indeksi 1995-ci ildə 100 qəbul edilərsə, 2006-ci ildə 85, 8 bənd olmuşdur. 2006-cı ildə bu sahədə artım 4, 6% olmuşdur.

Kənd təsərrüfatı xammalının emalı və yeyinti məhsullarının istehsalı sahəsində 2007-ci ildə əvvəlki illə müqayisədə müəyyən irəliləyişlər olmuşdur. Belə ki, qida məhsullarının istehsalı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 8,0% artmışdır. 2007-ci ildə 26 rayonda yeni emal müəssisələri yaradılmış, o cümlədən İmişlidə sutkada 5, 5 ton gücündə çörək məmulatları istehsal edən çörək zavodu, Salyanda ildə 30 ton süd məhsulları istehsal edən süd zavodu, Göyçayda ildə 200 min şərti butulka nar şirəsi istehsal edən konserv zavodu, Qəbələdə ildə 1 milyon şərti banka konserv məhsulları istehsal konserv zavodu tikilib istifadəyə verilmişdir.

Sahə üzrə istehsalın 99, 5 %-i qeyri-dövlət təşkilatlarının payına düşür. 2007-ci ildə əvvəlki illə müqayisədə 10, 2 min ton ət (7, 6%), 5, 8 min ton duru bitki yağları (25, 9%), 30, 5 min ton şəkər və şəkər tozu (28, 8%), 1, 4 min ton makaron məmulatları (43, 5%) və 2, 4 milyon dekalitr (10, 2%) mineral və qazlaşdırılmış sular və sair alkoqolsuz içkilər çox istehsal edilmişdir.

Bütün iqtisadiyyatda olduğu kimi yeyinti sənayesində də istehsal münasibətləri kökündən dəyişir. Geniş miqyaslı özəlləşdirmə bu sahədə uzun illər mövcud olmuş dövlət mülkiyyətinin hökmranlığına son qoymuşdur.

Yuxarıda göstərildiyi kimi ölkənin həyati əhəmiyyət kəsb edən valyuta problemində də yeyinti sənayesi müstəsna rol oynayır. Bu sahə daxili bazarın mühüm ərzaq məhsullarına olan tələbatını ödəyə bilərsə, həmin malların xaricdən bahalı idxalını ixtisar etməklə külli miqdarda valyutaya qənaət etmək imkanı yaranır.



Zəngin xammal bazasına, ucuz işçi qüvvəsinə və geniş istehsal-texniki bazaya malik olan Azərbaycanın yeyinti sənayesi geniş ixrac potensialına malikdir.

1991-ci ildə yeyinti sənayesi məhsullarının 93, 9%-i SSRİ tərkibində olan respublikalara ixrac edilirdi. Həmin respublikalardan idxal isə cəmi idxalın 80, 9%-i təşkil edirdi. Məlum səbəblərə görə sonralar həmin ölkələrdən idxal və ixrac kəskin sürətdə azaldı. Azərbaycan yeni ticarət tərəfdaşları ilə xarici ticarət əlaqələrini aparmağa başladı. 2006-cı ildə Azərbaycanın yeyinti sənaye məhsulları dünyanın 35 ölkəsinə ixrac edilir. Azərbaycan dünyanın 61 ölkəsindən yeyinti sənaye məhsullarını idxal edir.

Azərbaycanın müasir yeyinti sənayesinin intensiv qloballaşma dövrünün tələblərinə uyğunlaşdırılması üçün nəzərdə tutulmuş konstruktiv sənaye siyasətinin davam etdirilməsi olduqca vacibdir. Bu siyasətin mərkəzi xəttini dövlətin bu sahədə tənzimləmələrinin səmərəliliyinin artırılması təşkil edir. Yeyinti sənaye məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi bunun üçün sahənin yeni texnika və texnologiyanın tətbiqi əsasında istehsal-texniki bazasının yeniləşdirilməsi, innovasiya fəaliyyətinin genişləndirilməsi daim diqqət mərkəzindədir. İxracatın hərtərəfli dövlət tədbirləri əsasında təşviq edilməsi, idxalın əvəzetmə siyasəti strategiyasının hazırlanması yeyinti sənayesinin qlobal təsərrüfata optimal inteqrasiyasının əsasını təşkil edir.

2007-ci ildə ölkə sənayesinin sahə strukturunda aşağıdakı dəyişikliklər baş vermişdir:

**2007-ci ildə Azərbaycan Respublikasında ÜDM-in tərkib göstəriciləri**

*( milyon manat )*

| | 2007 | 2006 | 2006-cı ilə nisbətən ( faizlə) |
|---|---|---|---|
| Ümumi daxili məhsul | 25228, 1 | 18746, 2 | 125, 0 |
| Məhsulların istehsalı | 18293, 0 | 13506, 5 | 129. 0 |
| ondan: | | | |
| sənaye | 14926, 1 | 10731, 8 | 135, 0 |
| kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı | 1564, 5 | 1329, 3 | 104, 0 |
| Tikinti | 1802, 4 | 1445, 4 | 116, 0 |
| Xidmətlərin istehsalı | 5094, 6 | 4215, 3 | 112, 5 |
| ondan: | | | |
| nəqliyyat | 1054, 8 | 872, 2 | 113, 6 |
| rabitə | 470, 6 | 370, 6 | 132, 0 |
| topdan və pərakəndə ticarət, avtomobillərin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmiri | 1325, 6 | 1005, 8 | 115, 3 |

| | | | |
|---|---|---|---|
| mehmanxana və restoranlarda xidmət göstərilməsi | 159, 0 | 100, 8 | 135, 7 |
| sosial və digər xidmətlər | 2084, 6 | 1865, 9 | 105, 4 |
| Məhsula və idxala xalis vergilər | 1840, 5 | 1024, 4 | 111, 2 |
| Deflyator | 107, 7 | 111, 3 | |

## 5. 4. Azərbaycanın kənd təsərrüfatının qlobal iqtisadi mühitə adaptasiyasının aktual problemləri.

Postsovet respublikalarının, o cümlədən Azərbaycanın müstəqil inkişaf təcrübəsi göstərir ki, qapalı iqtisadi sistemin açıq iqtisadiyyat modeli ilə əvəz olunması, dünya bazarı ilə intensiv inteqrasiya tərəqqi üçün geniş perspektivlər açmaqla yanaşı, insanların alışmadığı və gözlmədiyi tamamilə yeni proseslərin, yeni çətinliklərin və yeni problemlərin üzə çıxması ilə müşaiyət olunur. Ona görə də iqtisadiyyatın ən qapalı sahəsi olan kənd təsərrüfatının qloballaşmanın tələblərinə necə cavab verdiyinin və həmin mühitə necə adaptasiya etdiyinin nəzərə alınması böyük aktuallıq kəsb edir.

Qabaqcıl təcrübə göstərir ki, əhalinin ərzaqla və aqrar sənaye kompleksinin xammal ilə təmin olunmasında müstəsna rol oynayan aqrar bölməyə iqtisadiyyatın yenidən qurulması strategiyasında milli prioritet kimi cəmiyyət və dövlət tərəfindən ciddi diqqət ayrılır.

Ənənəvi olaraq əvvəllər bir çox ölkələrdə kənd təsərrüfatına passiv, tabeli rol ayrılırdı. Qərb ölkələrinin təcrübəsinə əsaslanaraq hesab edilirdi ki, iqtisadi inkişafın zəruri şərtı təsərrüfatın aqrar strukturunun sənayeyə xidmət edən inkişaf etmiş sahələrinin sürətlə yenidən qurulmasıdır. İqtisadi inkişaf strategiyalarının əsas vəzifəsi iqtisadiyyatın "lokomotivi" hesab edilən sənayenin artımı hesab edilirdi, kənd təsərrüfatına isə ucuz ərzaq və işçi qüvvəsinin təchizatçısı kimi baxılırdı. Bu sahədə ən geniş yayılmış nəzəriyyələrdən biri Nobel mükafatı laureatı Artur Lyuns tərəfindən 50-ci illərdə əsasandırılmış 2 sektorlu inkişaf modelini göstərmək olar. Bu nəzəriyyə ucuz işçi qüvvəsi bol olan iqtisadiyyata malik inkişaf etməkdə olan ölkələr üçün nəzərdə tutulmuşdur. Bu model Qərb ölkələrinin tarixi inkişaf yolunu əks etdirsə də, keçid iqtisadiyyatı ölkələrinin iqtisadi tələbatı və reallıqlarına cavab vermir. Başqa sözlə, kənd təsərrüfatına tabeli və passiv rol ayrılması qloballaşma dövründə reallıqdan uzaqdır. Çünki ərzaq təminatının kəskinləşərək qlobal problemə çevrilməsi bütün dünyada kənd təsərrüfatı istehsalına diqqəti olduqca artırmış və onun köklü surətdə yenidən qurulmasını ön plana çəkmişdir. Bəşəriyyət tarixində ilk dəfə olaraq XX əsrin ortalarından başlayaraq elmi - texniki tərəqqinin bilavasitə təsiri altında aqrar iqtisadiyyatda intensiv modernləşdirmə prosesi gedir ki, bu da öz ifadəsini keyfiyyətcə yeni istehsal nö..ünün yaradılmasında tapmışdır. Həmin prosesin mahiyyəti kənd təsərrüfatında ictimai əməyin sənaye formasının tətbiqində (ənənəvi, sənayedən əvvəlki formasının əvəzinə) və ona uyğun sosial təsisat formasının yaranmasında tapmışdır. İnkişaf etmiş ölkələrdə meydana gəlmiş "yaşıl inqilab" adlanan texniki



irəliləyiş 60-cı illərin ikinci yarısından sonra Asiya, Afrika və Latın Amerikası ölkələrində kənd təsərrüfatı, hər şeydən əvvəl ərzaq üzrə yeni hibrid çeşidlərinin yaranmasında tapır ki, bunlar da yalnız gübrə, kimyəvi maddələr, texnika və texnologiyadan səmərəli istifadə olunması və işçi qüvvəsinin ixtisas səviyyəsinin yüksəldilməsi əsasında mümkündür. "Yaşıl inqilab" bir sözlə kənd təsərrüfatında intensivləşdirmə və səmərəlilik göstəricilərini tarixdə görünməmiş bir səviyyəyə qaldırmışdır.

70-90-cı illərdə dünyada iqtisadi inkişafın dərk edilməsində daha əhəmiyyətli dəyişikliklər baş verdi və aparıcı mütəxəssislər artıq hesab edirlər ki, kənd təsərrüfatı inkişafın aparıcı həlqələrindən birinə çevrilməli, onun dayanıqlı inkişafı təmin edilməlidir. Kənd təsərrüfatının dayanıqlı inkişafı dedikdə isə təbiət hadisələrindən kəskin sürətdə asılı olan həmin sahənin hər bir istehsalat tsiklində geniş təkrar istehsalı imkanlarının ardıcıl olaraq artırılması nəzərdə tutulur.

Bütün dünyada, ilk növbədə inkişaf etmiş sənaye ölkələrində kənd təsərrüfatında baş verən inqilabi xarakterli dəyişikliklərin əsasını bu sahədə həyata keçirilən genişmiqyaslı dövlət tənzimləmələri təşkil edir. Araşdırmalar göstərir ki, istər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələrdə aqrar bölmə intensiv dövlət tənzimləmələrinin həyata keçirildiyi az sayda sahələrdən biridir, daim siyasi iradənin diqqət mərkəzindədir, ciddi təşkilatçılıq səyləri və nəhəng maliyyə vəsaiti tələb edir. Yalnız onu göstərmək kifayətdir ki, hələ keçən əsrin sonlarında kənd təsərrüfatının dəstəklənməsi üçün orta hesabla hər il bütün dünyada təxminən 350 milyard dollar vəsait xərclənirdi.

Kənd təsərrüfatına güclü dövlət müdaxiləsini və genişmiqyaslı tənzimləmələri zəruri edən amillər bunlardır:

1. xarici ticarətlə əlaqədar olan amillər;
2. kənd təsərrüfatı subyektlərinin gəlirlərinin sabitləşdirilməsi və müəyyən səviyyədə saxlanılması zəruriliyi;
3. kənd ərazilərinin inkişaf etdirilməsi zəruriliyi;
4. ekologiya və təbiətin mühafizəsi ilə əlaqədar olan amillər;

Beləliklə, kənd təsərrüfatı məlum olduğu kimi, maddı istehsalın təbii-iqlim hadisələrindən bilavasitə asılı olan xüsusi bir sahəsidir. Geniş bir ərazidə yerləşən kənd təsərrüfatı istehsalçılarının iş şəraiti qeyri-bərabərdir. Təbii iqlim parametrlərinə, torpağın məhsuldarlığına istehsal və sosial sturukturunun inkişaf səviyyəsinə görə bir-birindən fərqlənir. Onlar daşqın, quraqlıq və ziyanvericilərin hücumuna məruz qalaraq böyük risklə əlaqədardırlar. Bundan başqa mütəxəssislər hesab edirlər ki, kənd təsərrüfatı istehsalının sabit və dinamik inkişafı bütövlükdə ölkə iqtisadiyyatının dayanıqlı inkişafının əsasını təşkil edir. Onu da nəzərə almaq lazımdır ki, ölkənin iqtisadi inkişafına öz töhfəsini verən kənd istehsalçıları torpağın kapital-torpağa çevrilməsi üçün qeyri - mütənasib məsrəflər etməyə məcburdurlar. Ona görə də sahibkarlıq fəaliyyətinə başlamaq və geniş təkrar istehsalını həyata keçirmək üçün nisbətən böyük həcmli kapital tələb olunur. Onların gəlirləri isə, bir qayda olaraq, başqa sahədə çalışan sahibkarlara nisbətən aşağı səviyyədədir. Nəhayət fermerlər və digər kənd təsərrüfatı istehsalçıları bazarda daha sərt rəqabətlə qarşılaşırlar, istehlak etdikləri məmulatları isə adətən bazar hökmranlığının mövcud olduğu sahələrdən alırlar. Kənd təsərrüfatı

məhsullarının istehlakçısı olan aqrar - sənaye kompleksinin sahələrində isə adətən inhisarçılar hökmranlıq edirlər.

Bütün bu deyilən və deyilməyən amillər mürəkkəb şəraitdə fəaliyyət göstərən aqrar bölmənin ciddi dövlət dəstəyinə ehtiyacı olduğunu göstərir.

Hesab edilir ki, aqrar sənaye istehsalının dayanıqlı inkişafı çoxsaylı amillərdən yalnız kompleksli, sistemli istifadə edilməsi yolu ilə mümkündür.

Dünya dövlətlərinin təcrübəsi göstərir ki, aqrar bölmədə dövlət tənzimlənmələri sistemi olduqca genişdir. Dünyanın aparıcı alimləri hesab edirlər ki, müasir dövrdə kənd təsərrüfatının hərtərəfli inkişafını nəzərdə tutan dövlətin iqtisadi inkişaf strategiyası ən azı üç əsas ünsürü özündə birləşdirməlidir: 1) istehsalın artım sürətinin, hər şeydən əvvəl xırda fermer təsərrüfatlarında yeni texnika və texnologiyanın tətbiqi, iqtisadiyyatın idarəetmə strukturunun təkmilləşdirilməsi və qiymət siyasəti nəticəsində xırda fermer təsərrüfatlarının məhsuldarlığının artırılması hesabına təmin edilməsi; 2) şəhərlərdə məşğulluğun artırılması yolu ilə kənd təsərrüfatı məhsullarına daxili tələbin artırılması; 3) kənd yerlərində kənd əhalisinə xidmət edən və kənd təsərrüfatına əsaslanan qeyri-aqrar əmək tutumlu istehsalın şaxələndirilməsi.

Qabaqcıl dünya dövlətlərinin çoxunda dövlət tənzimləmələri sistemində kənd təsərrüfatı kooperativlərinin yaradılması və onların inkişafının hərtərəfli dəstəklənməsi mühüm yer tutur. Torpağın birgə becərilməsi, maşın və texnikadan birgə istifadə edilməsi, qarşılıqlı yardım, inhisarlara qarşı birgə mübarizə aparılması məqsədilə kənd əmtəə istehsalçılarının kooperativlərdə könüllü birləşməsi geniş yayılmışdır. Kooperativlər bəzən yalnız istehsal sahəsində əməkdaşlıq etmək məqsədilə deyil, həm də daha geniş məqsədlərlə (istehsal funksiyası təchizat-satış, istehsal-xidmət, kənd təsərrüfatı məhsullarının emalı) yaradılır və müvəffəqiyyətlə fəaliyyət göstərirlər. Çünki kənd təsərrüfatı istehsalının və fermerlərin rəqabət mübarizəsində qeyri-sabitliyi burada istehsalın səmərəliliyinin aşağı olması, elmi-texniki inqilabın tələblərinə uyğunlaşmanın zəruriliyi xırda və orta əmtəə istehsalçılarını birləşməyə vadar edir. Bu birləşmədə bəzən qohumluq əlaqələri əsas olur. Maşınlardan birgə istifadə edilməsi üzrə də kooperativlər geniş yayılmışdır. Kənd təsərrüfatı kooperativlərinin hərtərəfli inkişafı bir çox ölkələrdə dövlətin aqrar siyasətinin əsasını təşkil edir.

Yerli kənd təsərrüfatı istehsalçılarının yüksək dərəcədə dəstəklənməsində klassik nümunə kimi həmişə Yaponiyanın təcrübəsi misal göstərilir. 80-cı illərin ortalarından bu məsələdə ciddi dönüş baş verdi. Belə ki dünya ölçülərinə uyğun rəqabətqabiliyyətli məhsul istehsal olunmasında torpağın az olduğu və xırda kəndli təsərrüfatının üstünlük təşkil etdiyi bir şəraitdə ölkənin ərzaqla özü-özünü təmin etmək probleminin həlli işində ciddi çətinliklər özünü göstərdi. Belə bir şəraitdə Yaponiya daxili bazarda dayanıqlı tələbatın mövcud olduğu ərzaq məhsulları istehsalının beynəlxalq diversifikasiyası modelinə keçdi. Müştərək müəssisələrin yaradılması, aqrar bölməyə irimiqyaslı investisiyalar qoyulması və yeni texnologiyanın tətbiq edilməsi, "üçüncü dünya" ölkələrinin kənd təsərrüfatı istehsalına kapital ixrac edilməsi yolu ilə Yaponiya dövləti ölkənin ərzaqla təmin olunmasında və xarici konyukturadan asılılığının azaldılmasında ciddi irəliləyişə nail oldu.

İkinci dünya müharibəsindən sonra Yaponiyada kənd təsərrüfatının yenidən



qurulmasının mərkəzi məsələlərindən biri torpaqlar kəndlilərin mülkiyyətinə verilən zaman kooperasiyaların sürətli inkişafı olmuşdur. Bu dövrdə Yaponiya hökuməti Amerika məsləhətçilərinin, xırda mülkiyyətçilərin öz müqəddəratını özlərinin müəyyən etməsi haqqında verdikləri təklifi qəbul etmədi.

Ölkədə Amerika mütəxəssislərinin təkliflərinin əksinə olaraq istehsalçılar koopereativlərdə geniş miqyasda birləşməyə başladılar. Bütün dünyada olduğu kimi kooperativin üzvləri özləri üçün idarə orqanlarını seçdilər və ümumi səsvermə yolu ilə öz fəaliyyətlərinin bir çox məsələlərini həll etməyə başladılar. Lakin dövlət də özü üçün təsiretmə mexanizmi yaratdı. Kooperativləri bir neçə vergi növünün ödənilməsindən azad etdi onların inkişafı üçün vəsait ayıraraq, kooperativlərin yaradılması, buraxılması, birləşməsi, bölünməsi, nizamnamələrinin dəyişdirilməsi prosesində dövlət yaxından iştirak etməyə başladı. Dövlət orqanları kooperativlərin işləri haqqında məlumat ala bilər, vəzifəli şəxslərin yenidən seçilməsini təşkil edə bilərdi. 80-ci illərin ortalarından ölkənin aqrar siyasətində təshihlər edilməyə başlandı. Belə ki, əgər əvvəllər iqtisadi yardım istisnasız olaraq hamıya edilirdisə, indi bu yardımlar nisbətən irimiqyaslı, yüksək rentabelli təsərrüfatlara yönəldilir. Onların sürətlə səmərəli və rəqabətqabiliyyətli təsərrüfatlara çevrilməsi vəzifələri qarşıya qoyulmuşdur.

Dövlətlərin əksəriyyətində aqrar - ərzaq bölməsinin dövlət tərəfindən tənzimlənməsi sistemində kənd istehsalçılarının gəlirlərinin sabitləşdirilməsi və artırılması aparıcı mövqelərdən birini tutur. Bu tədbirlər arasında kənd təsərrüfatı məhsulları bazarında təklifin tənzimlənməsi, kənd təsərrüfatı məhsullarının dövlət tərəfindən satın alınması, istehsalçılara qiymətlə əlaqədar birbaşa subsidiyaların verilməsi, ticarət tədbirləri vasitəsilə kənd təsərrüfatı məhsullarına olan tələb və təklifin tənzimlənməsi mühüm yer tutur.

Bunlardan başqa kənd təsərrüfatında istehsal xərclərinin aşağı salınmasına yönəldilmiş tədbirlər sistemi də ayrıca həyata keçirilir. Burada əsas mexanizm aqrar istehsal üçün ehtiyatlara subsidiyalar verilməsidir. Subsidiyalaşdırma üsulları çoxdur: istehsalçılar satın alınan hər vahid ehtiyat (məsələn: mineral gübrə) üçün qəti müəyyən edilmiş subsidiya yaxud həyata keçirilən hər hansı bir fəaliyyət növü (məsələn: meliorasiya işləri) üçün və yaxud da güzəştli kredit mənbəyi yaradılmaqla subsidiyalar ala bilərlər.

İstehsal məsrəflərinin azaldılmasına yönəldilmiş siyasət aqrar istehsalın subsidiyalaşdırılması mexanizminin əsas alətidir. Bu siyasət kənd istehsalçılarının mənfəətinin artırılmasına ucuzlaşdırılmış ehtiyatlara tələbin çoxalmasına, məhsul təklifinin artırılmasına, digər ehtiyatlara tələbin yüksəlməsinə səbəb olur. Satışdan əldə edilən gəlirlərin artırılması və istehsal xərclərinin azaldılmasına yönəldilən tədbirlər kənd təsərrüfatı istehsalçıları və ayrı-ayrı qrupların hamısına fayda verir.

Avropa Birliyinin 2007-ci ilə büdcəsi 105 mlrd Avrodur. Onun təxminən yarısı kənd təsərrüfatına yönəldilir. Kəndlilərin dəstəklənməsinə ən çox vəsaiti Fransa 9, 4 mlrd, sonra İspaniya 6, 3, Almaniya 8, 1, İtaliya isə 5 mlrd Avro ayırır. Rumıniyada təsərrüfatların 86, 4 %-i yardım alır. Onların əksəriyyəti xırda və orta təsərrüfatlardır ki, hər biri 1250-20000 Avro məbləğində yardım alırlar. İri təsərrüfatların yalnız 11, 1%-i yardım alır. Yardımın böyük əksəriyyəti taxıl və ət istehsalçılarına verilir.

Dotasiyaların tərkibini nəzərdən keçirdikdə məlum olur ki, məsələn, Finlandiyada onun 42%-i AB-nin büdcəsindən, 58%-i isə milli büdcədən maliyyələşir. Bu dotasiyalar da üç qrupa bölünür. Vahid kənd təsərrüfat dotasiyaları (bitkiçilik və heyvandarlıq məhsullarına), əlverişsiz hava şəraiti və habelə ətraf mühitin qorunması üçün verilən dotasiyalar. AB-dən alınan vahid kənd təsərrüfatı dotasiyalarının böyük əksəriyyəti satış fəaliyyəti ilə əlaqədardır. Dotasiyalar ölkə daxilində regiondan regiona fərqlənir.

Bunlarla yanaşı hökumət struktur siyasəti də həyata keçirir. Bu siyasət isə adətən fermerlərin sayının azaldılmasına və onların orta həcminin artırılmasına, yəni təmərküzləşməyə yönəldilir.

Rusiyada kənd təsərrüfatında dövlət tənzimləmələri "aqrar - sənaye istehsalının dövlət tənzimləmələri haqqında" qanuna əsasən həyata keçirilir. Qanunla dövlət tənzimləmələrinin aşağıdakı istiqamətlərli müəyyən edilmişdir: kənd təsərrüfatı məhsullarından ibarət xammal və ərzaq bazarının formalaşması və inkişafı, kənd təsərrüfatının maliyyələşməsi, kreditləşdirilməsi, sığortası, güzəştli vergi alınması, xarici iqtisadi fəaliyyətdə kənd istehsalçılarının maraqlarının qorunması, aqrar-sənaye istehsalında elmi fəaliyyətin həyata keçirilməsi və inkişaf etdirilməsi, kənddə sosial sferanın inkişaf etdirilməsi və s.

Rusiya Federasiyası hökuməti bu yaxınlarda "Kənd təsərrüfatının inkişafı haqqında" yeni qanun layihəsinin konsepsiyasını təsdiq etmişdir. Qanun layihəsində aqrar - ərzaq siyasətinin əsas prinsipləri müəyyən edilmiş, kənd istehsalçılarının bütün kateqoriyalarının genişmiqyaslı dəstəklənməsi üçün dövlət tərəfindən tədbirlər sistemi hazırlanmışdır.

Kənd təsərrüfatı istehsalçıları gəlirlərinin sabitləşdirilməsi və artırılması üçün qiymətlərə dövlət müdaxilələri inkişaf etmiş ölkələr və inkişaf etməkdə olan ölkələrdə geniş yayılmışdır. Bu siyasət XX əsrdə "yaşıl inqilabın" həyata keçirilməsində mühüm rol oynamışdır.

Azərbaycanda aqrar bölmənin dövlət tərəfindən dəstəklənməsi və kompleksli dövlət tənzimləmələrinin həyata keçirilməsi zəruriliyi ümumdünya və spesifik ölkədaxili problemlərin kəsişmə nöqtəsindən irəli gəlir.

Məlumdur ki, Azərbaycanda hələ qədim dövrlərdən kənd təsərrüfatı istehsalı sahəsində zəngin ənənə mövcuddur. Aqrar bölmə Azərbaycanın ictimai-iqtisadi həyatında öz mühüm rolunu bu gün də qoruyub saxlamaqdadır. Belə ki, Azərbaycan əhalisinin yarısı (48,3%-i) kəndlərdə yaşayır; iqtisadiyyatda məşğul olan əhalinin isə 40% qədəri kənd və meşə təsərrüfatında çalışır; başqa sözlə aqrar sektor həcminə görə əhalini işlə təmin edən ikinci bölmə sayılır. Hal - hazırda ümumi daxili məhsulun 5, 9%-i bu sahədən qaynaqlanır. Respublika əhalisinin gəlirlərinin böyük hissəsi isə yeyinti və kənd təsərrüfatı məhsullarının alınmasına sərf edilir. Beynəlxalq əmək bölgüsü baxımından qısa tarixi ekskurs edildikdə məlum olur ki, kənd təsərrüfatı sovet dövründə daha qapalı xarakter daşımış və onun "beynəlxalq əlaqələri" yalnız SSRİ məkanı daxilində cərəyan etmişdir. Bu əlaqələr isə birtərəfli formalaşır, əlverişli torpaq və iqlim şəraitinə malik olan Respublika kənd təsərrüfatı ümumittifaq xalq təsərrüfatı kompleksinin tərkib hissəsi və onun ehtiyaclarına uyğun aqrar xammal bazası kimi inkişaf edirdi. Belə ki, Respublikamızın kənd təsərrüfatı SSRİ-nin hərbi-sənaye kompleksinin ucuz



pambığa, nəhəng spirtli içkilər sənayesinin xammala (üzüm) və iri sənaye mərkəzlərinin meyvə-tərəvəzə olan ehtiyaclarının ödənilməsi sahəsində ixtisaslaşırdı.

Siyasi istiqlaliyyət əldə edildikdən sonra ölkəmizdə aqrar sektor məlum obyektiv və subyektiv amillərin təsiri altında mürəkkəb bir şəraitdə formalaşmağa başlamışdır. Sovet dövründə qapalı və birtərəfli inkişaf etmiş iqtisadi struktur "hazır" və nəhəng sovet bazarı ilə əlaqələri pozulduqdan və dünya bazarı ilə ilk təmasdan sonra iflasa uğradı. Bu özünü kənd təsərrüfatı sahəsində daha qabarıq göstərdi.

Belə ki, əgər 1990-cı il səviyyəsini 100% götürsək, 1994-cü ildə ümumi daxili məhsulun real fiziki həcmi 47, 8%-ə, sənaye istehsalı 38, 3%-ə, kənd təsərrüfatı istehsalı isə cəmisi 56, 4%-ə çatırdı. Avropa Komissiyası ekspertlərinin gəldiyi qənaətə görə 1992-1994-cü illərdə Azərbaycan dərin və iqtisadi böhran keçid bu dövrü və iqtisadiyyatdakı vəziyyət üzərindəki nəzarət itirilmişdir. Bu dövrdə Azərbaycanda aqrar böhran dövrünü yaşayan digər ölkələrə nisbətən daha dərin olmuşdur. Məsələn, 1990-1995-ci illərdə kənd təsərrafatı istehsalının ümumi həcmi Rusiyada 33%, Bolqarıstanda 23%, Macarıstanda 27%, Polşada 18% aşağı düşdüyü halda Azərbaycanda 43, 6% azalmışdır. Bunun başlıca səbəbləri yeni müstəqillik əldə etmiş respublikamızın müharibə şəraitində olması, torpaqlarının 20 %-nin erməni işğalçıları tərəfindən işğal edilməsi, idarəçilik təcrübəsinin olmaması, xarici iqtisadi əlaqələrin kəsilməsi, ölkədə hiperinflyasiyanın və siyasi qeyri-sabitliyin hökm sürməsi, iqtisadiyyatın sürətlə liberallaşdırılması və təsərrüfat həyatından dövlətin tədricən kənarda qalmağa başlaması, yeniləri yaradılmadığı və ya ləng yaradıldığı bir şəraitdə köhnə idarəçilik, maliyyə kredit, qiymət və vergi mexanizminin sürətlə ləğv edilməsi idi. Bir çox kənd təsərrüfatı məhsullarının (üzüm, tütün, çay yarpağı, pambıq) istehsalında acınacaqlı vəziyyət yaranmışdır. Bu dövrdə istehsalın davamlı azalması ilə yanaşı həm müharibə, həm də siyasi və iqtisadi qeyri-sabitliklə əlaqədar olaraq ölkənin kənd təsərrüfatının aqroiqtisadi potensialının dağıdılması prosesi başlamışdır. Bu müstəqil dövlətimiz tərəfindən aqrar potensialın bərpası işini xeyli mürəkkəbləşdirmişdir.

Belə bir şəraitdə dünya birliyinin bərabərhüquqlu üzvü olmaq kimi strateji xətt prioritet bir vəzifə olaraq qarşıya qoyulduğu üçün həyat kənd təsərrüfatı istehsalında tənəzzülün qarşısının alınması və inkişafında ciddi dönüş yaradılmasını bütün kəskinliyi ilə tələb edirdi. Bazar iqtisadiyyatı şəraitində aqrar sektorun yenidən qurulması kənd təsərrüfatı istehsalının dayanıqlı və dinamik inkişafının təmin olunması üçün vacib şərtlərdən biridir.

Bu prosesin uğurlu olması əhəmiyyətli dərəcədə dövlət tənzimləmələri sayəsində dünya təcrübəsinin öyrənilməsi və respublikamızın reallıqlarına uyğunlaşmasından asılıdır. Böyük bir imperiyanın tərkibindən ayrılan respublikamızda müstəqil dövlət quruculuğu, inzibati-amirlik sisteminin buxovlarından azad olunması, bazar mexanizminin yaradılması və dünya birliyinə inteqrasiyanın başlanması prosesləri istər ölkənin bütün təsərrüfat mexanizmində, istərsə də onun tərkib hissəsi olan kənd təsərrüfatında keyfiyyətcə tamamilə yeni iqtisadi mühitin meydana gəlməsinə səbəb oldu. Bazar iqtisadiyyatının əsaslarının qoyulması dönməz bir prosesə çevrilmiş respublikamızda aqrar islahatların və müstəqil torpaq

siyasətinin formalaşması və həyata keçirilməsi prosesi başlandı. Bütün bunlar imkan verdi ki, müasir aqrar bölmənin yaradılması və inkişaf etdirilməsi iqtisadi inkişaf strategiyasında mühüm vəzifələrdən biri kimi qarşıya qoyulsun.

Beləliklə, müstəqil siyasi-iqtisadi inkişafa keçid prosesində aqrar-sənaye kompleksinin düşdüyü tənəzzül vəziyyətindən çıxarılması vəzifələri ciddi kompleks tədbirlərin həyata keçirilməsini zəruri etmişdir. Həmin tədbirlər kompleksi sistemində aqrar-sənaye istehsalının dövlət tərəfindən tənzimlənməsi və bu tənzimləmə mexanizminin bazar münasibətləri prinsiplərinə uyğunlaşdırılması və təkmilləşdirilməsi müstəsna əhəmiyyət kəsb edir. Lakin belə tənzimlənmə zamanı sovet dövründə olduğu kimi inzibati deyil, iqtisadi təsir və təşviqetmə vasitələrindən istifadə olunmağa aqrar bölmə iqtisadi amillərlə geniş miqyasda dəstəklənməyə başlandı. Ona görə də dövlətin fəal rolu əsasında bazar münasibətlərinin iqtisadi mexanizminin yaradılması aqrar siyasətin üstün istiqamətlərindən biri oldu.

Kənd təsərrüfatında mülkiyyət formalarının transformasiyasında «Aqrar islahatlar haqqında qanun» (18. 11. 1995) və «Sovxoz və kolxozların islahatı haqqında qanun»lar (18. 11. 1995) müstəsna rol oynamışdır. [ Bakı2001, s. 291-297]

Aqrar islahat haqqında qanunda göstərilir ki, bu sahədə islahatın məqsədi aqrar bölməni böhrandan çıxarmaq, iqtisadiyyatı sabitləşdirmək, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırmaqdır. Aqrar islahatın çoxtərəfli aparılması nəzərdə tutulmuş və onun əsas istiqamətləri aşağıdakı kimi müəyyən edilmişdir:

– aqrar bölmədə yeni mülkiyyət münasibətlərinin formalaşdırılması;
– torpaq meliorasiya və su təsərrüfatının islahatı;
– müxtəlif növlü təsərrüfatların yaradılması;
– aqrar bölmənin dövlət təminatı.

Qanunda aqrar islahatların prinsipləri aşağıdakı kimi müəyyən edilmişdir:

- dövlətin iqtisadi siyasəti ilə aqrar islahatın uzlaşdırılması;
- islahatın aparılmasında sosial ədalətin və könüllülüyünün təmin edilməsi;
- əmtəə istehsalçılarına təsərrüfat fəaliyyətinin təşkilində və öz məhsullarına
- sərəncam verməkdə tam sərbəstliyin təmin edilməsi;
- respublikanın kənd təsərrüfatı xüsusiyyətlərinin nəzərə alınması;
- ətraf mühitin mühafizə olunmasına əməl edilməsi;
- kəndin sosial inkişafı və əhalinin sosial müdafiəsi.

Respublikamızda həyata keçirilən aqrar siyasətin mərkəzi xəttini torpaq islahatları təşkil etmişdir. Qanunda torpaq islahatının əsas istiqamətləri kifayət qədər dəqiqləşdirilmişdir.

İslahat torpaqların dövlət və bələdiyyə mülkiyyətinə ayrılmasını, müəyyən edilmiş normalar əsasında xüsusi mülkiyyətə əvəzsiz verilməsini, mülkiyyət formasından asılı olmayaraq torpaq istifadəçilərinə təsərrüfat fəaliyyəti üçün bərabər şərait yaradılmasını nəzərdə tutur. Qanunla torpaq mülkiyyətçilərinə torpağı satmaq, bağışlamaq, dəyişmək, girov qoymaq, icarəyə və vərəsəliyə vermək, əlavə torpaq sahəsi satın almaq sahəsində geniş hüquqlar verir. Meliorasiya və su təsərrüfatı obyektlərinin üzərində də mülkiyyət münasibətlərini dəyişmək və suyun pullu istifadəsini tətbiq etməklə sudan istifadənin səmərəliliyinin artırılması kimi



olduqca əhəmiyyətli tədbirlər də nəzərdə tutulmuş və həyata keçirilir.

Milli Məclis «Torpaq bazarı haqqında», «Girov haqqında» qanunları qəbul edərək torpaq bazarının təşkilinin və torpaq bazarında iqtisadi və hüquqi münasibətlərin tənzimlənməsinin əsaslarını müəyyən etmişdir. Kənd təsərrüfatının mühüm sahəsi olan heyvandarlığın tələbatının ödənilməsi və inkişaf etdirilməsi üçün 2564, 4 min hektar yay və qış otlaq sahəsi ayrılmışdır ki, bu da respublikanın ümumi torpaq fondunun 36, 7% təşkil edir. Torpaq islahatlarının həyata keçirilməsi, qiymətlər üzərindən nəzarətin götürülməsi, istehlakçılara və zərərlə işləyən istehsalçılara subsidiyaların ləğv edilməsi, ərzaq məhsullarının emalı və bölgüsü, kanallarının sərbəstləşdirilməsi və yenidən qurulması yolu ilə aqrar sənaye kompleksi bazar sisteminə yaxınlaşdırılmağa başlamışdır.

Bütün bu köklü dəyişikliklər öz əksini kənd təsərrüfatı məhsullarının təsərrüfat kateqoriyaları üzrə strukturunda da tapmışdır. Belə ki, əhali və kəndli (fermer) təsərrüfatlarının payı ümumi kənd təsərrüfatı məhsullarının istehsalında 1991-ci ildə 38, 5%-dən artıq 1999-cu ildə 95, 6%-ə (o cümlədən) bitkiçilikdə 92, 8%-ə və heyvandarlıqda 98, 7%-ə çatmışdır. Hal-hazırda aqrar bölmədə qeyri dövlət sektorunun payı 95, 7% təşkil edir.

Müasir şəraitdə əsas diqqət bütün təsərrüfat formalarının səmərəli işləyə bilməsi üçün şərait yaradılmasına yönəldilmişdir. Dövlət bazarın işləməsi üçün hüquqi bazanı yaratmış, tənzimləyici orqana çevrilmişdir.

«Aqrar islahatlar haqqında» qanunda göstərilir ki, aqrar bölmə iqtisadiyyatın vacib sahələrindən biri kimi dövlətin himayəsindədir. Belə himayə investisiya qoyuluşunun stimullaşdırılması, məqsədli dövlət proqramlarının tətbiqi, müəyyən məqsədlərə dövlət vəsaitinin ayrılması, mühüm kənd təsərrüfatı məhsullarının qiymətləri ilə onların istehsalında istifadə olunan maşın-mexanizmlərin, yanacaq-sürtkü materialları mineral gübrə, kimyəvi maddələrin qiymətləri arasında mütənasibliyin təmin edilməsi yolu ilə həyata keçirilir.

ASK- nın əsasını təşkil edən kənd təsərrüfatı istehsalının sabit və dayanıqlı inkişafının təmin edilməsi hər şeydən əvvəl torpaq ehtiyatlarından səmərəli istifadə edilməsindən, torpağın məhsuldarlığının artırılmasından, onun təkrar istehsalının təmin edilməsindən asılıdır.

Torpaqdan istifadənin yaxşılaşdırılması sahəsində dövlət tərəfindən görünən tədbirlər Respublikamızda aparılan müstəqil aqrar siyasətin aparıcı istiqamətlərindən biridir.

Kənd təsərrüfatı sahəsində həyata keçirilən islahatlar və genişmiqyaslı dövlət tənzimləmələri 90-cı illərin ikinci yarısından aqrar bölmənin tənəzzül vəziyyətindən çıxması və inkişafının sürətlənməsi üçün zəmin yaratdı. Belə ki, Dövlət Statistika Komitəsinin məlumatlarına görə kənd təsərrüfatının ümumi məhsulu 1995-2000-ci illər ərzində 48, 8%, 2000-2007-ci illər ərzində isə 118, 7% artmışdır. Həmin dövrdə müvafiq olaraq bitkiçilik məhsulları 47, 0 və 110, 7%, heyvandarlıq məhsulları isə 50, 0 və 129, 1% artmışdır. 1996-2004-cü illərdə kənd təsərrüfatının ümumi məhsulu orta hesabla ildə 7% (1997-ci il istisna olmaqla) artmışdır. [44, 2005, s. 551-556]. Bu sahədə artım 2005-ci ildə 7, 5, 2006-cı ildə 0,9 və 2007-ci ildə 4, 0% olmuşdur. Bir sıra həyatı əhəmiyyətli kənd təsrrüfatı məhsullarının istehsalı dinamik şəkildə sürətlə artır. Belə ki, əhali və ailə kəndli

təsərrüfatlarında taxıl istehsalı 1995-ci ildə 32, 6 min tondan (təmiz şəkildə), 2007-ci ildə isə 1951, 1 min tona, kartof istehsalı 1995-ci ildə 146, 8 min tondan 2007-ci ildə 1036, 1 min tona, mal-qara və quş əti - 65, 5 min tondan 147, 3 min tona, süd istehsalı 742, 7 min tondan 1331 min tona çatmışdır. Əsas kənd təsərrüfat malları olan taxıl, buğda unu və tütünün xaricdən idxalı kəskin sürətlə azalmış, ət məhsullarının idxalında da azalma meyli özünün göstərir. Ərzaq məhsullarına olan tələbatın böyük əksəriyyəti daxili istehsal hesabına ödənilməyə başlamışdır.

Bir sıra kənd təsərrüfatı məhsullarının ixracında canlanma meyli yaranmışdır.

Məhsuldarlıq sahəsində son on il ərzində özünü göstərən davamlı irəliləyişlər xüsusilə ümidvericidir. Belə ki, 1995-2007-ci illər ərzində ümumi yığım sahəsinin məhsuldarlığı (sent/ha) müvafiq olaraq aşağıdakı kimi olmuşdur: taxıl 15,1 və 27,1, pambıq 13, 0, tütün 14, 6 və 25, 7, şəkər çuğunduru 54, 8 və 235, kartof 97 və 150, üzüm 32, 6 və 83, 6. Heyvandarlıq məhsulları üzrə də eyni təmayül müşahidə olunur.

Aqrar bölmənin inkişafının mühüm nəticələrindən biri odur ki, ölkədə istehlak mallarının tərkibində yerli məhsulların xüsusi çəkisi hiss olunacaq şəkildə artmışdır. Bu o deməkdir ki, yerli məhsullar daxili bazarda ucuz xarici mallarla rəqabətə dözür və bir çox hallarda qalib gəlir. Bəzi kənd təsərrüfatı məhsullarının ixracında müşahidə olunan artım məhz bunun nəticəsidir.

Bununla yanaşı kənd təsərrüfatı kimi ağır bir istehsal sahəsinin çoxdan yığılıb qalmış köklü problemlərinin qısa müddət ərzində həll edilməsini düşünmək sadəlövhlük olardı. Hələ sovet dövründə iqtisadiyyatın ən qapalı sahəsi olan kənd təsərrüfatı bütün SSRİ miqyasında əsas göstəricilər baxımından orta dünya standartlarından xeyli aşağı idi. 90-cı illərin əvvəllərində isə vəziyyət daha da pisləşdi. Son on ildə özünü göstərən əhəmiyyətli irəliləyişlərə baxmayaraq, aqrar bölmənin inkişafında bir sıra sistem xarakterli problemlər hələ də qalmaqda davam edir. Kənd təsərrüfatı istehsalının artım surəti ümumi iqtisadi inkişaf surətindən xeyli dərəcədə geri qalmaqda davam edir. Belə ki, 2000-2007-ci illər ərzində sənaye məhsullarının ümumi həcmi 2, 3 dəfə artdığı halda kənd təsərrüfatı məhsulları 118% artmışdır. Nəticədə ümumi daxili məhsulda kənd təsərrüfatının payı 1995-ci ildə 25, 3%-dan 2000-ci ildə 14, 7%, 2007-ci ildə isə 5, 9%-ə enmişdir. Kənd təsərrüfatı istehsalının intensivləşdirilməsi və maddi-texniki təchizatı sahəsində məlum problemlər mövcuddur. Əkin sahələrinin məhsuldarlığı orta dünya göstəriciləri ilə müqayisədə xeyli aşağıdır. Kənd təsərrüfatı ilə iqtisadiyyatın digər sahələri arasında əmtəə mübadiləsində qeyri-ekvivalentlik birincinin ziyanına qalmaqda davam edir. Belə ki, enerji daşıyıcıları və digər maddi-texniki ehtiyatların qiymətləri kənd təsərrüfatı məhsullarının qiymətlərinə nisbətən sürətlə artır. Kənd təsərrüfatı işçilərinin orta aylıq əmək haqqı digər sahələrə nisbətən xeyli aşağıdır. Kənd təsərrüfatı istehsalına investisiya və kredit qoyuluşlarının xüsusi çəkisi də aşağıdır. Təsadüfi deyildir ki, kənd təsərrüfatı istehsalının əhəmiyyəti orada yaranmış mövcud vəziyyət və inkişafında ciddi dönüş yaradılması üçün yollar axtarılması zəruriliyi Azərbaycan dövlətinin siyasi və təsərrüfat rəhbərlərinin daim diqqət mərkəzindədir.

«Aqrar sahədə islahatların sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında»



Azərbaycan Respublikası Prezidentinin 22 mart 1999-cu il tarixli Fərmanında göstərilirdi: «Aqrar sahədə mövcud olan istehsal münasibətləri bazar iqtisadiyyatı tələblərinə uyğunlaşdırılmır. Mövcud olan problemlərin elmi təhlili aparılmır, bunun nəticəsində aqrar sahədə planlaşdırılmış maliyyə, kredit, bank, vergi, qiymət, daxili bazarın qorunması tədbirlərini nəzərdə tutan proqram indiyə qədər hazırlanmamışdır» [94, s. 277].

02. 03. 2001-ci ildə Azərbaycan Respublikası Prezidentinin 640 №-li Sərəncamı ilə təsdiq edilmiş ərzaq təhlükəsizliyi haqqında proqramda göstərilirdi: «Ərzaq məhsullarının istehsalı mövcud potensialdan və imkanlardan aşağıdır. Bunun əsas səbəbi istehsalın xarakterində lazımi şəraitin (gübrələrin və maliyyənin) olmaması və ya onlardan səmərəsiz istifadə olunması, suvarma sisteminin köhnəlməsi, istehsalçıların maddi-texniki bazasının zəif olması, kənddə emal, saxlama və qablaşdırma müəssisələrinin olmaması və mövcud avadanlıqların yararsız hala düşməsi, maliyyə vəsaitinin olmaması, suvarma suyunun çatışmaması, daxili bazarın qorunmasını, qiymət və kredit siyasətində uyğunsuzluqların olması, eyni nailiyyətlərin istehsal sahələri ilə uzlaşdırılması və s. problemlərdən irəli gəlir. Bu səbəbdən həmin sahədə məhsuldarlığın və rentabelliyin səviyyəsi aşağıdır.»

Həmin sənəddə daha sonra qeyd edilirdi: «Son illər kənd təsərrüfatı sahəsində torpaq islahatı, təsərrüfatların emal sənayesi və xidmət müəssisələrinin özəlləşdirilməsi kimi mühüm tədbirlər həyata keçirilmişdir. Lakin bu sahədə müəyyən problemlər indi də mövcuddur. Birinci, ayrılan torpaq sahələri sahibkarlara əsasən onların özlərinin ehtiyaclarını təmin etmək imkanı verir.

İkincisi, dövlət təsərrüfatlarından və kolxozlardan miras qalmış əmlak yararsız və ya qismən yararlı haldadır. Maşın və mexanizmlər köhnəlmiş, tikililər və qurğular, suvarma sisteminin bir hissəsi yararsız hala düşmüşdür.»

Azərbaycanın kənd təsərrüfatında mövcud olan problemlərin təxirəsalınmadan və köklü sürətdə həll edilməsi zəruriliyi bu sahədə dövlət tənzimləmələrinin daha da intensivləşdirilməsini və əhatə dairəsinin genişləndirilməsini tələb edir. Təsadüfi deyildir ki, həmin məsələlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iqtisadi siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Çünki məlum olduğu kimi ölkəmizin dünya birliyinə inteqrasiyası neft müqavilələrinin reallaşmağa başlaması ilə və Bakı - Ceyhan neft kəmərinin işə düşməsi özünün keyfiyyətcə yeni mərhələsinə yüksəlmişdir. Avropa Birliyi ölkəmizi yeni qonşuluq strategiyasına daxil etmişdir. GUAM ölkələri ilə inteqrasiya prosesində yeni keyfiyyət dəyişiklikləri özünü göstərməyə başlamışdır. Bakı-Ərzurum qaz kəməri ilə Bakı-Qars Dəmiryolu çəkilməyə başlamış və ölkəmizin Qərb ölkələri ilə inteqrasiyasında mühüm rol oynayacaqlar. Bütün bunlar iqtisadi, o cümlədən aqrar siyasətdə daha geniş əks olunmalıdır.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 18. 11. 2003-cü ildə keçirilmiş ilk iclasında cənab İlham Əliyev xüsusi vurğulamışdır: «Kənd təsərrüfatında islahatların ikinci mərhələsi başlamalıdır.» Belə bir mühüm müddəanın məqsədini o, elmi və praktik cəhətdən belə əsaslandırılmışdır: «Bizim də məqsədimiz budur ki, Azərbaycanda yerli istehsal inkişaf etsin, idxal azalsın və Azərbaycan öz daxili bazarını ölkəmizdə istehsal olunan məhsullarla təmin etsin.»

17. 11. 2006-ci ildə o, həmin müddəanı daha da inkişaf etdirərək qeyd etmişdir: «İndi iqtisadi sahədə Azərbaycanın qarşısında bir neçə önəmli məsələ durur. Onlardan biri qeyri-neft sektorunun, kənd təsərrüfatının, infrastrukturun inkişafı və nəqliyyat infrastrukturunun inkişafıdır. . . Mən həmişə deyirəm, əgər hər bir kəndin problemi həll edilərsə, deməli, ölkədə bütün problemlər həll olunar. »

Nazirlər Kabinetinin 2006-cı ilin I-ci rübünün yekunlarına həsr olunmuş iclasında isə aqrar bölmədə yaranmış vəziyyətin onu narahat etdiyini vurğulamış və icra orqanlarının diqqətini ona yönəltmişdir: «Kənd təsərrüfatında daha da ciddi artım olmalıdır. İndi burada səsləndi artım 2, 5%-dir. Bu əlbəttə, böyük göstərici deyildir. »

Məlum olduğu kimi bazar iqtisadiyyatı şəraitində dövlət bir qayda olaraq, sahibkar kimi bilavasitə təsərrüfat fəaliyyəti ilə məşğul olmur. Ona görə də, kənd təsərrüfatı sahəsində dövlət tənzimləmələri arasında kənd yerlərinin (ərazilərinin) inkişaf etdirilməsinə yönəldilən məqsədyönlü proqramlar xüsusi yer tutur. Bu tədbirlərə kənddə istehsal və sosial infrastruktrunun inkişafına yönəldilmiş tədbirlər; kənd yerlərində qeyri-kənd təsərrüfatı sferasında məşğulluğun artırılması, gəlirləri müəyyən həddən aşağı olan fermelərə birbaşa ödəmələr və s. daxildir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18. 11. 2003-cü il tarixli ilk iclasında cənab İlham Əliyev qeyd etmişdirr: «Azərbaycanın hərtərəfli inkişafa nail olmaq üçün regional proqramlar həyata keçirilməlidir. Sizə bildirməliyəm ki, Azərbaycanın iqtisadi potensialının üçdə iki hissəsi Bakıda və Abşeron yarımadasında formalaşıbdır. Bu onu göstərir ki, regionlarda iqtisadi inkişaf ləng gedir. Əlbəttə bunun da obyektiv səbəbləri vardır. Amma bu istiqamətdə dönüş yaratmaq üçün regional proqramlara böyük diqqət göstərilməlidir. »

Həqiqətən, iqtisadiyyatın ikinci mühüm sahəsi olan aqrar bölmənin inkişafı problemlərinin həlli kompleksli yanaşma tələb edir. Bu baxımdan «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı» müstəsna əhəmiyyət kəsb edir. Həmin proqramın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 11. 02. 2004-cü il tarixli Fərmanına görə, hökumət orqanları qarşıdakı illər ərzində yerlərdə kənd təsərrüfatının, qeyri-neft sənaye sahələrinin, o cümlədən emal müəssisələrinin yaradılmasını, xidmət və digər infrastruktur obyektlərinin, turizmin inkişafını və bütün bunların sonunda yeni iş yerlərinin açılmasını təmin etməlidir. Sənədin əsas məqsədi əsasını kənd təsərrüfatı istehsalı təşkil edən regionlarda sahibkarlığın inkişafını sürətləndirmək, və oradakı əmək ehtiyatlarından optimal dərəcədə səmərəli istifadə etməklə dinamik iqtisadi inkişafa, məhsuldarlığın yüksəldilməsinə, məşğulluğun artırılmasına nail olmaqdan ibarətdir.

2008-ci ilin dövlət büdcəsi layihəsində hökumət regionlarda yolların çəkilməsi, enerji və qaz təchizatının yaxşılaşdırılması, xəstəxana və məktəblərin tikilməsi və yenidən qurulması üçün dövlət investisiyalarının kəskin sürətdə artırılmasını nəzərdə tutmuşdur. Çünki kənd yerlərində infrastrukturun ciddi şəkildə yaxşılaşdırılması orada əlverişli investisiya mühitinin vacib şərtidir.

Regionların sosial-iqtisadi inkişafı dövlət Proqramının ikinci ilinə həsr edilmiş konfransda cənab İlham Əliyev göstərmişdir: «Bütün bu ilki il ərzində görülmüş işlər onu göstərir ki, istiqamət düzgün seçilmişdir, prioritetlər düzgün



müəyyən edilmişdir və proqramın icrasında da müsbət meyllər kifayət qədərdir. Amma problemlər də var, çatışmayan cəhətlər var və biz bunları vaxtlı-vaxtında araşdırmalıyıq, tədbirlər görməliyik ki, bu proqram 2008-ci ilə qədər nəzərdə tutulmuş bütün tədbirlər həyata keçirilsin. » Elə həmin konfransda o xüsusi vurğulamışdır ki, «Aqrar sektora daha böyük diqqət göstərilməlidir».

Çünki Azərbaycanın dünya birliyi ilə inteqrasiyasının sürətlənməsi kənd təsərrüfatında bazar iqtisadiyyatı prinsiplərinin ardıcıl olaraq tətbiqi, aqrar bölmədə yeni mühitin yaranması və inkişafı kənd əhalisinin əvvəllər alışdığı yeni problemlər, yeni çətinliklər meydana gəlmişdir. Bu hər şeydən əvvəl kənd istehsalçılarının maddi-texniki və maliyyə ehtiyatları ilə təminatı məsələsində özünün qabarıq şəkildə göstərir.

Aqrar bölmənin inkişafında ciddi dönüş yaradılması əhəmiyyətli dərəcədə bu bölmənin sənaye sahələri və istehsal infrastrukturunun bəzi alt sahələri ilə inteqrasiyasından asılıdır. Təbiidir ki, iqtisadiyyat sahələrinin qarşılıqlı əlaqədar olan vahid sistemdə birləşdirilməsi bazar iqtisadiyyatı şəraitində olduqca mürəkkəbdir. Bunun həyata keçirilməsi kənd təsərrüfatı və sənayenin bütün təkrar istehsal həlqələrində - istehsal, mübadilə, bölgü və istehlakda bir tam şəkildə birləşdirilməsindən asılıdır. Başqa sözlə, bütün sahələr proporsional mənfəət əldə etməklə yüksək keyfiyyətli məhsul istehsal edilməsinə xidmət etməlidirlər. Aqrar-sənaye istehsal sahəsində strateji kursun əsasını məhz bu müddəa təşkil etməlidir.

Ölkəmizdə kənd təsərrüfatında müxtəlif mülkiyyət və təsərrüfatçılıq formaları fəaliyyət göstərir. Torpaq və əmlak üzərində xüsusi mülkiyyətə əsaslanan kəndli (fermer) təsərrüfatları isə Azərbaycan reallığında yenilikdir və böyük perspektivə malikdir. Ona görə də, həmin təsərrüfat sahiblərinə qabaqcıl dünya dövlətlərində olduğu kimi hərtərəfli dövlət dəstəyi olduqca vacibdir.

Azərbaycanın aqrar bölməsinin dünya təsərrüfatı sisteminə inteqrasiyanın perspektivi ilk növbədə kənd təsərrüfatı istehsalının səmərəliliyindən asılıdır. «Yaşıl inqlab» mərhələsini artıq çoxdan keçmiş dünya kənd təsərrüfatı bazarına ancaq istehsalın yüksək səmərəliliyini təmin etməklə bərabərhüquqlu subyekt kimi daxil olmaq olar. Çünki kənd təsərrüfatı müəssisələrinin əsas istehsal vasitələri ilə təmin edilməsi və onlardan səmərəli istifadə edilməsi təsərrüfat fəaliyyətinin nəticələrinə (kənd təsərrüfatı işlərinin tam və vaxtında yerinə yetirilməsinə, kənd təsərrüfatı məhsullarının istehsal həcminə, onun maya dəyərinə, müəssisənin maliyyə vəziyyətinə) əhəmiyyətli təsir göstərən mühüm amildir. Lakin məlum olduğu kimi, SSRİ-də, o cümlədən Azərbycanda kənd təsərrüfatı istehsalında məhsuldarlıq səviyyəsi inkişaf etmiş ölkələrə nisbətən xeyli aşağı idi. İstehsalın səmərəliliyinin artırılması isə kənd təsərrüfatında yalnız maddi-texniki təchizatın yaxşılaşdırılması yolu ilə mümkündür. Lakin məlum olduğu kimi, müstəqillik illərində məlum obyektiv və subyektiv amillərin təsiri altında kənd təsərrüfatının aqrotexniki və kimyəvi təchizatı sahəsində vəziyyət mürəkkəbləşmişdir. Keçid dövründə olan bir sıra ölkələr kimi, son dövrlərdə ölkəmizin kənd təsərrüfatında da müasir maşın və mexanizmlərin tətbiqi miqyası ixtisar olunmuş, onların çoxu köhnəlmişdir. Ona görə də Kənd təsərrüfatının texnika və mineral gübrələrlə təchizatı sahəsində dövlət dəstəyi ciddi artırılmışdır və bu sahədə dönüş yaradılması tələb olunur.

Azərbaycanın sosial-iqtisadi həyatı üçün həyatı əhəmiyyət kəsb edən aqrar bölmənin dövlət tərəfindən dəstəklənməsi maliyyə, kredit və qiymət mexanizminin tətbiqi ilə genişmiqyaslı tədbirlər sisteminin həyata keçirilməsini tələb edir. Burada ərzaq istehsalı sahəsində fəaliyyət göstərən təsərrüfat subyektlərinə yardım müstəsna əhəmiyyətə malikdir. Çünki ərzaq istehsalı sahəsində fəaliyyət göstərən subyektlərin təsərrüfat fəaliyyətinin rentabelliyi hazırda aşağı səviyyədədir. Bu məsələnin həlli üçün hökumət kənd təsərrüfatına genişmiqyaslı yardım tədbirləri paketinin həyata keçirilməsinə başlamışdır.

Nazirlər Kabinetinin 2008-ci ilin birinci rübünün yekunlarına həsr edilmiş müşavirədə cənab İlham Əliyev demişdir: "Bizim indi maddi imkanlarımız var ki, bu sahəyə diqqət daha da güclü olmalıdır. Dotasiyalar verilməlidir. İndi inkişaf etmiş ölkələrdə kənd təsərrüfatına dotasiya verilir. Biz də bunu edirik-yanacaq almaq üçün ayrılan vəsait, ucuz enerji daşıyıcıları. Azərbaycanda satılan qaz dünya qiymətindən 8-10 dəfə ucuzdur. Bütün bunlar dotasiyalardır. Bütün bunların qiymətlərinin biz ona görə aşağı səviyyədə saxlayırıq ki, həm ölkə əhalisi, həm də sənaye və kənd təsərrüfatı bundan bəhrələnsin. "

"Kənd təsərüffatı məhsullarının istehsalçılarına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli Sərəncamına əsasən, ilk dəfə olaraq kənd təsərüfatı məhsulları istehsalçılarına güzəştlərin edilməsi üçün dövlət büdcəsindən 80milyon manat vəsait ayrılmışdır. Bu sərəncamın icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 15 Fevral tarixli qərarı ilə həmin vəsaitin kənd təsərrüfatı məhsullarının istehsalçısı olan hüquqi və fiziki şəxslərə bir hektar əkin sahəsinin becərilməsində istifadə etdikləri yanacağın və mineral gübrələrin dəyərinin orta hesabla 50 faizinin dövlət tərəfindən təmin edilməsi üçün müvafiq olaraq 40 və 26 manat yardımın verilməsi müəyyənləşdirilmişdir.

Eyni zamanda, respublikada buğda istehsalının stimullaşdırılması, taxılçıların maddi marağının artırılması məqsədi ilə Nazirlər Kabinetinin müvafiq qərarı ilə istehsalçılara səpilən hər hektar buğda sahəsinə görə 40, indi isə 80 manat yardım verilməsi nəzərdə tutulmuşdur. Bunun nəticəsidir ki, 2007-ci ilin məhsulu üçün buğda səpini 2006-cı ilə nisbətən 127, 2 hektar artıq olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin göstərişi ilə Bakı şəhəri əhalisinin kənd təsərrüfatı və qida məhsulları ilə təminatını daha da yaxşılaşdırmaq məqsədi ilə paytaxtın 7 rayonunda 10 yerdə kənd təsərrüfatı məhsullarının satış yarmarkaları keçirilir. 2007-ci ildə 154 yarmarka keçirilmişdir və respublikanın 42 rayonundan yarmarkalara 55 adda 30528, 3 ton kənd təsərrfatı, o cümlədən 12 adda tərəvəz, 17 adda meyvə, 4 adda konserv, 8 adda ət və süd məhsulları gətirilərək bazar qiymətlərindən aşağı qiymətə əhaliyə satılmışdır.

Hökumətin aqrar bölmədə siyasətinin əsas məqsədi investisiyaların səmərəliliyini artırmaq və digər məqsədyönlü tədbirlərin həyata keçirilməsi yolu ilə kənd təsərrüfatı məhsullarının istehsalında yüksək rentabelliyi təmin etməkdən ibarətdir.

Rentabelliyə və rəqabətqabiliyyətinə nail olmaq, dövriyyə kapitalını əldə etmək üçün ərzaq məhsulları istehsalçılarının modernləşdirməyə yönəldilmiş investisiyalara, habelə texniki və istehsal innovasiyalarına ehtiyacları vardır.



Azərbaycanda aqrar siyasətin qısamüddətli dövr ərzində aparıcı istiqaməti kənd təsərrüfatında geniş təkrar istehsal üçün daha əlverişli iqtisadi şəraitin yaradılması və aqrar bölmədə təsərrüfat vahidlərinin maliyyə vəziyyətinin yaxşılaşdırılması təşkil edir.

2007-ci ildə lizinqə verilən kənd təsərrüfatı texnikasının və texnoloji avadanlıqların dəyərinin ödənilmə müddəti 5 ildən 10 ilə uzadılmış, sığortalanan kənd təsərrüfatı bitkilərinin növləri 1-dən 8-ə qədər və sığorta haqqının dövlət tərəfindən ödənilən hissəsi isə 25 faizdən 50 faizə qədər artmışdır.

Həmin ildə dövlət büdcəsindən ayrılmış 37, 4 milyon manat hesabına 1468 ədəd müxtəlif növ kənd təsərrüfatı maşınları, o cümlədən 530 ədəd (onun 382-si ölkə daxilində yığılmış "Belarus MTZ" markalı) traktor və 62 min ton mineral gübrələr alınmış, 12 ədəd emal müəssisəsi üçün texnoloji avadanlıqlar gətirilib quraşdırılmışdır.

İstehsalçılara texniki servis xidməti göstərən rayon müəssisələrinin sayı 56-ya çatdırılmış və 70 mexanikləşdirilmiş dəstə yaradılmışdır.

Kənd təsərrüfatı məhsullarının istehsalında toxumçuluq və tingçiliyin xüsusi rolunu nəzərə alaraq, 2007-ci ildə Nazirlər Kabineti tərəfindən qəbul edilmiş qərarlar ölkədə bu problemi həll etməyə geniş imkanlar yaratmışdır. Toxumçuluq və tingçilik təsərrüfatlarından satılan yüksək reproduksiyalı toxum və tinglərə görə subsidiyaların ödənilməsi işi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş kvota əsasında həyata keçirilir.

Göründüyü kimi, dövlət lizinq xidməti əsasında kənd təsərrüfatının texnika və gübrə ilə təchiz olunmasına diqqəti xeyli artırmışdır. Bu tədbir kənd istehsalçılarına əhəmiyyətli maliyyə dəstəyi hesab olunmalıdır.

Dövlət büdcəsi vəsaiti hesabına texnika və gübrənin alınaraq fermerlərə verilməsi kənd təsərrüfatı istehsalının artımına əhəmiyyətli təsir göstərmişdir.

Kənd təsərrüfatı istehsalının artımını stimullaşdırmaq məqsədilə qarşıdakı illərdə hökumət tərəfindən ünvanlı subsidiyalaşdırma və digər mexanizmlərin tətbiqi nəzərdə tutulur. Digər dövlətlərdə olduğu kimi, Azərbaycanda da yalnız ünvanlı deyil, onun digər növlərinin də tətbiqi aqrar siyasətdə mühüm istiqamətlərdən birinə çevrilərsə, aqrar bölmənin dayanıqlı inkişafının təmin olunmasında mühüm addım ola bilər.

Məlum olduğu kimi, bazar iqtisadiyyatı şəraitində kənd istehsalçılarının uğurlu fəaliyyəti əhəmiyyətli dərəcədə istehsal olunan məhsulların satılması ilə əlaqədardır. Başqa sözlə, satış probleminin bu sahədə böyük rolu vardır. Təbiət - iqlim şəraitindən ciddi asılı olan kənd istehsalçıları bütün ölkəyə səpələnmişlər, dağınıqdırlar, şəhərlərdə toplanmış bazarlar isə kompaktdırlar. Dağınıq istehsalçılar istər-istəməz bazar inhisarçılığı ilə üzbə-üz dayanırlar. Bu inhisarçılıq həm satışda, həm də kənd təsərrüfatı texnikası və gübrələrin alınmasında özünü göstərir. Belə bir şəraitdə kənd təsərrüfatı məhsulları qiymətlərinə dövlət müdaxiləsi, bu məhsulların qiymət mexanizmi vasitəsilə dəstəklənməsi bütün dünyada aqrar sektorun dayanıqlı inkişafının əsasını təşkil edir. Belə müdaxilənin həyata keçirilməsi üçün inkişaf etmiş ölkələrdə hökumət orqanları bir sıra iqtisadi göstəriciləri, ilk növbədə ixtisaslaşdırılmış təsərrüfatlarda istehsal xərclərinin səviyyəsi (Avropa Birliyi ölkələrində), istehsal növləri (ABŞ-da), sənaye və kənd

təsərrüfatı məhsulları qiymətləri arasındakı nisbətin, ferma və istehsal sahələrində gəlir səviyyəsini diqqətlə izləyirlər. Bu göstəriciləri izləmək üçün dövri olaraq xüsusi hesabatlar tərtib edilir və dərc edilir. Onlar diqqətlə öyrənilir və cari dövrdə kənd təsərrüfatı məhsullarının qiyməti sahəsində yeridilən qiymət siyasətinin əsasını təşkil edir.

Qiymətlərə müdaxilə mexanizmi müxtəlif dövlətlərdə müxtəlif şəkildə həyata keçirilir. Perspektivdə Azərbaycanda da belə müdaxilənin inkişaf etdirilməsi zəruriliyini nəzərə alaraq qabaqcıl ölkələrdə həmin təcrübə haqqında ətraflı məlumat verilməsini məqsədəuyğun hesab edirik. ABŞ-da qiymət siyasəti iki növ qiymət mexanizmi vasitəsilə həyata keçirilir: 1) məqsədli (zəmanətli), 2) girov qiymətləri.

Məqsədli qiymətlər ən mühüm məhsul növlərinə tətbiq edilir. Bu qiymətlər fermer təsrrüfatlarının istehsal xərclərinin ödənilməsi (istehsal xərclərinin tərkibinə fermer kapitalı üçün orta mənfəət norması və torpaq rentası daxil edilir) və onlar tərəfindən əlavə gəlir əldə edilməsini təmin etmək məqsədini güdür. Fermerlərin istehsal etdikləri məhsullar bazar qiymətləri ilə satılırlar. Bu qiymətlər məqsədli qiymətlərdən yuxarı, aşağı və onlara bərabər ola bilər. Əgər məhsulun bazarda satış qiyməti məqsədli qiymətlərdən aşağı olarsa fermerlərə dövlət tərəfindən bu fərq ödənilir.

Girov qiymətləri tətbiq edilərkən bu qiymətlər satış qiymətindən aşağı olduqda fermerlər özünün bütün əmtəəlik məhsulunu girov müqabilində əmtəə - kredit korporasiyasına (ƏKK) təsbit edilmiş girov qiymətləri ilə təhvil verir. Bu halda girov qoyulmuş məhsul 9 ay ərzində fermerlər tərəfindən satın alına bilər. Əgər bu baş verməzsə məhsul ƏKK-nın mülkiyyətinə keçir, fermer isə girov qiymətləri ilə (saxlanılma xərcləri çıxılmaqla) pul kompensasiyası alır. Girov qiymətləri kənd təsərrüfatı məhsullarına zəmanətli qiymətlərin aşağı həddidir.

Avropa Birliyi (AB) ölkələrində kənd təsərrüfatı məhsulları qiymətlərinə dövlət müdaxiləsi hələ bu Birlik yaranmamışdan öncə milli səviyyədə həyata keçirilməyə başlamışdır. AB yarandıqdan sonra bu müdaxilə təkmilləşdirilərək, özünün keyfiyyətcə yeni yüksək mərhələsinə yüksəlmişdir. Hal - hazırda Birlikdə belə bir mexanizm mövcuddur: məqsədli qiymətlər - orta və iri təsərrüfatlara müəyyən gəlir səviyyəsinə zəmanət verir. Müdaxilə qiymətləri isə minimum qiymət funksiyasının yerinə yetirir: dövlət tədarük təşkilatları əvvəlcədən təsbit edilən həmin qiymətlərlə kənd təsrrüfatı məhsullarını fermerlərdən satın alırlar.

Beləliklə, inkişaf etmiş qabaqcıl ölkələrdə aqrar - sənaye istehsalında qiymətin formalaşması sistemi kənd təsərrüfatında hazır məhsul qiymətləri, məsrəflər və gəlirlərin istehsal vasitələri qiymətlərinin dinamikasını daim diqqət mərkəzində saxlanılmasını tələb edir. Spesifik qiymət mexanizmi vasitəsilə onlar arasında optimal əlverişli nisbət yaradılmağa çalışılır.

Qiymət - bazar iqtisadiyyatının əsas elementlərindən biridir. Aqrar - sənaye istehsalında qiymətlərin dövlət tərəfindən tənzimlənməsi mürəkkəb və ziddiyyətli bir məsələ olmaqla, kənd təsərrüfatı istehsalının sabitləşdirilməsi və geniş təkrar istehsalının təmin edilməsi, əhalinin ərzağa, sənayenin isə xammala olan tələbinin ödənilməsi üçün olduqca vacibdir. Dünya təcrübəsinin öyrənilməsi imkan verir ki, Azərbaycanın spesifik xüsusiyyətləri nəzərə alınmaqla daha səmərəli qiymət



siyasəti həyata keçirilsin. Kənd təsərrüfatı məhsullarının tədarükü bu sahədə mövcud strukturların təkmilləşdirilməsi və yenilərinin yaradılması işinin dünya ölkələrinin təcrübəsinə uyğunlaşdırılması vacibdir. Qiymətlərin dövlət tərəfindən dəstəklənməsi üçün qiymət fondlarının yaradılması məsələsinin də nəzərdən keçirilməsi məqsədəuyğundur.

Nazirlər Kabinetinin qərarı ilə kənd təsərrüfatı məhsullarının satışı ilə məşğul olan yarmarkaların təşkili bu məhsulların müvafiq qiymətlə əhaliyə çatdırılması işində mühüm addımdır. Bununla yanaşı 2006-cı ilin birinci yarısının yekunlarına həsr olunmuş iclasda Kənd təsərrüfatı naziri İ. Abbasovun göstərdiyi kimi "Regionda kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olanların heç də hamısı öz məhsullarını respublikanın iri şəhərlərində satışa çıxarmaq imkanına malik deyillər. Odur ki, şəhər əhalisinin ilboyu meyvə-tərəvəzlə təminatını yaxşılaşdırmaq, məhsul itkisinin və bazarlarda möhtəkirliyin qarşısını almaq məqsədi ilə regionlarda soyuducu anbar və xüsusi təyinatlı nəqliyyat vasitələri ilə təchiz edilmiş topdansatış və tədarük bazalarının yaradılması məqsədəuyğundur." Bu fikir ciddi şəkildə dəstəklənməlidir.

Qeyd etmək lazımdır ki, 90-cı illərin I-ci yarısının böhranı dövründə ciddi sürətdə dağılmış maşın-traktor parkının bərpası və modernləşdirilməsi bu sahədə köklü dönüş yaradılması üçün yalnız lizinq kifayət deyildir. Ona görə də aqrar bölmədə dayanıqlı geniş təkrar istehsalın təmin olunması üçün kreditə böyük ehtiyac vardır. Müasir şəraitdə kənd istehsalçılarının yalnız qısamüddətli kreditə deyil, həm də daha çox uzunmüddətli kreditə ehtiyacı böyükdür. Çünki gənc fermer təsərrüfatların ilkin əsas kapitala və dövriyyə kapitalına tələbi çoxdur. Ona görə də Azərbaycan Dövlətinin müasir dövrdə aqrar siyasətində kredit mexanizmindən geniş istifadə edilir, onun təşkilati strukturu yaradılmış, bu məqsədlə müvafiq kredit resursları ayrılmışdır.

Lakin müasir mərhələdə kənd təsərrüfatı müəssisələrinin kreditə böyük ehtiyacı olduğu halda mövcud bank-kredit təşkilatları bu ehtiyacı kifayət qədər ödəyə bilmək imkanına malik deyildir. Fermer təsərrüfatlarına və emal müəssisələrinə kredit yalnız girov qoyulan əmlakın sığorta olunduğu halda verilir. Lakin yüksək sığorta tarifləri riskin səviyyəsini əks etdirərək fermer təsərrüfat-larının kredit almaq imkanlarını məhdudlaşdırır. Ona görə də kənd təsərrüfatına verilən kreditlər iqtisadiyyat sahələrinə yönəldilən kreditlərin hələlik 5-6%-i səviyyəsindədir. Ziyanla işləyən təsərrüfatların sayı çox olduğu halda kreditlər üzrə faizlər yüksəkdir. Hökumətin kredit siyasəti kənd təsərrüfatı və emal müəs-sisələrinin kredit almaq imkanlarının daha da genişləndirilməsinə yönəldilmişdir. Nəzərə almaq lazımdır ki, ölkəmiz Ümumdünya Ticarət Təşkilatına üzv olmağa hazırlaşır. Həmin təşkilat isə kənd təsərrüfatı istehsalına subsidiyaların artırılma-sına imkan vermir. Ona görə də fermerlərə yaxın gələcəkdə kredit mexanizmi vasitəsilə yardımın artırılması daha da aktuallaşacaqdır.

Qlobal iqtisadiyyata sürətlə inteqrasiya etdiyimiz bir şəraitdə aqrar bölmədə dayanıqlı inkişafın təmin edilməsi böyük investisiya qoyuluşları ilə əlaqədardır. Təsadüfi deyildir ki, həmin sahəyə cəmi investisiya qoyuluşları ölkəmizdə 2000 - 2005-ci illər ərzində 5 dəfədən çox, 2005-2007-ci illər ərzində isə 5, 4 dəfə artmışdır. Həmin dövrdə ümumi investisiyaların tərkibində kənd təsərrüfatının payı

0, 7%-dən 3, 2%-ə qədər yüksəlmişdir. Kənd təsərrüfatına qoyulan investisiyalar 2007-ci ildə iqtisadiyyata yönəldilən cəmi kapital qoyuluşlarının yalnız 0, 7%-ni təşkil etmişdir.

Bununla yanaşı kənd təsərrüfatına kapital qoyuluşlarının ciddi sürətdə artırılması və ölkənin zəmanətli ərzaq təhlükəsizliyinin yaradılması əhəmiyyətli dərəcədə aqrar bölmənin özünün daxili imkanlarından daha səmərəli istifadə edilməsindən, bu imkanların hərəkət mexanizminin təkmilləşdirilməsindən asılıdır.

Aqrar biznesdə təsərrüfat fəaliyyətinin nəticələri böyük ölçüdə istehsalın ixtisaslaşması və təmərküzləşməsi ilə əlaqədardır. Kənd təsərrüfatı istehsalında ixtisaslaşma və təmərküzləşmə iki təmayülün qarşılıqlı vəhdətindən asılıdır: bir tərəfdən, ictimai əmək bölgüsünün dərinləşməsi daha dar ixtisaslaşmaya yardım edir, digər tərəfdən isə, kənd təsərrüfatı istehsalının xüsusiyyətləri (mövsümiliyi, torpağın müstəsna rolu ilə bitkiçiliklə heyvandarlığın sıx qarşılıqlı əlaqəsi və s. ) çoxsahəli müəssisələrin inkişafını tələb edir. Sovet dövründə kolxoz və sovxozlar çoxşaxəli idilər. Hal-hazırda bazar iqtisadiyyatı şəraitində isə dar ixtisaslaşma əsasında yaradılan təsərrüfatların (toyuq fabrikləri və s. ) sayı sürətlə artır. Onlar arasında optimal nisbətin yaradılması vacibdir.

Məlum olduğu kimi qloballaşma şəraitində, istər ölkə daxilində, istərsə də beynəlxalq miqyasda ərzaq bazarı uğrunda rəqabət mübarizəsi olduqca kəskinləşmişdir. Bu mübarizədə o ölkələr qalib gəlirlər ki, orada təmərküzləşmə getmiş və iri kənd təsərrüfatı müəssisələri, fermerlər, birliklər yüksək məhsuldarlığa malik texnika və texnologiyadan geniş istifadə edir və məhsuldarlığı ciddi sürətdə artırırlar. Nəzərə almaq lazımdır ki, ABŞ-da 8%-dən ibarət təsərrüfat subyektləri kənd təsərrüfatı məhsullarının 73,5%-ni əlində cəmləşdirmişdir. [181, s.88]. Ona görə də müasir dövrdə ərzaq bazarında xırda təsərrüfatlar deyil, məhz iri birləşmələr uğurlu rəqabət mübarizəsi apara bilərlər. Onların investisiya cazibədarlığı da yüksəkdir. Ölkəmizdə də iri təsərrüfat subyektləri aqrar bölmənin daxili imkanlarının üzə çıxarılmasını, əmək üçün az məsrəflə əlverişli şərait yaradılmasını təmin edə bilər, insanların məişəti və mədəniyyətinin yüksəldilməsində mühüm rol oynaya bilər. Lakin keçid iqtisadiyyatı şəraitində ölkəmizdə bir kəndli (fermer) təsərrüfatına düşən kənd təsərrüfatına yararlı torpaq sahəsi orta hesabla 10 hektardan aşağıdır. Ona görə də iri aqrar-sənaye birliklərinin yaradılması üçün özəl kapital ilə yanaşı dövlət dəstəyinin həyata keçirilməsi aqrar siyasətin tərkib hissələrindən biri olmalıdır. Nəzər almaq lazımdır ki, Avropa ölkələri və ABŞ-da belə birliklərin maliyyələşməsinə ayrılan vəsaitlər onların istehsal xərclərinin təxminən 40%-ni təşkil edir.

Kənd təsərrüfatı istehsalının müasir tələblərə uyğunlaşdırılması və dayanıqlı inkişafının təmin olunması, onun xarici əlaqələrinin səmərəliliyinin artırılması beynəlxalq iqtisadi inteqrasiya qanunları və şərtlərinə daha çox uyğunlaşdırılmasından asılıdır.

Ölkəmizdə ardıcıl olaraq «açıq iqtisadiyyat» inkişaf modelinin tətbiq edildiyi və dünya birliyinə inteqrasiya prosesləri sürətləndiyi bir şəraitdə kənd təsərrüfatının və aqrar-sənaye bölməsinin səmərəli fəaliyyət göstərməsi üçün həm daxili, həm də xarici əlverişli iqtisadi mühit daha da yaxşılaşdırılmalıdır.

Digər keçid iqtisadiyyatı ölkələrində olduğu kimi, Azərbaycanda da kənd



təsərrüfatının xarici əlaqələri, son illərdə ciddi müsbət dəyişikliklər baş verməsinə baxmayaraq hələlik zəifdir. Kənd təsərrüfatı məhsullarının ticarət dövriyyəsi xarici ticarətin cəmisi 2%-ni təşkil edir. Təsadüfi deyildir ki, müqayisəli üstünlüklər prinsipi əsasında xarici ticarət siyasəti ilə bu sahənin himayə edilməsi demək olar ki, bütün dövlətlərin iqtisadi siyasətinin əsasını təşkil edir. Hal-hazırda ən mükəmməl iqtisadi inteqrasiya birliyi olan Avropa Birliyində inteqrasiya prosesləri ilk növbədə aqrar siyasətin uzlaşdırılması ehtiyacından doğmuşdur. Mütəxəssislər hesab edirlər ki, bu birlikdə inteqrasiya proseslərinin müvəffəqiyyəti ilk növbədə bu uzlaşdırmanın uğurlu nəticələri ilə əlaqədardır.

Hal-hazırda Azərbaycan intensiv surətdə bir neçə regional inteqrasiya birləşmələrinə (EKO, GUAM, MDB, Avropa ilə yeni qonşuluq siyasəti) qoşulur. Dünya miqyasında inteqrasiya prosesləri isə ÜTT-na yaxın gələcəkdə qoşulduğundan sonra daha da sürətlənəcəkdir. Bütün bu inteqrasiya proseslərində aqrar bölmənin xüsusi rolu və ehtiyaclarının daim diqqət mərkəzində olması çox vacibdir.

# FƏSİL VI.

## AZƏRBAYCAN AVRASİYA MƏKANININ MƏRKƏZİ NƏQLİYYAT DƏHLİZİNƏ ÇEVRİLİR

> *Bizim coğrafi vəziyyətimiz çox əlverişlidir, biz bu vəziyyətlərdən səmərəli istifadə edirik. Coğrafi vəziyyət özlüyündə hələ o demək deyil ki, bundan mütləq istifadə olunacaqdır. Bir çox ölkələr vardır ki, onların coğrafi vəziyyəti bizimkindən pis deyil. Ancaq Azərbaycan bu vəziyyətdən çox məharətlə istifadə edir və biz artıq bölgənin mərkəzinə çevrilirik. Bunu biz özümüz öz fəaliyyətimizlə, öz siyasətimizlə edirik.*
>
> **İlham ƏLİYEV**
>
> *Azərbaycan Respublikasının Prezidenti*

### 6. 1. Böyük İpək Yolu – Şərq və Qərbin dialektik vəhdətinin məntiqi nəticəsi kimi.

Yol hələ qədim dövrlərdən bəşəriyyətin diqqət mərkəzindədir. Təsadüfi deyildir ki, fəlsəfi və bədii söz xəzinəsinin nəhəngləri öz hikmətli fikirlərini çox vaxt cəmi üç hərfdən ibarət olan " yol " sözü ilə ifadə etmişlər. Bu həmin anlayışın bəşər tarixində oynadığı rol ilə əlaqədardır, onun ictimai fikirdə əksi, inikasıdır. Qədim Çin filosofu Konfutsi qeyd edirdi: " İnsan Yolu genişləndirməlidir, Yol insanı deyil. " Başqa bir yerdə isə o deyirdi: ağıllı insan kasıblıq haqqında deyil, yol haqqında düşünər[1, s. 59, 60]. Yol haqqında ayrıca bir əsər yazmış qədim Çin filosofu Lao-Tszin belə bir obrazlı ifadəsi var: "Böyük yol rəvan və düzdür, ancaq insanlar cığırlarla getməyi sevirlər. " Onun fikrinə görə böyük yolla getmək xeyirxah iş görmək, cığırlarla getmək isə şər iş görmək deməkdir[2, s. 115].

Şair və mütəfəkkirlərimiz həmişə vüsala, səadətə aparan yol axtarışında olmuşlar. Söz xəzinəsinin Nizami və S. Vurğun zirvəsində Fərhad Şirinin eşqi ilə Bisutun dağını yarıb yol açır. Səməd Vurğun üçün "könüldən könülə yollar görünür". Sağlığında klassikə çevrilmiş Məmməd Araz isə fəryad edir:

*Ömür boyu dan yerində qol açdım,*
*Qarlı dağdan qarlı dağa yol açdım,*
*Bir ürəyin zülmətində yol azdım,*
*Nə yaxşı ki, ayrı yollar var imiş!*

Bədii söz xəzinəsində və real həyatda vüsala, səadətə, azadlığa, tərəqqiyə aparan yollarla yanaşı, həsrətə, qürbətə, geriliyə, köləliyə, dünya ağalığına, müharibələrə və s. aparan yollar da mövcuddur. Bu isə dünyamızda milyonlarla insanın taleyi, müqəddəratı ilə bilavasitə əlaqədardır.



Bəşər tarixinin keşməkeşli yollarına diqqətlə nəzər saldıqda məlum olur ki, yol və nəqliyyat lap qədim dövrlərdən insanın həyat uğrunda mübarizəsinin və özü üçün əlverişli və təhlükəsiz həyat şəraitinin yaradılması uğrunda səylərinin nəticəsidir. Başqa ifadə ilə desək, yol tarixin bir növ cığırdaşı, yer üzünün əşrəfi olan insanın təbiətdə və cəmiyyətdə hökmranlıq vasitəsidir. Yol vasitəsi ilə insanlar yeni həyat məkanı təmin etmiş, maddi və mənəvi mübadilə prosesinin əsasını qoymuşlar.

Yol və nəqliyyat öz təkamülündə uzun və əzablı bir yol keçmişdir. Min illər boyu insan və heyvan izlərinin kortəbii olaraq həkk edildiyi daşlı-kəsəkli yollar və indiki gözlə baxdıqda primitiv görünən, lakin o zaman inqilabi yenilik olan nəqliyyat vasitələri, insanlar, yaşayış məntəqələri arasında əlaqə yaratmış, maddi və mənəvi alış-verişin bünövrəsini qoymuşdur. Sonralar isə sistemli şəkildə salınan yollar və nəqliyyat vasitələrində baş verən inqilabi yeniliklər şəhərləri, ölkələri, qitələri birləşdirərək insanlığın vəhdətini təmin etmiş, cəmiyyətin təkamülünə daha ciddi təkan vermişdir.

Çox vaxt hərbi məqsədlərlə çəkilən yollar dövlətlərin, nəhəng tarixi imperiyaların hərbi və iqtisadi gücünün mühüm göstəricisi olmuşdur və onların hegemonluğunu təmin etmişdir. Hələ qədim dövlətlərdə inkişaf etmiş yol sistemi mövcud olmuşdur. Roma imperiyası süqut etdiyi dövrdə 79 min km yola malik idi [127, s. 45]. Təsadüfi deyildir ki, o zamanlar belə bir atalar sözü də yaranmışdır: "Bütün yollar Romaya aparır. " Roma imperiyasının süqutu yol təsərrüfatının dağılmasına səbəb oldu. Nəticədə tarixçilərin göstərdiyinə görə Avropanın yolları XVIII əsrdə öz keyfiyyətinə görə 5-8 dəfə qədim Roma yollarından pis vəziyyətdə idi[127, s. 46]. Cəmiyyət irəlilədikcə yollar daha böyük tarixi missiya yerinə yetirməyə başlamışlar. Vahid dünyanın iki böyük tərkib hissəsi olan Şərq və Qərb mədəniyyəti və iqtisadiyyatının bir-birinə yaxınlaşmasında, bir-birini qarşılıqlı olaraq tamamlamasında, " Böyük İpək Yolu " adı altında hələ eramızdan əvvəl fəaliyyət göstərməyə başlamış nəqliyyat arteriyası mühüm tarixi rol oynamışdır.

Dünyanın gündoğan və günbatan cəhətlərini ifadə edən «Şərq» və «Qərb» sözləri böyük hərflərlə yazıldıqda ictimai məna kəsb edir və gündoğan və günbatan səmtdə yerləşən ölkələri əks etdirir.

İctimai mənada işlənən Şərq və Qərb ifadələrində qədim və mürəkkəb bəşər tarixinin minlərlə açılmış və açılmamış sirrləri, dünyanın iki böyük hissəsinin bir-biri ilə əməkdaşlıq və bəzən də çoxtərəfli qovuşma prosesləri, bu proseslərin ictimai təkamülə verdiyi güclü təkanlar, cəmiyyətin inkişafını yüz illərlə geri atmış müdhiş müharibələrin qanlı izləri, müdrik filosofların minillik mübahisələri silinməz boyalarla həkk olunmuşdur.

2000-ci ildə Davosda Dünya İqtisadi Forumunun təşkil etdiyi konfransda H.Əliyev demişdir: «Böyük İpək Yolu bəşəriyyətin tarixində, xüsusən Avrasiya kontinentinin tarixində dərin iz buraxıb və vaxtilə Avropa ilə Asiya arasında yüklərin daşınmasında çox böyük rol oynamışdır» [52, s. 16].

Vahid dünyanın bu iki böyük tərkib hissələri arasında qədim dövrlərdən başlanan qarşılıqlı əlaqə və mübarizə tarixi inkişafın gedişində qarşılıqlı asılılıq və

anbarların, energetika təsərrüfatlarının, rabitə, su təchizatı, kanalizasiyaların inşası, ümumi və ixtisas təhsilli, elmə, səhiyyəyə və s. çəkilən xərclər daxildir. Başqa sözlə maddi istehsalın inkişafında mühüm rol oynayan infrastrukturlar iki hissəyə bölünür : istehsal və sosial infrastruktura. Onların sürətli və tarazlı inkişafı bəşəriyyətin tərəqqisinin əsasını təşkil edir.

Lakin yenidən bədii söz xəzinəsinə müraciət etsək görərik ki, Süleyman Rüstəmin təbirincə "Təbrizin yolları" kimi "Yaralı yollar" da vardır. Bu baxımdan nəzərdən keçirildikcə aydın olur ki, " Kitabi Dədə Qorquddan" gələn "Dəli Domrul" hekayəsinin böyük-ictimai siyasi mənası vardır. Bu hekayəyə görə bir quru çayın üzərində körpü quran Dəli Domrul "keçənindən otuz üç aqça alırdı, keçmiyənindən döyə-döyə qırx aqça alırdı ". Bunu neçün böylə edirdi? Onun üçün ki, " məndən dəli, məndən güclü ər varmıdır ki, çıxa mənimlə savaşa - deyirdi ; mənim ərliğim, bahadırlığım, cılasunligim, yigitliyim, Ruma, Şama gedə cavlana " - deyərdi. . .

Dərindən düşündükdə aydın olur ki, keçmişdə dünyanı əsarət zənciri ilə buxovlamış olan böyük metropoliyaların müstəmləkəçilik siyasətinin əsasında da məhz belə bir düşüncə tərzi kök salmışdır. İşğal altına alınmış xalqların min illərlə axarlı-baxarlı yolları bağlanmış, onların sərvətlərinin daşınması üçün metropoliyalara tərəf gedən yeni yollar çəkilmişdir. Bu yollarla Afrikadan yalnız təbii sərvətlər deyil, insanları da qula çevrilərək Amerika Latfundiyalarına daşınırdılar.

Dağıdıcı müharibələrin və bu müharibələr nəticəsində ölkələrin çoxunun müstəmləkə, yarımmüstəmləkə və asılı vəziyyətə düşməsi Şərqin geridə qalmasında mühüm rolu vardır. Şərq ölkələrinin əksəriyyətində istehsalın inkişafı dünya bazarlarının tələblərinin ödənilməsi istiqamətində həyata keçirdi. Bununla yanaşı Şərqin dünya bazarının cazibə qüvvəsinə daxil olması ictimai həyatın ənənəvi əsaslarının dağılmasını sürətləndirirdi. Digər tərəfdən isə, Şərq zəngin təbii və mədəni sərvətləri, ucuz işçi qüvvəsi ilə dünya bazarının inkişafına təkan verirdi.

Təbiətin tükənməz sərvətlərini insan cəmiyyətinin sonsuz ehtiyaclarının ödənilməsi üçün daha çox "ram" etmiş XX əsr tarixə "böyük kəşflər", "böyük İnqilablar", "elmi texniki tərəqqi" kimi daxil olmaqla yanaşı bu əsrdə baş vermiş müharibələr əsrimiz boyu dünya ölkələri üçün fəlakətə çevrilmişdir.

XIX əsrdə Orta Asiya və Qafqaz xalqları Çar Rusiyası tərəfindən əsarət altına alındıqdan sonra onların cənub qonşuları və digər dövlətləri ilə ənənəvi əlaqələri kəsildi . Bəşəriyyətə İbn Sina, Nəsrəddin Tusi və minlərlə dühalar bəxş etmiş bu ölkələr "Rusiyanın ucqarı" damğası ilə damğalandılar. Ənənəvi müstəmləkəçilik siyasətini davam etdirən Sovet İmperiyasında da bu ölkələri dünya ilə birləşdirən məhdud yollar yalnız Rusiya ərazisindən keçirdi. Bu yalnız görünən yollara aid deyildir, həmçinin görünməyən mədəni-mənəvi yollara da aid idi. Orta Asiya xalqları və Azərbaycan dünya mədəniyyətinə yalnız rus mədəniyyəti vasitəsilə qoşulurdu. Dünya klassikləri əsasən rus dilindən tərcümə olunurdu. Obrazlı ifadə ilə desək bu xalqların kainata baxmaq üçün yalnız bir pəncərəsi açıq idi: Rusiyanın yol verdiyi pəncərə. . .

Qərbin maddi və mədəni dəyərlərindən geniş istifadə etməyə çalışan həmin



ölkələrin zəngin təbii ehtiyatları Qərbin ehtiyaclarının təmin edilməsi üçün mənimsənilməyə başlamış və dünya siyasətinin aparıcı istiqamətlərindən birinə çevrilmişdir. "Böyük İpək Yolu" probleminin yenidən aktuallaşması da Şərq və Qərb arasında enerji daşıyıcılarının Qərbə asan ötürülməsi üzərində gedən ciddi işlə, yeni kommunikasiya xətlərinin açılması ilə əlaqədardır.

## 6. 2. TRACECA proqramı və regionda nəqliyyat kompleksinin inkişaf perspektivləri.

XX əsrin son onilliyində Sovet imperiyasının süqutu, dünyanın bloklara bölünməsinin aradan qaldırılması soyuq müharibəyə son qoydu, böyük bir coğrafi bölgədə geosiyasi vəziyyəti kökündən dəyişdirdi. Bəşəri tərəqqi üçün dünya təsərrüfatı sisteminin bütün həlqələri arasında qarşılıqlı faydalı hərtərəfli əlaqələrin daha da dərinləşməsi yolunda geniş imkanlar yarandı. Bu coğrafi məkanda Xəzər hövzəsinin zəngin neft yataqlarının mühüm bir hissəsinə nəzarət edən Orta Asiya və Qafqazın yeni müstəqil dövlətləri özünəməxsus yer tutur. Dünyanın neft xəzinəsi sayılan İran körfəzindən sonra öz əhəmiyyətinə görə ikinci yerdə duran bu regionda neft ehtiyatı 30 mlrd. t., qaz ehtiyatı, isə onlarla trillyon kub metr təşkil edir. Mütəxəssislərin hesablamalarına görə XXI əsrin ikinci yarısında orta illik neft hasilatı burada 100 mln. tona çata bilər. Uran və digər mühüm filiz növləri, qızıl ehtiyatı, habelə pambıq parça istehsalı imkanları nəzərə alındıqda regionun əhəmiyyəti daha da artır.

Məlum olduğu kimi dünya xalqlarının dil leksikonuna yeni daxil olmuş geosiyasət anlayışı coğrafi amillərlə ümumbəşəri (siyasi, iqtisadi, sosial, hərbi) amilləri özündə birləşdirir. Sovet impeyarisının 70 il bütün gücü ilə qoruyub saxladığı «dəmir pərdələr» Orta Asiya və Qafqaz regionununu, istər öz yaxın qonşularından, istərsə də bütün dünya birliyindən ümumbəşəri amillər baxımından əhəmiyyətli dərəcədə təcrid etmişdir.

İnformatika, ekologiya, texnoloji sıçrayış və faydalı qazıntıların tətbiqının genişlənməsi əsri olan XXI əsr dünyanın məhdud mineral-xammal ehtiyatlarından optimal səmərəliliklə istifadə olunması zərurətini doğurur. 2010-cu ildə planetdəki əhalinin sayının 10 mlrd. nəfərə çatacağı proqnozlaşdırılır. İstehlak edilən faydalı qazıntıların adambaşına miqdarı nisbi olaraq azaldılmış olsa da, demoqrafik sıçrayış mineral xammal və enerji ehtiyatlarına olan tələbatın gələn əsrdə dünya miqyasında kəskin sürətdə artacağını müəyyən edir. Belə ki, Beynəlxalq energetika agentliyinin məlumatına görə 2010-cu ilə qədər ilk enerji daşıyıcılarının istehlakı dünyada təxminən 47% artacaqdır. Ona görə də region növbəti yüzillikdə qlobal iqtisadiyyatın sabit və səmərəli inkişafında özünəməxsus yer tutmağa başlamış və buna görə də müasir geosiyasətin aparıcı istiqamətlərindən birinə çevrilmişdir. Əsrin əvvəllərində Qafqaz və Orta Asiyada nüfuz uğrunda Rusiya və İngiltərənin apardığı mübarizəni əks etdirən «böyük oyun» ifadəsi əsrin sonunda siyasi leksikona «yeni böyük oyun» ifadəsi altında fərqli kontekstdə yenidən atıldı. Lakin zaman dəyişmiş, bir regionun digər region, bir dövlətin digər dövlət üzərində hegemonluğuna əsaslanan imperiyalar süqut etmiş, onların yeritdikləri işğalçı siyasi

kurslar iflasa uğramışdır. Dünya bütün dərinliyi ilə dərk etməyə başlamışdır ki, sivilizasiyanın gələcəyi regionlar və dövlətlər arasındakı münasibətlərin mahiyyətindən, bu munasibətlərin qarşılıqlı faydalılıq prinsipinə əsaslanmasından asılıdır. Məhz buna görə də müxtəlif geosiyasi maraqların toqquşmasına deyil, ümumi maraqların əlaqələndirilməsi prinsipinə əsaslanan «Böyük ipək yolu» ideyasının ortaya atılıb, həyata keçirilməyə başlanması bəşəriyyətin qlobal problemlərinin həlli yolunda dünyanın inkişafında, yeni və nəhəng bir addım hesab edilir. Tarixi hadisələrin təbii axarı nəticəsində meydana gəlmiş və Qərblə Şərqi qırmızı tellərlə bir-birinə bağlayan qədim «İpək yolu»nun bərpası gələcək nəsillərin ümumi rifahının yüksəldilməsində mühüm rol oynayacağı getdikcə daha aydın dərk edilir.

«Böyük İpək Yolu» layihəsi əhalisinin ümumi sayı 67 mln. nəfər (1991-ci il) təşkil edən və bu layihənin əsas hədəfini təşkil edən Orta Asiya və Qafqazın müstəqil ölkələrinin ümumdünya təsərrüfat dövriyyəsinə fəal cəlb olunması, onların 70 illik sovet dövründə yığılıb qalmış sosial-iqtisadi problemlərinin həll edilməsi və nəhayət, bu dövlətlərin siyasi və iqtisadi müstəqilliklərinin möhkəmləndirilməsi üçün daha geniş perspektivlər açır. Məlum olduğu kimi, sovet iqtisadi sistemini səciyyələndirən bir çox xəstəliklər (məsrəf iqtisadiyyatı, onun qapalı xarakteri, ölkənin inkişaf etmiş dövlətlər üçün yanacaq-xammal bazasına çevrilməsi, əhalinin ən ümdə ehtiyaclarını belə təmin etmək iqtidarında olmayan zəif kənd təsərrüfatı, dünya bazarlarında rəqabət aparan məhsul istehsal etməyə qadir olmayan sənaye) bu respublikalarda özünü daha kəskin şəkildə göstərirdi. (bax: cədvəl № 6. 1)

*Cədvəl № 6. 1*

**Orta Asiya və Qafqaz respublikalarında əhalinin həyat səviyyəsini xarakterizə edən bəzi göstəricilər (1990-cı il)***

| | Adambaşına ümumi gəliri ayda 100 rubla qədər olanların ümumi əhalinin tərkibində xüsusi çəkisi (%) | Adambaşına dövlət və kooperativ pərakəndə-satış ticarəti dövriyyəsi (rubl.) | Əmanət banklarında əhalinin əmanətlərinin ümumi miqdarı (mlrd. man.) |
|---|---|---|---|
| SSRİ | 11, 3 | 1619 | 381, 4 |
| Azərbaycan SSR | 49, 4 | 902 | 3, 7 |
| Gürcüstan SSR | 17, 7 | 1397 | 8, 1 |
| Ermənistan SSR | 16, 7 | 1436 | 5, 9 |
| Qazaxıstan SSR | 24, 4 | 1308 | 14, 2 |
| Qırğızıstan SSR | 46, 5 | 1069 | 2, 2 |
| Özbəkistan SSR | 54, 1 | 907 | 8, 4 |
| Tacikistan SSR | 67, 8 | 815 | 1, 9 |
| Türkmənistan SSR | 49, 2 | 1065 | 1, 8 |

*[208, s. 48, 115, 122]

Zəngin təbii sərvətlərə malik olan bu respublikalarda əhalinin ümumi rifah səviyyəsi statistik məlumatlardan göründüyü kimi dünya standartlarından qat-qat



aşağı olan sovet reallığından da xeyli geri idi. Türkdilli respublikalarda vəziyyətin daha ağır olduğu diqqəti xüsusilə cəlb edir.

Dünya bankının yuxarıda adı çəkilən «hesabatında» (1997) göstərilən ölkələr adambaşına ümumi milli məhsulun miqdarına görə dünya dövlətləri arasında ən aşağı gəlir səviyyəsinə malik (Qazaxıstan və Özbəkistan orta səviyyədən bir az aşağı) ölkələr qrupuna daxil edilmişlər. Hesabatdan görünür ki, 1995-ci ildə adambaşına ümumi milli məhsul Azərbaycanda 480, Gürcüstanda 440, Ermənistanda 730, Qırğızıstanda 700, Tacikistanda 340, Türkmənistanda 920, Özbəkistanda 970 və Qazaxıstanda 1330 ABŞ dolları təşkil etmişdir.

Sovet imperiyasının süqutu nəticəsində inzibati-amirlik sisteminin iflası, planlı bölgü prinsiplərinə əsaslanan mövcud iqtisadi əlaqələr mexanizminin dağılması və bazar iqtisadiyyatına keçidin daşlı-kəsəkli yolları bu ölkələrin müstəqilliyinin ilk illərində dərin iqtisadi böhrana məruz qalmasına, istehsalın, o cümlədən adambaşına məhsul istehsalının ciddi sürətdə azalmasına səbəb olmuşdur. (bax: cədvəl №2. 10)

*Cədvəl № 6. 2*

**Orta Asiya və Qafqaz ölkələrinin müstəqilliklərinin ilk illərində əsas iqtisadi göstəriciləri (faizlə)***

| | ÜDM-in dinamikası 1996 (1990=100) | ÜDM-in orta illik azalma sürəti | Adambaşına ÜDM-in orta illik azalma sürəti (1990-1995) | Adambaşına ÜDM ABŞ-a nisbətən faizlə | |
|---|---|---|---|---|---|
| | | | | 1987 | 1995 |
| Azərbaycan | 40 | -20, 2 | -16, 3 | 21, 8 | 5, 4 |
| Gürcüstan | 41 | -26, 9 | -17, 0 | 28, 1 | 5, 5 |
| Ermənistan | 47 | -21, 2 | -15, 1 | 25, 4 | 8, 4 |
| Qırğızıstan | 54 | -14, 7 | -6, 9 | 13, 6 | 6, 7 |
| Özbəkistan | 88 | -4, 4 | -3, 9 | 12, 6 | 8, 8 |
| Qazaxıstan | 55 | -11, 9 | -8, 6 | 24, 2 | 11, 2 |
| Türkmənistan | 70 | - | - | - | - |
| Tacikistan | 24 | - | - | 12, 1 | 3, 4 |

* [214, s. 250, 270, 284, 326, 1998, №2, s. 109]

Göründüyü kimi adambaşına ümumi milli məhsulun həcmi ABŞ-a nisbətən bu ölkələrdə 1987-1995-ci illər ərzində 2-4 dəfə azalmışdır.

Bu ölkələrin bir çox sənaye sahələri tənəzzül etmiş, iqtisadi struktur deformasiyaya uğramış, tərəqqinin əsasını təşkil edən kapital qoyuluşları ciddi sürətdə azalmışdır. Belə ki, əsas fondlara kapital qoyuluşu 1990-cı il göstəriciləri 100 hesab edilərsə 1996-cı ildə Azərbaycanda 22, Gürcüstanda 14, Ermənistanda 15, Qazaxıstanda 28, Özbəkistanda 71, Qırğızıstanda 26, Türkmənistanda 43 və Tacikistanda 4% olmuşdur. Bu ölkələrin çoxuna xarici kapital axını gözlənildiyindən qat-qat aşağı səviyyədə qalmışdır.

Tamamilə aydındır ki, bol təbii sərvət potensialına malik olan Xəzər hövzəsi və Qafqaz ölkələrinin gələcək sosial-iqtisadi tərəqqisi həlledici dərəcədə onların

ümumdünya təsərrüfatı sisteminə fəal və səmərəli qoşulması prosesindən asılıdır.
Ulu öndər Heydər Əliyev "Böyük İpək Yolu" layihəsində Azərbaycanın
xüsusi rol oynadığını bəyan edirdi. O göstərirdi ki: "Azərbaycan "İpək yolu"nun
mərkəzində yerləşir. . . "İpək yolu" Yaponiya, Çin və Mərkəzi Asiyadan keçib
Xəzərə çıxacaqdır. Xəzərdə Şərq və Qərb sahilləri arasında keçid bərəsi var və bu
bərə Azərbaycana məxsusdur. Bakı "İpək yolu"nun üstündə yeganə iri dəniz
limanıdır. Ona görə də Azərbaycan burada çox mühüm strateji mövqe tutur".
Heç kəs üçün sirr deyildir ki, müasir dövrdə tərəqqinin həlledici amili neft və
qaz, təbii sərvətlər ehtiyatı deyil, intellektual və elmi-texniki ehtiyatlardır. Bu eh-
tiyatlar isə yalnız min illər ərzində toplanmış dünya təcrübəsindən intensiv istifadə
etmək və beynəlxalq əlaqələr sistemində fəal iştirak etməklə inkişafın əsil hə-
rəkətverici qüvvəsinə çevrilə bilər. Halbuki, sovet dövründə dünya birliyindən «də-
mir pərdələrlə» təcrid olunmuş bu ölkələrin xarici iqtisadi əlaqələrini, yalnız şərti
olaraq "xarici" adlandırmaq olardı. Çünki Respublikanın «xarici ticarətinin» böyük
hissəsi yerli məhsulların respublikalararası mübadiləsindən ibarət idi. Onların
«uzaq» xariclə əlaqələri isə olduqca məhdud (idxalat üzrə ümumi mal dövriy-
yəsinin 15-25%, ixracat üzrə isə 2-16% arasında) xarakter daşıyırdı.
Təsadüfi deyildir ki, dünya təsərrüfatı sistemi ilə iqtisadi inteqrasiya bu ölkə-
lərin iqtisadi siyasətinin aparıcı istiqamətlərindən birini təşkil edir. Lakin bu ölkə-
lərin uzun müddət xarici dünyadan təcrid olunması, zəngin iqitisadi potensiallarının
əhalinin ehtiyaclarının ödənilməsinə deyil, ümumittifaq xalq təsərrüfat
kompleksinin tələbatına tabe edilməsi nəticəsində onların müstəqil xarici iqtisadi
əlaqələr kompleksinin formalaşması çox mürəkkəb bir şəraitdə keçirdi. Ənənəvi
bazarlarla mərkəzdən planlaşdırılan əlaqələrinin iflasa uğraması, dünya bazarları-
nın tələblərinə uyğun rəqabətqabiliyyətli məhsul istehsalının yox dərəcəsində olma-
sı iqtisadiyyatı uzun müddət iflic vəziyyətinə salmış, xarici ticarət dövriyyəsini bir
çox ölkələrdə kəskin sürətdə azaltmış, onun strukturunu daha da pisləşdirmişdir.
Tələblə təklif arasındakı uçurum, istehlak və digər mallar üzrə xaricdən ciddi
asılılıq, uzaq xaricə çıxış üçün müstəqil və alternativ nəqliyyat dəhlizlərinin olma-
ması xarici ticarət şərtlərinin bu ölkələrin əleyhinə dəyişməsini şərtləndirmişdi.
Məsələn, Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə bu göstərici
aşağıdakı şəkildə Azərbaycanın əleyhinə dəyişmişdir.

**Azərbaycanın 1993-1996-cı illərdə xarici ticarət şərtləri***

| | 1993 | 1994 | 1995 | 1996 |
|---|---|---|---|---|
| İdxalat qiymət indeksi | 100, 0 | 131, 4 | 161, 0 | 162, 7 |
| İxracat qiymət indeksi | 100, 0 | 117, 7 | 114, 2 | 127, 5 |
| Xarici ticarət şərti | 100, 0 | 84, 6 | 70, 9 | 78, 4 |

*[274]



Aşağıdakı məlumatlardan göründüyü kimi Orta Asiya və Qafqaz ölkələri əhalinin istehlak mallarına olan tələbatının ödənilməsində xaricdən ciddi şəkildə asılı idilər:

**1988-ci ildə yerli mənbələr hesabına ticarətə daxil olan malların ümumi ticarət dövriyyəsində xüsusi çəkisi (faizlə)***

| | Cəmi mallar | O cümlədən ərzaq | Qeyri-ərzaq |
|---|---|---|---|
| Azərbaycan | 10, 1 | 3, 3 | 15, 3 |
| Gürcüstan | 11, 9 | 2, 5 | 17, 5 |
| Ermənistan | 8, 1 | 4, 6 | 10, 4 |
| Qazaxıstan | 7, 5 | 2, 8 | 11, 3 |
| Özbəkistan | 9, 0 | 4, 8 | 11, 7 |
| Qırğızıstan | 6, 4 | 3, 1 | 8, 7 |
| Tacikistan | 10, 6 | 4, 0 | 15, 3 |
| Türkmənistan | 7, 4 | 1, 2 | 11, 3 |

*[245, s. 204-205]

XXI əsrdə beynəlxalq iqtisadi inteqrasiya daha da dərinləşir. Bir regionda və ya dövlətdə sosial-iqtisadi proseslərin gedişi əhəmiyyətli dərəcədə bu region və ya dövlətin dünyada mövcud olan hansı nəhəng inteqrasiya birliklərinə daxil olacağından əhəmiyyətli dərəcədə asılıdır. Texnoloji inqilabların beşiyi olan Avropaya alternativ yollarla çıxış bu ölkələrdə istər iqtisadiyyatın müasir texniki və texnoloji əsaslarda yenidən qurulması və dirçəldilməsində, istərsə də bazar iqtisadiyyatının formalaşmasında mühüm rol oynayacaqdır.

Tamamilə aydındır ki, bu ölkələr zəngin təbii sərvət ehtiyatlarını yalnız öz gücünə arxalanmaqla mənimsəmək imkanından məhrumdurlar. Onların ənənəvi tərəfdaşı olan Rusiya isə özünün kifayət qədər iqtisadi problemlər burulğanında boğulurdu və oradakı imperiyapərəst qüvvələr bu ölkələrlə əməkdaşlıqda SSRİ dağıldıqdan sonra da öz imperiya ambisiyalarından əl çəkmirdi, onların siyasi və iqtisadi müstəqilliyinin möhkəmləndirilməsi yolunda maneələr yaratmaqda davam edirdilər. Ona görə də Böyük ipək yolu layihəsi Orta Asiya və Qafqaz ölkələrinin Rusiyadan asılılığının zəiflədilib aradan qaldırılmasında da müstəsna rol oynamışdır. Bu layihə zəngin faydalı qazıntı potensialının istismarı üçün həmin ölkələrin xarici kapital cəlb etmək imkanlarını da genişləndirmişdir.

İpək yolu üzərində yerləşən postsovet ölkələrində nisbətən inkişaf etmiş nəqliyyat sistemi mövcud olsa da, bu sistem, həll edilməsi həyati əhəmiyyət kəsb edən bir çox ciddi problemlərlə qarşı-qarşıyadır. Qlobal iqtisadiyyatın sabit inkişafı üçün strateji əhəmiyyətə malik olan bu ölkələrin nəqliyyat sistemi sovet dövründə elə təşkil olunmuşdur ki, həmin sistem bu dövlətləri Rusiya bazarlarına bağlamış, onların xarici dünyaya (Rusiyadan başqa) çıxışını mümkün qədər məhdudlaşdırmışdır. Mövcud nəqliyyat sistemi həmin dövlətlərin müstəqillik uğrunda apardıqları mübarizədə ən zəif həlqələrdən biridir.

Dünya birliyinə müstəqil çıxış yollarının olmaması və iqtisadi cəhətdən və xüsusən əhalinin ilkin tələbat mallarına olan ehtiyaclarının ödənilməsində xaricdən

**Azərbaycan Respublikasında nəqliyyat-yol kompleksinə daxil olan qurumların əsas iqtisadi-maliyyə göstəricilərinin proqnozu (2002-2015-ci illər)**

| | Göstəricilər, nəqliyyat növləri | 2002 | 2006 | 2007 | 2010 | 2011 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|---|
| | | fakt | fakt | fakt | proqnoz | proqnoz | proqnoz | proqnoz |
| 1 | Yük daşınması (min ton) | | | | | | | |
| | Cəmi | 82612 | 109033 | 114033, 5 | 130213, 1 | 136868, 7 | 160342 | 169358, 9 |
| | Dəmiryolu | 17464 | 21000 | 22000 | 24484, 4 | 25635, 2 | 29679 | 31281, 7 |
| | dəniz | 11381 | 16000 | 17000 | 20515, 7 | 21931, 3 | 26992, 4 | 29016, 8 |
| | aviasiya | 31 | 33 | 33, 5 | 35, 1 | 35, 8 | 38, 2 | 39, 1 |
| | avtomobil | 53736 | 72000 | 75000 | 85177, 9 | 89266, 4 | 103632, 4 | 109021, 3 |
| 2 | Yük dövriyyəsi (mln ton km) | | | | | | | |
| | Cəmi | 18675 | 23840, 7 | 24990, 6 | 29807, 7 | 30745, 6 | 38133, 6 | 41108, 2 |
| | Dəmiryolu | 6980 | 8186, 7 | 8576, 6 | 9368, 5 | 9799, 5 | 11290, 3 | 11843, 5 |
| | dəniz | 6077 | 8000 | 8440 | 9919, 7 | 10528 | 12969, 7 | 13968, 4 |
| | aviasiya | 84 | 94 | 99 | 115, 1 | 121, 5 | 143, 9 | 152, 4 |
| | avtomobil | 5534 | 7560 | 7875 | 9369, 1 | 10296, 6 | 13729, 7 | 15143, 9 |
| 3 | Sərnişin daşınması (min nəfər) | | | | | | | |
| | Cəmi | 773346 | 835996, 6 | 852887, 5 | 915531, 8 | 947834, 5 | 1061839, 1 | 1103269, 7 |
| | Dəmiryolu | 4442 | 5400 | 5670 | 6600 | 7043, 2 | 8563, 9 | 9154, 8 |
| | dəniz | 14 | 16, 6 | 17, 5 | 19, 1 | 19, 7 | 21, 9 | 22, 7 |
| | aviasiya | 732 | 1030 | 1100 | 1341, 5 | 1435, 4 | 1771, 5 | 1902, 6 |
| | avtomobil | 76818 | 829550 | 846100 | 907571, 2 | 939336, 2 | 105148, 8 | 1092489, 6 |
| 4 | Sərnişin dövriyyəsi (mln sərnişin km) | | | | | | | |
| | Cəmi | 11077 | 12046, 5 | 12346, 8 | 13485 | 14025, 3 | 15765, 2 | 16432, 9 |
| | Dəmiryolu | 584 | 730 | 770 | 912, 3 | 968 | 1167 | 1242, 9 |
| | dəniz | 6 | 6, 5 | 6, 8 | 7, 4 | 7, 7 | 8, 3 | 8, 6 |
| | aviasiya | 884 | 900 | 950 | 1118, 4 | 1186, 6 | 1424, 6 | 1515, 8 |
| | avtomobil | 9603 | 10410 | 10620 | 11446, 9 | 11863 | 13165, 3 | 13665, 6 |
| 5 | Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində yük daşınması (min ton) | | | | | | | |
| | Cəmi | 36121, 7 | 49124, 6 | 53059, 6 | 66916, 9 | 72706, 8 | 94150, 7 | 103043, 8 |
| | Dəmiryolu | 16586, 9 | 19620, 8 | 20555, 1 | 23233, 9 | 24325, 9 | 28186, 8 | 29737 |
| | dəniz | 8841, 1 | 13500 | 15000 | 20699, 7 | 23121, 6 | 32310, 3 | 36219, 8 |
| | aviasiya | 1, 9 | 3, 8 | 4, 5 | 7, 5 | 8, 9 | 14, 9 | 17, 7 |
| | avtomobil | 10691, 8 | 16000 | 17500 | 22975, 8 | 25250, 4 | 33638, 7 | 37069, 8 |
| 6 | Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində sərnişin daşınması (min sərnişin) | | | | | | | |
| | Cəmi | 154617, 4 | 161880 | 164087 | 173357, 9 | 177364, 8 | 191503, 2 | 197152, 3 |
| | Dəmiryolu | 3884 | 4900 | 5500 | 7837, 9 | 8856, 8 | 12824, 7 | 14530, 4 |
| | dəniz | 10, 6 | 15 | 17 | 23, 9 | 26, 9 | 38, 8 | 43, 9 |
| | aviasiya | 44, 8 | 65 | 70 | 87, 9 | 95, 5 | 122, 9 | 133, 8 |
| | avtomobil | 150678 | 156900 | 158500 | 165408, 2 | 168385, 6 | 178516, 8 | 182444, 2 |
| 7 | Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində tranzit yüklərin daşınması (min ton) | | | | | | | |
| | Cəmi | 16387, 1 | 24400 | 27100 | 37304 | 41573 | 57818, 7 | 64654, 2 |
| | Dəmiryolu | 7900, 5 | 11600 | 12800 | 17285, 3 | 19152, 1 | 26121, 9 | 28995, 3 |
| | dəniz | 8486, 6 | 12800 | 14300 | 20018, 7 | 22420, 9 | 31696, 8 | 35658, 9 |



Göründüyü kimi yaxın perspektivdə nəqliyyat sistemi əslində sıçrayışlı şəkildə inkişaf edəcək və Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyasını daha da sürətləndirəcəkdir.

**Dəniz nəqliyyatı.** Su nəqliyyatı öz ucuzluğuna görə həmişə böyük üstünlüyə malikdir. Azərbaycanın Volqaboyu, İran, Mərkəzi Asiya ölkələri ilə nəqliyyat əlaqələrində Xəzər dənizi tarixən mühüm rol oynamışdır. 19-cu əsrin ikinci yarısından başlayaraq Abşeron yarımadasında neft sənayesinin sürətli inkişafı bu nəqliyyat növünün əhəmiyyətini hədsiz dərəcədə artırmışdır. 1913-cü ildə Xəzər dənizi ilə 6. 6 mln. ton yük dövriyyəsi həyata keçirilmişdir ki, bunun da 80%-ə qədəri neft məhsulları idi. Tarixi məlumatlar göstərir ki, o zamankı dəniz donanması kiçik gəmilərdən ibarət idi. Bakı Beynəlxalq Dəniz Ticarəti limanının əsası 1902-ci ildə qoyulmuşdur.

Sovet hakimiyyəti illərində ölkəmizdə dəniz nəqliyyatı tamamilə yenidən qurulmuşdur. 1937-ci ildə müasir Bakı limanının birinci hissəsi işə düşmüşdür. Xəzər hövzəsi SSRİ-nin ən mühüm nəqliyyat arteriyalarından biri kimi 1956-cı ilə qədər ölkə dənizləri arasında yük dövriyyəsinə görə birinci yeri tuturdu. 1962-ci ildə işə salınmış Bakı-Krasnovodsk və 80-cı illərdə istifadəyə verilmiş Bakı-Bekdaş bərə xəttləri dəniz yük daşımalarında mühüm yer tuturdu. 1990-cı ildə dəniz nəqliyyatı ilə 17. 8 mln. ton yük daşınmışdır. Onun 65%-i bərə xətləri ilə daşınmışdır. Müstəqillik əldə etdikdən sonrakı ilk illərdə bütün nəqliyyat sahələrində olduğu kimi nəqliyyat sektoru da ciddi sarsıntılara məruz qaldı. 1990-1994-cü illər ərzində dəniz nəqliyyatı ilə yük dövriyyəsi 17. 8 mln. tondan 6. 6 mln. tona qədər azalmışdır. Ümumi siyasi-iqtisadi sabitliyin təmin olunması bu sahənin işinədə müsbət təsir göstərmişdir. 1995-2007-cı illər ərzində bu sahədə yük dövriyyəsi 2 dəfəyə qədər artmışdır. Xəzər hövzəsində gəmilərə sahib olan Xəzər Dəniz Gəmiçiliyinin rəsmi yaranma tarixi 1858-ci il may ayının 21-i sayılır. Məhz bu tarixdə Rusiya senatının fərmanı ilə «Qafqaz və Merkuri» Səhmdar Dənizçilik Cəmiyyəti yaradılmışdır. Xəzər Dəniz Gəmiçiliyi 1992-ci ilə qədər SSRİ Dəniz Donanması Nazirliyinin tərkibindəki 17 gəmiçilik idarəsindən biri idi. SSRİ dağıldıqdan sonra 15 Sovet Respublikalarından 7-si SSRİ dəniz donanmasına varis oldu.

Xəzər Dəniz Gəmiçiliyinin strukturuna daxildir:

Donanma;

Gəmi təmiri istehsalat birliyi «Xəzərdənizgəmitəmiri»;

Texniki xidmət və təmir bazası;

Dəniz yollarının hövzə idarəçiliyi «Xəzərdənizyol»;

«Xəzərdənizlayihə» elmi-tədqiqat institutu;

İnformasiya hesablama mərkəzi;

Ticarət, təchizat və agentlik təşkilatları və s.

Nəqliyyat donanması 71 nəqliyyat gəmisindən və 1 ədəd sudaşıyan gəmidən ibarətdir. Bunlardan 36-sı maye yük daşıyan gəmilər-tankerlərdir, 7 ədədi gəmi-bərələr, 2 ədədi RO-RO tipli universal gəmi, 26 ədədi quru yükdaşıyan gəmilər olmaqla cəmi 375 min tondur.

Nəqliyyat donanmasına 23 quru yükdaşıyan gəmisi Qara və Aralıq dənizlərində taym-çarter müqaviləsi əsasında kommersiya reysləri icra edir, qalan gəmilər Xəzər hövzəsində istismar olunur. Gəmiçilik Xəzərdə Avropa-Qafqaz-Asiya (TRACECA) nəqliyyat dəhlizində bağlayıcı rolu oynayır. Transxəzər istiqamətində yüklərin daşınması üçün hazırda dəmir yol vaqonları, avtomaşınlar və sərnişin daşıyan gəmi-bərələrindən və tankerlərdən istifadə olunur. Xəzər Dəniz Gəmiçiliyinin tanker donanması Xəzərdə ən güclüdür.

Avrasiya dəhlizi Çinin Lyanyunqan limanından başlayaraq Avstriyanın paytaxtı Vena şəhərinədək uzanır. Bu təxminən 11-12 min km məsafədir. Yüklər müxtəlif növ nəqliyyat vasitələri ilə fərqli qanunvericiliklərə, gömrük və sərhəd prosedurlarına malik olan bir çox ölkələrdən keçirilməklə daşınır. Avrasiya dəhlizi Xəzər Dəniz Gəmiçiliyi üçün Xəzərdə əsas yük bazasıdır.

Daşınmalar Xəzər Dəniz Gəmiçiliyinin tankerləri ilə Aktau-Abşeron, Alaca-Abşeron, Alaca-Bakı, Okarem-Abşeron, Okarem-Bakı, Aktau-Bakı və Türkmənbaşı-Bakı marşrutları üzrə icra edilir.

Tankerlərin yüklənib-boşalmasını sürətləndirmək məqsədi ilə Sanqaçalda neft terminalı istismara verilmişdir. Gəmiçiliyin nəzdində fəaliyyət göstərən «Xəzərdənizyol» İdarəsinin əsası 1928-ci qoyulub. Yaranmasının əsas səbəbi isə limanların tikilməsi, hövzədə yük axınlarının artması ilə əlaqədar olaraq tutumu və suya oturma dərəcəsi böyük olan mövcud gəmilərin rekonstruksiyası zərurəti idi.

«Xəzərdənizyol» dibdərinləşdirmə işlərini, gəmiçiliyin təhlükəsizliyindən ötrü naviqasiya vasitələrinin qoyulmasını və onlara xidmətin göstərilməsini, yeni dəniz yollarının, kanalların salınmasını, yeni ərazilərin yuyulmasını və başqa bu kimi işləri həyata keçirir.

Bütün keçən illər ərzində "Xəzərdənizyol" idarəsi Xəzər dənizinin bütün limanlarında dibdərinləşdirmə işləri aparılmışdır.

**Bakı Dəniz Ticarət Limanı.** Azərbaycan Respublikası dövlət müstəqilliyini qazandıqdan sonra, 1992-ci ildə yanvar ayının 1-dən etibarən Bakı Dəniz Ticarət Limanı Xəzər Dəniz Gəmiçiliyinin strukturundan çıxaraq müstəqil müəssisə olmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 28 noyabr tarixli 407 saylı qərarı ilə Bakı Beynəlxalq Dəniz Ticarəti Limanının nizamnaməsi təsdiq edilmişdir. Bu nizamnaməyə əsasən liman, hüquqi şəxs olaraq tam təsərrüfat hesablı və özünü maliyyələşdirmə prinsipləri əsasında fəaliyyət göstərir.

Liman il boyu günün 24 saatı ərzində fasiləsiz iş cədvəli əsasında işləyir. Liman 5 terminaldan ibarətdir:

1. əsas yük terminalı;



2. konteyner terminalı;
3. bərə terminalı;
4. dübəndi neft terminalı;
5. sərnişin terminalı

<u>Əsas yük terminalı</u> ümumi uzunluğu 858 m-ə bərabər olan 7 körpüdən ibarətdir. Bu körpülərdən biri xüsusi olaraq «RO-Ro» tipli gəmilərin qəbulu üçün nəzərdə tutulub. Körpüdə suyun dərinliyi 7 metrə bərabərdir. Texniki bazasında yük qaldırma qabiliyyəti 5 tondan 40 tona kimi olan 16 portal kranları, 1–5 tondan 10 tona kimi müxtəlif növ avtoyükləyiciləri, 100 ədəd roltreylerlər və «Sisu» markalı dartıcı traktorları vardır.

Terminalın Dəmiryolu xətlərinin uzunluğu 8 km-dir. Manevr işləri üçün 4 ədəd teplovozu, lokomotiv briqadası, deposu, Dəmiryolu və avtomaşın tərəziləri vardır.

Konteyner terminalı ildə 15000 ədəd konteyner qəbul etmək gücünə malikdir.

Bərə terminalı hər birinin uzunluğu 87 metrə bərabər olan 2 qaldırıcı körpüyə malikdir. Körpülərin yanında suyun dərinliyi 8-10 metrə bərabərdir. Bərə hər reys üçün 28 vaqon və ya 45 treyler yük maşını, 202 nəfər sərnişin və 50 ədəd minik maşını götürə bilər. Terminal ildə 8 milyon ton yük aşırma gücünə malikdir.

Neft terminalı ümumi uzunluğu 582 metr olan 4 körpüyə malikdir. Onlardan ikisi istismardadır. Eyni zamanda 5000 tondan 12000 tona qədər ağırlıqda 4 tankerə xidmət göstərilə bilər. Körpülərin yanında suyun dərinliyi 9, 6 metrdir. Neft terminalı ildə 10 milyon ton yük aşırma gücünə malikdir.

Sənişin terminalında uzunluğu 130 metr olan körpü vardır. Terminalda gəzinti gəmiləri Bakı əhalisi və şəhərimizin qonaqlarına xidmət edir. Bakı Dəniz Limanında həmçinin Liman Donanması fəaliyyət göstərir. Donanmaya 20 gəmi daxildir.

Xəzər dənizində beynəlxalq daşımaların, xüsusən xam neftin tranzit nəqlinin kəskin sürətdə artırılması, digər Xəzəryanı dövlətlətin regionda aparılan rəqabətliliyinin sərtləşdirilməsi şəraitində Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinin hövzədə, xüsusilə Şərq-Qərb dəhlizində neft yüklərinin aparıcı daşıyıcı mövqeyinin saxlanması və gücləndirilməsi ölkənin dəniz nəqliyyatının əsas vəzifələrini təşkil edir.

Bu vəzifələrə nail olmaq məqsədilə 2008-2011-ci illərdə Gəmiçiliyin ticarət donanmasının yeniləşdirilməsi və modernləşdirilməsi, xüsusən neft yükləri daşıyan tankerlərin və bərə gəmilərin təzələnməsi və ümumi yükgötürmə qabiliyyətinin artırılması nəzərdə tutulur.

Proqnozlaşdırılan dövrdə Xəzər dənizinin Abşeron akvatoriyasında liman infrastrukturunun yenidənqurulması, yeni limanların, neft terminallarının inşası Bakı liman rayonunun regionda neft və digər ixrac yüklərin aşırılması, ötürülməsi və sonrakı istehsalı üçün toplanması, işlənilməsi üzrə mərkəzi qovşağa çevrilməsinə imkan yaradacaqdır.

**Avtomobil nəqliyyatı.** Azərbaycanda avtomobil nəqliyyatının tarixi 20-ci əsrin əvvəllərinə təsadüf edir. 1911-ci ildə Azərbaycanda cəmi 36 ədəd avtomobil olmuşdur. Bərk örtüklü yolların uzunluğu isə cəmi 210 km idi. 1918-ci ilə qədər

məqsədlərə və fəaliyyət istiqamətlərinə uyğun olaraq layihələri planlaşdırmaq, icra etmək və "rəqəmsal uçurum"u zəiflətmək. Proqramın həyata keçirilməsi nəticəsində, faktiki olaraq, Azərbaycanda rabitə və informasiya texnologiyaları infrastrukturunun müasir tələblərə uyğun şəkildə qurulması və ölkənin ümumi inkişafına, o cümlədən iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına təkan verməsi, rabitə və informasiya texnologiyaları sənayesinin Azərbaycanın qeyri-neft sektoruna aid olan iqtisadi sahələr arasında aparıcı olması, cəmiyyət tərəfindən yeni texnologiyaların mənimsənilməsi və onların insan inkişafına xidmət göstərməsi, informasiya cəmiyyətinə keçidin əsaslarının yaradılması mümkün olacaqdır.

Bu gun Azərbaycan regionda yeganə ölkədir ki, İKT sahəsində qanunvericilik aktlarının tam paketi qəbul olunmuşdur və eyni zamanda Cənubi Qafqazda İKT üzrə Milli Strategiyanı qəbul etmiş ilk dövlətdir.

Milli strategiyanın əsas fəaliyyət istiqamətlərinə daxil olan elektron iqtisadiyyatın formalaşdırılması və inkişaf etdirilməsi aşağıdakıları nəzərdə tutur:

- elektron ticarətin həyata keçirilməsi, elektron ödənişlərin geniş miqyasda istifadəsi üçün əlverişli şəraitin yaradılması;
- informasiya xidmətləri sahəsinin inkişaf etdirilməsi üçün əlverişli mühitin yaradılması;
- informasiya və kommunikasiya texnologiyalarının iqtisadiyyatın dövlət və özəl sektorunda geniş tətbiq olunmasının stimullaşdırılması;
- biliklərə əsaslanan iqtisadiyyata kecid üçün şəraitin yaradılması.

Bütün bunlar İKT sektorunda davamlı və dinamik inkişafın əsasını qoydu. Son 3 ildə sahə üzrə gəlirlərin artım tempi ümumdünya inkişaf tempini təqribən 2-3 dəfə qabaqlamışdı. "Azərbaycan Respublikası regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na (2004-2008-ci illər) uyğun olaraq Mingəçevir şəhərində Qafqazda və Mərkəzi Asiyada ilk konveyer üsulu ilə kompüter istehsal edən "KÜR" elektron avadanlıqları zavodu işə salınmışdır.

Hazırda Azərbaycanda informasiya cəmiyyətinə keçidin təmin olunması, vahid milli elektron informasiya məkanının formalaşdırılması, elektron hökümətin qurulması və intelektual potensialın inkişafı sənayesində sosial-iqtisadi inkişafın yüksəldilməsi prioritet məsələlərdən birinə çevirməkdədir.

Ölkəmizdə İKT-nin geniş tətbiqi və internet istifadəçilərinin sürətlə artımı nəticəsində ölkəmizdə elektron ticarətin yaranmasına və inkişaf etməsinə zəmin yaratmışdır.



# FƏSİL VII.

## QLOBALLAŞMA PROSESİNDƏ AZƏRBAYCANIN XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNDƏ ARTAN DİNAMİZM

*Azərbaycan sərbəst iqtisadiyyat yolu ilə gedir, dünya iqtisadiyyatı ilə gündən-günə sıx inteqrasiya olmağa cəhdlər göstərir və bu sahədə artıq bizim nailiyyətlərimiz var. Azərbaycanda qəbul olunmuş qanunlar, fərmanlar və sərəncamlar əsasında idxal-ixrac xarici ticarət sərbəstləşdirilibdir. Azərbaycana xarici investisiyaların artmasını biz bütün vasitələrlə həvəsləndiririk və bunun üçün geniş şərait yaradırıq. Azərbaycan iqtisadiyyatının xarici ticarət vasitəsilə dünya iqtisadiyyatı ilə daha sıx bağlanması üçün lazımi tədbirlər həyata keçiririk.*

***Heydər ƏLİYEV***

### 7. 1 Müasir iqtisadiyyatda xarici ticarətin rolu haqqında nəzəri baxışların təkamülü.

Dövlət müstəqilliyinin bərpası və bazar iqtisadiyyatına keçid ölkənin yeni iqtisadi inkişaf mərhələsinə keçməsi və bunun əsasında əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün geniş imkanlar açmışdır. Bu imkanların reallaşmasında müasir mərhələdə xarici iqtisadi, o cümlədən ticarət əlaqələrinin rolu sürətlə artır. Xarici ticarət bütün dünyada, o cümlədən Azərbaycanda yüksək dinamiklik göstərir.

Tarixi inkişafın müasir mərhələsində öz qarşısında duran həyati əhəmiyyətli məsələləri həll etmək üçün ölkəmiz qlobal iqtisadiyyata onun xammal əlavəsi kimi deyil, dünya sivilizasiyasının bərabərhüquqlu üzvü kimi inteqrasiya etməlidir. Amerikan iqtisadçısı M. Kastelsin göstərdiyi kimi, «qlobal iqtisadiyyat yüksək dərəcədə dinamikdir, eksklyuzivdir və bununla yanaşı milli sərhədlər baxımından yüksək dərəcədə sabit sistemdir » [187, s. 114]. Bu sabitliyi və milli mənafeləri qorumaq və dünya iqtisadiyyatına bərabərhüquqlu üzv kimi inteqrasiyanı təmin etmək üçün bu proseslərdə xarici ticarətin rolu haqqında nəzəriyyələri nəzərə almaq olduqca vacibdir.

İqtisadi inkişafda xarici ticarətin rolu siyasi iqtisad klassikləri Adam Smit və David Rikardo nəzəriyyələrində əsaslandırılmış və onlardan sonra gələn alimlər tərəfindən isə inkişaf etdirilmişdir. İsveç iqtisadçıları F. Hekşer və B. Ohlin XX əsrin 30-cu illərində beynəlxalq ticarət axınlarının istiqamətləri və strukturunun

## 7. 2. Qloballaşma şəraitində Azərbaycanın xarici iqtisadi əlaqələrinin tənzimlənməsi problemləri.

Müstəqillik yolu ilə inamla irəliləyən Azərbaycanın sərt və mürəkkəb qanunların hökmran olduğu dünya bazarına inteqrasiyasının əsas parametrlərini müəyyən edən uzunmüddətli xarici inkişaf strategiyası zaman keçdikcə təkmilləşdirilir.

Azərbaycanın Rusiya daxil olmaqla bütün digər respublikalarda olduğu kimi 70 il ərzində "dəmir pərdələrlə" dünya birliyindən təcrid olunması və inkişaf etmiş regionların aqrar-xammal bazası olması dünya birliyinə inteqrasiya prosesinin obyektiv amilləri olmaqla, iqtisadiyyatın müasir dünya bazarının tələblərinə uyğunlaşdırılması üçün köklü və təxirəsalınmaz tədbirlər görülməsini təkidlə tələb edirdi.

SSRİ-nin süqutu ərəfəsində ümumittifaq xalq təsərrüfatı kompleksinin tərkibində olan respublikaların yalnız ikisi-Rusiya və Azərbaycan tam müstəqil olaraq mövcud olmaq imkanına malik idilər. Türkdilli Respublika olan Azərbaycanın belə müsbət vəziyyətdə olması yalnız Heydər Əliyev kimi uzaqgörən və müdrik şəxsiyyətin ölkəmizə rəhbərlik etməsi və titanik əməyi ilə əlaqədardır. Onun belə bir tarixi ifadəsi real məzmuna malikdir: "Mən o vaxt Azərbaycanın gələcəyi haqqında düşünürdüm". Bununla yanaşı "SSRİ-nin iqtisadi vəziyyətinin elə xüsusiyyətlərini nəzərdən keçirmək lazımdır ki, onlar iqtisadiyyatın tədricən tənəzzülə uğramasına səbəb olmuş və nəticə etibarilə, keçmiş sovet respublikalarında siyasi proseslərin gedişinə təsir göstərmişdir. [75, s. 24] Bu xüsusiyyətlərdən biri bütün digər respublikalarda olduğu kimi Azərbaycanda da xarici iqtisadi, o cümlədən xarici ticarət əlaqələrinin Sovet İttifaqı dövründə iqtisadiyyatın müstəqil bir sahəsi kimi mövcud olmamasıdır. Respublikamız Ümumittifaq xalq təsərrüfatı kompleksinin tərkib hissəsi kimi xarici dünyadan yalnız, siyasi cəhətdən deyil, həm də iqtisadi cəhətdən təcrid olunmuşdu. Mərkəzin icazəsi olmadan onun xarici aləmlə nə siyasi, nə də iqtisadi əlaqə yaratmaq hüququ yox idi. Xarici ticarət üzərində dövlət inhisarı bu sahədə bütün məsələlərin mərkəzi dövlət tərəfindən həll edilməsinə icazə verirdi.

Cədvəl №7. 1-də verilmiş məlumatlardan görünür ki, Azərbaycanın dünya ilə iqtisadi əlaqələrini yalnız şərti olaraq "xarici" əlaqələr adlandırmaq olardı. Çünki xarici ticarət əlaqələri əsas etibarilə (idxalatın 80, ixracatın isə 95%-i) Sovet dövlətinin tərkibində cərəyan edirdi. Respublika SSRİ-dən kənara 1991-ci ildə (daxili qiymətlərlə) cəmisi 744 mln. rubl mal ixrac etmişdir. İstehsal amillərinin (kapital, işçi qüvvəsi) hərəkətindən isə heç söhbət də gedə bilməzdi. Yəni, yalnız SSRİ daxilində hərəkət edirdi. Nəticədə ölkəmizin qapıları Qərbdə baş verən texnoloji inqilab üçün uzun tarixi dövr ərzində bağlı olmuş və istehsalın ümumi geriliyini şərtləndirmişdir.

Məsrəfçi iqtisadiyyatın maraqlı olmadığı elmi-texniki yeniliklər Azərbaycana SSRİ səviyyəsində yalnız mərkəzi xətt ilə daxil olurdu. Respublikanın istehsal potensialının texniki tərkibinin böyük əksəriyyəti dünyada özünə satış bazarı tapa bilməyən sovet mənşəli mallardan ibarət idi.





**Azərbaycanda 1991-ci ildə iqtisadiyyat sahələri üzrə məhsul gətirilməsi və göndərilməsi* (mln. rub)**

| | Gətirilmişdir | | | Göndərilmişdir | | |
|---|---|---|---|---|---|---|
| | Cəmi | O cümlədən | | Cəmi | O cümlədən | |
| | | SSRİ daxilində | İdx. (daxili qiym. ) | | SSRİ daxilində | İxr. (daxili qiym. ) |
| Cəmi maddi ist. sahələri | 11009,7 | 8836,6 | 2173,1 | 12199,3 | 11455,8 | 744, 0 |
| O cümlədən sənaye | 10530,0 | 8752,0 | 1778,0 | 11919,5 | 11189,2 | 730, 3 |
| O cüml. Elektroenergetika | – | – | – | 115,8 | 115,8 | – |
| Neft qaz sənayesi | 905,8 | 776,7 | 129,0 | 1449,8 | 1249,6 | 200, 2 |
| Qara metallurgiya | 903 5 | 810,6 | 92,9 | 269,8 | 268,0 | 1, 8 |
| Əlvan metallurgiya | 1297,7 | 1230,0 | 67,6 | 383,4 | 378,9 | 4, 5 |
| Kimya və neft-kimya | 642, 8 | 599,3 | 43,6 | 1161,0 | 1131,0 | 30, 0 |
| Maşınqayırma və metal emalı | 1999, 8 | 1941,1 | 58,7 | 2115,0 | 2056,0 | 56, 1 |
| Meşə, ağac emalı, kağız | 362,2 | 293,6 | 68,5 | 14,7 | 14,5 | 0, 2 |
| Tikinti mat sənayesi | 151,5 | 144,4 | 7,1 | 40,5 | 40,2 | 0, 3 |
| Yüngül sənaye | 1212,1 | 906,1 | 306, 0 | 2269, 9 | 1861, 1 | 408, 9 |
| Yeyinti sənayesi | 2865,4 | 1862,0 | 1001, 4 | 3891, 5 | 3882, 2 | 9, 6 |
| Digər | 186,0 | 182, 9 | 3, 1 | 207, 5 | 188, 8 | 18, 7 |
| Kənd təsərrüfatı | 479,8 | 84, 6 | 395, 5 | 279, 9 | 266, 1 | 13, 8 |

*[41, 1991, s. 26-28]

Ümumittifaq xalq təsərrüfatı kompleksinin tərkib hissəsi olan respublika iqtisadiyyatının digər respublika və regionlarla iqtisadi əlaqələrini iqtisadi inteqrasiya adlandırmaq düzgün deyildir. Çünki müasir anlayışlara uyğun olaraq beynəlxalq iqtisadi inteqrasiya yalnız müstəqil dövlətlər arasında baş verir.

Zəngin neft ehtiyatlarına malik olan Azərbaycanın ixrac etdiyi məhsulların ümumi həcminin yarısından çoxu - 51, 7%-i yüngül və yeyinti sənayesinin məhsullarından ibarət idi. Bunun isə 56, 1%-ni pambıq, üzüm, tütün və digər xammal və yarımfabrikatlar təşkil edirdi [103, s. 57-58].

Respublikadan ucuz qiymətlərlə mərkəzin ehtiyacları üçün aparılan qiymətli xammal kənarda emal olunur, sonralar hazır məhsul şəklində geri gətirilərək, xammalın əsl sahibi olan Azərbaycan xalqına qat-qat baha qiymətlə satılırdı.

Bu mexanizm həmçinin Azərbaycanın zəngin sərvətlərindən alınan gəlirin

Respublika büdcəsində deyil, ümumittifaq büdcəsində əks olunması üçün uzun illər sınanmış bir mexanizm idi. Azərbaycandan daşınan xammaldan respublika büdcəsinə valyuta ayırmaları isə cəmi 8-10% təşkil edirdi.

Respublika zəngin sərvətlərə malik olduğu halda sənayenin təxminən yarısı kənardan gətirilən xammal ilə işləyirdi. Əsas istehsal sahələri kənardan yarımfabrikat və ehtiyat hissələrinin gətirilməsindən asılı idi. Ümumiyyətlə götürüldükdə bütün digər respublikalar kimi Azərbaycan iqtisadiyyatı da qapalı xarakter daşıyırdı. Belə ki, adambaşına düşən xarici ticarət dövriyyəsi 60-70 ABŞ dolları miqdarında idi. Müqayisə üçün nəzərə almaq lazımdır ki, 1988-ci ildə həmin göstərici ABŞ-da 3200, Avropa Birliyində 6600, Yaponiyada 3700 və SSRİ-də isə 800 dollar idi.

Eyni zamanda göstərmək lazımdır ki, İttifaq ehtiyacları üçün daşınan sərvətlər qəsdən dolaşıq vəziyyətə salınmış statistika məlumatlarında öz düzgün əksini tapmırdı.

*Cədvəl № 7. 2.*

**Azərbaycan Respublikasına 1991-ci ildə xalq istehlak mallarının gətirilməsi və göndərilməsi* (mln. rubl. )**

| | Göndərilmişdir (ixracatla birlikdə) | Gətirilmişdir (idxalatla birlikdə) | Fərq göndəriləndən (+) çox gətirilmiş, göndəriləndən (-) az gətirilmişdir |
|---|---|---|---|
| Cəmi xalq istehlakı malları o cümlə | 2520, 1 | 2308, 2 | -211, 9 |
| A. Qida məhsul. | 515, 3 | 743, 7 | +228, 4 |
| Heyvandarlıq | - | 398, 4 | +398, 4 |
| Bitkiçilik məhsulları | 116, 7 | 26, 3 | -90, 4 |
| Emal edilən qida məhsulları | 398, 6 | 319, 0 | -79, 6 |
| B. Alkoq. içkilər | 1016, 6 | 0, 5 | -1016, 1 |
| V. Qeyri-ərzaq mallar onlardan | 988, 2 | 1564, 0 | +575, 8 |
| Parça, paltar, ayaqqabı | 603, 8 | 786, 2 | +182, 4 |
| Mədəni-məişət malları | 0, 1 | 279, 4 | +279, 3 |
| Təsərrüfat mal. | 99, 4 | 193, 5 | +94, 1 |
| Xırdavat mal. | 251, 0 | 283, 6 | +32, 6 |
| Tütün məmulatı | 33, 9 | 21, 3 | -12, 8 |

*[s. 41, 1991, s. 24. ]

Yalnız onu göstərmək kifayətdir ki, ölkəmizdə istehsal olunan milli gəlir və onun istifadəsi arasında uzun müddət 2 mlrd. rubldan çox fərq olmuşdur. Yəni, milli gəlir çox istehsal olunmuş, onun respublikada istifadəsi isə həmişə az olmuşdur. Ölkəmizin xarici iqtisadi əlaqələri haqqında məlumatlar əslində yalnız "yenidənqurma" dövründən çap olunmağa başlamışdır.



Bütün bunlar onu göstərir ki, beynəlxalq iqtisadi inteqrasiya sahəsində müstəqil Azərbaycanın qarşısında olduqca ciddi və mürəkkəb problemlər mövcud idi.

Müstəqillik əldə edildikdən sonrakı illər ərzində iqtisadiyyatımızda beynəlxalq rəqabət qabiliyyəti sahəsində bir çox göstəricilər üzrə (ÜDM-də yığım və son istehlak nisbətinin birinci xeyrinə dəyişməsi, ixrac və idxalın strukturunun pozitiv istiqamətdə dəyişməsi, ticarət şərtlərinin yaxşılaşması və s.) ciddi irəliləmə özünü göstərir. Milli bazarın xeyli hissəsinin xarici firmalar tərəfindən "fəth" edilməsi 90-cı illərin əvvəllərindəki reallıqlarındandır. Məhz buna görə də «Heydər Əliyevin iqtisadi strategiyası Azərbaycan Respublikasının xarici iqtisadi siyasətinin əsas prinsiplərinin və xarici iqtisadi əlaqələrin inkişafının milli iqtisadi maraqlarının gözlənilməsinə təminat verən dövlət proqramı əsasında həyata keçirilməsini məqsədəuyğun hesab edir» [86, s. 261]. Qlobal təsərrüfat sisteminin tələblərinə uyğun olaraq, özəl bölmənin nisbi zəifliyi şəraitində dövlətin bazar iqtisadiyyatının prinsipləri əsasında təşkilatçı-tənzimləyici-təşviqedici funksiyanın artması obyektiv zərurətdir.

Xarici iqtisadi əlaqələr sahəsində təsərrüfat-təşkilatçılıq tədbirləri və milli iqtisadi inkişaf strategiyası iki əsas istiqamətə yönəldilməlidir:

1. Az bir zaman kəsiyində beynəlxalq bazara genişmiqyaslı çıxmaq imkanı məhdud olduğu üçün, milli iqtisadiyyat daxili tələbin ödənilməsinə istiqamətləndirilməli, yerli firmaların xarici şirkətlərlə daxili bazarda sağlam rəqabət apara bilməsi üçün geniş imkanlar yaradılmalıdır. Bu sahədə əsas ümidin genişmiqyaslı himayəçilik tədbirlərinə bağlanması müasir anlayışlara uyğun deyildir. Çünki dünya ölkələrinin təcrübəsi göstərir ki, gömrük tariflərinin artırılması və digər yollarla himayəçilik tədbirlərinin tətbiqi ticarət tərəfdaşlarının əks reaksiyasını doğurur və, onlar da eyni dərəcədə müvafiq tədbirlər görürlər. Ona görə də, milli bazar, beynəlxalq müqavilə və hüquq normalarına uyğun olaraq qorunma ilə yanaşı, əsas diqqət firmalar tərəfindən rəqabətqabiliyyətli məhsullar istehsal edilməsinin bütün vasitələrlə təmin edilməsinə verilməlidir.

2. Açıq iqtisadiyyat modelini yekdilliklə seçmiş Azərbaycan dünya bazarında da bərabərhüquqlu subyekt kimi fəal iştirak etməlidir. Latın Amerikası, Cənubi-Şərqi Asiyanın yeni sənaye ölkələrinin təcrübəsi və Türkiyə "möcüzəsi" açıq-aşkar göstərdi ki, müasir mərhələdə geriliyin az bir zaman kəsiyində aradan qaldırılması və sıçrayışlı iqtisadi inkişafın yeganə yolu daxili bazarın tələblərini ödənməklə yanaşı ixracat potensialının sürətli artımını təmin etmək, dünya bazarı ilə sıx inteqrasiyaya nail olmaqdır. Yeni texnika və texnologiyanın kilid həlqəsi olan valyuta ehtiyatlarının artırılması üçün idxalı əvəzetmə siyasəti ilə ixracyönlü iqtisadi inkişaf strategiyası ciddi olaraq optimallaşdırılmalıdır.

İstər daxili bazarın tələblərinin ödənilməsi, istərsə də ixracat potensialının artırılması həlledici dərəcədə düzgün struktur siyasətindən asılıdır.

Dünya bazarı ilə səmərəli iqtisadi inteqrasiya yalnız iqtisadiyyatın geniş diversifikasiyası ilə mümkündür.

Onu da nəzərə almaq lazımdır ki, iqtisadi strukturun qısa müddətdə əhəmiyyətli dərəcədə dəyişdirilməsi reallıqdan uzaqdır və, prioritet istiqamətləri müəyyən edərək, bütün maddi, maliyyə və insan ehtiyatlarının həmin sahələrə yö-

Xarici ticarət və gömrük tənzimlənməsini təkmilləşdirmək üçün bir sıra ciddi tədbirlər toplusu elmi əsaslara uyğun işlənib hazırlanmasıdır. Xarici Ticarətin Tənzimlənməsində qeyri-tarif tənzimləmə mexanizmindən geniş istifadə olunmalıdır. Respublikada bu formadan çox təssüf ki, kifayət qədər geniş istifadə olunmur. Bunun nəticəsi olaraq Respublikaya bəzi dünya ölkələrindən bir sıra texniki və s. dünya standartlarına uyğun olmayan məhsullar daxil olur. Respublikada daxili bazarın qorunması da diqqət mərkəzindədir.

Dünya iqtisadiyyatının müasir inkişaf mərhələsində və ölkələr arasında qarşılıqlı asılılığın daha aydın təzahür etdiyi bir zamanda hər bir ölkənin və regionun müvəffəqiyyəti onun XIF-nin həyata keçirilməsilə əlaqədar gömrük tənzimləmə mexanizmin tətbiqindən çox-çox asılıdır.

Respublikamızda xarici ticarət əməliyyatları «Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydaları» haqqında 24 iyun 1997-ci il tarixli fərmanı ilə həyata keçirilir.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının ÜTT-nin üzvlüyünə qəbul olma prosesi 1997-ci ilin iyun ayından Azərbaycan Respublikası Hökumətinin ÜTT-yə üzvolma niyyətinin bildirilməsi ilə başlayıb və bu tarixdən ÜTT-yə müşahidəçi kimi dəvət olunub.

Bundan sonra «Xarici Ticarət Rejimi haqqında Memorandum» ÜTT-nin Cenevrədəki Katibliyinə təqdim etmiş və ÜTT-nin qaydalarına uyğun olaraq, bu təşkilata üzvolma prosesində Azərbaycan üzrə müvafiq işçi Qrupu yaradılmışdır.

Hal-hazırda Azərbaycan Respublikasının ÜTT-nin üzvlüyünə qəbul olma prosesinin son mərhələsi başa çatma ərəfəsindədir.

## 7. 4. Azərbaycanda müstəqillik illərində xarici ticarətin həcmi, əmtəə və coğrafi strukturunun dinamikası və inkişaf təmayülləri.

Müstəqillik elan edildiyi ilk günlərdən həyata keçirilməyə başlanan tədbirlər ölkənin xarici iqtisadi əlaqələr sahəsində "açıq qapı" siyasətinin yeridildiyini göstərir.

Araşdırmalar göstərir ki, müstəqillik illərində respublikamızın beynəlxalq əlaqələrinin xarakteri, forma və miqyası, xarici ticarət dövriyyəsinin quruluş tərkibi və coğrafi istiqamətləri ciddi dəyişikliklərə məruz qalmışdır. Respublika BMT-nin üzvü və beynəlxalq münasibətlərin müstəqil subyekti kimi dünyanın bütün ölkələri ilə bərabərhüquqlu və qarşılıqlı faydalı əlaqələr yaradılması üçün ciddi cəhdlər göstərir. Ölkəmiz dünyanın aparıcı və regional təşkilatlarının bərabərhüquqlu üzvü kimi beynəlxalq əmək bölgüsündə öz yerini tutmağa başlamış, beynəlxalq əlaqələrin bütün formalarını müstəqil sürətdə həyata keçirir, ölkənin iqtisadi inkişafı üçün xarici investisiya və kreditlərdən istifadə edir. Xarici ticarət əlaqələrinin yaradılması və qarşılıqlı tənzimlənməsi üçün yaxın və uzaq dövlətlərin çoxu ilə ikitərəfli və çoxtərəflı müqavilələr bağlanıbdır.

7. 3 saylı cədvəldə verilmiş statistika məlumatları və real həyat Azərbaycanın müstəqil xarici iqtisadi, o cümlədən ticarət əlaqələrinin yaranma prosesinin olduqca mürəkkəb şəkildə getdiyini göstərir.



*Cədvəl № 7. 3*

**1992-1996-cı illərdə Azərbaycanın xarici ticarət əlaqələri (mln. ABŞ doll)***

| İllər | İdxal | | | İxrac | | |
|---|---|---|---|---|---|---|
| | Cəmi | O cümlədən | | Cəmi | O cümlədən | |
| | | Uzaq xaric | MDB ölk. ilə | | Uzaq xaric | MDB ölk. ilə |
| **1992** | 939, 8 | 332, 5 | 607, 3 | 1483, 9 | 754, 1 | 729, 8 |
| **1993** | 549, 9 | 241, 0 | 308, 9 | 724, 7 | 351, 0 | 373, 7 |
| **1994** | 777, 9 | 292, 1 | 485, 8 | 636, 8 | 362, 6 | 274, 2 |
| **1995** | 667, 6 | 439, 3 | 228, 4 | 547, 4 | 329, 8 | 217, 6 |
| **1996** | 960, 6 | 620, 8 | 339, 8 | 631, 2 | 341, 1 | 290, 1 |

*Cədvəl Dövlət Statistika Komitəsinin hər il buraxılan illik idxal-ixrac göstəriciləri arasında tərtib edilmişdir.

Cədvəl məlumatları göstərir ki, 1991-ci ildə SSRİ xalq təsərrüfatı kompleksinin, mərkəzdən planlaşdırılan "hazır", "nomenklatura" bazarının dağılması, ənənəvi iqtisadi əlaqələrin qırılması bütün keçmiş sovet respublikaları kimi Azərbaycanda da istehsal və ticarətin iflic vəziyyətinə düşməsinə səbəb oldu. Yalnız bir il - 1992-ci il ərzində ölkəmizin xarici ticarət dövriyyəsi 40% azaldı. Süni surətdə yaradılmış nəqliyyat blokadası da daxil olmaqla müxtəlif obyektiv və subyektiv amillərin təsiri altında xarici ticarət dövriyyəsi 1995-ci ilə qədər sürətli azalma meyli göstərdi. İxracatın və xüsusən ilkin tələbat malları idxalatının kəskin azalması ölkədə ciddi sosial-iqtisadi böhranı daha da dərinləşdirdi.

Qapalı və birtərəfli inkişaf etmiş iqtisadi struktur "hazır" bazar əlaqələri pozulduqdan sonra və dünya bazarı ilə ilk təmasdan iflasa uğradı və tökülən qanlar hesabına nail olunmuş respublikanın müstəqilliyini də ciddi təhlükə altında qoydu. Əhalinin ilkin tələbatını ödəmək üçün həyati əhəmiyyət kəsb edən ixracat hər il azalaraq 1996-cı ildə 1992-ci ilə nisbətən cəmisi 42, 5% təşkil etmişdi, İdxalat da cəmisi bir il ərzində (1992-ci ilə nisbətən 1993-cü ildə) 40%-dən çox azaldı. Xarici ticarətin ümumi dövriyyəsi isə 1996-cı ildə 1992-ci ilə nisbətən 65, 6% təşkil etmişdir. Əhalinin ən zəruri istehlak mallarına tələbatının nəyin bahasına olursa olsun ödənilməsi zərurəti bütün qüvvələri bu məqsədə yönəltməyə vadar etmişdir. Təsadüfi deyildir ki, 1992-1996-cı illər ərzində ixracat 2.3 dəfə azaldığı halda, idxalat 1996-cı ildə 1992-ci il səviyyəsini ötüb keçmişdir.

Artıq Azərbaycan dünya iqtisadiyyatının qloballaşması və beynəlmiləlləşməsi, BƏB-nün dərinləşməsi şəraitində öz qapılarını beynəlxalq aləmə daha çox açan, xarici ölkələrlə və beynəlxalq təşkilatlarla aktiv iqtisadi, siyasi, elmi-texniki, mədəni və s. əlaqələr (münasibətlər) yaradan bir ölkəyə çevrilmişdir. Bu əlaqələr içərisində xarici ticarət daha önəmli yer tutur. Ölkəmiz dünya ölkələri ilə ikitərəfli və çox tərəfli müqavilələr bağlayaraq, qarşılıqlı faydalı ticarət əlaqələri yaradır, ölkənin inkişafı üçün xarici texnika və texnologiya idxal edir və BƏB-də öz yerini tutmağa ciddi cəhdlər göstərir.

Statistik rəqəmlərə müraciət etdikdə görürük ki, müstəqillik dövründə res-

publikanın xarici ticarəti mürəkkəb bir şəraitdə formalaşıb inkişaf edir. (bax. cədvəl № 7. 4)

Ona görə də respublikamızın xarici ticarət əlaqələrinin formalaşması və inkişafı müstəqilliyimizin ilk on ili ərzində mürəkkəb və ağrılı bir şəraitdə reallaşırdı. Təsadüfi deyildir ki, ümumi ticarət dövriyyəsi 1991-ci il səviyyəsini yalnız 2000-ci ildə ötüb keçmişdir.

*Cədvəl № 7. 4*

**Azərbaycan Respublikasında xarici ticarət dövriyyəsinin dinamikası: 1992-2007-ci illər* (mln. ABŞ doll. )**

| | İLLƏR | | | | | |
|---|---|---|---|---|---|---|
| | **1992** | **1995** | **2000** | **2005** | **2006** | **2007** |
| 1. Xarici tic. Dövriyyəsi | 2423, 8 | 1304, 9 | 2971, 3 | 8558, 8 | 11639, 8 | 11766, 9 |
| İxracat | 1483, 9 | 637, 2 | 1745, 2 | 4347, 1 | 6372, 2 | 6058, 3 |
| Xüsusi çəkisi (faizlə) | 61 | 49 | 59 | 50, 7 | 54, 7 | 51,1 |
| İdxalat | 939, 9 | 667, 7 | 1172, 0 | 4211, 3 | 5267, 6 | 5708, 6 |
| 2. Saldo (+, -) | 545 | -31 | +573, 2 | 135 | 1105, 2 | 349, 7 |
| 3. Adambaşına xarici tic. dövr. cəmi | 336 | 171 | 367 | 972 | 1379, 7 | 13635, 1 |
| İxracat | 206 | 83 | 216 | 493 | 755 | 702 |
| İdxalat | 130 | 88 | 139 | 478 | 624 | 661 |

*[32, 1997 - 2002, s. 9-10, 2001-2005, s. 7-10 241, s. 10, 149, s. 191; 44, 2007, s. 549]

*Cədvəl 7. 5*

2007-ci ildə xarici ticarətin ümumi həcm indeksi*

| | 1992=100 | 1995=100 | 2000=100 |
|---|---|---|---|
| Xarici ticarətin ümumi dövriyyəsi | 480 | 892 | 392 |
| İxracat | 429 | 1000 | 365 |
| İdxalat | 560 | 789 | 449 |
| Saldo | 209 | 356 | 192 |
| Adambaşına xarici ticarət cəmi | 410 | 806 | 375 |
| İxracat | 366 | 909 | 349 |
| İdxalat | 480 | 709 | 448 |

* Cədvəl № 7. 2 məlumatları əsasında hesablanmışdır.

Lakin qeyd edildiyi kimi Azərbaycanın müstəqillik illərində xarici ticarətinin vəziyyətinə ən sarsıdıcı zərbə ənənəvi iqtisadi əlaqələrin dağılması ilə, ilk bir il - 1992-ci il ərzində dəymişdi. Sonralar isə 1995-ci ilə qədər azalma meyli davam etsə də onun sürəti az olmuş və 1995-ci ildən sonra isə davamlı olaraq artmaqda davam edir. (bax: cədvəl № 7. 5. ) 1992-ci ili 100 götürdükdə 2007-ci ildə xarici ticarət dövriyyəsi 480% bəndi, ixracat 429, idxalat isə 560 bənd olmuşdur. 2000-ci



ilə nisbətən isə həmin rəqəmlər 2006-ci ildə müvafiq olaraq aşağıdakı kimi olmuşdur:392, 365 və 449% bəndi.

Makroiqtisadi təhlil nöqteyi nəzərindən xarici ticarət göstəricilərinin respublikanın ÜDM-u və ya milli gəliri ilə müqayisə edilməsi böyük əhəmiyyət kəsb edir. Çünki bu göstəricilər arasında birbaşa və sıx əlaqə mövcuddur.

**Azərbaycan Respublikasının xarici ticarətinin ÜDM-a nisbəti (%-lə)***

| İLLƏR | Xarici ticarətin ümumi həcmi mln. $ | ÜDM mln. $ | Xarici ticarətin ÜDM-a nisbəti %-lə |
|---|---|---|---|
| 1995 | 1304, 9 | 2415 | 54 |
| 2000 | 2917, 3 | 5273 | 55 |
| 2001 | 3749, 3 | 5707, 7 | 66 |
| 2002 | 3832, 9 | 6236 | 61 |
| 2003 | 5216, 6 | 7276 | 72 |
| 2004 | 7131, 4 | 8680 | 82 |
| 2005 | 8558, 4 | 13238 | 64 |
| 2006 | 11639, 8 | 20189 | 58, 7 |
| 2007 | 11766, 9 | 29399, 9 | 40, 0 |

*DSK-nın 1992-2007-ci il statistik məlumatlarına əsasən tərtib olunmuşdur.
[Bax: habelə 149 s. 495. ]

2007-ci il ərzində respublikanın rezident və qeyri-rezidentləri tərəfindən 137 ölkə ilə aparılmış xaric ticarət əməliyyatlarının həcmi 11, 8 milyard ABŞ dolları olmuşdur. Bu müddət ərzində 6, 1 milyard ABŞ dolları məbləğində 2454 adda mal ixrac, 5, 7 milyard ABŞ dolları dəyərində 6755 adda mal idxal olunmuş, ixrac-idxal əməliyyatları üzrə müsbət saldo 349, 7 milyon ABŞ dolları təşkil etmişdir. 2006-ci ilə nisbətən 2007-ci ildə ixracın həcmi 4, 9% (313, 9 milyon ABŞ dolları) azalmış, idxalın həcmi isə 8, 4% (440, 9 milyon ABŞ dolları) artmışdır.

Xarici ticarətin inkişafının dinamikasının və meyllərinin kompleks tədqiqində idxal-ixrac əməliyyatlarının coğrafi strukturunun araşdırılması xüsusi maraq doğurur. Xarici ticarətin, xüsusilə ixracın coğrafiyasına əsasən xarici ticarət əlaqələrinin prioritet (üstün) istiqamətləri, dövlətin digər ölkələrlə siyasi-iqtisadi münasibətləri və xarici iqtisadi siyasəti haqqında mülahizə irəli sürmək mümkün olur.

Müstəqilliyimizin elə ilk illərindən başlayaraq Azərbaycanın xarici ticarət əlaqələrinin ənənəvi coğrafiyasında dərin dəyişikliklər baş verdi. Ölkənin xarici ticarət əlaqələrinin istiqaməti dərin böhrana məruz qalmış ənənəvi ticarət-iqtisadi partnyorlardan, yeni xarici bazarlara - yaxın xaricdən uzaq xarici ölkələrə yönəldi. Bu proses Qərb dövlətləri ilə inteqrasiyanın Azərbaycanın xarici iqtisadi əlaqələrində dönməz və prioritet xarakter daşıdığının təzahürüdür. (bax: əlavə 4)

Uzaq xarici ölkələrin Azərbaycanın idxalında xüsusi çəkisi 1992-ci ildə 35%-dən 2000-ci ildə 63%-ə qədər artmı və 2007-ci ildə 67% olmuşdur. İxracda isə müvafiq olaraq 51%-dən 2007-ci ildə 82%-ə qədər yüksəlmişdir. Bu rəqəmlər uzaq xarici ölkələrin respublikamızın idxal-ixrac əməliyyatlarında xüsusi çəkisinin

bir-birindən asılı vəziyyətdə olması orada zəngin olan təbii və işçi qüvvəsi eh-
tiyatlarından, bütün iqtisadi potensialdan daha səmərəli istifadə olunması üçün
geniş imkan yaradır.

Azərbaycan Respublikası MDB ölkələri ilə çoxtərəfli və ikitərəfli səviyyədə
bütün sahələrdə əməkdaşlıq edir, onlarla 350-yə yaxın dövlətlərarası, hökumətlər-
arası və idarələrarası müqavilə, saziş və digər ikitərəfli sənədlər imzalanmışdır.
Bunlardan 100-dən artığı ölkələr arasında ticarət-iqtisadi əlaqələri tənzimləyir.
MDB ölkələrinin yeddisi ilə sərbəst ticarət haqqında ikitərəfli Sazişlər
imzalanmışdır. Azərbaycan Respublikasından dörd MDB ölkəsinə (Rusiya
Federasiyası, Gürcüstan Respublikası, Qazaxıstan Respublikası və Ukrayna)
məhsulların idxalından rüsum tutulmur.

MDB dövlətləri arasında iqtisadi səmərəli əməkdaşlıq mexanizminin yara-
dıla bilməməsi və hər bir sıra digər siyasi və iqtisadi amillərlə əlaqədar olaraq,
həmin dövlətlərin Azərbaycanın xarici ticarətində payının getdikcə azalması ilə
nəticələnmişdir. Belə ki, onların xüsusi çəkisi Azərbaycanın əmtəə dövriyyəsində
1993-cü ildə 50%-dən 1998-ci ildə 37, 8%-ə, 2002-ci ildə isə 31, 1%-ə və 2007-ci
ildə isə 25, 5%-ə qədər azalmışdır. Azərbaycan Respublikasının 2007-ci ildə MDB
ölkələri ilə 3003, 4 mln. ABŞ dolları məbləğində xarici ticarət dövriyyəsi
olmuşdur. Bundan 1901, 1 mln. ABŞ dollarını idxal, 1102, 4 mln ABŞ dollarını isə
ixrac təşkil edir.

Azərbaycanın xarici ticarət-iqtisadi əlaqələrində GUAM amili bir növ MDB-
yə alternativ kimi getdikcə mühüm rol oynamağa başlamışdır. ABŞ və AB ölkələri-
nin Azərbaycanda və onun yerləşdiyi olduqca vacib geosiyasi məkanda maraq-
larının reallaşdırılması işində bu təşkilata xüsusi əhəmiyyət verilir.

2007-ci ildə xarici ticarət dövriyyəsi üzrə əməliyyatlarının 14, 3%-i Türkiyə,
13, 0%-i Rusiya, 9, 2%-i İtaliya, 4, 6%-i İran, 4, 2%-i ABŞ, 4, 2%-i Ukrayna, 4,
2%-i Almaniya, 3, 5%-i Birləşmiş Krallıq, 3, 5%-i Gürcüstan, 3, 1%- i Fransa, 3,
4%-i İndoneziya, 3, 4%-i İsrail, 3, 0%-i Qazaxıstan, 2, 5%-i Yaponiya, 2, 5%-i Çin,
1, 8%-i Hindistan, 19, 6%-i isə dünyanın digər ölkələri ilə həyata keçirilmişdir.

Mal mübadiləsinin 78, 3%-i, o cümlədən idxalın 74, 1%-i, ixracın 82, 2%-i
sərbəst dönərli valyuta sövdələşmələri yolu ilə həyata keçirilmişdir.

İdxal əməliyyatlarının 17, 6%-i Rusiya, 10, 9%-i Türkiyə, 8, 2%-i Ukrayna,
8, 3%-i Almaniya, 7, 2%-i Birləşmiş Krallıq, 5, 2%-i Yaponiya, 4, 9%-i Çin, 4,
7%-i ABŞ, 3, 9%-i Qazaxıstan, 2, 7%-i Finlandiya, 2, 5%-i İtaliya, 2, 2%-i
Braziliya, 1, 8%-i İran, 1, 8%-i Fransa dövlətləri ilə, qalan 18, 1%-i digər ölkələrlə
aparılmışdır.



**2007-ci ildə xarici ticarət dövriyyəsində AB, MDB və digər ölkələrin payı**




2007-ci ildə xarici ticarətlə 4020 hüquqi və 10160 fiziki şəxs məşğul olmuşdur. İxrac əməliyyatlarında dövlət sektorunun payı 4698, 7 milyon ABŞ dolları (77, 6%), özəl sektorun payı 1231, 4 milyon ABŞ dolları (20, 3%), fiziki şəxslərin payı isə 128, 2 milyon ABŞ dolları ( 2, 1%) olmuşdur. İdxal əməliyyatlarında dövlət sektorunun payı 1426, 7 milyon ABŞ dolları (25, 0%), özəl sektorun payı 3943, 3 milyon ABŞ dolları (69, 1%), fiziki şəxslərin payı isə 338, 6 milyon ABŞ dollarıdır (5, 9%).

**2007-ci ildə Azərbaycan Respublikasının idxalında xüsusi çəkisi çox olan dövlətlər (milyon ABŞ dolları ilə)**



**2007-ci ildə Azərbaycan Respublikasının ixracında xüsusi çəkisi çox olan dövlətlər (milyon ABŞ dolları ilə)**




Xarici ticarətin əmtəə strukturunun təhlili olduqca mühüm əhəmiyyət kəsb edir. Belə ki, strukturun təhlili zamanı iqtisadiyyatın daha çox inkişaf etmiş sahələri aşkar edilir, həmin sahənin məhsullarının rəqabət qabiliyyəti nöqteyi-nəzərindən dünya bazarına çıxarılmasının potensial imkanları və üstünlüklərinə real qiymət verilir, xarici ticarət nəzərə alınaraq iqtisadiyyatın inkişafının prioritet istiqamətləri müəyyənləşdirilir. İxrac və idxalın strukturunun dinamikasında iqtisadiyyatdakı mənfi və müsbət meyllər öz əksini tapır.

Azərbaycanın xarici ticarətinin əmtəə strukturu təhlili göstərir ki, ölkəmizin xarici ticarətinin quruluş tərkibi müstəqilliyin ilk illərində mürəkkəb bir şəraitdə formalaşmışdır.

Hər şeydən əvvəl diqqəti belə bir cəhət cəlb edir ki, Azərbaycanın xarici ticarəti başlıca olaraq sənaye məhsulları ilə təmsil olunmuşdur.

Milli gəlirin $\frac{1}{3}$ hissəsinin yaradıldığı kənd təsərrüfatı isə öz qapalı xarakterini müəyyən qədər davam etdirir. Respublikamızın malik olduğu təbii üstünlüyə uyğun olaraq neft və neft məhsulları ixracatın aparıcı sahəsinə çevrilmişdir. Ölkəmiz beynəlxalq əmək bölgüsündə bu sahədə öz yerini tapmağa başlamışdır. Emal olunmaq üçün gətirilən neftin miqdarı ciddi sürətdə azaldığı halda (digər mineral məhsullarla birlikdə) neft və neft məhsullarının ixracı 1996-cı ildə cəmi ixracatın 66, 7%-nə qədər yüksəlmişdir. Ölkəmiz beynəlxalq əmək bölgüsündə bu sahədə özünün müvafiq yerini tutmağa başlamışdır.

Beynəlxalq Standart Ticarət Təsnifatı (BSTT) üzrə Azərbaycanda ixracatın strukturu əlavə 7 məlumatlarında əks olunmuşdur. Statistik göstəricilərin təhlilindən məlum olur ki, 2007-ci ildə ixracın strukturu: xam neft və neft məhsulları -80, 6%, meyvə və tərəvəz-2, 7%, kimya sənaye məhsulları -1, 5%,



alüminium və ondan hazırlanan məmulatlar -1, 5%, bitki və heyvan mənşəli yağlar-1, 4%, qara metallar və onlardan hazırlanan məmulatlar-1, 3%. Qalan əmtəələrin payına isə 11, 0% düşür.

Xarici ölkələrə göndərilən malların 81, 5%-ni mineral məhsullar, o cümlədən 80, 6%-ni neft və neft emalı məhsulları, 8, 4%-ni ərzaq malları, 3%-ni az qiymətli metallar və onlardan hazırlanmış mənulatlar, 1, 7%-ni quru, hava və su nəqliyyatı vasitələri, 1, 5%-ni kimya sənaye məhsulları, 1, 2%-ni plastik kütlə, kauçuk, rezin və onlardan hazırlanmış məmulatlar, 1, 0%-ni toxuculuq materialları və məmulatları, 0, 8%-ni maşın və mexanizmlər, elektrotexnika avadanlığı, 0, 9%-ni digər mallar təşkil etmişdir.

Müstəqillik illərində idxalatın strukturunda da ciddi dəyişiklik özünü göstərmişdir.

İdxalatın strukturu iqtisadiyyatın ümumi tənəzzül, durğunluq və inkişaf meyllərinə uyğun olaraq dəyişmişdir. Respublikamızın iftixarı olan maşınqayırma sənayesinin tənəzzül vəziyyətinə uyğun şəkildə 1991-1994-cü illərdə idxalatın tərkibində maşınqayırma və metal emalı, əlvan metallurgiya sənayesi məhsullarının xüsusi çəkisi 31, 4%-dən 14, 2%-ə qədər azaldı. Sonrakı illərdə neft kontraktlarının işləməyə başlaması nəticəsində idxalatın tərkibində maşın və avadanlıqların payı artmağa başladı. (bax: əlavə 11). Son dörd ildə maşın, mexanizm elektrotexniki avadanlıqlar öz həcminə görə Respublika idxalatında ardıcıl olaraq birinci yeri tutur.

Respublikanın hal-hazırda mövcud valyuta gəlirlərinin istehsalın maddi-texniki bazasının yeniləşdirilməsi və məhsulların rəqabət gücünün artırılması üçün kənardan yeni texnika və texnologiya alınmasına sərf edilməsi bu gün həyati əhəmiyyət kəsb edir.

Respublikamızda uzun illər boyu istehsal ilə istehlak, tələblə təklif arasında ciddi fərq mövcud olmuşdur. Mal qıtlığı hələ durğunluq dövründən ictimai həyatın ən başlıca xarakterik xüsusiyyətlərindən biri olmuşdur. İstehsalın böhran keçirdiyi dövrdə göstərilən dərin uçurumun xarici mallar hesabına ödənilməsi zərurəti respublikamızın milli bazarının 90-cı illərin birinci yarısında xarici və daxili iş adamları üçün olduqca əlverişli "yaşıl adaya" çevirmişdir. Xaricdən idxal olunan bir çox mallar, o cümlədən ilkin tələbat malları milli bazarda dünya bazar qiymətlərindən uzun müddət yüksək qiymətə satılırdı. Məsələn, 90-cı illərin əvvəllərində un və taxıl məhsullarının daxili bazar qiyməti orta dünya qiymətlərindən xeyli yüksək idi. Bitki yağlarının 1 tonu xaricdə 900-1000 dollar olduğu halda onlar respublika əhalisinə 1400-1500 dollara satılırdı.

Sonrakı illərdə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ölkənin ərzaqla təminatında ciddi müsbət dəyişikliklər özünü göstərdi. İdxalın strukturunda ərzaq malların xüsusi çəkisi kəskin azaldı.

2007-ci ildə idxalın strukturu: maşın və elektrik aparatları, avadanlıqlar, elektrotexnika qurğuları və onların hissələri- 30, 2%, nəqliyyat vasitələri və onların hissələri-15, 5%, ərzaq məhsulları -15, 9%, qara metallar və onlardan hazırlanan məmulatlar -10, 8%, əczaçılıq məhsulları 1, 6%, xalq istehlakı malları və mebel -1, 5%, oduncaq və onlardan hazırlanan məmulatlar-1, 3%, neft qazı və qazaoxşar karbohidrogenlər-0, 9% təşkil edir. Qalan əmtəələrin payına 22, 3% düşür.

Hal-hazırda hazırlanmaqda olan yeni ərzaq təhlükəsizliyi proqramında Prezident İlham Əliyev tərəfindən ölkənin ərzağa olan tələbinin əsas etibarı ilə yerli istehsal hesabına ödənilməsi məqsədi qarşıya qoyulmuşdur.



# FƏSİL VIII.

## İQTİSADİ İNKİŞAFDA MALİYYƏ SEKTORUNUN ROLUNUN NƏZƏRİ VƏ PRAKTİKİ ƏSASLARI

### 8. 1. Monetar siyasətin sosial-iqtisadi inkişafda rolu: nəzəri baxış.

Ölkənin dünyada inkişaf prosesinin ümumi axınına qoşulması nəticəsində Azərbaycanda köklü iqtisadi dəyişikliklər baş verir. İqtisadiyyatın idarə edilməsinin köhnə, özünü doğrultmamış mexanizmi ləğv edilmiş, təsərrüfatçılığın bazar mexanizmi sürətlə inkişaf edir.

Bazar iqtisadiyyatı dünyada çoxsaylı modellərinin mövcudluğuna baxmayaraq sosial yönümlüdür və dövlət tənzimləmələri öz mövcudluğunu qorusa da məzmunu və formasını dəyişir. İstər bazar münasibətlərinin strukturunda, istərsə də həmin münasibətlərin tənzimlənməsində maliyyə amilləri böyük rol oynayır. Onlar bazar münasibətlərinin ayrılmaz tərkib hissəsi və eyni zamanda dövlət siyasətinin həyata keçirilməsinin mühüm alətidir. Müasir görüşlərə görə monetar amillərin rolunun artması və miqyasının genişlənməsi, maliyyə hadisələrinin iqtisadi hadisələrə, iqtisadi hadisələrin də maliyyə hadisələrinə qarşılıqlı təsir göstərməsi dövrümüzün başlıca xüsusiyyətlərindən biridir. Başqa sözlə iqtisadi, sosial və maliyyə sahələrində fizika sahəsində cərəyan edən hadisələrə bənzər hadisələr özünü göstərir. Əvvəllər, dövlət xərcləri və gəlirləri az miqdarda olduğu zaman monetar hadisələrin təsiri iqtisadi və sosial sahələrdə o qədər hiss edilmirdi. İndi isə vəziyyət dəyişmişdir. Maliyyə hadisələrinin böyük miqyası dərin iqtisadi və sosial nəticələrə səbəb olur. Ona görə də dövlətin maliyyə hadisələrini düzgün yönləndirməsi, iqtisadi və sosial problemlərin həlli üçün onlardan səmərəli istifadə etməsi günün ən aktual məsələlərindəndir. Dövrümüzdə maliyyə sektorunun məzmunu və məqsədləri ciddi sürətdə dəyişmiş, o artıq dövlət idarəçiliyinin mühüm alətlərindən birinə çevrilmiş, iqtisadi və sosial həyatla bütünləşmişdir. Monetar siyasət artıq öz qapalı xarakterini itirmiş, digər dövlətlərin yeritdikləri maliyyə siyasəti ilə də ahəngləşdirilir, beynəlxalq iqtisadi inteqrasiyanın da mühüm alətlərindən birinə çevrilir.

Monetar siyasətin məqsədləri müxtəlif ölkələrdə müxtəlifdir. Lakin maliyyə elmi ən ümumi məqsədləri aşağıdakı kimi qruplaşdırır:

1. İqtisadi sabitliyi təmin etmək. Bu məqsədə iki yolla nail olmaq mümkündür: qiymətlərin sabitliyi və tam məşğulluq. Bu məqsədlə, yəni iqtisadi sabitliyi təmin etmək üçün maliyyə siyasəti aşağıdakı istiqamətlərə yönəldilməlidir.

a) İqtisadiyyatda deflyasiya təmayüllərinə yol verilməməlidir. Bir sıra iqtisadçı və maliyyəçilər hesab edirlər ki, iqtisadi həyat həm iqtisadi strukturda meydana gələn, həm də iqtisadi olmayan ictimai səbəblərdən yaranan daraldıcı amillərə tabedir. İqtisadiyyatda mövcud olan daraldıcı amillərlə mübarizə aparıldıqda monetar siyasət iqtisadiyyatda məcmu təklif - məcmu tələb tarazlığını

tam məşğulluq səviyyəsindəki tarazlıq nöqtəsinə çatdıracaqdır. Keynsin bu görüşü müxtəlif ölkələrdə xərclər siyasətinin yaranmasına və inkişafına səbəb olmuşdur.

b) İqtisadiyyatda inflyasiya təmayüllərinin qarşısının alınmasına yönəldilməlidir. İkinci dünya müharibəsindən sonra iqtisadi inkişaf və sosial siyasətdə özünü göstərən ciddi irəliləyişlər - minimum əmək haqqının müəyyən edilməsi, sosial sığorta və sosial yardım sisteminin geniş şəbəkəsinin yaradılması və qiymətlərə dövlət dəstəyi mexanizmi vasitəsi ilə müdaxilə maliyyə siyasətinin rolunu artırmış, məcmu təklifə nisbətən məcmu tələbin artıq hissəsinin aradan qaldırılması üçün geniş istifadə olunmasını zəruri etmişdir. İzafi tələbin mövcud təklifə uyğunlaşdırılması inflyasiya təmayüllərinin qarşısının alınması üçün istifadə edilən maliyyə mexanizminin mühüm funksiyalarından biridir.

c) Tam məşğulluğun əldə edilməsi və qorunması. İqtisadiyyatda inflyasiya və deflyasiya yaradan təmayüllərlə mübarizə aparılması, əslində tam məşğulluğu təmin etmək deməkdir. Tam məşğulluğun təmin olunması əhəmiyyətli bir məsələ olsa da, onun qorunub saxlanılması daha əhəmiyyətlidir. Bu monetar siyasətdə Abba Lernerin təklif etdiyi kimi, üç alətdən istifadə edilir: Satmaq - satın almaq, borclanmaq - borcu ödəmək, vergiyə cəlb etmək - vergi endirimlərini tətbiq etmək. İqtisadiyyatın tam məşğulluq səviyyəsinə çatdırılması və onun qorunub saxlanılması həmin üç alət vasitəsilə təmin edilir.

2. İqtisadi inkişafı təmin etmək. Müasir dövrdə inkişaf iqtisadi siyasətin əsas məqsədidir. Monetar siyasət - pul-kredit siyasəti, büdcə xərcləri, kapital qoyuluşları və inkişafa yönəldilən cari xərclərlə adambaşına milli gəlirin artırılmasında, iqtisadi və sosial strukturun təkmilləşdirilməsi və yaxşılaşdırılmasında, bir sözlə iqtisadi inkişafın təmin olunmasında mühüm rol oynayır. Büdcə xərclərinin inkişafı təmin edə bilməsi onların maliyyə mənbələrindən çox asılıdır. İnkişafa yönəldilən məsrəflərin sağlam maliyyə mənbələrindən əldə edilməsi zəruridir. İnkişafı təmin etmək üçün dövlətin vergi siyasəti ölkədə yığımın səviyyəsinin artırılmasına yönəldilməlidir. Dövlət yığımının artırılması və özəl kapital qoyuluşlarının təşviq edilməsi vasitəsilə iqtisadi inkişafdan yaranan və iqtisadi inkişafı təhlükəyə sala biləcək qeyri-mütənasibliklərin qarşısının alınması mümkündür. Dövlət, borc almaqla iqtisadiyyatda istifadə edilməyən istehsal güclərini hərəkətə gətirə bilər və bu yolla iqtisadiyyatda kapital qoyuluşlarının həcmini artırar. Bunlar isə ölkədə milli gəlirin və məşğulluq səviyyəsinin artması ilə nəticələnir.

3. İqtisadiyyatda gəlir bölgüsü və həyat səviyyəsini yaxşılaşdıra bilər. Bazar iqtisadiyyatı özəl sahibkarlığa və mülkiyyətə əsaslanır. Gəlir bölgüsündə qeyri-bərabərlik özünü göstərir. Gəlir bölgüsündə qeyri-bərabərlik, çox hallarda isə dərin uçurum cəmiyyətdə həmişə gərginlik mənbəyidir. Gəlir bölgüsünün və əhali qruplarının yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün maliyyə siyasəti təsirli vasitə kimi istifadə edilə bilər. Mütərəqqi vergi sistemi bu məqsədə yönəldilmiş mühüm vasitələrdən biridir. Büdcə xərclərinin də bu sahədə böyük rolu ola bilər. Təhsilə, səhiyyəyə və sosial təminat sisteminə ayrılan xərclər və onların düzgün nisbəti bu baxımdan böyük əhəmiyyətə malikdir.

Dövlətlərin monetar siyasətə münasibətində ciddi dəyişikliklər 1975-ci ildən sonra özünü göstərməyə başladı. Keyns erasında 1945-ci ildən 1960-cı illərin sonlarına qədər dövlətlərin iqtisadiyyata təsir göstərmək üçün istifadə etdikləri



başlıca alət maliyyə-büdcə siyasəti idi. Faiz dərəcələrinin qeyri-sabitliyinin qarşısının alınmasında monetar siyasətə az əhəmiyyət verilirdi.

XX əsrin 70-ci illərinin ikinci yarısından iqtisadiyyatın tənzimlənməsi prosesinə yeni yanaşma tərzi axtarışları başlanmışdır. Keyns nəzəriyyələrində əsas məsələ işsizlik idi, sonralar isə vəziyyət dəyişdi. Əsas problem istehsalın həcminin daraldığı bir şəraitdə inflyasiyanın qarşısının alınması oldu. Belə vəziyyət iqtisadi ədəbiyyata yeni anlayış - staqflyasiya anlayışını gətirdi. Büdcə xərclərini artırmaqla kəsirli maliyyələşmə siyasətinin aparılması yeni şəraitdə özünü doğrultmadı. Büdcə manipulyasiyaları inflyasiyanı dayandırmaq əvəzinə daha da dərinləşdirdi. Ona görə də inflyasiya ilə mübarizə işində yeni üsullar axtarılmağa başlandı. Maliyyə və iqtisadi siyasətdə yeni konsepsiyanın hazırlanması zamanı monetaristlərin görüşləri qalib gəldi. Amerika iqtisadçısı Milton Fridmenin başçılığı ilə hazırlanan bu konsepsiya iqtisadi nəzəriyyədə ön plana çıxmaqla, bir çox dövlətlərin iqtisadi siyasətinin əsasını təşkil etdi. Reyqanomika və «Tetçerizm» adlanan iqtisadi siyasət əsas etibarilə monetaristlərin nəzəri görüşlərinə əsaslanırdı.

İqtisadi nəzəriyyənin inkişafında monetaristlərin əsas xidməti pul dünyasının əmtəə dünyasına əks təsiri mexanizminin, monetar alətlərin və monetar siyasətin iqtisadi inkişafa təsirinin ətraflı tədqiqindən ibarət idi. Hal-hazırda həmin konsepsiyalar pul-kredit siyasətinin əsasını təşkil edir. Bu nəzəriyyəyə əsasən sabit pul emissiyası iqtisadi vəziyyətdən və iqtisadi konyukturadan asılı olmayaraq pul-kredit siyasətinin başlıca istiqamətidir. Maliyyə siyasətinin müvəffəqiyyətli olması onun digər iqtisadi siyasət qolları ilə uzlaşdırılmasından asılıdır. Məsələn, iqtisadiyyatda mövcud olan izafi likvidliyi əritmək məqsədini güdən vergi və borclanma siyasəti pul-kredit siyasəti ilə uzlaşdırılmalıdır. Əks halda onun təsiri ola bilməz. Maliyyə siyasəti əmək haqqı siyasəti ilə də uzlaşdırılmalıdır. Belə ki, maaşlar məhsuldarlıqdan sürətlə artarsa məsrəf inflyasiyası yarana bilər. Bu zaman inflyasiya ilə mübarizə aparmaq üçün dövlət məsrəfləri məhdudlaşdırılır, vergilər artırılır. Deflyasiya zamanı isə maaşların artırılması məşğulluq səviyyəsinin müəyyən səviyyədən aşağı düşməsinə mane olmaqla yanaşı, iqtisadiyyatda genişlənməyə səbəb olan xərclər, vergi və borc siyasəti ilə uzlaşdırılmalıdır. Təklifi artırmaq və azaltmaq məqsədilə maliyyə siyasəti xarici ticarət siyasəti ilə də uzlaşdırılmalıdır.

Bazar iqtisadiyyatının gedişində dövlətin həyata keçirdiyi makroiqtisadi siyasətin tərkib hissəsi olmaqla monetar siyasətlə iqtisadi siyasətin digər aspektləri arasında qarşılıqlı əlaqə, asılılıq və təsir getdikcə artır. İqtisadi siyasətin həmin tərkib hissələri bir-biri ilə uzlaşmalı və bir-birini tamamlamalıdır. Xarici iqtisadi siyasətdə də eyni vəziyyət mövcuddur. Beynəlxalq ticarətin artması, beynəlxalq kapital və işçi qüvvəsi hərəkətinin sərbəstləşməsi, milli valyutaların dönərliliyinin təmin olunması beynəlxalq əmək bölgüsünün daha da dərinləşdirilməsinə səbəb olur, dünya miqyasında ayrı-ayrı ölkələrin iqtisadiyyatını bir-birindən asılı edir. Bütün bunları nəzərə alan monetar siyasəti müvəffəqiyyətli ola bilər və iqtisadi inkişafa və ictimai rifah səviyyəsinin yüksəlməsinə əhəmiyyətli dərəcədə təsir göstərər.

## 8. 2. Monetar siyasət dünya dövlətlərinin təcrübəsində

Müasir dövrdə bazar iqtisadiyyatının tənzimlənməsində və təşkilində dövlət mühüm rol oynayır. Nəhəng iqtisadi agent kimi o, öz fəaliyyətində iqtisadiyyata fəal təsir göstərməyə çalışır. Özünün fəallığını planlaşdırarkən, o elə etməlidir ki, itkiləri minimuma endirsin, iqtisadiyyat və cəmiyyət üçün faydaları da maksimallaşdırmalıdır. Müasir dövrdə dövlətin fəallığında tələb və təklif arasında tarazlığın yaradılması üçün monetar siyasət mühüm rol oynayır. [169, c. 560]

Monetar siyasət dünya dövlətlərinin təcrübəsində ikinci dünya müharibə-sindən sonra ciddi dəyişikliklərə məruz qalmışdır. Keyns ideyalarının rəsmi dövlət siyasətlərində hakim olduğu 1945-ci ildən 60-cı illərin sonlarına qədərki dövrdə iqtisadiyyat üzərində nəzarətin həyata keçirilməsi üçün maliyyə-büdcə siyasəti başlıca siyasət idi. Faiz dərəcələri həddən artıq qeyri-sabitlik göstərdikdə monetar siyasətə onunla mübarizə məqsədilə az rol ayrılırdı. Lakin 70-ci illərdə bir çox iqtisadi və siyasət adamlarının bu barədə görüşləri dəyişikliyə məruz qaldı. Monetar siyasətin rolu artmağa başladı. Monetarizm öz yüksək zirvəsinə 80-ci illərin əvvəllərində yüksəldi. Bütün inkişaf etmiş ölkələrin dövlətləri, o cümlədən Reyqan və Tetçer hökumətləri inflyasiya üzərində nəzarəti bir nömrəli makroiq-tisadi məqsəd hesab etdilər. Bu məqsədə çatmaq üçün monetar siyasətdən istifadə edirdilər. Bu zaman onlar pul təklifinin artmasının maksimum həddini müəyyən etsələr də, həmin həddi qoruyub saxlamaq heç də asan deyildir. Beləliklə, onlar məqsədli pul təklifindən tədricən imtina etdilər. Buna baxmayaraq inflyasiya üzərində nəzarət iqtisadi siyasətin mühüm vəzifəsi kimi qalmaqda davam edir. Monetar siyasət inflyasiyanın dövlət tərəfindən müəyyən edilmiş səviyyədə saxlanılması üçün istifadə edilir. İnflyasiyanın artması üçün maksimum həddin müəyyən edilməsi, monetar siyasətin başlıca məqsədidir. Bir çox ölkələr monetar siyasətdən müasir dövrdə də inflyasiyanı müəyyən olunmuş səviyyədə saxlamaq üçün istifadə edirlər. [235, c. 347] İqtisadi fikrin klassik cərəyanının tərəfdarlarının görüşlərinə görə məcmu tələb pul kütləsi və onun alıcılıq qabiliyyəti ilə müəyyən edilir. Real istehsal həcmi də onlardan asıldır. Burada pulun sürətini də nəzərə almaq lazımdır. Məcmu təklifin həcmi isə cəmiyyətdə mövcud ehtiyat ların miqdarından asılıdır. O nə qiymətdən, nə də tələbdən asılıdır. Ona görə də məqsəd pul təklifini sabit vəziyyətdə saxlamaqdır. Klassik məktəbin müasir təmsilçilərinin (monetaristlərin) fikrinə görə pul təklifi məcmu tələbin və qiymətlərin səviyyəsini müəyyən edən başlıca amildir. Bu zaman tələbdə özünü göstərən istənilən dəyişiklik nə tələbə, nə məşğulluğa, nə də milli məhsulun həcminə təsir etmir.

Klassiklərin fikrinə görə yığımla investisiyalar arasındakı tarazlıq pul bazarı mexanizmi, hər şeydən əvvəl faiz dərəcəsi vasitəsilə asanlıqla tənzimlənir. Faiz dərəcələri yığım üçün mükafat aləti hesab edilir. Deməli yığım klassik modelə görə faiz dərəcələrinin tənzimləyici roluna tam tabedir. Faiz dərəcələri nə qədər yüksəkdirsə, bir o qədər vəsait yığılacaq, və əksinə onların səviyyəsinin azalması yığımın azalmasına və istehlakın artmasına səbəb olacaqdır. Lakin reallıq göstərir ki, yığım heç də yalnız faiz dərəcələrinin səviyyəsi ilə müəyyən edilmir.

Monetar siyasətin müxtəlif üsulları mövcuddur. Bu üsulları üç qrupa bölmək olar: 1. Pul təklifi üzərində nəzarət; 2. faiz dərəcələri üzərində nəzarət; 3. kreditlər üzərində nəzarət.



Pul təklifinin idarə olunması üsulları müxtəlifdir. Lakin onların hamısının eyni cəhəti vardır: onlar bank sisteminin likvidlik aktivlərinin manipulyasiyasına əsaslanır. Vəzifə bankların yarada bildikləri kredit miqdarının dəyişdirilməsi yolu ilə ümumi pul təklifinə təsir göstərməkdən ibarətdir. Pul tədavülü və kredit sferası bütün dövlətlərdə mərkəzi banklar vasitəsilə tənzimlənir. Bu zaman:

1. Pul kütləsinin (yəni nəğd və kredit pullarının məbləğlərinin) tənzimlənmə-sinin əsasında pul multiplikatoru anlayışı dayanır. Mərkəzi banklar bundan istifadə edərək tədavüldə olan nəğd pulların və mərkəzi banklarda kommersiya banklarının yerləşdirdikləri əmanətlərin miqdarını artırmaq və ya azaltmaqla pul kütləsinin həcminə təsir edir. Pul multiplikatoru bilavasitə likvidlik dərəcəsindən, yəni nəğd pulla kommersiya banklarının ya Mərkəzi bankda, ya özündə saxladıqları (onları kredit və digər aktiv əməliyyatlar üçün istifadə etməmək şərtilə) nəğd pullar, depozitlər və minimum pul ehtiyatları normativləri arasındakı nisbətdən asılıdır.

2. Tədavüldəki nəğd pulun miqdarı dövlət istiqrazları və digər qiymətli kağızların Mərkəzi bank tərəfindən alınıb-satılması yolu ilə tənzimlənir. Qiymətli kağızların bank tərəfindən satın alınması tədavülə yeni nəğd pul buraxılması, qiymətli kağızların satılması isə nəğd pulların tədavüldən çıxarılması ilə eynidir. Belə əməliyyatlar açıq bazar əməliyyatları adlanır. Pul multiplikatoru vasitəsilə nəğd pul kütləsi miqdarının dəyişdirilməsi depozit pulların kütləsinin dəyişməsinə səbəb olur. Sonuncu isə kommersiya bankları üçün iqtisadiyyatın kreditləşdiril-məsinin əsasıdır.

3. Mərkəzi banklar Kommersiya bankları tərəfindən özəl bölmənin kredit-ləşdirmə dərəcəsi üzərində nəzarəti faiz dərəcələrini tənzimləməklə həyata keçirir. Bu siyasət Mərkəzi bankların özəl bölmədən veksellləri satın aldıqları uçot, (diskont) dərəcələrini müəyyən etməklə həyata keçirilir. Uçot dərəcəsi kommersiya banklarının kreditləri üzrə faiz dərəcələrini müəyyən etmək üçün minimum orientasiyadır.

4. Pul tədavülü və kredit sferasının tənzimlənməsi dolayı (kapital qoyuluş-larına və qismən də fərdi istehlaka təsir etməklə) aqreqat tələbə və deməli milli məhsulun həcminə təsir göstərir.

Dövlətin pul axınları ən ümumi şəkildə onun büdcəsində öz əksini tapır. Dövlət büdcəsi hər şeydən əvvəl onun öz funksiyalarını yerinə yetirmək üçün pula olan tələbindən və bu tələbi ödəmək məqsədilə vəsaitin səfərbər olunması zərurətindən asılıdır. Bununla yanaşı büdcənin gəlir və xərclərinin bu və ya digər komponentləri iqtisadi inkişafa fəal təsir göstərmək üçün istifadə edilə bilər. Dövlət satınalmaları və kapital qoyuluşlarının artması milli məhsulun və milli gəlirin dinamikasına ciddi təsir edir. Tələb multiplikatoru aqreqat tələbini dövlət satınalmalarına nisbətən daha çox artmağa imkan verir. ÜDM-un real həcminə təsir iqtisadiyyatın iqtisadi tsiklinin hansı fazada olmasından asılıdır. Azalma bazasında, istehsal güclərindən tam istifadə olunmadıqda dövlət sifarişlərinin real ÜDM-a təsiri xeyli yüksək olur. Yüksəliş fazasında isə bu təsir minimum səviyyədədir. Lakin yüksəliş fazasında iqtisadiyyat özü-özünə artır və əlavə stimula ehtiyac olmur. Bu halda fəal büdcə tənzimləmələri olsa artım sürətini azaltmaq (inflya-siyanı, qiymətli kağızlar bazarındakı möhtəkirlik əməliyyatlarını məhdudlaşdırmaq və s.) üçün lazım ola bilər. Bu məqsəd üçün büdcənin elə komponentlərindən

Valyuta müdaxiləsi siyasəti hələ XIX əsrdə tətbiq edilməyə başlanmışdır. Qızıl monometalizm ləğv edildikdən sonra bu əməliyyatlar genişləndi. 1929-1933-cü illərdə (böyük depressiya) dövründə mərkəzi banklar valyuta dempinqinə təsir göstərmək üçün öz valyutalarının məzənnələrini aşağı salmaq məqsədilə intervensiyasını tətbiq edirdilər.

Bretton-Vuds valyuta sistemi dövründə təsdiq olunmuş valyuta məzənnəsini dəstəkləmək üçün mütəmadi olaraq valyuta müdaxiləsi tətbiq edilirdi. Üzən valyuta məzənnəsi sisteminə keçilməsi ilə valyuta müdaxiləsi kəskin məzənnə dəyişmələrinin qarşısının alınmasına yönəldilir.

70-ci illərin ortalarından bir sıra ölkələrin mərkəzi bankları tərəfindən kollektiv valyuta müdaxiləsi həyata keçirilir. 1974-cü ilin may ayında ABŞ, AFR, İsveçrə (sonra Fransa da birləşdi) tərəfindən kollektiv valyuta intervensiyası haqqında Bazelsk sazişi bağlandı. Rambuye müşavirəsində (1975-ci il) altı ölkə başçıları birgə valyuta siyasəti və qarşılıqlı dəstəkləmə haqqında razılığa gəldilər. 1975-ci ilin dekabrından isə (on ölkə qrupu) (svop) razılaşması əsasında birgə valyuta müdaxiləsini tətbiq edirlər.

1985-ci ildən etibarən isə beş inkişaf etmiş sənaye ölkəsi aparıcı valyutaların məzənnələrini tənzimləmək məqsədilə dövri olaraq birgə valyuta müdaxiləsini həyata keçirirlər. Məzənnə siyasəti valyuta məzənnəsinə böyük təsir göstərir, lakin müvəqqəti və məhdud miqyasdadır. Valyuta müdaxiləsinə çəkilən külli miqdarda məsrəflər, əgər məzənnə formalaşdıran bazar amilləri dövlət tənzimlənməsindən güclüdürsə sabitliyi heç də həmişə təmin etmir.

Valyuta siyasətinin mühüm formalarından biri valyuta ehtiyatlarının diversifikasiyasının təmin olunmasıdır. Valyuta ehtiyatlarının diversifikasiyası - valyuta ehtiyatlarının tərkibinə beynəlxalq hesablaşmaları təmin etmək, valyuta müdaxiləsini aparmaq və valyuta itkilərinin qarşısını almaq məqsədilə müxtəlif valyutaların daxil edilməsi yolu ilə valyuta ehtiyatlarının strukturunu tənzimləmək sahəsində dövlətlərin, bankların, transmilli şirkətlərin yeritdiyi siyasətdir. Bu siyasət adətən qeyri-sabit valyutaların satılması və sabit valyutaların, habelə beynəlxalq hesablaşmaların aparılması üçün lazım olan valyutaların alınması yolu ilə həyata keçirilir. Valyuta pariteti və valyuta məzənnəsi rejimi də milli və dövlətlərarası tənzimləmə obyektidir. Bretton-Vuds və Yamayka valyuta sistemlərində valyuta pariteti və valyuta məzənnəsi rejimləri əvvəlki fəsillərdən məlumdur. Burada əvvəlcə valyuta məzənnəsi rejimi seçilərkən əsas götürülən meyarların nəzərdən keçirilməsini lazım bilirik.

Yamayka sazişi çərçivəsində valyuta məzənnəsi rejimi seçilərkən ölkə İki alternativdən birini seçir.

1. Öz valyutasının sərbəst dəyişməsi, yaxud da 2. onun hər hansı bir valyutaya (bağlanması) haqqında qərar qəbul edir. Hər iki alternativin də öz növbəsində bir neçə alternativi mövcuddur. Məsələn, ölkə üzən valyuta sisteminə üstünlük verərsə aşağıdakı üç variantdan birini seçməlidir. 1) valyuta məzənnəsini müstəqil dalğalandırır, 2) öz valyutalarını digər ölkələrin valyutaları ilə birlikdə dalğalandırır, və ya 3) valyuta məzənnəsini nisbi inflyasiya dərəcələri əsasında müəyyən edilmiş formullar ilə tənzimləyir. Ölkə öz valyutasını (bağlamaq) siyasətini qəbul edirsə onu hər hansı tək bir valyutaya, yaxud bir neçə valyutadan ibarət



valyuta səbətinə, ya da qızıla (bu variant keçmişdə mövcud idi) bağlanması kimi alternativlərdən birini seçməlidir.

BVF-in üzvlərinin bir çoxunun öz valyutalarını bu və ya digər valyutalara (bağlamasına) baxmayaraq əsas sənaye ölkələrinin valyutaları 1973-cü ildən bu yana Nəzarətli üzən valyuta məzənnəsi sistemi (VMS) əsasında fəaliyyət göstərirlər.

**VMS seçilərkən əsas götürülən meyarlar.**

1. Ölkə iqtisadiyyatının xarici açıqlıq dərəcəsi. VMS-i seçilərkən bu amil çox mühüm rol oynayır. Xarici açıqlıq dərəcəsi bir qayda olaraq ixracatın məcmu milli məhsula nisbəti ilə müəyyən edilir. Nisbətən qapalı hesab edilən xırda ticarətçi ölkələr adətən üzən valyuta məzənnəsi sisteminə, xarici çox açıq olan böyük ticarətçi ölkələr adətən sabit məzənnəyə üstünlük verirlər. Çünki sabit məzənnə sistemində xarici ticarət kəsirinin aradan qaldırılması məcmu tələbdə ziddiyyətli tənzimlənmələri şərtləndirə bilər. Məlumdur ki, müvazinət yaradan tənzimləmə dərəcəsi ölkənin idxalat həcmi ilə tərs mütənasibdir.

Az idxalatı olan nisbətən qapalı ölkələr ticarət balansı kəsirini aradan qaldırmaq üçün ölkə daxilində məcmu tələbi ciddi tənzimləmək məcburiyyəti qarşısındadır.

Əlbəttə yüksək idxal həcminə malik olan «açıq» ölkələrdə belə məcburiyyət yoxdur. ABŞ kimi xarici ticarət bölməsi nisbətən «kiçik» olan ölkələr sabit valyuta məzənnə sistemini seçmirlər. Çünki bu halda xarici ticarət kəsirini ləğv etmək üçün böyük miqyasda ölkə daxili tənzimləmələr aparılmalıdır.

1. Ölkənin ixracat mallarının çox və ya az çeşidli olması VMS-nin seçilməsinə təsir edən mühüm amillərdəndir. Adətən ixracat malları çox çeşidli olan ölkələr üzən məzənnə sistemini seçirlər. Çünki ixrac mallarının növlərinin çox olması ölkənin hər hansı bir mal ixracından asılılığını azaldır. Bu malların qiymətləri və miqdarının artıb azalması bir-birini qarşılıqlı olaraq neytrallaşdırır və valyuta məzənnəsində baş verə biləcək dalğalanmalarla əlaqədar itkilərin də qarşısını ala bilər. Bunun əksinə, ixracatı məhdud saylı maldan ibarət olan ölkələr ixracat gəlirlərinin iqtisadiyyata mənfi təsirini azaltmaq məqsədilə sabit valyuta məzənnəsi sisteminə üstünlük verirlər.

2. Digər amillər. Ölkələr arasında qısamüddətli kapital hərəkətlərinin rolu sabit və ya üzən məzənnə sistemlərinin seçilməsinə təsir edən amillərdəndir. Kapital hərəkəti nisbətən çox olan ölkələrdə sabit məzənnələri müdafiə etmək üçün dövlət müdaxiləsini həyata keçirmək çətindir. Bununla əlaqədar olaraq, məsələn, Belçika, ödəniş balansına mənfi təsiri aradan qaldırmaq məqsədilə kapital hərəkəti əməliyyatlarına üzən məzənnə, mal və xidmət əməliyyatları üçün isə sabit məzənnə tətbiq edir. Burada şübhəsiz ölkənin böyük ticarət partnyorları olan ölkələrdəki inflyasiya səviyyəsi nəzərdə tutulur. Əksinə, inflyasiya səviyyəsi az-çox bir-birinə yaxın olan ölkələr sabit məzənnə sistemini seçirlər. İnflyasiya səviyyəsi əgər bir ölkədə partnyor ölkələrə nisbətən aşağıdırsa, bu zaman sabit məzənnə, əks halda isə üzən məzənnə siyasəti tətbiq edilir.

Ölkələr xarici ödəmələrdə müvazinəti təmin etmək üçün müxtəlif tədbirlərə əl atırlar. Sərbəst dəyişən məzənnə sistemində xarici müvazinət valyuta məzənnələrinin tələb təklif şərtlərindən asılı olaraq sərbəst dalğalanması ilə təmin

edilir. Elastikliyə malik məzənnə sistemində valyuta məzənnələri sərbəst dəyişmədiyi üçün xarici müvazinət, onun hökumət qərarı ilə dəyişdirilməsi yolu ilə təmin edilir. Bu zaman hökumət xarici ödəmələrdə özünü göstərən kəsirləri ödəmək üçün əvvəlki fəsildə göstərildiyi kimi tədbirlər görməyə məcbur olur. Elastikliyə malik olan sabit məzənnə sistemində xarici müvazinətin təmin olunmasında yuxarıda gördüyümüz kimi ən təsirli valyuta məzənnəsinin tənzimlənməsidir. Bu sistemdə digər tədbirlər kompleksi ilə yanaşı dövlətlər qəbul etdikləri qərarla milli valyutanın xarici alıcılıq qabiliyyətini aşağı salır və ya yüksəldir. Belə məzənnə tənzimlənməsi sərbəst dəyişkən məzənnə sistemində də fərqli şəkildə özünü göstərir. Ona görə də onların üzərində ətraflı dayanmaq lazımdır.

Devalvasiya (latınca de-aşağı salmağı və valeo-dayanmışam mənalarını əks etdirir.) - milli pul vahidinin qiymətdən düşməsi deməkdir və öz ifadəsinin onun məzənnəsinin xarici valyutalara və ya beynəlxalq hesab vahidlərinə, keçmişdə isə qızıla nisbətən aşağı salınmasında tapır. Lakin bu zaman pulun qiymətdən düşməsi ilə onun dəyərinin direktiv şəklində aşağı salınmasını bir-birindən fərqləndirmək lazımdır. Məsələn, ölkə daxilində qiymətlərin davamlı olaraq yüksəlməsi nəticəsində hər milli valyuta vahidinə satın alınan mal və xidmətlərin miqdarı əvvəlki dövrə nisbətən azalır ki, buna da valyutanın ucuzlaşması deyirlər. Bu halda pul öz dəyərini daxili inflyasiya ilə əlaqədar itirir. Devalvasiyada isə, pulun dəyərinin qanunla aşağı salınması nəzərdə tutulur. Aşağı salınan, dəyər isə onun xarici dəyəri, alıcılıq qabiliyyətidir. Bəzi hallarda milli valyutanın həqiqi olaraq aşağı düşmüş xarici dəyərinin hökumət tərəfindən qəbul edilməsi də devalvasiya hesab edilir. Devalvasiya müəyyən mənada valyuta məzənnəsinin yüksəldilməsi deməkdir.

Devalvasiya sərbəst dəyişən valyuta məzənnəsi sistemində bazarda hər gün kortəbii olaraq özünü göstərir və milli valyuta məzənnəsinin xarici valyutaya nisbətən dəyişməsi vaxtaşırı olaraq rəsmən təsdiq edilir. Devalvasiya iki səbəblə əlaqədardır:

1. İxracatı təşviq etmək və idxalatı məhdudlaşdırmaqla xarici ticarət balansının və müvafiq olaraq tədiyə balansının kəsirlərini ləğv etmək və ya azaltmaqla;

2. Daxili qiymətlərlə xarici qiymətlər arasında yaranmış qeyri-mütənasibliyi aradan qaldırmaq zərurətləri ilə.

Devalvasiya ölkənin tədiyə balansına ciddi təsir göstərir. Bu təsir devalvasiyanı həyata keçirən ölkə ilə digər ölkələrdəki tələb və təklifin vəziyyətindən asılıdır. Devalvasiya edildiyi zaman xarici valyutalara nisbətən ixrac qiymətləri nisbətən aşağı düşür. İxrac malları qiymətinin azalması ilə əlaqədar olaraq ölkə mallarına xarici tələb artır. Bu tələb artımı, ixrac malları qiymətlərini devalvasiyadan əvvəlki səviyyəyə doğru apardığı halda, idxal malların bahalaşdığı üçün idxal tələbi məhdudlaşır. Bu yol ilə xarici ticarət balansının müvazinəti təmin edilir.

Bununla yanaşı, devalvasiya xarici ticarət şərtlərini ölkə əleyhinə çevirə bilər. Çünki devalvasiya ümumiyyətlə ixrac malları qiymətlərini aşağı salmaqla, idxal qiymətlərini yüksəldir. Bu vəziyyət ixracatı idxalatdan daha çox olan ölkələrdə açıq şəkildə görünür. Yəni, artan ixracat dünya bazarı qiymətlərini aşağı



saldığı halda, azalan idxalat eyni şəkildə qiymətləri azalda bilmir. Beləliklə, xarici ticarət şərtləri devalvasiyanı edən ölkənin əleyhinə çevrilir.

Devalvasiyanın tədiyə balansına təsirini yuxarıda göstərildiyi kimi müəyyən etmək üçün tələb və təklif elastikliyini nəzərə almaq lazımdır:

1. İdxal və ixrac mallarına olan tələb elastikliyi: idxal mallarının tələb elastikliyi nə qədər yüksəkdirsə, aparılan devalvasiya da o dərəcədə faydalıdır. Çünki bu vəziyyətdə idxal malları bahalaşdığı üçün tələb mahdudlaşır. Bununla da idxal miqdarı azaldığı üçün tədiyə balansı kəsirinə müsbət təsir edir.

İdxal mallarının tələb elastikliyi azdırsa valyutaya qənaət olmur. Bu halda qənaət edilən valyutanın miqdarı bütünlüklə elastiklik dərəcəsindən asılıdır.

İxrac mallarına olan tələb elastikliyi sıfırdan başlayaraq böyüdükcə valyuta itkisi azalır və elastiklik 1-ə bərabər olana qədər davam edir. Elastiklik 1 olduqda ixrac mallarına yenə də əvvəlki qədər valyuta sərf edilir. Bu vəziyyətdə devalvasiyadan qazanc və ya zərər yoxdur. Devalvasiyanın ixrac yolu ilə valyuta qazanclarını artıra bilməsi üçün mütləq ixrac mallarına olan tələb elastikliyi 1-dən böyük olmalıdır, yəni xarici tələb tam elastik olmalıdır.

2. İdxal və ixrac mallarının təklif elastikliyi 1-dən böyükdürsə, yəni təklif elastikdirsə, devalvasiya ilə əlaqədar qiymətlərdə dəyişiklik görünməyəcəkdir, əks halda isə azalma olacaqdır. Bazarda idxal tələbinin daralması nəticəsində əgər qiymətlər azalarsa, valyuta qazancının olması mümkün deyildir. İdxal malları qiymətlərinin aşağı düşməsi, devalvasiya nisbətini real olaraq aşağı salır və bununla əlaqədar olaraq mümkün olan valyuta yığımı minimum səviyyəyə enir. Əgər idxal malları qiymətləri devalvasiya səviyyəsindən aşağı düşərsə devalvasiyanın təsiri tamamilə aradan qalxacaqdır, yəni valyuta qazancı əldə edilməyəcəkdir.

İxrac mallarının təklif elastikliyi, əgər sonsuzluqdan azalmağa başlayırsa, (təklif sabit qiymətlərlə artırıla bilirsə) təklifin artırılması qiymətləri də artıracaq və bunun nəticəsində valyuta qazancı azalacaqdır. İxrac mallarının təklif elastikliyi 1-ə bərabər olduqda, devalvasiyanın əhəmiyyətli təsiri olmayacaqdır. Təklif elastikliyi 1-dən böyük olduğu halda devalvasiya valyuta qazancını artırır.

Devalvasiyanın tədiyə balansına əhəmiyyətli təsir göstərə bilməsi üçün Marşal-Lerner şərtlərinin yerinə yetirilməsi vacibdir.

Devalvasiyanın məqsədi tədiyə balansındakı kəsiri ləğv etməkdir. Bunun üçün daxili qiymətlərin səviyyəsinin yüksəlməməsi vacibdir. Daxili qiymətlər yüksəldiyi təqdirdə ixrac mallarının ucuzluğu aradan qalxır. Nəticədə idxal malları daxili mallara nisbətən bahalı olmaqda uzun müddət davam edə bilməz. Devalvasiyanın müvəffəqiyyəti daxili qiymətlərin səviyyəsinin sabit saxlanılmasından asılıdır.

Revalvasiya-hökumətin qərarı ilə milli valyutanın xarici məzənnəsinin yüksəlməsidir. Belə tədbir, adətən sabit məzənnə sistemində tətbiq edilir. Lakin sərbəst məzənnə sistemində dövlət öz ehtiyatlarını artırmaq üçün davamlı olaraq valyuta bazarlarından valyuta satın alır və yaxud xalis kapital axınına icazə verir və bu yolla valyutaya tələbi artırır. Bu tədbir valyuta məzənnəsi lazımi səviyyəyə yüksələnə qədər davam edir. Nəticədə tədiyə balansının müsbət qalığı artır.

Revalvasiya heç də devalvasiyanın tam əks nəticəsini vermir. Çünki tələb və təklifin qiymətlərin yüksəlməsinə göstərdiyi həssaslıq, qiymətlərin aşağı düşməsinə

göstərdiyi həssaslıqla eyni deyildir.

Revalvasiya daxili qiymətləri yüksəldərək ixracatı azaldır, xarici malların qiymətini aşağı salaraq, idxalatı artırır. Başqa sözlə, revalvasiya ixrac malları qiymətlərini xarici valyuta ilə yüksəldir, idxal mallarının qiymətlərini milli valyuta ilə ucuzlaşdırır. Bunun nəticəsində ölkənin tədiyə balansının müsbət qalığı azalır. Amma burada sözsüz ki, tələb və təklifin qiymət elastikliyindən çox şey asılıdır. Revalvasiya ixracat həcmini və ölkəyə kapital daxil olmasını və müvafiq olaraq tədiyə ehtiyatları və daxili tələb səviyyəsini azaldır. Bu yolla ölkədə məşğuliyyət, qiymət və əmək haqqı səviyyəsi aşağı düşür. Tədiyə balansında müsbət saldoya malik ölkələrə BVF revalvasiya keçirilməsini təklif edir.

## 8. 4. Keçid iqtisadiyyatı şəraitində valyuta siyasətinin formalaşması və inkişafı problemləri.

XX əsrin son onilliyinin mühüm xüsusiyyətlərindən biri keçmiş sosialist blo-kuna daxil olan ölkələrin əksəriyyətində inzibati-amirlik sisteminə əsaslanan iqtisa-di sistemin tədricən bazar iqtisadiyyatı sistemi ilə əvəz olunmağa başlamasıdır. Mülkiyyət münasibətlərinin dəyişməsinə əsaslanan bu proses ağır və ziddiyyətli şəkildə keçir. Bazar münasibətlərinin formalaşmasında və inkişafında valyuta və valyuta məzənnəsi siyasəti mühüm rol oynayır. İqtisadiyyata və xarici ticarətə dövlət müdaxiləsinin məhdudlaşmasını, inzibati-amirlik üsullarından istifadə edilməsini tələb edən iqtisadiyyatın liberallaşdırılması prosesi sərbəst valyuta bazarının yaradılmasını, taraz valyuta məzənnəsinin müəyyən edilməsini və milli valyutanın dönərliyinin təmin edilməsini nəzərdə tutur.

Mərkəzdən planlaşdırılan iqtisadiyyatda xarici iqtisadi fəaliyyət üzərində dövlət inhisarı mövcud olduğu bir şəraitdə valyuta ehtiyatlarının bölüşdürülməsi üzərində nəzarət də daxil olmaqla bütün idxal-ixrac əməliyyatları üzərində sərt val-yuta nəzarəti həyata keçirilirdi. İxracatçılar əldə etdikləri valyuta ehtiyatlarını məc-buri olaraq müəyyən edilmiş məzənnə ilə dövlətə təhvil verirdi. Bu zaman müxtəlif xarici iqtisadi fəaliyyət növləri üçün müxtəlif məzənnə tətbiq edilirdi ki, bu da müxtəlif ixracatçı və idxalatçıları qeyri-bərabər vəziyyətə salırdı. Milli valyutanın dönərliliyi mümkün deyildi.

Rəsmi məzənnə şişirdilmişdi və «qara bazar» qiymətindən bir neçə dəfə çox idı. Bütün valyuta siyasəti SSRİ-yə daxil olan respublikalarda mərkəzləşdirilmiş qaydada həyata keçirilirdi. Müstəqil milli valyutadan məhrum olan həmin res-publikalarda müstəqil valyuta siyasətindən heç söhbət də gedə bilməzdi.

Mərkəzi hökumət tərəfindən idxalatın kəmiyyətcə məhdudlaşdırılması, idxal lisenziyalarının inzibati-amirlik üsulları ilə bölgüsü qiymətlərin dövlət tərəfindən tənzimlənməsi ilə yanaşı daxili qiymətlərin dünya qiymətlərindən kəskin sürətdə fərqlənməsinə, ticarətdə müqayisəli üstünlüyün itməsinə, milli istehsalçıların xarici tərəfdaşlar ilə rəqabətdən təcrid olunmasına gətirib çıxarmışdır.

Qiymətlərin sərbəstləşdirilməsi, idxal rejiminin liberallaşdırılması prosesinin başlanması və ixracat üzərindən dövlət nəzarətinin azaldılması, dövlət sifarişinin ləğvi, milli pul-kredit sisteminin yaranması valyuta siyasətini makroiqtisadi siyasə-



tin aparıcı istiqamətlərindən birinə çevirmişdir. Keçid iqtisadiyyatında onun yeni rolu aşağıdakı amillərlə əlaqədardır.

Birincisi, xarici ticarətin liberallaşdığı, miqdar məhdudlaşdırılmasından tarif məhdudlaşdırılmasına keçildiyi bir şəraitdə sabit valyuta məzənnəsi xarici ticarət sahəsindəki islahatların mənfi nəticələrini azaldır. Milli valyutanın dəyərdən düş-məsi idxal mallarını bahalaşdırır. İkincisi, tədiyə balansı və hər şeydən əvvəl cari əməliyyatlar balansının tarazlaşdırılmasında əsas ağırlıq məhz valyuta məzənnəsi üzərinə düşür. Əgər cari əməliyyatlar balansının pisləşməsinin əsas səbəbi daxili qiymətlərin sürətlə artması nəticəsində ölkənin xarici bazarlarda rəqabət gücünün itirilməsidirsə, milli valyutanın revalvasiyası ölkənin rəqabət gücünün bərpa olunmasına yardım edir. Bu prosesə keçid iqtisadiyyatı şəraitində olan ölkələrin hamısında təsadüf edilir. Üçüncüsü, valyuta məzənnəsi, valyuta bazarına olan tələb və təklifin tarazlaşması islahat dəyişikliklərinin ilk mərhələsində keçid dövrünə xas olan daha bir funksiyanı yerinə yetirir: o nisbi qiymətlərdəki inzibati-amirlik sistemindən miras qalmış eybəcərlikləri aradan qaldırır. Dördüncüsü, valyuta məzənnəsinin nisbi sabitliyi milli valyutanın ümumi sabitliyi və ona etibarın art-ması üçün baza yaradır.

*Cədvəl № 8. 1.*

**1994-1997-ci illərdə MDB ölkələrində 1 ABŞ dollarına düşən milli valyuta vahidi. (orta hesabla il ərzində)***

| | 1994 | 1995 | 1996 | 1997 |
|---|---|---|---|---|
| Azərbaycan manatı | 1169 | 4417 | 4295 | 3987 |
| Ermənistan dramı | 288, 35 | 406, 93 | 413, 47 | 490, 70 |
| Belarus rublu | 3592 | 11517 | 13673 | 26378 |
| Gürcüstan larisi | 1099 | 1, 29 | 1, 26 | 1, 30 |
| Qazaxıstan tanqası | 35, 92 | 60, 93 | 67, 28 | 75, 41 |
| Qırğızıstan somu | 10, 34 | 10, 82 | 12, 81 | 17, 37 |
| Moldova leyi | 4, 07 | 4, 50 | 4, 60 | 4, 62 |
| Rusiya rublu | 2204 | 4554 | 6124 | 6785 |
| Tacik rublu | 2204 | 107, 59 | 292, 89 | 560, 64 |
| Türkmən manatı | 19, 05 | 110, 42 | 3509 | 4143 |
| Özbək somu | 9, 95 | 29, 81 | 40, 15 | 66, 43 |
| Ukrayna qrivnası | 31, 7 | 147, 3 | 1, 83 | 1, 862 |

* [234, s. 112]

Keçid iqtisadiyyatı şəraitində olan ölkələrdə inzibati-amirlik sistemi dağıl-dıqdan sonra valyuta məzənnəsi rejiminin seçilməsi problemi bir sıra amillərin təsiri altında çətinləşmişdir. Əslində tamamilə yeni valyutanın buraxılması ilə

əlaqədar olaraq mahiyyətcə yeni valyuta məzənnəsi rejiminə keçilməsi vəzifəsi qarşıda dururdu, valyuta dönərliliyi təcrübəsi yox idi, valyuta bazarı yenicə yaranmağa başlamışdı, bazar islahatları aparan ölkələrə etibar dərəcəsi çox aşağı idi. Bu ölkələrdə daxili iqtisadi vəziyyəti istehsalın kəskin azalması, real həyat səviyyəsinin aşağı düşməsi, qiymətlər liberallaşdırıldıqdan sonra yüksək inflyasiya, hiperinflyasiya ilə xarakterizə edilirdi (bax: cədvəl 8. 1. ) Xarici iqtisadi fəaliyyət sahəsində bu ölkələrin çoxunda ticarət şərtləri pisləşmiş, real valyuta məzənnəsi artmış, rəqabət gücü aşağı düşmüş, ödəniş balansının gərginliyi artmış, ənənəvi bazarlar itirilmiş, iqtisadi əlaqələr pozulmuş, MDB məkanında rubl zonası iflasa uğramışdır.

Yeni valyuta tətbiq edilməyə başlarkən 90-cı illərin əvvəllərində bu ölkələrdə çoxsaylı valyuta məzənnəsi sistemləri milli valyutaların devalvasiya edilmələrinə baxmayaraq saxlanılırdı. Onların bəziləri isə bir sıra idxal-ixrac əməliyyatları üçün üzən məzənnə tətbiq etməyə başladılar. Lakin çoxsaylı valyuta məzənnələri sisteminin saxlanılması ixracatçıları çox ağır vəziyyətə salmaqla, onları əldə edilən valyuta gəlirlərini gizlətməyə məcbur edirdi. Bu isə ölkənin valyuta ehtiyatının azalmasına, «qara» valyuta bazarlarının fəallaşmasına səbəb olurdu. Hal-hazırda bu ölkələrin çoxu, Belarusiya, Özbəkistan, Türkmənistan və Tacikistandan başqa həmin sistemdən imtina etmişlər. Çoxsaylı valyuta məzənnəsi sistemindən imtina edilməsi və valyuta məzənnəsinin vahid şəkildə salınması xarici ticarətin liberallaşması ilə yanaşı «qara» valyuta bazarının ləğv olunmasına, valyuta gəlirlərinin gizlədilməsinin qarşısının alınmasına, iqtisadi agentlərin valyuta bazarında bərabər fəaliyyət göstərməsinə, ayrı-ayrı idxalatçılar və ixracatçıların çoxsaylı valyuta məzənnəsi sistemindən sui-istifadə etməsi hallarının aradan qaldırılmasına, daxili qiymətlərin dünya qiymətlərinin səviyyəsinə yaxınlaşdırılmasına imkan verdi.

Bu ölkələrin çoxunda çoxsaylı valyuta məzənnələri sisteminin əvəzinə çevik valyuta məzənnəsi bəzi ölkələrdə sərbəst üzən valyuta məzənnəsi, digərlərində isə (valyuta ehtiyatları imkan verdikdə) «idarə olunaraq üzən» valyuta məzənnəsi sistemi kimi özünü göstərdi. Sonuncu sistem valyuta məzənnəsinin arzuolunmaz istiqamətdə dəyişməsinin qarşısının alınması üçün valyuta bazarına mərkəzi bankın müdaxiləsinə imkan verir. Belə valyuta məzənnəsi rejimini Estoniyadan başqa keçmiş SSRİ-yə daxil olan bütün respublikalar, habelə Şərqi və Mərkəzi Avropa ölkələri (Macarıstan, Polşa, Slovakiya, Çexiya və Xorvatiyadan başqa) tətbiq edirlər [199].

Çevik valyuta məzənnəsi siyasəti bu ölkələrin əksəriyyətinin məruz qaldığı ağır xarici iqtisadi təsiri (ticarət şərtlərinin pisləşməsi, rəqabət qabiliyyətinin azalması, ənənəvi bazarların itirilməsi və yeni bazarlar tapılması çətinliyi nəticəsində xarici ticarət dövriyyəsinin kəskin olaraq azalması) nisbi yüngülləşdirməyə az da olsa imkan verirdi. Beynəlxalq kapital hərəkəti məhdud olduğu və kapital axınının valyuta bazarına təsiri çox az olduğu keçid iqtisadiyyatı ölkələrində məhz rəqabətqabiliyyətliliyi və cari əməliyyatlar balansının vəziyyəti haqqında göstəricilər valyuta məzənnəsi siyasəti seçilərkən əsas meyar kimi götürülür.

Çoxsaylı valyuta məzənnələri sistemindən imtina edilməsi ilə yanaşı keçid iqtisadiyyatı şəraitində olan ölkələr valyutanın dönərliliyini özünəməxsus şəkildə



tətbiq etməyə başladılar. Burada dönərlilik deyəndə valyuta dəyişdirilməsi sövdələrində məhdudiyyətin olmaması nəzərdə tutulur. Valyutanın dönərliliyinə mövcud olan məhdudiyyət dərəcəsindən asılı olaraq üç növ dönərlilik mövcuddur: daxili dönərlilik, cari əməliyyatlar hesabı üzrə dönərlilik və kapital hərəkəti hesabı üzrə dönərlilik.

Daxili dönərlilik dedikdə, rezidentlərə aktivlərin bəzi növlərinin (məsələn, nəğdi və bank depozitlərini) əldə etməsi və saxlanılması üçün imkan verilməsi nəzərdə tutulur. Cari əməliyyatlar hesabı üzrə dönərlilik isə mal və xidmət idxalı ilə əlaqədar əməliyyatlar üzrə valyuta dəyişdirilməsinə məhdudiyyətin olmamasını nəzərdə tutur. Kapitalın hərəkəti hesabı üzrə dönərlilik isə milli sərhədlərdən kapital hərəkətinə və müvafiq olaraq belə əməliyyatlar zamanı valyuta dəyişdirilməsinə məhdudiyyətlərin olmaması deməkdir. Lakin valyuta dəyişdirilməsi əməliyyatlarına məhdudiyyətin olmaması, heç də xarici ticarət məhdudiyyətlərinin olmaması demək deyildir. Tam dönərlilik istər valyuta dəyişdirilməsi üzrə sövdələrə, istərsə də beynəlxalq ticarətə məhdudiyyətlərin olmamasını nəzərdə tutur.

Bazar islahatlarının həyata keçirilməyə başlandığı ilk mərhələdə bu ölkələr daxili dönərliliyə icazə verdilər. Bu tədbirlə onlar rezidentləri əllərində olan nəğd valyutaları satmağa, yaxud da depozitə çevirmək üçün vadar etməyə, bununla da valyuta ehtiyatlarını banklara yönəltməyə, habelə, «qara bazarla» rəsmi iqtisadi strukturu inteqrasiya etməyə çalışırdılar. Bu ölkələrin çoxunda xaricə gedən turistlərə valyuta dəyişdirilməsində məhdudiyyət var idi.

90-cı illərin ortalarında Mərkəzi və Şərqi Avropa ölkələri, Baltikyanı dövlətlər, Rusiya, Azərbaycan, Qırğızıstan, Moldova, Gürcüstan, Ermənistan cari əməliyyatlar hesabı üzrə valyuta dönərliliyini tətbiq etdilər. Bu, həmin ölkələrdə iqtisadiyyatın daxili sabitliyi təmin edildikdən, bazar mühiti yaradıldıqdan, nisbi qiymətlərin dünya strukturuna keçildikdən, xarici iqtisadi əlaqələr sahəsində nisbi sabitlik yarandıqdan sonra mümkün oldu. Bütün bunlar valyuta məzənnəsini daimi qalxıb-düşmələrdən xilas etdi, onları sabitləşdirdi və milli valyutaya etibarı yüksəltdi. Kapital hərəkəti hesabı üzrə dönərliliyin tətbiq edilməsi bu ölkələrdə hələlik həyata keçirilmir (tam dönərliliyin tətbiq edildiyi Baltikyanı ölkələr və Slovakiya istisna olmaqla). Çünki bu tədbir müasir şəraitdə həmin ölkələrdə kapitalın xaricə axmasına gətirib çıxara bilər.

Müstəqillik əldə edildikdən dərhal sonra - 15 avqust 1992-ci ildə milli valyuta - manatın tədavülə buraxılması və rubl zonasından çıxılması Azərbaycan Respublikasının iqtisadi istiqlaliyyətə nail olunması yolunda ən mühüm addımlardan biri oldu. Milli valyutanın buraxılması və idarə olunmasında, onun sabitliyinin təmin olunmasında təcrübə olmadığına və bu sahədə buraxılan çoxlu nöqsanlara baxmayaraq, bu tədbir Azərbaycan üçün taleyüklü idi. 70 il ərzində mövcud olmuş iqtisadi sistemin iflası və ənənəvi xarici iqtisadi əlaqələrin alt-üst olması nəticəsində Respublikada yaranmış dərin iqtisadi böhran tədavülə buraxılmış gənc milli valyutanın iqtisadi bazasını sarsıdaraq uzun müddət hiperinflyasiya vəziyyəti yaratmışdır. Təsirli gömrük çəpərlərinə malik olan milli bazarın formalaşmaması, müstəqil xarici ticarət mexanizminin yaranmasındakı çətinliklər bu vəziyyəti daha da dərinləşdirirdi.

- rezidentlərə məxsus olan xarici qiymətli kağızların məcburi müsadirə edilməsi və onların valyutaya satılması. Bu tədbiri ikinci dünya müharibəsindən əvvəl Almaniya, müharibə dövründə və sonra Böyük Britaniya tətbiq etmişdir;

- xarici borcların qaytarılmasının tam və ya qismən dayandırılması, yaxud onun milli valyuta ilə ödənilməsinə icazə verilməsi (xaricə köçürülməsi şərtilə).

Bu tədbirlər də 1929-33-cü illər böhranı zamanı geniş tətbiq edilmişdir. Fövqəladə hallarda qızılın beynəlxalq hərəkətinə də məhdudiyyətlər qoyulur.

Tədiyə balansının müsbət qalığı olduqda, istər ölkəyə kapital axınını ləngitmək, istərsə də milli valyutanın məzənnəsini yüksəltmək məqsədilə maliyyə əməliyyatları üzrə bir sıra məhdudlaşdırmalar edilir.

Valyuta nəzarəti və valyuta məhdudlaşdırmalarının iqtisadi nəticələri.

Valyuta nəzarəti və valyuta məhdudlaşdırmaları dərəcəsindən. Bu nəticələr valyuta nəzarəti və valyuta məhdudlaşdırmaları dərəcəsindən, ayrı-ayrı ölkələrin iqtisadi vəziyyətindən və onların dünya iqtisadiyyatında oynadığı roldan asılıdır. Bir çox hallarda bu amil malın qiyməti, keyfiyyət və satış şərtləri ilə birlikdə rəqabətqabiliyyətliliyinə təsir göstərir. Valyuta məhdudlaşdırmalarının nəticəsi rəsmi valyuta məzənnəsinin müəyyən səviyyədə saxlanılmasıdır. Lakin sərbəst bazarda paralel, rəsmi məzənnəyə nisbətən xeyli yüksək məzənnə, qeyri-leqal bazarda isə daha yüksək məzənnə yaranır.

Valyuta nəzarəti rejimində əsas məqsəd valyuta tələbini məhdudlaşdırmaqdır.

Bu məqsədlə, məsələn lyuks avtomobillərin idxalı üçün il ərzində sərf edilən maksimum valyuta limiti müəyyənləşdirilir. Bundan əlavə yaranan valyuta tələbinə rəsmi icazə verilmir. Bu isə həmin tələbin qeyri-leqal bazardan yüksək məzənnə ilə təmin olunmasına və müvafiq olaraq qara bazarın hüdudlarının genişlənməsinə yol açır. Qara bazardakı valyuta məzənnəsi ilə rəsmi məzənnə arasındakı fərq artdıqca, valyutanın qaçaqmalçılıq yolu ilə sərhədləri keçməsi, ölkə daxili valyuta möhtəkirliyi təşviq edilir.

Valyuta möhtəkirliyi - bank, firma və ayrı-ayrı fiziki şəxslərin valyuta bazarlarında valyuta məzənnəsinin dəyişəcəyini ehtimal edərək və əvvəlcədən düşünülmüş şəkildə valyuta riskini öz üzərlərinə götürərək gələcəkdə qazanc əldə etmək məqsədilə valyuta alqı-satqı ilə məşğul olmalarıdır.

Möhtəkirlikdə ən mühüm məsələ bugünkü spot məzənnələrin gələcək vəziyyətinin düzgün proqnozlaşdırmaqdır. Möhtəkir sabah bazarda spot məzənnənin ehtimal olunan valyutanı satın alır və əksinə azalacağı ehtimal olunan valyutanı isə satır. Şübhəsiz, möhtəkirlərin ehtimalları fərdidir və ona görə də bir-birindən fərqlənir. Onların ehtimalları fərqli olduğu üçün hərəkət tərzləri də müxtəlifdir.

Möhtəkirlik müddətli valyuta əməliyyatları ilə əlaqədar, xüsusən geniş yayılmışdır.

Valyuta möhtəkirliyi ya açıq valyuta pozisiyasının yaranmasına yönəlmiş əməliyyatlar aparılması və yaxud da valyuta riskinin sığortalanması üzrə əməliyyatların qəsdən aparılmaması yolu ilə həyata keçirilir.

Valyuta möhtəkirliyinin nəticəsi gələcək valyuta məzənnəsinin düzgün proqnozlaşdırılmasından asılı olduğu üçün, o mənfəət də, zərər də gətirə bilər, hətta firmanı müflis edə bilər.



Valyuta nəzarəti və valyuta məhdudlaşdırmaları son nəticədə aşağıdakılara səbəb olur.

1. Dönərlilikdən uzaqlaşma. Geniş mənada valyuta nəzarəti mexanizmini və valyuta məhdudlaşdırmalarını tətbiq edən ölkələrdə valyuta dönərliliyi aradan qalxır. Bunun nəticəsində beynəlxalq ödəmələr çoxtərəfli müvazinət yaradılması əvəzinə ikitərəfli sazişlərin köməyi ilə aparılır. Bu sazişlərdə hansı malın hansı miqdarda alınıb-satılacağı müəyyənləşdirilir və alqı-satqı dönərli valyutadan istifadə edilmədən həyata keçirilir. Bununla da qiymət və maya dəyəri arasındakı əlaqə pozulur, ölkələr arasında ayrı-seçkilik salınır, xarici ticarətdə qeyri-müəyyənlik yaranır. Nəticədə beynəlxalq ixtisaslaşmada müqayisə üstünlük prinsipindən uzaqlaşdırılır.

Valyuta nəzarətinin çoxtərəfli ödəmələrdən ikitərəfli sazişlər ilə ödəmələrə keçilməsinə səbəb olduğunu bir misalla əyani şəkildə izah edək. Fərz edək ki, A ölkəsinin B ölkəsi ilə ticarətində kəsir vardır və o bu kəsiri B ölkəsindən olan müsbət ticarət qalığı ilə ödəyir. İndi fərz edək ki, B ölkəsi valyuta nəzarəti rejimini tətbiq edir. Bu halda A ölkəsinə olan borcunu B ölkəsindən olan müsbət ticarət qalığı ilə ödəyə bilməyəcəkdir. Çünki B ölkəsindən dönərli valyuta əldə etmək imkanı məhdudlaşdırılmışdır. Bunun nəticəsində A ölkəsi B ölkəsi ilə olan ticarətini ikitərəfli ticarət sazişi ilə tarazlaşdırmağa çalışacaqdır. Bu zaman ya idxalatı məhdudlaşdıracaq və ya ixracatını artıracaqdır. Adətən belə hallarda idxalat məhdudlaşdırılır. Beləliklə B ölkəsinin A ölkəsinə ixracatı azalacaq, A ölkəsi də üçüncü ölkələrdən olan idxalatını məhdudlaşdıracaqdır. Nəticədə valyuta nəzarəti mexanizmi dünya ticarət həcminin də azalmasına səbəb olur.

2. Pul gəlirlərinin yenidən bölgüsü. Valyuta nəzarətinin belə bir təsiri ölkə daxilində mövcud olan iqtisadi şərtlərdən asılıdır. Hər şeydən əvvəl, sərt valyuta nəzarəti rejiminin tətbiqi pul gəlirlərinin dövlətin xeyrinə yenidən bölüşdürülməsinə səbəb olur. Çünki ölkədə valyuta gəliri əldə edənlər həmin valyutanı rəsmi müəyyən edilmiş məzənnə ilə dövlətə satmağa məcburdur. Bundan əlavə dövlət valyuta satışlarından vergi də alır. İxracatçılar və digər valyuta əldə edənlər, bu valyutanı sərbəst dəyişən valyuta məzənnəsi ilə satılmağa icazə verirlərsə, mənfəətli olurlar.

Əksinə, idxalatçılar tək məzənnəli valyuta nəzarəti rejimində idxalatın məhdudlaşdırılması ilə əlaqədar olaraq qiymətlərin artmasının yaratdığı mal qıtlığından faydalanırlar.

3. Beynəlxalq əmək bölgüsündə müqayisəli üstünlüklər prinsipindən uzaqlaşma.

Valyuta nəzarəti tətbiq edilən ölkələrdə idxalatçılar hər hansı bir malı ən ucuz olan ölkədən deyil, onlara hansı ölkənin valyutası ayrılmışdırsa, məhz həmin ölkədən və yaxud bu valyuta harada qəbul edilirsə oradan almağa məcburdur. Məsələn, dünyada ən yaxşı toxuculuq dəzgahları Almaniyada istehsal edildiyi halda, həmin dəzgahların idxalı üçün onlara ayrılmış fransız frankı aşağı məzənnə ilə satılırsa, ölkədəki idxalatçılar daha ucuz olduğu üçün aşağı keyfiyyətli fransız dəzgahları almalı olurlar. Beləliklə, ölkə eyni miqdar valyuta ilə Almaniyadan daha keyfiyyətli və daha çox dəzgah almaq əvəzinə, Fransadan ucuz, lakin keyfiyyətsiz dəzgah idxal edirlər. Yaxud, tutaq ki, fərqli məzənnə sistemi tətbiq etməklə A

Daxili faiz dərəcələrindəki artım isə borc pul əldə edilməsi məsrəflərini artıraraq real pul tələbini azaldır. Bu da pul təklifi «artıqlığını» yaradır və bu «artığın» bir hissəsi xarici bazarlara yönəlir. Beləliklə, bütün bunlar tədiyə balansına mənfi təsir göstərir.

Qiymətlərin ümumi səviyyəsinin aşağı düşməsi isə nominal pul kütləsinin alıcılıq qabiliyyətini aşağı salır. Fərdlərin pul kütləsinin real dəyərinin sabit saxlanması üçün pul tələbi artır. Bu da, mərkəzi bank daxili kredit həcmini artırmadıqda, ölkəyə valyuta daxil olmasının çoxalmasına səbəb olur. Yenə də göstərilən nəzəriyyənin əksi olan bir nəticə alınır. Çünki həmin nəzəriyyəyə görə qiymət artımı rəqabət gücünü azaldaraq, xarici ödəmələrdə kəsiri çoxaldır.

Beləliklə, göstərilən üsullardan hansının tətbiq edilməsinin məqsədəuyğun olması ciddi analitik tədqiqatlar aparılmaqla müəyyən edilməlidir.

5. Xarici iqtisadi müvazinətin təmin olunması üçün xüsusi dövlət tədbirləri. Bu tədbirlər tədiyə balansının əsas maddələrinin (ticarət balansı, «görünməyən» əməliyyatlar, kapital hərəkəti) formalaşması prosesi ilə əlaqədardır. Dövlət tənzimlənməsinin mühüm obyekti ticarət balansıdır. Müasir mərhələdə dövlət tənzimlənməsi yalnız tədavül sferasını deyil, həm də ixracat malları istehsalını da əhatə edir. Malların satışı mərhələsində ixracatın təşviq olunması qiymətlərə təsir göstərilməsi (ixracatlara vergi, kredit güzəştləri edilməsi, xüsusi valyuta məzənnəsinin tətbiq edilməsi və s. ) yolu ilə həyata keçirilir. Dövlət mal ixracına və xarici bazarların ələ keçirilməsinə ixracatçıların uzun müddətli marağını yaratmaq üçün məqsədli ixracat kreditləri verir, onları iqtisadi və siyasi riskdən sığortalayır, əsas kapitalın güzəştli amortizasiya sistemini tətbiq edir, müəyyən ixracat proqramının yerinə yetirilməsi öhdəçiliyi müqabilində digər maliyyə-kredit güzəştləri edir.

Dünya bazarlarında rəqabət mübarizəsinin kəskinləşməsi ilə əlaqədar olaraq ixracatyönlü istehsalda milli firmaların xarici şirkətlərlə sahədaxili ixtisaslaşması və kooperasiyası təşviq edilir. Beynəlxalq ixtisaslaşmanın artırılması üçün dövlət kiçik və orta firmaların ixracat fəaliyyətini təşviq edir. «Yaşıl neft» hesab edilən kənd təsərrüfatı məhsulları ixracının artırılması üçün tədbirlər görülür. Maşın və avadanlıq ixracına yardım edilir. İxracatın dövlət tənzimlənməsi xarici bazarların öyrənilməsindən başlayaraq xaricdə satışdan sonrakı xidmətə qədər mal hərəkətinin bütün mərhələlərini əhatə edir.

İxracatın təşviq olunması üsulları getdikcə daha çox kompleks şəkildə tətbiq edilir. Onlar ixracatçılara valyuta, kredit, maliyyə, təşkilati, reklam, informasiya, kadr hazırlığı və s. sahəsində dəstək verilməsi yolu ilə həyata keçirilir. Kapital ixracı da hələ çoxdan ixracatın təşviqi məqsədilə istifadə edilir. Tədiyə balansının passiv qalığı olduqda idxalın əvəz olunması üçün analoji məhsulların milli istehsalının təşviq olunması yolu ilə idxal mallarına valyuta sərfi ixtisar edilir, qeyri-tarif məhdudlaşdırmaları tətbiq olunur.



# FƏSİL IX.

## AZƏRBAYCANDA MALİYYƏ SEKTORUNUN İNKİŞAF PROBLEMLƏRİ

### 9. 1. Azərbaycan Respublikasında pul-kredit siyasətinin əsas istiqamətləri.

Müasir bazar iqtisadiyyatı eyni zamanda pul iqtisadiyyatı deməkdir. Dövlətin pul tədavülü sahəsində həyata keçirdiyi tədbirlər kompleksi pul-kredit siyasəti adlanır. Həmin siyasət ya kredit və pul emissiyasının (kredit ekspansiyası) təşviqinə, ya da onların məhdudlaşdırılmasına (kredit restriksiyası) yönəldilir. İstehsal azaldıqda və işsizlik artdıqda Mərkəzi banklar krediti genişləndirmək və faiz normasını artırmaqla konyukturanı canlandırmağa çalışırlar. Əksinə, iqtisadi yüksəliş çox vaxt birjada möhtəkirliyin artması, qiymətlərin yüksəlməsi, iqtisadiyyatda disproporsiyaların artması ilə müşaiyət olunur. Belə hallarda Mərkəzi banklar kreditlərin məhdudlaşdırılması, faiz dərəcələrinin yüksəldilməsi, ödəmə vasitələri emissiyasının azaldılması və s. yolu ilə konyuktura qızğınlığının qarşısının alınmasına çalışırlar. Azərbaycanda ardıcıl şəkildə həyata keçirilən radikal iqtisadi islahatlar adekvat pul-kredit siyasətinin də aparılmasını tələb edirdi. Belə bir siyasət dövlət müstəqilliyi əldə edildikdən dərhal sonra başlanmışdır. Ölkədə müstəqil valyuta və pul-kredit siyasətinin formalaşmasında «Azərbaycan Respublikası milli valyutasının tətbiqi haqqında» 12 iyul 1992-ci il tarixli Fərman, 1992-ci ilin avqust ayında qəbul olunmuş «Milli Bank haqqında», «Banklar və bank fəaliyyəti haqqında» qanunlar mühüm rol oynamışdır.

Prezident Fərmanı ilə 1992-ci il avqustun 15-dən Azərbaycan Respublikasının milli valyutası (manat) dövriyyəyə buraxılmış və 1 manat 10 rubl nisbəti ilə onun rublla yanaşı ödəniş vasitəsi kimi istifadəsinə icazə verilmişdir. [114, s. 285].

1993-cü ilin dekabr ayında imzalanmış Prezident Heydər Əliyevin Fərmanı ilə manat 1994-cü il yanvarın 1-dən Azərbaycan Respublikası ərazisində yeganə ödəniş vasitəsi funksiyasını yerinə yetirməyə başlamışdır. Həmin tarixi müddəa 1995-ci ildə qəbul edilmiş Konstitusiyada öz əksini tapmışdır. Konstitusiyanın 19-cu maddəsində təsbit edilmişdir:

1. Azərbaycan Respublikasının pul vahidi manatdır.

2. Pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququ yalnız Milli Banka mənsubdur. Azərbaycan Respublikasının Milli Bankı dövlətin müstəsna mülkiyyətindədir.

3. Azərbaycan Respublikasının ərazisində manatdan başqa pul vahidlərinin ödəniş vasitəsi kimi işlədilməsi qadağandır.

Keçmişdə birbaşa Moskvaya tabe olan Sənaye İnvestisiya, Aqrar Sənaye, Əmanət və Xarici İqtisadi bankların Azərbaycan şöbəsinin bazasında nəzarət -

ildə isə 35%-ə enmişdir. Bu nisbətən az bir müddət ərzində milli kredit bazarında ciddi irəliləyişlər olduğunu göstərir. (bax. cədvəl 9. 1)

*Cədvəl 9. 1*

**Kredit təşkilatlarının müddətlər üzrə kredit qoyuluşları (Mln.man.)**

| İl | Cəmi Kreditlər | Milli valyutada kreditlər | | | Xarici valyutada kreditlər | | |
|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | Qısamüddətli | Uzunmüddətli | Cəmi kreditlər | Qısamüddətli | Uzun müddətli |
| **2001** | 486,2 | 176,8 | 167,2 | 9,6 | 309,4 | 186,7 | 122,7 |
| **2002** | 520,2 | 173,4 | 540,0 | 19,4 | 346,8 | 220,8 | 126,0 |
| **2003** | 670,3 | 227,2 | 187,6 | 39,6 | 443,1 | 299,4 | 143,7 |
| **2004** | 989,6 | 357,5 | 285,8 | 71,7 | 632,1 | 415,1 | 217,0 |
| **2005** | 1441,0 | 542,9 | 353,1 | 189,8 | 898,0 | 560,1 | 337,9 |
| **2006** | 2362,7 | 1170,5 | 597,4 | 573,1 | 1192,2 | 544,6 | 647,6 |
| **2007** | 4681,8 | 2513,7 | 1066,4 | 1447,3 | 2168,1 | 583,1 | 1615,8 |

Əmanət bazasının artımı banklar tərəfindən iqtisa redit qoyuluşlarının artmasının əsas amillərindən olmuşdur.

1995-ci ildən etibarən uçot dərəcəsinin çevikliyi və banklara satılan mərkəzləşmiş kredit resursları həcminin məhdudlaşdırılması banklar tərəfindən iqtisadiyyata kredit qoyuluşları 1993-cü illə müqayisədə 1994-cü ildə 7, 5 dəfə, 1995-ci ildə 2, 3 dəfə, 1996-cı ildə 1, 3 dəfə, 1997-ci ildə 6, 7%, 1998-ci ildə isə 9, 8% artmışdır. Bu artan verilən kreditlərin həcminə təsir göstərmişdir. Azərbaycanda iqtisadiyyata kredit 2000-2007-ci illərdə isə 10 dəfə olmuşdur.

Əgər 1998-ci ilin yanvar ayında Azərbaycanda milli valyuta ilə qısamüddətli kreditlərə görə orta faiz dərəcəsi 25, 3% olmuşdursa, dekabr ayında bu göstərici 20.



faiz dərəcəsi 20%-dən 19, 8%-ə enmişdir.

Sonraki illərdə iqtisadi konyukturun vəziyyətindən asılı olaraq faiz dərəcələrinin bazar şərtlərinə uyğunlaşdırılması siyasəti aparılmışdır. (bax: cədvəl 9. 2 )

2007-ci ildən inflyasiya təzyiqinin güclənməsi ilə əlaqədar olaraq faiz dəhlizi prinsipinə keçilmişdir.

1. IV. 2007-ci ildən sonra uçot dərəcəsi 9, 7 faizdən 12 faizə, iyunun 1-dən isə 13 faizə qaldırılmışdır.

Kredit bazarında investisiya alətlərini genişləndirmək və kommersiya bankları tərəfindən likvidliyin səmərəli idarə olunmasına əlverişli şəraitin yaradılması məqsədilə Milli Bank Banklararası Kredit Bazarında overnayt və lombard kredit mexanizmlərinin tətbiqinə başlanmışdır.

*Cədvəl 9. 2*

**Depozit və kreditlər üzrə orta faiz dərəcələri***

| | Depozit və əmanətlər üzrə | Verilmiş kreditlər üzrə | Banklararası kreditlər üzrə |
|---|---|---|---|
| 01.01.2003 manatla | 8, 28 | 15, 59 | - |
| Xarici valyuta ilə | 9, 34 | 12, 79 | - |
| 01. 01. 04 manatla | 6, 50 | 14, 91 | 18, 62 |
| Xarici valyuta ilə | 10, 08 | 18, 43 | 16, 92 |
| 01. 01. 05 manatla | 6, 93 | 15, 35 | 12, 15 |
| Xarici valyuta ilə | 9, 43 | 18, 96 | 12, 24 |
| 01. 01. 06 manatla | 8, 92 | 15, 14 | 16, 43 |
| Xarici valyuta ilə | 10, 19 | 17, 11 | 10, 73 |
| 01. 01. 07 manatla | 10, 39 | 11, 45 | 17, 23 |
| Xarici valyuta ilə | 11, 58 | 14, 90 | 13, 56 |

*Milli Bankın Statistik Bülleteni, 2007, N4, [illegible]

Mustəqil Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının yaranması yeni iqtisadi tariximizdə ən mühüm hadisələrdən biridir. Bu bazarın mövcudluğu hər ölkənin iqtisadi tərəqqi amillərindən, Azərbaycanı dünya iqtisadi sisteminə yaxınlaşdıran vacib maliyyə infrastrukturlarından biridir. 1996-cı ildən başlayaraq Azərbaycan Respublikasında görülmüş tədbirlər nəticəsində qiymətli kağızlar bazarı mexanizmini işə salmağa və dövlət istiqraz vərəqlərinin mütəşkil bazarının yaradılmasına imkan verən lazımi infrastruktur yaradılmışdır. 1999-cu ilin dekabrında Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli kağızlar üzrə Dövlət Komitəsinin yaranması bu sahədə dövlət siyasətinin vahid mərkəzdən həyata keçirilməsini təmin etmişdir. Həmin Fərman ölkəmizdə sivil qiymətli kağız-

həyata keçirilməsini təmin etmişdir. Həmin Fərman ölkəmizdə sivil qiymətli kağızlar bazarının formalaşmasının başlanğıcı olmuşdur. Bu sənədə müvafiq olaraq, qiymətli kağızlar bazarının formalaşdırılması, tənzimlənməsi, bu sahədə dövlət siyasətinin həyata keçirilməsi və nəzarət Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinə həvalə edilmiş, Komitənin Əsasnaməsi təsdiq edilmişdir. 8 noyabr 1999-cu il tarixli Fərman isə ölkədə sivil qiymətli kağızlar bazarı infrastrukturunun yaranması, 12 fəaliyyət növünü tənzimləmə və stimullaşdırılmaq, korporativ kağızlar bazarını genişləndirmək və investisiya axınını gücləndirmək məqsədilə onların dövlət tərəfindən nizamlanması yolunda yeni prioritetli addımlardan biri olmuşdur. Qısa tarixi dövr ərzində ölkəmizdə ilk fond birjası yaradılmış, Bakı Fond Birjasına daxil olmuş səhmdarlar ölkəmizin iqtisadi inkişafına öz önəmli paylarını qoymağa başlamışlar. Birjada şəffaf listinq proseduru nəzərdə tutulub. Buna görə qiymətli kağızların həm sahibləri, həm də alıcıları üçün bərabər imkanlar yaradılıb ki, onlar birja fəaliyyətinin beynəlxalq normalara uyğun olaraq öz hüquqlarından istifadə etsinlər. Artıq xarici ölkələrin birjaları Bakı Fond Birjasına maraq göstərirlər və onun işində iştirak edirlər. Ölkədə gedən iqtisadi islahatlar, strateji özəlləşdirmənin aparılması qiymətli kağızlar bazarının inkişafına təkan verib. Hazırda dövriyyədə dövlət qısamüddətli istiqrazları, özəlləşdirmə payları və opsionlar, səhmdar cəmiyyətlərin səhmləri, kredit təşkilatlarının depozit sertifikatları, vekselllər və vauçerlər vardır. Qiymətli kağızların infrastrukturunun əsasını təşkil edən peşəkar iştirakçılar-broker, diler təşkilatları, fond birjası, depozitarya, reyestrsaxlayıcılar fəaliyyət göstərirlər. Qiymətli kağızlar bazarında institusional qurumlardan ən dinamik inkişaf edəni məhz depozitariyadır. Bu günə cəmi iki təşkilat həmin fəaliyyət növü üzrə lisenziyaya malikdir. QKDK tərəfindən təsis olunmuş Milli Depozit Mərkəzi indiyədək qiymətli kağızların saxlanması və reyestrinin aparılmasına dair 632 müqavilə bağlayıb, 9 ay ərzində 10, 792 mln. ədəd səhmlər özgəninkiləşdirilib. Proses yavaş-yavaş güclənməkdədir.

Azərbaycan Respublikasında qiymətli kağızlar bazarını dörd sahəyə bölmək olar:

- dövlət qiymətli kağızlar bazarı-dövlət qısamüddətli istiqrazları;
- borc öhdəlikləri və veksellər bazarı;
- dövlət özəlləşdirmə payları(çeklər) və opsionlar korporativ qiymətli kağızlar bazarı.

Dövlət qısamüddətli istiqrazları Bakı Fond Birjası tərəfindən yerləşdirilir.

Birjanın ticarət sistemi 2000-ci ildən işləməyə başlayıb və az müddət ərzində sürətlə inkişaf etməyə başlamışdır. (bax cədvəl 9. 3.)

Cədvəl 9. 3 məlumatlarından göründüyü kimi dövlət qiymətli kağızlar bazarında ölkəmizdə iqtisadi potensial gücləndikcə canlanma özünü göstərir.



*Cədvəl 9. 3.*

**Dövlət qısamüddətli istiqrazları***

| Hərracın tarixi | Tədavül müddəti (gün) | Nominal üzrə (mln. manat) | | | Gəlirlilik (%) | | | Hərracda iştirakçıların sayı |
|---|---|---|---|---|---|---|---|---|
| | | Emissiya həcmi | Təqdim olunmuş sifariş həcmi | Yerləşdirilmiş həcm | min | maks. | Orta ölçülmüş | |
| 04. 09. 2006 | 92 | 5, 00 | 9, 06 | 6, 0 | 11, 93 | 12, 99 | 11, 98 | 5 |
| 11. 09. 2006 | 92 | 6, 00 | 2, 25 | 1, 6 | 11, 89 | 11, 98 | 11, 89 | 6 |
| 18. 09. 2006 | 182 | 4, 00 | 2, 59 | 2, 6 | 12, 37 | 13, 01 | 12, 37 | 4 |
| 26. 09. 2006 | 364 | 2, 00 | 0, 34 | 0, 3 | 12, 49 | 12, 49 | 12, 49 | 2 |
| 02. 10. 2006 | 94 | 4, 00 | 2, 81 | 2, 8 | 12, 42 | 13, 00 | 12, 42 | 4 |
| 10. 10. 2006 | 91 | 2, 00 | 0, 15 | 0, 2 | 13, 00 | 13, 00 | 13, 00 | 2 |
| 16. 10. 2006 | 92 | 5, 00 | 3, 66 | 2, 5 | 12, 27 | 12, 99 | 12, 27 | 3 |
| 26. 10. 2006 | 180 | 4, 00 | 4, 06 | 3, 5 | 12, 99 | 12, 99 | 12, 99 | 4 |
| 31. 10. 2006 | 364 | 2, 00 | 2, 27 | 2, 3 | 12, 92 | 12, 99 | 12, 91 | 2 |
| 06. 11. 2006 | 92 | 5, 00 | 7, 15 | 6, 0 | 9, 96 | 9, 96 | 9, 96 | 5 |
| 14. 11. 2006 | 91 | 6, 00 | 9, 70 | 6, 0 | 9, 48 | 9, 48 | 9, 48 | 6 |
| 21. 11. 2006 | 175 | 4, 00 | 8, 98 | 5, 0 | 9, 58 | 9, 69 | 9, 58 | 4 |
| 28. 11. 2006 | 364 | 5, 00 | 3, 71 | 2, 6 | 9, 60 | 10, 00 | 9, 60 | 5 |
| 05. 12. 2006 | 91 | 4, 00 | 3, 69 | 3, 7 | 9, 91 | 10, 50 | 10, 03 | 4 |
| 12. 12. 2006 | 91 | 2, 00 | 6, 00 | 6, 0 | 10, 83 | 11, 00 | 10, 92 | 2 |
| 19. 12. 2006 | 182 | 3, 00 | 0, 16 | 0, 1 | 11, 00 | 11, 00 | 11, 00 | 3 |
| 22. 12. 2006 | 91 | 1, 00 | 1, 20 | 1, 2 | 99, 1 | 9, 91 | 9, 91 | 1 |
| 25. 12. 2006 | 91 | 2, 00 | 0, 39 | 0, 4 | 10, 28 | 11, 89 | 11, 64 | 2 |
| 28. 12. 2006 | 96 | 2, 00 | 3, 37 | 3, 4 | 10, 91 | 11, 60 | 11, 40 | 2 |
| 29. 12. 2006 | 92 | 3, 00 | 9, 00 | 4, 0 | 11, 56 | 11, 60 | 11, 56 | 3 |
| 08. 01. 2007 | 92 | 5, 00 | 3, 60 | 1, 2 | 10, 01 | 10, 01 | 10, 01 | 4 |
| 06. 02. 2007 | 91 | 7, 00 | 6, 93 | 3, 0 | 10, 03 | 10, 03 | 10, 03 | 3 |
| 13. 02. 2007 | 93 | 7, 00 | 8, 09 | 7, 0 | 9, 90 | 10, 02 | 9, 94 | 3 |
| 20. 02. 2007 | 182 | 2, 00 | 1, 81 | 1, 8 | 10, 00 | 10, 02 | 10, 02 | 2 |
| 06. 03. 2007 | 91 | 6, 00 | 7, 03 | 6, 0 | 9, 91 | 9, 99 | 9, 95 | 5 |
| 13. 03. 2007 | 182 | 7, 00 | 0, 66 | 0, 7 | 9, 96 | 9, 96 | 9, 96 | 3 |
| 19. 03. 2007 | 98 | 4, 00 | 2, 50 | 2, 3 | 10, 02 | 10, 49 | 10, 41 | 3 |
| 03. 04. 2007 | 91 | 4, 00 | 3, 45 | 3, 45 | 9, 96 | 10, 50 | 10, 28 | 2 |
| 10. 04. 2007 | 182 | 2, 00 | 2, 38 | 2, 00 | 10, 20 | 10, 98 | 10, 60 | 4 |
| 17. 04. 2007 | 91 | 3, 00 | 3, 18 | 3, 00 | 10, 83 | 10, 88 | 10, 83 | 4 |
| 24. 04. 2007 | 364 | 4, 00 | 0, 01 | 0, 01 | 11, 01 | 11, 01 | 11, 01 | 1 |
| 11. 12. 2007 | 364 | 12, 0 | 7, 5 | 7, 0 | 10, 49 | 10, 49 | 10, 49 | 2 |

*Milli Bankın statistik bülleteni 2007, N4. 5 s. 33, 2008, 11. s. 37

Cədvəl 9.4.

**Dövlət qiymətli kağızlar bazarı üzrə əsas göstəricilər**

| İl | Nominal üzrə dövriyyədəki həcm (mln. manat) | | | Dövretmə müddəti (gün) | | | DQK bazarında payı, % | |
|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | DQİ-r | AMB-in notları | Cəmi | DQİ-r | AMB-in notları | DQİ-r | AMB-in notları |
| 1996 | 3,00 | 3,00 | - | - | - | - | 100 | - |
| 1997 | 6,30 | 6,30 | - | - | - | - | 100 | - |
| 1998 | 7,60 | 7,60 | - | - | - | - | 100 | - |
| 1999 | - | - | - | 46 | 46 | - | - | - |
| 2000 | 25,60 | 25,60 | - | 48 | 48 | - | 100 | - |
| 2001 | 38,10 | 38,10 | - | 57 | 57 | - | 100 | - |
| 2002 | 28,00 | 28,00 | - | 50 | 50 | - | 100 | - |
| 2003 | 13,00 | 13,00 | - | 52 | 52 | - | 100 | - |
| 2004 | 20,30 | - | 20,30 | - | - | - | - | 100 |
| 2005 | 39,38 | 15,10 | 24,28 | 26 | 46 | 14 | 38,3 | 61,7 |
| 2006 | 17,66 | 63,02 | 113,6 | 43 | 98 | 12 | 35,7 | 64,3 |
| 2007 | 406,7 | 153,5 | 253,2 | 63 | 148,3 | 11,9 | 37,8 | 62,2 |

Qiymətli kağızların nominal üzrə dövriyyədəki həcmi son beş illərdə 31 dəfə artmışdır. Lakin həmin bazarın mühüm fərqləndirici xüsusiyyəti dövriyyədəki qiymətli kağızların əsas etibarilə qısamüddətli sənədlərdən ibarət olmasıdır.

Milli Bank daxili maliyyə bazarlarının inkişafının stimullaşdırılması və monetar tənzimləmə mexanizminin təkmilləşdirilməsi istiqamətində üç əsas məqsəd üzrə tədbirlər həyata keçirir. Bu tədbirlər ipoteka kreditləri sisteminin inkişaf etdirilməsini valyuta bazarında elektron ticarətin təkmilləşdirilməsini və yeni monetar alətlərin təhlili və tətbiqini əhatə edir.

Azərbaycanın qiymətli kağızlar bazarı maliyyə bazarının nisbətən zəif inkişaf etmiş seqmentidir. 1996-cı ildən başlanmış və pozitiv makroiqtisadi amillərin təsiri altında sürətli inkişaf tempi göstərmişdir. Azərbaycanda mövcud olan ödəməmələr problemi 90-cı illərdə iqtisadiyyatın inkişaf etməsində ən ciddi əngəllərdən biri idi. Ödəməmələr probleminin mövcud vəziyyətində veksel dövriyyəsinin tətbiqi mühüm əhəmiyyət kəsb edir və iqtisadiyyatın hazırki durumu bu problemin həll edilməsi üçün münbit zəmin yarada bilər. Veksel bazarının yaradılması və inkişaf etdirilməsi ölkəmiz üçün çox aktualdır. Qiymətli kağızlar bazarında ən önəmli sektorlardan biri korporativ qiymətli kağızlardır. Özəlləşdirmə prosesinin inkişaf etdirilməsi məqsədi ilə qiymətli kağızlar bazarında "Mavi fişkalar"ın mövcud olması səhm bazarının inkişafına təkan verəcəkdir. Bu istiqamətdə əsas məsələlərdən biri mütəşəkkil səhm alqı-satqısı bazarı yaratmaqdır. Bunun üçün də sahibkarlarda korporativ təfəkkürün formalaşması çox vacibdir. Artıq Bakı Fond Birjasında özəlləşdirilmiş müəssisələrin səhmləri üzrə bir sıra əqdlər bağlanıb.

Bütövlükdə QKDK-nın fəaliyyəti Azərbaycanda qiymətli kağızlar bazarının infrastrukturunun yaranması və inkişaf etdirilməsinə, dövlət tərəfindən tənzimlənməsinə, iqtisadi problemlərin həllinə və yerli bazarın beynəlxalq maliyyə bazarları sisteminə inteqrasiyasına yönəldilmişdir.

Qiymətli kağızlar bazarındakı proseslərə əsasən proqnozlaşdırmaq olar ki, az müddət sonra Azərbaycanda kompakt və sağlam qiymətli kağızlar bazarı olacaq.

Ölkədə iqtisadi artımın sürətlənməsi və struktur islahatlarının dərinləşməsi şəraitində maliyyə bazarlarının bütün seqmentlərində canlanma və inkişaf müşahidə olunmuşdur. Valyuta bazarında əməliyyatlar qiymətli kağızlar bazarında REPO, əks REPO və dilinq əməliyyatları, kredit bazarında mərkəzləşdirilmiş kredit, lombard və overnayt əməliyyatları Milli Bankın əsas maliyyə alətləri olmuşdur.

Milli Bank bu maliyyə alətlərindən istifadə etməklə pul-kredit və məzənnə siyasətinin hədəflərinin həyata keçirilməsini təmin edir. Belə ki, ölkədə iqtisadi artımın fiskal amillərinin fəallaşması nəticəsində artan pul kütləsi parametrlərinə təsir göstərmək məqsədi ilə Milli Bank qiymətli kağızlar bazarında dilinq əməliyyatlarından fəal istifadə edir. Maliyyə bazarlarının etibarlılığının artırılması və bank sisteminin likvidliyinin effekti idarə olunması məqsədi ilə REPO və əks REPO əməliyyatları ilə yanaşı mərkəzləşdirilmiş kredit, overnayt və lombard əməliyyatları Milli Bank tərəfindən geniş istifadə olunur. Əməliyyatların həcminin bazarda artması ilə yanaşı pul siyasətinin açıq əməliyyatlar vasitəsi ilə həyata keçirilməsi imkanlarının genişlənməsi diqqət mərkəzindədir.

2007-ci il ərzində qiymətli kağızlar bazarının inkişafı istiqamətində

məqsədyönlü işlər görülmüşdür. Bu tədbirlərin nəticəsində qiymətli kağızlar bazarında bir neçə il ərzində müşahidə olunan artım tendensiyaları 2007-ci ildə də davam etmişdir. Qiymətli kağızlar bazarının daha intensiv inkişafı üçün bir sıra normativ hüquqi aktlar qəbul edilmişdir. 2007-ci il ərzində 795 mln. manat məbləğində 137 səhm buraxılışı dövlət qeydiyyatına alınmışdır ki, bu da 2006-cı ilin müvafiq göstəricisindən 2, 3 dəfə çox olmişdur. Səhm buraxılışı üzrə 2006-cı ildə 100 emitent qeydiyyata alındığı halda, 2007-ci il ərzində emitent qeydiyyatı 113 olmuşdur.

Səhmlər üzrə təkrar bazarda 147 mln. manat məbləğində əqd bağlanılmışdır ki, bunun da 83 mln. manatlıq hissəsi Bakı Fond Birjasının, 64 mln. manatlıq hissəsi birjadan kənar bazarın payına düşmüşdür.

2007-ci il ərzində 72 mln. manat məbləğində 20 korporativ istiqraz buraxılışı qeydiyyata alınmışdır. Korporativ istiqraz üzrə təkrar bazarda yüksək artım müşahidə olunmuşdur. Belə ki, təkrar bazarda 14 mln manat məbləğində korporativ istiqraz üzrə 171 əqd qeydə alınmışdır ki, bu da 2006-cı ilin göstəriciləri ilə müqayisədə əqdlər üzrə 2, 8 dəfə, məbləği üzrə isə 8 dəfə çox olmuşdur.

2007-ci il üzrə dövlət qiymətli kağızlarının emissiyası və yerləşdirilməsi üzrə göstəricilərin artması müşahidə olunmuşdur. Belə ki. Dövlət qısa müddətli istiqrazlarının emissiyalarının ümumi həcmi 276 mln. manat olmuşdur ki, bu da 2006-cı ilin müvafiq göstəricisindən 25 faiz çoxdur.

## 9. 3. Bank sektorunun formalaşması və inkişafı.

Banklar müasir bazar iqtisadiyyatının təsərrüfat strukturunun qan damarıdır. Müəssisələrin və əhalinin külli miqdarda pul hesablaşmaları və ödəmələri banklar vasitəsilə həyata keçirilir, onlar əhalinin müxtəlif təbəqələrində mövcud olan yığımlar və gəlirləri səfərbər edərək borc kapitalına və onun vasitəsilə də fəal işləyən kapitala çevirir, çoxsaylı kredit, sığorta, vasitəçilik, investisiya və digər əməliyyatları həyata keçirirlər. Keçid iqtisadiyyatı şəraitində istehsalın elmi-texniki yeniliklər əsasında modernləşdirilməsi və yenidən qurulması, istehsal edilmiş məhsulların satılması problemləri borc vəsaitinə külli miqdarda ehtiyac yaradır. Bir sözlə kredit sisteminin modernləşməsi və inkişafı təmin olunmadan iqtisadi inkişafa nail olmaq mümkün deyildir.

Məhz buna görə də müstəqil və modern bank sisteminin yaradılması və inkişaf etdirilməsi Azərbaycanda aparılan radikal islahatların mühüm istiqamətlərindən birini təşkil edir.

7 avqust 1992-ci ildə bu sahədə iki mühüm qanun qəbul edildi: «Milli Bank haqqında» və «Banklar və bank fəaliyyəti haqqında» qanunlar. Onlar müstəqil Azərbaycanın milli bank sisteminin təməlini qoydu və bank qanunvericiliyini bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırdı.

Qanunvericiliyə əsasən ölkəmizdə iki pilləli bank sistemi yaradılmışdır. Bank sisteminin yuxarı pilləsini təşkil edən Milli Bank mərkəzi bank (ehtiyat sistemi) funksiyasını yerinə yetirir və pul emissiyasında müstəsna hüquqa malikdir. Onun qarşısına aşağıdakı vəzifələr qoyulmuşdur: milli pul vahidinin sabitliyini təmin etmək, kredit, pul tədavülü, hesablaşmalar və valyuta münasibətləri



sahəsində dövlət siyasətini həyata keçirmək, bankların fəaliyyətinin tənzimlənməsi qaydalarını müəyyənləşdirmək və onlara riayət olunmasına nəzarət etmək, kredit orqanları və əmanətçilərin mənafeyini qorumaq.

Bank sisteminin aşağı pilləsini bilavasitə bank əməliyyatlarını yerinə yetirən kommersiya və səhmdar kommersiya bankları təşkil edir.

Məlum olduğu kimi inzibati-amirlik sistemində banklar bank xidməti ilə yanaşı inzibati və nəzarət funksiyalarını yerinə yetirirdi. İqtisadiyyatda bazar münasibətlərinin formalaşması bankların həmin funksiyalardan azad edilməsini və müəssisələrin sərbəst fəaliyyətinin təmin olunmasını tələb edirdi. Məhz bununla əlaqədar olaraq bank fəaliyyəti haqqında qanunda iqtisadiyyatda bazar münasibətləri mövcud olan dünya ölkələrinin təcrübəsinə uyğun olaraq yalnız banklara məxsus fəaliyyətin həyata keçirilməsi təsbit edilmişdir. Özlərinə xidmət göstərən bankların seçilməsində müəssisələrə müstəqillik verilmişdir. Eyni zamanda banklar da öz fəaliyyətində müstəqillik əldə etdilər.

Belə ki, banklar cari bank fəaliyyətində yəni müştəriləri xidmətə qəbul etməkdə, öz əməliyyatları üzrə faiz dərəcələrini və komisyon haqlarının miqdarını müəyyən etməkdə və digər cari məsələlərin həllində tam sərbəst oldu. Milli Banka isə banklar üzərində yalnız iqtisadi üsullar vasitəsilə fəaliyyətinin tənzimi və ümumi nəzarəti həyata keçirmək səlahiyyəti verilmişdir.

Ölkəmizdə iqtisadi islahatlar dərinləşdikcə və iqtisadiyyatımız bir inkişaf mərhələsindən digər inkişaf mərhələsinə qədəm qoyduqca, bank sistemində aparılan islahatlar dəqiqləşdirilmiş və günün tələblərinə uyğunlaşdırılmışdır.

1996-cı ilin iyununda həmin qanunlar beynəlxalq maliyyə-kredit təşkilatlarının tövsiyələri də nəzərə alınmaqla dünya standartlarına uyğunlaşdırılaraq, yeni redaksiyada qəbul olunmuşdur.

Yeni bank qanunvericiliyinə əsasən, Milli Bankın müstəqillik statusu möhkəmlənmiş və müəyyən olunmuşdur ki, öz fəaliyyətində o yalnız Respublika Prezidentinə tabedir və ona hesabat verir. Milli Banka verilən müstəqillik, ona bank sisteminin inkişafını daha səmərəli əlaqələndirməyə, fəal və çevik pul-kredit siyasəti yeritməyə imkan yaratmışdır.

Bank sistemində radikal islahatlara dörd iri dövlət bankında dövlətin payının azaldılması, səhmləşdirilməsi ilə başlanmışdır. Dövlət banklarının yenidən qurulması ilə yanaşı, yaranmaqda olan xüsusi sektorda bank xidmətinin inkişaf etdirilməsi üçün özəl bankların və bank olmayan kredit təşkilatlarının yaradılması üçün yeni imkanlar ortaya qoymuşdur.

Bank sisteminin ikinci pilləsində də islahatlar daha da dərinləşdirilmişdir. Əgər dövlət banklarında aparılan islahatlar əsasən onların strukturunun təkmilləşdirilməsinə, kreditləşdirmə mexanizminin yenidən qurulmasına və bank əməliyyatlarının daha qısa müddət ərzində yerinə yetirilməsinə yönəldilmişdirsə, özəl banklar üzrə islahatların əsas istiqaməti onların nizamnamə fonduna qoyulan tələblərin artırılması, bankların maliyyələşdirmək imkanlarının genişləndirilməsi olmuşdur. [114, s. 287].

Bankların rəqabət imkanlarını genişləndirmək, üzərlərinə düşən öhdəliklərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsini təmin etmək üçün bankların kapitallarının iriləşdirilməsi, təmərküzləşdirilməsi və bu əsasda onların iqtisadiyyatı maliyyələşdirmək imkanlarını genişləndirmək məqsədilə nizamnamə

kapitallarının minimum həddinə qoyulan tələbin artırılması həyata keçirilmişdir.

1998-ci ilin iyul ayından başlayaraq Azərbaycanda yeni açılan banklar üçün nizamnamə fondunun minimum həddi manatla 5 mln. ABŞ dolları ekvivalentinə bərabər, fəaliyyətdə olan banklar üçün isə 1, 25 mln. ABŞ dolları ekvivalentinə bərabər qəbul edilmişdir.

Bankların etibarlı və sağlam fəaliyyətinin təmin edilməsi üçün onun yetərli kapitallaşması mühüm əhəmiyyət kəsb edir. Bu kontekstdə məcmu kapital tələbinin 2004-cü ilin sonunda 3, 5 mln. ABŞ dolları ekvivalentinə, 1. 01. 2006-cı ildən isə 5 mln. ABŞ dolları ekvivalentinə çatdırılması haqqında qərar qəbul edilmişdir.

Beləliklə, bank sistemində islahatların əsas tələbi bankların dayanıqlığının artırılmasıdır. Bankların sistemli dayanıqlığı onlara qarşı etibarı artıracaq və bununla da bank sektorunda sərmayələrin artırılması, eləcə də kredit təşkilatlarının genişləndirilməsi təmin ediləcək. Rəqabətin inkişafı bank xidmətlərinin keyfiyyətinin artmasına və iqtisadiyyatın real sektoru tərəfindən bu xidmətlərə olan tələbatın artmasına zəmin yaradacaq.

Bank islahatları sərbəst rəqabət mühitinin formalaşması və inkişafı məqsədilə xarici bank kapitalının formalaşmasına da imkan vermişdir. Nəticədə, ölkəmizdə xarici bankların fəaliyyəti genişlənməyə başlamışdır. Onu da nəzərə almaq lazımdır ki, əvvəllər yerli bankların güclənməsi, onların rəqabətqabiliyyətli kredit təşkilatlarına çevrilməsi üçün xarici banklar müəyyən limit çərçivəsində (bank kapitalının 90%-nə qədər) fəaliyyət göstərməsi qaydası müəyyən edilmişdir. Milli bank kapitalı ölkə iqtisadiyyatında öz mövqeyini möhkəmləndirdikcə 2004-cü ilin yanvarından xarici banklar sahəsində məhdudiyyət aradan qaldırılmışdır.

*Cədvəl 9. 5.*

**Azərbaycan Respublikasında bankların sayı***

| | 1996 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Cəmi banklar | 136 | 59 | 53 | 46 | 46 | 44 | 44 | 44 | 46 |
| O cümlədən -dövlət bankları | 4 | 3 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| -özəl banklar | 132 | 56 | 51 | 44 | 44 | 42 | 42 | 42 | 44 |
| -xarici kapitallı banklar | 13 | 16 | 16 | 15 | 17 | 15 | 18 | 20 | 21 |
| - nizamnamə kapitalının 50%-dən 100%-ə qədərini təşkil edən | 6 | 5 | 5 | 4 | 4 | 5 | 5 | 5 | 6 |
| - nizamnamə kapitalının 50%-dən az hissəsini təşkil edən | 5 | 9 | 9 | 9 | 11 | 9 | 11 | 13 | 13 |
| -xarici bankların yerli filialları | 2 | 2 | 2 | 1 | 2 | 2 | 2 | 2 | 2 |

*[46a, 2008, №1, s. 40]



Verilən məlumatlardan göründüyü kimi bankların sayı 1996-cı ildə 136-dan 2000-ci ildə 59-a qədər azalmışdır. 2004-cü ildən sonra onların sayı sabitləşərək 44, 2007-ci ildə isə 46 olmuşdur. Onların böyük əksəriyyəti (44-ü) özəl banklardan ibarətdir. Bankların təxminən yarısında (21) xarici sərmayə iştirak edir. Onlardan 13-də xarici kapital nizamnamə kapitalının 50%-dən az hissəsini təşkil edir.

Bankların coğrafi strukturuna nəzər saldıqda məlum olur ki, onların böyük əksəriyyəti Bakı və Gəncə şəhərlərində yerləşmişlər. Ona görə də bankların yerli filiallarının artması (2000-ci ildə 195-dən 2007-ci ildə 485-ə çatmışdır) diqqətə layiqdir.

Təhlil göstərir ki, bank kapitalında sürətli təmərküzləşmə prosesi gedir. Belə ki, əgər məcmu kapitalı 10 mln. AZN-dən artıq olan bankların sayı 2004-cü ildə 4-dən 2008-ci ilin yanvar ayında 38-ə çatmışdır. Ümumi bank kapitalında onların xüsusi çəkisi müvafiq olaraq 30, 6%-dən 94, 6%-ə qədər yüksəlmişdir.

Son illərdə aparılan pul-kredit siyasəti nəticəsində bankların aktivləri və kapitalı yüksək sürətlə artmaqda davam edir. Beləki, bankların cəmi aktivləri 1. 01 2006-cı il 2252, 0 mln. manatdan 1. 02. 2008-ci ildə 3 dəfyə qədər artaraq 6717, 6 mln. manat təşkil etmişdir.

**Ümumiyyətlə son 3 ildə bank sisteminin aktivlərinin strukturu aşağıdakı kimi olmuşdur. (mlrd. man. )**

| | 01. 012005 | 01. 012006 | 01. 01. 2008 |
|---|---|---|---|
| Nəğd vəsait | 498, 2 | 548, 5 | 285, 9 |
| Müxbir hesablar | 2148, 2 | 2312, 2 | 693, 1 |
| Maliyyə sektoruna tələblər | 411, 8 | 478, 2 | 268, 1 |
| Qeyri-maliyyə sektoruna tələblər (xalis) | 3467, 3 | 6344, 4 | 4476, 5 |
| İnvestisiyalar | 427 | 558, 8 | 466, , 2 |
| Digər aktivlər | 812, 3 | 1017, 7 | 578, 4 |
| Cəmi aktivlər | 7764, 8 | 11259, 9 | 6717, 6 |

Bank aktivlərinin artmasında bankların müştərilərə verdiyi kreditlərin miq-
yasının artması mühüm rol oynayır. Ölkənin iqtisadi potensialı artdıqca iqtisa-
diyyatın inkişafına da daha çox kredit qoyuluşları həyata keçirilir. Belə ki, 2003-
2007-ci illər ərzində kredit həcmi 7 dəfə artmışdır. Xüsusilə yüksək artım 2006-
2007-ci illərdə hiss olunur. 2007-ci il ərzində bu sahədə 1, 9% artım baş vermişdir.
Əgər 2001-ci ildə aktivlərin cəmisi 41%-i kredit əməliyyatlarının payına
düşürdüsə, bu nisbət 1.01.2003-cü ildə 45, 6%, 1. 01. 2006-cı ildə 56, 4%-ə və 1.
02. 2008-ci ildə 66, 4%-ə yüksəlmişdir. Cəmi aktivlərdə investisiyaların xüsusi
çəkisi də 1.01.2006-cı ildə 4, 96%-dən 1. 02. 2008-ci ildə 6, 9%-ə yüksəlmişdir.

Kredit imkanlarının genişlənməsini heç də yalnız neft gəlirlərinin sürətli artımı ilə izah etmək mümkün deyildir. Çünki Rusiya Federasiyasında neft gəlirlərinin sürətlə artması ölkədə kredit və investisiya imkanlarının artması ilə müşayiət olunmamışdır. Belə ki, Rusiya Federasiyasının Elmlər Akademiyasının müxbir üzvü S. Qlazyev narahatlıq hissi ilə qeyd edir: «Hal-hazırda Rusiyada həyata keçirilən pul siyasətində bir sıra təzadlar özünü göstərir. Neft ixracından valyuta gəlirləri nə qədər çox daxil olursa, Rusiya müəssisələrinin sərəncamında bir o qədər az kredit resursları qalır, xarici investisiya axını nə qədər çoxdursa, daxili yığım imkanları bir o qədər azdır, büdcə profisiti nə qədər çoxdursa, daxili dövlət borcları bir o qədər çoxdur. Belə vəziyyəti izah etmək çətindir». [324, 2007, №5, s. 34].

Azərbaycandakı vəziyyət bu baxımdan nəzərdən keçirildikdə aydın olur ki, bizdə vəziyyət kökündən fərqlidir və daxil olan neft gəlirləri və xarici investisiyalar pul kanalları vasitəsilə iqtisadiyyatın daxili resurslarının artırılmasına yönəldilir.

İqtisadiyyata kredit qoyuluşları da ÜDM-a nisbətən sürətlə artaraq 2006-cı ildə 12, 1%-dən 2007-c ildə 18, 9%-ə yüksəlmişdir.

Real sektora verilən kreditlərin strukturunda manatla verilən kreditlər artma meyli göstərir. Yalnız 2005-ci il ərzində manatla təsbit edilmiş kreditlərin payı 31, 1%-dən 1.01.2008-ci ildə 53, 7%-ə yüksəlmişdir ki, bu da manata olan etibarlılığın artmasının bir göstəricisidir. Qeyri-maliyyə sektoruna verilmiş kreditlərin müddət strukturuna nəzər saldıqda burada uzunmüddətli kreditlərin payının artması diqqəti cəlb edir. Belə ki, 2000-ci ildə uzunmüddətli kreditlər cəmi kreditlərin 27, 2%-ni edirdisə, həmin nisbət 2007-ci ilin sonunda 65, 4%-ə yüksəlmişdir. Bu iqtisadiyyatın kredit qoyuluşlarına olan tələbinin ödənilməsi üçün çox mühümdür.

Bank sahəsində də gedən liberallaşma prosesinin nəticəsi olaraq kredit qoyuluşlarında dövlət banklarının xüsusi çəkisi sürətlə azalır.

Belə ki, 2006-cı ildə iqtisadiyyata kredit qoyuluşlarının 65, 5%-i dövlət bankları tərəfindən həyata keçirilirdisə, aprel 2007-ci ildə bu nisbət 42, 5%-ə qədər azalmışdır. Özəl bankların payı isə həmin dövrdə müvafiq olaraq 34, 1%-dən 57, 5%-ə qədər yüksəlmişdir. İqtisadiyyata kredit qoyuluşlarında xarici kapitallı özəl banklar da xeyli aktivləşmişlər. Kredit qoyuluşlarında onların payı 2000-ci ildə 13, 6%-dən aprel 2007-ci ildə 21, 6%-ə qədər yüksəlmişdir. Azərbaycan reallığında iqtisadiyyata kredit qoyuluşlarının tərkibində qeyri-bank kredit təşkilatlarının payı sürətlə azalır: 2000-ci ildə 18, 7%-dən aprel 2007-ci ildə 2, 6%-ə qədər.

Kreditlərin səmərəliliyi baxımından onların sahələr üzrə strukturu böyük əhəmiyyət kəsb edir. Təhlil isə göstərir ki, real sektora verilən kreditlərin tərkibində ev təsərrüfatına (fiziki şəxslərə) verilən kreditlər öz həcminə görə birinci yeri tutur və xüsusi çəkisi durmadan artır. Onların xüsusi çəkisi 2000-ci ildə 8, 9%-dən 1. 01. 2008-ci ildə 35, 4%-ə yüksəlmişdir. Bu onu göstərir ki, əhalinin kreditləşməsi bank xidmətinin mühüm hissəsinə çevrilməkdədir.



**Kredit qoyuluşlarının sahələr üzrə strukturu (dövrün sonuna)**

| İllər | Real sektora kredit qoyuluşu (mln.man.) | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | o cümlədən: | | Ticarət və xidmət | | Energetika, kimya və təbii ehtiyatlar | | Kənd təsərrüfatı və emal | | İnşaat və əmlak | | Sənaye və istehsal | |
| | | vaxtı keçmiş | xüsusi çəkisi, %-lə | cəmi | xüsusi çəkisi, %-lə | cəmi | xüsusi çəkisi, %-lə | cəmi | xüsusi çəkisi, %-lə | cəmi | xüsusi çəkisi, %-lə | cəmi | xüsusi çəkisi, %-lə |
| 2000 | 466, 5 | - | - | 76, 5 | 16, 4 | 16 | 3, 4 | 36, 9 | 7, 9 | 12, 9 | 2, 8 | 15, 7 | 3, 4 |
| 2001 | 486, 2 | 134 | 27. 6 | 85. 6 | 17, 6 | 33, 8 | 7 | 14, 6 | 3 | 9 | 1. 9 | 15, 7 | 3, 2 |
| 2002 | 520, 2 | 111, 6 | 21, 5 | 102, 2 | 19, 7 | 44, 1 | 8, 5 | 19, 9 | 3, 8 | 14, 9 | 2, 9 | 15, 7 | 3 |
| 2003 | 670 | 124, 4 | 18, 6 | 112, 5 | 16, 8 | 38, 9 | 5, 8 | 30, 2 | 4, 5 | 30, 3 | 4, 5 | 43, 6 | 6, 5 |
| 2004 | 989, 5 | 109 | 11 | 217, 6 | 22 | 24, 4 | 2, 5 | 56, 2 | 5, 7 | 46, 4 | 4, 7 | 65, 7 | 6, 6 |
| 2005 | 1441 | 68, 2 | 4, 7 | 361 | 25. 1 | 181, 4 | 12, 6 | 97, 6 | 6, 8 | 82, 2 | 5, 7 | 83, 3 | 5, 8 |
| 2006 | 2362, 7 | 77, 7 | 3, 3 | 647, 2 | 27, 4 | 92, 2 | 3, 9 | 136, 5 | 5, 8 | 152, 5 | 6, 5 | 192, 6 | 8, 2 |
| 2007 | 4681, 8 | 100. 3 | 2, 1 | 1194 | 25, 5 | 302 | 6, 5 | 197, 2 | 4, 2 | 312, 3 | 6, 7 | 308 | 6, 6 |

| İllər | Real sektora kredit qoyuluşu | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Nəqliyyat və rabitə | | Ev təsərrüfatları | | İctimai təşkilatlar | | Hökümət idarələri | | Digər sektorlar | | Maliyyə sektoruna kreditlər |
| | cəmi | xüsusi əkisi, %-lə | cəmi | xüsusi çəkisi, %-lə | cəmi | xüsusi çəkisi, %-lə | cəmi | xüsusi çəkisi, %-lə | cəmi | xüsusi çəkisi, %-lə | cəmi |
| 2000 | 70, 4 | 15, 1 | 41, 7 | 8, 9 | - | - | 49, 3 | 10, 6 | 46, 9 | 10 | - |
| 2001 | 69, 1 | 14, 2 | 54, 9 | 11, 3 | 0, 3 | 0, 1 | 38, 9 | 8 | 11, 2 | 2, 3 | 17, 7 |
| 2002 | 57 | 11 | 83, 3 | 16 | 0, 6 | 0, 1 | 48 | 9, 2 | 3, 8 | 0, 7 | 20, 9 |
| 2003 | 57, 1 | 8, 5 | 142, 9 | 21, 3 | 0, 4 | 0, 1 | 35, 2 | 5, 3 | 29, 6 | 0, 1 | 20, 9 |
| 2004 | 149, 6 | 15, 1 | 276, 9 | 28 | 1, 3 | 0, 1 | 14, 2 | 1, 4 | 1, 3 | 0, 2 | 28, 4 |
| 2005 | 128, 2 | 8, 9 | 389, 2 | 27 | 0, 5 | 0, 03 | 8, 2 | 0, 6 | 11, 6 | 0, 2 | 45, 8 |
| 2006 | 214, 9 | 9, 1 | 778 | 32, 9 | 1, 2 | 0, 1 | 18, 2 | 0, 8 | 10, 4 | 0, 4 | 47, 1 |
| 2007 | 469, 6 | 10 | 1657, 2 | 35, 4 | 3, 1 | 0. 1 | 64, 8 | 1, 4 | 28, 1 | 0, 6 | 111, 5 |

Müasir dövrdə bank fəaliyyətində ticarət və xidmət sektoru ilə əlaqələrin genişləndirilməsi də prioritet istiqamətlərdən biridir. Belə ki, həmin kreditlərin xüsusi çəkisi 2006-cı ildə 16, 4%-dən 1. 01. 2008-ci ildə 25, 5%-ə yüksəlmişdir.

Kredit qoyuluşlarının strukturunda real sektora verilən kreditlərin sürətlə artmağa başlaması ölkənin iqtisadi tərəqqisi baxımından geniş perspektivlər vəd edir. Belə ki, energetika, kimya və təbii ehtiyatların mənimsənilməsinə verilən kreditlərin xüsusi çəkisi 2000-ci ildə 3, 4%-dən 1. 01. 2008-ci ildə 6, 6%-ə yüksəlmişdir. Sənaye və istehsalata verilən kreditlərin məbləği mütləq rəqəmlərlə həmin dövrdə 20 dəfə çoxalmış, xüsusi çəkisi isə eyni dövrdə 3, 4%-dən 6, 9%-ə qədər yüksəlmişdir.

2006-cı ildə kənd təsərrüfatına verilən kreditlərin həcmi özündən əvvəlki illə müqayisədə 87, 4%, 2007-ci ildə isə daha 45% artmışdır.

Son illərdə real sektorun kreditləşməsində müsbət irəliləyiş, bir tərəfdən müəssisə və təşkilatların kredit resurslarına olan tələbinin artmasının, digər tərəfdən isə kredit təşkilatlarının cəlb etdikləri müddətli vəsaitlərin artmasının nəticəsidir.

**Kredit təşkilatlarının müddətlər üzrə kredit qoyuluşları (dövrün sonuna)**

| İllər | Real sektora kredit qoyuluşu (mln.man.) | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | o cümlədən: | | Ticarət və xidmət | | Energetika, kimya və təbii ehtiyatlar | | Kənd təsərrüfatı və emal | | İnşaat və əmlak | | Sənaye və istehsal | |
| | | vaxtı keçmiş | xüsusi çəkisi, %-lə | cəmi | xüsusi çəkisi, %-lə | cəmi | xüsusi çəkisi, %-lə | cəmi | xüsusi çəkisi, %-lə | cəmi | xüsusi çəkisi, %-lə | cəmi | xüsusi çəkii, %-lə |
| 2000 | 466,5 | - | - | 76,5 | 16,4 | 16 | 3,4 | 36,9 | 7,9 | 12,9 | 2,8 | 15,7 | 3,4 |
| 2001 | 486,2 | 134 | 27,6 | 85,6 | 17,6 | 33,8 | 7 | 14,6 | 3 | 9 | 1,9 | 15,7 | 3,2 |
| 2002 | 520,2 | 111,6 | 21,5 | 102,2 | 19,7 | 44,1 | 8,5 | 19,9 | 3,8 | 14,9 | 2,9 | 15,7 | 3 |
| 2003 | 670 | 124,4 | 18,6 | 112,5 | 16,8 | 38,9 | 5,8 | 30,2 | 4,5 | 30,3 | 4,5 | 43,6 | 6,5 |
| 2004 | 989,5 | 109 | 11 | 217,6 | 22 | 24,4 | 2,5 | 56,2 | 5,7 | 46,4 | 4,7 | 65,7 | 6,6 |
| 2005 | 1441 | 68,2 | 4,7 | 361 | 25,1 | 181,4 | 12,6 | 97,6 | 6,8 | 82,2 | 5,7 | 83,3 | 5,8 |
| 2006 | 2362,7 | 77,7 | 3,3 | 647,2 | 27,4 | 92,2 | 3,9 | 136,5 | 5,8 | 152,5 | 6,5 | 192,6 | 8,2 |
| 2007 | 4681,8 | 100,3 | 2,1 | 1194 | 25,5 | 302 | 6,5 | 197,2 | 4,2 | 312,3 | 6,7 | 308 | 6,6 |

Bankların kredit portfelinin təhlili göstərir ki, bu portfeldə vaxtı keçmiş borcların dinamikasında vəziyyət müsbət istiqamətə doğru dəyişir.

Milli Bank sisteminin inkişafında onların resurs bazasının genişlənməsi mühüm əhəmiyyətə malikdir. Bankların passiv əməliyyatları əhalidə mövcud olan, istifadə olunmayan vəsaitlərin səfərbər olunmasına xidmət edir. Onlardan banklar aktiv əməliyyatlarını maliyyələşdirmək üçün istifadə edirlər.

Bank sisteminin passivlərinin strukturu aşağıdakı rəqəmlərlə xarakterizə olunur (mln.man.)

| | 01. 01. 2006 | 01. 01. 2007 | 01. 01. 2008 |
|---|---|---|---|
| 1. Cəmi öhdəliklər | 1863, 7 | 3399 | 5677 |
| Depozitlər cəmı | 1380, 9 | 2342 | 3438 |
| Maliyyə sektorundan alınmış kreditlər | 315, 8 | 763 | 1720 |
| Digər öhdəliklər | 167, 1 | 294 | 469 |
| 2. Kapital | 388, 3 | 670 | 1098 |
| Cəmi passivlər | 2251 | 4069 | 6725 |

Göründüyü kimi bankların resurs bazasının formalaşmasında depozit və əmanətlərin payı yüksəkdir (61%). Depozitlərin tərkibində hüquqi şəxslərin rolu artır ki, bu da əhəmiyyətlidir.

Qeyd etmək lazımdır ki, depozit və əmanətlərin artım tempi səhmlərin nəzarət zərfi dövlətə məxsus olan banklarla müqayisədə özəl banklarda yüksəkdir.

**Əhalidən cəlb edilmiş əmanətlər**

| İllər | Cəmi əmanətlər (mln.man.) | Manatla | | Xarici valyuta ilə | | Manatla əmanətlərin xüsusi çəkisi %-lə | Xarici valyuta ilə əmanətlərin xüsusi çəkisi %-lə |
|---|---|---|---|---|---|---|---|
| | | Tələb olunanadək | Müddətli | Tələb olunanadək | Müddətli | | |
| 2001 | 117, 1 | 1, 9 | 10, 2 | 33, 7 | 71, 3 | 10, 33 | 89, 66 |
| 2002 | 153, 4 | 3, 5 | 10 | 27, 3 | 112, 6 | 8, 8 | 91, 19 |
| 2003 | 251, 9 | 7, 7 | 11, 2 | 40, 3 | 192, 7 | 7, 5 | 92, 49 |
| 2004 | 403, 2 | 16 | 14, 2 | 61 | 312 | 7, 49 | 92, 5 |
| 2005 | 494, 6 | 27, 8 | 28, 1 | 82 | 356, 7 | 11, 3 | 88, 69 |
| 2006 | 819, 5 | 79, 9 | 170, 4 | 98, 1 | 471, 1 | 30, 54 | 69, 45 |
| 2007 | 1477, 4 | 209, 1 | 476, 3 | 127, 3 | 664, 7 | 46, 39 | 53, 58 |



| İllər | Adam başına düşən əmanətin məbləği AZN | Əmanətlərin ÜDM-ə nisbəti %-lə |
|---|---|---|
| 2000 | 9, 8 | 1, 6 |
| 2001 | 14, 4 | 2, 2 |
| 2002 | 18, 8 | 2, 5 |
| 2003 | 30, 7 | 3, 5 |
| 2004 | 48, 77 | 4, 7 |
| 2005 | 59, 25 | 3, 9 |
| 2006 | 97, 13 | 4, 5 |
| 2007 | 171, 9 | 5, 8 |

Cəlb olunmuş vəsaitlərin müddət strukturu təhlil edildikdə aydın olur ki, burada müddətli depozitlərin payı artım təmayülü göstərir.

Banklar vəsaitlərin banklararası kredit bazasından cəlb edilməsi üzrə əməliyyatları da kifayət qədər genişləndirməyə başlamışlar.

Bankların məcmu kapitalı yüksək artım tempinə malikdir. 2007-ci il ərzində burada 64%-lik artım olmuşdur. Bank kapitalının artım tempi bank aktivlərinin və öhdəliklərinin artım tempini üstələmişdir. Bu isə bankların kapital bazasının genişlənməsinin nəticəsidir.

Azərbaycanda mövcud olan bankların cəmi kapitalı 1098 mln. dollar (1. 01 2008-ci ildə) təşkil edir. Müqayisə üçün göstərmək lazımdır ki, dünyada fəaliyyət göstərən orta səviyyəli bankların hər birinin kapitalından qat-qat aşağıdır. Lakin bu sahədə ölkəmizdə özünü göstərən sürətli artım göz qabağındadır. Ölkədə son illərdə daxili yığım və investisiyalar sahəsində baş verən artım bank sektorunun yüksək inkişaf imkanlarına malik olduğunu göstərir. Bank sisteminin pul-kredit imkanları əhəmiyyətli dərəcədə ölkədə mövcud olan pul bazasından, onun strukturundan asılıdır. Statistika məlumatlarından göründüyü kimi pul təklifi amillərinin bütün elementlərində ciddi irəliləyiş mövcuddur.

Beləliklə, Milli Bank sonrakı illərdə ölkənin maliyyə sisteminin aparıcı həlqəsi sayılan bank sisteminin sağlam və səmərəli fəaliyyətini təmin etmək üçün bank sisteminin inkişaf strategiyasına uyğun olaraq kompleks tədbirlərini davam etdirməlidir. Bu tədbirlər bank sisteminin iqtisadi əhəmiyyətinin artırılmasını, onun maliyyə vasitəçilik funksiyasının genişləndirilməsini təmin etməklə, kiçik və orta sahibkarlığın və regionların maliyyə xidmətləri ilə əhatə olunmasını genişləndirməklə pul-kredit siyasətinin alətlərinin effektiv tətbiqinə imkan verir.

Milli Bankın sənədlərində göstərildiyi kimi etibarlı bank sisteminin formalaşması yüksək və peşəkar idarəçilik sisteminin təşkilini tələb etdiyindən banklarda beynəlxalq standartlara cavab verən korporativ idarəetmə prinsiplərinin tətbiqinə xüsusi diqqət yetirilir.

Regionlar üzrə sərbəst pul vəsaitlərinin bank sisteminə cəlb edilməsi iqtisadiyyatın pulla təminatının yaxşılaşdırılmasında mühüm amil olduğundan bank sisteminin regional əhatəsinin genişləndirilməsi diqqət mərkəzində saxlanılmalıdır.

mənbələrinin və vahid büdcə təsnifatı çərçivəsində xərclərinin istiqamətlərini müəyyənləşdirmək hüququnun olması ilə təmin edilir. Büdcələrarası münasibətlər aşağıdakı prinsiplərə əsaslanır: Respublika büdcə sistemi səviyyəsində gəlirlərin bölgüsü; büdcə sistemi səviyyəsində tənzimləyici gəlirlərin bölgüsü; Azərbaycan Respublikasının büdcə hüququnun və yerli (bələdiyyə) hüquqlarının eyniliyi; Naxçıvan Muxtar Respublikasını büdcəsinin, yerli (bələdiyyə) büdcələrin Azərbaycan Respublikasının dövlət büdcəsi ilə münasibətlərinin eyniliyi.

Müstəqillik illərində Azərbaycanda baş verən iqtisadi proseslər, aparılan radikal islahatlar dövlət büdcəsinə, onun gəlirlərinin və xərclərinin dinamikasına və strukturuna öz təsirini göstərmişdir. Belə ki, islahatlarla əlaqədar olaraq dövlətin iqtisadiyyata müdaxiləsinin azalması nəticəsində dövlət büdcəsi gəlirlərinin və xərclərinin ÜDM-ə nisbəti ildən-ilə dəyişmişdir. İslahatların başlanğıc illərində ölkədə iqtisadi tənəzzülün getməsi və vergi sisteminin yenicə formalaşması və vergi mexanizminin zəifliyi nəticəsində büdcə gəlirləri üzrə proqnoza əməl etmək mümkün olmurdu. Nəticədə dövlət büdcəsində böyük kəsir əmələ gəlirdi və bu kəsiri Milli Bankın krediti hesabına örtülürdü ki, bu da inflyasiyanı sürətləndirən başlıca amillərdən biri idi. 1995-ci ildən başlayaraq hökumət tərəfindən yeridilən büdcə-vergi siyasəti makroiqtisadi sabitliyə, iqtisadi artıma, əhalinin sosial vəziyyətinin yaxşılaşmasına nail olmağa və bunun üçün də büdcə kəsirini minimuma endirməyə və onu qeyriinflyasiya mənbələri hesabına örtməyə yönəlmişdir.

Görülən tədbirlər nəticəsində vəziyyət yaxşılaşmağa başlamış və büdcə kəsirinin ÜDM-ə nisbəti 1994-cü ildə 10, 3% olmuşdursa, 1995-ci ildə 5, 2% düşmüşdür.

Sonrakı illərdə büdcə kəsirləri aşağıdakı məlumatlardan göründüyü kimi ÜDM-ə nisbətən azalma meyli göstərmiş, 2007-2008-ci illərdə müvafiq olaraq 2, 4 və 4, 4% təşkil etmişdir.

| İllər | Büdcə kəsrinin məbləği(mln. AZN) | ÜDM-a nisbətən faizlə |
|---|---|---|
| **2000** | 49 | 1, 0% |
| **2001** | 22, 6 | 0, 4 |
| **2002** | 21, 6 | 0, 3 |
| **2003** | 13, 6 | 0, 2 |
| **2004** | 42, 1 | 0, 7 |
| **2005** | 48, 1 | 0, 7 |
| **2006** | 78, 7 | 0, 4 |
| **2007** | 544, 0 | 2, 4 |
| **2008** | 1126, 4 | 4, 4 |

Dövlət büdcəsinin kəsirləri daxili (qısamüddətli dövlət istiqraz vərəqələri, özəlləşdirmədən daxilolmalar, daxili uduşlu istiqrazlar) və xarici mənbələr (xarici kreditlər) hesabına ödənilir. 2008-ci ildə büdcə kəsiri ilin əvvəlinə vahid xəzinə hesabının qalığının bütün məbləği, özəlləşdirmədən və dövlət istiqrazlarının satışından əldə edilən gəlirlər hesabına ödənilir.



1996-cı ildən ölkədə baş verən iqtisadi artım büdcə gəlirlərinin artmasında da öz əksini tapmışdır. 1996-cı ildə dövlət büdcəsinin gəlirləri ÜDM-in 17, 6%-ni təşkil etmişdir.

1997-ci ildə isə büdcə gəlirləri ÜDM-in 16, 8%-nə, xərcləri isə ÜDM-in 19, 4%-nə bərabər olmuşdur. Aşağıdakı məlumatlardan göründüyü kimi 2000-cı ildən sonra ölkəmizdə büdcənin ÜDM-də xüsusi çəkisi artmağa başlamışdır.

| | Gəlirlər | | Xərclər | |
|---|---|---|---|---|
| | mln. AZN | ÜDM-da payı(%-lə) | mln. AZN | ÜDM-da payı(%-lə) |
| **2000** | 714, 6 | 15, 1 | 764, 0 | 16, 2 |
| **2001** | 784, 8 | 14, 7 | 807, 5 | 15, 2 |
| **2002** | 910, 2 | 15, 0 | 931, 8 | 15, 4 |
| **2003** | 1220, 9 | 17, 4 | 1234, 5 | 17, 6 |
| **2004** | 1509, 5 | 18, 0 | 1502, 1 | 17, 9 |
| **2005** | 2055, 2 | 17, 3 | 2140, 7 | 18, 0 |
| **2006** | 3868, 8 | 21, 8 | 3790, 1 | 21, 4 |
| **2007** | 6952, 9 | 25, 5 | 7608, 3 | 27, 9 |
| **2008** | 7392, 5 | 29, 3 | 8518, 9 | 33, 7 |

Adambaşına dövlət büdcəsi gəlirləri və xərcləri də sürətli artır.

| | | 2000 | 2001 | 2003 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|---|---|
| Adambaşına büdcə gəlirləri | manat | 88, 4 | 96, 4 | 147, 7 | 453, 4 | 671, 0 | 856, 7 |
| | dollar | 98, 8 | 103, 5 | 150, 4 | 509, 4 | 808, 5 | |
| Adambaşına büdcə xərcləri | manat | 94, 5 | 99, 2 | 149, 4 | 444, 2 | 734, 3 | 987, 2 |
| | dollar | 105, 7 | 106, 5 | 152, 1 | 499, 1 | 884, 7 | |

Son illərdə büdcə gəlir və xərclərinin sıçrayışlı artımı əsas etibarilə neft amili ilə əlaqədar olsa da qeyri-neft sektorunun gəlirləri də əhəmiyyətli dərəcədə artma meyli göstərir.

Belə ki, 2007-ci ildə Neft Fondunun dövlət büdcəsinə transferi 2006-cı ildə olduğu səviyyədə (585 mln. AZN) planlaşdırılmışdır. Dövlət büdcəsində 2007-ci ildə qeyri-neft gəlirlərinin əhəmiyyətli dərəcədə artımı qeydə alınmışdır. Eyni artım tempi 2008-ci ilin büdcə layihəsində də planlaşdırılmışdır. Büdcənin gəlir və xərclərinin strukturu da ölkədə baş verən iqtisadi proseslərə uyğun olaraq təkamül edir. Aşağıdakı məlumatlardan göründüyü kimi büdcə gəlirlərinin tərkibində Vergilər Nazirliyi və Gömrük komitəsinin kanalları ilə daxilolmalar azalma meyli göstərdiyi halda sair mənbələrdən gəlirlər (Dövlət Neft fondundan daxil olmalar, dövlət əmlakının icarəyə verilməsindən daxil olmalar, AB-nin qrantı və. s) artır.

**Dövlət büdcəsinin gəlirlərinin strukturu (%-lə)**

| | 1997 | 2000 | 2003 | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|---|---|
| Cəmi | 100 | 100 | 100 | 100 | 100 | 100 | |
| Vergilər Nazirliyi | 81, 6 | 71, 2 | 67, 0 | 69, 6 | 68, 9 | 73, 4 | 67, 6 |
| Dövlət Gömrük komitəsi | 16, 8 | 20, 1 | 17, 4 | 18, 3 | 13, 3 | 13, 4 | 14, 8 |
| Sair mənbədən gəlirlər | 1, 6 | 8, 9 | 15, 6 | 12, 1 | 17, 8 | 13, 2 | 17, 5 |

Vergi gəlirlərinin mühüm mənbəyi olan əlavə dəyər vergisi və fiziki şəxslərdən gəlir vergisi üzrə vergi dərəcələrinin aşağı salınması nəticəsində onların vergi gəlirlərində xüsusi çəkisinin azalmasına səbəb olmuşdur. Belə ki, vergi gəlirlərində əlavə dəyər vergisinin payı 1998-ci ildə 20, 9%-dən 2007-ci 11, 5%-ə fiziki şəxslərdən gəlir vergisinin xüsusi çəkisi isə müvafiq olaraq 18, 5%-dən 9, 96%-ə qədər azalmışdır.

Sivil dünya ölkələrində olduğu kimi hüquqi şəxslərin mənfəət vergisindən dövlət büdcəsinə daxil olmaların mütləq və nisbi əhəmiyyəti durmadan artır. Belə ki, onun məbləği 1999-cu ildə 73, 4 mln. manatdan 2007-ci ildə 2195, 0 mln. manata qədər artmış, vergi gəlirlərində xüsusi çəkisi isə 13, 1%-dən 38, 1%-ə qədər yüksəlmişdir.

Dövlət büdcəsi xərclərinin tərkibində iqtisadiyyata yönəldilən xərclər durmadan artır ki, bu da ölkənin gələcək iqtisadi tərəqqisi üçün möhkəm zəmin təşkil edir. Belə ki, dövlət əsaslı vəsait qoyuluşu 2000-ci ildə 26, 5 mln. manatdan 2007-ci ildə 1915, 4 mln. manata qədər artmış və xüsusi çəkisi 3, 47%-dən 2007-ci ildə 30, 3%-ə yüksəlmişdir.

## 9. 5. Sığorta bazarı

Azərbaycanda maliyyə bazarının tərkib hissəsi kimi hazırda sığorta sahəsi də inkişaf mərhələsindədir. Sovet dövründə ölkəmizdə sığorta işi SSRİ Dövlət Sığorta qurumlarının inhisarında idi. İlk özəl sığorta şirkətləri 1990-cı ilin axırları 1991-ci ilin əvvəllərində yaranmağa başlamışdır. Müstəqillik əldə edildikdən sonra sığorta işinin qanunvericilik bazası yaradıldı. 1993-cü ilin yanvarında ölkəmizdə ilk dəfə "Sığorta haqqında" Qanun qəbul edildi.

Azərbaycanda sığorta şirkətlərinin yaradılması 1992-1993-cü ildən etibarən sürətlənməyə başlamışdır. Lakin onların yaranması ölkədə maliyyə kredit sferasının iflic vəziyyətində olduğu dövrə təsadüf edirdi ki, bu da təsirsiz ötüşmədi. Məhz həmin dövrdə yaranan şirkətlər banklar tərəfindən verilən kreditləri "Sığorta etməyə" başlamışdırlar. Cəmisi bir neçə yüz dollar məbləğində nizamnamə kapitalı olan şirkətlər özlərinin aktivindən yüzlərlə dəfə çox kreditləri qaytarılmamaq



risqindən sığorta edirdilər. 1995-ci ildən sonra isə sərt pul-kredit siyasətinin həyata keçirilməsi prosesində onların çoxu iflas etdi və sayları 63-dən 46-ya qədər azaldı.

1995-ci ildən sonra sığorta bazarının qanunvericilik bazasının möhkəmləndirilməsi sahəsində əhəmiyyətli tədbirlər görülməyə başlandı.

Nəqliyyat vasitələri sahiblərinin 1996-cı ildə vətəndaşlıq məsuliyyətinin məcburi sığortalanması haqqında, 1997-ci ildə isə hərbçilərinin məcburi dövlət sığortası haqqında "Qanun qəbul edildi". "Məhkəmə və hakimlər", "Yanğın təhlükəsizliyi", "Rabitə" və "Gömrük bəyannaməsi" haqqında qanunlarda sığorta haqqında xüsusi maddələr nəzərdə tutulmuşdur.

Sonraki illərdə hakimlərin və inzibati orqanlar işçilərinin məcburi sığortalanması, tibbi sığorta, məcburi ekoloji sığorta, hüquqi şəxslərin və özəl sahibkarların yanğın risqindən sığortalanması haqqında qanunlar qəbul edildi. Sığorta bazarının dövlət tənzimlənməsi sistemində də tədbirlər görüldü. Məsələn, müstəqillik əldə edildikdən sonra sığorta bazarının tənzimlənməsi məqsədilə Nazirlər Kabineti nəzdində Dövlət Sığorta Nəzarəti yaradıldı. 2001-ci ilin aprel ayında sığorta bazarına nəzarət funksiyaları Maliyyə Nazirliyinə verildi və nazirliyin strukturunda Sığorta Nəzarəti İdarəsi yaradıldı.

Dünyanın aparıcı neft şirkətləri ilə "Əsrin müqaviləsi" bağlandıqdan və xarici neft, servis, nəqliyyat neft infrastrukturu ilə əlaqədar başqa şirkətlərin axını başladıqdan sonra sığorta bazarında yenidən canlanma özünü göstərdi. Bu proses 2000-ci ildən sonra xeyli sürətləndi. Son 7 ildə yəni 2000-2006-cı illərdə sığortaçıların məcmun kapitalı 4 dəfə artaraq, 11, 5 mlrd. manata çatmışdır. Onların nizamnamə kapitalı isə eyni dövrdə 7 dəfə artmışdır. (44, 2007, s. 355)

Azərbaycan Respublikasının sığorta bazarının beynəlxalq standartlar səviyyəsində inkişaf etdirilməsi, o cümlədən sığorta bazarının peşəkar iştirakçıları arasında sağlam rəqabətin təmin olunması, sığortaçıların maliyyə sabitliyinin və ödəmə qabiliyyətinin gücləndirilməsi, peşəkarlarının yüksəldilməsi, sığortaların mənafelərinin müdafiəsi mexanizminin təkmilləşdirilməsi, həmçinin sığortaya dövlət nəzarətinin səmərəliliyinin artırılması üçün hazırlanmış "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmişdir.

2008-ci il 1 yanvar tarixinə respublikada 29 sığorta şirkəti (o cümlədən 7 xarici investisiyalı birgə sığorta şirkəti), 1 təkrar sığorta şirkəti və 7 sığorta broker şirkəti (o cümlədən, 4 xarici investisiyalı birgə sığorta şirkəti) fəaliyyət göstərir.

Sığorta bazarında təmərküzləşmə prosesi sürətlənməyə başlamışdır. Belə ki, 2001-2006-cı illərdə 1 sığorta təşkilatının payına düşən nizamnamə kapitalının orta məbləği 12, 7 dəfə artaraq 121, 9 min. manatdan(AZN) 1, 55 mlrd. manata çatmışdır. Nazirlər Kabinetinin 9. IV. 2004-cü il tarixli qərarı ilə sığorta şirkətlərinin nizamnamə kapitalının minimum həddi 1. 01. 2008-ci ildə 800 min AZN, 1. 01. 2009-cu ildə 900 min AZN, 1. 01. 2010-cu ildə isə 1mln. AZN təşkil etməlidir.

Sığorta qurumlarının məcmu kapitalının tərkibində nizamnamə kapitalının xüsusi çəkisi 2000-ci ildə 52, 5%-dən 2006-cı ildə 92, 4%-ə qədər yüksəlmişdir.

Sığorta ənənəsinin yeni yaranmağa başlaması ilə əlaqədar olaraq ölkəmizdə əhalinin sığorta mədəniyyəti aşağı səviyyədədir.

Bu səbəbdən ölkəmizdə sığorta işində əməklilik(pensiya) sığortası həyatın yığım xarakterli sığortalanması, ümumi məsuliyyətin sığortalanması, könüllü tibbi sığorta, maliyyə işlərinin sığortalanması və. s. növləri inkişaf etmişdir.

Respublika yarandıqdan sonrakı ilk illərdə sığorta haqqlarının tərkibində icbarı sığorta yüksək idi. Son illərdə isə könüllü sığortanın payı yüksələrək 2006-cı ildə 92%-ə çatmışdır. Sığorta şirkətlərinin fəaliyyətində keyfiyyət dəyişiklikləri əhəmiyyətli dərəcədə sığorta mükafatlarının həcmi ilə müəyyən edilir. 2000-2006-cı illərdə isə onların həcmi 6 dəfəyə qədər artmışdır. Lakin ÜDM ilə müqayisədə onun miqdarında o qədər də ciddi dəyişiklik özünü göstərmir. Belə ki, sığorta mükafatlarının ÜDM-a olan nisbəti 2000-ci ildə 0, 33%-dən 2006-cı ildə 0, 50%-ə yüksəlmişdir. Onu da nəzərə almaq lazımdır ki, sığorta şirkətləri arasında sığorta mükafatlarının toplanması üzrə birinci on yerin yalnız beşi milli şirkətlərə məxsusdur, qalan beş yeri isə müştərək sığorta şirkətləri əhaliyə çoxsaylı xidmət növləri təklif edirlər. Lakin onların çoxu informasiya baxımından ictimaiyyətə açıq deyillər və informasiya az olduğu üçün sahibkarlar və fiziki şəxslər, onlar haqqında aydın və tam təsəvvürə malik deyillər. Öz mövqelərinə görə ilk on yeri tutan sığorta şirkətləri müasir marketing və reklam texnologiyasından geniş istifadə etdiyi halda, digər şirkətlər belə imkandan məhrumdurlar. Onların çoxunda reklam işinə və yaxud öz fəaliyyətinin səmərəliliyinin artırılması üçün marketinq tədqiqatlarının aparılmasına vəsait çatışmazlığı ciddi hiss olunur. İnternet texnologiyası potensialından zəif istifadə olunur. Ölkəmizdə sığorta şirkətlərinin fəaliyyəti əsas etibarı ilə iqtisadiyyatın energetika sahəsinə yönəldilmişdir. Kiçik biznes sahəsində sığorta işi çox zəifdir. Ölkəmizdə mövcud olan çoxsaylı və bəzi hallarda isə ziddiyyətli xarakter daşıyan qanunların yenidən işlənərək yeni sığorta məcəlləsinin yaranmasına ehtiyac vardır. Sığorta fəliyyətinin inkişafına dövlət məmurlarının himayəçiliyi də mənfi təsir göstərir.

2006-cı ildə Azərbaycanın sığorta bazarında aşağıdakı 10 şirkət liderlik edirdi.

## 2007-ci ildə Azərbaycan Respublikasinda

## Sığorta Şirkətlərin Renkinqi

| Mövqe | | Şirkət | 2007-ci ildə Sığorta haqqları (mln. man) |
|---|---|---|---|
| 2007 | 2006 | | |
| 1 | 5 | Azərsığorta | 20,68 |
| 2 | 4 | **MBASK** | 14,66 |
| 3 | 1 | Atəşkəh | 14,57 |
| 4 | 3 | Standart İnsurance | 14,1 |
| 5 | 2 | Azalsığorta | 13,35 |
| 6 | 8 | Xalq Sığorta | 13,19 |
| 7 | 6 | Beynəlxalq Sığorta Şirkəti | 11,31 |
| 8 | 25 | Pasha Sığorta | 7,74 |
| 9 | 7 | A-Group | 6,74 |
| 10 | 28 | AzSığorta | 5 |
| | | **Yekun** | **121,34** |



### 9.6. Azərbaycanın müasir benyəlxalq maliyyə mühitə inteqrasiyasının perspektiv istiqamətləri

Sovet imperiyasının süqutu nəticəsində çoxsaylı müstəqil dövlətlərin yaranması və onların dünya birliyi ilə 70 il ərzində kəsilmiş əlaqələrinin bərpa olunmağa başlanması böyük bir coğrafi ərazidə yeni iqtisadi məkanın formalaşması prosesinə yol açmışdır. Bu proses TRACECA proqramı adlanan Böyük İpək Yolunun əsaslarının qoyulması ilə yeni vüsət almışdır.

Yeni iqtisadi məkan artıq bir tam şəklində bütünləşmiş ümumdünya təsərrüfatı sisteminin tərkibı kimi formalaşır, onunla üzvi sürətdə qaynayıb qarışmağa çalışır. Nəhəng nəqliyyat dəhlizı bu bütünləşməyə yol açsa da, həmin tarixi prosesin gedişi əhəmiyyətli dərəcədə «görünməyən yollardan», yəni kapitalın sərbəst hərəkəti və fəaliyyəti üçün əlverişli iqtisadi mühitin yaradılmasından asılıdır. Uzun müddət inzibati - amirlik üsulları ilə idarə olunmuş postsovet respublikaları çox mürəkkəb bir siyasi və iqtisadi şəraitdə bazar iqtisadiyyatı prinsiplərini tətbiq etməyə çalışırlar. Bunun nəticəsində formalaşan iqtisadı məkan yeni məzmun alır, fərqli iqtisadi elementləri və infrastrukturu özündə birləşdirən yeni iqtisadı muhit yaranmağa başlayır.

Azərbaycan özünün əlverişli strateji mövqeyı ilə bu yeni iqtisadi məkanın mərkəzində, Qərblə Şərqin kəsişmə nöqtəsində yerləşmişdir. İki qitə arasında yaradılan nəhəng kommunikasiya qurğularının respublika ərazisindən keçməsi onun strateji rolunu daha da artırmışdır. Respublikamızda nüfuz dairəsi uğrunda dünyanın aparıcı dövlətlərinin ciddı rəqabət mübarizəsi, yalnız mövcud olan zəngin təbii sərvətlərlə deyil, həmçinin əhəmiyyətli dərəcədə bu amil ilə əlaqədardır.

Təbiətin və tarixi gedişin respublikamız üçün yaratdığı bu üstün strateji mövqedən və amillərdən bacarıqla və rasional şəkildə istifadə olunması işində indiki nəslin üzərinə böyük tarixı məsuliyyət düşür.

Formalaşan yeni geosiyası şərait tələb edir ki, respublikamız yeni iqtisadi məkan və iqtisadi mühitin tələb etdiyı «görünməyən yolların» da mərkəzində dayansın.

Ümumdünya təsərrüfatı sisteminin və iqtisadi məkanın aparıcı elementi beynəlxalq maliyyə mühitidir.

tələblərini irəli sürərkən və iri transmilli bankların ölkəyə geniş daxil olmasına şərait yaradılmasını tövsiyə edərkən makroiqtisadi sabitliyin və davamlı iqtisadi artımın təmin olunması arqumentini irəli sürürlər. Hesab olunur ki, xarici nəhəng bankların ölkəyə sərbəst daxil olması maliyyə-kredit xidmətlərinin müxtəlifliyini, yüksək keyfiyyətini və onlardan istifadənin asanlığını təmin edir, yerli bank mamurlarının professionallığını artırır və s. Həmin bankların kredit risklərini və borcların etibarlılığını müəyyən etmə üsulları maliyyə ehtiyaclarının daha səmərəli bölüşdürülməsinə səbəb olacaqdır. Lakin onu da nəzərə almaq lazımdır ki, Şərqi Avropa dövlətlərində xarici bankların kreditləşdirmə istiqamətləri yerli iş adamlarının ehtiyaclarına o qədər də cavab vermir. Xüsusən xırda və orta sahibkarların, kənd təsərrüfatı müəssisələrinin onlardan kredit alması xeyli çətindir. Xarici banklar adətən qiymətli kağızlarla əməliyyatlara və real sektorun kreditləşdirilməsinə üstünlük verirlər. [326, 2003, № 8, s. 104-105]

Azərbaycan Bank sahəsində inteqrasiya problemləri təhlil edilərkən hər şeydən əvvəl göstərmək lazımdır ki, onun əsas təsərrüfat subyektləri dövlət və enerji-xammal maliyyə-sənaye qruplarıdır. Azərbaycan Respublikası Milli Bankı bu gün özünün başlıca vəzifəsini inflyasiya ilə mübarizədə və manatın məzənnəsinin sabitliyinin təmin olunmasında görür. Bu çox vacibdir. Lakin o birtərəfli məqsədə çevrildikdə ziyanlı ola bilər.

Azərbaycan maliyyə, valyuta, bank sahəsində beynəlxalq iqtisadi inteqrasiyanın aparıcı istiqamətləri müəyyən edilərkən bu sahədə liberallaşdırmanın müsbət və mənfi cəhətləri təhlil edilməli, digər dövlətlərin təcrübəsi nəzərə alınmalıdır.



# FƏSİL X.

## AZƏRBAYCANIN QLOBAL PROSESLƏRƏ QOŞULMASININ MALİYYƏ VƏ VALYUTA ASPEKTLƏRİ

### 10. 1 Müasir inflyasiyanin daxili və xarici amillərinin nisbəti.

İqtisadiyyatın inkişafına və əhalinin maddi durumuna bilavasitə təsir göstərən inflyasiya ilə mübarizənin çətinliyi ondadır ki, o, tarixən olduqca mürəkkəb və ziddiyyətli bir problemdir. Tədavülə əmtəə bazarının tələblərindən çox pul buraxılması nəticəsində pulun qiymətdən düşməsi kimi başa düşülən bu ictimai bəlanın meydana gəlməsinə pul dövriyyəsi və mal təklifi sferasında çoxsaylı amillər təsir edir. Həmin çoxfaktorlu hadisə daxili amillərlə yanaşı, həm də xarici təsirlərlə yaranıb inkişaf edir. Onu da nəzərə almaq lazımdır ki, hər cür qiymət artımı inflyasiya olmadığı kimi, ölkədə maliyyə sabitliyinin əldə edilməsi və ya pozulması da yalnız inflyasiya ilə əlaqədar deyildir. Keçmişdə klassik iqtisadçılar iqtisadi və maliyyə sabitliyi dedikdə, məhz qiymətlərin səviyyəsini nəzərdə tuturdular. Çünki o zamanlar həqiqətən qiymətlərin sabitliyi iqtisadiyyatın sabit inkişafını təmin edirdi. Qloballaşma şəraitində isə ölkədə maliyyə-iqtisadi sabitliyin təmin olunması üçün qiymətlərin sabitliyi ilə yanaşı, iqtisadiyyatın tam məşğulluq şəraitində daxili və xarici müvazinətin qorunub saxlanması da çox vacibdir.

Onu da nəzərə almaq lazımdır ki, iqtisadi sabitliyin qorunmasının mühüm amili olan inflyasiya zamanı yalnız əmtəələrin qiyməti deyil, eyni zamanda, onun dəyərini ölçənin özü də, yəni pulun dəyəri də dəyişir.

Başqa sözlə, pulun alıcılıq qabiliyyətinin azalması və qiymətin yüksəlməsi bir-biri ilə qarşılıqlı sürətdə əlaqədardır. Yəni, inflyasiya pulun alıcılıq qabiliyyətinin azalması və qiymətlərin artması kimi başa düşülür. Lakin "pulun alıcılıq qabiliyyəti" dedikdə, adətən, çox mühüm bir məsələ unudulur. Belə ki, məlum olduğu kimi, pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi özünü iki formada göstərir: pulun daxili və xarici alıcılıq qabiliyyəti. Milli valyutanın daxili alıcılıq qabiliyyətinin azalması və ya artması daxili bazarda mal kütləsinin qiymətlərinin dalğalanmasında öz əksini tapır. Milli valyutanın xarici alıcılıq qabiliyyəti isə onun məzənnəsində, yəni digər valyutalara nisbətən dəyərinin (qiymətinin) artıb-azalmasında ifadə olunur. Devalvasiya - milli valyutanın qiymətdən düşməsini, revalvasiya isə onun dəyərinin artmasını ifadə edir.

Milli valyutanın daxili alıcılıq qabiliyyəti ilə xarici alıcılıq qabiliyyəti arasında sıx qarşılıqlı əlaqə vardır. Məsələn, ölkə daxilində qiymətlərin davamlı olaraq yüksəlməsi nəticəsində hər bir milli valyuta vahidinə satın alınan mal və xidmətlərin miqdarı əvvəlki dövrə nisbətən azalır. Bu halda, pul özünün daxili

qarşı mübarizə əsasən, İqtisadi İnkişaf Nazirliyinin (İİN) səlahiyyətləri daxilindədir. Normativ aktlarla tanışlıq göstərir ki, nazirliyin bu sahədə kifayət qədər səlahiyyətləri vardır. Məsələn, "Haqsız rəqabət haqqında" Qanunun 11-ci maddəsinə görə, İİN bu sahədə qanun pozuntusu olduqda "onun aradan qaldırılması ilə bağlı icrası məcburi olan göstərişlər verə bilər". "Antiinflyasiya tədbirləri haqqında" Prezidentin son fərmanında da bu işin gücləndirilməsi haqqında nazirliyə tapşırıq verilmişdir.

İnflyasiyanın dərinləşməsində ölkəmizdə kölgə iqtisadiyyatının mövcudluğu, əhalinin bir qrupunda böyük miqdarda "qara pulların" mövcud olmasıdır. Bu da heç, şübhəsiz ki, əmtəə bazarını daim təzyiq altında saxlayır.

Ölkədə yığımla investisiyalar arasında uzun illər mövcud olmuş uyğunsuzluq da inflyasiyanı yaradan "daimi" amillərdəndir. Araşdırmalar göstərir ki, sahibkarlıq mənfəətinin kapitala (investisiyaya) çevrilməsi prosesi əvvəllər çox zəif idi. Halbuki, bizdə mənfəət norması (xüsusən, yanacaq-enrgetika kompleksində) olduqca yüksəkdir. Yığımın (mənfəətin) artması isə çox vaxt investisiyanın genişlənməsi ilə nəticələnmir. Yalnız onu demək kifayətdir ki, daxili investisiyalar 2004-cü ildə cəmi investisiyaların 23, 6%-ni, ÜDM-in isə 13, 2%-ni təşkil etmişdir. Bu çox aşağı səviyyədir. Ona görə də görülən tədbirlər nəticəsində bu nisbət sonrakı illərdə ciddi olaraq artırılmışdır. Məlum olduğu kimi, investisiya artdıqca yığım iqtisadi inkişafa yönəlmiş olur. Bu isə valyuta tələb edən investisiya mallarına, texnologiyaya, nəqliyyat vasitələrinə, yüksək ixtisaslı kadrlara olan tələbi artırır. Ona görə də inflyasiyanın qarşısının alınmasının ən etibarlı yolu - neft gəlirləri artdıqca çoxalan istehlak tələbi üçün əmtəə kütləsi istehsalı sürətlə genişləndirilməlidir. Azərbaycanın gələcəyi də bundan asılıdır. Bu baxımdan, investisiyaların strukturu da böyük əhəmiyyət kəsb edir.

Müasir inflyasiyanın yaranması və inkişafında xarici amillərin rolu da sürətlə artır. Məlum olduğu kimi, Azərbaycanda xaricdən gətirilən mallara aludəçilik çoxdan mövcuddur. "Çatışmazlıq", "kəsir" və yaxud "defisit" kimi deyimlərin tarixi planlı iqtisadiyyatın uzun illər hökmran olduğu sovet dövrünün dərinliklərinə gedib çıxır. Müstəqillik əldə edildikdən sonra, məlum səbəblərə görə, istehsalın kəskin azalması ilə gündəlik tələbat malları sahəsində "çatışmazlıq" və ya "kəsir" faciəli həddə çatdı və ölkənin idxaldan asılılığı ağılasığmaz dərəcədə çoxaldı. Əgər biz sovet dövründə xarici malları "piştaxta altından" əldə edirdiksə, indi liberal iqtisadiyyatın tələblərinə uyğun olaraq, onların gətirilməsinə və satılmasına, demək olar ki, heç bir məhdudiyyət qoyulmur. Bu sahədə, yəni, daxili istehsalın artırılması və idxalın əvəz olunması işində son illər əhəmiyyətli müsbət dəyişikliklər özünü göstərir. Yalnız onu göstərmək kifayətdir ki, 1995 – 2007-ci illər ərzində idxalatın fiziki həcmi 9 dəfəyə qədər, ÜDM istehsalı isə 12. 2 dəfə artmışdır.

Məlum olduğu kimi, ardıcıl olaraq həyata keçirilən "açıq iqtisadiyyat" inkişaf modeli nəticəsində ölkəmizin dünya birliyi ilə inteqrasiya prosesləri yüksələn xətt üzrə inkişaf edir. Bu isə təbii olaraq, inflyasiya proseslərində xarici amillərin rolunu artırmışdır. Bütün digər ölkələrdə olduğu kimi, Azərbaycanda da beynəlxalq iqtisadi əlaqələr bir neçə kanallar vasitəsilə həyata keçirilir. Bunların ən başlıcası mal dövriyyəsi, kapital və maliyyənin beynəxalq hərəkətidir. İnflyasiyanın xarici kökləri də ilk növbədə məhz bu kanallarla əlaqədardır. Belə ki,



Azərbaycanda 90-cı illərdə özünü göstərmiş hiperinflyasiya zamanı idxal qiymətləri ciddi rol oynamışdır. Çünki həmin dövrdə daxili bazarda xaricdən gətirilən mallar böyük paya malik idi. Lakin sonralar istehlakda xarici məhsulların xüsusi çəkisi 1995-ci ildəki 41, 5%-dən 2000-ci ildə 11, 8%-ə qədər azalmışdır. Lakin bununla yanaşı, xaricdən gətirilən ərzaq məhsullarının həcmi mütləq rəqəmlərlə artır (məsələn, 2002-2006-cı illər ərzində 2, 3 dəfəyə qədər çoxalma baş vermişdir). Bu, xarici ticarət kanalının ölkədə inflyasiya səviyyəsinə təsir imkanlarının potensial olaraq qalmaqda və qlobal proseslərin təsiri altında artma meyli göstərməkdə davam etdiyini göstərir.

Üstəlik, bütün dünyada enerji daşıyıcılarının qiymətinin yüksəlməsi xarici ticarətdə iştirak edən malların qiymətinin sürətli artımına səbəb olur. Lakin bu amilin təsiri son inflyasiyanın meydana gəlməsində ziddiyyətli rol oynamışdır. Məlum olduğu kimi, 2005 - 2007-ci illərdə istehlak mallarının qiymətləri 32.8%, o cümlədən ərzaq məhsulları 40.5%, qeyri-ərzaq malları və xidmətlər - 9,9% artmışdır. Başqa sözlə, həmin dövrdə inflyasiya ərzaq məhsulları üzrə "normal" hədd hesab edilən birrəqəmli səviyyədəki həddi ötüb keçmişdir. Lakin son illərdə görülən tədbirlər nəticəsində əhalinin real gəlirləri daha sürətlə artır.

Milli Bankın hesabatında (2007-ci il) göstərildiyi kimi 2007-ci ildə qlobal inflyasiya proseslərinin fəallaşması, iqtisadiyyatda məcmu tələbin və istehsal xərclərinin artımı inflyasiya tempinin nisbətən sürətlənməsinə gətirib çıxarmışdır.

2007-ci ildə İEOÖ-də tələbin və dünya enerji qiymətlərinin yüksək artım tempi nəticəsində qlobal inflyasiya prosesləri aktivləşmiş və bu öz təzahürünü ölkədə qiymətlərin səviyyəsinin yüksəlməsində göstərmişdir.

**Qrafik. Ümumi və baza inflyasiya (orta illik, %)**




Belə ki, neftin yüksək qiyməti fonunda idxal mallarının bahalaşması inflyasiya idxalında əhəmiyyətli rola malik olmuşdur. 2007-ci ildə ticarət tərəfdaşlarında 8,5%-lik inflyasiya (orta çəkili) Azərbaycana inflyasiyanın idxalını şərtləndirmişdir. Hesablamalara görə 2007-ci ildə ölkədə qeydə alınmış inflyasiyanın 8 faiz bəndi idxal inflyasiyasının hesabına baş vermişdir.

Ərzaq məhsulları qiymətlərinin artımında idxalın rolu kifayət qədər yüksəkdir.

2007-ci ildə yüksək iqtisadi artımla yanaşı, bir sıra qlobal və daxili iqtisadi amillərin təsiri altında Azərbaycanda inflyasiya prosesləri aktivləşmiş və orta illik inflyasiya 16,7 faiz təşkil etmişdir. İnflyasiyanın fəallaşmasında ilk növbədə xərc amilləri mühüm rol oynamışdır. Neftin dünya qiymətinin artması nəticəsində partnyor ölkələrdə xərc inflyasiyası ilə yanaşı dünya ərzaq bazarlarında tələb və təklifin nisbəti tələbin xeyrinə dəyişmişdir ki, bu da ölkəyə inflyasiya idxalını sürətləndirmişdir.

Eyni zamanda zəruri islahat tədbiri kimi həyata keçirilmiş enerji daşıyıcılarının qiymətlərinin dünya bazarı səviyyəsinə çatdırılması nəticəsində iqtisadiyyatda daxili istehsal məsrəfləri yüksəlmişdir. İnflyasiya prosesləri xərc amilləri ilə yanaşı tələb amillərindən də təsirlənmişdir. Belə ki, məcmu tələbin artım tempi təklifin artım tempindən 4 dəfə çox olmuşdu. Lakin inflyasiyanın yüksəlməsinə baxmayaraq, əhalinin real pul gəlirləri 20 faiz artmışdır.

Manatın nominal məzənnəsinin sabitliyinin təmin olunmasına baxmayaraq, partnyor ölkələrlə inflyasiya səviyyəsində fərqlər manatın qeyri-neft sektoru üzrə real effektiv məzənnəsinin 2007-ci ildə 5,4 faiz möhkəmlənməsinə səbəb olmuşdur. Lakin qeyri-neft sektoru üzrə manatın real effektiv məzənnəsi 2000-ci ildən bəri 10, 9 faiz ucuzlaşdırmışdır ki, bu da ortamüddətli dövrdə xarici ticarət şəraitinin əlverişli qaldığını göstərir.

Milli Bank il ərzində öz səlahiyyətləri çərçivəsində faal antiinflyasiya siyasəti yeritmişdir. Bu siyasət çərçivəsində faiz dəhlizi prinsipinin realizə edilməsinə başlanmış, dəhlizin əsas parametri olan uçot dərəcəsi 2 dəfə dəyişdirilərək 9,5 - 13 faizə çatdırılmışdır. Eyni zamanda, Milli Bank pul kütləsinin artımını məhdudlaşdırmaq üçün öz notlarının həcmini 2,2 dəfə artırmışdır. Neft gəlirlərinin davamlı artımı şəraitində valyuta bazarında təzyiqi yumşaltmaq məqsədi ilə kapitalın ölkədən çıxması rejiminin liberallaşdırılması barədə qərar qəbul olunmuşdur. Bu tədbir artıq özünün sterilizasiya effektlərini verməkdədir.

Beləliklə 2007-ci ildə Milli Bank yeritdiyi pul-məzənnə siyasəti ilə inflyasiyanın məhdudlaşdırılmasına təsir göstərmiş. Milli valyutanın məzənnəsinin əhəmiyyətli möhkəmlənməsinin qarşısının alınmasını təmin etmişdir.

İnflyasiyanın xarici kökləri dedikdə, pulun xarici alıcılıq qabiliyyətinə təsir edən xarici ticarət və tədiyə balanslarının vəziyyəti, xarici ticarət şərtləri, kapital və maliyyə axınları və s. Bu kimi mühüm amillər də həmişə diqqət mərkəzindədir. Xarici iqtisadi tarazlıq pozulduqda milli valyutanın məzənnəsində qeyri-sabitlik özünü göstərir.

Dünya bazarlarında enerji daşıyıcıları qiymətinin yüksəlməsi və Azərbaycanda ixracatın ümumi fiziki həcminin son dövrdə dinamik olaraq artması nəticəsində ölkəyə valyuta axınları genişlənir. Belə ki, ixracatın ümumi fiziki həcmi 2006-cı il ərzində 46,6%, o cümlədən neft və neft məhsulları ixracı 62% çoxalmışdır. 2007-ci ildə isə ixracat daha 95% artmışdır. Bundan başqa, neft sektorunun yüksək rentabelli olması və ölkədə makroiqtisadi sabitlik Azərbaycan iqtisadiyyatını xarici iş adamları üçün cəlbedici etmişdir. Belə ki, il ərzində birbaşa



və digər xarici investisiyalar 2006-cı il ərzində 53, 8%, 2007-ci ildə isə 34% artmışdır. Xarici kapitalın iştirakı ilə ölkə iqtisadiyyatına kredit qoyuluşları 2006-cı ildə 2 dəfə, 2007-ci ildə isə 2.8 dəfə çoxalmışdır.

Beləliklə, son dövrdə ölkəyə valyuta daxilolmalarında ciddi artım müşahidə edilir. Əlverişli xarici iqtisadi konyuktura, neft və digər məhsulların ixracının artması, ölkəyə kapital və maliyyə axınları - Milli Bankın valyuta bazarında tənzimləmə əməliyyatları aparmasına baxmayaraq, Azərbaycan manatının dollara nisbətən bahalaşmasına səbəb olmuşdur.

Beləliklə, deyilən məsələlərin təhlili göstərir ki, bu gün yaranmış daxili və xarici iqtisadi konyuktura Azərbaycanın maliyyə-kredit orqanları rəhbərlərini iki seçim qarşısında qoymuşdur: inflyasiya və yaxud manatın bahalaşması.

Bugünkü Azərbaycan reallığında inflyasiyaya qarşı yönəldilmiş tədbirlər, yəni manatın təklifinin məhdudlaşdırılması siyasəti, təbii olaraq, onun bahalaşmasına gətirib çıxarmışdır. Bu baxımdan, cədvəl №10.1-də verilən rəqəmlər diqqəti cəlb edir.

Cədvəl məlumatlarından göründüyü kimi manat dollara nisbətən 2005-cı ildən başlayaraq bahalaşır. Bu bahalaşma 2005-ci ildə 3.859%, 2006-cı ildə 5,959%, 2007-ci ildə isə 3.920% olmuşdur. 2006-cı ildə bahalaşma artan templə getmiş və həmin ilin son rübündə hər ay iki faizdən çox olmuşdur. 2007-ci ildə Milli Bankın gördüyü tədbirlər nəticəsində manatın bahalaşması tempi zəifləmişdir, lakin valyuta axınının artması külli miqdarda nəğd maliyyə ehtiyatları yaradacaqdır. Bu isə yalnız valyuta bazarında tələb və təklif arasında uyğunsuzluğu artırmaqla kifayətlənməyəcək, eyni zamanda, makrosəviyyədə tələb inflyasiyasına yol aça bilər.

*Cədvəl 10. 1.*

**Manatın dollara nisbətən məzənnəsinin dinamikası***

| Ay | İl | İlin əvvəlinə nisbətən % | Fərqi % |
|---|---|---|---|
| | **2006** | | |
| 3 | 0, 911 | 98, 002 | -1, 998 |
| 4 | 0, 906 | 98, 51 | -1, 49 |
| 5 | 0, 901 | 99, 035 | -0, 965 |
| 6 | 0, 897 | 99, 532 | -0, 468 |
| 7 | 0, 892 | 100, 135 | 0, 135 |
| 8 | 0, 882 | 101, 271 | 1, 271 |
| 9 | 0, 876 | 101, 906 | 1, 906 |
| 10 | 0, 873 | 102, 257 | 2, 257 |
| 11 | 0, 872 | 102, 327 | 2, 327 |

| | | | |
|---|---|---|---|
| 12 | 0, 871 | 102, 444 | 2, 444 |
| Ay | Il | Ilin əvvəlinə nisbətən% | Fərqi % |
| | **2007** | | |
| 1 | 0, 871 | 100, 08 | 0, 08 |
| 2 | 0, 869 | 100, 299 | 0, 299 |
| 3 | 0, 867 | 100, 484 | 0, 484 |
| 4 | 0, 866 | 100, 67 | 0, 67 |
| 5 | 0, 862 | 101, 09 | 1, 09 |
| 6 | 0, 857 | 101, 74 | 1, 74 |
| 7 | 0, 855 | 101, 942 | 1, 942 |
| 8 | 0, 853 | 102, 110 | 2, 110 |
| 9 | 0, 852 | 102, 110 | 2, 110 |
| 10 | 0, 850 | 102, 471 | 2, 471 |
| 11 | 0, 848 | 102, 712 | 2, 712 |
| 12 | 0, 846 | 102, 955 | 2, 955 |
| İL | Məzənnə | Ötən illərə nisbətən % | Fərqi % |
| **2002** | 0, 972 | | |
| **2003** | 0, 982 | 98, 992 | -1, 008 |
| **2004** | 0, 982 | 99, 969 | -0, 031 |
| **2005** | 0, 946 | 103, 859 | 3, 859 |
| **2006** | 0, 893 | 105, 959 | 5, 959 |
| **2007** | 0, 858 | 103, 92 | 3, 92 |

*[46, 1/2008, s. 26]

Tədiyə balansında yaranmış irihəcmli profisit və neft gəlirlərinin inkişaf məqsədləri üçün fəal istifadəsi şəraitində valyuta bazarında xarici valyutanın təklifi əhəmiyyətli artmışdır. Xarici valyutanın təklifinin tələbi üstələməsi şəraitində manatın ABŞ dollarına qarşı məzənnəsi 2006-cı il ərzində "tənzimlənən üzən məzənnə rejimi" çərçivəsində 5, 1%, 2007-ci ilin 11 ayında isə 16% möhkəmlənmişdir. Milli Bankın valyuta bazarına aktiv müdaxilələri manatın məzənnəsinin kəskin möhkəmlənməsinin qarşısını almışdır.

2006-cı ilidə beynəlxalq və daxili valyuta bazarlarında baş verən proseslər manatın portnyor ölkələrin valyutalarına nəzərən nominal ikitərəfli məzənnələrin dinamikasında öz əksini tapmışdır. Dövr ərzində manatın nominal məzənnəsi ticarət portnyoru olan bir qrup ölkələrin valyutalarına nəzərən möhkəmləndiyi



halda, digər qrup ölkələrin valyutalarına nəzərən dəyərdən düşmüşdür.

Manatın nominal ikitərəfli məzənnəsinin dinamikası real ikitərfli məzən-nələrin dəyişməsinə təsir göstərmişdir. 2006-cı ildə manatın məzənnəsi Rusiya istisna olmaqla real olaraq bütün ölkələrin valyutalarına nəzərən bahalaşmışdır.

2006-cı ildə manatın ABŞ, Türkiyyə, Gürcüstan, Qazağıstan, Yaponiya kimi ölkələrin valyutalarına nəzərən real ikitərəfli məzənnəsinin möhkəmlənməsi tempi nominal ikitərəfli məzənnənin möhkəmlənməsi tempini üstələmişdir. Eyni zamanda manat avroya, funt sterlinqə və İsrail şekelinə nəzərən nominal olaraq dəyərdən düşdüyü halda real olaraq möhkəmlənmişdir.

Ticarət portnyoru olan ölkələrin valyutalarına nəzərən ikitərəfli nominal məzənnələrin dəyişimini ticarətin xüsusi çəkilərini nəzərə alınaqla həndəsi ortasını əks etdirən manatın nominal effektiv məzənnəsi 2006-cı ilin dekabrında 2005-ci ilin dekabrına nəzərən ucuzlaşmışdır. Belə ki, nominal effektiv məzənnə ümumi ticarət çəkili 2, 1%, idxal çəkili 0, 6%, ixrac çəkili 3, 3% ucuzlaşmışdır. [46, 2006, s. 42-48]

Bütün bunlar isə ölkənin pul-kredit və valyuta siyasətinin mühüm tərkib hissəsi kimi, sterilizasiya adlanan (bir növ filtrdən keçirmə) əməliyyatlarının əhəmiyyətini Azərbaycan tarixində misli görünməmiş dərəcədə artırır. Dünya təcrübəsində sterilizasiya siyasəti adətən pul emisiyası funksiyasını yerinə yetirən Mərkəzi Bank tərəfindən həyata keçirilir. Azərbaycanda isə bu siyasətin həyata keçirilməsində Milli Bankla yanaşı, ali hakimiyyət orqanları və fiskal orqanlar da iştirak edirlər. Çünki neft dollarlarının artımı nəticəsində manatın bahalaşması prosesinin qarşısının alınması yalnız Milli Bankın ənənəvi əməliyyatları vasitəsilə həyata keçirilərsə, bu, maliyyə-kredit sahəsində qeyri-sabitlik yaranmasına səbəb ola bilər. Neft gəlirlərinin mühüm bir hissəsinin Neft Fondunda toplanması həmin gəlirlərin mühüm sterilizasiya vasitəsidir.

Ümumiyyətlə götürüldükdə, genişmiqyaslı sterilizasiya siyasəti dövlətin pul-kredit və valyuta siyasətinin aparıcı istiqamətinə yalnız inflyasiya və manatın bahalaşmasının qarşısının alınmasında Milli Bank tərəfindən həyata keçirilən əməliyyatların kifayət etmədiyi özünü büruzə verdikdən və bu sahədə prezident fərmanı qəbul edildikdən sonra çevrilmişdir.

Məlum olduğu kimi, neft gəlirləri dövlət büdcəsinə hər barel neftə görə əvvəllər 24, sonralar isə 50 və 80 ABŞ dolları hesabı ilə daxil edilmişdir. Mövcud qaydaya görə, qiymətin artımı hesabına respublikaya daxil olan valyuta vəsaitinin 25%-i Dövlət Neft Fonduna, 75% isə Dövlət Neft Şirkətinə daxil olur.

Neft gəlirləri artdıqca onların daha çox kapitaltutumlu obyektlərə və sənaye sahələrinə yönəldilməsi müstəsna əhəmiyyət kəsb edəcəkdir. Çünki investisiyalar belə obyektlərə yönəldikdə onların "mənimsənilməsi" uzun müddət tələb edir. Bu zaman artan neft gəlirlərinin istehlak bazarına təsiri azalmış olur. Yəni investisiya layihəsinin reallaşması dövründə həmin pullar bir növ "dondurulmuş" olur. Lakin bu dondurma məhsuldar "dondurulmadır" və "don açıldıqda" mal təklifi əhəmiyyətli dərəcədə artacaq və tələblə təklif arasındakı uyğunsuzluğu müvafiq ölçüdə aradan qaldıracaqdır.

Azərbaycan Milli Bankının pul siyasəti rejimi "Tənzimlənən üzən məzənnə rejimində inflyasiyanın idarə olunması" kimi müəyyən olunmuşdur. Bu rejim

aşağıdakı elementlərdən ibarətdir:

| Pul siyasətinin son hədəfi: İnflyasiya (baza) | → | Pul siyasətinin aralıq hədəfləri: M2, | → | Pul siyasətinin əməliyyat hədəfləri: - pul bazası - məzənnə (ABŞdollarına qarşı) |
|---|---|---|---|---|

Pul siyasətinə dair gündəlik qərarlar pul bazasının və ABŞ dollarının məzənnəsinin dəyişimində dərhal öz əksini tapır. Pul bazasının və manatın ABŞ dollarına nəzərən məzənnəsinin dəyişimi isə pul kütləsinə və NEM-ə təsir göstərir. Bu da müəyyən vaxt ərzində inflyasiya üzrə hədəfə nail olmağa imkan verir.

Operativ hədəflərdən asılı olaraq pul siyasəti alətlərinin kəmiyyət parametrləri, o cümlədən açıq bazar əməliyyatlarının həcmi, valyuta mübadiləsinin məbləği və s. müəyyənləşdirilir.

Maliyyə bazarlarının inkişaf səviyyəsini nəzərə alaraq Milli Bank 2007-ci ildən etibarən pul siyasətinin beynəlxalq standartlara uyğunlaşdırılması çərçivəsində "faiz dərəcələri dəhlizi" yanaşmasının tətbiqinə başlamışdır. Yeridilən pul siyasətinin reallaşması mexanizmlərinin mütərəqqi formalarından olan faiz dəhlizinin tətbiqi yeni əməliyyat strukturunu nəzərdə tutmaqla Milli Bankın iqtisadiyyatda pulun dəyərinə təsir etmək imkanlarını genişləndirəcəkdir.

2006-2007-ci illərdə inflyasiya prosesləri əsasən aşağıdakı amillərin təsiri altında formalaşmışdır:

- məcmu xərclərin, o cümlədən fiskal faktorların əhəmiyyətli təsir etdiyi istehlak və investisiyaların sürətlə artması və nəticədə, məcmu tələbin məcmu təklifi əhəmiyyətli üstələməsi;
- tədiyə balansının profisitinin artması və bu amilin pula təklifinin artımını əsas mənbəyinə çevrilməsi;
- məsrəf inflyasiyası, sənaye topdansatış qiymətlərinin əhəmiyyətli artması və bunun istehlak inflyasiyasına artırıcı təsiri;
- inhisarçılığın təsiri;
- partnyor ölkələrdən inflyasiya idxalı və s.

Tələbin sürətlə artması, valyuta bazarında xarici valyuta təklifinin kəskin genişlənməsi, xarici və daxili struktur faktorların intensivləşməsinə baxmayaraq həyata keçirilmiş pul siyasəti inflyasiyanın 2006-cı ildə təkrəqəmli səviyyədə saxlanmasına imkan vermişdir.

2006-cı ildə makroiqtisadi siyasətin səmərəliliyinin əsas göstəricisi sayılan orta illik inflyasiya tempi 8, 3% təşkil etmişdir. Əhalinin pul gəlirlərinin artım tempi orta illik inflyasiyanı 15, 1% bəndi üstələmişdir.

"Milli Bank haqqında" 2004-cü ildə qəbul edilmiş Qanunun 4. 1 maddəsinə görə, həmin bankın "əsas məqsədi öz səlahiyyətləri daxilində qiymətlərin sabitliyinin təmin edilməsidir". Lakin hər kəsə aydındır ki, qiymətlərin sabitliyi yalnız monetar amillərdən deyil, eyni zamanda, Milli Bankla yanaşı, əhəmiyyətli



dərəcədə iqtisadi inkişaf, Maliyyə nazirlikləri və Dövlət Gömrük Komitəsindən də asılıdır. Onların fəaliyyəti ciddi şəkildə əlaqələndirilməlidir.

## 10. 2. Xarici investisiya sahəsində dövlət siyasəti.

Bazar münasibətlərinin inkişafına və iqtisadi tərəqqiyə təkan verən mühüm amillərdən biri Azərbaycanın qısa müddət ərzində beynəlxalq kapital hərəkatında fəal iştirak etməyə başlamasıdır. Kapitalın beynəlxalq miqrasiyası dövrümüzün xarakterik xüsusiyyətini təşkil etməklə, təsərrüfat həyatının beynəlmiləlləşməsinin dərinləşməsində və istehsalın səmərəliliyinin yüksəldilməsində mühüm ünsür olmasına baxmayaraq, ölkəmiz inzibati-amirlik sistemi dövründə bu prosesdən tamamilə kənarda qalmışdır.

Məlum olduğu kimi müasir mərhələdə qlobal təsərrüfata qoşulmanın səmərəliliyi əhəmiyyətli dərəcədə ölkənin beynəlxalq rəqabət qabiliyyətinə nə dərəcədə malik olmasından asılıdır. Amerikan iqtisadçısı M. Porterin təklif etdiyi sxemdən istifadə etsək, aydın olar ki, uzun müddət Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabət gücü əsas etibarilə istehsal amillərindən istifadəyə əsaslanmışdır.

Azərbaycan ixracatının 9/10-nan uzun müddət yanacaq-energetika kompleksi məhsullarından ibarət olması o deməkdir ki, ölkəmizin dünya bazarında tutduğu birtərəfli mövqe yerli istehsalçıların təbii ehtiyatlarının verdiyi üstünlüklərdən istifadə etməsindən irəli gəlir. Dünya dövlətlərinin təcrübəsi isə göstərir ki, belə bir üstünlük daimi deyildir. Dünya bazarlarında ölkənin zəmanətli üstünlüyünü isə investisiya və innovasiyalar əsasında təmin etmək mümkündür. Bu yol inkişaf etmiş sənaye ölkələrinin lider vəziyyətinə gəlməsində, postsənaye cəmiyyətinin yaranmasında əsas rol oynamışdır. İnvestisiya yolu ilə rəqabət gücünün inkişaf etdirilməsi milli firmaları müasir texnika və texnologiya, lisenziyaların əldə edilməsi və müştərək müəssisələrin yaradılması üçün investisiya qoyuluşlarına vadar edir. Firma və müəssisələr texnika və texnologiyanı idxal etməklə onların yerli şəraitə uyğunlaşdırılmasına çalışmalıdırlar. Lakin inkişaf etmiş ölkələrdə bu proses artıq arxada qalmış bir mərhələdir. Həyat bütün kəskinliyi ilə yeni texnikanın yalnız idxalını deyil, öz qüvvəsi ilə yaradılmasını da tələb edir.

Təbiidir ki, müstəqillik əldə edildikdən sonrakı ilk illərdə ağır texniki-iqtisadi və maliyyə vəziyyətində olan Azərbaycan müəssisələri yüksək kapitaltutumlu həmin məsələlərin həllini öz qarşısına qoymaq üçün kifayət qədər potensiala malik deyildilər. Lakin investisiya və innovasiyalar hesabına rəqabət üstünlüyünə keçmək üçün onların belə bir şəraitdə xarici tərəfdaşların fəaliyyətinin bu və ya digər ünsürlərindən faydalanmaları olduqca vacibdir. Neft gəlirləri ilə yanaşı bu ünsürlərdən ən mühümü xarici investisiyaların cəlb olunmasıdır.

Hər şeydən əvvəl Azərbaycanın geopolitik mövqeyi, onun Avropa və Asiya qovşağında beynəlxalq biznesə qoşulmaq baxımından cəlbedicidir. Avropa-Asiya tranzit nəqliyyat yollarının Azərbaycan ərazisindən keçməsi, Xəzər dənizinə yaxınlıq, ölkədə və regionda səmərəli və perspektivli bazarların olması istər istehsal olunan, istərsə də ölkəyə gətirilən əmtəələrin satış imkanlarını genişləndirir. TRACECA proqramı çərçivəsində qədim İpək Yolunun bərpası istiqamətində

tisiya fəaliyyəti üçün yaradılmış rejimdən az əlverişli ola bilməz.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 20 fevral 2008-ci ildə Macarıstanda səfərdə olarkən qeyd etmişdir: " Xarici sərmayənin həcminə görə Azərbaycan bölgədə birinci sıralardadır. Azərbaycanda bütün investisiyalar, o cümlədən xarici investisiyalar çox etibarlı şəkildə qorunur. Bizim üçün strateji olan layihələr, hətta qanun kimi qəbul edilir və beləliklə, həm investorlarda, həm də yerli qurumlarda tam əminlik var ki, bu sazişlərə, layihələrə, razılaşmalara heç kim müdaxilə etməyəcəkdir. Biz xarici investisiyaları maksimum dərəcədə qorumaq üçün əlimizdən gələni edirik və bu günə qədər bu sahədə heç bir narahatçılıq olmamışdır. Biz bu etibarı qazanmışıq və yüksək qiymətləndiririk. Azərbaycan bu yaxınlarda Dövlət İnvestisiya Şirkətini yaratmışdır. Şirkətin əsas məqsədi ondan ibarətdir ki, dövlət xarici investisiyaları cəlb etmək üçün özü müəyyən layihələrdə səhmdar kimi iştirak edə bilər, edir və edəcəkdir".

Azərbaycan iqtisadiyyatında xarici investisiyaların rolu 1995-ci ildən sonra sürətlə artmışdır.

1995-ci ildə ölkəmizə 375, 1 mln. dollar xarici investisiya qoyulduğu halda, 2007-ci ildə onun məbləği 11540, 3 mln. dollara çatmış və ya illik məbləği 31 dəfə artmışdır. Cəmi investisiyalarda onun xüsusi çəkisi də davamlı artım göstərərək 2002-ci ildə 80%-ə qədər yüksəlmişdir. Sonrakı illərdə yerli sahibkarlığın maddi-texniki bazasının möhkəmlənməsi daxili investisiyaların durmadan artmasına və xarici və daxili investisiyalar arasındakı nisbətin ikincisinin xeyrinə dəyişməsinə səbəb olmuşdur.

Neft kontraktlarının icrası ilə əlaqədar olaraq cədvəl 10. 2 məlumatlarından göründüyü kimi respublikaya cəlb olunmuş birbaşa xarici investisiyaların böyük əksəriyyəti neft sektoruna yönəldilmişdir.

*Cədvəl 10. 2.*

**Xarici investisiyalar (mlyn. ABŞ dolları)***

| | 2000 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|---|
| Cəmi xarici investisiya o cümlədən: | 927, 0 | 2234, 9 | 3371, 0 | 4575, 5 | 4893. 2 | 5052. 8 | 6760. 3 |
| Maliyyə krediləri | 262, 9 | 223, 0 | 238, 3 | 293, 0 | 698, 4 | 983. 5 | 1425. 8 |
| Neft sənayesi | 546, 1 | 1693. 0 | 2972, 4 | 4088, 1 | 3799. 9 | 3422. 3 | 4176. 3 |
| Birgə və xarici investisiyalı müəssələr ondan: | 118 | 318, 9 | 45, 4 | 104. 2 | 230. 5 | 368. 4 | 376. 0 |
| Türkiyə | 31. 6 | 55. 6 | 17. 1 | 80. 1 | 96. 2 | 136. 6 | 139. 1 |
| ABŞ | 11. 2 | 41. 4 | 4. 9 | 8. 4 | 24. 8 | 70. 0 | 71. 4 |
| İran | 2. 9 | 2. 7 | - | - | 1. 2 | 17. 5 | 18. 0 |
| Almaniya | 1. 7 | 1. 7 | - | 2. 1 | 21. 5 | 17. 4 | 17. 6 |
| Rusiya | - | 0. 7 | 1. 2 | 1. 8 | 39. 5 | 4. 6 | 4. 5 |
| Böyük Britaniya | 6. 8 | 108. 1 | 9. 0 | 4. 2 | 5. 1 | 39. 1 | 40. 0 |
| Birləşmiş Ərəb Əmirlikləri | 2. 8 | 0. 2 | 4. 4 | 4. 4 | 5. 7 | 18. 3 | 18. 8 |
| İsveçrə | - | - | - | - | 0. 5 | 2. 7 | 2. 6 |
| Fransa | 39. 3 | 25. 7 | 2. 2 | 2. 2 | 2. 6 | 11. 1 | 11. 3 |
| Kipr | - | - | - | - | 0. 2 | 5. 4 | 5. 6 |
| Çin | - | - | - | - | 0. 2 | 1. 3 | 1. 5 |
| İtaliya | - | - | - | - | 4. 6 | 2. 8 | 3. 0 |
| Pakistan | - | - | - | - | - | 3. 1 | 3. 0 |
| Norveç | - | 31. 6 | - | - | - | - | - |
| Yaponiya | 16. 4 | 23. 7 | - | - | - | - | - |
| Digər ölkələr | 5. 3 | 27. 5 | 6. 6 | 1. 0 | 28. 4 | 38. 5 | 39. 6 |
| Neft bonusu | - | - | 58. 6 | 21. 6 | 1. 0 | 17. 0 | 67. 7 |
| Portfel investisiyalar | - | - | - | 19. 0 | 78. 0 | 57. 8 | - |
| Digər investisiyalar | - | - | 56. 3 | 49. 6 | 85. 4 | 203. 8 | 714. 5 |

*[43. s. 124, 125]



Azərbaycan iqtisadiyyatına xarici kapitalın cəlb edilməsinin ən mühüm vasitələrindən biri özəlləşdirmə prosesidir. Yeni sahələrin o cümlədən xarici sərmayəçilər üçün xüsusilə cəlbedici olan metallurgiya, kimya, energetika, maşınqayırma, nəqliyyat, rabitə və digər sahələrdə fəaliyyət göstərən şirkətlərin özəlləşdirilməyə açılması xarici sərmayə axınına güclü təkan vermişdir.

Yeyinti, yüngül sənaye məhsullarının, inşaat materiallarının və digər məhsulların istehsalı ilə məşğul olan müəssisələrin xarici şirkətlər tərəfindən özəlləşdirilməsi, energetika, metallurgiya müəssisələrinin uzunmüddətli idarə etməyə verilməsi həyata keçirilən tədbirlərin uğurundan xəbər verir.

Bütün bunları nəzərə alaraq investisiyaların ölkəyə cəlb edilməsi ilə bağlı aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruri hesab edilir.

1. Azərbaycan Respublikasında xarici investisiya qoyuluşlarının təcrübəsi ümumiləşdirilərək və ölkənin inkişaf perspektivləri nəzərə alınmaqla uzunmüddətli dövlət investisiya proqramı tərtib edilməli və bu sahədə dövlət siyasətinin daha da təkmilləşdirilməsi üçün kompleks tədbirlər görülməlidir.

2. Ölkəyə xarici investisiyaların cəlb olunmasının daha da liberallaşdırılması istiqamətində işlərin sürətləndirilməsi, "Xarici investisiyaların qorunması haqqında" və "İnvestisiya fəaliyyəti haqqında" qanunların təkmilləşdirilməsi sürətləndirilməlidir.

3. Qeyri-neft sektoruna investisiya axınının sürətləndirilməsi işinə xüsusi qayğı göstərilməlidir. Bu zaman Azərbaycanın maşınqayırma, yüngül və yeyinti sənaye kimi ənənəvi emaledici sənaye sahələri, kənd təsərrüfatının inkişafı xüsusi əhəmiyyət kəsb etməlidir.

Xüsusi ixrac zonalarının yaradılması, neft sahəsində olduğu kimi iqtisadiyyatın digər sahələrində də xarici şirkətlərlə konsorsiumun yaradılması, məhsulun pay bölgüsü üzrə sazişlərin imzalanması və bu sazişlərə qanun statusunun verilməsi də qeyri-neft sektorunda xarici sərmayələrin əhəmiyyətli dərəcədə artırılmasında səmərəli mexanizm ola bilər.

Sərmayələrin sahələr və regionlar üzrə tarazlığının təmin edilməsi baxımından, regionlarda infrastruktur, ilk növbədə elektrik enerjisi, qaz, su ilə təminatın yaxşılaşdırılması, təşviq tədbirlərinin həyata keçirilməsi zəruridir.

5. Kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi məqsədilə bu sahəyə maliyyə yardımı göstərilməsi üçün dövlət proqramının real həyata keçirilməsi mexanizm hazırlanmasıdır. Eyni zamanda beynəlxalq təşkilatlardan qeyd edilən strukturların inkişafı üçün ayrılmış kreditlərin və yardımların istifadəsində pərakəndəliyin aradan qaldırılması və bu işlərin bir mərkəzdən idarə olunması üçün tədbirlər görülməsi.

6. Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə sahibkarlıq fəaliyyəti nəticəsində əldə etdikləri əmlak, pul və s. varidat sərmayə şəklində Azərbaycana gətirilərsə bunlara da xarici sərmayə üçün nəzərdə tutulmuş qaydalar və təminatlar tətbiq olunmalıdır.

7. Azərbaycan Respublikasının xarici investisiyaların cəlb olunması ilə bağlı reytinqinin yüksəldiyi nəzərə alınmaqla ölkəyə hökumət zəmanəti tələb olunmayan investisiyaların cəlb edilməsi praktikasından geniş istifadə edilməlidir.

Respublikamızda müştərək müəssisələr 1988-ci ildən yaradılmağa başlanmışdır. Lakin onların sayı yalnız 1992-ci ildə "Xarici investisiyaların qorunması" haqqında qanun qəbul edildikdən sonra sürətlə artmışdır. Azərbaycanda 2006-cı ildə xarici investisiyalı müəssisələrin və işinin əsas göstəriciləri cədvəl №10.3 məlumatları ilə xarakterizə edilir. Cədvəldən göründüyü kimi xarici investisiyalı müəssisələrin sayı 1.01.2007-cb ildə 863 olmuşdur. Onların buraxdıqları məhsulların həcmi 10.2 mlrd. manat təşkil etmişdir. Başqa sözlə 2006-cı ildə ÜDM-un 60% xarici investisiyalı müəssisələrdə istehsal edilmişdir. 742 müəssisədən 477 xarici mülkiyyət, 265-i isə qarışıq mülkiyyətdir.

Xarici investisiyalı müəssisələrin mənşəyi ölkələr üzrə araşdırıldıqda məlum olur ki, say etibarı ilə bu sahədə Türkiyə birinci yeri qoruyub saxlayır. Lakin onların çoxu kiçik və orta müəssisələrdir. Ona görə də Türkiyə firmalarının yaratdıqları xarici investisiyalı müəssisələr analoji müəssisələrin 35, 5%-ni təşkil etdiyi halda, istehsal etdikləri mal və xidmətlər cəmisi 8, 7%-dir.

Ölkəmizdəki xarici investisiyalı müəssisələrin 95, 6%-i, onların istehsal etdikləri mal və xidmətlərin isə 99, 7%-i həmin ölkələri təmsil edən firmalara məxsusdur. Azərbaycanda fəaliyyət göstərən xarici investisiyalı müəssisələrin cəmisi 54-ü MDB ölkələrinə, onların isə 40-ı Rusiyaya aiddir. Bu sahədə uzaq xarici ölkələr getdikcə mütləq hegemonluğu ələ keçirirlər.

Statistik məlumatların təhlili göstərir ki, 2006-cı ildə Azərbaycanda fəaliyyət



göstərən xarici və müştərək müəssisələrin cəmisi 25%-i sənaye sahəsində fəaliyyət göstərdi. Lakin onlar əsas etibarilə iri həcmli və böyük kapitala malik müəssisələr olduqları üçün xarici və müştərək müəssisələrdə istehsal edilən məhsulun (iş və xidmətlərin) 84,3%-i sənaye məhsullarının payına düşür. Ölkəmizdə sənaye məhsulunun 28%-i həmin müəssisələrdə istehsal edilir. Tikinti, topdan və pərakəndə satış, daşınmaz əmlakla əlaqədar əməliyyatlar, nəqliyyat, anbar təsərrüfatı və rabitə sahəsində də xarici və müştərək müəssisələr müəyyən mövqeyə malikdirlər.

Müştərək müəssisələr məşğulluq probleminin həll olunmasında müsbət rol oynayırlar. Respublika iqtisadiyyatında çalışan işçilərin orta aylıq əmək haqqı 2006-cı ildə 149 manat təşkil etdiyi [44, 2003, s. 113] halda, müştərək müəssisələrdə həmin məbləğ 747 manat və ya 5 dəfə çoxdur. 2000-ci ildə sənayedə fəaliyyət göstərən xarici investisiyalı müəssisələrin əsas iqtisadi göstəriciləri 10. 3 saylı cədvəldə verilən rəqəmlərlə xarakterizə edilir. [44, 2007, s. 115].

*Cədvəl № 10. 3.*

**Xarici və müştərək müəssisələrin fəaliyyəti (2006-cı il)***

| Sahələr | Fəaliyyət göstərən müəssisələrin sayı | İşləyənlərin orta siyahı sayı, nəfər | Orta aylıq əmək haqqı, manat | Məhsulun (işlərin və xidmətlərin) həcmi, mlrd manat |
|---|---|---|---|---|
| CƏMİ | 863 | 63105 | 747 | 12, 1 |
| Sənaye | 234 | 28416 | 721 | 10, 1 |
| Tikinti | 86 | 13083 | 677 | 0, 7 |
| Kənd təsərrüfatı | 6 | 266 | 44 | 0, 06 |
| Topdan və pərakəndə satış: avtomobillərin, məişət mallarının təmiri | 251 | 4930 | 205 | 0, 08 |
| Mehmanxanalar və restoranlar | 27 | 2053 | 314 | 0, 06 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 81 | 4318 | 509 | 0, 7 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə fəaliyyəti | 125 | 7087 | 2051 | 0, 4 |
| Təhsil | 26 | 1334 | 147 | 0, 005 |
| Səhiyyə və sosial xidmətlər | 12 | 655 | 294 | 0, 04 |
| Digər kommunal sosial və fərdi xidmətlər | 15 | 963 | 237 | 0, 02 |

* [44, 2007, s. 115]

*Cədvəl № 10. 4.*

**Azərbaycana xaricdən cəlb edilən kreditlər və onun strukturu**
**1 yanvar 2008-ci il**

| | İmzalanmış sazişlər üzrə cəlb olunmuş vəsait | | İstifadə olunmuş və dövlət borcu hesab edilən kerditlər üzrə | |
|---|---|---|---|---|
| I. Cəmi kreditlərin məbləği | 4991. 0 | | 2441. 9 | |
| ÜDM faiz nisbəti | 16. 8% | | 8. 2% | |
| Adam başına düşən xarici borc | 580. 3 ABŞ dolları | | 283. 9 ABŞ dolları | |
| II. Kreditlərin strukturu<br>1. İqtisadi islahatlar üçün cəlb edilən kreditlər | 581. 2 | 11. 6% | 15. 3% | |
| Beynəlxalq Valyuta Fondu | 299. 7 | 6. 0% | 4. 1% | |
| Dünya Bankı | 281. 6 | 5. 6% | 11. 1% | |
| 2. İnvestisiya layihələri üçün cəlb edilən kreditlər | 4409. 7 | 88. 4% | 2069.3 | 84. 7% |
| Elektrik enerjisi sektoru | 1544. 6 | 30. 9% | 870.6 | 35. 7% |
| Kənd təsərrüfatı və meliorasiya | 318. 6 | 6. 4% | 185.4 | 7, 6% |
| Yol tikintisi və nəqliyyat | 1307. 4 | 26. 2% | 467.0 | 19. 1% |
| Kimya sənayesi | 81. 4 | 1. 6% | 36.7 | 1. 5% |
| Neft və qaz sektoru | 158. 0 | 3. 2% | 153. 9 | 6. 3% |
| İşğaldan azad olunmuş ərazilərin bərpası | 69. 1 | 1. 4% | 54. 7 | 2. 2% |
| Sosial sahələr | 649. 3 | 13. 0% | 180. 9 | 7. 4% |
| Digər sahələr | 281. 2 | 5. 6% | 120. 1 | 4. 9% |

Digər kateqoriyalara nisbətən bu iki qurumun ayırdıqları kreditlər güzəştli şərtlərə malikdirlər. Onlar Azərbaycanın xarici dövlət borcunun yarısına qədərini təşkil edir. Bu sahədə növbəti yeri Avropa Yenidənqurma və İnkişaf Bankı tutur (yekun həcmdə xüsusi çəkisi 7, 5%). Həmin bankın ən iri kredit tranşı 53, 2 mln. dollar Yenikənd Su Elektrik Stansiyasının tikintisinə ayrılmışdır. Kreditorlar üzrə borcun strukturu 01. 10. 2006-cı il tarixdə aşağıdakı kimi olmuşdur:

BVF- 4. 1%, Dünya Bankı – 27. 9%, İİB – 3. 2%, AYİB – 6. 5%, KFV – 3. 2%, KTBİF - 1%, YBƏB – 15. 9%, Ekzim Banklar – 32. 7%, Kommersiya Bankları - 3%, Ölkələr – 2. 7%. Maliyyə Nazirliyinin məlumatına əsasən 1. 01. 2008-ci il tarixində xarici dövlət borcunun borclanma növünə görə təsnifatı aşağıdakı kimidir:

Bilavasitə hökumətə verilən kreditlər – 996. 6 mln. ABŞ dollar;

Hökumətə verilən və icraçıya ötürülən kreditlər – 586. 5 mln. ABŞ dollar;

Hökumət zəmanəti ilə təqdim edilən kreditlər – 858. 8 mln. ABŞ dollar.

Azərbaycan Respublikasının Beynəlxalq maliyyə-kredit təşkilatları və xarici ölkələrdən almış olduğu kreditlər cədvəl 10.4 məlumatlarından göründüyü kimi iq-



tisadiyyatın çox geniş sahələrini əhatə edir. Bazar iqtisadiyyatına keçid şəraitində alınan kreditlərin təxminən 1/5-i struktur islahatlarının həyata keçirilməsinə sərf edilmişdir. Bu qəbildən olan kreditlərə bank sisteminin dirçəldilməsi, büdcə və tədiyə balansı kəsirlərinin maliyyələşdirilməsi üçün alınmış vəsaitlər daxil edilir. Halbuki, büdcə və tədiyə balansı kəsirlərinin ödənilməsi məqsədilə alınan kreditlərin heç də hamısı struktur islahatı üçün istifadə edilmir. Bütün xarici kreditlərin 88. 4%-i iqtisadiyyat sahələrinə yönəldilmişdir. Energetika və nəqliyyatın inkişaf etdirilməsi məqsədlərinə 57. 1%-i yönəldilmişdir. Nəqliyyat sektoruna isə TRACECA proqramı çərçivəsində Böyük İpək Yolunun bərpa edilməsi məqsədilə Ələt-Qazıməmməd yolunun tikintisi üçün 71. 1 mln. dollar ayrılmışdır. Azərbaycan iqtisadiyyatına cəlb olunan investisiya xarakterli kreditlərin həcmi 2003-cü ildə 213. 0 mln. ABŞ dollarından 2007-ci ildə 2069. 3 mln. dollara qədər yüksəlmiş və cəmi xarici borcların 84. 7%-ni təşkil etmişdir.

Yuxarıdakı fəsillərdə qeyd edildiyi kimi Azərbaycan kimi keçid iqtisadiyyatı ölkələrində investisiyaların maliyyələşdirilməsi üçün xarici mənbələrə böyük ehtiyac vardır. İnvestisiya kreditlərinin beynəlxalq hərəkəti qloballaşma prosesini sürətləndirir və inkişaf etməkdə olan ölkələrdə iqtisadi tərəqqi üçün əlavə imkanlar yaradır. Bu əlavə vəsaitlərdən səmərəli istifadə olunması həmin ölkələr qarşısında duran mühüm problemlərdən biridir.

İqtisadiyyata kredit qoyuluşlarının tərkibində də xarici investisiya kreditlərinin xüsusi çəkisi 1995-ci ildə 15. 2%-dən, 2005-ci ildə 14. 2%-ə qədər, sonrakı illərdə sürətlə artaraq 2007-ci ildə xüsusi çəkisi 59. 3%-ə yüksəlmişdir [44, s. 378-379]. Nəzərə almaq lazımdır ki, beynəlxalq maliyyə-kredit təşkilatlarının investisiya kreditləri adətən güzəştli xarakter daşıyır və onların artması ölkəmizdə xarici kreditlərin səmərəliliyinin mühüm göstəricilərindən biridir.

Respublikanın investisiya ehtiyatlarının maliyyələşdirilməsində Dünya Bankı xüsusilə seçilir (27. 9 %) və həmin təşkilatla aparılan işin daha da genişləndirilməsi vacibdir. Eyni sözləri Avropa Yenidənqurma və İnkişaf Bankı və İslam İnkişaf Bankı haqqında da demək olar. Xarici borcun valyuta tərkibi çox müxtəlifdir. Ən yüksək xüsusi çəkiyə bütün borcların 32. 7 %-i SDR (xüsusi borcalma hüququ) ilə alınan borclar təşkil edir. Bu valyuta ilə borcu BVF və BİA verirlər. Onun dəyəri, məlum olduğu kimi hər gün ərzində dörd valyutadan ibarət səbət əsasında müəyyən olunur. Səbətdəki valyutaların proporsiyaları belədir: ABŞ dolları – 25. 4%, Avro - 20%, Yaponiya iyeni – 15, 9%.

SDR və İslam dinarı ilə verilmiş borcların valyuta tərkibi müəyyən edilərkən borclar həmin valyutaların səbətdəki faiz nisbətinə uyğun olaraq bölünür. Bu zaman aydın olur ki, borcların 20, 6 %-i ABŞ dolları, 19, 1 %-i yapon iyeni, 16, 6 %-i Avro, 3 %-i İsveçrə frankı və 2, 2 %-i islam dinarı valyutalarda əks olunublar.

Azərbaycanın xaricdən aldıqları borcların faiz dərəcələri orta hesabla 3, 5-4% təşkil edir ki, orta hesabla götürüldükdə bu o qədər yüksək hesab edilmir. Bu onunla əlaqədardır ki, bu borcların böyük əksəriyyəti beynəlxalq inkişaf institutları tərəfindən güzəştli şərtlərlə verilir. Məsələn, BYA üzv ölkələri fərdi ortamüddətli inkişaf strategiyası çərçivəsində kreditlər 30 il müddətinə illik 0, 75% hesabı ilə verilir. Alman və Yaponiya İnkişaf fondları da təxminən eyni şərtlərlə verir. BVF-nun kreditləri isə 3, 5-5% arasında dəyişir. Kommersiya şərtləri ilə kreditlər isə çox

olmuşdur. Cari əməliyyatlar balansının kəsiri 1998-ci ildə ən yüksək həddə - 1364, 5 mln. ABŞ dollara çatdıqdan sonra 2000/2001-ci illərdə azalmış və 2001-ci ildə 51, 8 mln. dollar təşkil etmişdir. Bunun əsas səbəbi beynəlxalq neft müqavilələrinin - neft hasilatı və onun nəqli mərhələsinə daxil olmasıdır. Cari əməliyyatlar hesabının ən mühüm tərkib hissəsi ticarət balansıdır.

1994-cü ildən başlayaraq ticarət balansı kəsirlə başa çatmışdır (Bax: əlavə 15). Bu meyl 1999-cu ilədək davam etmiş, yalnız 2000-ci ildən ölkənin xarici ticarətində müsbət dəyişikliklər baş vermiş və balans müsbət saldo ilə yekunlaşmışdır. 2000-ci ildə ixracın payı artaraq 60%, idxalın payı isə 40% olmuş, ticarət balansı müsbət saldo verərək 53 mln. ABŞ dolları təşkil etmişdir. 2004-cü ildə bu göstəricilər müvafiq olaraq 51%, 49% təşkil etmişdir və müsbət saldo isə 160 mln. ABŞ dolları olmuşdur. İxracın həcminin idxala nisbətən artması ixracın strukturunda neft və neft məhsullarının xüsusi çəkisinin artması ilə əlaqədar olmuşdur.

Həmin dövrdə xarici ticarət balansı kəsirinin coğrafi strukturunun təhlili göstərir ki, bu kəsirin başlıca mənbəyi MDB ölkələri ilə olan ticarətdir. 2001-2006-cı illərdə Avropa Birliyi ölkələri ilə xarici ticarət müsbət saldo verdiyi halda MDB ölkələri ilə ticarətin kəsiri artmaqda davam edir. Son illərdə tədiyə balansı üzrə maliyyə axınları ölkənin ödəmə qabiliyyətinin daha da yaxşılaşdığını, investisiya potensialının reallaşması prosesinin sürətləndiyini və xarici tərəfdaşların ölkəmizə etimadının artdığını göstərir.

Cari əməliyyatlar hesabının saldosu bir sıra müsbət faktorlar, xüsusən neft strategiyasının reallaşması nəticəsində 2004-cü ildə 2, 6 mlrd. dollar kəsirlə yekunlaşmışdır. Belə ki, ölkəyə daxil olmuş xarici kapitalın artması hesabına investisiya xarakterli malların və xidmətlərin idxalı çoxalmışdır.

*Cədvəl № 10. 5*

**AR-nın dünya ölkələri ilə xarici ticarət balansı (1992-2006)* (mln. ABŞ$)**

| İllər | CƏMİ | O cümlədən | |
|---|---|---|---|
| | | Uzaq xarici ölkələrlə | MDB ölkələri ilə |
| 1992 | 544 | 421 | 123 |
| 1993 | 175 | 110 | 65 |
| 1994 | -141 | 71 | -212 |
| 1995 | -31 | -87 | 57 |
| 1996 | -330 | -280 | -50 |
| 1997 | -12 | -40 | 28 |
| 1998 | -471 | -298 | -173 |
| 1999 | -106 | 8 | -114 |
| 2000 | 573 | 714 | -141 |
| 2001 | 883 | 1105 | -222 |
| 2005 | 8558 | 680 | -544 |
| 2006 | 11639 | 2272. 9 | -1168 |
| 2007 | 349735 | -51779. 3 | -23403. 4 |

*Cədvəl DSK-nın hər il buraxılan illik idxal-ixrac göstəriciləri əsasında tərtib edilmişdir.

Son dövrlərdə əhalinin istehlak mallarına olan tələbatının daha çox hissəsi-



nin yerli mallar hesabına ödənilməyə başlanması və bu sahədə kompleks tədbirlər sisteminin həyata keçirilməsi böyük irəliləyişdir.

Bu baxımdan Prezident İlham Əliyevin rəhbərliyi altında qeyri-neft sektorunun sürətli inkişaf strategiyası müstəsna əhəmiyyət kəsb edir.

Tədiyə balansının strukturu təhlil edildikdə məlum olur ki, xidmətlər balansı əsasən aşağıdakı xidmətləri özündə birləşdirir: nəqliyyat xidmətləri, turizm xidmətləri, rabitə xidmətləri, tikinti xidmətləri və s. Xidmətlər balansında daxilolmalar (kredit) bölməsi Azərbaycan Respublikası tərəfindən digər ölkələrə göstərilən xidmətlərə görə alınan vəsaiti, onun ödənişlər (debet) bölməsi isə Azərbaycan Respublikasının vətəndaşlarına və hüquqi şəxslərinə xarici rezidentlər tərəfindən göstərilən xidmətlərin dəyərini əks etdirir.

Xarici ölkələr tərəfindən Azərbaycana göstərilən xidmətlər içərisində turizm, tikinti və nəqliyyat xidmətləri müəyyən yer tutur. Tədiyə balansında öz əksini tapan qarşılıqlı xidmətlər dövriyyəsində nəqliyyat əməliyyatlarının payı 2000-ci ildə 35, 4% təşkil etmişdir. Nəqliyyat xidmətlərinin ümumi məbləğinin 54, 7%-i Azərbaycan rezidentləri tərəfindən xarici firmaların nəqliyyat vasitələrindən istifadə ilə əlaqədardır. Halbuki, başqa dövlətlərə Azərbaycan tərəfindən göstərilən nəqliyyat xidmətləri isə ondan iki dəfə azdır. Bunun isə böyük bir hissəsi TRACEKA proqramı çərçivəsində Respublika ərazisindən Orta Asiyadan Avropaya keçib gedən tranzit yük daşımaları ilə əlaqədardır. [44, 2000, s. 22]

Xidmətlər balansının passiv xarakter daşımasının və idxal olunmuş xidmətlərin artmasının əsas səbəblərindən biri son illər beynəlxalq neft kontraktları ilə bağlı işlərin həcminin çoxalmasıdır.

Balansın kəsirləri 2000-ci ildə 224, 7 mln. dollardan 2004-cü ildə 2238 mln. dollara çatmışdır. Araşdırmalar göstərir ki, bu neft sektorunda xarici xidmətlərin və xarici investisiyalar üzrə transfert ödəmələrin sürətlə artması nəticəsində baş verir. Belə ki, 2002-ci ildə xidmətlər balansının 875, 0 mln. dollarlıq kəsirinin 800 mln dolları neft sektoru ilə əlaqədar olmuşdur.

Xidmətlər balansının tədiyə balansına göstərdiyi davamlı və ciddi təzyiq ölkədə infrastrukturun zəif inkişafı nəticəsində xarici firmaların xidmət sahəsində geniş fəaliyyətinə yol açmışdır. Ölkəmizdə son 5 ildə infrastruktur obyektlərinin sürətli inkişafını təmin edən strateji xətt bu boşluğun aradan qaldırılmasına yönəldilmişdir.

Bütün bunlar isə xidmətlər sektorunda infrastrukturun inkişafına daha ciddi diqqət verilməsini tələb edir.

Cari transfertlər əsasən humanitar, texniki və digər təmənnasız yardımlardan, pul baratlarından və beynəlxalq təşkilatlara üzvlük haqlarından ibarətdir. Cari əməliyyatlar hesabının digər bölmələrindən fərqli olaraq cari transfertlər üzrə saldo müsbətdir, yəni bu sahə üzrə daxilolmalar ödənişləri üstələyir.

Azərbaycanın tədiyə balansının mühüm fərqləndirici xüsusiyyəti onun mühüm tərkib hissəsi kimi kapitalın və maliyyənin hərəkəti hesabının rolunun sürətlə artması və balansın aparıcı elementinə çevrilməsidir. Bu hesab öz həcminə görə cari əməliyyatlar hesabını ötüb keçmişdir.

Tədiyə balansının kapitalın və maliyyənin hərəkəti bölməsində bir tərəfdən Azərbaycana xarici investisiyaların və maliyyə vəsaitinin daxil olmasını, digər

faizdən artıq təşkil edir. Bu müəssisələrin istehsal etdikləri məhsulun və xidmətlərin həcmi 1999-cu ildə 2880 milyard manatdan (təxminən 720 milyon ABŞ dollarından artıq) 2005-ci ildə 7081 milyard manata çatmışdır. [37, s. 46-51]

Ötən illər ərzində dövlət büdcəsinə daxilolmalarda xarici investisiyalı müəssisələrdən ödənilən vergilərin xüsusi çəkisi də xeyli artmışdır. Əgər bu göstərici 1995-ci ildə cəmi vergi daxilolmalarına nisbətən 2, 4 faiz olmuşdursa, 1999-cu ildə 23, 6 faizə, 2000-ci ildə isə 21, 7%-ə qədər yüksəlmiş və sonrakı illərdə mütəmadi olaraq artır.

Təbii ki, xarici investisiyaların iqtisadiyyatımıza cəlb olunmasına təsir edən amillərdən biri də xarici investorlar üçün əlverişli vergi mexanizminin yaradılmasıdır. Dövlətin vergi siyasətinin başlıca istiqamətlərindən biri də məhz, ölkədə xarici investorların və iş adamlarının normal işləməsi üçün əlverişli iqtisadi şəraitin yaradılması, onlar üçün vergiqoymada müəyyən güzəştlərin nəzərdə tutulmasıdır.

Çünki Ümummilli liderimiz Heydər Əliyevin apardığı uzaqgörən siyasətin prioritet istiqamətlərindən biri milli bazarın dünya bazarı ilə, milli iqtisadiyyatın dünya iqtisadiyyatı ilə intensiv inteqrasiyanın düzgün təşkil edilməsi olmuşdur. [80, s. 13]

Azərbaycan Respublikasının Vergi Məcəlləsində mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün vergi ödəyiciləri üçün eyni vergiqoyma şərtləri nəzərdə tutulmuş və ayrı-ayrı vergi ödəyicilərinə münasibətdə diskriminasiya halları yolverilməzdir. Xarici investisiyalı müəssisələr də yerli vergi ödəyiciləri kimi eyni vergilərin ödəyiciləridirlər və vergi qanunvericiliyində nəzərdə tutulmuş imtiyaz və güzəştlər onlara da şamildir. Bundan başqa, xarici hüquqi şəxslərin mənfəətinin investisiyaya yönəldilən hissəsi vergiyə cəlb olunmadan azaddır. Yuxarıda göstərildiyi kimi onların Azərbaycan Respublikasındakı mənbələrdən dividend və faizlər şəklində əldə etdikləri gəlirlər, habelə qeyri-rezidentin xeyrinə köçürülən hər hansı məbləğlər 10 faiz, nümayəndəlik yaratmadan Azərbaycan Respublikası ərazisində iş və xidmətlərin göstərilməsindən əldə etdikləri gəlirlər - 15 faiz, lizinq əməliyyatları üzrə ödəmələr və sığorta ödəmələri - 4 faiz, beynəlxalq rabitə və beynəlxalq daşımalardan əldə etdikləri gəlirlər isə - 6 faiz dərəcə ilə ödəmə mənbəyində vergiyə cəlb olunur.

Eyni zamanda, Vergi Məcəlləsində Azərbaycan Respublikası ərazisində neft sazişləri əsasında karbohidrogen fəaliyyətini həyata keçirən xarici şirkətlər üçün xüsusi rejimli vergitutma mexanizmi nəzərdə tutulmuşdur. Bu şirkətlər üçün vergiqoyma məsələləri Azərbaycan Hökuməti ilə podratçı-xarici şirkətlər arasında bağlanmış müvafiq protokollarla tənzimlənir. Bu protokollara əsasən Azərbaycan Respublikası ərazisində karbohidrogen fəaliyyətini həyata keçirən xarici subpodratçı şirkətlər gördükləri iş və xidmətlərə görə əldə etdikləri gəlirlərdən yalnız ödəniş mənbəyində tutulan mənfəət vergisinin ödəyiciləridirlər. Bu verginin dərəcələri neft konsorsiumlarından asılı olaraq müəyyən edilmiş və 5 faiz, 6, 25 faiz və ya 8 faiz təşkil edir. Ödəniş mənbəyində tutulan mənfəət vergisindən başqa, bu şirkətlər karbohidrogen fəaliyyətindən əldə etdikləri gəlirlərindən respublika vergi qanunvericiliyində müəyyən edilmiş digər vergiləri ödəməkdən azaddırlar. Neft sazişləri üzrə podratçı tərəf sayılan xarici şirkətlərin karbohidrogen fəaliyyətindən əldə etdikləri gəlirləri isə həmin sazişlərlə müəyyən olunan dərəcələrlə yalnız mənfəət vergisinə cəlb olunmalıdırlar.



ATƏT-in eksperti Boqdan Marçevskinin fikrinə görə, "Azərbaycanın vergi sistemi qeyri-adidir, çünki iqtisadiyyatın üç müxtəlif sahəsində üç cür vergi sistemindən istifadə olunur. Birinci sistem ölkənin 1 yanvar 2001-ci il tarixində qüvvəyə minən yeni Vergi Məcəlləsində əks olunmuşdur. Bu yeni qanun bir neçə vergi növünü geniş əhatəli vahid bir məcəllədə toplamışdır. Yeni Məcəllə "Hasilat Bölgüsü Müqaviləsinə uyğun olaraq Azərbaycanın neft və qaz sənayesi ilə bağlı Gürcüstan və Türkiyə ərazisindən keçəcək əsas neft kəmərinin çəkilməsilə əlaqədar fəaliyyət göstərən müəssisələr istisna olmaq şərti ilə hamıya şamil edilir. İkinci vergi sistemi əsas boru xətti ilə əlaqədar fəaliyyət göstərən şirkətlər, üçüncü sistem isə "Hasilat Bölgüsü Müqaviləsində müəyyən edilən iqtisadi fəaliyyətə aid edilir. [317, s. 15]

Hazırda Azərbaycan Respublikasının Vergi Məcəlləsində ölkəmizdə xarici investorların və iş adamlarının normal fəaliyyəti üçün vergiqoymada kifayət qədər imtiyaz və güzəştlər nəzərdə tutulmuşdur.

Beləliklə, yuxarıda göstərildiyi kimi beynəlxalq vergitutma milli vergitutmaya nisbətən daha mürəkkəbdir. Qlobal iqtisadiyyatda vergi ödəyicisinin rezident olduğu ölkə ilə gəlir mənbəyi olan ölkənin maraqları üst-üstə düşür. Bu sahədə müvafiq sazişlər imzalanmış bütün tərəflər üçün və ayrı-ayrı vergi ödəyiciləri üçün məcburi olan beynəlxalq hüquq normaları mövcuddur.

Beynəlxalq iqtisadi münasibətlərdə vergilər həm xarici iqtisadi fəaliyyətin tənzimlənməsi vasitəsi kimi, həm də dövlət gəlirlərinin əsas mənbələrindən biri kimi çıxış edərək sahibkarlar üçün əsas xərc amillərindən biridir. Sahibkarlar beynəlxalq vergi planlaşdırmasının əsas mexanizmlərindən istifadə edərək, öz işgüzar fəaliyyətləri zamanı müxtəlif vergi risklərini nəzərə almalıdırlar. Beynəlxalq ikiqat vergitutma fiziki və hüquqi şəxslər üçün əlavə vergi yükü olaraq, yalnız bütün dövlətlərin vergi siyasətlərinin bir-biri ilə uzlaşdırılması yolu ilə tənzimlənə bilər. Müasir dünyada vergi harmonikləşdirməsinə hələ tam nail olmaq mümkün olmadığından, beynəlxalq səviyyədə vergitutma probleminin yeganə həlli yolu ikiqat vergitutmanın aradan qaldırılması sahəsində konvensiyaların bağlanılmasıdır. Eyni zamanda hər bir ölkə birtərəfli qaydada az və ya çox dərəcədə öz rezidentləri üçün ümumi vergi məbləğinin minimallaşdırılmasını təmin edə bilər.

Xarici iqtisadi fəaliyyət zamanı nəzərə alınmalı olan əsas vergi növləri bunlardır: hüquqi şəxslərin mənfəət vergisi, fiziki şəxslərin gəlir vergisi, kapital və əmlak vergisi, əlavə dəyər vergisi, gömrük rüsumları və gəlirin (mənfəətin) bölüşdürülməsindən vergilər. Digər bərabər şərtlərlə birlikdə vergitutmada daha güzəştli şərtlər təklif edən ölkələr kapital və əmtəə resurslarının öz ərazilərinə axmalarına şərait yaradırlar. Ölkənin vergi iqlimi (vergi sistemi tipi, əsas vergi növləri və onların dərəcələri, vergi güzəştlərinin xarakteri, beynəlxalq vergi sazişlərinin mövcudluğu) hazırda investisiya qərarlarının qəbul olunmasında ən başlıca müəyyənedici amildir. Bu, daha yüksək vergi dərəcələri tətbiq edən ölkələri öz vergi siyasətlərinə müvafiq dəyişikliklər etmək məcburiyyətində qoyur, əks halda bu ölkələr vergi sığınacaqları ilə rəqabət apara bilməzlər.

Sonda onu qeyd etmək lazımdır ki, dövlətlə vergi ödəyicisi arasında davam edən qarşıdurma prosesi indi yeni - beynəlxalq inkişaf mərhələsinə qədəm qoymuşdur.

# FƏSİL XI.

## QLOBALLAŞMANIN MİLLİ SƏRHƏDLƏR DAXİLİNDƏ İDARƏ OLUNMASI VƏ MİLLİ MARAQLARIN QORUNMASI

> *Biz elə etməliyik ki, Azərbaycan xalqının maraqları tam şəkildə qorunsun.*

**İlham ƏLİYEV**
*Azərbaycan Respublikasının Prezidenti*
*14. 04. 2008*

### 11. 1. Qloballaşma prosesində milli maraqların və milli təhlükəsizliyin təmin olunması problemləri (nəzəri baxış)

Mürəkkəb və ziddiyyətli qloballaşma prosesləri onun, istər ümumdünya miqyasında, istərsə də milli səviyyədə idarə olunmasını tələb edir. Bu proseslər milli dövlətlər qarşısında keyfiyyətcə yeni tələblər qoyur.

Qloballaşma dövrünün tələbləri haqqında fundamental əsərin müəllifi Akademik Ramiz Mehdiyevin qeyd etdiyi kimi "Dünyada gedən proseslər birmənalı şəkildə göstərir ki, 21-ci əsrdə bəşəriyyətin inkişaf strategiyasını xeyli dərəcədə məhz qloballaşma müəyyənləşdirəcəkdir. Bu da qanunauyğunluqdur, Çünki biz tarixdə ilk dəfə olaraq Şekspirin ritorik "olum, ya ölüm" sualının bəşəriyyət qarşısında duran problem kimi yeni səpkidə səsləndiyi və yeni məna kəsb etdiyi bir dövrə qədəm qoymuşuq" [76, s. 121]

Milli maraqların qorunması və milli təhlükəsizliyin təmin edilməsi problemləri milli dövlətlər, xüsusən müstəqillik yoluna yenicə qədəm qoymuş ölkələr üçün həyati əhəmiyyət kəsb edir.

Qloballaşma inkişaf səviyyəsindən asılı olmayaraq milli iqtisadi sistemləri qlobal səviyyədə fəaliyyət göstərən «oyunçuların» sərt rəqabət mübarizəsinə cəlb edir. Ona görə də milli iqtisadiyyatın qlobal mühitə itkisiz və səmərəli uyğunlaşdırılması bu gün milli dövlətlər qarşısında duran və həyati əhəmiyyət kəsb edən məsələdir. Milli iqtisadiyyatın getdikcə daha çox meqacəmiyyətin tərkib hissəsinə çevrilməsi, bu funksiyanın əhəmiyyətini daha da artırır.

Zaman tələb edir ki, onlar adət etdiyimiz makro və mikroiqtisadi tənzimləmələrlə yanaşı - beynəlxalq əmtəə, xidmət, kapital və işçi qüvvəsi axınlarına müdaxilə etmək, proqnozlaşdırmaq və istiqamətləndirmək kimi çox mühüm funksiyaları da yerinə yetirsinlər. Ənənəvi dövlətlər qloballaşma şəraitində iki



cəbhəyə qarşı mübarizə aparmağa məcburdurlar: 1) Ölkənin daxili problemlərinə qarşı 2) nəzarətdən çıxma təhlükəsi doğuran transmilli qüvvələrə qarşı.

Milli dövlətlər transmilli qüvvələri vergiqoyma, iqtisadiyyatın tənzimlənməsi, iqtisadi təhlükəsizliyin təmin edilməsi məsələlərində öz nəzarətinə tabe etməyə çalışırlar.

Ümumiyyətlə qəbul edilir ki, qloballaşma prosesində beynəlxalq əmək bölgüsünün üstünlükləri inkişaf etmiş sənaye ölkələri üçün daha faydalıdır. Buna baxmayaraq, transformasiya prosesini keçirən ölkələr bu proseslərdə iştirak etməyə həm məcburdurlar, həm də belə iştirakda çox maraqlıdırlar. Çünki artıq bir aksioma kimi qəbul edilir ki, müasir şəraitdə hər hansı bir dövlətin dünya bazarından təcrid olunması, onun iqtisadi inkişafının son nəticədə geriləməsi ilə nəticələnə bilər. Lakin bəşər tarixinin yeni mərhələsində bir çox iqtisadi proseslərin qlobal mahiyyəti ilə onların milli dövlətlər çərçivəsində tənzimlənməsi arasında kəskin ziddiyyət özünü göstərir. Bu isə səmərəli dövlətlərüstü tənzimlənmə mexanizminin yaradılmasını tələb edir. Çünki dövlətlər hələ qloballaşma prosesinə müxtəlif dərəcələrdə qoşulmuşlar, onların özlərinin «çəkiləri» müxtəlifdir, qlobal bazalardan əldə etdikləri faydaları isə fərqlidir. Qloballaşma prosesində maraqlar ziddiyyətlidir. Çünki xarici satış bazarlarına, maliyyə mənbələrinə, texnoloji və idarəetmədə mövcud olan yeniliklərə çıxış imkanları bütün dövlətlərdə eyni deyildir. Ən güclü dövlətlər bunlardan daha çox, zəiflər isə az faydalanırlar.

Dünya dövlətlərinin təcrübəsi göstərir ki, milli bazarların müasir şəraitdə xarici təsirlərə həssaslığı (xüsusən böhran dövründə) sürətlə artmışdı. Qloballaşmanın dərinləşməsi inkişaf etməkdə olan və keçid iqtisadiyyatı ölkələrində iqtisadiyyatın idarə olunmasında milli dövlətlərin vəziyyətlərinin pisləşməsinə səbəb olur. Bu prosesdə zəngin və kasıb ölkələr arasında mövcud olan dərin uçurum daha da dərinləşir, inkişaf etməmiş Cənub ölkələrində yüz milyonlarla insanlar informasiya inqilabının bəhrələrindən istifadə etmək və qüdrətli Şimalın firavan həyatını kənardan seyr etmək imkanı əldə etmişlər.

İşçi qüvvəsi bazarının liberallaşdırılması sahəsində məhdudiyyətlərin saxlanılması da bu ölkələr üçün ciddi nəticələr doğurur. Əslində, yalnız nadir yüksək ixtisaslı mütəxəssislər üçün bu məhdudiyyətlər aradan qaldırılmışdır ki, bu da «beyin axını» ilə nəticələnir. Nəticədə kasıb Cənubda texnoloji gerilik, ümidsizlik və məyusluq hissləri sürətlə artmış, ekstremizm və terrorizm dalğaları özünü göstərmişdir. Bir çox alimlər haqlı olaraq 11 sentyabr hadisələrini bir növ bu dərin kontrastın məhsulu kimi dəyərləndirirlər. Ona görə də qloballaşmanın bəhrələrinin ölkələr arasında qeyri-bərabər bölgüsünün azaldılması və qlobal qütbləşmənin qarşısının alınması yalnız kasıb Cənubun deyil, eyni zamanda bütün dünya birliyinin həll etməli olduğu mühüm qlobal problemdir. Milli dövlətlərin qlobal ierarxiyada mövqeyi onun dünya bazarındakı rəqabət gücü ilə müəyyən edilir. Lakin bu rəqabət mübarizəsi milli dövlətlər, xüsusən gənc ölkələr üçün qeyri-bərabərdir. Onlar qlobal iqtisadi-maliyyə mühitində inkişaf etmiş dövlətlərin nəzarəti altında olan böyük inhisarlar ilə qarşı-qarşıya qalırlar. Bu nəhəng inhisarlara transmilli şirkətlərin texnologiya sahəsində olan inhisarçılığı, dünya maliyyə bazarlarında maliyyə nəzarətini, nəqliyyat sahəsində inhisarçılığını aid etmək olar. Qlobal prosesləri tənzimləyən beynəlxalq iqtisadi və maliyyə təşkilatlarının da

olunması prinsipləri-milli məqsədlərin reallaşdırılmasına yönəldilmiş mühüm yol göstərici ideyalardır. Dövlət özünün milli təhlükəsizliyini təbii ehtiyatları, iqtisadi inkişaf səviyyəsi, əhalinin siyasi-mənəvi potensialı, hərbi gücünün vəziyyəti ilə müəyyən edilən məcmu qüdrəti ilə təmin edir. Ona görə də dövlət nə qədər qüdrətlidirsə, milli təhlükəsizlik bir o qədər etibarlı şəkildə qorunur.

Ölkənin beynəlxalq təhlükəsizliyi onun beynəlxalq münasibətlər sisteminin qeyri-sabitlik, konfrantasiyalar, silahlı konflikt və müharibə təhdidlərindən qorunmasını tələb edir.

Milli "təhlükəsizlik" anlayışı milli "maraqlar" anlayışı ilə sıx əlaqədardır. Təhlükəsizlik milli maraqların törəməsidir. Milli təhlükəsizlik son nəticədə - dövlətin, cəmiyyətin və fərdin həyati əhəmiyyətli maraqlarının təmin olunmasına yönəldilmiş strategiyadır. [225, s. 15-18]

Qloballaşma milli təhlükəsizliyin və milli maraqların təmin olunmasına geosiyasi yanaşma tərzini tələb edir. Belə yanaşma tərzi dövlətin məkan xarakteristikasının kompleksli dəyərləndirilməsini və cəmiyyətin həyat fəaliyyətinin bütün tərəfləri ilə əlaqəsinin aşkara çıxarılmasını zəruri edir.

Milli təhlükəsizlik və milli maraqların qorunması strategiyasında iqtisadi təhlükəsizlik və iqtisadi maraqların qorunması strategiyası mühüm yer tutur.

Azərbaycan Respublikasının Milli təhlükəsizliyi 23 may 2007-ci ildə Respublika Prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Milli təhlükəsizlik" konsepsiyası ilə təmin edilir.

Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası (bundan sonra Konsepsiya) dövlətin müstəqilliyini, ərazi bütövlüyünü və demokratik inkişaf yolunu, strateji seçimi kimi Avratlantik məkana inteqrasiyasını, bununla yanaşı, tarazlaşdırılmış xarici siyasətin çoxşaxəliliyini vurğulayan, Azərbaycan Respublikasında şəxsiyyət, cəmiyyət və dövləti xarici və daxili təhdidlərdən qorunmağa yönəlmiş siyasət və tədbirlərin məqsəd, prinsip və yanaşmalarının məcmusudur.

Konsepsiyada göstərilmişdir ki, Azərbaycan Respublikasının milli maraqları Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini, habelə insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusundan ibarət olmaqla, aşağıdakılardır:

- dövlətin müstəqilliyinin və ərazi bütövlüyünün qorunması, onun beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının təmin edilməsi;
- Azərbaycan xalqının vahidliyinin qorunub saxlanılması, azərbaycançılıq ideyasının təşviqi;
- vətəndaş cəmiyyətinin formalaşdırılması, insan hüquq və əsas azadlıqlarının təmin olunması;
- demokratik və vətəndaş cəmiyyəti təsisatlarının inkişafı, qanunun aliliyi, asayişin təmin edilməsi yolu ilə dövlətin funksiyalarının yerinə yetirilməsinin gücləndirilməsi, əhalinin təhlükəsizliyinin qorunması;
- beynəlxalq öhdəlikləri yerinə yetirmək, qlobal və regional təhlükəsizlik və sabitliyə töhfə vermək üçün dəyərlərini bölüşdüyü beynəlxalq təşkilatlarla inteqrasiyaya yönəlmiş əməkdaşlığın inkişaf etdirilməsi;
- bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi, iqtisadi sabitliyin təmin olunması məqsədilə daxili və xarici sərmayələr üçün əlverişli şəraitin yaradılması;
- təbii sərvətlərdən tam səmərəli istifadə edilməsi, davamlı iqtisadi inkişafı, ətraf mühitin qorunması, tədris, elmi və texnoloji potensialın artırılması yolu ilə Azərbaycan xalqının gələcək inkişafının, əhalinin layiqli həyat səviyyəsinin və fiziki sağlamlığının təmin edilməsi;
- dünya azərbaycanlılarının bölüşdüyü dəyərlərə əsaslanan milli özünəməxsusluğun və həmrəyliyin möhkəmləndirilməsi;
- Azərbaycan xalqının mədəni-tarixi irsinin və mənəvi dəyərlərinin qorunması, eləcə də ümumbəşəri dəyərlərlə zənginləşdirilməsi, dilinin, özünüdərk, vətənpərvərlik və milli iftixar hissinin, intelektual potensialının inkişaf etdirilməsi

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsində əsas vəzifələrdən biri onun milli təhlükəsizliyinə təhdidlərin aradan qaldırılması və ya nəzarətdə saxlanılmasıdır

Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlər aşağıdakılardır:

- Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və konstitusiya quruluşu əleyhinə qəsdlər;
- qanunun aliliyinə nail olunması, ictimai asayişin qorunması və insan hüquq və əsas azadlıqlarının müdafiəsi sahəsində dövlət funksiyalarını yerinə yetirməyə qarşı fəaliyyət;
- separatçılıq, etnik, siyasi və dini ekstremizm;
- terrorçuluq və kütləvi qırğın silahlarının yayılması;
- regional münaqişələr və transmilli mütəşəkkil cinayətkarlıq;
- Azərbaycan Respublikasının enerji infrastrukturuna qarşı fəaliyyət;
- xarici siyasi, hərbi və ya iqtisadi asılılıq.
- iqtisadi qeyri-sabitlik;
- peşəkar insan ehtiyatlarının çatışmazlığı;
- regional hərbiləşdirmə;
- ekoloji problemlər.

Ölkəmizdə milli təhlükəsizliyin təmin olunması vasitələri bunlardır:

1. xarici ticarət siyasəti;
2. müdafiə qabiliyyətinin möhkəmləndirilməsi;
3. uzaqgörən daxili siyasət.

Qəbul edilmiş Konsepsiya qloballaşma dövründə milli maraqların etibarlı şəkildə qorunması üçün müvafiq dövlət strukturlarının üzərinə xüsusi vəzifələr qoyur və bu kontekstdə onların fəaliyyətinin əlaqələndirilməsini zəruri edir.

Akademik Ramiz Mehdiyevin aşağıdakı sözləri olduqca əhəmiyyətlidir: "Qloballaşan dünyanın bir hissəsi olaraq Azərbaycan Qərbin nailiyyətlərindən istifadə etməyə çalışmaqla yanaşı, öz mentalitetinin bütün xüsusiyyətlərini, adət ənənələrini, milli tarixini son dərəcə qayğı ilə qoruyub saxlayır. Bu, dərk edilmiş, dövlətin və cəmiyyətin inkişafına istiqamətlənmiş strateji xətdir. 1993-cü ildən etibarən məhz bu xətt həyata keçirilir və o, ölkəni tərəqqiyə və firavanlığa gətirib çıxarmağa qadirdir. ənənələrin və mədəniyyətin əleyhinə deyil, onlara uyğun

şəkildə inkişaf bu siyasətin mahiyyətini təşkil edir". [76, s. 161]

Deyilənlərə yekun vuraraq göstərmək lazımdır ki, dünya maliyyə-iqtisadi mühitində baş verən köklü dəyişikliklər milli dövlətlər qarşısında zamanın çağırışına onun çevik və adekvat reaksiya göstərməsi, kapital, əmtəə, xidmət, texnologiya, informasiya və işçi qüvvəsinin liberallaşdığı bir şəraitdə ölkənin rəqabət qabiliyyətinin təmin edilməsi üzrə yeni tələblər qoyur. Yeni şəraitdə iqtisadiyyatın tənzimlənməsi, təşəbbüskarlıq fəaliyyətinin həyata keçirilməsi, milli sahibkarlar üçün əlverişli şəraitin yaradılması, sosial mühitin təmin olunması üçün kompakt dövlətin formalaşdırılması vəzifələri qarşıda durur.

## 11. 2. Azərbaycanın iqtisadi müstəqilliyinin reallaşdırılması - İlham Əliyev siyasətinin tarixi nailiyyətidir

*Azərbaycan iqtisadi təhlükəsizliyini, enerji təhlükəsizliyini təmin edibdir və başqa ölkələrin enerji təhlükəsizliyində iştirak edir. Ərzaq təhlükəsizliyi də ondan az əhəmiyyət daşımayan sahədir.*

**İlham ƏLIYEV**
*Azərbaycan Respublikasının Prezidenti*

XX əsr bəşəriyyət tarixinə yalnız elmi-texniki inqilablar əsri kimi daxil olmamışdır. O həm də milli-azadlıq hərəkatları milli dövlətlərin yaranması və bəşəri inkişaf prosesinə müstəqil subyekt kimi öz töhvələrini verməyə başlamaları ilə səciyyələnir. Bütün XX əsr tarixi göstərir ki, siyasi azadlıq, müstəqil dövlətçiliyin möhkəmləndirilməsi, həmin azadlığın ölkə xalqlarının həyatında hərtərəfli dönüş nöqtəsi rolunu oynaması əhəmiyyətli dərəcədə iqtisadi sahədə aparılan mübarizənin uğurundan, iqtisadi cəhətdən də müstəqilliyin əldə edilməsindən asılıdır. Bəzən belə bir səhv fikir tez-tez səslənir ki, guya dünyada iqtisadi cəhətdən müstəqil heç bir dövlət yoxdur. Çünki heç bir dövlət özünün bütün ehtiyaclarını təkbaşına təmin edə bilməz. Bu məsələyə səthi yanaşmaqdır. İqtisadi müstəqillik dedikdə bütöv milli iqtisadiyyatda geniş təkrar istehsalın zəruri ehtiyatlarla təmin etməyə qadir olan müstəqil təsərrüfat mexanizminin formalaşdırılması, xüsusən əhalinin maddi və mədəni rifah səviyyəsinin öz milli gəliri hesabına təmin edilməsi nəzərdə tutulur.

Doğma respublikamızda müstəqilliyin siyasi proqramını ümummilli liderimiz Heydər Əliyev böyük inamla formalaşdırmış və reallaşdırmış, iqtisadi müstəqillik uğrunda mübarizənin möhkəm təməlini atmışdır.

Siyasi istiqlaliyyətin və onun iqtisadiyyat cəbhəsinin daha da möhkəmləndirilməsinin sükanı artıq beş ildir ki, Prezident İlham Əliyevin etibarlı əlindədir. Əminliklə demək olar ki, Azərbaycanın iqtisadi müstəqilliyinin reallaşdırılması İlham Əliyev siyasətinin tarixi naliyyətidir. Layiqli varis öz üzərinə düşən tarixi missiyanı böyük həssaslıqla dərk edərək, ölkənin strateji kursunu bütün sahələr üzrə qəbul edilən və elmi cəhətdən əsaslandırılmış proqram sənədləri ilə müəyyən etdi. Əslində MDB məkanında ilk dəfə olaraq sosial-iqtisadi inkişafı



müasir prinsiplər əsasında tərtib edilmiş Dövlət Proqramları ilə tənzimləyərək, ölkəni yeni üfüqlərə, iqtisadi müstəqilliyin əldə edilməsinə doğru istiqamətləndirdi.

İqtisadi müstəqilliyin mühüm tərkib hissəsi iqtisadi təhlükəsizlik, enerji təhlükəsizliyi və ərzaq təhlükəsizliyidir.

İqtisadi təhlükəsizlik - iqtisadiyyatın elə bir vəziyyətidir ki, bu zaman dayanıqlı iqtisadi artım, ictimai ehtiyaclar, yüksək keyfiyyətli idarəçilik, iqtisadi maraqların qorunması milli və beynəlxalq səviyyədə səmərəli şəkildə təmin olunur.

İqtisadi təhlükəsizlik problemi dövlətin yaradılması ilə eyni zamanda yaranır və milli təhlükəsizliyin onurğa sütununu təşkil edir.

Ölkəmizin milli təhlükəsizlik və onun mühüm tərkib hissəsi olan iqtisadi təhlükəsizlik konsepsiysı Prezident İlham Əliyevin imzaladığı 23 may 2007-ci il tarixli sərəncamı ilə təsdiq edilmişdir. Həmin konsepsiyada iqtisadi təhlükəsizlik problemləri olduqca əhatəlidir. Bu konsepsiya bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi, iqtisadi sabitliyin təmin olunması məqsədilə daxili və xarici sərmayələr üçün əlverişli şəraitin yaradılması, təbii sərvətlərdən səmərəli istifadə edilməsi, davamlı iqtisadi inkişaf, ətraf mühitin qorunması, tədris, elmi və texnoloji potensialın artırılması yolu ilə Azərbaycan xalqının gələcək inkişafının, əhalinin layiqli həyat səviyyəsinin və fiziki sağlamlığının təmin edilməsi kimi taleyüklü problemlərin həll edilməsini Azərbaycan dövləti qarşısında bir vəzifə kimi qoyur. [313, may 2006]

İqtisadi təhlükəsizliyin əsas göstəriciləri aşağıdakılardır: ÜDM-un artımı, iqtisadiyyatın strukturu və rəqabətqabiliyyəti, həyat səviyyəsi və keyfiyyəti, inflyasiya sürəti, işsizlik norması, idxaldan asılılıq, daxili və xarici borcların səviyyəsi və s.

Dövlətin iqtisadi təhlükəsizliyi probleminin mahiyyəti və əhəmiyyətini müəyyən etmək üçün iqtisadi ədəbiyyatda təxminən 25 göstərici təhlil edilir. Onlar arasında ən vacibləri aşağıdakılardır: adambaşına ÜDM, digər ölkələrlə müqayisədə onun dinamikası, ÜDM-un tərkibində emaledici sənaye məhsullarının xüsusi çəkisi, ÜDM-un tərkibində elmi-tədqiqat işləri və təcrübə-konstruktor işlərinin payı; beynəlxalq standartlar baxımından yoxsulluq səviyyəsi; orta ömür səviyyəsi; 10% ən təminatlı əhali qrupu gəlirlərinin, 10% ən yoxsul əhalinin gəlirlərinə nisbəti; işsizlik səviyyəsi; inflyasiya səviyyəsi; dövlət, o cümlədən xarici borcun ÜDM-a və büdcə gəlirlərinə nisbəti; idxalatın ÜDM-a nisbəti; istehlak məhsullarının tərkibində idxal edilən ərzağın xüsusi çəkisi və s.

Akademik Z. Səmədzadə haqlı olaraq vurğulayır ki, ölkənin iqtisadi təhlükəsizliyinə bu və ya digər şəkildə təsir göstərən hər hansı bir problem diqqətlə təhlil edilmədən dövlətin iqtisadi qüdrətinin və tərəqqisinin artırılması sahəsində qarşıda duran heç bir məsələni həll etmək olmaz. [23]

Bütün dünya dövlətlərində ərzaq təhlükəsizliyinin təmin olunmasında beynəlxalq ticarətin rolu böyükdür. Belə ki, beynəlxalq ticarət ölkənin iqtisadi inkişafına təkan verməklə həmin məhsulların satışına şərait yaradır, dünya ehtiyatlarından səmərəli istifadə edilməsini təmin edir, bu sahədə beynəlxalq ixtisaslaşmaya yol açır.

Ərzaq təhlükəsizliyinin əsasını aşağıdakılar təşkil edir:

1. Bu və ya digər ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması üçün ölkənin ehtiyaclarını tam ödəyən ərzağın davamlı və kifayət qədər istehsalı qarantiya

edilməlidir.

2. Ərzaq təhlükəsizliyi yalnız o zaman təmin edilə bilər ki, ərzağın əldə edilməsi üçün fiziki və iqtisadi şərtlər olsun.

3. Ərzaq təhlükəsizliyinə nail olmaq üçün kənd təsərrüfatı məhsulları sabit şəkildə və kifayət qədər dünya bazarlarına çıxarılsın.

4. Ərzaq təhlükəsizliyinin mühüm elementlərindən biri də əhalinin səhhətinə ziyan verməyən keyfiyyətli ərzaqla təmin olunmasıdır. [326, 2003, № 1, s. 60].

Hesab olunur ki, milli səviyyədə ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün iki yol mövcuddur: 1) özünü təmin etməyə çalışmaq və 2) idxalın sistematik şəkildə ödənilməsi üçün imkan yaratmaq.

Ərzaqla özünütəminetmə - ona olan tələbatın əvvəlcə xarici ticarətdən minimum dərəcədə asılı olmaqla, daha çox daxili istehsal hesabına ödənilməsi deməkdir. Özünütəminetmə konsepsiyasına bir sıra amillər təsir edir. Onlardan - məhsuldarlığı artıran texnologiyadan istifadə etmək imkanını, kənd təsərrüfatına siyasi və sosial partlayışın təsirini, habelə ətraf mühitin tənəzzülünü göstərmək olar.

Daxili kənd təsərrüfatı ehtiyatlarının davamlı istifadəsi hər bir ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün mühüm rol oynayır. Daxili kənd təsərrüfatı istehsalının himayə edilərək qorunub saxlanılması və inkişaf etdirilməsi gözlənilməz hadisələr baş verərsə, əhalinin ərzaq çatışmazlığı hallarının baş verməsi barədə narahatlığını azaldır.

Ərzaq idxalı ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynaya bilər. Problemi bu yolla həll etmək istəyən ölkələr qarşısında iki ciddi vəzifə durur:

1. Ərzaq idxalını tələb olunan səviyyədə saxlamaq üçün valyuta ehtiyatına malik olmaq;

2. Etibarlı idxal mənbələrini əlində saxlamaq.

Ölkənin özü tərəfindən ödənilməsi zəruri olan həcmdə ərzaq idxalı üçün valyuta ehtiyatlarının daxil olması məqsədilə ixracat potensialının yaradılmasını tələb edir. Bu zaman nəzərə almaq lazımdır ki, ərzaq idxal edən ölkə üçün həmin ərzaq əmtəə də olsa, strateji əmtəədir. Onun davamlı olaraq satın alınması cəmiyyətdə sabitliyə təminat verir. İxracatçı ölkə üçün isə, həmin əmtəələr siyasi və iqtisadi təzyiq vasitəsi (embarqo qoymaqla və s. ) kimi istifadə edilə bilər.

Ərzaq idxalının bir xüsusiyyəti də odur ki, onların qiyməti qeyri-sabit olmaqla, bir çox hallarda öz real dəyərinə adekvat olmur. Ərzaq təhlükəsizliyini təmin etmək üçün dövlət müəyyən hallarda strateji malların idxalı məqsədilə yüksək qiymət ödəmək məcburiyyəti qarşısında qalır.

İdxalat vasitəsilə ölkənin ərzaq təhlükəsizliyini təmin edən zaman hökumət əsas diqqəti xarici bazarlarda maksimum səmərə ilə satılması mümkün olan malların istehsalına yönəldir.

Son beş ildə, xüsusən 2007-ci ildə ölkənin sosial-iqtisadi inkişafı nəticələrinin təhlili göstərir ki, həmin çoxtərkibli problemlərin həllində dönüşə nail olunmuşdur.

Müstəqillik əldə etmiş ölkələrin təcrübəsi göstərir ki, milli geriliyin aradan qaldırılmasında açar rolunu oynayan milli iqtisadiyyatın, milli sənayenin, kənd təsərrüfatının, infrastrukturanın inkişafında ciddi dönüş yaradılması, müstəqil və bir-birini tamamlayan istehsal komplekslərinin təsis edilməsi iqtisadi müstəqilliyin



və iqtisadi təhlükəsizliyin onurğa sütunudur.

Əsas göstərici olan ÜDM-un artımı nəzərdən keçirildikdə məlum olur ki, 2003-2007-ci illərdə iqtisadiyyatın həcmi 2, 6 dəfə artmışdır. Dünya dövlətlərinin təcrübəsi isə göstərir ki, ÜDM-un iki dəfə artırılması üçün 10-15 il və bəzən daha çox müddət tələb olunur. Məsələn, 1990-2000-ci illərdə 10 il ərzində yalnız Çin və Hindistan ÜDM-u iki dəfə artıra bilmişdir. Neftlə zəngin olan Yaxın və Orta Şərq ölkələri isə həmin dövrdə ÜDM-u cəmisi 38% artıra bilmişlər. [283, p. 91-92]

Sənaye ənənəvi olaraq Azərbaycan iqtisadiyyatının aparıcı sahəsidir. Son beş ildə bu sahədə ardıcıl olaraq özünü göstərən sıçrayışlı artım Azərbaycanın tarixində olmamışdır. Bu sahədə artım 2004-cü ildə 5, 7%-dən, 2005-ci ildə 33, 5%-ə, 2006-cı ildə 36, 6%-ə və 2007-ci ildə 35%-ə yüksəlmişdir. Sənaye məhsullarının həcmi isə 5 il ərzində iki dəfədən çox artmışdır.

Azərbaycan iqtisadiyyatının qısa tarixi dövr ərzində iqtisadi müstəqilliyə nail olunmasının və getdikcə möhkəmləndirilməsinin əsasında İlham Əliyevin daim modernləşmə və yeniləşmə siyasəti dayanır. Akademik Ramiz Mehdiyev "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti" adlı konseptual məqalədə tam əminliklə qeyd edir: "Məhz iqtisadi modernləşmə, bazarın sabitliyi, bank mühitinin təkmilləşməsi, orta sinfin formalaşması və ölkənin ÜDM-ində özəl sahibkarlığın rolunun güclənməsi ictimai şüuru latent şəkildə təzələyəcək, onu yeni demokratik ənənələr və təsisatlar müstəvisinə yönəldəcəkdir. " [317, 2008, №1, s. 118-119]

İlham Əliyevin "Bizim məqsədimiz Azərbaycanı inkişaf etmiş ölkəyə çevirməkdir" ifadəsi ölkənin uzunmüddətli strateji kursudur.

İlham Əliyev Nazirlər Kabinetində keçirilən müşavirədə xüsusi vurğulamışdır: Elə etməliyik ki, "qısa müddət ərzində ölkəmizə gələn maliyyə resursları ölkəmizin hərtərəfli inkişafına xidmət göstərsin. Ölkəmiz müasirləşsin, modernləşsin, ən qabaqcıl texnologiyalar Azərbaycana gətirilsin. Bütün sahələrdə - istər tikinti, istərsə də səhiyyə, təhsil, infrastruktur - bütün sahələrdə ən qabaqcıl texnologiyalar Azərbaycana gətirilməlidir. Biz bunu görürük. Azərbaycanda son illər ərzində, xüsusilə dövlət xətti ilə yaradılan müəssisələr, həyata keçirilən infrastruktur layihələri, tikilən obyektlər dünyanın ən yüksək standartlarına cavab verir.

"Biz iqtisadiyyatımızı şaxələndiririk" deyən Prezident İlham Əliyevin iqtisadi siyasətinin prioritet istiqaməti iqtisadiyyatda dərin struktur dəyişiklikləri aparılmaqla iqtisadi inkişafın çoxşaxəliliyinin təmin olunmasıdır. Yanacaq energetika sektorunun sürətli inkişafı ilə yanaşı qeyri-neft sektoruna yüksək dinamizm verilməsi dövlət başçısının daim diqqət mərkəzində olan məsələlərindəndir. O adı çəkilən müşavirədə xüsusi vurğulamışdır ki, Azərbaycanda enerji layihələrinin böyük əksəriyyəti başa çatdırılmış, neft-qaz yataqlarına böyük sərmayə qoyuluşu artıq demək olar ki, başa çatmışdır. Buna baxmayaraq investisiyalar sürətlə artaraq, 2007-ci ildə 6, 837 mlrd. dollara çatmışdır. Onun isə böyük əksəriyyəti qeyri-neft sektorunun inkişafı ilə əlaqədardır. İnvestisiyaların 52%-i qeyri-neft sektorunun payına düşür.

**2003-2007-ci illər üzrə Azərbaycan Respublikasının əsas makroiqtisadi göstəriciləri. (mln. manat)**

| | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|
| ÜDM bazar qiymətləri ilə | 7146, 5 | 8530, 2 | 12522, 5 | 18746, 2 | 25228, 1 |
| Qeyri-neft sektoru, ÜDM, bazar qiymətləri ilə | 4997, 4 | 5858, 3 | 7001, 7 | 8654, 4 | 11131, 1 |
| Neft sektoru, ÜDM, bazar qiymətləri ilə | 2149, 1 | 2671, 9 | 5520, 8 | 10091, 8 | 14097, 0 |

Son beş il ərzində qeyri-neft sektoru ikirəqəmli rəqəmlərlə inkişaf etmişdir və onun həcmi 2, 2 dəfə artmışdır. Bu da analoqu olmayan bir hadisədir. Təsadüfi deyildir ki, 2007-ci il ərzində büdcəyə qeyri-neft sektorundan vergi daxil olmaları 57. 1% artmışdır. Büdcəyə 2007-ci ildə qeyri-neft sektorundan 1635. 9 mln. manat vəsait daxil olmuşdur. Müqayisə üçün göstərmək lazımdır ki, 2003-cü ildə dövlət büdcəsinin cəmi gəlirləri 1220. 9 mln. manat təşkil etmişdir. Azərbaycanda neft ehtiyatları tükəndikdən sonra ölkənin iqtisadi inkişafına bədbin gözlə baxanlara həmin rəqəmlər tutarlı cavabdır.

Dövlət başçısı 2008-ci ildə Azərbaycanda sənayeləşmənin daha sürətlə getməsi vəzifəsini qarşıya qoymuşdur. Bunun üçün də hər cür imkan var: maliyyə çətinliyi yoxdur; üstəlik ölkənin 10 mlrd. dollar valyuta ehtiyatı mövcuddur.

Təsadüfi deyildir ki, nüfuzlu investisiya bankı olan "Qodman Saks" tərəfindən aparılmış iqtisadi inkişaf indeksi üzrə Azərbaycan bütün MDB ölkələrini qabaqlayaraq 170 ölkə arasında 61-ci yerdədir. Sevindirici haldır ki, bu indeks makroiqtisadi göstəricilərlə yanaşı kompyuter, telefon, internetdən istifadə, orta təhsil səviyyəsi, orta ömürlülük, qanunun aliliyi və siyasi sabitlik kimi mühüm sosial-iqtisadi göstəriciləri də özündə birləşdirir.

İqtisadi müstəqilliyin təmin olunmasının aparıcı istiqamətlərindən biri də enerji təhlükəsizliyidir. Ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən neft strategiyasının həyata keçirilməsi nəticəsində yanacaq energetika kompleksinin sürətli inkişafı və ölkəmizdə enerji təhlükəsizliyi təmin edilmişdir. Bu o deməkdir ki, enerji siyasəti reallaşdıqca ölkənin həyati əhəmiyyət kəsb edən enerji daşıyıcılarına olan ehtiyacı tam şəkildə ödənilir, dövlətə kənardan təzyiqlər minimuma endirilir. Bu tarixi nailiyyət yalnız ölkənin enerji potensialının artmasının deyil, həm də Prezident İlham Əliyevin apardığı beynəlxalq və xüsusən regional balanslaşdırma siyasətinin nəticəsidir. İlk növbədə öz milli maraqlarını əsas götürən ölkə başçısı həm Qərb, həm region, həm də digər əlaqədar dövlətlərin maraqlarını diqqətlə öyrənir və onlara böyük həssaslıqla yanaşır. Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında da Azərbaycanın rolu artır.

6 iyun 2008-ci ildə ABŞ-ın "United Press International" internet nəşri Azərbaycan haqqında geniş material dərc etmişdir. Məqalədə deyilir ki, 1991-ci ildə Sovet İttifaqının süqutu Xəzər regionunun coğrafiyasını tamamilə dəyişmişdir.



Əgər əvvələr Xəzər SSRİ ilə İran arasında bölünmüşdüsə, ittifaq dağılandan sonra Xəzər ətrafında 4 dövlət – Rusiya Federasiyası, Azərbaycan, Qazaxıstan və Türkmənistan dövlətləri yaranmışdır.

Məqalədə xüsusi vurğulanır ki, sovet dövründən qalma neft kəmərlərinə malik Rusiyadan hələ də asılı olan Qazaxıstan və Türkmənistandan fərqli olaraq, hazırda Azərbaycan Moskvanın nəzarət etdiyi ixrac marşrutlarından asılı deyildir və dünyanın ən sürətlə inkişaf edən iqtisadi sisteminə malikdir.

Mürəkkəb dünya təsərrüfatı sisteminə yenicə qaynamağa başlayan ölkəmizin nüfuzu beynəlxalq aləmdə durmadan artır. Vətənimiz az müddət ərzində regional liderə çevrildi. Türkiyənin elmi və siyasi dairələrində Azərbaycanı Qafqazın parlayan ulduzu adlandırırlar. Məhz bunun nəticəsidir ki, ölkəmiz super güclərin təzyiqlərini belə dəfələrlə dəf etmişdir.

Dövlət başçısı xüsusi vurğulayır ki, Azərbaycan özünün ərzaq təhlükəsizliyini də təmin etməlidir. O haqlı olaraq qeyd edir ki, ərzaq təhlükəsizliyi heç də enerji təhlükəsizliyindən az əhəmiyyət daşımayan sahədir. Həqiqətən ərzaq problemi bütün dünyada olduğu kimi Azərbaycan üçün də olduqca aktualdır. Çünki əhalinin, xüsusən az təminatlı təbəqəsinin yemək rasionu o qədər də geniş deyildir, bir çox məhsullar üzrə istehlak normadan aşağıdır. İstehlak mallarının bir çoxunun xeyli hissəsi xaricdən idxal edilir. Ona görə də Prezident İlham Əliyev ərzaq təhlükəsizliyi problemini ön plana çəkmişdir. Çünki ölkənin iqtisadi inkişafı sürətləndikcə, əhalinin alıcılıq qabiliyyəti artır, lakin aqrar-sənaye kompleksinin inkişafı əhalinin artan tələbatını ödəməkdən geri qalır. Yəni əhalinin gəlirləri artdıqca yeyinti məhsullarına olan tələbatını hələlik kifayət qədər ödəyə bilmir. Bazar iqtisadiyyatı kənd təsərrüfatı istehsalçıları qarşısında bir çox problemlər yaratdı. Ona görə də ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması üçün kənd təsərrüfatının inkişafında ciddi dönüş yaradılması dövlət orqanları qarşısında bir vəzifə kimi qoyulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminata dair Dövlət Proqramının hazırlanması haqqında " 01. 05. 2008-ci il tarixli sərəncamında qeyd edildiyi kimi ölkəmizdə əhalinin zəruri ərzaq məhsulları ilə təmin edilməsi dövlətin iqtisadi siyasətində mərkəzi yer tutur. Bu məqsədlə ölkədə ərzaq istehsalı sahəsində, xüsusilə aqrar bölmədə bir sıra köklü islahatlar aparılmış, kompleks tədbirlər sistemi həyata keçirilmişdir. Bütün bunlar sahənin sürətli inkişafı üçün əlverişli şərait yaratmışdır. Bir çox kənd təsərrüfatı məhsullarının (taxıl, kartof, ət, tərəvəz, meyvə və. s.) istehsalında son illər ciddi artım əldə edilmiş, ölkədə istehlak mallarının tərkibində yerli malların xüsusi çəkisi hiss olunacaq dərəcədə artmışdır, kənd təsərrüfatı mallarının ixracında canlanma müşahidə olunur.

Bütün bunlarla yanaşı, ölkədə əsas ərzaq məhsullarına tələbatın yerli istehsal hesabına tam təminatı hələ ki, mümkün olmamışdır. Dünya ərzaq bazarında da tələb və təklif arasındakı nisbət birincinin xeyrinə dəyişmiş və dünya bazarlarında ərzağın qiyməti hiss ediləcək dərəcədə artmışdır. Qlobal proseslərin tələblərinə uyğun olaraq bu işə Azərbaycanın ərzaq bazarına da göstərilən istiqamətdə təsir etmişdir. Ona görə də Prezident İlham Əliyevin adı çəkilən sərəncamı ilə ölkədə kənd təsərrüfatı məhsullarının artırılmasını və əhalinin ərzaqla

Məlumat üçün bildirək ki, dövlətlərin rəqabətə davamlılığı - "Qlobal Rəqabət indexsi" 12 əsas üzrə müəyyənləşdirilir. Burada təhsil və təlim, insan kapitalı, texniki-tərəqqi, makroiqtisadi sabitlik, səmərəli idarəetmə, qanunun aliliyi, şəffaf və təkmil işləyən qurumlar, korrupsiyanın azlığı, bazara yönümlülük, şirkətlərin təkmilləşdirilməsi, tələbat, bazarın həcmi və bir çox başqa istiqamətlər əsas götürülür.

ÜİF-nin Qlobal Rəqabət İndeksi 2006-2007-ci illərdə Azərbaycanda bütün istiqamətlər üzrə güclü inkişaf müşahidə olunduğunu, ölkənin nəhəng sıçrayışla dünya ölkələri arasında layiqli yer tutduğunu göstərir.

Birinci əsas kimi institusional qurumlar nəzərə alınır.

Bu istiqamət hökumətin, hüquqi şəxslərin fəaliyyəti, onların əldə etdiyi gəlir və ölkənin inkişafında rolu qiymətləndirilir. İnstitusional əsasın rəqabətə davamlılığının artırılmasına və inkişafa böyük təsiri var. Gəlirlərin paylaşdırılması, inkişaf strategiyasının və siyasətinin icrası, həmçinin sərmayə qoyuluşu, istehsalın təşkilində institusional əsas mühüm rol oynayır. Aşağıdakı cədvəl göstərir ki, Azərbaycan institusional əsas üzrə dünya ölkələri arasında 74-ci yer tutur və MDB məkanında liderdir.

| Ölkələr | Sıra | Xal |
|---|---|---|
| Azərbaycan | 74 | 3. 58 |
| Ermənistan | 86 | 3. 35 |
| Gürcüstan | 84 | 3. 36 |
| Qırğızıstan | 119 | 2. 74 |
| Rusiya | 112 | 2. 95 |
| Tacikistan | 78 | 2. 43 |
| Ukrayna | 97 | 3. 14 |

Hesabatda infrastrukturun yeniləşdirilməsi, inkişafı mühüm amil kimi nəzərə alınmışdır. İnfrastrukturun mövcudluğu iqtisadiyyatın səmərəliliyi üçün son dərəcə əhəmiyyətlidir. Yüksək səviyyəli infrastruktur bölgələrin inteqrasiyasını gücləndirir, bir neçə regionun və ya bir ölkənin bazarlarının digər ölkələrin bazarı ilə inteqrasiyasına güclü təkan verir. Bu istiqamət üzrə Azərbaycan dünya ölkələri arasında 60-cı yer tutur və MDB məkanında birincidir.

| Ölkələr | Sıra | xal |
|---|---|---|
| Azərbaycan | 60 | 3. 49 |
| Ermənistan | 87 | 2. 68 |
| Gürcüstan | 91 | 2. 56 |
| Qazaxıstan | 67 | 3. 19 |
| Qırğızıstan | 107 | 2. 20 |
| Rusiya | 66 | 3. 27 |
| Tacikistan | 93 | 2. 48 |
| Ukrayna | 71 | 3. 13 |

Makroiqtisadi mühütün sabitliyi sahibkarlıq üçün çox vacibdir və ümumilikdə ölkənin rəqabətə davamlılığı üçün mühüm əhəmiyyət kəsb edir. Bu göstərici üzrə Azərbaycan dünya ölkələri arasında 45-ci yer tutaraq, əksər MDB



ölkələrini geridə qoyub:

| Ölkələr | sıra | xal |
|---|---|---|
| Azərbaycan | 45 | 5. 23 |
| Ermənistan | 66 | 4. 89 |
| Gürcüstan | 98 | 4. 31 |
| Qırğızıstan | 116 | 3. 47 |
| Ukrayna | 80 | 4. 66 |

Dördüncü əsas sağlamlıq və ibtidai təhsildir. Sağlam işçi quvvəsi ölkənin rəqabətə davamlılığı və səmərəliliyi üçün vacibdir. Sağlamlığı zəif olan işçi bütün potensialı ilə işləyə bilmir və daha az produktivdir. Bu göstəriciyə görə Azərbaycan dünya ölkələri arasında 95-ci yeri tutur. Lakin nəzərə alsaq ki, son illər bu sahəyə diqqət gücləndirilib və məqsədyönlü tədbirlərin həyata keçirilməsinə başlanıb, yaxın gələcəkdə vəziyyətin dəyişəcəyi şübhəsizdir.

Ali təhsil və təlim beşinci əsas kimi götürülür. Məlumdur ki, istehsal prosesinin və istehsal məhsulunun keyfiyyətini artırmaq istəyən iqtisadiyyat üçün mükəmməl yüksək ixtisaslı kadrlar çox vacibdir. Xüsusilə müasir qloballaşan iqtisadiyyat hər an dəyişən mühütə uyğunlaşa bilmək qabiliyyətinə malik, yüksək təhsil almış işçi resursunun olmasını tələb edir. Bu göstəriciyə görə Azərbaycan dünya ölkələri arasında 79-cu, MDB məkanında isə 4-cü sıradadır.

Azərbaycanın boloniya sisteminə qoşulması və dövlət başçısının həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində bu sahədə geniş perspektivlər açılır.

İşçi bazarının effektivliyi (produktuvliyi) və çevikliyi yeddinci əsas kimi işçilərin iqtisadi prosesdə maksimum dərəcədə "istifadə" olunmasını təmin edir. Produktiv iqtisadiyyatı olan ölkədə işçilər düzgün şəkildə yerləşdirilir və lazımi stimullarla həvəsləndirilir ki, öz işlərində daha çox səy göstərsinlər. Bu göstəriciyə görə Azərbaycan dünya ölkələri arasında 38-cidir.

| Ölkələr | Sıra | Xal |
|---|---|---|
| Azərbaycan | 38 | 4. 47 |
| Gürcüstan | 57 | 4. 25 |
| Qazaxıstan | 78 | 4. 04 |
| Qırğızıstan | 55 | 4. 26 |
| Rusiya | 40 | 4. 44 |
| Tacikistan | 69 | 4. 12 |
| Ukrayna | 62 | 4. 21 |

Onu da qeyd etmək lazımdır ki, bu gün ölkədə effektiv maliyyə sektoru mövcuddur. Təbii ki, bu da maliyyə bazarının genişlənməsi, uğurlu büdcə siyasəti ilə bağlıdır. Belə halda vətəndaşlar maddi resurslardan səmərəli istifadə edə bilərlər. Bu zaman maddi resurslar siyasi məqsədlərdən çox, iş adamlarının əlində cəmləşdirilir, ya da sərmayə layihələrinə istiqamətləndirilir. Bu göstəriciyə görə Azərbaycan Rəqabət İndeksinə görə dünya ölkələri arasında 72-cidir.

| Ölkələr | Sıra | Xal |
|---|---|---|
| Azərbaycan | 72 | 3.94 |
| Ermənistan | 102 | 3.36 |
| Gürcüstan | 83 | 3.72 |
| Qazaxıstan | 53 | 4.33 |
| Qırğızıstan | 108 | 3.30 |
| Rusiya | 98 | 3.47 |
| Tacikistan | 118 | 3.05 |
| Ukrayna | 63 | 4.11 |

Texniki hazırlıq əsası iqtisadiyyatın produktivliyini artırmaq üçün yeni Texnologiyaları tez qavramaq qabiliyyətini qiymətləndirir. Bu çox mühüm istiqamətdir, çünki bu sahədə olan fərqlər ölkələr arasında produktivliyin müxtəlifliyinin göstricisidir. Bu göstəriciyə görə Azərbaycan dünya ölkələri arasında 78-cidir.

| Ölkələr | Sıra | Xal |
|---|---|---|
| Azərbaycan | 78 | 2.69 |
| Ermənistan | 89 | 2.50 |
| Gürcüstan | 104 | 2.33 |
| Qırğızıstan | 120 | 1.97 |
| Tacikistan | 105 | 2.33 |
| Ukrayna | 86 | 2.53 |

Bazarın həcmi istehsalın gücünə təsir göstərir, çünki geniş bazarlarda şirkətlər iqtisadiyyatın maksimum imkanlarından istifadə edir. Ənənəvi olaraq, şirkətlərin fəaliyyət göstərdiyi bazarlar onların yerləşdiyi ölkələrin sərhədləri ilə məhdudlaşırdı. Qloballaşma dövründə beynəlxalq bazarlar daxili bazarların əvəzləyicisi rolunu oynamağa başlayıb, bu xüsusilə kiçik ölkələrə daha çox aiddir. Bu göstəriciyə görə Azərbaycan dünya ölkələri arasında 65-ci sıradadır.

| Ölkələr | Sıra | Xal |
|---|---|---|
| Azərbaycan | 65 | 3.76 |
| Ermənistan | 101 | 2.93 |
| Gürcüstan | 94 | 3.09 |
| Qırğızıstan | 106 | 2.83 |
| Tacikistan | 105 | 2.84 |

Sahibkarlığın təkmilləşdirilməsi əmtəə və xidmətlərin istehsalı üçün əlverişli şərait yaradır. Bu da öz növbəsində məhsuldarlığın, ölkənin rəqabətə davamlılığının artmasına təsir edir. Sahibkarlığın təkmilləşdirilməsi ölkədə sahibkarlar şəbəkəsinin səviyyəsini, həmçinin ayrı-ayrı sahibkarın fəaliyyəti və strategiyasını əhatə edir. Cədvəldən göründüyü kimi, Azərbaycan bu göstəriciyə görə dünya ölkələri arasında 73-cü, MDB məkanında isə birinci yeri tutur.



| Ölkələr | sıra | Xal |
|---|---|---|
| Azərbaycan | 73 | 3.78 |
| Ermənistan | 93 | 3.35 |
| Gürcüstan | 111 | 3.03 |
| Qazaxıstan | 75 | 3.75 |
| Qırğızıstan | 103 | 3.22 |
| Rusiya | 78 | 3.66 |
| Tacikistan | 112 | 3.00 |
| Ukrayna | 76 | 3.72 |

Rəqabətə davamlılığın əsaslarından biri də texniki innovasiyalardır. Baxmayaraq ki, institusional inkişaf, infrastrukturun təkmilləşdirilməsi, makroiqtisadi sabitliyin artırılması və ya insan potensialının yaxşılaşdırılması əhəmiyyətli iqtisadi inkişafa nail olmaq üçün yetərlidir. Azərbaycan bu göstəriciyə görə dünya ölkələri arasında 53-cü sırada bərqərar olmuşdur.

| Ölkələr | Sıra | Xal |
|---|---|---|
| Azərbaycan | 53 | 3.26 |
| Ermənistan | 74 | 3.04 |
| Gürcüstan | 98 | 2.72 |
| Qazaxıstan | 65 | 3.14 |
| Qırğızıstan | 114 | 2.40 |
| Tacikistan | 91 | 2.80 |
| Ukrayna | 61 | 3.18 |

Beləliklə, rəqabətə davamlılığın əsas göstəricilərinin təhlili onu deməyə əsas verir ki, Azərbaycan MDB məkanında lider mövqeyə malikdir və dünya ölkələri arasında öz layiqli yerini tutur. Nəzərə alsaq ki, iqtisadiyyatın daha da inkişaf etdirilməsi, əhalinin rifahının yaxşılaşdırılması, sosial problemlərin həlli iqtisadiyyatın liberallaşması, demokratikləşmə prosesinin sürətləndirilməsi və digər sahələr üzrə ciddi tədbirlər həyata keçirilməsi davam etdirilir, yaxın gələcəkdə Azərbaycanın rəqabətə davamlılığının daha da artacağı heç şübhə doğurmur.

Ona görə də Prezident İlham Əliyev tam əminliklə qeyd edir: "Biz daha da çalışmalıyıq ki, gələcək illərdə bu yüksək dinamikanı saxlayaq, iqtisadi artım sürətinə görə dünya miqyasında lider dövlət kimi Azərbaycanın lider mövqelərini saxlayaq. Elə edək ki, Azərbaycan vətəndaşları, Azərbaycan xalqı ildən-ilə, aydan-aya daha da yaxşı yaşasın".

*Əlavə 2*

**Ölkə qrupları üzrə ÜDM-nin dinamikası (2000=100*)**

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|---|
| Dünya | 100. 0 | 102. 5 | 105. 3 | 109. 2 | 114. 5 | 119. 5 | ....... |
| Sənaye ölkələri | 100. 0 | 101. 2 | 102. 6 | 104. 4 | 107. 6 | 110. 1 | 113. 4 |
| İEÖ | 100. 0 | 104. 1 | 109. 0 | 115. 8 | 124. 3 | 132. 9 | .... |
| Afrika | 100. 0 | 104. 4 | 107. 8 | 112. 5 | 117. 5 | 122. 6 | 129. 0 |
| Asiya | 100. 0 | 106. 1 | 113. 3 | 122. 4 | 132. 5 | 143. 6 | .... |
| Avropa | 100. 0 | 100. 1 | 104. 7 | 109. 9 | 117. 5 | 124. 2 | 132. 7 |
| Orta Şərq | 100. 0 | 102. 7 | 106. 6 | 112. 6 | 118. 8 | 125. 3 | .... |
| Qərb Yarımkürəsi | 100. 0 | 100. 6 | 100. 5 | 100. 5 | 109. 0 | 113. 6 | 119. 4 |

* [285 P, 93]

*Əlavə 3*

**Ölkə qrupları üzrə dünya valyuta bazarlarında valyuta mübadiləsinin dinamikası (1995=100)***

| Ölkələr | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|---|
| Dünya Ölkələri | 158, 9747 | 174, 4756 | 189, 4924 | 217, 7836 | 258, 178 | 31, 12021 | 358, 1162 |
| Sənaye Ölkələri | 135, 8724 | 141, 9902 | 150, 566 | 170, 5341 | 191, 886 | 204, 814 | 209, 6429 |
| ABŞ | 72, 59295 | 69, 82257 | 75, 31488 | 80, 93436 | 83, 28388 | 80, 15623 | 82, 40281 |
| Kanada | 262, 1469 | 285, 5108 | 282, 9802 | 249, 7999 | 228, 6252 | 252, 5188 | 259, 734 |
| Avstraliya | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| Yaponiya | 229, 7189 | 265, 9503 | 286, 2517 | 378, 6858 | 457, 5181 | 499, 8716 | 501, 3361 |
| Yeni Zellandiya | 97, 26891 | 88, 06022 | 115, 4412 | 127, 556 | 145, 1681 | 212, 9902 | 323, 8796 |
| Avstriya | 86, 14809 | 75, 75707 | 52, 25458 | 39, 99168 | 36, 23128 | 36, 66389 | 36, 34775 |
| Belçika | 62, 07979 | 70, 4435 | 66, 35277 | 52, 13649 | 50, 30377 | 48, 27866 | 51, 27582 |
| Finlandiya | 90, 11516 | 91, 60269 | 99, 26424 | 102, 7351 | 117, 6743 | 112, 7639 | 65, 22713 |
| Fransa | 158, 3248 | 134, 7508 | 103, 777 | 99, 94861 | 120, 2659 | 107, 843 | 172, 0131 |
| Almaniya | 72, 83984 | 66, 45966 | 59, 7279 | 52, 84519 | 49, 09046 | 53, 16238 | 47, 90767 |
| Yunanıstan | 102, 4112 | 38, 75267 | 57, 09635 | 26, 3099 | 4, 873334 | 2, 197579 | 2, 757147 |
| İrlandiya | 69, 51463 | 75, 14997 | 65, 24268 | 41, 90147 | 27, 19506 | 6, 544265 | 5, 962552 |
| İtaliya | 77, 65895 | 75, 0643 | 81, 61184 | 79, 14354 | 69, 76671 | 74, 28365 | 73, 22774 |
| Lüksemburk | 0 | 0 | 0 | 300 | 465 | 585 | 520 |
| Niderland | 25, 72864 | 22, 58435 | 0, 019143 | 23, 62766 | 22, 21584 | 23, 69945 | 29, 67217 |
| Portuqaliya | 63, 61254 | 71, 2705 | 76, 07493 | 34, 28128 | 28, 94303 | 21, 54712 | 11, 84121 |
| Sloveniya | 196, 9472 | 278, 6304 | 415, 8416 | 463, 2838 | 460, 231 | 462, 5413 | 383, 1683 |
| İspaniya | 103, 6464 | 101, 5922 | 109, 6765 | 53, 91865 | 30, 87798 | 27, 51064 | 30, 68125 |
| Danimarka | 160, 8488 | 185, 7619 | 275, 956 | 350, 9415 | 37, 58691 | 329, 4612 | 280, 7503 |
| İslandiya | 142, 132 | 126, 9036 | 154, 8223 | 261, 4213 | 332, 4873 | 358, 3756 | 767, 0051 |
| Norveç | 144, 3419 | 124, 3786 | 158, 9747 | 170, 0796 | 195, 3313 | 228, 491 | 262, 9744 |
| San Marino | 75, 57252 | 77, 8626 | 99, 23664 | 125, 9542 | 170, 9924 | 185, 4962 | 245, 0382 |
| İsveç | 68, 42276 | 65, 68818 | 73, 97615 | 78, 55754 | 86, 11975 | 96, 94142 | 103, 6936 |
| İsveçrə | 101, 4914 | 102, 7943 | 120, 3103 | 131, 4019 | 148, 0135 | 106, 2144 | 106, 4158 |
| Böyük Britanya | 99, 48401 | 87, 07744 | 86, 45521 | 73, 13807 | 83, 26441 | 95, 17396 | 98, 07641 |
| İEOÖ | 179, 7245 | 203, 6526 | 224, 4545 | 260, 2212 | 317, 7187 | 409, 0619 | 491, 4747 |
| Afrika | 237, 194 | 292, 4316 | 302, 1616 | 348, 2942 | 465, 1568 | 642, 5033 | 841, 9701 |

* [285 P, 36]



*Əlavə № 4*

**Azərbaycan Respublikasının ixrac və idxalının ümumi həcminin ölkə qrupları üzrə xüsusi çəkisi (%-lə)***

| İllər | Uzaq xarici ölkələr | | MDB ölkələri | |
|---|---|---|---|---|
| | İdxal, %-lə | İxrac, %-lə | İdxal, %-lə | İxrac, %-lə |
| 1992 | 35 | 51 | 65 | 49 |
| 1993 | 44 | 48 | 56 | 52 |
| 1994 | 37 | 57 | 62 | 43 |
| 1995 | 66 | 55 | 34 | 45 |
| 1996 | 65 | 54 | 35 | 46 |
| 1997 | 56 | 51 | 44 | 48 |
| 1998 | 62 | 62 | 38 | 38 |
| 1999 | 68 | 77 | 31 | 23 |
| 2000 | 68 | 86 | 32 | 13 |
| 2001 | 69 | 90 | 31 | 10 |
| 2002 | 63 | 89 | 37 | 21 |
| 2003 | 68 | 87 | 32 | 13 |
| 2004 | 66 | 83 | 34 | 17 |
| 2005 | 66 | 79 | 34 | 21 |
| 2006 | 60 | 85 | 40 | 15 |
| 2007 | 67 | 85 | 40 | 18 |

* Cədvəl DSK-nın statistik materialları əsasında hesablanmışdır

*Əlavə № 5*

**Azərbaycanın 1991-2006-ci illərdə idxal və ixracının ümumi həcmində əsas ticarət tərəfdaşlarının xüsusi çəkisi (ümumi yekuna nisbətən %-lə)***

| İllər | 1991 | | 2007 | |
|---|---|---|---|---|
| Ölkə | İdxal | İxrac | İdxal | İxrac |
| MDB ölkələri | 92 | 96 | 33 | 18 |
| Rusiya | 52, 7 | 59, 3 | 17, 6 | 8, 7 |
| Ukrayna | 26, 6 | 13 | 8, 2 | 0, 5 |
| Belorusiya | 2, 6 | 4, 9 | 1, 3 | 0, 0 |
| Gürcüstan | 1, 8 | 6, 03 | 1, 1 | 5, 7 |
| Qazaxıstan | 4, 9 | 4, 1 | 3, 9 | 2, 1 |
| AB ölkələri | 1, 4 | 0, 6 | 29, 3 | 27, 6 |
| Finlandiya | 0, 04 | 0, 2 | 2, 7 | - |
| Fransa | 20, 02 | 0, 02 | 1, 8 | 4, 3 |
| Almaniya | 0, 4 | 0, 02 | 8, 3 | 0, 3 |
| İtaliya | 0, 2 | 0, 04 | 2, 5 | 15, 5 |
| B/Britaniya | 0, 1 | 0, 04 | 7, 2 | 0, 1 |
| ABŞ | 0, 01 | 0, 0002 | 4, 7 | 3, 8 |
| Türkiyə | 0, 09 | 0, 3 | 10, 9 | 17, 4 |
| İran | 1, 4 | 1, 4 | 1, 8 | 7, 2 |
| İzrail | -- | 0, 0002 | 0, 5 | 6, 1 |
| İsveçrə | 0, 1 | 0, 1 | 0, 9 | 0, 3 |
| Çin | 0, 02 | 0, 003 | 4, 9 | 0, 2 |
| Yaponiya | 0, 8 | 0, 003 | 5, 2 | 0, 0 |

*Mənbə: Hesablamada DSK-nın hər il buraxılan illik idxal-ixrac göstəricilərindən və [149, s. 471-474] istifadə edilmişdir

**1998-2006-cı illərdə ölkə qrupları üzrə ixrac (mln ABŞ dolları)***

| Ölkə qrupları | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|
| CƏMİ | 2314, 2 | 2167, 3 | 2590, 3 | 3615, 4 | 4347, 1 | 6372, 2 |
| Müstəqil dövlətlər Birliyi (MDB) | 222, 7 | 243, 6 | 322, 2 | 614, 2 | 905, 3 | 929, 7 |
| Avropa Birliyi (AB) | 1608, 0 | 1463, 3 | 1745, 5 | 1841, 0 | 2029, 1 | 3643, 3 |
| Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) | 316, 7 | 358, 1 | 473, 3 | 747, 0 | 1121, 4 | 1325, 5 |
| İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) | 114, 3 | 169, 9 | 208, 8 | 540, 8 | 829, 1 | 977, 1 |
| Gürcüstan, Ukrayna, Özbəkistan, Azərbaycan və Moldova Təşkilatı (GUAM) | 110, 1 | 93, 9 | 131, 4 | 201, 1 | 244, 4 | 324, 0 |
| Neft ixrac edən ölkələrin Təşkilatı (OPEC) | 20, 0 | 37, 6 | 58, 2 | 294, 5 | 193, 7 | 320, 2 |
| İslam Konfransı Təşkilatı (İKT) | 165, 4 | 181, 1 | 224, 2 | 700, 9 | 904, 4 | 1034, 9 |
| Asiya-Sakit okeanı İqtisadi Əməkdaşlıq Təşkilatı (ASİƏT) | 985, 9 | 150, 9 | 260, 7 | 422, 2 | 564, 7 | 631, 4 |
| Avropa Azad Ticarət Assosiasiyası (AATA) | 95, 3 | 21, 3 | 2, 5 | 3, 6 | 3, 3 | 5, 5 |
| Cənub-Şərqi Asiya Dövlətlərinin Assosiasiyası (asean) | 0, 3 | 1, 4 | 0, 3 | 132, 4 | 123, 4 | 69, 0 |
| İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) | 1787, 8 | 1622 | 1900, 6 | 2004 | 2291, 3 | 977, 1 |
| Avropa | 1844, 7 | 1678 | 1991, 7 | 2306 | 2753, 9 | 4038, 2 |
| Asiya | 406, 0 | 420, 4 | 529, 8 | 1273 | 1507, 9 | 2211, 3 |
| Amerika | 30, 6 | 62, 8 | 66, 4 | 26, 9 | 44, 0. | 106, 9 |
| Afrika | 32, 3 | 5, 2 | 2, 1 | 8, 9 | 41, 1 | 15, 7 |
| Okeaniya | 0, 4 | 0, 002 | 0, 1 | 0, 1 | 0, 02 | 0, 02 |

[32, 2001-2005, s22-27. ]

**Dünyanın mühüm regional iqtisadi inteqrasiya birlikləri ilə Azərbaycanın iqtisadi və ticarət əlaqələri dinamik şəkildə inkişaf edir.**





**1998-2006-ci illərdə ölkə qrupları üzrə idxal (mln ABD dolları)***

| Ölkə qrupları | 1998 | 1999 | 2000 | 2002 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|
| CƏMİ | 107, 64 | 1035, 8 | 11720, 7 | 1665, 5 | 4211, 3 | 5246, 6 |
| MDB | 404, 6 | 325, 2 | 375, 5 | 650, 5 | 1449, 5 | 2098, 2 |
| Avropa Birliyi (AB) | 223, 7 | 190, 6 | 227, 1 | 393, 5 | 1248, 0 | 1624, 3 |
| Qara Dəniz İƏT | 541, 1 | 429, 96 | 443, 4 | 547, 5 | 1319, 7 | 1998, 1 |
| İƏT | 337, 7 | 233, 6 | 258, 1 | 487, 2 | 831, 37 | 996, 9 |
| GUAM | 123, 7 | 498, 7 | 48, 6 | 95, 7 | 274, 45 | 371, 4 |
| OPEK | 88, 5 | 60, 5 | 78, 0 | 79, 5 | 11, 4 | 127, 5 |
| İslam Konfransı Təşkilatı (İKT) | 391, 3 | 246, 9 | 306, 5 | 514, 3 | 927, 8 | 1087, 6 |
| Asiya-Sakit okean İqtisadi Əməkdaşlıq Təşkilatı (ASİƏT) | 255, 6 | 448, 3 | 428, 4 | 545, 8 | 158, 8 | 1900, 5 |
| Avropa Azad Ticarət Assosiasiyası (AATA) | 16, 5 | 40, 5 | 62, 2 | 41, 3 | 57, 1 | 67, 5 |
| Cənub-Şərqi Asiya Dövlətlərinin Assosiasiyası (asean) | 5, 52 | 44, 9 | 17, 4 | 42, 2 | 41, 41 | 20, 6 |
| İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) | 526, 9 | 552, 1 | 584, 7 | 771, 2 | 189 | 2484, 4 |
| Avropa | 576, 1 | 436, 3 | 633, 9 | 825, 4 | 2280, 2 | 3219, 2 |
| Asiya | 440, 0 | 400, 4 | 376, 1 | 711, 6 | 1695, 9 | 1663, 1 |
| Amerika | 58, 1 | 92, 9 | 130, 2 | 11, 7 | 171, 3 | 325, 2 |
| Afrika | 1, 6 | 0, 2 | 24, 2 | 5, 0 | 52, 8 | 47, 5 |
| Okeaniya | 0, 4 | 5, 9 | 7, 5 | 11, 6 | 10, 9 | 12, 6 |

*[32, 2001-2005, s. 25-27, 44, 2008, s. 557]

*Əlavə 8*

**Sənaye məhsullarının ən mühüm növlərinin istehsalı***

| MƏHSULLAR | 1990 | 1995 | 2000 | 2001 | 2002 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|---|---|
| Yanacaq-energetika | | | | | | | | |
| Elektrik enerjisi mlrd. kv. saat | 23, 2 | 17 | 18, 6 | 18, 9 | 18, 4 | 22, 8 | 24, 5 | 20, 3 (əmtəəlik) |
| Neft hasilatı (qaz kondensatı da daxil olmaqla), mln. ton | 12, 5 | 9, 2 | 14, 0 | 14, 9 | 15, 2 | 22, 2 | 32, 2 | 41, 7 |
| Təbii qaz. mlrd. kub m. | 9, 9 | 6, 6 | 5, 6 | 5, 5 | 5, 2 | 5, 7 | 9, 1 | 11, 0 |
| Polad borular. min ton | 493 | 9, 9 | 3, 6 | 2, 0 | 0, 6 | 1, 3 | 14, 1 | 25. 7 |
| Dərinlik ştanq nasosları, min ədəd | 73 | 23, 8 | 16, 1 | 8, 4 | 13, 0 | 78. 3 | | |
| Güc transformatorları, min kva. | 1996 | 56 | 39, 9 | 31, 2 | 35 | 29 | | |
| Quyuların təmiri və mənimsənilməsi üçün aqreqatlar və qaldırıcılar, ədəd | 485 | 37 | 35 | 15 | 50 | 32 | | |
| Soyuducular və buzlayıcılar, min ədəd | 330 | 25 | 0, 8 | 2, 1 | 4, 4 | 134 | 15. 1 | 8. 9 |
| Kondisionerlər, min ədəd | 309 | 64 | 2, 9 | 1, 8 | 0, 9 | 1, 1 | 1, 6 | 0. 8 |
| Sement, min ton | 990, 0 | 195, 9 | 250, 7 | 522, 6 | 800 | 153. 8 | 162, 2 | 1730 |
| Quraşdırma dəmir-beton konstruksiyalar və məmulatlar, min kub m. | 1312, 3 | 90, 5 | 42, 9 | 28, 3 | 19, 5 | 19. 9 | 20, 1 | |
| Kaustik soda, min ton | 159, 7 | 36, 4 | 25, 3 | 21, 8 | 25 | 26, 4 | 33, 2 | 17. 4 |
| Polietilen, min ton | 49, 4 | 18, 8 | 32, 2 | 27, 2 | 48 | 53 | 70, 4 | 46. 7 |

* [44, 2005, s. 466-468; 16] [43, 2008, s. 73-75]
** əmtəəlik məhsul



*Əlavə 9*

**Kapital qoyuluşlarının texnoloji strukturu (faizlə)***

| CƏMİ | O cümlədən | Tikinti quraşdarma işləri | Avadanlıq, alət və inventar | Sair əsaslı işlər və xərclər |
|---|---|---|---|---|
| 1990 | 100, 0 | 46, 2 | 33, 1 | 20, 7 |
| 1991 | 100, 0 | 50, 5 | 25, 7 | 23, 8 |
| 1992 | 100, 0 | 54, 3 | 20, 4 | 25, 3 |
| 1993 | 100, 0 | 55, 0 | 16, 0 | 29, 0 |
| 1994 | 100, 0 | 19, 5 | 48, 7 | 31, 8 |
| 1995 | 100, 0 | 50, 4 | 31, 7 | 17, 9 |
| 1996 | 100, 0 | 60, 7 | 23, 4 | 15, 9 |
| 1997 | 100, 0 | 67, 9 | 16, 4 | 15, 7 |
| 1998 | 100, 0 | 72, 9 | 16, 8 | 10, 4 |
| 1999 | 100, 0 | 52, 8 | 30, 6 | 16, 6 |
| 2002 | 100, 0 | 44, 1 | 30, 4 | 25, 5 |
| 2003 | 100, 0 | 44, 6 | 31, 7 | 23, 7 |
| 2004 | 100, 0 | 50, 5 | 23, 9 | 25, 6 |
| 2005 | 100, 0 | 53, 9 | 23, 4 | 22, 7 |
| 2006 | 100 | 50, 7 | 30, 0 | 19, 3 |

*[44, 2006, s. 578, 2007, s. 479]

*Əlavə 10*

**Azərbaycanın 1997-2006-cı illərdə Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə ixracının quruluşu (yekuna görə faizlə)***

| № | | 1997 | 2001 | 2005 | 2006 |
|---|---|---|---|---|---|
| | CƏMİ | 100 | 100 | 100 | 100 |
| 0 | Yeyinti məhsulları və diri heyvanlar | 2, 9 | 1, 0 | 5, 4 | 3, 6 |
| 1 | İçkilər və tütün | 3, 3 | 1, 2 | 0, 8 | 0, 6 |
| 2 | Qeyri-ərzaq xammalı (yanacaqdan başqa) | 16, 4 | 1, 6 | 3, 4 | 3, 2 |
| 3 | Mineral yanacaq, sürtkü yağları, analoji materiallar | 61, 4 | 91, 3 | 76, 8 | 84, 6 |
| 4 | Heyvan və bitki mənşəli yağlar, piylər | 0, 8 | 0, 12 | 1, 2 | 0, 6 |
| 5 | Kimyəvi mallar və digər kateqoriyalara daxil edilməyən analoji məhsullar | 4, 4 | 1, 1 | 2, 3 | 2, 1 |
| 6 | Əsasən materialın növünə görə təsnifləşdirilən sənaye malları | 4, 2 | 0, 74 | 2, 9 | 2, 8 |
| 7 | Maşınlar və nəqliyyat avadanlıqları | 5, 4 | 1, 8 | 6, 8 | 1, 9 |
| 8 | Müxtəlif sənaye məmulatları | 1, 2 | 1, 0 | 0, 4 | 0, 4 |
| 9 | BSTT-nin digər kateqoriyalarına daxil edilməyən mallar | 0 | 0, 14 | - | - |

*Əlavə 11.*

**Azərbaycanın 1997-2006-cı illərdə Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə idxalın quruluşu (yekuna görə faizlə)***

| № | | 1997 | 2001 | 2005 | 2006 |
|---|---|---|---|---|---|
| | CƏMİ | 100 | 100 | 100 | 100 |
| 0 | Yeyinti məhsulları və diri heyvanlar | 21, 0 | 13, 6 | 7, 3 | 7, 6 |
| 1 | İçkilər və tütün | 0, 78 | 1, 7 | 2, 3 | 2, 1 |
| 2 | Qeyri-ərzaq xammalı (yanacaqdan başqa) | 3, 3 | 2, 8 | 3, 1 | 2, 9 |
| 3 | Mineral yanacaq, sürtkü yağları, analoji materiallar | 10, 0 | 15, 1 | 11, 9 | 11, 6 |
| 4 | Heyvan və bitki mənşəli yağlar, piylər | 0, 77 | 0, 9 | 0, 8 | 0, 7 |
| 5 | Kimyəvi mallar və digər kateqoriyalara daxil edilməyən analoji məhsullar | 7, 4 | 5, 5 | 5, 4 | 5, 8 |
| 6 | Materialların növünə görə təsnifləşdirilən sənaye malları | 22, 5 | 14, 9 | 17, 6 | 17, 2 |
| 7 | Maşınlar və nəqliyyat avadanlıqları | 27, 5 | 38, 6 | 43, 5 | 46, 2 |
| 8 | Müxtəlif sənaye məmulatları | 6, 6 | 6, 8 | 8, 1 | 5, 8 |
| 9 | BSTT-nin digər kateqoriyalarına daxil olmayan mallar | 0, 15 | 0, 1 | 0, 02 | 0, 1 |

* [32; 1997-2001 s. 30, 31. 2001-2005. s. 34; 44, 2007, s. 36]

*Əlavə 12*

**1995-2006-cı illərdə Azərbaycanda neft-qaz hasilatı və ixracatı***

| | 1995 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1. Neft hasilatı mln. ton | 9,2 | 9,1 | 11,4 | 13,8 | 14,0 | 14,9 | 22,2 | 32,2 | 41,7 |
| 2. Təbii qaz, mlrd. m3 | 6,2 | 6,0 | 5,6 | 6,0 | 5,6 | 5,5 | 5,7 | 9,1 | 11,0 |
| 3. Neft və neft məhsullarının ixracı: miqdarı, min ton | 2693 | 2626 | 4426 | 6746 | 7616 | 11466 | 36900 | 131747 | — |
| Məbləği, mln. doll. | 346, 6 | 451, 6 | 390,6 | 700, 6 | 1464 | 2106, 1 | 3308, 2 | 5327, 1 | 4934, 8 |
| Cəmi ixracda xüsusi çəkisi, faizlə | 54,4 | 57,8 | 64,4 | 75,4 | 84,0 | 91,0 | 76,1 | 83,6 | 81,5 |

*[44, 2006, s. 467: 16; 32, 2007, s. 5831998-2002, s. 44;2001-2005, s. 59, 65; 1993-1997, s. 34, 48, 88] [43, 2008, s. 115]



*Əlavə № 13*

**Neft və neft məhsullarının idxalı və ixracı*(min ABŞ dollar)**

| Adı | İllər | | | |
|---|---|---|---|---|
| | 2001 | | 2006 | |
| | Miqdar | Məbləğ | Miqdar | Məbləğ |
| İDXAL | | | | |
| Dizel yanacağı, ton | 7174, 3 | 10562, 6 | 26956, 6 | 11868, 2 |
| Yağlar və sürtkülər, ton | 6303, 9 | 4873, 6 | 16308, 7 | 14870, 8 |
| Təbii qaz, mln. kubm | 3336, 8 | 170732, 7 | 4431, 2 | 465124 |
| İXRAC | | | | |
| Xam neft, min ton. | 9142, 5 | 1725478, 8 | 9215, 4 | 3848498, 5 |
| Motor benzini, ton | 184, 8 | 38077, 9 | 337, 4 | 198051 |
| Ağ neft, min ton. | 342, 4 | 65113, 1 | 212, 0 | 123275, 6 |
| Dizel yanacağı, min ton. | 1234, 3 | 222834, 0 | 1611, 1 | 867726, 8 |
| Mazut yanacağı, min ton | 493, 2 | 42141, 3 | 925, 2 | 264370, 9 |
| Yağlar və sürtgülər, ton | 11138, 8 | 2072, 9 | 57883, 1 | 21198, 2 |

* [32, 2001-2005, s. 53; 59; 44, 2007, s. 584]

*Əlavə 14*

**Müqayisəli rəqəmlərlə əsas kənd təsərrüfatı məhsulları üzrə məhsuldarlıq və adambaşına istehsal* 1990-cı il**

| SSRİ | RSFSR | Ukrayna | Özbəkistan | Belarus | Gürcüstan | Azər-baycan | |
|---|---|---|---|---|---|---|---|
| Xam-pambıq (hər ha-dan sent). | 26, 2 | — | — | 27, 6 | ... | ... | 20, 6 |
| Kartof (hər ha-dan sent). | 109 | 99 | 117 | 80 | 135 | 106 | 78 |
| Meyvə və giləmeyvə (hər-ha dan sent). | 40, 4 | 36, 1 | 42, 3 | 46, 7 | 31, 9 | 55, 9 | 28, 2 |
| Adambaşına ət istehsalı (kəsilmiş kq) | 69 | 68 | 84 | 23 | 115 | 31 | 25 |
| Adambaşına süd istehsalı (kq) | 374 | 375 | 472 | 147 | 724 | 120 | 137 |
| Hər inəkdən süd sağımı, kq | 2853 | 2781 | 2940 | 2578 | 3220 | 1619 | 1746 |

* [208, s. 72, 74, 459]

*Əlavə 15*

**Azərbaycan Tədiyə balansı (mln ABŞ dolları)***

| Tədiyə balansı | 1996 | 1998 | 2000 | 2002 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|---|
| Cari əməliyyatlar hesabı | -931,1 | -136,4 | -167,7 | -768,4 | -2589 | 1167,3 | 3707,6 |
| Mallar və xidmətlər | -985,5 | -1415,2 | 94,5 | -454 | -2077 | 1329,0 | 5821,9 |
| Xarici ticarət balansı | -693,9 | -104,6 | 319,3 | 481,6 | 161 | 3299,1 | 7745,2 |
| Malların ixracı | 643,6 | 677,7 | 1858,3 | 2304,9 | 3742 | 7648,9 | 13014,6 |
| Malların idxalı | -1337,5 | -1723,9 | -1539 | -1823 | -3581 | -4349,8 | 5269,3 |
| Xidmətlər balansı | -291,6 | -369,0 | -224,7 | -935,6 | -2238 | -1970,0 | 1923,3 |
| Sığorta daxil olmaqla nəqliyyat | -63,3 | -65,7 | -24,7 | -38,8 | -83 | -1396,9 | |
| Səfərlər | -54,1 | -44,5 | -68,5 | -54,4 | -63 | -8629,6 | |
| Tikinti | -56,9 | -124,1 | -85,7 | -559,6 | -1364 | -1489,3 | 1254,5 |
| Rabitə | 5,2 | 9,6 | 9,3 | 6,3 | 20 | 2320,9 | 20,1 |
| Maliyyə | -1,0 | 0,5 | - | - | - | - | - |
| Dövlət | 1,7 | 2,8 | 16,0 | -26,7- | 10 | 3043,4 | 19,0 |
| Digər | -123,2 | -144,5 | -71,0 | 393,5 | 758 | -3082,7 | 522,2 |
| Gəlirlər | -12,1 | -13,2 | -335,4 | -386,7 | 700 | -1645,6 | 2680,6 |
| Əmək ödənişləri | -14,9 | - | - | - | -95 | 2075,8 | 3,0 |
| Birbaşa investisiyalardan gəlir | - | - | - | - | -581 | -1494,0 | -2492,6 |
| Digər gəlirlər | 2,7 | - | 25,8 | -3,1 | -24 | -8515,9 | -61,7 |
| Cari transvertlər | 66,5 | 64,0 | 73,1 | 70,4 | 188 | 4838,7 | 566,3 |
| Beynəlxalq təşki- latlara üzvülük haqqı | -0,2 | - | - | - | -6 | -4749,0 | -5,2 |
| Humanitar, texniki və digər təmənnasız yardımlar | 86,2 | - | - | - | 63 | 1197,6 | 67,3 |
| Pul baratları | -20,5 | - | - | - | - | - | - |
| Digər transfertlər | 0,9 | - | - | - | 131 | 3688,5 | 504,2 |
| Kapitalın və maliyyənin hərəkəti hesabı | 901,6 | 1384,4 | 441,9 | 1051,5 | 3023 | 5659,8 | -1735,4 |
| Neft bonusu | 36,6 | 74,7 | 99,9 | 1007,0 | 22 | 1000,0 | 17,0 |
| Mühacirlərin transfertləri | - | - | - | - | - | - | - |
| Qeyri maliyyə aktivlərinin alınması (torpaq və s.) | - | 0,7 | - | - | - | - | 0,4 |
| İqtisadiyyata investisiya | - | - | - | - | 1204 | -1220,7 | -705,5 |
| Azərbayjan iqtisadiyyatına birbaşa investisiyalar | 590,6 | 948,2 | 29,1 | 1,1 | 4697 | 4475,3 | 4468,9 |
| Səhmdar kapital | 447,3 | 756,9 | - | - | - | - | 4286,4 |
| Digər kapital | 143,2 | 191,2 | - | - | - | - | 182,5 |
| Portfel | | | | | - | | |
| İnvestisiyaları | - | 0,3 | - | 0,4 | -18 | -3050,3 | -12,0 |
| Aktivlər | - | 0,3 | - | 0,4 | -18 | -4776,1 | -34,4 |
| Passivlər | - | - | - | - | 927 | 7826,4 | 22,3 |
| Digər investisiyalar | 267,2 | 343,1 | 312,7 | 13 | 694 | 3542,2 | -430,1 |
| Aktivlər | -216,7 | 22,2 | -114,1 | -102 | -233 | -8896,6 | 1005,9 |
| Kommersiya kreditləri | -77,4 | -28,8 | - | -83,9 | -58 | -7664,3 | -948,5 |
| Kreditlər və Ssudalar | 0,8 | - | -119,8 | 0,3 | - | -1260,0 | -42,0 |
| Nəğd pullar və depozitlər | -137,7 | 62,4 | 7,0 | -18,6 | 20 | -7420,0 | -15,5 |
| Digər aktivlər | -2,3 | -11,2 | -1,3 | - | 5 | -3643,2 | -1,1 |
| Passivlər | 484,0 | 320,8 | 426,9 | 115,2 | 928 | 9250,8 | 575,9 |
| Kommersiya Kreditləri | 301,3 | 80,9 | 33,5 | -57,3 | -90 | -9736,0 | -302,2 |
| Kreditlər və Ssudalar | 109,0 | 121,0 | 203,3 | 138,8 | 1038 | 1179,5 | 701,4 |
| Nəğd pullar və depozitlər | 26,5 | -2,0 | -22,6 | 18 | - | 1480,0 | 176,7 |
| Digər passivlər | 47,0 | 120,7 | 212,6 | 15,8 | 21 | -1719,3 | - |
| Ehtiyat aktivləri | 7,1 | 18,7 | -274,1 | 196,5 | -384 | -6077,0 | 1716,1 |
| Buraxılan səhvlər və hesaba alınmayanlar | 29,5 | 19,9 | - | -86,6 | -50 | -1255,8 | -256,1 |
| Ümumi balans | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 |

* [44, 2002, s. 371-372, 2003, s. 364-366, 2004, s. 374-377]

**2008-2011-ci illər Dövlət İnvestisiya Proqramına daxil ediləcək investisiya layihələrinin əsas istiqamətləri**

| Investisiya layihələrinin istiqamətləri | 2008 | | 2009 | | 2010 | | 2011 | |
|---|---|---|---|---|---|---|---|---|
| | Umumi məbləğ | Xüsusi çəkisi % | Ümumi məbləğ | Xüsusi çəkisi % | Ümumi məbləğ | Xüsusi çəkisi % | Ümumi məbləğ | Xüsusi çəkisi % |
| Infrastruktur layihələri | 2, 623, 391, 7 | 64, 9 | 2, 744, 682, 6 | 64, 8 | 2, 623, 727, 3 | 67, 2 | 2,248,957,3 | 66, 2 |
| *o cümlədən:* | | | | | | | | |
| Nəqliyyat | 934339, 1 | 23, 1 | 1148092, 2 | 27, 1 | 1147175, 2 | 29, 4 | 1003460, 3 | 29, 5 |
| Kommunal infrastruktur | 614371 | 15, 2 | 561762, 6 | 13, 3 | 649459, 5 | 16, 6 | 570816, 9 | 16, 8 |
| Su ehtiyatları və irriqasiya | 295819, 2 | 7, 3 | 363895, 9 | 8, 6 | 402232, 1 | 10, 3 | 400274, 5 | 11, 8 |
| Energetika və sənaye | 712228 | 17, 6 | 614620 | 14, 5 | 371650 | 9, 5 | 218500 | 6, 4 |
| Ekologiya | 10476, 8 | 0, 3 | 25394, 7 | 0, 6 | 24023, 6 | 0, 6 | 30332 | 0, 9 |
| Kənd təsərrüfatı | 26263, 3 | 0, 6 | 29917, 2 | 0, 7 | 29186, 9 | 0. 7 | 25573, 6 | 0, 8 |
| Sahibkarlıq | 29894, 3 | 0, 7 | 1000 | 0 | 0 | 0 | 0 | 0 |
| Sosial yönümlü layihələr | 819, 178, 3 | 20, 3 | 900, 759, 5 | 21, 3 | 860, 019, 2 | 22 | 733, 111, 5 | 21, 6 |
| *o cümlədən:* | | | | | | | | |
| Respublikanın rayon və şəhərlərində yeni ümumtəhsil məktəblərinin tikintisi | 214504 | 5, 3 | 300000 | 7, 1 | 350000 | 9 | 400000 | 11, 8 |
| Respublikanın rayon və şəhərlərində səhiyyə obyektlərinin tikintisi | 103828, 7 | 2, 6 | 81116, 4 | 1, 9 | 80500, 1 | 2, 1 | 64046, 1 | 1, 9 |
| Respublikangn rayon və şəhərlərində əlil və şəhid ailələri üçün yaşayış evlərinin tikintisi | 28070, 6 | 0, 7 | 38242, 2 | 0, 9 | 41930 | 1, 1 | 34716 | 1 |
| Mədəniyyət obyektlərinin tikintisi, bərpası və yenidənqurulması | 210134, 5 | 5, 2 | 234146, 5 | 5, 5 | 168244, 1 | 4, 3 | 161349, 4 | 4, 7 |
| İdman obyektlərinin tikintisi | 108320 | 2, 7 | 79510 | 1, 9 | 80000 | 2 | 70000 | 2, 1 |
| Qaçqınlar və məcburi köçkünlərin sosial-yaşayış şəraitinin yaxşılaşdırılmasına dair tədbirlərin maliyyələşdirilməsi | 129943, 5 | 3, 2 | 135218, 4 | 3, 2 | 127845 | 3, 3 | 0 | 0 |
| Digər sosial | 24377 | 0, 6 | 32526 | 0, 8 | 11500 | 0, 3 | 3000 | 0, 1 |
| İnstitusional layihələr | 15939, 2 | 0, 4 | 1500 | 0 | 1000 | 0 | 1000 | 0 |
| Müdafiə və hüquq-mühafizə orqanları | 175796, 6 | 4, 3 | 173880 | 4, 1 | 195391 | 5 | 213120, 2 | 6, 3 |
| Ərazilərin bərpası, yenidənqurulması və fövqəladə halların aradan qaldırılması yönümlü layihələr | 82071, 4 | 2 | 94615, 9 | 2, 2 | 85659, 5 | 2, 2 | 86580, 2 | 2, 5 |
| Digər layihələr | 260502, 1 | 6, 4 | 164512 | 3, 9 | 132389 | 3, 4 | 105854, 8 | 3, 1 |
| Ehtiyat | 66750 | 1, 7 | 153150 | 3, 6 | 8814 | 0, 2 | 8370 | 0, 2 |
| Cəmi | 4043629, 3 | 100 | 4233100 | 100 | 3907000 | 100 | 3397000 | 100 |



Qeyd: Neft Fondundan investisiya layihərinin maliyyələşdirilməsinə ayrılan vəsait nəzərə alınmışdır.

## Tövsiyə olunan ədəbiyyat:


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı. Azərbaycan Respublikasının Qanunlar Külliyatı. Kitab II, Bakı, 1997, s. 508-616.

2. Azərbaycan Respublikasının Qanunlar Külliyatı. Kitab II, III. Bakı, Qanun, 1997, s. 879, 751.

3. Azərbaycan Respublikasının Məcəllələr külliyatı, Bakı, Qanun, 1999, s. 878.

4. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi. Bakı, Azərbaycan Respublikasının Məcəllələr Külliyyatı, Bakı, Qanun - 1999, s. 636-714.

5. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. "Hüquq ədəbiyyatı" nəşriyyatı Bakı, 2007 s. 286

6. Azərbaycan Respublikasında xarici ticarətin səmərəliliyinin artırılması haqqında AR Prezidentinin Fərmanı, 10 yanvar, 1994-cü il. Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 1994, № 1. Maddə 23.

7. Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında AR Prezidentinin 5. IV. 1994-cü il tarixli Fərmanı. Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 1994, № 7. Maddə 7. 1.

8. Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi tədbirləri haqqında. Azərbaycan Respublikasının Prezidentinin 17. XII. 1996-cı il tarixli Fərmanı. «Azərbaycan» qəzeti, 18 dekabr 1996.

9. Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında AR Prezidentinin 24. VI/1997-ci il tarixli Fərmanı. «Azərbaycan» qəzeti, 25 iyun 1997.

10. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı - (2002-2005-ci illər) üzrə həyata keçiriləcək əsas tədbirlər - «Azərbaycan» 18 avqust 2002.

11. «Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında». Azərbaycan Respublikası Prezidentinin Fərmanı-«Azərbaycan» 11 sentyabr 2002.

12. Azərbaycan Respublikasında sosial iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri. Azərbaycan Respublikası Prezidentinin Fərmanı, «Azərbaycan» qəzeti, 2003, 25 noyabr.

13. Azərbaycan Respublikasının «Gömrük tarifi haqqında» Qanunu. (24 iyun, 1995). Azərbaycan Respublikasının Qanunlar Külliyatı. Kitab II. Bakı, Qanun, 1997, s. 483-502.

14. Azərbaycan Respublikasının «Xarici investisiyaların qorunması haqqında» Qanunu. (15 yanvar, 1992. ) Azərbaycan Respublikasının Qanunlar Külliyatı. Kitab II. Bakı, Qanun, 1997, s. 244-258.

15. «Azərbaycan Respublikasının 2008-ci il dövlət büdcəsi» haqqında Azərbaycan Respublikasının Qanunu.

16. Azərbaycan Beynəlxalq aləmdə. Cild 1-5, Bakı, Azərnəşr, 1999.

17. Heydər Əliyev yolu Azərbaycan inkişafın yeni mərhələsində. "Azərbaycan" nəşriyyatı, 2007. s. 862.





18. Heydər Əliyev və Azərbaycan. "Azərbaycan" nəşriyyatı, 2008. s. 838.

19. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr, məruzələr, müraciətlər, fərmanlar. Azərnəşr, 1997-2000, cild 1-9.

20. Heydər Əliyev irsi Azərbaycanın davamlı inkişaf strategiyası. "Azərbaycan" nəşriyyatı, 2006. s. 783.

21. İlham Əliyev. Azərbaycan Respublikası Prezidentinin andiçmə mərasimində nitqi. «Azərbaycan» qəz., 1 noyabr 2003.

22. İlham Əliyev. Respublika Nazirlər Kabinetinin 14 noyabr 2003-cü il tarixli iclasından nitqi. «Xalq» qəzeti, 19. 11. 2003.

23. İlham Əliyev. Mən istənilən səviyyədə, istənilən mübarizəyə hazıram. Bakı, Azərnəşr, 2001, Kitab III. s. 477.

24. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 may tarixli sərəncamı ilə təsdiq edilmişdir-"Azərbaycan"qəzeti, 27. V. 2007

25. Valyuta tənzimi haqqında Azərbaycan Respublikasının Qanunu. (21 oktyabr 1994. ) Azərbaycan Respublikasının Qanunlar Külliyatı. cild II. Bakı. Qanun, 2001, s. 277-281.

26. Abbasov Ç. M., Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı, "Elm", 2005, s. 252

27. Aslanov Elnur. Yeni dünya nizamı və milli inkişaf. Bakı, Azərbaycan nəşriyyyatı, 2006, 296. s

28. Abdullayev Ş. Azərbaycanda bank sistemi və bank resurslarının idarə olunması. Bakı, "Azərnəşr", 2001, s. 352

28. a. Allahverdiyev N. N. Azərbaycan SSR iqtisadi və sosial coğrafiyası. Bakı, "Maarif" 1991

29. Aslanov R. N. XXI əsr: yeni mədəniyyət məkanına inteqrasiya. Bakı, "Nurlan", 2007, s. 440.

30. Alıyev İ., İbadov S. A. və başqaları. Azərbaycan iqtisadiyyatı. Bakı, Ağrıdağ, 1998, s. 396

31. Azərbaycan xarici ticarət əlaqələrinin statistik göstəriciləri. Bakı, Səda, 1996, 1998, 1999, 2000, 2001, 2005

32. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Xarici ticarət. Bakı, Səda, (1997-2001) 1999-2002, 2001-2005, 2002-2007

33. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Kənd təsərrüfatı müəssisələrinin əsas iqtisadi göstəriciləri (1995-2001-2005-ci illər). Bakı, Səda, 2002, s. 91.

34. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycanda ərzaq təhlükəsizliyi 2001-2006 (illik statistik məcmuə). Bakı, Səda.

35. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycanın xarici ticarət əlaqələri. 2002, 2005 yanvar-dekabr. Bakı, Səda, 2001, s. 637.

36. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycanın xarici ticarəti (1993-1997-ci illər statistik məcmuə). Bakı, Səda, 1998, s. 96

37. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Müştərək və xarici müəssisələrin fəaliyyətinin əsas göstəriciləri, yanvar - dekabr, Bakı, Səda, 2000, 2002, 2006.

38. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycanın sənayesi (statistik məcmuə). Bakı, Səda, 2005, s. 867.

39. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Sosial-iqtisadi inkişaf. Yanvar-mart. Bakı, Səda 2007, S146

40. Azərbaycan Respublikası Statiska Komitəsi Azərbaycan Respublikasının kənd təsərrüfatı. Statistik məcmuə. Bakı, Maarif nəşriyyatı, Bakı, Səda, 2000, 2005, 2006.

41. Azərbaycan rəqəmlərdə. 1991-2008-ci illərdə. Statistik məcmuələr. Bakı, Səda.

42. Azərbaycanın iqtisadi icmalı, aylıq bülleten. Bakı, TASIS, Fevral 1999, s. 140.

43. Azərbaycanın iqtisadi icmalı, rüblük bülletenlər, Bakı, TASIS, 2000-2001, s. 135.

44. Azərbaycanı statistik göstəriciləri. Bakı, Səda, 1997, 1998, 1999, 2000, 2001, 2002, 2003, 2005, 2006, 2007

45. Azərbaycan Respublikasının idxalat və ixracatı. Bakı, Səda, 1991, 1992, 1993, 1994, 1995, 1996-cı illərdə statistik məcmuələr.

46. Azərbaycan Respublikasının Milli Bankı. İllik hesabat, 1998-2007

47. Azərbaycan Respublikasının Milli Bankı. Statistik Bülleten. 1998-2007

48. Azərbaycan və müasir dünya. III ümumrespublika elmi-praktik konfransının materialları. Azərbaycan Universitetinin nəşriyyatı. Bakı, 2000, s. 285.

49. Azərbaycan və müasir dünya. IV ümumrespublika elmi-praktik konfransının materialları. Azərbaycan Universitetinin nəşriyyatı. Bakı, 2002, s. 333.

50. Bağırov M. Banklar və bank əməliyyatları. Bakı, "Nurlan", 2003, s. 510

51. Bayramov A. İ. Regional iqtisadi inteqrasiya: nəzəriyyə və praktika. Bakı, Azərnəşr, 1997.

51a . Bədəlov S. Ş., Məhərrəmov R., Qurbanov F. Büdcə sistemi, Bakı 2003, s. 413

52. Davos: Qlobal iqtisadiyyatın üfüqləri. Bakı, Azərnəşr, 2000, s. 86.

53. Əhməd Mahmudov. Azərbaycan iqtisadiyyatının aktual promlemləri. Bakı "Vətən" 2008. s. 912

54. Əhmədov Ə., Hacıyev M. Azərbaycan iqtisadiyyatı. Bakı, Səda- 2000, s. 161.

55. Əhmədov M. A., Qloballaşma və milli iqtisadiyyatın formalaşması, Bakı, "Azərnəşr", 2003, s. 520

56. Əhmədov Z. Qloballaşma dövründə Azərbaycanın yeyinti sənayesinin inkişafının aktual problemləri - Azərbaycan və müasir dünya II ümumrespublika elmi-praktik konfransının materialları. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 2002, s. 333.

57. Əliyev A.Ə.,Şəkərəliyev A. Ş., Dadaşov İ. M., Dünya iqtisadiyyatı: Müasir dövrün problemləri, Bakı, "Bakı Dövlət Universiteti", 2003, s. 455



58. Əliyev A., Qasımov Ə., Qasımov N. «İpək Yolu» bəşəriyyətin tərəqqi yoludur. Bakı, Səda, 1999, s. 177.

59. Əliyev M.T. Azərbaycan iqtisadiyyatının formalaşması və inkişaf problemləri. Bakı. Mütərcim, 2001, s. 760

60. Əli Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanının xarici siyasəti. Bakı. "Azərbaycan" nəşriyyatı 2005, s. 752

61. Əlirzayev Ə. İqtisadiyyat: düşüncələr, baxışlar. Bakı, Elm, 2002, s. 465.

62. Həsənli M. X., Keçid İqtisadiyyatı ölkələrinin vergi sistemlərinin formalaşdırılması. Bakı, 1995 s. 96

63. Harver İ. Müasir ekonomiks. Bakı, Məmmədli R. H. 2001, s. 512.

64. Heydərov K. Gömrük işinin əsasları. Bakı, Azərnəşr, cild 1, 2, 3, 4, 1998, 1999, 2000.

65. Heydər Əliyev və müasir Azərbaycan - I ümumrespublika Əliyevşünaslıq konfransı. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 2003, s. 360.

66. Heydərov K., Həsənov C. Azərbaycanın gömrük xidməti yeni dünya təsərrüfat əlaqələri şəraitində. Bakı, Azərnəşr. 1998.

67. Hüseynov T. Sənayenin iqtisadiyyatı. Bakı, Azərnəşr, 2000, s. 667.

68. Xəlilov S.S. Şərq və Qərb: ümumbəşəri ideyalara doğru. Fəlsəfi etüdlər. Bakı, 2004 "Azərbaycan nəşriyyatı".

69. Xəlilov H. A. Milli ərzaq təhlükəsizliyi: bazar transformasiyaları və iqtisadi qloballaşma amilləri. Bakı, Abduloğlu nəşriyyatı, 2001, s. 175.

70. Xəlilov S. S. Lider, dövlət, cəmiyyət. Bakı, "Azərbaycan Universiteti", 2001, s. 357

71. Y. Kərimli, N. Süleymanov. Milli iqtisadiyyatın əsasları. Dərs vəsaiti. Bakı, ABU nəşriyyatı və poliqrafiya mərkəzi, 2001, s. 307.

72. Kərimov C., Cəngiyev G. Dünya iqtisadiyyatı. Bakı, Nurlan 2001, s.450.

73. Qafarov Ş. S., Müasir iqtisadi sistem və qloballaşma, Bakı, "SBŞ", 2005, s. 632

74. Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya İqtisadi və Beynəlxalq Münasibətlər II Beynəlxalq Konfrans Materialları. Qafqaz Universiteti Bakı, 25 may 2007 -ci il I-II

75. Mehdiyev Ramiz. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı, "XXI- Yeni Nəşrlər Evi", 2005, 464. s

76. Mehdiyev Ramiz. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. - "Xalq qəzeti", 16. 01. 08.

77. Məmmədov N. Bərxudarov M., İqtisadi təhlükəsizlik. Bakı, İqtisad Universiteti nəşriyyatı, 2006, s. 452

78. Məmmədov F. Ə., Musayev A. və başqaları. Vergitutmanın nəzəri və metodoloji əsasları. Bakı, Ozan, 2001, s. 410

79. Məmmədov S. M. Maliyyə (dərslik), Bakı, Azərnəşr, 1997 s. 428

80. Musayev A. F. Vergi siyasətinin iqtisadi problemləri. Bakı, "Elm", 2004, s. 786

81. Məmmədov A.Y. Kənd Təsərrüfatı iqtisadiyyatı. Bakı, 1992.

82. Novruzoğlu R. Milli təhlükəsizlik kontekstində XXI- əsr . Azərbaycan dövlətçiliyinin təhlükə mənbələri.
83. Nadirov A. Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri. Elm nəşriyyatı. Bakı. 2001. s. 451
84. Nadirov A. Neft strategiyası və iqtisadiyyatımız, «Azərbaycan» qəzeti, 6. IV. 2000
85. Nadirov A. Tarixi ipək yolu və müasir Azərbaycan iqtisadiyyatı. İpək yolu. 1999. № 2
86. Nağıyev Ə., Novruzov V., Allahverdiyev H., Əlirzayev Ə. Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı. Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, 1998, s. 386.
87. Neft və yoxsulluq. Azərbaycanın neft sənayesi üzrə informasiya və Resurs Mərkəzi: Bakı, 2006, s. 148.
88. Rasimoğlu R. Qloballaşan iqtisadiyyat Azərbaycan prizmasında. Bakı, Nurlan, 2002, s. 165.
89. Rəhimov M. Azərbaycan Respublikasının inkişafını tənzimləyən qanunlar. Bakı, Azərnəşr, 1995, s. 248.
90. Rüstəmov Y. İnformasion cəmiyyət şəraitində qloballaşmanın sosial-fəlsəfi və iqtisadi aspektləri. Fəlsəfə və sosial-siyasi elmlər, 2003, № 1-2, s. 30-39.
91. Sadıqov M. M., Balayeva E. A. Həmişəyeva Ş. Beynəlxalq valyuta-kredit münasibətləri və xarici ölkələrin pul-kredit sistemi. Bakı, İqtisadiyyat Universiteti nəşriyyatı, 2003, s. 195.
92. Sadıqov M. M. Azərbaycan Respublikasının maliyyə potensialının formalaşması problemləri. Bakı, Elm, 2001, s. 150.
93. Sadıqov M. M. Maliyyə potensialının formalaşmasında dövlətin borc siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsi problemləri. Bakı, Ünsiyyət, 2003, s. 80.
94. Səfərov S. İqtisadi siyasət strategiyası. Konseptual əsaslar. Azərbaycan dövlət nəşriyyatı. Bakı, 2000. s. 341
95. Səmədzadə Z. Azərbaycan iqtisadiyyatı XX əsrdə. Gələcək barədə bəzi düşüncələr «İqtisadiyyat» qəzeti. 2.01.2000.
96. Səmədzadə Z. Dünya iqtisadiyyatı. Çin iqtisadi möcüzəsi. Bakı, Gənclik, 2001, s. 316.
97. Şəkərəliyev A.Ş. Dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi münasibətlər. Bakı, İqtisadiyyat Universiteti, 1999.
98. Stiqlis C.E. Qloballaşma və onun doğurduğu narazılıqlar. İqtisadi İslahatlar Mərkəzi, Xəzri Ekspress, Bakı-2004, s. 317
99. Vəliyev D.Ə. Açıq iqtisadiyyat şəraitində Azərbaycanın kənd təsərrüfatı: problemlər, prespektivlər. - Azərbaycan və müasir dünya IV ümumrespublika elmi-praktik konfransının materialları. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 2002, s. 52-60.
100. Vəliyev D.Ə. Azərbaycanın qlobal maliyyə-iqtisadi mühitə inteqrasiyasının perspektiv istiqamətləri. Dirçəliş, № 88-89, s. 340-347
101. Vəliyev D.Ə. Azərbaycanın dünya bazarı ilə inteqrasiya strateqiyası: problemlər, mülahizələr - Azərbaycan və müasir dünya. Ümumrespublika konfransının materialları. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 1998, s. 7-14.



102. Vəliyev D.Ə. Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabət qabiliyyətinin artırılması yolları. Azərbaycan Respublikasında iqtisadi islahatlar: ilkin nəticələr, problemlər və perspektivlər. Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, Avanqard, MMC, 2003, s. 295-298.
103. Vəliyev D.Ə. Beynəlxalq iqtisadiyyat. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 1998, s. 382
104. Vəliyev D.Ə. Beynəlxalq vergi münasibətlərinin hüquqi əsasları Kitab. Vəliyev D.Ə., Balakişiyeva Y. N., və başqaları. Vergi Hüququ. Dərslik. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 2003, s. 303-324.
105. Vəliyev D.Ə. Birbaşa xarici investisiyalar Azərbaycanda beynəlxalq kapital hərəkətlərinin forması kimi. MEA xəbərləri, İqtisadiyyat seriyası, 2005, №21, s. 361-368
106. Vəliyev D.Ə. Böyük ipək yolunun bərpası Şərq və Qərbin vəhdətinin məntiqi nəticəsi kimi. Şərq və Qərb sivilizasiyalarının dialoqu. 2005, №1, s. 105-118
107. Vəliyev D.Ə. İpək yolu və Azərbaycanda beynəlxalq maliyyə mühitinin formalaşdırılması: problemlər, mülahizələr. - Sosial bilgilər, 2000, №1, s. 39-42
108. Vəliyev D.Ə. İpək yolu və Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabət qabiliyyəti. İpək yolu. 1999, № 1, 2, s. 53-57, s. 38-41
109. Vəliyev D.Ə. Xarici iqtisadi fəaliyyətdən əldə edilən gəlirlərin Azərbaycanda vergiyə cəlb edilməsi xüsusiyyətləri. H. Əliyev və müasir Azərbaycan. I ümumrespublika konfransının materialları. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 2003, s. 324-328.
110. Vəliyev D.Ə. Keçid səbəblərdən başlayır, «Xalq qəzeti», 19. II. 1992.
111. Vəliyev D.Ə. Qloballaşma və Azərbaycanın milli iqtisadi inkişaf strategiyası, Azərbaycan və müasir dünya. III ümumrespublika elmi-praktik konfransının materialları. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 2000, s. 16-23.
112. Vəliyev D.Ə. Milli valyutamız milli qeyrətimiz olmalıdır, «Azərbaycan» (qəz. ) 9. 12. 1992.
113. Vəliyev D.Ə. Müstəqillik illərində Azərbaycanın xarici iqtisadi əlaqələrinin istehsal-texniki bazasının dinamikası. - Sosial bilgilər, 2002 № 1, s. 96-107
114. Vəliyev D., Rəhimov M. Beynəlxalq maliyyə. Bakı, Azərbaycan Universiteti nəşriyyatı. 2000, s. 328.
115. Vəliyev D., Balakişiyeva Y. və başqaları. Vergi hüququ. Dərslik, Bakı, 2003, s. 482.
116. Vəliyev D.Ə. Qeyri-neft sektorunun inkişafı - qloballaşma şəraitində Azərbaycan iqtisadiyyatının tərəqqi yoludur. İpək Yolu, 2004, №1 (çapdadır)
117. Vəliyev D.Ə. Türkiyədə kapitalizmin inkişafında dövlət maliyyəsinin rolu. MA EA məruzələri . 1998, № 9, s. 18-21.
118. Vəliyev D. Şərq və Qərbin vəhdəti bəşəriyyətin ipək yoludur. İpək yolu, 1998 № 1, səh. 22-25, № 2, s. 36-39.
119. Vəliyev D.Ə. Türkiyənin iqtisadi quruculuq təcrübəsi respublikamız üçün daha əlverişlidir. - «Azərbaycan» 19. XII. 1992.

120. Vəliyev D.Ə. Türkiyənin müstəqil və demokratik iqtisadi quruculuq təcrübəsinin prioritetləri. İpək yolu, 2003, №3, s. 45-51.

121. Vəliyev İ., Muxtarov K. Heydər Əliyev və türk dünyası. Bakı, AzAtaM, Vergi, 2003, s. 87.

122. Vəliyev T. S və başqaları. İqtisadi nəzəriyyə. Bakı, Çaşoğlu. 1999. s. 684.

*Rus dilində:*

123. Абасов Ч.М. Основные направления формирования внешнеэкономической политики Азербайджана. Баку, Изд. Сабах, 1994, с. 53.

124. Авдошкун. Международные экономические отношения. М., Юрист, 1999, с. 366.

125. Азербайджан. Переход к стабильному развитию. Региональные исследовния Всемирного банка. Всемирный Банк. Вашингтон. Округ Колумбия 1993, с. 164.

126. Андронов В. Конкурентоспособность России в мировой экономике *МЭ и МО,* 2000, № 3, с. 47-58.

127. Ахмедов А., Гулиев Ю. Ализаде М. Развитие, транспортной системы мира. Баку, 2006 "Элм" с. 251

128. Ахмедов А. И., Мухсинова Л. Х., Азизов Р. Н., Гаджиева С. М. Международная торговля Азербайджанской Республики. Баку, Сада, 2002, с. 244.

129. Ахмедов А. И., Сасилов С. В., Мухсинова Л. Х. Развитие малого бизнеса в Азербайджане. Баку, 1999. с. 130

130. Алле М. Глобализация: разрушение условий занятости и экономического роста. Эмпирическая очевидность. М. ТЕИС, 2003, с. 314

131. Арефьева Е.Б. Развивающиеся страны Азии в мировой промышленности. Издательства "Наука", Москва, 1989, с. 224.

132. Багиров Д.А. Финансовый рынок Азербайджана и аудит. Санкт-Петербург, Изд-во СПБ, ГУУЭФ, 1997, с. 140.

133. Балацкий Е., Павличенко И. Иностранные инвестиции и экономический рос: теория и практика исследования. *МЭ и МО,* 2002, № 1, с. 52-65.

134. Батчиков С. Импортозамещающий вектор альтернативной стратегии народно-хозяйственного развития, *Российский экономический журнал,* 2002, № 3, с. 27-42.

135. Бжезинский З. Великая шахматная доска. М., Изд-во Международные отношения, 1999, с. 254.

136. Блауг М. Экономическая мысль в ретроспективе. М., Дело ЛТД, 1994, с. 687.

137. Бердсолл Н. Усиление неравенства в новой глобальной экономике. *Вопросы экономики.* 2006, №4, с. 84-90

138. Былиняк С.П. Валютные проблемы и экономический рост и развивающихся стран. М., Наука, 1979, с. 294.



139. Брайнан Твисс. Управление научно-техническим нововведениями. М. "Экономика", 1989, с. 250

140. Валютно-финансовые отношения развивающихся стран. М., 1971, Финансы, с. 205.

141. Вайнштейн Т. Информационная революция и демократия: ожидания, реальность, перспективы. *МЭ и МО,* 2003, № 7, с. 13-22.

142. Валлерстайн И. Геополитические миросистемные изменения: 1945-2025 годы. *Вопросы экономики.* 2006, №4, с. 67-84

143. Велиев Д.А. Государственные финансы и социально-экономическое развитие Турции, Б., Элм, 1991, с. 235.

143а. Об эволюции косвенных налогов в Турецкой республике. «Известия»АН Азербайджана. Серия (история, философия, права). 1989, № 9, с. 10-14.

144. Велиев Д.А. Налоги в системе государственного регулирования современной Турции. Книга: Турция: История и современность. М, Наука, 1986, с. 222-231.

145. Велиев Д.А. Турция в 80-х гг: Основные черты и некоторые итоги монетаризма. – в кн. Актуальные проблемы современной Турции. Баку, Элм, 1998, с. 93-115.

146. Велиев Д.А. Экономические проблемы Турции в правительственной программе Т.Озала. *Зарубежный мир: социально-политические экономические проблемы.* Киев, 1982, с. 50-59.

147. Вехи экономической мысли. М., Экономическая школа. Т. 1, 2, 3. 2000.

148. Внешне-экономические связи развивающихся стран Азии. Издательство Наука, Москва-1978, с. 230.

149. Вишневский В., Гричишкин А. Влияния режима налогообложения на миграцию капитала. *МЭ и МО,* 2002, №-12, с. 18-25.

150. Гаджиев Ш. Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития, Киев, Експресс-об'ява, 2000, с. 503.

151. Гараев И. Ш. и другие. Ценообразования на мировом рынке. Баку, ГЭИ, 1999, с. 305.

152. Глобализация и Россия (круглый стол) 2002, *МЭ и МО,* 2002, № 10, с. 3-22.

153. Глобализация мирового хозяйства и национальные интересы России. Пол. ред. В. П. Колесово. М., ТЕИС, 2002, с. 635.

154. Глобалистика. Энциклопедия. Изд-ва Радуга, М., 2003, с. 1328.

155. Гулиев Р.Р. Проблемы агропромышленной интеграции в СНГ. М. Издательство МСХА. 2003, с. 265

156. Джеффри Д. Сакс, Фелипе Ларрон Б. Макроэкономика. Глобальный подход. М., ДЕЛО, 1996, с. 847.

157. Джон Д. Дэниэлс, Ли Х. Международный бизнес. М., ДЕЛО ЛТД, 1994, с. 746.

158. Дилигенский Г. Глобализация в человеческом измерении. *МЭ и МО*, 2002, № 7, с. 4-16.

159. Добрынская О. Отношения Японии с крупными державами АТР. *МЭ и МО*, 2003, № 3, с. 95-101.

160. Доклад об управлении внешним долгом: описание и прогноз 1995-2005, Баку. Министерство Финансов Азербайджанской Республики. 2001, с. 69.

161. Долгов С.И. Глобализация экономики. Новое слово или новое явление. М., Экономика, 1998, с. 87-88.

162. Долгов С., Крегов И. И. Предприятия на внешних рынках. Внешнеторговое дело. БЕК., 1997, с. 769.

163. Дюмулен И.И. Барьеры на торговых путях. М., Международные отношения. 1977, с. 222.

164. Загладин Н. Глобализация в контексте альтернатив исторического развития. *МЭ и МО*, 2003, № 8, с. 3-11.

165. Загашвили В., Шишков Ю. Мировая торговля и международные инвестиции. *МЭ и МО*, 2000, № 8, с. 17-25.

166. Зевин Л. Проблемы регулирования глобальных экономических процессов. *МЭ и МО*, 2002, №7, с. 36-46.

167. Зорин В.А. Запад и Восток в мировой истории XIV-XIX вв. М., Наука, 1991, с. 350.

168. Ильхам Алиев. Каспийская нефть Азербайджана. М., «Известия», 2003, стр. 710.

169. Иохин В.Я. Экономическая теория. М., "Юриев", 2006, с. 861

170. Киреев А. Международная экономика. М., Наука, 1998, с. 415.

171. Кириченко В., Уточнение ориентиров экономических реформ. *Экономист*, 2000, № 7.

172. Классика экономической мысли. В. Петти, А. Смит, Д. Рикардо, Дж. Кейнс, М. Фридмен. Эксмо-Пресс. М., 2000, с. 895.

173. Колодко Г. Глобализация и сближение уровней экономического развития: от спада к росту в странах с переходной экономикой, *Вопросы экономики*, 2000, № 10, с. 325.

174. Коллантай В. Эволюция западных концепций глобализации, *МЭ и МО*, 2002, № 1, с. 24-31. №2, с. 32-40.

175. Кондратьев Н. Макроэкономические проблемы конкурентоспособности России. *МЭ и МО*, 2001, №3, с. 54-61.

176. Косалс Л. Российский путь к капитализму: между Китаем и Восточной Европой. *МЭ и МО*, 2000, №10, с. 14-21.

177. Кочетов Э. Г. Геоэкономика. М., Изд. БЕК, 2000.

178. Крылатых Э., Строкова О. Аграрный сектор стран с переходной экономикой и ВТО. *МЭ и МО*, 2002, № 5, с. 59-66.

179. Кругмен П.Р., Обстфельд М. Международная экономика. Теория и практика. М., Юнити, с. 769.



180. Кушлин В. XXI век и возможности расширенного воспроизводства, *Экономист*, 2000, № 2, с. 3-12

181. Крячков И. О концентрации сельско хозяйственного производства: «*Экономист*», 2006, №3, с. 85-90

182. Лаврентьев В.Н. Новые индустриальные страны Азии. Перестройка промышленной структуры. М., Наука, 1990.

183. Леонтьев В.В. Межотраслевая экономика, М., Экономика, 1997, с. 478.

184. Линдерт П.Х. Экономика мирохозяйственных связей. М., Прогресс, 1992, с. 520.

185. Ломакин В.К. Мировая экономика. М., 2000, с. 727.

186. Лисичкин В.А. Шелепин Л. А. Глобалная империя зла. Великое противостояние. М. Кримский мост. 9Д. 2001, с. 445

187. Лисичкин В.А. Шелепин Л. А. Националный интерес. Россия под властю плутократии. М., АЛГОРИТМ, 2003, с. 480

188. Мануэль Кастельс. Информационная эпоха. Экономика, общество и культура. М., ГУ ВШЭ, 2000, с. 607.

189. Маршалл А. Принципы экономической науки. М., Прогресс, 1993, том I- III.

190. Майданик К. Антиглобалистские движение – начало великой спуты XXI века, *МЭ и МО*, 2002 № 12, с. 3-11, № 11, с. 734.

191. Максимо Ф. Энг, Френсис А. Лис, Лоуренс Мауер. Мировые финансы. Москва. Издательско-консалтинговая компания. ДЕКА, 1998.

192. Мартынов В. Вызовы, реалии и шансы России. *МЭ и МО*, 2001, № 10, с. 3-9.

193. Матюхин Г.Г. Мировые финансовые центры. М., Международные отношения, 1979, с. 209.

194. Международные экономические отношения. Учебник под. ред. В. Е. Рыбалкина, М., 1998, с. 322.

195. Международные валютно-кредитные и финансовые отношения. М., Финансы и статиска, 2000, с. 605.

196. Межгосударственный статистический комитет Содружества Независимых Государств, Содружества Независимых Государств, Статистический ежегодник- 99, Москва, Статком СНГ, 2000, 2003, 2006

197. Меньшиков С. Ковая экономика. Основы экономических знаний. Изд-ва "Международние отношения". М. 1999, с. 393

198. Микаель Н. Тодоро. Экономическое развитие. - Москва, Экономический факультет МГУ, ЮНИТИ, 1997, с. 667.

199. Миклашевская Н.А., Холопов А. В. Международная экономика. М. изд. Дело и сервис. 1998, с. 13.

200. Миклашевская Н. Политика валютного курса в странах с переходной экономикой – *МЭ и МО*, 1998 № 7.

201. Мировая экономика. Под редакции Булатова А. С. М., Юристы, 2000, с. 734.

202. Мировая экономика. Экономика зарубежных стран. М., Издв-о Флинта, 2000. с. 479.

203. Мировая экономика за 100 лет. Статистическое приложение. *МЭ и МО,* 2001, № 9, с. 90-114.

204. Мусаев А.Ф. Нефтедобыча и нефтяное машиностроение: анализ взаимодействия. Баку, Изд-во Университет Азербайджан, 1997, с. 18.

205. Могутин В.Б. Банки и международный капиталистический бизнес. М., Международное отношения, 1991.

206. Мухсинова Л. Экономические проблемы развития топливно-энергетического комплекса Азербайджанской Республики. Баку, Сада, 2002. с. 359.

207. Набиев Н.А. Проблемы комплексного использования минеральных ресурсов Азербайджана. Баку, Элм, 1978, с. 106.

208. Народное хозяйство Азербайджанской ССР 70-летию Великого Октября – Статистический сборник. Баку, Азернешр, 1987, с. 322.

209. Народное хозяйство СССР в 1990 г. – Статистический ежегодник. М., Финансы и статистика, 1991, с. 750.

210. Наригани Осаму. Современная японская экономика. Баку, *«Элм ве хаят».* 2003, с. 145

211. Николос К. Сирополис. Управление малым бизнесом. М., Изд-ва "Дело", 1997, 650 с.

212. Оболенский Э. Е. Концепции международного экономического порядка. М., Мысль, 1977, с. 203.

213. Оболенский В., Глобализация мировой экономики и Россия. *МЭ и МО,* 2001, № 3, с. 23-35.

214. Основы Международных валютно-финансовых и кредитных отношений. ИНФРА, М., 1998, с. 431.

215. Опыт стран – членов ВТО по защите национальных интересов на внутреннем и внешнем рынках. (Журнал Вариант Монографического исследования), *МЭ и МО,* 2002, № 8, с. 12-122.

216. Отчет о мировом развитии. 1997, Государство в меняющимся мире, выборочные показатели мирового развития. МБРР Трайм ТАСС, с. 305.

217. От плана к рынку. Отчет о мировом развитии. – 1996, Вашингтон, МБРР, 1996, с. 311.

218. Певзнер Я.А. Государство в экономике Японии. М., Наука, 1976, с. 317.

219. Пебро Мишель. Международные экономические, валютные и финансовые отношения, перевод с франц. М., Прогресс. Универс, 1994, с. 478

220. Петров Ю. Присоединение России к ВТО: к оценке последствий и обоснованию стратегии (макроэкономические, структурные и геополитические вопросы), *Российский экономический журнал,* 2002, № 11-12, с. 16-43.

221. Плисецкий Д. Экономическая безопасноть: валютно-финансовые аспекты. *МЭ и МО,* 2002, № 5, с. 28-38.



222. Покровская В. В. Организация и регулирование внешнеэкономической деятельности. М., Юристь, 2000, с. 456.

223. Портер М. Международная конкуренция. М., Международные отношения, 1993, с. 895.

224. Развивающиеся страны, современные тенденции мировых хозяйственных отношений. Издательство Наука, Москва, 1983, с. 218.

225. Раджабли А. Теория национальной безопосности. Баку, БСУ, 2005, с. 116

226. Рымалов В.В. Структурные изменения в мировом капиталистическом хозяйстве. М., Мысль, 1978, с. 379.

227. Садыгов М.М., Зейналов В.З. и др. Рыночная экономика: финансы и налоги. Баку, Унсийиет, 2001, с. 152.

228. Самуельсон. П., Нордхаус Л. В. Экономика, М., Бином-Кно Рус, 1999, с. 799.

229. Сергеев Е. Ю. Международные экономические отношения. М., 2000, с. 327.

230. Сафаров С. Стимулы для местного производства. – Эхо, 25. 05. 2002.

231. Самедзаде З. Экономическая безопасность государства – важнейшее завоевание независимого Азербайджана – *«Игтисадиййат»* газети, 18. 10. - 1. 11. 2001.

232. Самедзаде З.А. Этапы большого пути. Экономика Азербайджана за полвека, ее реалии иперспективы. Баку, «Нурлар»,

233. Симония И. Глобализация и неравномерность мирового развития. *МЭ и МО,* 2001, №3. с. 35-45

234. Сидоренко Т. Прямые иностранные инвестиции в экономике Мевсике. *МЭ и МО,* 2002, № 11, с. 84-90.

235. Сломан Дж. Основы экономики. Учебник, М., «Издательство Проспекты». 2006, стр. 568.

236. Современный рынок капиталов под редакцией Г. П. Солюса. Москва, Финансы, 1977, с. 253.

237. Содружество независимых государств в 1997, 1999, 2002 гг. Статический справочник. М., Статком СНГ, 1998, 2000, 2003, 2006

238. Соколов В. Контуры будущего мира: нации, регионы, транснациональные общности. *МЭ и МО,* 2001, №3, с. 3.

239. Соколов В. Замыкается ли в себе развитый мир. *МЭ и МО,* 2003 №1, с. 37-46.

240. Сорос Д. Алхимия финансов. М. Инфрам, 1996, с. 410.

241. Соснин А. Тяжесть бремени государственного долга. *МЭ и МО,* 2002, № 1, с. 31-34.

242. СССР и зарубежные страны 1989. Статистический сборник. – М., Финансы и статистика, 1990, с. 335.

243. Суэтин А. 2006 год: мир сегодня и завтра. *Вопросы экономики.* 2006, №4, с. 90-104
244. Тироль Тан. Рынки и рыночная власть: теория организации промышленности. Экономическая школа, Санкт-Петербург, 2000, том 2, с. 450.
245. Торговля СССР. Статистический сборник. М., Финансы и статистика, 1989, с. 478.
246. Трейси М., Сельское хозяйство и продовольствие в экономике развитых стран. Введение в теорию, практику и политику, Санкт-Петербург, Экономическая школа, 1995, с. 431.
247. Троценко И. Д., Сельскохозяйственная политика «общего рынка», М., Издательство Мысль, с. 285.
248. Турция. История и современность. М., Наук, 1998, с. 262.
249. Тучкин Г.М. Экономическая эффективность внешней торговли. Москва, Международные отношения, 1969, с. 182.
250. Фамичев В.И. Международная торговля. М., Инфра, 1998, с. 255.
251. Фараджев Ф.А. Темпы развития и отраслевые пропорций промышленности Азербайджана. Баку, Азериешр, 1975, с. 294.
252. Фишер С., Дорнбушр, Шмалензи Р. Экономика, М., Дело, с. 829.
253. Фридман Л., Кузнецова С. Глобализация: развитие и развивающиеся страны: *МЭ и МО,* 2000, № 11, с. 9-21.
254. Хасбулатов Р.И. Мировая экономика. М., Международные отношения, 1994, с. 735.
255. Хвойник П.И. Мировая торговля и экономический прогресс развивающихся стран, издательство Международные отношения, Москва, 1974, с. 198.
256. Холотковский К. Кризис в Росси и мировые процессы. *МЭ и МО,* 2000, № 6, с. 62-72.
257. Худокормов А.Г. История экономических учений. М, Инфра, М., 1998, с. 93.
258. Хулиан И. Россия: рост бартерных сделок в переходной период. *МЭ и МО,* 2002, № 11, с. 58-67.
259. Черковец О. Глобализация сотрудничества или конкуренции?, *Экономист*, 2002, №10, с. 3-16.
260. Чугров С. Глобализация, модернизация или интернационализация? *МЭ и МО*, 2002, №4, с. 19-22.
261. Чулкова Е. Монтеррей – Новый этап в развитии МЭО. *МЭ и МО,* 2002, № 11, с. 106-109.
262. Шишков Ю. Глобализация – враг или союзник развивающихся стран. *МЭ и МО*, 2003, № 4, с. 3-15.
263. Шмелев Н.П. Всемирное хозяйство: тенденции, сдвиги, противоречия. М., Мысль, 1987, с. 222.
264. Экономическая теория. 2-ое переработанное дополненное издание. Под. Ред. А. С. Булатова. М., Изд-во БЕК, 1997, с. 620.



265. Экономика. Под. Ред. Проф. Райзенберга Б.А.М., Инфра-М, 1997, с. 480.
266. Эльянов А. К вопросу об интеграции России в мировую экономику. *МЭ и МО,* 2001, № 10, с. 10-23.
267. Экономическая энциклопедия. Политическая экономия. М. Том 1-4, 1972-1980

***İngilis və türk dillərində***

268. Alkin E. Uluslararası ekonomik ilişkiler. İstanbul. Filiz kitabevi. 1990, s. 369.
269. Aras O.N. Azərbaycan ekonomisi və yatırım imkanları. Bakü, TÜSİAB, 2005, s. 395
270. Alpar C. Çok uluslu şirketler ve ekonomik kalkınma. Ankara, Turhan kitabevi, 1980.
271. Amin Samir. Küreselleşme çağında kapitalizm. İstanbul, Sarmal yayınevi, 1999, s. 200.
272. Atatürk yolu. İstanbul, Otomarsan kültür yayını, 1981, s. 359.
273. Atatürkün soylev ve demeçileri cilt I-V, Türk İnkilap Tarihi Enstitüsü yayını, Ankara, 1945-1972.
274. Azerbaican Republic - Recent Economoc Developments. CMF Staff Country Report № 97/1. CMF, Washington. DC.
275. Azerbaican in the mirror of world statistics. Baku - 1990, p. 17.
276. Balance of Payments Textboox - International monetary fund. 1996.
277. Carl R. Beidleman, Financial Swaps, Home-wood. Dow Cones-Irwin 1985.
278. DTP. Küreşelleşme özel ihtisas komisyonu raporu. Ankara, 2000, DTP. s. 111.
279. Financial organization and Operations of the CMF. Washington, D. C. 2001. p. 207.
280. Gerhard W. Schneider, Export-Import Financing. The Ronald Press, New York, 1974.
281. Günçavdı Küçükçiftçi S. Türkiyede finansal liberalleşme surecinin başarımı. ÖDTÜ Gelişme dergisi. 2002, № 1-2.
282. Guenon Rene. Doğu və batı. İstanbul, 1991, Ağac yayıncıliq LTD. S. 213.
283. Haydar Bas. Milli Ekonomi Model. Istanbul 2005, Icmal yayim evi. s. 334
284. International Monetar Fund. Internationalfinancial statistices. YEARBOOK, 2007, p. 624
285. İşgüden T., Akyüz M. Uluslararası iktisad. İstanbul, Evrim kitabevi. 1995, s. 145.
286. İyibozkurt E. Uluslararası iktisat. Teori ve politika. Bursa, Ezgi kitabevi yayınları, 1995, s. 391.
287. Kalra S. And T. Slok. Inflation and Growth in Translation: Are the Asian Economics Different? // World Bank Working Paper. 1999, № 118, p. 24.

288. Karluk R. Uluslararası ekonomi. İstanbul, Remzi kitabevi 1991.

289. Kazqan G. İktisadi düşünce ve ya politik iktisadi gelişimi. Ankara, Remzi kitabevi, 1989, s. 495.

290. Kılıçbay A. Türk ekonomisi. Ankara, İstanbul Universitesi İktisad fakültesi, 1985, s. 279.

291. Leland B. Yeager. International Monetary Relations: Theory, History and Policy. Harper and Row. 1966.

292. Lewis Bernard. Modern Türkiyənin doğuşu. Ankara, Türk Tarih Kurumu Basımevi, 1991, s. 505.

293. Nemli A. Gelişmekde olan ölkelerde vergi politikası. İstanbul, Y. Güryay matbaası. 1979, s. 203.

294. Maurice D. Levi and Soseph Zechner, Robert Z. Aliber. Handbook of International Financial Management, Richard Irvin-Dow Iones, New-York, 1989.

295. Maurice D. levi, International Finance, 2nd ed., McGraw-Hill, 1999, p. 515.

296. Mesaroviç M. ve Pestel E. Dönüm noktasındakı insanlık (Roma, Kulübüne ikinci rapor) İstanbul, Fatih yayınevi, 1978. s. 184.

297. C. Michalopoulos. The İnteqration of Transition Ekanomics into the World Tradinq System Woqkinq Paper- 2182. - Sept. 1999. - 38 pp.

298. Ogan S. Azərbaycan. İktisadi bünyəsi. İstanbul, Türk dünyası Araştırmalar Vaqfı. 1992, s. 200.

299. Qocatürk İ. Atatürk. Bakı, Elm, 1991, s. 209.

300. Richard N. Cooper, The International Monetary system. Essays in World Economics. MCT Press, 1987.

301. Selcuk H. yeni yüzyılda Azərbaycanın Sosyo-Ekonomik yapısı. İstanbul, "Tasam yayınları", 2004, s. 205

302. Seyidoğlu Ş. Uluslararası finans. İstanbul, "Güzem yayınları", 1994.

303. Seyidoğlu Ş. Uluslararası iktisat: teori, politika və uyğulama, İstanbul, Güzem yayımları, 2003. c. 663.

304. Statistik göstergeler. 1923-1992. Ankara, DİE, 1993, s. 435.

305. Türk C. Maliye Politi Kası. Ankara, 1992, s. 377.

306. Türkiyə 2002, "Ankara Nural matbaası ve Ambalac Sanayesi", s. 501.

307. Tamer Mültioğlu. Türkiyede küçük və orta işlətmələr. Ankara, 1990, s. 200

308. Yeddinci beşillik kalkınma planı (1996-2000) Ankara, DPT yayınevi, 1995, s. 307.

309. Veliev D.A. The Silk Road-2000. New stage in the world development. The Silk Road, 1998, № 4, p. 29-33.

310. Veliyev D. Türk Cumhuriyyətləri arasında ekonomik iş birliyi: sorunlar, prespektivler - Avrasiya Dosyası. Azerbaycan özel. 2001, cilt 7, №1, s. 86-109.

311. Veliyev D.A. İnsanligi refaha ve huzura kavusdurmayi hedefleyen proce. Milli Ekonomi Modeli Konqresi. 26-27 noyabr 2005, Istanbul, 2005, s. 223-233



***Dövrü mətbuat***

312. «Azərbaycan» (qəzeti) 1993-2007

313. Azərbaycanın Beynəlxalq Bankı. İllik hesabat. 1998-2007.

314. Azərbaycan MEA. İqtisadiyyat xəbərləri. 1993-2007.

315. Banklar və Biznes. İnformasiya-analitik jurnalı. 2007.

316. Dirçəliş. Azərbaycan iş dünyası dərgisi. 2007

317. İqtisadiyyat və həyat. 2000-2007.

318. «İqtisadiyyat» qəzeti. 2000-2007.

319. İpək yolu. 1997-2007.

320. İqtisad elmləri: nəzəriyyə və praktika. 1994-2007.

321. «Xalq qəzeti». 1993-2007.

322. 525-ci qəzet.

323. Вопросы экономики. 1995-2007.

324. "Известия. Финансовые известия". Совместное издание. Finansial Taymes». 1995-2007

325. Мировая экономика и международные отношения, (МЭ и МО ) 1993-2007.

326. Общество и экономика 2000-2007.

327. Azərbaycan Milli Bankının hesabatı. 2000-2007

328. "Российский экономический Журнал". 2000-2007

329. "Эхо". 2001-2006

330. Народы Азии и Африки 2001-2007.

331. Проблемы теория и проктики управления. 2007-2008

332. World trade. All free traders now? "The Economist December". 1996

333. İnternet

334. www. finiz. ru

335. www. un. org.

336. www. imf. org.

337. www. wb. org

338. www. economy. gov. az.

339. www. taxes. gov. az.

340. www. invest-in Azerbaycan. com.

341. www. cbs. nl/isi

342. www. ft. com.

343. www. economicsbulletin. com. (ing. dil).

344. www. econ. upenn. edu (ing. dil).

345. www. financy. ru.

346. www. /2kapita/com.

347. www. market-news com.

348. www. rbc. ru. RBK - RİA «Ros Biznes Konsaltinq»

349. www. economist. Com. (ing. dil). Economist curnal.

350. www. forex. com. (ing. dil).

351. www. maliyye. gov. az - Maliyyə Nazirliyi

352. www. eco. gov. az – Ekologiya və Təbii Sərvətlər Nazirliyi
353. www. mot. gov. az – Nəqliyyat Nazirliyi
354. www. agro. gov. az – Kənd təsərrüfatı Nazirliyi
355. www. socar. gov. az – Dövlət Neft Şirkəti
356. www. oilfund. az – Dövlət Neft Fondu
357. www. azstand. gov. az – Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi
358. www. nba. az – Milli Bank
359. www. az-customs. net – Dövlət Gömrük Komitəsi
360. www. mdm. az – Milli Depozit Mərkəzi
361. www. bse. az – Bakı Fond Birjası
362. www. president. az – Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı
363. www. meclis. gov. az – Milli Məclis
364. www. cabmin. gov. az – Azərbaycan Respublikası Nazirlər Kabineti
365. www. mfa. gov. az – Xarici İşlər Nazirliyi
366. www. economy. gov. az – İqtisadi İnkişaf Nazirliyi
367. www. azstat. org – Dövlət Statistika Komitəsi



**Dünyamalı Vəliyev**
**(Dünyamalı Əmir oğlu Vəliyev)**

**Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası**

Texniki redaktor:
**Nuriyyə Şirinova,**
**Səadət Vəliyeva**

Dizayner:
**Sənan Gülalıyev**

Kompyuter tərtibatçısı:
**Sədaqət Kərimova**

Yığıcı:
**Çiçək Quliyeva**

Çapa imzalanmışdır: 08.09.2008
Kağız formatı: 70x100 1/16
Həcmi: 26.75 ç.v.
Sifariş: 307
Sayı: 500

Kitab «ADİLOĞLU» nəşriyyatında nəşrə hazırlanmışdır.
Ünvan: Bakı şəh., S.Rəhimov küç., 195/17
Tel.: 498-68-25; 418-68-25; faks: 498-08-14;
Web: www.adiloglu.az; E-mail: info@ adiloglu.az

«İlay» MMC-nin mətbəəsində hazır diapozitivlərdən
istifadə olunmaqla ofset üsulu ilə çap edilmişdir.
Ünvan: Bakı şəh.,Şərifzadə küçəsi, 202
Tel.: 433-00-43

УЗ(2А)
V-56



Vəliyev Dünyamalı Əmir oğlu 13 mart 1942-ci ildə Borçalı mahalında anadan olmuş, 1964-cü ildə BDU-nun "İqtisadiyyat" fakultəsini bitirmişdir. Bir müddət bank sahəsində işlədikdən sonra, 1971-ci ildə iqtisad elmləri namizədi elmi dərəcəsini almış və elmi-pedaqoji fəaliyyətə başlamışdır. AMEA-nın Şərqşünaslıq institutunda baş elmi işçi, şöbə müdiri, elmi işlər üzrə direktor müavini vəzifəsində işləmişdir. 1993-94-cü illərdə Azərbaycan Respublikası Nazirlər Kabinetində Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri olmuşdur. 1995-ci ildən Azərbaycan Universitetində İqtisadiyyat kafedrasının müdiri və "İpək Yolu" jurnalının Baş redaktoru müavinidir. Eyni zamanda AMEA-nın Şərqşunaslıq İnistitutunda Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin aparıcı elmi işçisidir.

10 kitab və yüzdən çox məqalənin müəllifidir.